# HEYDƏR ƏLİYEV –
# ALİ SOVETİN SƏDRİ

## (3 CİLDDƏ)

## II CİLD

*(Parlament iclaslarının stenoqramları.*
*27 iyul – 17 avqust 1993-cü il)*

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN NƏŞRİ

**BAKI – 2023**

**Məsul redaktor:** **Sahibə QAFAROVA,**
*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

**Tərtibçi redaktor:** **Mehman QAİBOV,**
*Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri*

**H 03(23)** **Heydər Əliyev – Ali Sovetin sədri. – Bakı, "Azərbaycan Nəşriyyatı" MMC, 2023 – 454 s.**

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, sağlığında canlı əfsanəyə çevrilmiş görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi münasibətilə nəşr olunan bu kitabın II cildində Azərbaycan Respublikası Milli Məclisinin 27 iyul – 17 avqust 1993-cü il tarixli iclaslarının stenoqramları dərc olunub.

Kitab siyasətçilər, tədqiqatçılar, Azərbaycan parlamentarizm tarixi ilə maraqlanan şəxslər və geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

H $\frac{4804000000\text{-}003\ (2023)}{M670(07) – 2023}$ **Sifarişlə**

**ISBN 978-9952-33-049-6**

**© "Azərbaycan Nəşriyyatı" MMC, 2023.**

100

*"Mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".*

***Heydər ƏLİYEV***



*"1993–2003-cü illər ərzində Azərbaycanın dövlətçiliyi quruldu. Azərbaycanın inkişaf strategiyası müəyyən olundu... Bütün ölkələrlə xarici əlaqələrimiz qarşılıqlı hörmət və maraqlar əsasında qurulubdur və bu gün də bu belədir. Azərbaycanda 1993-cü ildən başlanmış və bugünə qədər davam edən iqtisadi və siyasi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı. Bu gün Azərbaycan həm iqtisadi, həm də siyasi cəhətdən çox sürətlə inkişaf edən ölkədir. Bu islahatlar bu gün də davam edir. Azərbaycanda güclü sosial siyasətin əsasları da məhz o illərdə qoyulubdur. Ona görə Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir".*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



# *Stenoqramlar*

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASI

*27 iyul 1993-cü il*

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri* ***Heydər Əliyev*** *sədrlik edir*

**Sədrlik edən.** Axşamınız xeyir, hörmətli Məclis üzvləri, hörmətli deputatlar. Xahiş edirəm, qeydiyyatdan keçək.

***(Qeydiyyat)***

37 Məclis üzvü iştirak edir. Yetərsay var. İclası başlamağa imkan var.

Məclisin iyul ayının 16-da, 17-də keçirilən iclaslarında bizim gündəlikdə bir məsələ də var idi. Bildiyiniz kimi, müzakirə olunan məsələlər çox vaxt aldığına görə, iki gün çox gərgin mübarizə keçdi, o məsələni müzakirə etmək mümkün olmadı. O, Minsk konfransının nümayəndə heyəti ilə görüşlərimizin yekunları haqqında idi. Ondan sonrakı dövrdə bu sahədə daha da əlavə işlər görülmüşdür. Ümumiyyətlə, bizim Qarabağ bölgəsində gedən müharibə ilə əlaqədar dəyişikliklər də əmələ gəlmişdir. Ona görə də gündəlikdə olan həmin məsələni və ondan sonra baş vermiş hadisələri, dəyişiklikləri nəzərə alaraq gündəliyə belə bir məsələnin daxil olunması təklif olunur: Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Əliyevlə ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının sədri Mario Rafaellinin arasındakı danışıqların yekunları, döyüş bölgələrində son vaxtlar yaranmış vəziyyət və Ağdam şəhərinin işğalı ilə əlaqədar keçirilən tədbirlər haqqında. Mən keçən dəfə belə başa düşdüm ki, təklif var, gündəliyi təsdiq etmək üçün məsələlər bir-bir səsə qoyulsun. Ona görə də 1-ci məsələ budur. Kim bu məsələnin gündəliyə daxil olunmasının tərəfdarıdırsa, xahiş edirəm, münasibətini bildirsin.

***(Səsvermə)***

Qəbul olunur. 34 nəfər lehinə səs verib.

2-ci məsələ İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikasının Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədədir. Dövlət quruculuğu və hüquq siyasəti komissiyası bu məsələni hazırlayıb. Bu məsələnin

gündəliyə daxil... Bu, 3-cü məsələ idi, bağışlayın. Bunu daxil edək, sonra mən ikincini təqdim edərəm. Kim bu məsələnin gündəliyə daxil olunmasının tərəfdarıdırsa, xahiş edirəm, münasibətini bildirsin.

*(Səsvermə)*

Qəbul olunur. Bu, 3-cü məsələ idi. Mən 2-ci məsələni demək istəyirəm. "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədədir. Dövlət quruculuğu və hüquq siyasəti komissiyası bunu təqdim edir. Kim bu məsələnin gündəliyə daxil olunmasının tərəfdarıdırsa, xahiş edirəm, münasibətini bildirsin.

*(Səsvermə)*

Qəbul olunur.

4-cü məsələ "Sığorta haqqında" Azərbaycan Respublikası Qanununa əlavələr edilməsi barədədir. Kim bu məsələnin gündəliyə daxil olunmasının tərəfdarıdırsa, xahiş edirəm, münasibətini bildirsin.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli? Bu məsələ barəsində? Buyurun.

**Tofiq Əzizov.** Xahiş edirəm, bu məsələ gündəlikdən çıxmasın, ancaq bugünkü iclasın müzakirəsindən çıxsın, çünki axırıncı oxunuşda komissiyada baxdıq. "Milli Bank haqqında" Qanunla ziddiyyət var. Birinci gün komissiyanın iclasından sonra bir də baxıb xahiş edəcəyik ki, bu, Məclisin iclasına verilsin. Xahiş edirəm, bu gün 4-cü məsələ müzakirə olunmasın.

**Sədrlik edən.** Bu məsələ İqtisadiyyat komissiyası tərəfindən təklif olunub? Bir halda ki komissiyanın sədri belə təklif verir, onda, yəqin ki, razılaşmaq olar. Gündəliyə salınsın, ancaq bu gün müzakirə olunmasın. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda, xahiş edirəm, məsələnin gündəliyə salınmasına münasibət bildirilsin.

*(Səsvermə)*

Qəbul olundu.

5-ci məsələ. Azərbaycan Respublikasının BMT-nin "Yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə aid minimal standart qaydaları"na qoşulması barədə Dövlət quruculuğu və

hüquq siyasəti komissiyası təklif edir. Bu məsələnin gündəliyə salınması barədə, rica edirəm, münasibət bildirilsin.

*(Səsvermə)*

Qəbul olundu.

Bizim keçən iclasımızda bir məsələ də gündəliyə salınmışdır. Yalnız, yenə də qeyd edirəm, o iclasda biz o məsələlərin bir hissəsini müzakirə edə bilmədik, o məsələ qalıbdır. Onun bir daha gündəliyə salınması, şübhəsiz ki, ola bilər, bu gün də olmasa, gələn iclasda müzakirə olunması təklif olunur. Azərbaycan Respublikasının Ali Sovetinə Azərbaycan Respublikası Ali Məhkəməsi üzvlərinin müraciəti haqqında məsələni keçən dəfə gündəliyə salmışdıq, təsdiq olunmuşdu. Ancaq gündəliyə bir daha salınması barədə, xahiş edirəm, münasibət bildirilsin. Buyurun.

*(Səsvermə)*

Qəbul olundu.

7-ci məsələ. Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında Azərbaycan Respublikasının qanun layihəsini Sosial siyasət komissiyası təqdim edib. Bu məsələ barədə də, xahiş edirəm, münasibət bildirilsin.

*(Səsvermə)*

Kimsə səs verməyib? Ola bilməz, bizdə 38 nəfər iştirak edirdi, buradan belə çıxır ki, səsvermədə 32 nəfər iştirak edir. Kimsə səs verməyib, onda, rica edirəm, bu məsələni təkrar səsə qoyaq. Təkrar səsə qoyulur, xahiş edirəm, münasibət bildirilsin.

*(Səsvermə)*

Qəbul olundu. Beləliklə, gündəlik təsdiq olundu.

Bağışlayın, mən sizə söz verəcəyəm. Məclisin keçən iclasından sonra respublikamızın həyatında müəyyən hadisələr baş vermiş, cəbhə bölgələrində qanlı döyüşlər olmuş, təəssüf ki, Ermənistanın silahlı qüvvələrinin hücumları nəticəsində bizim bir neçə mövqelərimiz itmişdir və Ağdam şəhəri işğal olunmuşdur. Bu döyüşlər zamanı Azərbaycan Respublikasının döyüşçüləri, ordumuzun əsgərləri, zabitləri, yerli əhalidən tələf olanlar, şəhid olanlar olmuşdur. Rica edirəm, vətənimizi, torpağımızı müdafiə edərkən, qoruyarkən həlak olanların, şəhid olanların xatirəsini bir dəqiqə sükutla yad edək.

Allah rəhmət eləsin!

Müzakirəyə başlamaq olar. Ancaq görürəm ki, burada Məclis üzvlərindən söz istəyənlər var. Bu, gündəliklə əlaqədardır, müzakirə ilə əlaqədardır, ya nə?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Əzizov, Siz danışmaq istəyirdiniz. Buyurun, Tofiq Əzizov.

**Tofiq Əzizov.** Heydər müəllim, deməli, mən xahiş edirəm, elektron qrupuna sərəncam verilsin, maşına dəyişiklik edilsin, çünki indi yetərsay 34 deyil, 32-dir. Yetərsay 32 nəfərdir, hazırda maşında yetərsay 34-dür.

**Sədrlik edən.** Katiblik arayış versin.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli? Yaxşı, aydın oldu.

Rauf İsmayılov, buyurun.

**Rauf İsmayılov.** Hörmətli sədr! Bəlkə də, bu ikilikdə görüşüb həll olunan məsələdir, amma Sizi görmək o qədər də mümkün deyil. Ona görə xahiş edirəm, bir şeyi nəzərə alasınız və bizə icazə verəsiniz, gələn dəfə məsələni gündəliyə çıxaraq. Bu, Azərbaycan dili və türk dili məsələsidir. Sizin adınıza yüzlərlə teleqram, məktub daxil olur. Bilmirəm, Sizin bundan xəbəriniz varmı. Onlar hamısı mənim üstümə göndərilir. Demək, bu türk dili məsələsi o vaxt da düzgün qəbul olunmayıb, yetərsay olmayıb. Konstitusiya qanunu olduğuna görə 34 səslə qəbul olunmalı idi, 27 səslə qəbul olunub. Bu, respublikada olan müxtəlif milli azlıqlara, etnik qruplara hörmətsizlikdir. Ona görə də xahiş edirlər ki, bu məsələyə yenidən baxılsın. Bizim komissiya bu məsələyə baxıb. Ona görə rəsmi şəkildə Milli Məclisin rəyini, xahiş edirəm ki, gələn dəfə Milli Məclisin gündəliyinə daxil edəsiniz. Çox sağ olun.

**Sədrlik edən.** Bilirsiniz, komissiyanın hər bir məsələyə baxıb onu Məclisin iclasına hazırlamağa səlahiyyəti var və bu barədə xüsusi bir göstəriş, yaxud razılığa ehtiyac yoxdur. Bu problem, doğrudan da, Azərbaycanda, müəyyən cərəyanların inkişaf etməsinə səbəb olub. Bu barədə mən də bəzi yerlərdə öz fikrimi demişəm. İndi belə teleqramların və Ali Sovetə müraciətlərin olması da təbii haldır. Komissiyanın səlahiyyəti var ki, bütün bu məsələləri öyrənsin, hazırlasın və öz təklifini versin. Komissiya təklif verəndə, şübhəsiz ki, onun gündəliyə salınması məsələsi problem olmayacaq.

**Rauf İsmayılov.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Komissiya qəbul olunmuş hər bir məsələ haqqında yenidən öz fikrini deyə bilər. Buyurun. Mən etiraz etmirəm, ancaq burada bir qərar qəbul eləməyəcəyik ki? Əgər belə təkliflər varsa, mən bilirəm, vardır, komissiya işləsin, öz təkliflərini hazırlasın, təqdim etsin.

Buyurun, Məclis üzvü Əzimov.

**Hacıbaba Əzimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Həqiqətən, Rauf İsmayılovun qaldırdığı məsələ çox ciddi məsələdir, bütün əhalinin maraqlandığı və həqiqətən, düzgün münasibət tələb olunan bir məsələdir. O vaxt seçkilərin nəticələri düzgün nəzərə alınmadı, yəni o vaxt "yumşaq səsvermə" deyilir, yumşaq səsvermə keçirilmişdi. Üç təklif olmuşdu, bunlardan hansı çox səs alsa idi, o keçməli idi. O vaxt şəxsən mənim verdiyim təklif keçmişdi. Ona görə də mənə elə gəlir ki, bu məsələni təzədən müzakirə deyil, sadəcə olaraq, səsvermənin nəticələrinin mətbuatda düzgün elan olunmamasını yoxlamaq üçün, ola bilər, Milli Məclis ayrıca komissiya müəyyən eləsin ki, səsvermənin necə keçdiyini, nəticələrin düzgün hesablanıb-hesablanmadığını yoxlasın. Bu barədə Milli Məclisə komissiya məlumat versin, bununla da məsələ yekunlaşdırılsın. Yaxud da Milli Məclis ayrıca Təhsil, elm və mətbuat komissiyasına tapşırsın ki, bu məsələni özü yoxlasın və Milli Məclisə çıxarsın. Mənim bu məsələyə fikrim belədir.

İkinci. Heydər müəllim, mən bir məsələni də burada qeyd etmək istəyirəm. Bu saat xalqı ən çox düşündürən, ən çox narahat edən və bizim üçün, gələcəyimiz üçün çox vacib məsələ təhsillə bağlı problemdir, təhsil məsələsidir. Təəssüf ki, bu məsələdə çox böyük çətinliklər meydana gəlib və müəyyən yerlərdə təhsil sisteminin, ümumiyyətlə, pozulmasına aparan hərəkətlərə yol verilir. Milli Məclisin qəbul etdiyi qanun pozulur, Milli Məclisin tövsiyələri ilə razılaşdırılmır və müəyyən özbaşına hərəkətlər olur ki, bu da, mən hesab edirəm, ümumiyyətlə, təhsilin gələcəyi üçün böyük çətinliklər yaradacaq. Bəlkə də, bu, gələcəkdə, bir növ, faciə ilə nəticələnə bilər. Bunu ya Milli Məclisin gündəliyinə salaq, ya da "cari məsələ" deyilən yarım saatlıq müzakirələrimiz olur, bizdə belə ənənə, qayda var. Bu yarımsaatlıq müddətdə biz, heç olmasa, bu məsələni müzakirə edək və meydana çıxan problemlərə Milli Məclisin münasibətini bildirək. Sağ olun.

**Sədrlik edən.** Mən belə başa düşürəm ki, 1-ci məsələ haqqında artıq aydındır. Bizim Ali Sovetin, Milli Məclisin komissiyası öz təkliflərini

hazırlayar. Əgər səsvermədə, doğrudan da, saxtakarlıq olubsa, komissiyanın bunu aydınlaşdırmağa imkanı var. Aydınlaşdırıb öz təkliflərini Milli Məclisə təqdim edə bilər.

Təhsil barəsində, təhsil məsələlərinin təşkil olunması ilə bağlı, doğrudan da, müəyyən gərginlik var. Güman edirəm ki, bizim komissiya bu barədə də öz təkliflərini verən kimi bu məsələni, lazım olsa, yaxın vaxtlarda Milli Məclisdə müzakirə edə bilərik.

Mürşüd Məmmədov, buyurun.

**Mürşüd Məmmədov.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Rusiya hökumətinin pul nişanlarının dəyişdirilməsi haqqında qərar keçmiş SSRİ-nin bütün bölgələrində olduğu kimi, Azərbaycanda da birmənalı qarşılanmayıb və bu, haqlı olaraq əhali arasında çaşqınlıq yaradıb. Odur ki mən istəyirəm, bu gün Milli Məclisin gündəliyinə respublika hökumətinin pul nişanlarının dəyişdirilməsi ilə bağlı həyata keçirəcəyi tədbirlər barədə məsələ daxil edilsin. Qərarı eşitmişik. Xahiş edirəm, Siz əlavə edəsiniz. Qərarda, məsələn, on min rublun dəyişdirilməsi haqqında məsələ var, bu da birmənalı qarşılanmır. İndi bu, ali qanunverici orqandır və mən istəyirəm ki, bu məsələ gündəliyə əlavə olunsun, Milli Məclis bununla bağlı əhalini narahat edən problemlərə, suallara cavab versin, bu çaşqınlıq aradan qalxsın. Sağ olun.

**Sədrlik edən.** Hesab edirəm ki, Mürşüd Məmmədovun bu təklifi tamamilə haqlı təklifdir. Biz dünən bu barədə Nazirlər Kabinetinin rəhbər şəxsləri ilə müzakirə apardıq. Mən rica etmişdim ki, onlar bu qərarı Milli Məclisin təsdiqinə təqdim etsinlər, təəssüf ki, bunu etməyiblər. Mən, Vahid Əhmədov və Rəsul Quliyev – biz onlarla birlikdə maliyyə işçilərini, bank işçilərini dəvət etmişdik. Bu məsələni müzakirə etdik, o qərarın qəbul olunması haqqında ümumi fikrə gəldik. Ancaq mən dünən Vahid Əhmədovdan xahiş etdim ki, bu qərarı mütləq Milli Məclisin bugünkü müzakirəsinə təqdim etsinlər. Təəssüf ki, bunu etməyiblər, qərar Nazirlər Kabineti tərəfindən qəbul olunub. Ancaq bu, çox böyük prinsipial bir məsələ olduğuna görə Milli Məclis buna münasibətini bildirməlidir. Mən güman edirəm ki, bu məsələ Milli Məclisin gündəliyinə salınmalıdır. Qərar var və Məclis üzvləri onunla artıq tanışdırlar. Məclis bu qərara öz münasibətini bildirə bilər. Kim bu məsələnin gündəliyə salınmasının tərəfdarıdırsa, xahiş edirəm, münasibətini bildirsin.

***(Səsvermə)***

Qəbul olundu. Demək, bu məsələ də gündəliyə daxil olunur.

Xeyrulla Əliyev buyursun.

**Xeyrulla Əliyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən 1-ci məsələ ilə əlaqədar münasibətimi bir daha bildirmək istəyirəm. Hörmətli sədr, mən də o vaxt dil məsələsinin, yəni dilin adı haqqında Milli Məclisin vaxtilə qəbul etdiyi qərarın əleyhinə idim. Sonra komissiyalarda da əleyhinə olmuşdum. Bu gün də Afiyəddin Cəlilovun yanında keçirilən bir müşavirədə də fikrimi və bununla əlaqədar daxil olmuş teleqrama münasibətimi bildirmişəm. Mən bunu birdən-birə bu şəkildə Milli Məclisə çıxarmağın əleyhinəyəm. Sabah, birisigün başqa qanunlar haqqında da belə fikirlər meydana gələcək. İctimaiyyəti buna hazırlamaq üçün, yaxşı olardı ki, ya komissiyanın sədri ilə, ya da Milli Məclis sədrinin müavinlərindən biri ilə televiziya, qəzet vasitəsilə müsahibə təşkil olunsun.

Ümumiyyətlə, indiyədək qəbul olunmuş qanunlara münasibət bildirmək olar. Elə qanunlar var ki, onlarda Konstitusiya maddəsi olduğu üçün kifayət qədər qayda gözlənilməyib. Bu, qəzetdə, mətbuatda müsahibədə işıqlandırılsın. Elə vəziyyət yaranmasın ki, biz özümüz qəbul etdiyimiz qanunlara hörmətsiz yanaşaq. Müəyyən qədər işıqlandırılsın, ictimaiyyət hazırlansın, birdən-birə 180 dərəcə dəyişməyək. Yəqin ki, başqa qanunlara da qayıdası olacağıq. Ona görə mən təklif edərdim ki, birdən-birə Milli Məclisə çıxmasın. O, əvvəlcə, dediyim kimi, televiziya vasitəsilə, mətbuat vasitəsilə müsahibələrdə işıqlandırılsın, ictimaiyyət buna hazırlansın. Daha yaxşı əsaslandıra bilərlər. Bir sözlə, cəmiyyət hazırlansın, ondan sonra müzakirəyə çıxarılsın. Sağ olun.

**Sədrlik edən.** Xeyrulla müəllim, mən burada komissiya bu işlə məşğul olsun deyəndə bu o demək deyil ki, biz bunu birdən-birə Məclisin müzakirəsinə çıxaracağıq. Bu, birinci. İkinci, bir halda ki bu məsələ haqqında fikir mübadiləsi gedir, bizim, ümumiyyətlə, tarixən ən böyük bəlalarımızdan biri ondan ibarət olub ki, özümüzü bir kənar mövqedən dərhal o biri kənar mövqeyə atmışıq. Bu, bugünkü bəla deyil, dünənki bəla deyil, bizim tarixi keçmişimizin bəlasıdır. Əgər biz elə əsrin əvvəlindən tariximizə nəzər salsaq, bunun şahidi ola bilərik və bunu, yəqin ki, burada oturanların əksəriyyəti də bilir. Ona görə mən Məclis üzvlərinə tövsiyə edərdim və bütün bizim bu işlərlə məşğul olan şəxslərə, o cümlədən əhaliyə də müraciət edərdim ki, gəlin, bu cür bir tərəfdən o biri tərəfə yönəlmək, bir qütbdən o biri qütbə dərhal atılmaq, yoxlamamış, araşdırmamış, yəqin etməmiş, kiminsə subyektiv fikirləri əsasında qərarlar qəbul etmək işindən əl çəkək. Bu, keçmişdə də olub, təəssüf

ki, bu son dövrdə, müstəqilliyimizi əldə etdiyimiz dövrdə də mövcuddur. Əgər iki ay, üç, dörd ay bundan qabaq bir səhv buraxılıbsa, doğrudan da, bəlkə bəzi səhv cərəyanların meydana çıxmasına səbəb olubsa, dərhal bir qütbdən o biri qütbə atılmağın tərəfdarı deyiləm. Hər halda, səbir, təmkin, hər bir məsələyə çox diqqətlə, çox məsuliyyətlə yanaşmaq lazımdır. Mən belə fikirdəyəm.

Buyursun Sabir Rüstəmxanlı.

**Sabir Rüstəmxanlı.** Hörməli millət vəkilləri! Respublikamızda yaranmış vəziyyətlə bağlı bizim Milli Məclisin yığıncaqları, onsuz da, vaxtında keçirilmir. Bu seyrək keçirilən yığıncaqlarda da vaxtımızın bir hissəsini ikinci, üçüncü dərəcəli məsələlərə həsr eləməyimiz mənə qəribə gəlir. Gündəlik var və gündəliyin 1-ci məsələsi respublikanın bu dəqiqə ən ağrılı problemi ilə bağlıdır. Ağdam rayonunun işğalından sonra respublikada yaranmış vəziyyət. Torpaq əldən gedir, dövlətçilik təhlükə altındadır. Hamımız, bütün millət həyəcan içindədir, millətin bir hissəsi küçələrdə, çöllərdə evsiz-eşiksiz qalıb. Burada isə dil məsələsi, dilimizin adı necə olsun. Sabah bunu müzakirə edək. Mənə elə gəlir, bu məsələlər süni şəkildə ortaya atılan söhbətlərdir ki, diqqəti əsas məsələlərdən yayındırır.

Milli Məclisin qaydası var, bütün yığıncaqlardan sonra cari məsələlər üçün yarım saat vaxt verilir. Komissiyaların imkanları var ki, bu məsələləri öyrənsinlər, müzakirə eləsinlər, xalqın rəyini öyrənsinlər və sonra gətirib müzakirəyə çıxarsınlar. Ona görə mən, yenə deyirəm, bu gün əlavə, ikinci, üçüncü, beşinci dərəcəli, haradasa elmi araşdırma, vaxt tələb edən məsələləri gətirib tələsik ortaya atmayaq. Bu gün burada hamını narahat edən 1-ci məsələnin müzakirəsinə başlayaq.

**Sədrlik edən.** Doğrudur.

Cümşüd Nuriyev, buyurun.

**Cümşüd Nuriyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Keçən dəfə xatirinizdədirsə, Gəncə hadisələri ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə etimadsızlıq göstərmişdilər və Milli Məclis Ali Məhkəməyə bir həftə vaxt vermişdi. Artıq 10 gün vaxt keçir, həmin məsələ gündəlikdə nəsə yoxdur. Bəlkə də, yaddan çıxıb.

İkinci məsələ. Mən keçən dəfə yenə dedim. Təklif verilmişdi. Hər halda, bu məsələ axıra qədər aydınlaşdırılmayıb.

Hörmətli sədr, keçən dəfə də mən dedim, nəsə o da diqqətdən kənarda qaldı. Türkiyə, demək olar ki, Azərbaycanın bütün daxili işlərinə

qarışır, səlahiyyəti olmayan adamlar dövlət səviyyəsində Türkiyədə görüşlər keçirir, Azərbaycan məsələlərini həll edir, hətta Türkiyənin Baş naziri BMT-yə müraciət edib. Düzdür, Azərbaycanın razılığı olmalıdır. Axı burada bizim xarici işlər üzrə dövlət müşaviri var. Hər gün televiziyaya çıxır, hər şey barədə danışır, amma bircə bu məsələlərə toxunmur. Hər halda, bu, Azərbaycanın daxili işidir. Baxmayaraq ki böyük hörmətimiz var, amma Türkiyənin Azərbaycanın daxili işinə bu dərəcədə qarışmasına heç kim səlahiyyət və ixtiyar verməyib. Mən xahiş edirəm, bu məsələ ilə bağlı Azərbaycanın ya Xarici İşlər Nazirliyi, ya da dövlət müşaviri öz münasibətini bildirsin. Bu, baş alıb gedir. Türkiyə mətbuatı artıq nə gəldi, hər şey yazırlar. Mən xahiş edirəm, bu məsələ gündəliyə salınmasa, müzakirə olunmasa da, heç olmasa, münasibət bildirilsin. Sağ olun.

**Sədrlik edən.** Birinci, Sizin qaldırdığınız məsələ – Azərbaycanın Prezidenti Əbülfəz Elçibəyə etimadsızlıq bildirilməsi haqqında – bəli, bu barədə iyul ayının 16-da və 17-də keçən iclaslarda təkliflər oldu. O vaxt biz belə razılığa gəldik ki, bu məsələdə bir balaca tələsməyək, fikirləşib təkliflərimizi verək. Yəqin ki, bu günlərdə biz bu təklifləri verərik. Dözmüşük, bir az da dözə bilərik.

İkincisi, Türkiyənin bizim daxili işlərimizə qarışması. Mən bilmirəm, söhbət nə barədə gedir. Türkiyədə mətbuat azaddır. Bəzən mətbuatda elə şeylər yazırlar ki, onlar böhtan xarakteri daşıyır, ancaq Türkiyənin mətbuatına biz heç bir şey edə bilmərik. Ancaq dediniz ki, Baş nazir Birləşmiş Millətlər Təşkilatına müraciət edib. Bununla Siz nəyi nəzərdə tutursunuz? Mən bilmədim. Buyurun.

**Cümşüd Nuriyev.** Türkiyənin Baş naziri BMT-yə müraciət edib ki, Azərbaycana BMT-nin qüvvələri yeridilsin. Bu, Azərbaycanın daxili işinə qarışmaqdır. Bu, Azərbaycan parlamentinin bilavasitə səlahiyyətindədir. İkincisi, indi mən bilmirəm, əgər Azərbaycanın daxili işinə qarışmırsa, nə üçün bircə Türkiyənin Baş nazirini qəbul eləməyib? Azərbaycanın sabiq dövlət katibi orada dövlət səviyyəsində danışıqlar aparıb.

**Sədrlik edən.** O barədə mənim məlumatım yoxdur. Sizdə dəqiq məlumat var ki...

**Cümşüd Nuriyev.** Bəli, mətbuat da, Türkiyə televiziyası da, türk mətbuatı da verib. Əli Kərimovun orada bir neçə səfirlikdə görüşləri olub. Səfirlikdə hansı danışıqları aparıb, mən bilmirəm, amma hər halda o səlahiyyət onda yoxdur. Söhbət bundan gedir ki, Azərbaycan

məsələsi nə üçün o səviyyədə və o səfirliklərdə müzakirə olunur. O bizim daxili işimizdir, burada müzakirə olunmalıdır. Sağ olun.

**Sədrlik edən.** Bilirsiniz, düzdür, mənim bu barədə dəqiq məlumatım yoxdur. Eşitmişəm ki, Əli Kərimov Türkiyədədir, yaxud Türkiyədə olubdur və orada müəyyən danışıqlar aparıbdır. Əli Kərimovun ora getməsi haqqında mən Azərbaycanın, Türkiyənin Azərbaycandakı səfiri Altan Karamanoğluya da öz fikrimi bildirmişəm. Ancaq əgər kimsə gedib orada danışıqlar aparırsa, bunlar əhəmiyyətsiz şeylərdir. Mən güman etmirəm ki, bu bizim daxili işimizə bir təsir edə bilsin. Mən şəxsən bunların heç birindən narahatlıq hissi keçirmirəm. Onlar, sadəcə olaraq, anlamırlar ki, nə edirlər. Bunların heç biri heç bir nəticə verə bilməz. Azərbaycan müstəqil dövlətdir, Azərbaycanın daxili işlərini Azərbaycanın qanuni hakimiyyət orqanları həll edir. Kim hansı səfirlikdə nə danışırsa, bu ola bilər, mətbuatda bir rəy yaratsın, amma bizim daxili işlərimizə heç bir təsir edə bilməz.

O ki qaldı Türkiyənin Baş nazirinin BMT-yə müraciətinə, bu müzakirə barədə bizim mətbuata məlumdur. Bu barədə deyəcəyik. Türkiyənin dövlət başçıları srağagün toplaşıb Ermənistanın Azərbaycana hücumu haqqında məsələ müzakirə ediblər. Yenə deyirəm, bu məsələ haqqında danışıq gedəndə geniş məlumat veriləcək. Əgər onlar müraciət ediblərsə, bu onların öz işidir. Şübhəsiz ki, ancaq Azərbaycanın daxili məsələləri ölkəmizin daxili işidir. Burada da, mənə belə gəlir ki, o qədər narahat olmaq lazım deyil. Əgər belə bir məsələ varsa, biz bunu araşdıra bilərik.

Yenə də Tofiq Qasımov yazıldı. Buyurun, Tofiq Qasımov.

**Tofiq Qasımov.** Mən, sadəcə olaraq, bu barədə bir balaca izahat vermək istəyirdim. Başqa bir dövlətin – Birləşmiş Millətlər Təşkilatının Azərbaycana qoşun göndərməsi və ya başqa bir şey təklif eləmək səlahiyyəti yoxdur. Sadəcə olaraq, bu o dövlətin Azərbaycan torpaqlarının işğalından narahatlığını bildirə bilər, bunu Birləşmiş Millətlər Təşkilatında hər hansı bir şəkildə müzakirəyə qoymağı təklif edə bilər. Ona görə bunu bir az dəqiqləşdirmək lazımdır. Əgər son nəticədə, hətta Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası da qərar qəbul etsə ki, bura hərbi qüvvə göndərilsin, bu ancaq Azərbaycanın, Azərbaycan hökumətinin razılığı ilə ola bilər. Buna görə narahat olmaq lazım deyil. Sağ olun.

**Sədrlik edən.** Aydındır.

Beləliklə, 1-ci məsələnin müzakirəsinə keçirik. Görünür ki, bu barədə mən məlumat verməliyəm. Sonra əlavə məlumatlar da verilə bilər.

Bəlkə də, belə bir geniş məlumata ehtiyac yoxdur, çünki bu məsələlər, bu dövrdə olan proseslər haqqında bizim mətbuat konfranslarında, televiziyada, srağagün Bərdədə keçirilən müşavirədə ətraflı məlumatlar verilib. Məclis üzvləri, o cümlədən ictimaiyyət müəyyən qədər məlumatlanıb. Ancaq bəlkə də, bəzi məsələlər təkrar olunacaq. Güman edirəm ki, Məclisimizə, Milli Məclisin üzvlərinə hörmət naminə, təkrar da olsa, bunların hamısını burada, bizim parlamentdə demək lazımdır.

Məlumdur ki, Kəlbəcər rayonu işğal olunandan sonra Azərbaycan Respublikasının rəhbərliyi bir neçə diplomatik addımlar atmışdır və bu addımlar beynəlxalq ictimaiyyət, beynəlxalq təşkilatlar tərəfindən müsbət qarşılanmışdır. Amerika Birləşmiş Ştatlarının, Rusiyanın, Türkiyənin, türk dövlətlərinin təşəbbüsü olmuşdur və ATƏM Azərbaycanda Kəlbəcər rayonunun işğalı və Ermənistanın Azərbaycana təcavüzkar siyasəti ilə bağlı məsələlər müzakirə etmişdir. Bunlar hələ keçən ilin mart ayında fəaliyyət göstərən ATƏM çərçivəsində olan Dağlıq Qarabağ problemi ilə məşğul olan Minsk konfransında da müzakirə olunmuşdur və bütün bunların nəticəsində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 822 №-li qətnaməsi qəbul olunmuşdur. Bu qətnamə əsasında ATƏM-in Minsk konfransının apardığı tədbirlər, müzakirələr nəticəsində müəyyən ümumi qərar əldə olunmuşdur. Bu qərar da ondan ibarət idi ki, Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Türkiyənin təşəbbüsü və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnaməsi əsasında Kəlbəcərdən erməni silahlı qüvvələrinin çıxarılması barəsində Minsk konfransının müəyyən proqramı və müəyyən təqvimi qəbul olunmuşdur. Bunların qəbulu Azərbaycan dövlətinin, Ermənistan dövlətinin rəhbərliklərinin və Dağlıq Qarabağda hakimiyyətdə olan qüvvələrin razılığı ilə olmuşdur.

Tərtib olunmuş bu proqrama – təqvimə əsasən, iyun ayının təxminən 16-dan Kəlbəcərdən Ermənistan Silahlı Qüvvələrinin çıxarılması prosesi başlanmalı idi və bu proses başlanan kimi ora ATƏM-in müşahidəçilər qrupu yerləşdirilməli idi. Əvvəl bir az, sonra isə təxminən 500-ə qədər müşahidəçi ora yerləşdirilməli idi. Təxminən 4-5 gün içərisində Kəlbəcər rayonundan erməni silahlı qüvvələri çıxarılmalı idi. Beləliklə, Kəlbəcər rayonu boşalmalı idi. Yalnız iyun ayının əvvəlində Azərbaycanda baş vermiş müəyyən məlum hadisələrlə əlaqədar olaraq bu proqram iyun ayında həyata keçirilə bilməmişdir. İyun ayının axırında artıq Azərbaycan rəhbərliyində müəyyən dəyişikliklər baş verdiyinə görə biz ATƏM və Minsk konfransı ilə əlaqələrə girmişdik və Minsk konfransının

nümayəndə heyəti iyul ayının 5-də Bakıda səfərini başlamalı idi, regionda olmalı idi. Yəni iyun ayına nəzərdə tutulmuş proqram-təqvim təxminən bir ay təxirə salınaraq iyul ayında həyata keçirilməli idi. Biz bu nümayəndə heyətini iyul ayının 5-də gözləyirdik. Yalnız xatirinizdədir ki, iyul ayının 4-də Ağdam şəhərinin işğal olunması təhlükəsi meydana çıxmışdı. Hətta dünyaya belə məlumat verilmişdi ki, iyul ayının 4-də Ağdam şəhəri işğal olunub, ona görə də iyul ayının 5-də Minsk konfransının nümayəndə heyətinin sədri Mario Rafaelli və heyətin üzvləri qəflətən Bakıya gəlmək proqramını ləğv etdilər. Biz bundan çox narahat olduq, əlaqə saxladıq. Onların bura gəlməməsinin səbəbi "France-press" Agentliyinin verdiyi məlumatda qeyd olunmuşdu. Biz hətta öz etirazımızı bildirdik ki, onlar dövlət orqanlarının məlumatına əsaslanmayaraq, adi bir agentliyin məlumatına əsaslanmışdılar.

Nəhayət, iyul ayının 9-da bu nümayəndə heyətinin Bakıya gəlməsi gözlənilirdi. Onlar iyul ayının 9-dan 10-na keçən gecə gəldilər və iyul ayının 10-da Bakıda Minsk konfransının nümayəndə heyətinin sədri Mario Rafaellinin başçılıq etdiyi nümayəndə heyəti öz fəaliyyətinə başladı. Onların proqramı sizə məlumdur: Bakıda, sonra isə Yerevanda Ermənistan rəhbərləri ilə görüşlər keçirmək, sonra Bakıya qayıdıb oradan Ağdama getmək, Ağdamdan Xankəndiyə keçmək, ondan sonra Bakıya qayıdıb bütün məsələləri yekunlaşdırmaq. Bütün bu görüşlərdən sonra təxminən iyul ayının 16-dan başlayaraq əvvəldən nəzərdə tutulmuş həmin proqramın və təqvimin həyata keçirilməsini təmin etmək. Təəssüf ki, bu səfər əvvəldən nəzərdə tutulan proqram əsasında baş vermədi. Biz iyul ayının 10-da Minsk konfransının nümayəndə heyəti ilə görüşdük. Onlar iyul ayının 11-də Yerevana getdilər, görüşdülər, geriyə qayıtdılar. İyul ayının 12-də Ağdama getdilər, lakin Ağdamdan Xankəndiyə keçmək imkanı olmadı. Biz Ermənistanın rəhbərliyi ilə bu barədə çox danışıqlar apardıq. Dağlıq Qarabağda olan qüvvələr Ağdamdan Xankəndiyə keçidin qarşısını aldılar və cürbəcür bəhanələr gətirdilər. Bu bəhanələr də ondan ibarət idi ki, orada sərhədlər minalanıb, oradan keçmək təhlükəlidir və onlar nümayəndə heyətinin Ermənistan ərazisindən Laçın rayonu yolu ilə Xankəndiyə gəlməsini təklif etmişdilər.

Biz buna, şübhəsiz ki, çox qəti etiraz etdik, ancaq eyni zamanda bu nümayəndə heyətinin missiyasının başa çatması bizim üçün çox lazım idi. Çünki bu missiya müvəffəqiyyətlə başa çatdığı halda, bu proqramın həyata keçirilməsi artıq gündəliyə düşürdü. Ona görə də biz çıxış yolları axtardıq və nəhayət, müəyyən kompromisə gedərək nümayəndə

heyətinin Xankəndiyə Tiflisdən getməsinə razılıq verdik. Ona görə onlar buradan təyyarə ilə Tiflisə, Tiflisdən vertolyotlarla Xankəndiyə uçdular. İyul ayının 13-də onlar Xankəndidən qayıtmalı idilər, lakin qayıda bilmədilər, gecə orada qaldılar. İyul ayının 14-də Bakıya qayıtdılar və Bakıda yekun görüşləri oldu. Təəssüf ki, bu yekun görüşlərdə nümayəndə heyətinin sədri Mario Rafaelli və nümayəndə heyətinin bütün üzvləri Xankəndidə aparılan görüşlərdən və söhbətlərdən öz narazılıqlarını bildirdilər. Çünki orada bütün bu proses artıq dayandı, durdu. Dağlıq Qarabağda hakimiyyətdə olan qüvvələr bəzi bəhanələr ortaya atmışdılar. Onlar bu proqramın, bu təqvimin həyata keçirilməsinin 5-6 gün də təxirə salınmasını təklif etmişdilər. Biz iyul ayının 14-dəki görüşlərimizdə Minsk konfransının nümayəndə heyətinə tam açıqlığı ilə bildirdik ki, Azərbaycan Respublikasının dövlət orqanları Qarabağda problemlərin sülh yolu ilə həll olunmasının tərəfdarı olduğunu geniş surətdə nümayiş etdirdi və nümayəndə heyəti də hər gün, hər dəqiqə hər görüşdə bunun şahidi oldu. Onlar da bunu etiraf etdilər və söz verdilər ki, dərhal Romaya qayıdacaqlar, iyul ayının 16-da Vyanada bu konfransın toplantısı olacaqdır. Ondan sonra o ərəfədə Dağlıq Qarabağda olan qüvvələrə Minsk konfransı rəsmi olaraq müraciət edəcək, müraciətin cavabını alacaq və sonra isə Minsk konfransının ATƏM çərçivəsində olan 9 dövlətinin nümayəndəsi görüşəcək və qəti qərar qəbul edəcəkdir. Biz bununla da razı olduq. İyulun 16-da Vyanada toplantı olmuşdur. Mario Rafaelli Dağlıq Qarabağa rəsmi məktub göndərmişdi. Təəssüf ki, Dağlıq Qarabağda olan qüvvələr bu məktubun cavabını gecikdirmişdilər. Ona görə də bu məsələ müəyyən qədər təxirə salınmışdır.

Nəhayət, iyul ayının 21-də Romada 9 dövlətin nümayəndə heyəti görüşmüşdür, bu məsələ geniş müzakirə olunmuşdur. Bizdə olan məlumatlara görə, ATƏM çərçivəsində olan 9 dövlətin nümayəndələri hamısı yekdilliklə Dağlıq Qarabağda olan bu qüvvələrin mövqelərini pisləmiş və sülh prosesinin həyata keçirilməsi haqqında qərar qəbul etmişdilər. Ancaq bu zaman Dağlıq Qarabağda olan qüvvələr, ümumiyyətlə, Ermənistan tərəfi bu prosesin, bu sülh prosesinin həyata keçirilməsini dayandırmaq üçün Ağdam istiqamətində şiddətli hücumlara keçmişlər. Siz bunu bilirsiniz, bu hücumlar çox ağır, çox gərgin olmuşdur. Ağdam istiqamətində olan kəndlərin bizim qoşun hissələri əhali tərəfindən çox güclü müdafiə olunmasına baxmayaraq, bir neçəsi əldən getmişdir. Onlar Ağdam şəhərinə yaxınlaşmışlar. Bu dövrdə biz çox qəti diplomatik addımlar atmışıq, Amerika Birləşmiş Ştatlarının, Rusiyanın, Türkiyənin

Azərbaycanda olan səfirləri ilə görüşlərimiz olmuşdur. Onlara çox ciddi xəbərdarlıqlar etmişdik, Minsk konfransına öz etirazlarımızı bildirmişdik. Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəsi Mahmud Əl Səidlə görüşlərimiz olmuşdur. Biz bu hücumların qarşısının alınmasını tələb etmişdik. Təəssüf ki, bizim bu siyasi, diplomatik addımlarımız lazımi nəticə verməmişdir.

Bizim müdafiə qüvvələrimiz istənilən səviyyədə olmamışdır və nəhayət, bildiyiniz kimi, Ağdam rayonunun Dağlıq Qarabağ istiqamətində olan bir neçə kəndi artıq işğal olunmuş, sonra erməni silahlı qüvvələri Ağdam şəhərinə daxil olmuş və Ağdam şəhəri işğal olunmuşdur. Bu hadisə münasibəti ilə də biz bütün dövlətlərə öz həyəcanımızı, etirazımızı və Ermənistan tərəfinin bu sülh prosesini pozması, təcavüzkar olması haqqında bəyanatımızı bildirmişik. Birləşmiş Millətlər Təşkilatına məktub göndərib təcili olaraq Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının çağırılmasını və Ağdamın işğal olunması ilə əlaqədar məsələnin müzakirə olunmasını təklif etmişik. Qeyd edə bilərəm ki, Amerika Birləşmiş Ştatları, Rusiya, Türkiyə bu sülh proseslərində təşəbbüskar olduqlarına görə qoşulmuşlar. Biz Amerika Birləşmiş Ştatlarının səfiri ilə danışıqlar aparandan sonra, şəxsən mən onu dəvət edib danışıqlar aparandan sonra Amerika Birləşmiş Ştatlarının Dövlət departamentinin bəyanatı olmuşdur. Bu bəyanat mətbuatda verilib, bu Sizə məlumdur. Lazım olarsa, bu bəyanat burada bir daha oxuna bilər. Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin bu barədə bəyanatı olmuşdur. ATƏM çərçivəsində Minsk konfransının nümayəndə heyətinin də bəyanatı olmuşdur. Minsk konfransı toplaşıb bu məsələnin Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında müzakirə olunması təklifini vermişdir.

Dünən deyil, srağagün, bu da mətbuatdan sizə məlumdur, axşam Ankarada Türkiyənin rəhbər dairələri, yəni Türkiyənin Prezidenti Süleyman Dəmirəl, Baş naziri Tansu Çillər, Baş qərargah rəisi Günən Doğuş, sonra milli müdafiə naziri Növcə Ayaz və dövlət naziri, eyni zamanda Baş nazirin müavini Ərdal İnönü, başqa şəxslər toplaşıb Azərbaycanda Ermənistanın silahlı qüvvələrinin təcavüzü ilə əlaqədar yaranmış məsələni müzakirə etmişlər, bu barədə bəyanat vermişlər. Onlar da Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının təcili çağırılmasını və bu məsələni müzakirə etməsini təklif etmişlər.

İndi məsələ bu səviyyədədir. Biz Birləşmiş Millətlər Təşkilatında nümayəndəmizə göstəriş vermişik ki, bütün bu təkliflərin hamısından

səmərəli istifadə edib təcili Təhlükəsizlik Şurasının toplanması, Ermənistanın Azərbaycana təcavüzkar siyasəti, Ağdam şəhərinin işğal olunması ilə əlaqədar məsələnin müzakirəsi ilə məşğul olsun. Bu məsələ ilə məşğul olurlar, bunlar bizim nəzarətimiz altındadır.

Eyni zamanda Dağlıq Qarabağda yaranmış məsələ ilə əlaqədar bir Ağdam istiqamətində deyil, Ağdam işğal olunandan sonra erməni silahlı qüvvələri Füzuli istiqamətində də güclü hücumlara keçmişlər, orada da bir neçə kənd əldən getmiş və çox təhlükəli şərait yaranmışdır. Belə bir şəraitdə mən Ermənistanın rəhbərliyi ilə də, Prezident Levon Ter-Petrosyanla da Ağdamla əlaqədar bir-iki dəfə danışıqlar aparmışam. Sonra o tərəfdən belə səslər gəlibdir ki, Azərbaycanın müdafiə qüvvələri ilə Dağlıq Qarabağda olan silahlı qüvvələrin bilavasitə əlaqəyə girib müəyyən qədər atəşin kəsilməsi haqqında razılıq əldə etməsi məqsədəuyğun olardı. Biz bu məsələni Surət Hüseynovla, Müdafiə Nazirliyinin rəhbərliyi ilə müzakirə etmişik və belə bir addımın atılmasına razılıq vermişik. Müdafiə naziri vəzifəsini yerinə yetirən Səfər Əbiyev Ermənistanın Dağlıq Qarabağda olan silahlı qüvvələri ilə telefon əlaqəsi saxlamış və ayın 25-də səhər tezdən üç günlük atəşin kəsilməsi, dayandırılması haqqında razılıq əldə olunmuşdur. O müddət bu gün qurtarır. İndi bu gün yenə danışıqlar gedir. O tərəfdən təklif olmuşdur ki, bu telefon danışıqlarından əlavə, bizim tərəfin nümayəndələri ilə Dağlıq Qarabağda olan hərbi qüvvələrin nümayəndələri görüşsünlər. İndi Səfər Əbiyev telefonda bu danışıqları aparır. Belə bir məsələ də mövcuddur. Mən onu Məclisə çatdırmaq və Məclisin bu barədə fikrini bilmək ehtiyacını duyuram.

Bu tədbirlərlə yanaşı, şübhəsiz ki, biz bu günlərdə bütün cəbhə xəttində müdafiə mövqelərimizin möhkəmlənməsi ilə ciddi məşğul olmuşuq. Baş nazir Surət Hüseynov bu məsələlərlə daha da yaxından məşğul olmaq üçün bir neçə gün Gəncə şəhərində olmuşdur. Nəhayət, Ağdam şəhərinin işğal olunması ilə əlaqədar yaranmış vəziyyəti araşdırmaq və yerdə vəziyyəti öyrənmək üçün biz srağagün, yəni iyul ayının 25-də Bərdə şəhərində geniş bir müşavirənin keçirilməsini qərara almışdıq. Ancaq bu, tək müşavirənin keçirilməsi deyil, həm də yerdə vəziyyətlə tanış olmaq məqsədilədir. Bu məqsədlə mən də Bərdəyə getdim. Srağagün, iyul ayının 25-də səhər tezdən Baş nazir Surət Hüseynovla və başqa vəzifəli şəxslərlə Bərdə şəhərində bir neçə görüş keçirdik, orada kiçik bir müşavirə apardıq, vəzifələr müəyyən olundu. Ondan sonra Bərdə rayonunun, Ağcabədi rayonunun ərazisində məskunlaşmış, Ağdamın

kəndlərindən və Ağdam şəhərindən köçmüş ailələrlə, şəxslərlə görüşdük, onların vəziyyəti ilə bilavasitə tanış olduq və onların tələblərini, arzu və diləklərini dinlədik.

Bunların nəticəsində iyul ayının 25-də Bərdə şəhərində, yəni Bərdənin rayon mərkəzində geniş bir müşavirə keçirildi. O müşavirə haqqında sizin məlumatınız var. Təəssüf ki, televiziya komitəsi o müşavirədən reportajı gecikdirdi, dünən gecəyə yaxın yayımladılar. Ancaq güman edirəm ki, Məclis üzvləri o reportaja baxıblar, bilirlər, dinləyiblər. Orada aparılan danışıqlar, söhbətlər və tələblər məlumdur. Orada biz ümumi fikrə gəldik ki, Ağdam rayonundan köçmüş adamları, birinci növbədə, o bölgədə, o ərazidə – Bərdənin, Ağcabədinin ayrı-ayrı yerlərində və ora yaxın olan rayonlarda yerləşdirmək lazımdır. Çünki Ağdamın işğalı, şübhəsiz ki, müvəqqəti haldır. Heç vaxt heç kəs, biz də, ağdamlılar da, ümumiyyətlə, Azərbaycan xalqı Ağdamın işğal vəziyyətində qalmasına dözə bilməz. Ağdam geri qayıdacaq, Ağdamın əhalisi də öz yerlərinə qayıdacaq. Ona görə də köçmüş, yerlərini tərk etmiş adamların indi Azərbaycanın cürbəcür yerlərinə dağılması, xüsusən Bakı şəhərinə gəlməsi, burada yerləşməsi və öz yerlərini daim itirməsi, şübhəsiz ki, nə bizim xalqın, nə də Ağdam və Qarabağda yaşayan sakinlərin mənafeyinə uyğun deyil. Ona görə də biz Bərdədə keçirilən müşavirədə geniş müzakirə aparandan sonra ümumi fikrə gəldik. Nazirlər Kabinetinin rəhbərliyi, Ali Sovetin rəhbərliyi, orada olan nazirlər və yaxın rayonların rəhbərlərinin ümumi fikri belə oldu ki, köçmüş adamları bu bölgədə yerləşdirmək, orada onların yaşayışı üçün şərait yaratmaq və bunun hamısını müvəqqəti tədbir kimi nəzərə almaq lazımdır. Çalışmalıyıq ki, tezliklə işğal olunmuş torpaqlar geri qayıtsın və yerlərini tərk etmiş sakinlər öz yerlərinə qayıtsın.

Onu da qeyd etmək istəyirəm ki, bizim Ağdamdan köçmüş adamlarla görüşlərimiz, şübhəsiz, çox həyəcanlı idi. Hamımızı çox coşdururdu, incidirdi. Çünki görüşdüyümüz adamlar ağır şəraitdən, atəş altından çıxmışdılar, qohumlarını, ailə üzvlərini, övladlarını, bacılarını, qardaşlarını, atalarını, analarını itirmiş, evlərindən, var-dövlətlərindən məhrum olmuş adamlardır. Bu adamların psixoloji vəziyyəti, şübhəsiz ki, tam aydındır və əsaslıdır. Bilirsiniz, onların həyəcanlı, coşqun, hirsli olması, böyük ehtiraslarla danışması tamamilə təbii haldır. Biz bunların hamısını təbii qəbul etdik, başqa şey də gözləmirdik. Bu da tamamilə təbiidir. Ancaq mənə belə gəlir bizim xalqımıza xas olan, ən qiymətli xarakterik cəhət ondan ibarətdir ki, bu adamların hamısı bir söz deyirdi:

“Yaxınlarımızı, övladlarımızı, qohumumuzu, ailə üzvümüzü, evimizi, on illərlə yığdığımız var-dövləti, hamısını itirmişik, bunların hamısına dözərik, təkcə öz torpağımıza qayıdaq, o dağılmış evimizin yerinə qayıdaq, orada yenidən ev tikib torpağımızda yaşamaq istəyirik və ölsək də, torpağımızda ölmək istəyirik”.

Dünən bu görüşlərdən kiçik bir reportaj verildi. Təəssüf ki, bizim televiziya şirkəti bu geniş reportajı hazırlaya bilmədi, çünki orada gördüyümüz mənzərəni tamaşaçılara çatdıra bilmədilər, ancaq bu, yəqin ki, reportajdan da müəyyən qədər məlum oldu. Biz bu görüşlərdə iştirak edən adamları gördük. Bilirsiniz, məni bir tərəfdən sıxan, incidən, əzab verən cəhət odur ki, biz torpaqlarımızı itirmişik, bizim üçün Ağdam kimi müqəddəs, əziz olan şəhər işğal olunub, insanlar belə ağır vəziyyətə düşübdür, böyük bir faciə içərisindəyik. İkinci tərəfdən, bizə iradə verən, ruh verən, necə deyərlər, bizi daha da iradəli edən cəhət bundan ibarətdir ki, bizim xalqımızda bu gözəl xüsusiyyət itməyibdir, yəni torpağına bağlılıq, torpağına qayıtmaq hissiyyatı, yəni öz torpağını bundan sonra nəyin bahasına olursa olsun, qorumaq hissiyyatı itməyib. Mən sizə deyirəm, orada da dedim, bütün belə insanların qarşısında baş əyirəm. Hamımız belə insanların qarşısında baş əyməliyik, hamımız Azərbaycanın belə insanlarına minnətdar olmalıyıq. Hamımızın ən müqəddəs borcu, ən müqəddəs vəzifəsi ondan ibarətdir ki, birinci növbədə, bu insanların yaşayışını, ağır həyatını müəyyən qədər yüngülləşdirək və nəyin bahasına olursa olsun, torpaqlarımızı geri alaq, bu insanların öz torpaqlarına qayıtmasını təmin edək.

Bərdədə keçirilən görüşlər və müşavirələr, mənə belə gəlir ki, çox zəruri olmuşdur və onlar öz nəticələrini verməlidir. Güman edirəm ki, o gün – iyul ayının 25-də orada tapşırıq almış vəzifəli şəxslər verilən tapşırıqları layiqincə yerinə yetirməlidirlər. Biz o bölgədə olan vəziyyəti müəyyən qədər yaxşılaşdırmalıyıq.

Bununla yanaşı, bir məsələyə də toxunmaq istəyirəm. Bu da ondan ibarətdir ki, köçən adamların bir qismi o bölgədə yerləşib, bir qismi, yəni qohumu, tanışı olan adamlar Bakıya doğru irəliləyiblər, bir qismi isə Bakı ilə, məsələn, Qarabağ bölgəsi arasında olan yerlərdə yol kənarlarındadır. Ancaq bəziləri Bakıda məskunlaşmağa çalışırlar. Bəzi adamlar da bu adamların məhz Bakıda yerləşməsinə cəhd edirdilər. Bilirsiniz, onların Bakıda, Gəncədə, Sumqayıtda, başqa şəhərlərdə yerləşmək arzusu, niyyəti təbii bir haldır, buna da etiraz etmək olmaz. Ancaq eyni zamanda biz gərək mövcud şəraiti nəzərə alaq və unutmayaq ki, son 5 il

içərisində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarından gələn qaçqınların Bakıda yerləşdirilməsi nəticəsində Bakı şəhərində çox gərgin vəziyyət yaranmışdır. Ona görə də Bakı, bilirsiniz, artıq öz çərçivəsində bundan sonra gələn əlavə adamları, haradan gəlirsə gəlsin, yerləşdirə bilmir. Orada müşavirədə də deyildi və bizə də məlumdur. Burada da gəlib bunu aydınlaşdırdıq ki, birinci, haradan olursa olsun, bundan sonra gələn qaçqınların yaşayışı üçün Bakıda yer yoxdur, onların təchizatı üçün imkanlar yoxdur, su problemi çox ağırdır.

Su problemi. Bildiyiniz kimi, son illərdə, elə bu qaçqın məsələsi olmasa da, 1970-ci illərdə Kür çayından çəkilən su kəmərləri artırılmaq əvəzinə, onların vəziyyəti indi çox ağırdır, oradan istənilən qədər su gəlmir, gələn suyun keyfiyyəti də, məlumdur ki, çox aşağı səviyyədədir. Ona görə də su təchizatı da, yəni bu sanitariya və epidemiologiya şəraiti də Bakıda yay vaxtında çox gərginləşir. Bir tərəfdən yerlərini tərk etmiş adamların Bakıya yönəlməsi, bu meyil aydındır və təbiidir. Amma ikinci tərəfdən, imkan yoxdur. Ona görə də biz gərək bu işə çox ciddi və real yanaşaq, burada ayrı-ayrı adamların bu şəraitindən istifadə edib Bakıda vəziyyəti gərginləşdirmək meyillərinə qətiyyən yol verməyək. Belə hallar var. Mən bu barədə Bərdədə çıxış edərkən də dedim.

Mən Ağdam nümayəndələrini iki dəfə qəbul etmişəm. Bir dəfə iyul ayının 4-də Ağdam şəhərində təhlükəli vəziyyət şəraitində Ağdamın bir qrup ziyalıları, professorları, akademikləri – onların bir çoxu mənim keçmişdən tanıdığım adamlardır – müraciət etdilər, mən onlarla söhbət etdim və söhbət də çox səmimi, düzgün, konstruktiv oldu. Mən o vaxt onlara dedim, biz bütün tədbirləri keçirəcəyik ki, Ağdam əldən getməsin. Sonra isə yenə Ağdam təhlükə altında olduğu bir zamanda artıq, demək olar ki, işğal olunduğu bir vaxtda – ancaq bu hələ tam aydın deyildi – yenə də Ağdamdan böyük bir ziyalı qrupu Milli Məclisə, Ali Sovetə gəlmişdi. 60 nəfər idilər. Mən onların hamısını qəbul etmək istəyirdim, ancaq özləri dedi ki, nümayəndələr gələcək. 15 nəfəri qəbul etdik, onlarla da söhbət etdik. Çox ziyalı, çox mərifətli, elm adamları idilər. Bu söhbətlər də çox ağıllı, çox idraklı, çox yüksək səviyyədə keçdi. Bir-birimizi anladıq və ümumi vəziyyəti bir-birimizə başa saldıq.

Təəssüf, bəzi adamlar da var ki, onlar Ağdamdan Bakıya gələn adamların qabağına düşüb, o tərəfdə, bu tərəfdə aranı qızışdıraraq bu vəziyyətdən istifadə edir, cürbəcür gərginlik yaratmaq istəyir, artıq sözlər danışır. Məsələn, bir professor var, adını da heç demək istəmirəm, orada-burada deyir ki, 40 gündür, hakimiyyətdəsiniz, nə etmisiniz, cavab

verin. Bilirsiniz, mən o adamlardan soruşmaq istəyirəm, elə həmin o professorlardan da soruşmaq istəyirəm. 5 ildir Dağlıq Qarabağ dağılır və o adamlar da prosesin içindədirlər. Bəs onlar nə üçün cavab vermirlər? İndi hər gün üçün cavab istəyirlər. 5 il Qarabağ dağılanda "Qarabağ" deyə-deyə döşünə döyən adamlar niyə indiyə qədər cavab vermirlər? Mən bu sözləri həyəcanla deyirəm, çünki deyilən o sözlər o qədər qərəzli, təxribat mənalı sözlərdir ki, buna həyəcansız cavab vermək mümkün deyil. Ona görə də mən bu barədə geniş məlumat verərək həm Məclis üzvlərinə, həm də bir daha Azərbaycan ictimaiyyətinə – buradan canlı yayım gedir, bütün bu danışıqlar açıq gedir – Azərbaycan Respublikasının vətəndaşları üçün bildirmək istəyirəm ki, bu müddətdə bütün imkanlar işə salınıb, bütün imkanlardan istifadə olunub və bundan sonra da olunacaqdır. Bunu əvvəl də demişik, iyul ayının 25-də Bərdədə dedik, bu gün burada da mən öz tərəfimdən təkrar edirəm, əgər hamımız Azərbaycanı bu ağır böhran vəziyyətindən, müharibə vəziyyətindən çıxarmaq istəyiriksə, Azərbaycan torpaqlarının 17 faizi artıq işğal olunub, bunlar son 40 gündə işğal olunmayıb, bunları geri qaytarmaq istəyiriksə, şübhəsiz ki, birləşib ağılla, dərrakə ilə, zəka ilə, bir yerdə işləyib, bir yerdə çalışıb bir-birimizə kömək etməliyik.

Mən burada Ağdamın işğal olunması məsələsini geniş müzakirə etmək fikrində deyiləm. Kimsə nə fikirdə olacaqsa, burada azadlıqdır, hərə öz sözünü deyə bilər. Sadəcə olaraq, bu hadisədən şəxsi, çirkin niyyətlərini həyata keçirmək üçün istifadə etmək istəyən adamlara xəbərdarlıq etmək istəyirəm. Bəli, belələri var. Mən bunu Bərdədə də demişəm. Bəzi adamlar Ağdamın işğal olunması münasibətilə qonaqlıq veriblər, kef ediblər, araq içiblər, bir-birini təbrik ediblər. Bu, ümumi xalq faciəsidir, ancaq insanlar öz şəxsi məqsəd, şəxsi vəzifə mövqelərindən son illərdə fəaliyyət göstərdiklərinə görə... Elə Xocalı, Şuşa, Laçın, Kəlbəcər də gedəndə belə adamlar var idi. O tərəfdən də, bu tərəfdən də, indi də belə adamlar var. Onlar bu xalqı ləkələyən, zibilləyən, xalqımızın mənəviyyatını tapdalayan ünsürlərdir, qruplardır. Təəssüf ki, bunlar tək-tək adamlar deyil, artıq qruplara çevriliblər. Bəziləri siyasi təşkilat kimi mövcuddur və fəaliyyət göstərirlər. Bu bizim xalqın faciəsidir, bəlasıdır və əgər bilmək istəyirsinizsə, bizim son illərdə məğlubiyyətlərimizin əsas səbəblərindən də biridir. Ona görə də mən bu barədə fikrimi tamamlayaraq demək istəyirəm ki, respublikanın rəhbərliyi, Ali Sovet, mən, Prezident səlahiyyətlərini həyata keçirən bir şəxs kimi, Nazirlər Kabineti Ağdamın işğalı ilə əlaqədar olan köçkünlərin hamısının

qayğısına qalmalıyıq. Bütün vəzifəli şəxslər öz vəzifələrini layiqincə yerinə yetirməlidir. O adamların hamısı ən yüksək qayğıya, ən yüksək hörmətə, ən yüksək ehtirama layiqdirlər və biz bunu göstərməliyik. Bu bizim borcumuzdur, vəzifə borcumuzdur, vətəndaşlıq borcumuzdur.

Bakıda ayrı-ayrı qruplar, o cümlədən Xalq Cəbhəsinə mənsub olan adamlar, təəssüf ki, bu vəzifədən sui-istifadə edərək, Ağdam problemindən istifadə edərək bu köçkünləri qızışdırıb meydana salmaq meylindən əl çəksinlər. Mənfi fikirlərdə olanlar bu adamları, bu köçkünləri... Onsuz da, onların həyatları əzab içindədir, onları əlavə əzaba, siyasi oyunlara salmaq cinayətdir. Bu cinayətdən əl çəksinlər. Biz bunlara yol verməyəcəyik.

Ağdamın işğal olunması məsələsinə gəlincə, yenə deyirəm, bu gün, şübhəsiz ki, bunu təhlil etməyə imkanımız yoxdur. Mən ancaq bir şeyi qeyd etmək istəyirəm. Bəli, son illər ayrı-ayrı qruplar, ayrı-ayrı şəxslər tərəfindən gedən siyasi oyunlar bizi, bax Azərbaycanın 17 faiz torpaqlarının işğal olunmasına gətirib çıxarıb. Əgər bu siyasi oyunlar qurtarmasa, bunlara son qoyulmasa, biz bundan sonra daha da böyük məğlubiyyətlərə uğrayacağıq. Mən sizə dedim, iyul ayının 4-də artıq Ağdamın işğal təhlükəsi vardı, saxlandı. Ondan sonrakı və ondan qabaqkı dövrü də götürsəm, Ağdam şəhəri əldən gedir, insanlar bilmirlər ki, orada nə cür yaşasınlar. Eyni zamanda ayrı-ayrı qruplar, siyasi qruplar, mafioz qruplar orada vəzifə hərisliyi edirlər, birinin vəzifədən çıxması, o birinin vəzifəyə keçməsi, kimin icra hakimi olması mübarizəsini aparırlar. Bu dəhşətli deyilmi? Şəhər əldən gedir, evlər dağılır, insan qırılır. Ağdam hər gün atəş altındadır, orada isə mübarizə gedir ki, hansı tayfa hakimiyyətə gəlməlidir, hansı tayfa vəzifə almalıdır, hansı tayfanın nümayəndəsi icra hakimi olmalıdır.

Bilirsiniz, Ağdam, Qarabağ, yenə də deyirəm, Azərbaycanın ən gözəl guşəsidir. Bu ərazidə yaşayan adamlar hamımız tərəfindən hörmətə layiq, Azərbaycanın ən yüksək keyfiyyətə malik adamlarıdır. Mən Bərdədə dedim, yenə də deyirəm, bu son 5 ildə Ağdamın torpağı qana hopubdur. Bu onu göstərir ki, bu qana hopmuş torpaqda yaşayan adamlar böyük hörmətə layiq adamlardır. Ancaq nə etməli ki, bu adamların içərisində elə pisniyyətli, kifir fikirli adamlar var. Onlar öz məqsədlərinə nail olmaq üçün bu yazıq, zavallı insanları o tərəfə, bu tərəfə yönəldirlər, siyasi mübarizələr aparırlar.

Bəli, mən tam qətiyyətlə deyə bilərəm ki, əvvəlki məğlubiyyətlər kimi, Ağdamın da işğal olunması bu siyasi oyunların, Ağdamın içində və

onun kənarında, ümumiyyətlə, Azərbaycanda gedən siyasi mübarizələrin, siyasi oyunların nəticəsidir. Ağdamda elə böyük döyüşlər olmayıb. Bərdədə, Ağcabədidə görüşlərdə o adamlar bizə danışırdılar. Kimsə oradan gəldi, hay saldı ki, ermənilər gəlir, qaçın. Kimsə bu tərəfdən gəldi, panika yaydı ki, ermənilər gəlir, qaçın. İnsanları panikaya saldılar, qaçırdılar. Sonra mən Gəncədə hərbi hissənin rəhbərləri ilə görüşdüm, Surət Hüseynovla bərabər ətraflı söhbət etdik. Mən orada bizim generallardan, zabitlərdən soruşdum ki, soldatlar qaçırlar. Axı nə üçün qaçırlar, niyə qaçırlar? Çünki qorxurlar, panikaya dalırlar, dəhşət salırlar. Bəzən özümüzünkülər bunu edir. Ona görə də bu siyasi oyunu aparıb Ağdamın əldən getməsinə şərait yaradan adamlar indi bilsinlər ki, əgər onlar öz siyasi niyyətlərinə nail oldularsa da, insani nöqteyi-nəzərdən, mənəvi nöqteyi-nəzərdən Azərbaycan xalqının nifrətini qazandılar. Mən güman edirəm ki, bu siyasi oyunlara son qoymaq lazımdır.

Bu adamlar indi Ağdamın içinə də, Ağdamın kənarına da tökülüblər. Onlar bir Ağdamda deyil, Qarabağın başqa bölgələrində və bütün Azərbaycandadırlar. Bunlar o bölgədən olan adamlara aid deyil. Bu siyasi oyunlara son qoymaq lazımdır. Bizim hər birimiz üçün hər şeydən üstün, hər şeydən ülvi, hər şeydən yüksək vətənimiz, torpağımız, xalqımızın müstəqilliyi, ərazimizin bütövlüyü, dövlətimizin suverenliyi və əlbəttə ki, hər bir vətəndaşın sağlamlığı, həyatı olmalıdır. Ona görə də mən güman edirəm ki, Milli Məclis bu məsələlərə düzgün münasibət göstərəcək, düzgün qiymət verəcək.

Mən olan məsələlər haqqında qısa məlumat verdim. İndi siyasi, diplomatik yollarla hansı tədbirlər görürük və aparırıq, onlar haqqında da dedim. Mən Birləşmiş Millətlər Təşkilatına bizim müraciətimizi, orada apardığımız tədbirləri, Rusiyanın, Türkiyənin, Amerika Birləşmiş Ştatlarının da bu barədə bəyanatlarını qənaətbəxş hesab edirəm və güman edirəm ki, Minsk konfransının da nümayəndə heyəti bu barədə ciddi münasibətini bildirib. Bu məsələ Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında baxılmalıdır və biz buna nail olmalıyıq.

Eyni zamanda biz respublikamızın müdafiəsini gücləndirməliyik. Biz Bərdədə olarkən o bölgədə əhalinin müdafiəsinin güclənməsi ilə də məşğul olduq. Bizi bir məsələ də çox narahat edirdi. Biz orada dedik, onu burada da qeyd etmək istəyirəm. Bəziləri orada panika salıb, Ağdama yaxın olan bölgələrdən də adamların qaçmasına şərait yaratmaq istəyirlər. Biz Bərdədə, Ağcabədidə belə hallara rast gəldik. Bərdə, Ağcabədi və o bölgənin bütün əhalisinə Bərdədəki müşavirədə dedik, bu gün

buradan da deyirəm, televiziya vasitəsilə çatdırıram. Hər bir vətəndaş gərək öz evini, komasını, torpağını, kəndini, şəhərini, küçəsini qoruma-ğa qadir olsun. Qaçmaq böyük bir igidlik deyil, canını qurtarıb qaçmaq, gedib başqa yerdə gizlənmək heç kəsə şərəf gətirməz və gətirməyib. Bəli, bizim bədbəxtliyimiz ondan ibarət olub ki, bəzi adamlar insanlarda qorxu hissi yaradıb. Onlar da xırda bir hay-küy olan kimi panikaya, qorxuya düşüb, qaçıblar. Ona görə də mən güman edirəm ki, Ağdama yaxın olan o bölgədə yaşayan insanlar bir daha güc, qüdrət əldə edəcəklər. Biz bunu Bərdədə dedik, bu gün bir də təkrar edirəm: bizim xalqımız indi ayağa qalxmalıdır. Bizim xalqımız döyüş ruhu ilə yaşamalıdır. Bizim xalqımız gərək bundan sonra vətənpərvərlik hissiyyatlarını daha da nümayiş etdirsin ki, torpağımızı qoruyaq. Biz heç vaxt razı ola bilmərik ki, Azərbaycan xalqı tarixə aciz, torpağını qoruya bilməyən bir xalq kimi düşsün. Biz buna razı ola bilmərik.

Azərbaycan xalqı tarix boyu, həmişə qəhrəman xalq olub, torpağını əsrlər boyu qoruyub, saxlayıb və bundan sonra da saxlamağa qadirdir. Ancaq insanlarda vətənpərvərlik hissini daha da artırmalıyıq. Bizim adamlarda döyüş ruhunu yüksəltməliyik və hamı müsəlləh əsgər olmalıdır. Əgər “Böyük Vətən müharibəsi” dediyimiz bir dövrdə rəhmətlik Səməd Vurğun “mən də bu gündən müsəlləh əsgərəm” dedisə, bəs nə üçün bu səslər indi bizim ziyalılar tərəfindən səslənmir? Nə üçün? O vaxt biz ümumi Sovet ölkəsini qoruyarkən ayağa qalxmışdıq. O vaxt Səməd Vurğunun səsinə bütün xalqımız səs verdi. Güman edirəm ki, bizim xalqımız indi ondan da güclüdür, çünki biz müstəqil dövlətik, azad xalqıq və müstəqilliyimizi qorumağa qadir olmalıyıq. Ancaq bunun üçün gərək hamı döyüşkən olsun, hamı mübarizəyə qalxsın, ayağa qalxsın. Yoxsa bir tərəfdən qan tökürük, bir tərəfdən köçkünlər yer tapmır, o biri tərəfdən insanlar şan-şöhrət içindədir, ziyafətlər, toylar keçirir. Burada adət olubdur, şabaş tökürlər, bəylərin, gəlinlərin başına minlərcə, on minlərcə pul yağdırırlar. Bu bizim xalqın faciəsidir. Mən heç də bu şənliklərin əleyhinə deyiləm, ancaq bizim ümumi dərdimiz var. Neçə ildir, biz bu dərdin içindəyik. Bəli, İkinci Dünya müharibəsində, Böyük Vətən müharibəsi vaxtı bizim ümumi bir Sovet ölkəsinin tərkibində olmağımıza baxmayaraq, xalqımız belə əhvali-ruhiyyədə deyildi. İndi bizim torpağımız əldən gedir, onda bizim Azərbaycan torpağı heç əldən getməmişdi, Rusiyanın, Ukraynanın torpaqları əldən getmişdi, yüz minlərcə adamımız orada vuruşurdular, vətən yolunda canlarını qoyurdular. Ancaq indi Qarabağda torpaqlarımız əldən gedir, insanlar

qırılır, hər gün şəhid veririk, insanlar qaçır, yaşamağa yer yoxdur. O biri tərəfdən də insanlar kef içindədir. Dünən vəzifəyə gəlmiş bəzi təsadüfi adamlar icra hakimi və sair olan kimi... O pullar haradandır? Rüşvətxorluqla, cürbəcür çirkin işlərlə məşğul olaraq xalqın qanını sorublar. Bunlar hamısı bu günün gerçəkliyidir. Nə qədər acı olsa da, bizim üçün nə qədər dəhşətli olsa da, bunu demək lazımdır. Mən bir vətəndaş kimi bunu deməyi özümə borc bilirəm və heç kəsdən də utanmıram, heç kəsdən də çəkinmirəm. Bəli, biz torpaqlarımızı qorumağı bacarmalıyıq, ordumuz olmalıdır, xalqımız ayağa qalxmalıdır, hamımız səfərbər olmalıyıq, ya ölməliyik, ya da Azərbaycanın müstəqilliyini sözlə deyil, meydanlardakı çıxışlarla deyil, cəbhədə təmin etməliyik, torpaqları geri qaytarmalıyıq.

Güman edirəm ki, Məclis üzvləri də bu fikirləri bölüşəcəklər. Başqa fikir olsa da, şübhəsiz ki, biz müzakirə etməyə hazırıq. Əsas məqsədimiz aydındır. İndiyə qədər çox məğlubiyyətlərə uğramışıq. Əsas məqsədimiz odur ki, artıq bizim respublikanın həyatında və xüsusən işğal olunmuş torpaqların geri qaytarılmasında, Azərbaycan vətəndaşlarının həyatının mühafizə olunmasında ciddi dönüşlər yaratmalıyıq. Bu bizim borcumuzdur, bu, Məclisin borcudur. Bu Məclisdə toplaşan adamlar, Məclisin üzvləri bütün vətəndaşlar qarşısında böyük məsuliyyət daşıyırlar. Hər biri məsuliyyət daşıyır. Hər kəs məsuliyyətini bilməlidir. Hər bir vəzifəli şəxs öz məsuliyyətini bilməlidir. Mənim bu barədə məlumatım bu qədər. Əgər ayrı-ayrı bəyanatlar barədə – onların bəziləri mətbuatda dərc olunub – geniş məlumat almağa ehtiyac varsa, mən imkan verə bilərəm ki, bizim Birləşmiş Millətlər Təşkilatına yazdığımız məktub, sonra başqa dövlətlərin verdikləri bəyanatlar, Ağdam hadisəsi ilə əlaqədar olaraq bəyanatlar burada bir dəfə oxunsun. Əgər ehtiyac varsa, mən Məclis üzvlərindən soruşuram, bunu etmək olar. Lazımdır, yoxsa deyil?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Lazım deyil. Sənədlər məlumdur. Əgər suallar varsa, cavab verə bilərəm. Mənə nə sual verəcəksiniz?

Təhmasib Novruzov – Ağdam rayon Xalq deputatları Məclisinin sədr müavini söz istəyir. Etirazınız yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyursun.

**Təhmasib Novruzov,** ***Ağdam rayon Xalq deputatları Məclisinin sədr müavini.*** Hörmətli sədr, hörmətli Məclis üzvləri, Ağdamın işğalı

ilə əlaqədar burada çox vaxt almaq olar. Elə məsələlər var ki, onları xırdalamağa, izahına, problemlərin açıqlanmasına ehtiyac olsa, vaxt çox gedər. Mənə elə gəlir ki, bu məsələlər hələ müəyyən orqanlar tərəfindən araşdırılandan sonra deyilməsi məqsədəuyğundur. Lakin mənim bu gün Məclisə gəlməkdə məqsədim bütün ağdamlıları hədsiz narahat eləyən bir-iki məsələni Milli Məclis üzvlərinin nəzərinə çatdırmaqdır. Birincisi, keçən ayın 12-dən bu vaxta qədər Ağdamın başına gələn müsibətlər, demək olar, hər gün qrad və digər qurğulardan atəşə tutulması, qızğın döyüşlərin getməsi, rayon əhalisinin çox güclü şəkildə birləşərək müdafiəyə qalxması və belə bir vaxtda rayon icra hakimiyyəti başçısının dəyişdirilməsi rayon əhalisini bu gün də çox narahat eləyir. Bu hansı addımdır? İyulun 16-da rayonda icra hakimiyyətinin başçısı Nadir İsmayılov, mən Sizə bildirim ki, heç bir fərman olmadan vəzifədən kənarlaşdırıldı və yerinə başqa bir adam Kərimov Qasım – Azərbaycan Respublikası Ali Sovetinin deputatı icra hakimiyyətinin başçısı təyin edildi. Mən ona görə deyirəm ki, bu məsələləri, bəlkə də, hələ açıqlamaq lazım deyil, amma konkret olaraq silahlı qüvvələr rayona gəldi, icra hakimiyyətinin binasını əhatə elədi, Nadir İsmayılovu binadan çıxardı, yerinə Qasım Kərimovu əyləşdirdi və bildirdi ki, sən rayonu idarə eləməlisən. Sonra da belə bir məlumat verildi ki, Heydər Əliyev və Surət Hüseynov Qasım Kərimovun icra hakimiyyətinin başçısı olmasını məsləhət bilir və bunun üçün rayon sovetinin sessiyasının qərarı lazımdır. İyulun 16-da həmin sessiya çağırıldı, rayonun rəhbərsiz qalmaması xatirinə deputatlar belə qərara gəldi ki, indiki vəziyyətdə rayonu başsız qoymamaq üçün buna getsinlər. Belə bir qərar rayon sovetinin sessiyasında qəbul edildi. Lakin bu günə qədər fərman yoxdur. Onu da nəzərinizə çatdırım. İyulun 17-də fəallar yığıncağı keçirildi. Orada mənim Milli Məclis üzvlərinin nəzərinə çatdırmaq istədiyim əsas məsələlərdən biri budur. Fəallar yığıncağının yeni təyin olunmuş icra hakimiyyətinin başçısı bildirdi ki, mən gecə saat 2-də Heydər Əliyevlə və Surət Hüseynovla telefon danışığı aparmışam. Onlar mənə bildirib ki, kənardan gələn qüvvələr, xüsusən Gəncədən gələn qüvvələr rayondan çıxarılacaq, rayonda təcili səfərbərlik eləməlisiniz, yerli qüvvələri cəlb eləməlisiniz, rayonu yerli qüvvələr hesabına qorumalısınız. Bunun həqiqətə nə qədər uyğun olub-olmaması ilə maraqlanmadan hamımız çalışdıq, rayonda bir günün ərzində 250 nəfər hərbi komissarın ixtiyarına verildi. İyul ayının 20-də əlavə 300 nəfər qüvvə. Heç kəs çağırışdan boyun qaçırmırdı, çağırış göndərilən hər kəs o saat gəlirdi. 300 nəfər saat 3-də çağırıldı.

Rayonun briqada komandiri, rayonun icra hakimiyyətinin başçısı gələcəklər və bu 300 nəfəri də təhvil alıb müəyyən mövqelərə göndərəcəklər. Onlar hamısı hərbi xidmət görmüş, 35 yaşına qədər olan gənclərdir. Çox təəssüf ki, saat 3-dən 8-ə qədər bu adamlar gözlədi, amma heç kəs gəlib onları təhvil almadı.

Nəhayət, məlumat verildi ki, gedin, səhər saat 9-da sovet sədrləri və təsərrüfat rəhbərləri burada olsun. Həmin gün səhər saat 6:20-də ermənilərin güclü hücumu başladı. Mən bu anı heç də təsəvvürünüzdə canlandıra bilməyəcəyəm. Mən inanmıram ki, 1941–1945-ci illər müharibəsində də belə dəhşətli vəziyyət yaranıb. Hər addımbaşı qrad, mərmi tökülürdü. Amma saat 11-ə qalmış orada olan batalyon, üzr istəyirəm, briqada komandirinin müavini, köməkçisi icra hakimiyyətinə gəldi. Bizə dedi ki, artilleriya komandirimizi tank vurub, xahiş edirəm, bəlkə, yerini deyəsiniz. Həmin adam bizim rayonun həkimi Ədalət Heydərovla gəlmişdi. Artilleriya komandiri saat 11-ə qədər tapılmamışdı. Nəhayət, saat 5-də tapılan artilleriya komandirinin əmri. Heç kəs də atmırdı. Təxminən saat 5 radələrində verilən komanda əsasında cəmi, mən deyim ki, həmin gün qaranlıq düşənə qədər 10-15 cavab atəşi açılıb.

İyulun 21-də saat 17-18 radələrində – dəqiq bilmədim, Gəncədən, ya haradan gəldi, amma həmin gün səhər mən telefonla danışmışdım – həmin axşam bizə kömək göndərildi. Saat 10-11 radələrində bütün mülki şəxslər bu qüvvələrin yerləşdiyi yerlərdən kənarlaşdırıldı və bildirildi ki, əməliyyat hazırlanır, ona görə siz burada olmamalısınız. Həmin gecə heç bir əməliyyat olmadı. Səhər, təxminən saat 10 radələrində icra hakimiyyətinin ətrafında döyüşlər gedirdi. Artıq poçt, rabitə qovşağı dağıdılmışdı, rabitə xətləri tamamilə kəsilmişdi. Belə bir vəziyyətdə biz şəhəri tərk edib, Bərdəyə gəlib, oradan yenidən əlaqədar təşkilatlarla əlaqə saxlamaq istədik.

Mən balaca bir əlavəni nəzərinizə çatdırmaq istəyirəm. Çox qəribədir, saat 10 radələrində biz icra hakimiyyətinin binasından çıxıb Bərdəyə tərəf gəldik. Təxminən saat 12 radələrində Ağdamın Ağcabədi tərəfdən girəcəyində bizim 3 nəfər adamımız yaralı gəldi. Birinin meyiti orada qalmışdı, şəhid olmuşdu. Bir nəfər gəlmişdi, ət kombinatının qarşısında gülləyə tutulmuşdu. Yəni nə qədər böyük qüvvəymişlər ki, az bir müddət ərzində, görəsən, yüyürə-yüyürə gəlirdilər, yaxud maşınla gəlirdilər. Yəqin ki, hücum eləyən düşmən addım-addım, qarşıdakı yolları yoxlaya-yoxlaya gəlib. Çox qəribə bir mənzərə yaranıb.

Nəhayət, mən bir məsələyə toxunmaq istəyirəm. Hörmətli sədr, srağagün Bərdədə olan müşavirələrdə iştirak edirdim. Açıq deyirəm, bizim icra hakimiyyətinin başçısı da məsələni belə qoydu ki, rayonda ayrı-ayrı qüvvələr, qarşıdurma, təxribat yaradanlar vardı və bu gün də hələ özümüzdə olan kəndlərdən əhalini zorla çıxarmaq istəyən qüvvələr var. Bəzi gecələr hərbçi gedib evdən qoyunları güclə əhalinin əlindən alıb gətirir ki, mən acam, çörək yeməliyəm, 3-5 qoyun kəsib yeyənlər var. Mən bu barədə geniş danışmaq istəmirəm. Belə məsələlər bu gün də var.

Mən konkret bir fakt deyirəm. Əvvəla, Ağdamda rəsmi qeydə alınan iki ictimai-siyasi təşkilat var. Biri Xalq Cəbhəsidir, biri də ziyalı cəmiyyətidir. Ziyalı cəmiyyətinin fəaliyyəti bir neçə ay bundan əvvəl dayandırılıb. Xalq Cəbhəsinin fəaliyyəti var. Yerdə qalan heç bir partiya rəsmi qeydiyyatdan keçməyib və fəaliyyəti də yoxdur. Ağdamda heç bir partiya qarşıdurması olmayıb.

Heydər müəllim, mənim Sizə şəxsi hörmətim var və bunu Siz özünüz bilirsiniz. Mən Naxçıvanda da dedim. Bu gün Sizə bu cür məlumatların çatdırılması və şəxsən Sizin dilinizdən belə sözün çıxması Ağdam camaatını narahat edir. Biz bu sözün olmasını istəməzdik. Biz istəməzdik ki, Ağdam camaatı parçalanma hesabına rayonu kimlərəsə qurban versin. Bəli, vəzifəpərəstlər olub, var, gələcəkdə də olacaq. Qan üzərində vəzifəyə gəlmək istəyənlər də var. Bakıda da, Ağdamda da var. Amma bugünkü vəziyyətdə Ağdamda siyasi cəmiyyətlər arasında qarşıdurmalar var. Düzgün deyil. Mən bu barədə çox xahiş edirəm. Ağdamlıların özünü də bu məsələ narahat edir. Xahiş edirəm, bu məsələdə ehtiyatlı olaq.

Ən nəhayət, 12 iyun və 4-5 iyul hadisələri haqqında. İyunun 12-də, hamınız bilirsiniz ki, respublikada yaranmış gərgin vəziyyətlə əlaqədar Ağdamın Əliağalı kəndi istiqamətindən ermənilər hücuma keçdi və bir günün içində 8 kəndi işğal elədilər. Həmin vaxt həmin zonada dayanan daxili qoşunlar, əslində, oranı dinməzcə təhvil verib çıxmışdılar. Sonra uzun müddət Paprəvənd uğrunda döyüşlər getdi. Bu faktı deməyə hamımızın haqqı var ki, Paprəvənd, Boyəhmədli kəndləri əldən gedəndən sonra bu kəndin camaatını hansı isə qüvvələr, doğrudan da, qızışdırıb rayonda bir gərginlik yaratdılar.

Bu gün mənim bura gəlişimin və burada çıxış etməyimin iki əsas məqsədi var. Birinci, bayaq dediyim kimi, məhz respublikanın rəhbərliyi tərəfindən, respublikanın Prezident səlahiyyətlərini icra eləyən şəxs

və Baş nazir tərəfindən rayondan bütün əlavə qüvvələrin çıxarılacağı və rayonun yalnız yerli qüvvələr hesabına müdafiə olunacağının rayon icra hakimiyyətinin başçısı tərəfindən elan olunması məsələsi. İkinci məsələ də rayon əhalisi arasında qarşıdurma, parçalanma nəticəsində özlərinin rayonu kiməsə təhvil verməsi məsələsi. Bu məsələyə, xahiş edirəm, fikrinizi bildirəsiniz. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Hörmətli Təhmasib Novruzov. Mən məlumat verərkən dedim, bir də deyirəm, mən şəxsən Qarabağ, Ağdam əhalisinin qarşısında baş əyirəm. 5 ildir ki, bu əhali ağır şəraitdə yaşayır. Ağdam bu gün əldən getməyib, 6 ay da bundan qabaq boş idi. Ağdamda yaşayan o cəsarətli, qeyrətli adamlar həm hörmətə, həm də böyük ləyaqətə layiqdirlər. Ayrı-ayrı qruplar, mafioz qrupların haqqında deyilən sözlər heç də Ağdam əhalisinə, yaxud Qarabağ əhalisinə aid ola bilməz. Mən dedim və təkrar edirəm, Bərdədə də demişəm, Azərbaycanın ən gözəl guşəsidir, Azərbaycanın ən qüdrətli insanlarının əsrlər boyu yaşadığı bir yerdir. Ağdam da hamımız üçün müqəddəs, əziz bir şəhərdir, bir rayondur.

Bərdədə, Ağcabədidə həmin qaçqın düşmüş adamlarla görüşdükdə onların nə qədər daxili mənəviyyata malik olduğunu bir daha hiss etdim. Yenə deyirəm, mən onların qarşısında baş əyirəm. Ancaq Siz inkar eləyə bilməzsiniz ki, mafioz qruplar, ayrı-ayrı vəzifə hərisləri, öz çirkin məqsədlərinə başqa adamların əzilməsi, qırılması, torpaqların verilməsi yolu ilə nail olmağa çalışan adamlar da var. Onlar hər yerdə, Azərbaycanın hər yerində, o cümlədən Ağdamda da var. Bu da inkarolunmaz həqiqətdir. Mən bunlar haqqında deyirəm.

O ki qaldı Sizin dediyiniz icra hakimi məsələsinə, kim deyib ki, guya Heydər Əliyevlə razılaşıb, yaxud telefonla danışıb? Mənim heç kəslə telefon danışığım olmayıb. Kiminsə ora təyin olunması haqqında, icra hakiminin dəyişməsi haqqında nə mənim razılığım olub, nə də məndən sorğu olub. Mən bunu sizə məlumat üçün deyirəm. Əgər bu işi özünüz özbaşına görmüsünüzsə, özünüz də cavab verin.

Şadman Hüseynov söz istəyir, buyursun.

**Şadman Hüseynov.** Heydər müəllim, Sizin məlumatı dinlədikdən sonra ifadə işlətdiniz ki, siyasi qruplaşma var. Biz hamımız bilirik ki, orada tayfa davası gedir. Ancaq həmin tayfalar, görünür ki, öz mübarizələrinə siyasi don geydirmək istəyirlər. Çünki “siyasi” dedikdə, orada bizim də, Milli İstiqlal Partiyasının da üzvləri var. Biz istəməzdik ki,

bizim partiyanın üzvlərinin də adına belə bir söz-söhbət çıxsın. Azərbaycanda, ümumiyyətlə, müharibənin getdiyi hiss olunmur. Tək bu gün deyil, 5 il müddətində hiss olunmayıb ki, Azərbaycanda müharibə gedir. Onun hiss olunmamasının birinci səbəbini mən onda görürəm ki, həmin 5 il müddətində dövlət səviyyəsindən başlayaraq aşağı səviyyələrdə də müharibənin getdiyi görünməyib. Zalda dəfələrlə təkliflərlə çıxış eləmişik ki, Azərbaycanda müharibə vəziyyəti elan edilməlidir. Əks arqumentlər də olub ki, Azərbaycan müharibə elan edə bilməz, çünki Ermənistan Azərbaycana hücum eləməyib, ancaq Dağlıq Qarabağdan ermənilər guya öz qanuni hüquqlarını müdafiə eləmək üçün mübarizə aparırlar.

Biz bu gün görürük ki, Ağdam da əldən getdi, Füzuliyə də, o biri rayonlara da hücumlar var. Hətta Qazaxdan tutmuş bütün qərb zonasında ermənilər təcavüzlərini davam etdirirlər. Ona görə mən təklif edirəm ki, Azərbaycanda müharibə vəziyyəti elan edilsin. Dövlət səviyyəsindən tutmuş aşağıya kimi. Müharibənin qanunları həmin dövrdə işləməlidir. Səfərbərlik elan edilməlidir. 18 yaşında uşaqları hərbi xidmətə çağırıb bir-iki həftə, ya bir-iki ay hazırlayandan sonra onları döyüş meydanına göndərmək cinayətdir. 23-25 yaşından 40 yaşına kimi hərbi qulluqda olmuş, fiziki cəhətdən imkana malik olanlar çağırılmalıdır, döyüş meydanına göndərilməlidir. Lazımi texnika, sursat alınmalıdır. Bunların hamısını həyata keçirmək üçün həmin müharibə qanunları respublikada işləməlidir. Hamı bilməlidir ki, Azərbaycan müharibə eləyir, Azərbaycanın torpaqları gündən-günə işğal olunur. Ona görə də bütün xalq ayağa qalxmalıdır, səfərbərlik olmalıdır və biz Azərbaycanı erməni təcavüzündən müdafiə etməliyik.

Köçkünlərin problemi ilə bağlı. Düzdür, onlar Bakıda yerləşdirilə bilməzlər, Bakının buna imkanı yoxdur. Ancaq Azərbaycanın bir çox rayonlarında həmin köçkünləri yerləşdirməyə imkan var. Bizim komitə var, işə başlamalıdır. Mən təklif edərdim ki, Azərbaycanın şimal-qərb zonasında, şimal zonasında, cənub zonasında imkan olan yerlərdə həmin qaçqınlar yerləşdirilsin. Bu problemə dövlət səviyyəsində baxılmalıdır. Mən xahiş edirəm ki, mənim bu təkliflərim nəzərə alınsın.

**Sədrlik edən.** Şadman müəllim, "siyasi oyunlar" deyəndə Siz o dəqiqə öz partiyanız haqqında düşünürsünüz, qorxursunuz. Siyasi oyunu elə tək partiyalar aparmır ki. Hamı aparır. İndi hamı siyasətçi olub. Ona görə siz düşünməyin ki, mən hansısa partiyalar haqqında deyirəm. Ağdamda biri gəlib, özbaşına adam təyin edib. Mən yenə öz fikrimə

qayıdıram, Ağdam əldən gedir, burada durub vəzifə davası edirlər ki, kim hansı vəzifə tutmalıdır. Vəzifə davasıdır, siyasi davadır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Cavab vermək istəyirsən? Buyur.

**Şadman Hüseynov.** Söhbət hər hansı qorxudan getmir, ümumxalq arasında da müəyyən fikirlər var. Həmin o siyasi qruplar, həmin o siyasi partiyalar, həmin vəzifə davasını aparanlar, tayfa davasına qoşulanlar – onların adları çəkilsə, yaxşı olar. Bu bir. İkincisi də, hazırda biz bu Məclisdə Ağdamın getməsini təhlil eləyə bilmərik, çünki orada mürəkkəb proseslər var. Gələcək istintaq onu müəyyənləşdirə bilər. Yenə təkrar edirəm, qorxu hissi ilə deyil, yaxşı olar ki, hər kəs və hər şey öz adıyla qeyd olunsun.

**Sədrlik edən.** Bəli, Şadman müəllim, mən məlumat verməyə başlayarkən dedim ki, Qarabağda olan vəziyyəti, yaxud Ağdamın işğal olunması məsələsini təhlil etməyə indi imkan yoxdur və hesab etmirəm ki, bizim bugünkü Məclis bunun təhlili ilə məşğul olmalıdır. Mən, sadəcə, gündəliyin məzmununa görə bu barədə məlumat verdim. Ancaq məlumat verərkən mən öz fikrimi deyirəm. Ona görə də mən təhqiqat aparmamışam deyəm ki, hansı qrup neyləyib, neyləməyib. Lazım olsa, gələcəkdə bunu təhlil eləyən, təhqiqat aparan səlahiyyətli təşkilatlar olacaq, onlar aydınlaşdıracaqlar. Mən öz fikrimi, kənardan müşahidələrimi deyirəm. Mən burada olduğum dövrdə, Ağdam əldən getdiyi vaxtda oradan biri deyirdi ki, filankəs icra hakimi olsun, buradan biri deyirdi, filankəs olsun, o biri deyirdi, filankəs gəlməlidir. Nəhayət, özbaşına kimsə hakimiyyətə gəlib. Burada da deyirlər ki, Azərbaycanın rəhbərliyi buna razı olub. Bizim heç xəbərimiz olmayıb. Bu nə deməkdir? Vəzifəli, vəzifəsiz gərək şəhəri qoruyardı, rayonu qoruyardı. Bunun üçün vəzifə lazım deyil ki? Söhbət bundan gedir.

Etibar, Sənə söz verəcəyəm.

**Etibar Məmmədov.** Mən çıxış eləmək istəmirəm, sadəcə, Şadman müəllim danışandan sonra və Sizin çıxışınızda olan məsələyə münasibətiniz haqqında bir neçə kəlmə demək istəyirəm. Ağdamda baş verən hadisələr, ümumiyyətlə, Azərbaycanda, Ağdamda icra hakimiyyəti uğrunda mübarizə gedibsə, bu, siyasi mübarizə deyil, ayrı-ayrı adamların vəzifə uğrunda mübarizəsidir. Bunu siyasi mübarizə həddinə çatdırmaq və o şəkildə qələmə vermək xalqın arasında çaşqınlıq yaradır. Sizin də xəbəriniz olmayıbsa ki, orada kim icra hakimiyyətinin başçısıdır, bu

da dövlətin müharibə bölgələrinin, xüsusən də Azərbaycanın ayrı-ayrı bölgələrinin bir qədər nəzarətindən kənarda buraxılmasına şəhadət göstərir. Ona görə də bu vəziyyəti aradan qaldırmaq lazımdır. Bir yerdə hadisə baş verəndən sonra bildirilməsin ki, orada kimin icra hakimiyyətinin başçısı olmasından heç kimin xəbəri olmayıb.

**Sədrlik edən.** Rauf İsmayılov.

**Rauf İsmayılov.** Hörmətli sədr, əvvəlcə onu deyim ki, mən Şadman müəllimin xətrini istəyirəm. Bir şeyi demək istəyirəm ki, Azərbaycandan nə qədər torpaq gedibsə, hamısı siyasətin qurbanı olub. İstər Şuşa, istər Kəlbəcər, istər Laçın, istərsə də Ağdam, hamısı siyasət qurbanıdır, bunu heç kəs inkar edə bilməz.

Mən Sizin ATƏM-lə əlaqədar çıxışlarınızla, mətbuat konfransı ilə əlaqədar bir-iki kəlmə sözümü demək istəyirəm. Əlbəttə, mən Sizin qədər güclü siyasətçi ola bilmərəm, amma bir şeyi demək istəyirəm ki, biz BMT-nin 822 nömrəli qərarından sonra ATƏM-ə bel bağlamalı deyilik. Əbülfəz Əliyevin bir dövlət müşaviri var, o ya çox güclü siyasətçidir, ya da buqələmundur, gündə bir dona girir, gündə 15 dəfə çıxış eləyir. Hər çıxışında da deyir ki, ATƏM-də Mario Rafaelli ilə əlaqə saxlamışam, danışmışam, belə eləmişəm, elə eləmişəm. 822 nömrəli qərarı televiziyada uşaq sevinci ilə elan elədi ki, muştuluq verin, "füqəra" sütununu sındırmışıq. Bədbəxt fəqərəylə füqəranı da seçə bilmir. Ondan sonra biz gərək özümüzə yaxşı nəticə çıxaraydıq ki, ATƏM-in çərçivəsində Mario Rafaelli bizə neyləyəcək. Mario Rafaelli gəlməli idi, gəlmədi. Xalq arasında böyük bir çaşqınlıq əmələ gəlmişdi. O qədər demişdi ki, Mario Rafaelli gəlmədisə, deməli, biz batdıq. Hamı deyirdi ki, vəziyyətimiz ağırlaşacaq, Mario Rafaelli gələsi olmadı. Yəni o, 822 nömrəli qərarı zibil yeşiyinə tulladı, heç saymadı da. Yəni mən Sizin dediyiniz axırıncı sözlə birləşdirmək istəyirəm ki, hörmətli sədr, artıq bizim səbir kasamız dolub. Biz nə ATƏM-ə, nə də BMT-yə bel bağlamalıyıq. Bu mənim şəxsi fikrimdir. Bəlkə də, Siz güclü siyasətçi deyilsiniz. Yəni mən məsələni axıra qədər aparıram, qoy bütün beynəlxalq aləm görsün ki, məsələni siyasi yolla həll eləyək.

Mən 50 yaşımı keçirmişəm. Millət vəkiliyəm. Bu saat siyasi çərçivədə heç bir şey həll eləyə bilməyəcəyik. Bizim bu saat yeganə məqsədimiz Sizin sonda dediyiniz cümlədir ki, səfərbərlik elan olunmalıdır, hamımız qeyrətə gəlməliyik, ya qırılmalıyıq, ya da bir millət kimi yaşamalıyıq. Sürünə-sürünə yaşamaqdansa, yaşamamaq yaxşıdır. Siz çox yaxşı

dediniz, mən istəmirəm ki, Azərbaycan xalqı aciz bir xalq kimi, qeyrətsiz bir xalq kimi tarixə düşsün.

Mənə belə gəlir ki, hörmətli sədr, biz bu saat nə ATƏM-in, nə də BMT-nin təzə bir qərarını gözləməliyik. Biz ancaq özümüzə bel bağlamalıyıq. Qonşuya ümid olan çıraqsız qalır. Səfərbərlik elan eləməliyik. Bayaq Şadman müəllim yaxşı dedi ki, müharibənin qanunları var. Bu məsələni hərbi yolla həll eləmək lazımdır. Özü də mənə belə gəlir, burada hansısa siyasi barmaqlar olmasa, inanıram ki, erməni gəlib buranın bir qarış torpağını da ala bilməz. Əgər bizim qeyrətli camaatımızı, bizim qeyrətli cavanlarımızı ayağa qaldıra bilsək, erməni bizim bir qarış torpağımızı da ala bilməz. İndi biz söz güləşdiririk. Ermənilər deyir ki, Dağlıq Qarabağın öz qoşunlarıdır, öz adamlarıdır. Biz Dağlıq Qarabağla deyil, Ermənistanla müharibə aparırıq. Artıq bunu dərk eləməliyik, hiss eləməliyik. Mənə belə gəlir ki, bütün respublikada hərbi vəziyyət elan eləməliyik. Hamımız imkanımız çatan qədər silah əldə eləməliyik, axırıncı əşyamızı da sataq, silah əldə eləyək. Bu şəkildə yaşamaq olmaz. Sürünə-sürünə yaşamaqdansa – mən özümə götürürəm – qeyrətsiz yaşamaqdansa, yaşamamaq yaxşıdır. Elə bir rayon yoxdur ki, Şəhidlər xiyabanı salmayaq. Şəhidlər xiyabanı salmışıqsa, görək bunun əsası nədir, kökü nədir, gələcəyi nədir. Mən bunun gələcəyini görmürəm. Gələcəyi odur ki, biz bütün respublika üzrə artıq hərbi vəziyyət elan eləməliyik. Bu, bir.

İkinci. Mən demək istəyirəm ki, hərbi komissarlıqlarda rüşvətxorluq baş alıb gedir. Camaatı buradan avtobuslara yığırlar, özü də heç kim bilmir ki, o uşaqları hara aparırlar. Axşam qapı döyülür, paltarlarını verirlər ki, uşaq gedib, Ağdama aparıblar. Buradan da bir dəstə adam gedir, Ağdamda pul verirlər, uşaqlarını geri qaytarırlar. Artıq burada özbaşınalıqdır. Hərbi komissarlıqlar ciddi şəkildə cəzalandırılmalıdır. Hər hansı bir əsgərin oradan geri qaytarılması respublika rəhbəri səviyyəsində müzakirəyə qoyulmalıdır. Biz üstünü vurmuruq, ona görə də hərbi komissarlıqlar, respublika hərbi komissarlığı ağıllarına nə gəlir, deyirlər. Məsələn, bu saat qayda-qanun var ki, hazırlıq fakültəsinin uşaqları imtahanlarını verməlidirlər. İmtahanlarını verə bilmirlərsə, kəsilirlərsə, əsgərliyə getməlidirlər. Bu saat camaatı qıraqda qoyub, hazırlıq kursunda oxuyan tələbələrin üstünə düşüblər. Kimin adamı varsa, azad eləyir ki, qoy mənim uşağım imtahanını versin, sonra aparsınlar. Kimin adamı yoxdursa, heç bir razılıq görmədən maşına basıb aparırlar. Ona görə də mən xahiş edirəm, Sizin sözünüzün üstünə qayıdıram,

ancaq hərbi səfərbərlik olmalıdır, hamımız ayağa qalxmalıyıq, hamımız silaha sarılmalıyıq. Hamımız torpaqlarımızı qorumalıyıq.

Hər dəfə biz ATƏM deyəndə, hər dəfə BMT-nin qərarına arxalanıb bel bağlayanda görürük ki, bir rayonumuz əldən getdi. Bu yaxınlarda danışırdılar ki, biz Ağdama hücuma keçmək istəyirik. Deyirlər ki, hücuma keçməyək, bir-iki gün gözləyək. Çünki razılıq əldə olunub ki, atəş açılmasın. Razılıq vardırsa, o, erməniyə aid deyildi. Yəni dediyim odur ki, erməni bizi 5 il aldada-aldada, fırıldaq gələ-gələ bir-bir rayonlarımızı boşaldır. Ona görə mən xahiş edirəm, bu gün buradaca Sizin çıxışlarınız əsasında qoyulmalıdır ki, respublika üzrə hərbi səfərbərlik elan olunsun və hamı silaha sarılmalıdır. Artıq danışıqlar bizə heç bir nəticə verən deyil. Çox sağ olun.

**Sədrlik edən.** Sizin fikrinizə aydınlıq vermək istəyirəm ki, şayiələrlə yaşamaq olmaz. Kimsə deyib ki, Ağdama hücuma keçmək lazım deyil idi, yox, hücuma keçməyin, çünki ATƏM-in qərarını gözləyirik. Ağdamda hücuma keçməyə güc yoxdur, bilirsiniz, yoxsa yox? Gücü varsa, keçsin. Küçədə danışılan şeyləri əsaslandırmaq lazım deyil. Televiziyada çox məsuliyyətsiz danışırlar. Güc olsaydı, niyə Ağdamı saxlamırdılar? Niyə o kəndlər dalbadal getdi?

Cümşüd Nuriyev.

**Cümşüd Nuriyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Ümumiyyətlə, bütün müharibələr danışıqlarla bitir. Burada aparılan danışıqlara necə istəsəniz, o şəkildə də baxmaq olar, amma hər halda o danışıqlar getməlidir. Bu, dövlətin apardığı siyasətdir. Danışıqlarda səhvlər də var. Vaxtilə burada qapalı iclasda da demişik, bunu açmağın mənası yoxdur. Amma Ağdam barəsində bir neçə kəlmə demək istəyirəm. Azərbaycanda ilk şəhidi məhz Ağdam verdi. 1988-ci il fevralın 22-dən 5 il 6 ay yeganə Ağdam dözdü. Bütün Qarabağda.

Mən bir şeyi də nəzərinizə çatdırmaq istəyirəm ki, Qarabağın hər hansı bir yaralısı, ölüsü, qaçqını olan kimi birinci Ağdamda yerləşdirildi və birinci cavabı da Ağdam verdi. Amma 1988-ci ildən deyil, Ağdam 1992-ci ilin fevral ayından xüsusən siyasətləşməyə başladı. Aydın məsələdir. Ağdamda 3 böyük qrup var idi. Ağdamlılar bunu yaxşı bilirdilər. Azərbaycan orada məhv oldu ki, onun ordusu siyasətlə məşğul olmağa başladı. Bir dəstə özünü Xalq Cəbhəsi elan elədi, bir hissəsindən icra hakimləri özlərinə silahlı dəstə yaratdılar, digərindən isə ərazi müdafiə batalyonları yarandı və Azərbaycan ordusu parçalandı. Bunun

nəticəsində də Azərbaycanda birinci Xocalı qurban verildi. Məqsəd nə idi, aydındır – hakimiyyət davası. Nə qədər ki bu millətdə hakimiyyət davası var, digər ərazilər də gedəcək.

Ağdam indi verilməyib, Ağdam Abdal-Gülablı veriləndə əldən getdi. 9 ay bundan qabaq. Dəfələrlə o məsələ qaldırıldı ki, Ağdamın strateji nöqtələri ələ keçirilir. Heç bir nəticəsi olmadı. Ağdam onda verildi ki, qoşun çıxarılıb Gəncəyə yeridildi, birdən-birə 19 kənd əldən getdi. Ağdamın ətrafındakı bütün təpələr əldən getdi. Ola bilər, Ağdamın içərisində, hər yerdə elə adamlar var, hakimiyyət davası gedib. Tutaq ki, Nadir İsmayılovu çıxardılar, Qasım Kərimov gəldi. Axı bunların hər ikisi ağdamlı idi və hər ikisinin ailəsi orada yaşayırdı. Dəxli nədir, kim hansı vəzifəni daşıyır? Respublikada müəyyən özbaşınalıqlar var. Amma bu o demək deyildi ki, bunlar bir-birinə acıq eləyib Ağdamı verməliydilər. Axı Ağdamın içərisində ermənilərə qarşı belinə qumbara bağlayıb özünü tankın altına atan oğlanlar da vardı, ağdamlılar da vardı. Bunu da demək lazımdır. Öz ailəsini məhv eləyib çıxan ağdamlı da var, ələ keçməmək üçün yandırıb çıxan ağdamlı da var. Bunları da nəzərə almaq lazımdır. Belə adamlar qarşısında baş əymək lazımdır.

Ağdam məhz ona görə verildi ki, bu, Azərbaycanda artıq adət halını alıb. Hər dəfə bir yer verilir ki, növbəti addım atılsın və növbəti adamlar hakimiyyətə gəlsin. Ağdamın verilməsinə ən çox burada müxtəlif don geydirə bilərlər. Hər halda, birinci aksiya Baş nazir Surət Hüseynova qarşı idi. Sonra Ali Sovetin sədrinə qarşı idi, çünki güc nazirlikləri bilavasitə ona tabe idi.

Mən özüm də şahidi olmuşam ki, buna sevinən adamlar var, hətta Ağdamın getməsi ilə bağlı zəng edib məni təbrik edənlər də olub. Güc nazirlikləri elə adamlardır ki, onlar heç adlarının çəkilməsinə layiq deyillər, amma hər halda, mənsub olduqları...

Məsələ ondadır ki, Ağdamdan sonra növbəti qurban var. Burada Füzuli məsələsi var. Mən dünən icra başçısı ilə danışmışam. Füzulidə artıq Ağdamda olan təxribatlar başlayıb. Hərbçi şəklində camaatın içinə girirlər, Ağdamda olan söhbətləri aparırlar ki, onsuz da verilib, nəyi gözləyirsiniz. Bu özbaşınalıq indi də davam eləyir. Füzulinin əldən getməsinin qarşısını almaq lazımdır. Ağdamı verənlər... Burada söhbət gedir, hər halda Ağdamın verilməsi ağdamlıların günahı deyil, bütün Azərbaycanın günahıdır.

Bu məsələləri araşdırmaq üçün hüquq-mühafizə orqanları var, bu onların səlahiyyəti daxilindədir. Amma Ağdamda həmin mafioz qruplar

yenə də öz işlərini davam etdirirlər. Burada təkcə qarabağlılar deyil, onları kənardan daha çox idarə edirlər. Burada da məqsədlər məlumdur ki, yenə kiminsə hakimiyyət davası var. Mən hamıya deyirəm. Dəxli yoxdur ki, kim vəzifədədir, kim hakimiyyətdədir, amma bütün bunların nəticəsində xalq əziyyət çəkir və Azərbaycan torpaqları əldən gedir. Bu məsələni, heç olmasa, indi dərk eləsinlər. Azərbaycan ərazisinin 17 faizi gedib, daha 12 faizi də gedə bilər. Bu təhlükə Azərbaycan üçün gözlənilir. Heç olmasa, indi ayılsınlar. Hakimiyyət davası qurtarsın.

Qaldı ki Azərbaycan ərazisində müharibə elan eləməyə, mən əminliklə deyirəm, həmin siyasiləşmiş ordu ilə Azərbaycan indiki vəziyyətdə heç bir müharibə apara bilməz, çünki ordu tam siyasiləşib, müxtəlif siyasi cərəyanlara xidmət eləyir. Tam etiraf eləməliyik. Hər halda, ordu formalaşana qədər ərazilərimizi də qorumalıyıq. Azərbaycanda ancaq hərbi vəziyyət elan oluna bilər. Müharibə eləmək üçün Azərbaycanın elə bir böyük imkanı yoxdur. Bu, eyni zamanda dünya tərəfindən də yaxşı qarşılanmaz. Hər halda, biz siyasi danışıqlara, siyasi addımlara da getməliyik, bunu da mən təbii sayıram. Amma bizim xarici siyasət sahəsində müəyyən səhvlərimiz var. Məsələn, Kəlbəcər veriləndə biz çox sevinclə dedik, dünyaya elan elədik... Hələ mart ayının 27-də olan söhbətdir. Milli Məclisdə olmuşdu. Hələ Kəlbəcər verilməmişdən elan elədik ki, biz artıq böyük qələbə qazandıq. Çünki artıq dünya Ermənistanı təcavüzkar kimi tanıyacaq. Amma çox təəssüf ki, 822 nömrəli qərarda elə bir məsələ yoxdur, yəni bu da bizim xarici siyasətdə müəyyən səhvlərimizdən, bəlkə də, təcrübəsizlikdən irəli gəlir. Hər halda, səhvlərimiz var, bunu etiraf eləməliyik. Sağ olun.

**Sədrlik edən.** Tapdıq Kamalov.

**Tapdıq Kamalov.** Hörmətli Heydər Əliyev, hörmətli millət vəkilləri. Əgər biz həyatımızın hər sahəsində, o cümlədən müharibədə uğurlar qazanmaq istəyiriksə, birinci növbədə, mütləq nizam-intizamı bərpa eləməliyik. Əgər o nizam-intizamı bərpa eləməyəcəyiksə, bizə çox çətin olacaq. Bəziləri bu nizam-intizamdan çox qorxur, bu sözü təkrar eləməkdən çox ehtiyat edirlər. Nizam-intizam heç də demokratiyanın boğulması deyil, heç də insan hüquqlarının pozulması deyil. Ancaq hər sahədə – kənd təsərrüfatında, cəbhədə və həyatın müxtəlif sahələrində nizam-intizam olarsa, mən şübhə etmirəm ki, bizim uğurlarımız da olar.

Biz Bərdədə də keçirilən müşavirənin canlı şahidi olduq. Mən çox təəssüf edirəm, o iclasa baxanda, doğrudan da, adama elə gəlir ki, gör,

bu gün bəzi nazirliklər bu xalqı necə idarə eləyir. Əgər doğrudan da, o nazir indiyə qədər qaçqınların bir problemi ilə də maraqlanmayıbsa, öyrənməyibsə ki, ona su lazımdır, benzini, ya başqa şeylər çatmır, o nazirlikdən nə gözləmək olar. Hörmətli Heydər Əliyev və hörmətli Baş nazir, mən çox gözləyirdim ki, həmin o müşavirədə o nazirlərin üçünü, dördünü işdən çıxaracaqsınız, yerinə bacarıqlı adamları təyin eləyib onlardan iş tələb edəcəksiniz. Gələcəkdə bunu eləmək lazımdır. Yenə təkrar edirəm, əgər bizdə...

**Sədrlik edən.** Məclisin ixtiyarı olmadan naziri çıxarmaq olmaz.

**Tapdıq Kamalov.** Təklif verilə bilər. Mən çox üzr istəyirəm, ancaq bu, lazım idi, hörmətli Heydər Əliyeviç. Burada çox təxribatlardan söhbət gedir. Xocalı verildi, dedilər, təxribatdır. Laçın, Şuşa, Kəlbəcər, Ağdam verildi. Özü də bu təxribatçıların adları qəzetlərdə hallanır. Mən çox xahiş edərdim, gələcəkdə bu təxribatçılar bir dəfə televiziyadan xalqa göstərilsin. Qoy xalq bilsin ki, onun xaini kimdir, torpağını satan kimdir, ona arxadan zərbə vuran kimdir. Qoy xalq bunu görsün.

Mən emosiyayla danışdığıma görə çox üzr istəyirəm. Ən nəhayət, axırıncı təklif. Əgər Prezident səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədrinin məlumatı dinlənilirsə, sözsüz ki, biz bunu nəzərə almalıyıq. Mən təklif edirəm ki, məlumat nəzərə alınsın. Sağ olun.

**Sədrlik edən.** Kamran Rəhimov.

**Kamran Rəhimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Əlbəttə, biz bu gün çox mühüm məsələni müzakirə eləyirik. Bu məsələ hamı üçün aydındır. İstər Bərdədə keçirilən müşavirənin televiziya vasitəsilə verilməsi, istərsə də, Heydər Əliyeviç, Sizin çıxışınız göstərdi ki, doğrudan da, Ağdam məsələsi bu 5 günün işi deyil, bu, çoxdan hazırlanıb. Burada bir sıra məsələlərə toxunmaq istəyirəm. Birinci, bu məsələlərin siyasi oyunun nəticəsi olması. Burada Ağdamdan çıxış eləyən Ağdam Rayon Soveti sədrinin müavini də təsdiq elədi ki, doğrudan da, bu, siyasi oyunların nəticəsidir. Nə cür olur, icra hakimiyyəti, icra başçısı ola-ola, kiminsə təsadüf nəticəsində deməsi ilə sessiya çağırılır, həmin adam icra hakimiyyətinə təsdiq olunur və heç kim yoxlamır ki, icra hakimiyyətinə keçən Ali Sovetin sədrinə, Baş nazirə istinad eləyir. Guya onlarla danışılıb, razılaşdırılıb. Heç kim soruşmur ki, siz gecə saat 3-də hara zəng elədiniz, necə zəng elədiniz, necə danışdınız. Bilirsiniz, bu məsələlər, əsasən, onun nəticəsidir ki, kimsə öz məsuliyyətini başqasının üzərinə yıxmağa çalışır. Bu, bir daha göstərir ki, doğrudan da,

başqalarındakı kimi, mən yenə deyirəm, biz "xəyanət, təxribat" sözlərini çox təkrar eləyirik, elə bu onların nəticəsidir. Ağdam da elə təxribatın, siyasi oyunların, intriqanın, hakimiyyət hərisliyinin nəticəsidir.

Mən bu yaxınlarda, iki gün bundan əvvəl Ağdamdan gəlmiş cavan oğlanla söhbət eləyirdim. Bu gün Sizin çıxışınızda dediyiniz sözləri o, bir daha təkrar elədi. O, bir qolundan yaralanmışdı, qohum-əqrəbalarının çoxu ölmüş, itkin düşənlər də vardı. Ağlaya-ağlaya danışırdı. Deyirdi, Ağdamın mərkəzində, demək olar ki, döyüş getmədi. Biz birdən xəbər tutduq ki, ermənilər üç tərəfdən Ağdamı əhatə ediblər. Hətta ratsiya ilə danışanda deyirdilər ki, əşi, siz özünüz deyirsiniz, biz gələk, Ağdamı tutaq. Bu nədir? Bu göstərir ki, doğrudan da, bir qrup adam var... O dedi ki, Ağdamda elə cinayət işləri, dağıntı işləri görülüb, hətta bəziləri çalışırdılar ki, Ağdam, heç olmasa, 2-3 saat ermənilər tərəfindən işğal olunsun, onlar da öz cinayətlərini ört-basdır eləsinlər. Bütün bunlar onu göstərir ki, doğrudan da, bizim daxilimizdə birliyin olmaması, siyasi oyunlar, intriqalar torpaqlarımızın dalbadal verilməsinə gətirib çıxarır.

İkinci, mən şərikəm və hamı da bilir ki, bizim ordumuz yoxdur. Ordunun yaradılması haqqında söhbət çoxdan gedir. Amma əslində bizim nizami ordumuz yoxdur, nizami ordu, güc olmayan yerdə düşmənə qarşı, təcavüzkara qarşı müharibə aparmaq, əlbəttə, çətindir.

Burada ATƏM-in xətti ilə olan danışıqlar barəsində söhbət getdi. Əlbəttə, biz danışıqlar aparmalıyıq və çalışmalıyıq ki, bu məsələlər sülh yolu ilə həll olunsun. Əgər sülh yolu ilə həll olunmasa, əlbəttə, güc yolu da əsas götürülməlidir və bunun üçün hazırlıq görülməlidir. Bunun üçün qüvvə toplamaq lazımdır. Bunları birdən-birə həll eləmək olmaz.

Mənim bir təklifim də var. Siz Səməd Vurğunun şeirini misal gətirdiniz. Dediniz ki, hamı, demək olar, əsgər kimi öz köməyini göstərməlidir. Məsələn, biz – Milli Məclis üzvləri də neçə gündür, oturub məsləhətləşirik ki, biz də öz gücümüzü göstərək. Bəlkə, qrupla, dəstələrlə rayonlara gedək, camaatla söhbət eləyək, xalq deputatları ilə bir yerdə əlimizdən gələn nə varsa, onu respublikamızın müdafiəsinə həsr eləyək.

Üçüncü məsələ. Burada deyirlər ki, hərbi vəziyyət elan olunsun. Axı bizim fövqəladə vəziyyət haqqında Milli Məclisin qərarı var. Mənə elə gəlir ki, həmin qərara yenidən baxmaq lazımdır. Bizə verilən layihədə onu yüngülləşdirmək deyil, daha da qatılaşdırmaq, daha da kəskinləşdirmək lazımdır. Nə vaxta qədər siyasi oyun oynayanlar, şayiə yayanlar, təxribat aparanlar kənarda qalacaqlar? Elə bir qərar qəbul olunmalıdır,

bəlkə də bizim Cinayət Məcəlləsinə elə maddələr salınmalıdır ki, şayiəyə görə ən ağır cəza, hətta ölüm cəzası verilsin. Çünki bu cür kəskin tədbirlərə əl atılmasa, əlbəttə, biz yeni qurbanların və yeni ərazilərin getməsinin şahidi olacağıq. Çox sağ olun.

**Sədrlik edən.** Şaitdin Əliyev.

**Şaitdin Əliyev.** Hörmətli sədr, hörmətli xalq deputatları. Bu gün Milli Məclisdə respublikada yaranmış vəziyyətlə və respublikada elan edilmiş müharibənin gedişi ilə əlaqədar olaraq, biz Ali Sovetin sədrinin, Prezidentin səlahiyyətlərini yerinə yetirən Heydər Əliyevin məlumatını dinlədik. Bu məlumatdan aydın olur ki, həqiqətən, respublikamızda olan vəziyyət olduqca ağırdır. Ağdamın getməsi hər bir vətəndaş kimi bizim də ürəyimizi ağrıdır. Biz inanırıq ki, sözsüz, respublikamızın əldən gedən torpaqlarının geri qayıtması üçün hamı əlindən gələni edəcəkdir. Mən bununla əlaqədar nə demək istəyirəm. Əgər biz bu gün istər sərhəd zonalarında, istərsə də müharibədə dönüş yaratmaq istəyiriksə, hökmən respublikada sabitliyə nail olmalıyıq. Əgər biz sabitliyə nail olmasaq, əl-ələ verib birgə hərəkət etməsək, yəqin ki, heç bir müvəffəqiyyət qazana bilmərik. Bu gün yoldaşlar qabaqcadan düzgün məsələ qaldırdılar ki, sabitliyə nail olmaq üçün nizam-intizamı gücləndirmək lazımdır. O veriliş zamanı biz gördük ki, müəyyən nazirlər danışır, onlar adi suallara cavab verə bilmirdilər, hətta yalan məlumat verirdilər ki, filan yanacaq vardır. Məgər gözləmək lazım idi ki, o müşavirədən sonra onlara göstəriş verilsin, yanacaqla və başqa məsələlərlə təmin olunsun? Nə qədər bizim Ağdamda taxılımız qaldı? Məgər nazirlər başqa məsələləri həll eləyə bilməzdilər?

Siz indicə dediniz ki, nazirləri dəyişmək üçün hökmən Milli Məclisin razılığı olmalıdır. Elə bilirəm ki, bu gün Milli Məclis yerində olmayan nazirləri dəyişməyi gecikdirə bilməz. Bu haqda, elə bilirəm, tez məsələ qoyulmalıdır ki, lazım olan rəhbərlər yerlərində otursunlar, öz məsuliyyətlərini hiss etsinlər.

Bununla əlaqədar olaraq bir məsələni də demək istərdim. Siz özünüz də qeyd etdiniz ki, yerlərdə icra hakimiyyət başçılarının müxtəlif surətlərdə təyin olunması xaos şəklinə gətirib çıxarıb. Köhnədən qalma yerli icra hakimləri özlərini müvəqqəti sayırlar. Bəziləri isə hansı yolla təyin olunublarsa, vəzifəyə gəliblərsə, lazım olan işləri aparmırlar ki, ola bilər, bu gün, ya sabah dəyişsinlər. Bunu düşünmək lazımdır. Yerlərdə icra hakimiyyəti başçılarını möhkəmləndirmək lazımdır ki, onlar qəti hərəkətlər etsinlər.

Siz bizim nizami ordumuzun yaranmasından danışırsınız. Dünən biz Baş nazirin çıxışına qulaq asdıq. O, çıxışında haqlı olaraq göstərdi ki, yerlərdə icra hakimiyyəti başçıları ordunun yaranmasında, səfərbərlikdə yaxından iştirak etmirlər. Mən elə bilirəm ki, bu məsələlərin həllini tez bir zamanda həll etmək lazımdır.

Sonra məsələlər qalxdı ki, biz hökmən ancaq müharibə yolu ilə müvəffəqiyyət qazanmalıyıq, siyasi danışıqlara girməməliyik. Mən elə bilirəm ki, bu, düzgün deyil, biz siyasi danışıqları davam etdirməliyik. Mən şəxsən düz hesab edirəm ki, Sizin tərəfinizdən BMT-nin Təhlükəsizlik Şurasına vaxtında müraciət olunmuşdur. Çünki doğrudan da, keçən dəfə Təhlükəsizlik Şurasında məsələ müzakirə olunan zaman Ermənistan təcavüzkar kimi qiymətləndirilmədi. Mən elə bilirəm, indiki müraciətdən sonra bütün dünyada hiss olundu ki, həqiqətən, Ermənistan təcavüzkar kimi hərəkət edib. Elə bilirəm ki, o, təcavüzkar adını alacaqdır.

Bu yaxınlarda Sizin müraciətlərinizlə əlaqədar olaraq televiziyada BMT-də Azərbaycanın nümayəndəsi olan Həsən Həsənovun telefon danışığını eşitdik. O, aydın göstərdi ki, yaxşı olar, Minsk konfransı nümayəndə heyətinin başçısı Rafaellinin burada olması haqqında və onun məlumatı tez zamanda BMT-yə çatdırılsın. Mən elə bilirəm ki, bu məlumat tez çatdırılmalıdır. Məlumatın düzgün çatdırılmasına çalışmalıyıq ki, bu məsələ tezliklə BMT-də həll olunsun. Ona görə bütün bu deyilənləri nəzərə alaraq mən təklif edirəm ki, sabitliyə nail olmaq üçün bu gün respublikada fəaliyyət göstərən bütün siyasi partiyalar, bütün cəmiyyətlərimiz ancaq öz fəaliyyətlərini bir istiqamətə yönəltməlidirlər. Ancaq onda torpaqlarımızın azad edilməsi uğrunda sabitliyə nail olarıq və respublikada nizam-intizamı gücləndirmiş olarıq.

**Sədrlik edən.** Sizin dediyinizə cavab vermək istəyirəm ki, Rafaellinin məruzəsi çoxdan BMT-yə göndərilib. Siz dediniz ki, Həsən Həsənov xahiş eləyib, göndərilib.

Sabir Rüstəmxanlı.

**Sabir Rüstəmxanlı.** Hörmətli sədr, hörmətli millət vəkilləri, mənə belə gəlir ki, bugünkü Məclis bizim ağlımızı və gözəl danışığımızı nümayiş etdirmək Məclisi deyil. Biz 6 ildir, çox gözəl sözlər deyə-deyə torpaqlarımızı qurban veririk. Kifayət qədər emosional danışmaq olar və danışmaq üçün kifayət qədər söz, kifayət qədər ittiham obyektləri də var. Məlumatda bu məsələlər ətraflı şərh olundu. Biz – millət vəkilləri bu millətin taleyini həll eləmək yükünü çiyinlərimizə çəkmişiksə, bir suala cavab verməliyik:

neyləməliyik? Bu gün Azərbaycan dövlətini, Azərbaycan dövlətçiliyini, torpaqlarımızı qorumaq və azad eləmək üçün nə iş görmək olar? Əsasən bu barədə konkret danışmalıyıq və müəyyən qərar qəbul eləməliyik. Bu salondan qərarla çıxmalıyıq. Bu yığıncaqda ümumi nəticəyə gəlməliyik. Çünki artıq deyildi, əgər bu gün, sabah qəti tədbirlər görülməsə... Füzuli rayonu da ağır vəziyyətdədir. Yenə Ağdamdakı kimi gözləmə mövqeyi tuturuq və rayonlar tək-tək əldən gedir. Füzulinin getməsi bizim üç rayonumuzun mühasirəyə düşməsi, ümumiyyətlə, Azərbaycanın bütün qərb rayonlarının düşmən əlinə keçməsi deməkdir.

Ordu zəifdir, bunu çox yaxşı bilirik. Amma məni ən çox heyrətləndirən ordu rəhbərliyinin əhvali-ruhiyyəsidir. Mən ordu rəhbərləri ilə, yəni generallarla söhbət edirəm və fikirləşirəm ki, bu generallarla əsgəri irəli aparmaq olar, yoxsa olmaz. Müdafiə Nazirliyində yaranmış vəziyyətlə ordunu idarə eləmək olar, yoxsa olmaz? Qabağında xarici pivə, çoxseriyalı filmin növbəti bir seriyasına baxa-baxa Müdafiə Nazirliyində oturub Azərbaycanın torpaqlarını təmizləmək olar, yoxsa olmaz? Ciddi kadr söhbətləri həll olunmalıdır. Ordunun rəhbərliyi, ordunun təşkili haqqında düşünmək lazımdır. Bunlar olmasa, biz danışıqlarla heç bir şey əldə eləyə bilməyəcəyik. Mənəvi düşkünlük – bizim ordunun içərisində olan siyasi qarşıdurmadır. Mənəvi düşkünlük xəstəliyi bizim millətin içərisinə haradan yol tapıbsa, ordunun içərisinə də yol tapıb. Bunun qarşısı alınmalıdır. Çünki bəlkə, erməni ilə yanaşı, öz ordumuzun əsgərləri də kəndlərimizi qarət eləyiblər. Ağdama bizim ordu, bizim əsgərlər girəndən sonra kəndlərdə nə hadisələr baş verir, bunu görən adamlar var. Orduda cəza sistemi tətbiq olunmasa, vətən xaini vaxtında cəzasını almasa, bunun axırı yoxdur. Ona görə mənə elə gəlir ki, bu cəhətdən çox təcili tədbirlər görmək lazımdır. İlk növbədə, ordunun müxtəlif hissələri birləşdirilməlidir. Azərbaycanda nə qədər ordu hissələri ola bilər? Prezident qvardiyasından tutmuş Daxili İşlər Nazirliyinin xüsusi ordusuna qədər. Ordu da yaranıb. Deyir, bu, Surət bəyin hissəsidir, o birisi deyir, bu, rəsmi dövlət ordusunun hissəsidir. Bunlar hamısı götürülməlidir. Bunlar Azərbaycanın ordusudur və bunların bir adı olmalıdır. Mən onu demirəm ki, müxtəlif siyasi partiyaların dar gün üçün saxlanan öz gizli silahlı dəstələri var. Azərbaycanın bundan dar günü olmayacaq. Hansı gün üçün saxlayırıq? Millətin qanının üstündə kim hakimiyyətə gəlir və kim ondan xoşbəxtlik uma bilər? Bu gün respublikadan kənarda oturub Azərbaycandakı növbəti qarışıqlıqla təzədən hakimiyyətə gəlmək istəyən adamlar nə istəyirlər?

Azərbaycanda bir Prezident, bir Baş nazir, bir də Ali Sovetin sədri var və hər vəzifənin bir dənə stolu var. Azərbaycanda, ola bilsin, onlarca adam var ki, prezidentliyə də, baş nazirliyə də layiqdir, amma bu gün hamı o stola cumursa, onda, şübhəsiz, vətən əldən gedəcək. Bu ağır gündə vəzifə ehtirası nə dərəcədə qorxulu şeydir ki, torpağı da, vətəni də, qadınlarımızın namusunu da yaddan çıxarır. Burada vətənpərvərlikdən danışılır. Təəssüf ki, nə bizim mətbuatımız, nə televiziyamız, nə də Milli Məclis vətənpərvərlik ideallarının təbliğinə heç bir şeylə kömək eləyə bilmir.

Bizdə mənəvi düşkünlük az qala rəsmi ideologiyaya çevrilir. Ən yüksək mənəvi dəyərlər lağ mövzusuna çevrilir. Bu gün hakimiyyət dəyişikliyi, insanın, millətin adı, yaxud millətin ən yüksək mənəvi keyfiyyətləri gülüş hədəfinə çevrilməli deyil.

Bu dəqiqə qəzetdə "vətən, xalq, müstəqillik, azadlıq, demokratiya" sözləri az qala istehza hədəfinə çevrilib. Nədən danışılırsa, bəylər elədilər də. Yaxşı, bəylər bir ildə gəldi. Bütün bu bəlaların səbəbi bəylərdir? "Bəy" Azərbaycanın gözəl sözüdür, bu, gülüş hədəfinə çevrilməli deyil. Mən heç kimin günahının üstünə su səpmək istəmirəm. Amma gələn kimi camaatı üz-üzə qoymaq, düşmənçilik yaratmaq, təmizləmək adına xalqın bütün sağlam qüvvələrinə yuxarıdan aşağı baxmaq olmaz. Bütün bunlar hamısı müharibəyə, döyüş bölgələrinə, orduya təsir göstərir. İllər uzunu gəlmişik. Mən demokratiyanı anarxiyaya çevirməyin əleyhinəyəm. Bədənin bir hissəsi iflicdirsə, o biri hissəsi ilə rəqs eləmək olmaz. Biz qərbin diktəsi ilə demokratiya modeli seçəndə, əlbəttə, bu yerə gəlib çıxacaqdır. Mən elə hesab edirəm ki, Azərbaycan bu gün müharibə şəraitinə uyğun olaraq, öz dövlətçiliyinin taleyini özü düşünməlidir. İdarəetmə mexanizmini düşünməlidir. Burada heç bir qərb təsirinə, dünyanın heç bir, deyək ki, diktəsinə getmək olmaz. Real şərait nəzərə alınıb real idarəçilik mexanizmi olmalıdır. Hərbi nizam-intizam, güclü yumruq, güclü səfərbəredici qüvvə olmadan biz Azərbaycanı bu bəladan xilas eləyə bilməyəcəyik. Bu işlər qurtarandan sonra, qoy yenə hansı demokratiya strukturları qurulur, qurulsun. Ayrı heç kim bir söz deyə bilməz.

Belə hesab edirəm ki, bu gün mən ümumi şəkildə danışdım. Amma deyilənləri nəzərə alıb konkret qərara gəlməliyik. Elə bir fikrə gəlməliyik ki, bizdə həmin anarxiyanın, həmin siyasi hoqqabazlıqların, həmin vəzifə davalarının, sonra təxribatların qarşısını ala bilən hüquqi bir sistem, hüquqi cəza sistemi olsun. Bunlar olmasa, biz müharibədə heç bir

nəticəyə gələ bilməyəcəyik və vəziyyətimiz gündən-günə ağırlaşacaq. Bu qədər.

**Sədrlik edən.** Ağdamdan olan deputatlardan bir neçəsi yazı yazıblar. Mən güman edirəm, bəlkə, söz vermək lazımdır.

Səyyad Verdiyev.

**Səyyad Verdiyev.** Hörmətli millət vəkilləri, hörmətli sədr. Bu gün müzakirə olunan məsələ çox ciddi məsələdir və bu zal məsələni belə müzakirə eləməyə öyrənib. Mən deyərdim ki, Azərbaycan rayonlarının müxtəlif vaxtlarda əldən getməsinin səbəbləri bu zaldır. Xalqın gözü də bu zaldadır. Bu zal məcbur eləyib ki, xalqın başına gələn faciələr gərək buradan göstərilsin ki, kim necə ölüb, kim necə qırılıb. Bu, xalqı qorxudub. Bu, millət vəkillərini də qorxudub. Bunların nəticəsidir. Ağdamın da faciəsini bu zal eləyib. Ağdam dünən əldən getməyib. Xocalı faciəsi məcbur buradan camaata göstərildi. Kimin gözü çıxıb, kimin qıçı qırılıb, kimin başı kəsilib... Onda xalqın gözü qorxdu. Ətraf rayonlarda, Ağdamda, Ağcabədidə, Bərdədə, Mirbəşirdə və başqa rayonlarda əhali qorxdu ki, Xocalının başına gələn faciə onların da başına gələcək. Xocalı faciəsi bircə dəfə Prezidentin getməsi ilə qurtardı. Sonra Şuşa faciəsi gəldi. Bir yüksəklikləri alıblar, Ağdamı götürüblər. Şuşanın yüksəkliyi kimdə idi? Şuşanın verilməsi Yaqub Məmmədovun getməsi ilə əlaqədardır, ayrı şey deyildi. Ordunu çıxarıb qəsdən verdilər ki, Yaqub Məmmədov hakimiyyətdən getsin. 15 may hadisələrində Laçını boşaltdılar. Burada olan millət vəkillərinin çoxu orada iştirak elədi, Heydər bəy. Laçının əhalisini gətirib Bakıya tökdülər ki, Laçını ermənilər tutsunlar. Kim ki hakimiyyətə gəlməlidir... Yəni ayrı-ayrı rayonların verilməsini bu günün faciəsi hesab eləməyək. Bu gündən danışmayaq. Hakimiyyət davası Bakıdan başlayır. Bu zaldan, o rayona gedib. İndi də Ağdam faciəsindən danışılır.

Hələ yadınızdadırsa, bu zalda çıxış edəndə iyun ayının 16-da deputatlarla Elçibəyin yanına getdik ki, Prezident, Ali Baş Komandansan, Ağdamda vəziyyət son dərəcə ağırdır. Ağdam gedir, Ağdamı ermənilər götürürlər. Dedi ki, Ağdam gedən kimi mən istefa verəcəyəm. İndi eşidirsiniz, Ağdam getdi. Ağdamın gedəcəyini bilirdi. İndi kişidirsə, dediyinə əməl eləsin. Ağdamı onlar veriblər. Ağdamı köhnə iqtidar eləyib. Heydər bəy, millət vəkilləri, bunu biləsiniz. Biz hələ ayın 26-da rayonda olarkən Ağdam cəbhəsində ayrı-ayrı yoldaşlarla, komandirlərlə, xalqla görüşdük. Mən də Müdafiə Nazirliyinə getdim, onunla görüşdüm. Ağdamda olan texnikanın 54 faizi işləmirdi, xarab idi. Müharibə gedən

ölkədə 54 faiz texnika olmaya? Nədən danışırıq? Biz müharibə aparırıq. Nazir dedi ki, biz tədbir görmüşük, hər şey eləmişik. Heç nə eləməmişdiniz, ona görə də Ağdam bu günə düşdü.

Ağdamda olan hərbi texnika... May ayının axırında, iyun ayının əvvəllərində Ağdam rayonunda cəmi-cümlətanı 8 qrad vuran texnika var idi. Hamısı Gəncənin üzərinə göndərildi. Tankı var idi, onun da hamısı Gəncənin üzərinə göndərildi. Əsgərlər cəbhədən çıxarıldı, Gəncəyə Surət Hüseynovu məhv eləmək məqsədilə göndərildi. O məqamda Ağdam rayonunun 14 kəndi getdi. Bundan sonra Ağdam şəhərində adam qala bilərdimi? Niyə biz bir az geriyə baxmırıq? Ağdam dünən getməyib axı? 14 kənd gedəndən sonra onların əhalisi, millət vəkilləri yollara töküldü. 14 kənddən orta hesabla ən azı 25-30 min əhali çıxdı. Ermənilər kəndin bütün evlərini yandırdı. Onda şəhər əhalisi gördü ki, müdafiə yoxdur. Texnika da Gəncə əhalisini qırmaq üçün göndərilib. O proses davam etdikcə Ağdam pis vəziyyətdə qaldı. Ağdamın müdafiəsi onda təşkil olunmalı idi.

Mən sizi inandırıram, o vaxt ikicə tankla şəhəri götürmək mümkün idi. Ermənilər özləri istəmirdilər, komanda almamışdılar. Komanda verilməmişdi, onun üçün Ağdamı götürmürdülər. Yoxsa elə bilirsiniz ki, dünən gəlib 5-6 tankla Ağdamı götürüblər? Elə deyil. Ağdamı onda məhv eləmişdilər.

Hər bir rayon bizdən alınarkən, hakimiyyətdən kiminsə getməsi üçün çalışırdılar. Bu gün də hakimiyyətdən kimisə aparmaq fikri ilə çalışırlar və ağdamlıları buna qoşmaq istəyirlər. Mənə elə gəlir ki, ağdamlılar bu yola getməyəcəklər. Mən Prezidentə dedim ki, ağdamlıları siyasi oyuna salmayın, Ağdam 5 ildir, vətənini qoruyur. 1992-ci il martın əvvəlinə qədər Ağdamdan nə bir qarış torpaq, nə də bir nəfər adam gedib, öz-özünü qoruyurdu. Ancaq 1992-ci ilin may ayından sonra Ağdam siyasi oyunlara qarışıb. Ağdam siyasi oyunun qurbanıdır. Heç kim buna etiraz eləməsin. Müdafiəsiz, heç bir ciddi müharibə getmədən Ağdam şəhərini götürüblər. Bununla bağlı çox geniş danışmaq olar. Amma mənim Milli Məclisdən xahişim və təklifim odur ki, kimliyindən, vəzifəsindən asılı olmayaraq, istər burada, istərsə də rayonda Ağdamın taleyi ilə oynayan adamlar ən ciddi cəza almalıdırlar. Bu cəza Milli Məclis tərəfindən verilməlidir.

Mən bir məsələni də demək istəyirəm. Ağdam əhalisinin yerləşdirilməsi ən mühüm məsələlərdən biridir. Əvvəla, mən təklif edirəm, Heydər

müəllim, dövlət komissiyası yaradılmaqla Ağdam əhalisinin yerləşdirilməsi proqramı qısa müddətdə hazırlansın. Ağdam camaatı bilsin ki, harada yerləşdirilməlidir. Proqram olmadan, camaata bunu televiziya ilə, qəzetlə, nümayəndələrlə elan eləmədən mümkün deyil.

Ağdam rayonunda 124 kənd var. 124 kəndin şəhərlə bir yerdə orta hesabla 40-45-i gedib, ermənilərin nəzarəti altındadır. 80-75 kənd hələ nə işğal olunmayıb, nə də ki oradan əhali çıxarılmayıb. Gəlin belə danışaq. İndi əhalini o kənddən müxtəlif təxribat yolu ilə çıxarırlar. Belə respublikanın ayrı-ayrı regionlarında müxtəlif təxribat qrupları var. Ağdam rayonunun kəndlərindən, bunu biləsiniz, əhalini qorxutmaqla kənddən çıxarırlar. Bunlar ermənilər tərəfindən işğal olunmayıb. Həmin qrupların içərisində səlis Azərbaycan dilini bilən ermənilər çoxdur. Rayonlarımızda müxtəlif vəzifələrdən qovulmuş adamlar, vəzifədən getmiş adamlar, istefa vermiş adamların təxribat qrupları Ağdamda bu saat fəaliyyət göstərirlər. Onlar camaatı qəsdən kənddən çıxarmaq istəyirlər və bununla kənd əhalisinin həm əmlakını, həm də evini müxtəlif yollarla mənimsəyirlər, yandırırlar, dağıdırlar və deyirlər ki, erməni gəlir, çıxın. Belə gedərsə, o təxribatın qarşısı alınmazsa, mən sizi inandırıram ki, Ağdam rayonunun ətraf kəndlərinin və Bərdənin də, Ağcabədinin də əhalisi qısa müddətdə bu cür təxribatla çıxarılacaq. Ağdamdan 50 kilometr kənarda olan kəndlərdən adamlar nə üçün çıxarılsın? Niyə çıxarılsın? Orada Ağcabədi ilə Bərdənin arasında yerləşən azı 10 kəndimiz var. Böyük təsərrüfatlar var. Buradakı camaatı isə indiki vaxtda müxtəlif yollarla keçmiş iqtidarın təxribat qrupları vasitəsilə çıxarırlar. Xahiş edirəm, bu, nəzərə alınsın.

Elə məsələ qoyulub ki, Ağdam rayonunun əhalisini biz kənar rayonlara, Salyana, Sabirabada, İmişliyə, başqa rayonlara aparaq. Əgər imkan varsa, dövlət tərəfindən, işğal olunmayan kəndlərimizin müdafiəsi təşkil olunsun, xalq buna inansın. Əgər onların müdafiəsi təşkil olunarsa, elə Ağdamın əhalisi həmin kəndlərə yerləşdirilsin. Ağdam rayonu bütünlüklə verilməyib, amma onun bütün əhalisini o kəndlərdən çıxarmaq rayonu bütünlüklə vermək deməkdir.

Ağdam rayonunun 150 min əhalisi var. 150 min əhalisi olan rayonu parçalayıb, dağıdıb, hər rayona 5, 10, 20 min adam göndərməklə onların heç vaxt qayğısına qala bilməyəcəyik. Əgər çadır verib şəhər saldırsaq, onda bunu Bərdə rayonunda, Ağcabədi rayonunda, müdafiə olunması şərti ilə Ağdamın işğal olunmayan kəndlərində əhalimizi yerləşdirək. Köhnə bir ssenari də böyük təxribatla həyata keçirilir. Hələ

3-5 il bundan qabaq Bakıda camaatı üz-üzə qoydular. Ortalığa bakılı, rayonlu, ermənistanlı, gəncəli, indi də ağdamlı söhbətləri salınır. Mən istəyərdim ki, bu günə salınmış təxribatların son variantını da Ağdama aid eləməsinlər. Ağdam camaatından heç kim siyasi oyun kimi istifadə eləməsin. Kim hakimiyyətə gəlmək istəyirsə, getsin, özünə başqa yol tapsın. Kim Surət Hüseynova, Heydər Əliyevə təsir eləmək istəyirsə, ağdamlıları oyuna salmasın. Ağdam camaatının bir qismi bura gəlibsə, burada qohum-əqrəbasının yanında yerləşmək istəyirsə, ona şərait yaratmaq lazımdır. Yoxsa bakılı-ağdamlı söhbəti salıb camaatı vuruşdurmaq istəyənlər buna nail ola bilməyəcəklər.

Mənim daha çox danışmaq imkanım var. Bir az emosiyalı danışıram. Başımıza gələn bəla budur. Mənə elə gəlir ki, Ağdam torpağını, Ağdam şəhərini qısa müddətdə azad eləmək imkanı var. Surət bəy də, Heydər müəllim, Siz də... Dünənki çıxışınızı mən də eşitdim. Mən elə bilirəm ki, Ağdam rayonunu parçalamaq mümkün deyil, Ağdam rayonunun camaatının və silahlı ordunun qüvvəsi ilə Ağdam şəhərini qısa müddətdə azad eləmək mümkündür. Ağdam camaatı da bunu gözləyir. Qısa müddətdə Ağdam camaatı öz yurduna qayıda bilər. Çox sağ olun.

**Sədrlik edən.** Ağdamdan bir nəfər deputat da söz istəyir.

Cəbrayıl Nağıyev.

**Cəbrayıl Nağıyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri, mən də çox təəssüflənirəm ki, sədrin belə bir geniş məlumatından sonra millət vəkilləri, yəni Məclisin üzvləri bu dəhşətli bir gündə, Ağdamın işğalı günündə ayrı-ayrı xırda məsələlər ətrafında danışmağa başladılar. Mən belə başa düşürəm, o gün gəlib çatıb ki, bizim bu günə düşməyimizin, Qarabağ faciəsinin əsas səbəblərindən və səbəbkarlarından danışmaq artıq lazımdır. Ona görə lazımdır ki, heç olmasa, Ağdamdan sonra Füzuli də getməsin. Belə günə düşməyimizin səbəbləri nədir? Necə etmək olar ki, torpaqlarımızın verilməsinin qabağını alaq? Bu haqda öz mülahizələrimi sizinlə bölüşmək istəyirəm.

Burada çıxış edənlərdən, məncə, millət vəkili Cümşüd Nuriyev dedi, o biri millət vəkillərinin yadında qalmadı. Bir az narahatam, ən əsas səbəblərdən biri hakimiyyət davasıdır. Bu hakimiyyət davası 1989-cu ildə başlamış, 1991-ci ilin sonunda və 1992-ci ilin əvvəlində güclənmiş və indiyə qədər də güclü halda davam edir. Ancaq və ancaq hakimiyyət davası. Bunu kim eləyir? Bir qrup şəxs – tarixin bizə verdiyi suverenlikdən söhbət gedir – müstəqillikdən istifadə edərək xalqın başına bəlalar

gətirir. Qoz yedirənlər də, qarpız satanlar da, ərik yeyənlər də, qohumbazlar da, yerlibazlar da bu gün Azərbaycan xalqının başına belə bir faciə gətirdilər. Xocalı verildi, hakimiyyət dəyişdirildi, Şuşa, Laçın verildi, heç kəs cəza almadı. Kəlbəcər verildi, bizim böyüklərimiz dedilər ki, nə olar ki, niyə darıxırsınız, almanlar da Moskvanın altına gəlmişdi, darıxmayın, Kəlbəcəri qaytaracağıq. Axırda da qaytardılar. Sonra gördülər ki, millət qəzəblənir. Mən sözümə görə çox üzr istəyirəm, yumşaq yerlərindən şalvarları düşüb, toqqalarını bərkitmək üçün Gəncə faciəsini ortaya atdılar. Ağdamın bu günə düşməsi də Gəncə faciəsi ilə bilavasitə bağlıdır.

Mən keçən çıxışlarımda da, iyun ayındakı çıxışımda da, Prezidentin yanında olanda da dedim ki, daxili qoşunları və sizə tabe olan qüvvələri Ağdam cəbhəsinin sağ cinahından çıxarmaqla Ağdam faciəsini çiçəkləndirirsiniz. Heyiflər olsun ki, heç kim analiz vermədi və axırda Ağdam faciəsi belə yarandı.

Necə demək olar ki, millət vəkilləri, Məclisin üzvləri bu gündə bir azca məsuliyyətsizlik göstərirlər? Necə ola bilər ki, Prezident Azərbaycanın dövlət başçısı olaraq qalır və qorxusundan bu saat, sözlərimə görə üzr istəyirəm, siyasi keçi kimi dağın başına qaçdı? Orada Ağdamın verilməsinə görə ziyafətlər verir. Mən deyirəm, bir-birini araqla təbrik edirlər ki, Ağdam getdi, Əliyevlə Surət Hüseynova xələl gələcək. Bunu bilmək lazımdır. Mən başa düşmürəm ki, Milli Məclis bu günə qədər niyə belə bir siyasi çaqqalın etimadsızlığını qoymayıb. Niyə o, indiyədək Prezident olaraq qalır? Niyə o, Ağdama qaçmadı? Niyə o, Kələkiyə getdi?

Orada Cümşüd Nuriyev dedi ki, Prezidentin köməkliyi ilə sabiq dövlət rəhbərləri, bizim başımıza iş gətirən dövlət rəhbərləri Türkiyənin vasitəsi ilə ayrı-ayrı səfirliklərdə iş aparırlar. Nə iş aparırlar? Ağdamın, Füzulinin verilməsini, Hüseynovun, Əliyevin ikiliyinə xələl gətirilməsini? Buna qiymət verilməlidir, hörmətli sədr, hörmətli millət vəkilləri.

O biri əsas səbəblərdən də danışmaq istəyirəm. Nəyə görə Azərbaycanda Ağdam və Qarabağ faciəsi, digər faciələr baş verir? O biri əsas səbəblərdən biri də kadr siyasətidir. Baxın, 1989-cu ildən Azərbaycan xalqının başbilənlərini, heç olmasa, bir azca da öz sahəsində olan mütəxəssisləri vurdular, seyrəltdilər. Birinə xalq düşməni, birinə Moskvanın agenti və sair dedilər. İqtidar bilmirdi ki, Gəncədən sabitlik buferi olan Gəncə diviziyası çıxan kimi ermənilər bizim üstümüzə hücum edəcəklər? Mən xahiş edirəm, məni burada Moskva agenti adlandırmasınlar.

Mən, sadəcə olaraq, bunu analiz edirəm. Necə ola bilər? Necə oldu ki, camaata taxılın yerinə heyvan yemi verirdilər və bununla da öz ciblərini doldururdular. Belə olan vaxtda Ağdam da getməli idi, Qarabağ faciəsi isə daha da çiçəklənməli idi.

Kadr siyasəti. Siz bilirsiniz ki, nəyə görə belə vəziyyət yarandı? Qohumlarını, yerlilərini, öz tanışlarını gətirdilər və ona görə də millət bax belə bir vəziyyətə düşdü. 5 il gedən müharibə ərzində gündən-günə, mən üzr istəyirəm, siyasi partiyalar göbələk kimi qalxıblar. Çox təəssüflər olsun ki, siyasi partiyalar öz mövqelərini birmənalı bildirirlər, millət necə tarac olur-olsun, nə işim var. Ona görə də Qarabağ belə bir vəziyyətə düşdü. Orduda hərc-mərclikdir. Siyasətləndirilmiş orduda, inzibati orqanlarda, necə deyərlər, hələlik keçmiş iqtidarın bəzi adamları, Xocalını vermiş, Xocalının verilməsində iştirak etmiş adamlar xüsusi xidmət orqanlarında böyük vəzifələr tuturlar. Mənə bir qarabağlı kimi elan etmişdilər ki, Qarabağı verdik, get, özünü at, nə də istəyirsən, elə, adamlar xüsusi xidmət orqanlarında rəhbər vəzifələrini tutur və ona görə də Qarabağ gedir.

Səbəblərdən çox danışmaq istərdim. Mən belə başa düşürəm ki, məndən qabaq çıxış etmiş Səyyad Verdiyev bu məsələləri çox gözəl analiz elədi. Siyasi xadimlərə böyük hörmətim var, özləri də məni yaxşı tanıyırlar. Məqam gəlib çatıb ki, heç olmasa, özləri müvəqqəti də olsa, öz siyasi fəaliyyətlərini dondursunlar və ya müharibənin qələbə ilə qurtarmasına, bu xalqı bu bəladan qurtarmağa yönəltsinlər. Bu, birinci təklifim.

İkinci təklifim odur ki, nə olursa olsun, nə yolla olursa olsun, zorla, siyasətlə, danışıqlarla Ağdam şəhəri qayıtmalıdır. Qaçqınların məskunlaşdırılması məsələsi qaldırıldı. Mən də Səyyad Verdiyevin təklifi ilə razıyam. Tezliklə Nazirlər Kabineti təşkil olunmalıdır.

Mən üzr istəyirəm, bilirsiniz, elə vəziyyət yaranıb ki, Qarabağ bölgəsində və ayrı-ayrı yerlərdə Əliyevə, Hüseynova qarşı yönəlmiş təxribatlar gedir. Ona görə də tezliklə Nazirlər Kabineti formalaşmalıdır. Mən çıxış edərək xahiş edirəm ki, bütün umu-küsülər, siyasi məqamlar hər tərəfə atılmalıdır. Bir məqam, bir amil olmalıdır, o da torpaq naminə birləşməlidirlər. Bu ikiliyin ətrafında birləşməlidirlər, mütləq birləşməlidirlər. Əgər belə birləşmə olmasa, bizi daha da çox faciə gözləyir. Faciə çiçəklənməkdədir. Allah eləməsin, faciə aclıq olanda nə olacaq? Vəba olanda nə olacaq? Budur fəlakət. Ona görə də mən Məclis üzvlərindən

xahiş edirəm, təkidlə tələb edirəm ki, Ağdamın bu ağır vəziyyətində ona biganə qalmasınlar və öz söhbətlərini faciənin necə aradan qaldırılmasına yönəltsinlər. Burada mütləq bir qərar qəbul olunmalıdır, hərbi qanunlar elan olunmalıdır ki, heç olmasa, bu bədbəxtliyimiz axıra qədər getməsin. Ermənilər gəlib Yevlaxda oturmasınlar.

Mən emosional çıxışıma görə üzr istəyirəm. Mən bir şeyi də demək istəyirəm ki, burada oturanlar bilsinlər. Ağdamda olan və çox hörmət elədiyim Şadman bəyə də qulaq asmazdım ki, tayfa davası, hakimiyyət davası ancaq respublikadan gəlir. Bu, 5 il bundan qabaq gəlib. Minnətdaram.

**Sədrlik edən.** Deputat Həsənov Əli. O da Qarabağdan olan deputatdır. Ona görə mən ona söz vermək istəyirəm.

**Əli Həsənov.** Hörmətli sədr, hörmətli xalq deputatları, mən bir neçə konkret təklif vermək istəyirəm və mənim təkliflərimin bir neçəsi Milli Məclisin növbəti işlərinin harada isə təkmilləşməsinə də yönəlib. Məclisdə danışıqlar çox olur. Mənə elə gəlir ki, hər bir müzakirədən sonra konkret qərar olmalıdır və o qərarın icra mexanizmi hazırlanmalıdır. Bayaq yoldaşlardan biri dedi ki, respublikada nizam-intizamı bərpa etmək mexanizmi hazırlanmalıdır. Ali Sovetin, Milli Məclisin komissiyası var. Bu, müvafiq komissiyaya tapşırılmalıdır ki, bu nizam-intizamın bərpa mexanizmini hazırlasın, Məclis də müzakirə eləsin və onun icra mexanizmini bərpa eləsin. Səfərbərlik mexanizmi tam kökündən dəyişilməlidir. Zorla səfərbər olunan vətəndaş heç vaxt torpağı qorumayacaq.

Hörmətli sədr, yaxşı təcrübələr var idi. Zonalara görə təhkimçilər olurdu, göndərilirdi. Mənə elə gəlir ki, indi də xalq deputatlarından rayonlara təhkim eləyib göndərmə olar. Səfərbərlik, müdafiə və müxtəlif məsələlərlə bağlı yerlərdə oturub, aylarla, rüblərlə konkret köməklik eləsinlər.

Respublikada özfəaliyyət formasında çoxlu silahlı dəstələr var. Bütün bu dəstələrin hamısı ləğv edilib Müdafiə Nazirliyinin tərkibinə daxil olunmalıdır. Yoxsa gündə bir silahlı dəstə durub gələcək ki, mən bu gün hakimiyyəti ələ keçirirəm. Mənə elə gəlir ki, bunun hamısı vahid ordunun tərkibində olmalıdır.

Partiyanın qızğın dövründə çox qızğın ideoloji iş mexanizmi var idi. O vaxt o ideoloji iş o qədər də lazım deyildi, çünki partiyanın hökmü var idi, nə deyirdi, yerinə yetirilirdi. Amma bu gün o ideoloji iş respublikada lazımdır. Vətənpərvərlik hissini oyadan, yaradan, təbliğ edən ideoloji

mexanizm düz işləməlidir. Çox təəssüf ki, o bu gün yoxdur. Şəhərlərdə və rayonlarda alverçilik baş alıb gedir. Bir tərəfdən alverçilik, digər tərəfdən də səfərbərlik – bunlar bir-birinin tam əksinə olan məsələlərdir. Alverçilik olan yerdə heç bir səfərbərlik nəticə verə bilməz. Ona görə mən təklif edirəm ki, burada komissiyaların birinə həvalə olunsun, təklif hazırlasınlar. Bu milyonlarla komision mağazalar, firma mağazalar müvəqqəti dayandırılsın. Dövlət mağazalarının hamısı bölüşdürülüb, satılıb, guya özəlləşdirilib, alverlə məşğuldurlar, heç olmasa, bu müharibə qurtaranadək müvəqqəti dayandırılsın. Sonra getsinlər, alverlərini eləsinlər. Bu bizim hərbi qüdrətimizə böyük mənəvi zərbə vurur.

İqtisadi sabotajlar, iqtisadi özbaşınalıqlar. Biz inanırıq ki, Heydər müəllim, yəqin, bu gün bu məsələlərə əl uzatmağa Sizin vaxtınız çatmır. Ancaq bu gün iqtisadiyyatda baş verən sabotajların hər bir gününün bərpası aylar tələb edəcək. Müharibə şəraitində olan ölkənin müharibə qanun-qaydası olmalıdır, müharibə qanunu olmalıdır. Yaxşı olar ki, Milli Məclisin növbəti iclaslarında komissiyalar belə qanunlar hazırlasınlar və Məclisin müzakirəsinə versinlər.

Kadr məsələsindən danışıldı. Hörmətli Heydər Əliyeviç, kadr korpusunu tez formalaşdırmaq lazımdır. Bu gün kadr korpusuna görə hər bir günün itkisi, yenə deyirəm, sonra aylarla, illərlə bərpa olunmayacaq. Mən hər gün Cəbrayıl rayonu ilə əlaqə saxlayıram. Bakıda, Sumqayıtda yaşayan cəbrayıllılara son 3-4 ildə hər gün özfəaliyyət formamızda əlimizdən nə gəlir, kömək eləmişik. Bu gün nə Bakıda, nə Sumqayıtda bir Cəbrayıl qaçqını, ailəsi yoxdur. Ancaq Siz o gün Bərdədə müşavirədə də dediniz, bir ildən artıqdır, xalq içərisində belə danışıq gedir ki, ermənilər bir gün də olsa, Ağdama da, Füzuliyə də girəcəklər. Bunun biri baş verdi. Biz çox xahiş edirik, bu gün o bölgəyə, Füzuli bölgəsinə – bayaq bu fikir deyildi ki – girərlərsə, o tərəfdə üç rayon girov kimidir, ora nəinki müdafiə forması, müdafiə qüdrətinin möhkəmlənməsi, müxtəlif formadaköməklik lazımdır. Həddindən artıq xahiş edirəm, bu məsələyə ciddi nəzarət edilsin. Çox sağ olun.

**Sədrlik edən.** Tofiq Qasımov, buyurun.

**Tofiq Qasımov.** Hörmətli millət vəkilləri! Mən bir çox yoldaşın təklifi ilə razıyam ki, biz bu gün burada faktiki olaraq Ağdam gedəndən sonra Füzulini və digər bölgələrimizi qorumaq istiqamətində nə işlər görməliyik. Bu məsələni müzakirə etməliyik. Bir də Ağdamın nə vaxt qaytarılması, necə qaytarılması məsələsini, əgər imkanımız varsa, müzakirə

etməliyik. Burada dedilər ki, Ağdam bu yaxın zamanlarda qaytarılmalıdır. Düzdür, bizim bütün torpaqlarımız qaytarılmalıdır, amma biz gərək bunun üçün müəyyən əməliyyat planı hazırlayaq, biləkki, bizim qüvvələrimiz var, onları səfərbər edək və sair. Yəni bu gün məsələni "bu saat Ağdamı qaytarmaq lazımdır" şəklində qoymaq, mənə elə gəlir ki, real olmaz. Hətta belə bir cəhd eləsək də, bu bizi yeni uğursuzluqlara aparıb çıxara bilər.

Bir şeyi diqqətinizə çatdırmaq istəyirəm. Buradan yenə kimlərinsə müqəssir olduğunun deyilməsinə, keçmiş iqtidardan narazı olan adamların kimlərisə təhqir eləməsinə, söyməsinə və sair məsələlərə mən qəti etiraz edirəm. Belə hesab edirəm, Kəlbəcərin ən kasıb kolxoz sədrinin o gün dediyi kimi, birdəfəlik burada qərar qəbul edək ki, rus imperiyasının 125 illik hakimiyyəti vaxtı və bir də bundan yüz il sonra bütün günahların hamısını bir il hakimiyyətdə olan keçən iqtidarın boynuna qoyacağıq. Mən razı. Belə qoyun. Amma gəlin çalışaq, burada konkret məsələ müzakirə edək ki, bu işlərin səbəbləri nə oldu. Nəyə görə biz belə çətinliyə düşmüşük? Nəyə görə buradan çıxa bilmirik? Çünki birinci növbədə, mən elə hesab edirəm ki, doğrudan da, əvvəldən ordu düzəldəndə, lap elə Mütəllibovun vaxtından, ordu yaradılmasın deyə ayrı-ayrı adamların ətrafında silahlı dəstələr yaratdılar və beləliklə də ordunun içərisindəki təfriqəni əvvəlcədən bir mexanizm kimi ordunun içərisinə saldılar. Sonradan ordu get-gedə ayrı-ayrı siyasi xadimlərin ətrafında birləşməklə siyasiləşdi və bu da, doğrudan da, hakimiyyət dəyişmələrinin bir-birini əvəz eləməsinə səbəb oldu, yəni əsas məsələ bu idi.

Keçən iqtidar cəhd elədi ki, bu qüvvələrin hamısını müdafiə nazirinə tabe eləsin və bir müddət bu tabeçilik oldu, amma formal oldu. Ciddi şəkildə nizami ordu yaradılmadı və nizami ordunun olmaması da bizi belə təxribatlarla daim üz-üzə qoyacaq. Ona görə mən elə hesab edirəm ki, keçmişdə elə iqtidar da biz olan vaxtda bu Məclisdə dediyim kimi, Azərbaycanda nizami ordu yaradılmamış və bütün ordu siyasətdən uzaq olub bir nəfərin əmrinə tabe olmamış bizim bu işlərin heç biri düzəlməyəcək və bu bəlalarımız daimi olacaq. Hər dəfə içimizdə yeni düşmən axtaracağıq, yəni kimi isə yıxmaq, kimi isə oturtmaq istəyəcəyik. Ona görə də biz birdəfəlik yəqin eləməliyik ki, indi əlimizdə olan ordu hissələri ilə müdafiəmizi təşkil eləməliyik. Bəlkə də, heç hücum eləmək lazım deyil, çünki zəiflik mümkün deyil. Onun əvəzində səfərbərlik edib, onunla yanaşı, nizami ordu qurmaq işinə başlamalıyıq. Guya bizim iqtidar buna axır günlərdə başlamışdı, amma çox gec başladığına

görə ondan da bir şey çıxmadı. Yəni biz Azərbaycanda nizami ordu yaratmayınca bu problemlərin heç birini həll edə bilməyəcəyik.

Vaxtilə tarixdə belə şeylər olub. Atatürkün də başına həmin işlər yüzdəyüz gəlmişdi, yəni düşmənlər gəlib Ankaranın 40 kilometrliyinə çatmışdı. Nə qədər ki o, könüllü ordu ilə, müxtəlif dəstələrlə vuruşurdu. Atatürkün də böyüklüyü ondan ibarət oldu ki, o, milli ordu, nizami ordu yaratdı, ondan sonra bu problemləri həll edib Türkiyə dövlətini qoruya bildi. Bizim də çıxış yolumuz, mənə elə gəlir ki, bu məsələdədir.

Bir il ərzində ölkənin xəzinəsinin yarısı ordu quruculuğuna sərf olunub, amma bundan özlərinin xeyri üçün istifadə edənlər, ordu qurmaq işindən, hətta o hərbi işdən də qazanc vasitəsi kimi istifadə edənlər və sair olub. Keçmiş iqtidarın ən böyük günahı ondan ibarət olub ki, biz cəzasızlıq sistemi yaratmışdıq, amma heç kim cəza almayıb. Demokratiya anarxiya demək deyil, qanunların olmaması demək deyil. Demokratiya yüksək səviyyədə qanunu icra eləmək, qanuna əməl eləmək deməkdir. Ona görə də burada heç kim nizam-intizamın olmasının əleyhinə deyil. Kimin ciddi şəkildə günahı varsa, bu gün keçmiş iqtidardan, ondan əvvəlkindən, sonrakından olsun, hamının cəzası qanun yolu ilə, məhkəmə yolu ilə sona yetirilib hər kəsin cəzası verilməlidir. Kim hara qaçıb, hara gedib, bunun heç bir əhəmiyyəti yoxdur. Məhkəmə qərar çıxarsın, hansı hökumətdən kimi istəyirsiniz, alaq gətirək, cəzasını alsın.

Söhbət ondan gedir ki, biz əsas məsələnin kökünü bir kənara qoyub kiminsə harasa getməyi, kiminsə nə ilə isə məşğul olmağı ilə bu məsələni izah eləmək istəyəcəyiksə, heç bir nəticə çıxara bilməyəcəyik. Biz obyektiv şəkildə əsas məsələnin kökünü müəyyənləşdirməliyik.

Burada deyirlər ki, guya biz siyasi danışıqlara gedəndə orada fəaliyyətsizlik edirik və sair. Dəfələrlə belə söhbətlər olub. Bunun heç bir əsası yoxdur, çünki ordunun öz işi, siyasi xadimlərin isə öz işi var. Siyasi danışıqlar getməlidir, beynəlxalq aləm bu işə qarışmalıdır, çünki Azərbaycan və Ermənistan eyni tərtibli, təxminən eyni ölçülü dövlət olduğuna görə bu məsələni qısa müddətdə hərbi yolla həll etmək mümkün deyil. Bunu birdəfəlik bilmək lazımdır. Hərbi qüvvə, çox güclü ordu lazımdır, gələcək təhlükəsizliyimiz üçün, suverenliyimizi qorumaq üçün lazımdır. Əlbəttə, ən yaxşı odur ki, güclü ordu, diplomatların isə arxası möhkəm olsun, onlar da müvəffəqiyyət qazana bilsinlər. Bu gün biz real olaraq belə bir ordumuzun olmadığını gərək boynumuza alaq. Bizim elə böyük gücümüz yoxdur, kiməsə söz verək ki, bir həftəyə, on günə, ya da

bir aydan sonra torpağımızı qaytaracağıq. Bunun üçün orduda nizam-intizam yaradılmalıdır. Bunun üçün mümkün qədər tezliklə ordu quruculuğuna, nizami ordunun yaradılmasına başlamaq lazımdır.

Dünən müdafiə nazirinin vəzifəsini əvəz edən çıxışında dedi ki, bizim qüvvələrimiz çoxdur, amma Ağdamı qoymalı olub gəldik. Qüvvəmiz çoxdursa, Ağdamı niyə qoyduq? Deməli, ya intizamımız, ya da başqa bir şeyimiz yoxdur. Bu baxımdan mənə elə gəlir ki, biz məhz bu məsələlərin konkret müzakirəsini aparmalıyıq. Ordunun içərisində də yoxlama aparılmalıdır ki, onun vəziyyəti necədir. Bununla məşğul olmaq lazımdır. Deyilir ki, guya silah yoxdur, elə deyil. Ordunun kifayət qədər silahı var. Lap siyahı üzrə götürüləndə, guya bizim 120 min əsgərimiz də var idi. Amma ermənilərin siyahısında cəmisi 7 min əsgər var, yəni söhbət ondan gedir ki, bunlar hamısı yalan idi və bu yalana görə kimsə cəzasını almalıdır. Kimlərsə, doğrudan da, cəzalandırılmalıdır ki, sonra gələnlərə dərs olsun. Biz bu gün bu mənfi nəticələri aradan qaldırmağa çalışmalıyıq.

Mənə elə gəlir ki, bu istiqamətdə müzakirələr aparmaq lazımdır. Yenə deyirəm, biz öz qüvvələrimizi dəqiq hesablayıb nəyə qadir olduğumuzu müəyyən etməyincə elə belə məğlubiyyətlə getməli olacağıq. Çünki biz konkret olaraq əvvəl öz gücümüzü bilməliyik və o gücümüzə uyğun da hərəkət etməliyik. Bu gün biz müdafiə etməliyik, hücuma keçmək imkanımız olanda da hücuma keçməliyik, yəni bu məsələlərin hamısı dəqiq müəyyən olunmalıdır. Ondan sonra biz plan hazırlayıb haranı isə azad eləmək və sair məsələləri qoymalıyıq. İndiyə kimi aparılan əməliyyatların uğursuzluqları göstərir ki, biz hələ Müdafiə Nazirliyimizdə, hərbi qərargahda adicə bir əməliyyat planı da hazırlaya bilmirik. Həmin hazırladığımız planlar uğursuzluqla qurtarıb. Mən elə bilirəm ki, bu da ciddi bir məsələdir. Sağ olun.

**Sədrlik edən.** Mürvət Əliyev buyursun.

Xahiş edirəm, reqlamentə riayət olunsun. Reqlamentdən çox çıxırlar.

**Mürvət Əliyev.** Hörmətli sədr, hörmətli deputatlar. Burada Ağdam faciəsi haqqında hərtərəfli danışdılar. Ağdamdan olan deputatlar, Ağdamdan gələn nümayəndələr hərtərəfli məlumat verdilər. Təbii ki, Ağdamın işğal olunması Azərbaycan xalqı üçün çox böyük faciədir. Burada suallar çoxdur, yəqin ki, bu suallara cavab veriləcək, araşdırılacaq, məlum olacaq. Amma burada bir məsələ təkzibedilməzdir ki, yenə də siyasi məsələlər, siyasi qurbanlar, siyasi qarşıdurmalar nəticəsində baş

vermiş bu faciə, doğrudan da, xalqımız üçün çox ağır, çox pis vəziyyət yaratmışdır. Ancaq bu gün hamını bir məsələ düşündürür. Görəsən, buna son qoyulacaqmı? Bu faciələrin sonu olacaqmı? Bu torpaqların zəbt olunmasının qarşısı alınacaqmı? Ona görə də, Heydər müəllim, bu gün Siz də yerlərdə olmusunuz, camaat da Sizə müraciət edib, hamı Sizdən nicat gözləyir, qətiyyətli addımlar gözləyir. Bu gün Baş nazirimiz Surət müəllim və Siz – xalqın səlahiyyətli rəhbərləri, gərək gecikməyəsiniz, respublikada olan bu qeyri-müəyyənliyə son qoymalısınız.

Sözün açığı, bəzi rəhbər şəxslər məsuliyyət hissini artıq çoxdan itiriblər, onların xalq arasında nə hörməti, nə də nüfuzu var. Yəqin, Siz Bərdədə keçirilən müşavirədə də hiss elədiniz ki, Sizin orada verdiyiniz suallara onlar nə cür cavab verirdilər. Özünüz də orada yaxşı bir söz dediniz: "Çox faciəli haldır ki, xalqın nazirləri sizin kimi adamlardır". Bu gün çoxu şübhə edir, doğrudan da, onların verdikləri o vədlər, yaxud onlara verilən o tapşırıqlar indi yerinə yetiriləcəkmi? O camaatın, o köçkünlərin, didərginlərin, bu bədbəxt camaatın qeydinə qalanlar varmı? Gecə-gündüz orada deyilən məsələlər nəzarətə götürülüb yerinə yetirilirmi? Ona görə də mənə elə gəlir ki, bu gün respublikada qətiyyətli addımlar atmaq lazımdır, məsuliyyətli adamları seçib kadr siyasətini yeritmək lazımdır. Respublikada elə bir şərait yaratmaq lazımdır ki, xalqın Sizə bəslədiyi ümidlər özünü doğrultsun. Belə hallar olarsa, Ağdam faciəsi və buna bənzər hadisələr başımıza gəlməz. Çox sağ olun.

**Sədrlik edən.** Sultan Məmmədov buyursun.

**Sultan Məmmədov.** 5 il ərzində gedən müharibəni nəzərdən keçirəndə çox qəribə bir mənzərə alınır. Hər dəfə Azərbaycanın başına bir müsibət gələndə Xocalı, Şuşa, Laçın, Kəlbəcər və eyni zamanda Ağdam işğal olunandan sonra nisbi sakitlik yaranır. Beynəlxalq təşkilatlara böyük ümid bəslədiyimizə baxmayaraq, onlar öz siyasi fəaliyyətini fəallaşdırırlar, siyasi danışıqlara meyli gücləndirirlər və bu nisbi sakitlikdən ermənilər çox məharətlə istifadə edir, yeni qüvvələr toplayır, yeni planlar çəkir, yeni şəhərlərin işğalını planlaşdırır və bunu məharətlə həyata keçirirlər. Təəssüf ki, bizim tərəfdə, Azərbaycan ordusunda, Azərbaycanın müharibə məsələlərinə rəhbərlik edən şəxslərdə böyük arxayınçılıq hiss olunur, onlar bu beynəlxalq təşkilatlara, siyasi danışıqlara böyük ümid bəsləyirlər. Mənə elə gəlir ki, bu siyasi danışıqlar da lazımdır, amma biz gərək öncə müdafiə, hərbi hazırlıq məsələləri ilə məşğul olaq.

Eyni zamanda mən belə hesab edirəm ki, bizim televiziyanın da bu məğlubiyyətdə çox böyük rolu var. Çoxlu verilişlər verirlər, bizim hərbi hissələrin hərəkətlərini göstərirlər. Bu yaxınlarda "Telefaks" verilişində göstərirdilər ki, Surət Hüseynov Bakıya gəlib, hakimiyyəti ələ alıb və hərbi texnikasını döyüş mövqeyinə göndərir. Televizorda teplovozun beş-altı BTR-i platforma ilə daşıyıb Qarabağa aparmasını göstərirlər. Bundan başqa, çox böyük bədbinlik, ümidsizlik, imkansızlıq təbliğ edirlər, xalqı da, bir növ, sarsıdırlar.

Mənə elə gəlir ki, biz diplomatik siyasi yollardan istifadə etməklə yanaşı, respublikada gərək nə isə fövqəladə tədbirlər həyata keçirək. Ya hərbi vəziyyət, ya səfərbərlik, ya da nə isə belə tədbirlər görülsün ki, bunun bir nəticəsi olsun. Mən bir məsələni də qeyd etmək istəyirəm. İstər Xocalı, istər Kəlbəcər, istərsə də Şuşa olsun, bunların işğalından sonra heç kim müəyyənləşdirə bilmədi ki, bu yaşayış məntəqələrinin müdafiəsi üçün kim məsuliyyət daşıyır. Burada polk var, batalyon var, briqada var, bunun komandiri var, Hərbi Şuranın üzvü var, Müdafiə Komitəsinin nümayəndəsi var, yerli hakimiyyət orqanları var. Bunlar nə üçün məsuliyyət daşıyırlar, biz bunu bu günə kimi müəyyənləşdirə bilməmişik. Belə bir cəzasızlıq şəraitində də bu məğlubiyyətimiz, bu cinayət halları getdikcə artır. Mən belə hesab edirəm ki, biz nə isə çox fövqəladə tədbirlər görməliyik. Lazımdırsa, lap özümüz də səngərlərə getməyə hazırlaşmalıyıq.

**Sədrlik edən.** Vəfa Quluzadə danışmaq istəyir. Buyursun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur? Xeyrulla Əliyev. Bəli?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Başa düşmədik. Yox, 4 saat ola bilməz.

Bəli, buyurun.

**Vəfa Quluzadə.** Qaça-qaça pilləkəndən qalxdığıma görə üzr istəyirəm, bir az nəfəsimi dərim. Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən ATƏM-in və Birləşmiş Millətlər Təşkilatının əhəmiyyəti haqqında iki kəlmə söz demək və keçmiş vəziyyəti yadınıza salmaq istəyirəm. Bir neçə ay bundan əvvəl bütün xarici dövlətlər, Avropa dövlətləri, Amerika Azərbaycanı ittiham edirdilər ki, azərbaycanlılar Ermənistanı blokada ediblər, Ermənistanda uşaqlar acından ölürlər, işıqları yoxdur, çörəkləri yoxdur. Birləşmiş Millətlər Təşkilatında Fransa tərəfindən məsələ qoyulmuşdu – Azərbaycanı blokadaya görə pisləmək. Bütün xarici

mətbuat orqanlarında deyilirdi ki, ermənilər torpaqlarından qovulur, Qarabağ erməni torpağıdır. Bütün bunlar böyük bir uçqun kimi Azərbaycan xalqının əleyhinə idi, Azərbaycan xalqının qışqırığını, ağrısını tanıyan, bilən yox idi. Bizim böyük səylərimiz nəticəsində həqiqət dünyaya məlum oldu. Məlum oldu ki, təcavüzkar ermənilərdir. Buna xüsusən Kəlbəcər hadisələri təsir etdi. Mən demək istəyirdim ki, Azərbaycanın bu acınacaqlı günlərində burada deyilən məsələlərin hamısı doğru idi. Kadr siyasətində böyük səhvlər, bizim iqtisadiyyatın darmadağın olunması, ordumuzun yaradılmaması, məğlubiyyətlərimiz və bu qaranlıq fonda Azərbaycan xalqının yalnız xarici siyasət sahəsində nailiyyətləri var idi. Bu nailiyyətlər də göz qabağındadır, Azərbaycan xalqının yeganə ümidi beynəlmiləl təşkilatlar idi. Ona görə ki ordusu vuruşmurdu, siyasətçiləri işləmirdi, iqtisadiyyatımız dağılmışdı, çox adam cibini pulla doldurmaqla məşğul idi. Azərbaycan xalqının xarici siyasət sahəsini, nailiyyətini bilirəm və tanıyıram. Mən xahiş edirəm ki, bu nailiyyətlərimizə kölgə, ləkə salmayın. Biz xalqımızın həqiqətini dünyaya çatdırmaq istədik və çatdırdıq. Bunun nəticələrini də görəcəyik. Mən bu barədə tamamilə optimistəm, lakin bizim ordumuz da yaradılmalıdır, qüvvəmiz də olmalıdır. Əgər bunlar olmasa, biz, sözsüz ki, məğlub olacağıq. Ona görə də mən hamıdan xahiş edirəm ki, bu atılan addımlara düzgün qiymətlər verilsin.

Mən burada heç cür özümü müdafiə eləmək üçün demirəm. Mən nəinki Əbülfəz Elçibəylə, Ayaz Mütəllibovla da, Yaqub Məmmədovla da işləmişəm. Şərəflə işləmişəm, Azərbaycan xalqının istiqlaliyyətini müdafiə etmişəm, istiqlaliyyətini tanımamaq cəhdlərinin əleyhinə mübarizə aparmışam. Belə cəhdlər olub və demək istəyirəm ki, hakimiyyətdə kim olursa olsun, Azərbaycan xalqının savadlı oğulları həmişə qabaqda olmalıdır və işləməlidir.

Mən beş dil bilirəm. Bizim aparatda əlavə dil bilən adam yoxdur. Xaricdən gələn nümayəndə heyətləri kimə müraciət edir? Vəfa Quluzadəyə. Kim siyasi dialoqlar aparır? Vəfa Quluzadə. 1990-cı ildən bəri bu günə qədər Buşa, Beykerə, Klintona bütün bu məktubların hamısının proyektini yazan kimdir? Bir kəlmə demək istəyirəm. Allaha şükür ki, bu Milli Məclisdə gedən bütün söhbətlərin hamısı yazılır, buqələmunun kim olduğunu Milli Məclisin üzvləri açıq-aşkar tanıyırlar. Çox sağ olun.

**Sədrlik edən.** Bir dəqiqə, bağışlayın. Bəzi Məclis üzvləri tənəffüs istəyirlər, ancaq xahiş edirəm, gəlin məsləhətləşək. Burada bu məsələ üçün hələ beş nəfər də adam, yəni bizim Məclis üzvləri yazılıb. Bəlkə,

dözəsiniz, bu məsələni qurtaraq. Çünki bilirsiniz, indi parlamentdə bəziləri, görürəm, siqar çəkmək üçün çıxırlar, gəlirlər. Etiraz yoxdur ki? Dözümlü olun. Neyləyək? Vəziyyətimiz ağırdır. Qurtarmaq lazımdır, ona görə, Məmmədov.

Bəli. Xeyrulla Əliyev, buyurun.

**Xeyrulla Əliyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Burada 3 dəqiqə deyirlər. Mən indiyə qədər az danışmışam, Heydər müəllim. Əvvəla, 6-cı gün mən xarici bir müxbirə rast gəldim. Biz söhbət edirdik. O, kənardan xeyli qulaq asdı, axırda yaxınlaşdı və dedi ki, Ağdamdan dünən axşamçağı gəlib. Dedi ki, təəccüb edirəm, bəzi adamlar Ağdamın verilməsinə sevinirdilər. Mən bunu xarici müxbirdən eşitdim. Azərbaycanlı idi, amma xarici müxbir idi, adını burada çəkmirəm. İstər-istəməz bir şairin misraları yadıma düşdü: “Əcdadım mərd olub, ulu babam mərd olub, atam mərd olub. Bəs bu namərdlər haradan doğulub?” Ağdamın verilməsində, heç şübhəsiz, namərd əli olub. Ermənilər də təxribatlar hazırlayıb, amma özümüzdən də namərdlik olub.

Azərbaycanın qara günləri, Dağlıq Qarabağın qara günləri, hörmətli Heydər Əliyev, nə iyun ayında, nə iyul ayında, nə 1988-ci ildə, nə də 1989-cu ildə başlayıb. 1982-ci ilin noyabrında başlayıb. Mən üzr istəyirəm, yaxşı başa düşürəm. Bu saat başa düşülmək bir səadətdir, başa düşülməmək isə bədbəxtlikdir, faciədir. Həmin il, deməli, noyabrın sonu, dekabrın əvvəlləri – ayın 4-5-i idi. Plenumu gözləmədim, getdim. Ora Ermənistandan olan, burada yaşayan jurnalist Səyyad Ağbabalı gəldi və dedi ki, ermənilər toy içində idi, Heydər Əliyevin Nazirlər Soveti sədrinin birinci müavini seçilməsinə sevinirdilər. Bu nə işdir, Xeyrulla müəllim? Məəttəl qalırıq. Dedim ki, birinci katibin seçilməsindən çox şey asılı olacaq, görək, kim seçiləcək. Üzr istəyirəm, vaxtınızı alıram, bir dəqiqə buna fikir verin, bir dəqiqə səbriniz olsun. Dedi ki, bunlar toy-bayram edirdi. Mən sevinirdim ki, bizdən bir adam bir az da irəli gedib. Amma bunlar deyirdilər ki, sizin gününüz getdi.

İndi xahiş edirəm, hadisələrə düz yanaşaq, burada ağlaşma qurmayaq. Bəzən məsuliyyətsiz çıxışlarımızda bəyanatlarımızla, bayaq Sultan müəllimin dediyi kimi, televiziya vasitəsilə də biz düşmən dəyirmanına su tökürük, dəlinin yadına daş salırıq, onun müvəffəqiyyətlərini, uğurlarını sürətləndiririk. “Belə getsə, Yevlax da gedəcək, belə getsə, Gəncə də gedəcək” və sair və ilaxır. Səriştəsiz rəhbərliyimizlə, səriştəsiz siyasətimizlə belə getsəydi, doğrudan da, Gəncə də əldən gedəcəkdi.

Stalinqrad vuruşması gözümün qabağına gəlir, Pavlovun evi gözümün qabağına gəlir. Yoldaşlar danışanda Mustafa Kamal Atatürkü, tarixi misal gətirdilər. Tarixdə belə şeylər çox olub, amma gündəlik siyasətə gələndə çox primitiv düşünürük, çox primitiv rəhbərlik edirik və heç kim də öz nöqsanını etiraf etmək istəmir. Kimə deyirsən ki, səhv deyirsən, deyir, bu işi məndən yaxşı bilən yoxdur. Nə qədər belə gedəcəksə, doğrudan da... Amma indi sevinməliyik, bilməliyik, camaatda inam var. Hörmətli sədr, çox böyük inam var. Mən də bu inama qoşuluram, qəti bilirəm ki, Qarabağ bizimdir, elə o mahnıda olan kimi. Bizim diplomatiyamız da qalib gələcək. Özümüzü bu qədər şaşırmayaq, itirməyək. Harada görünüb ki, üzərinə düşmən gələn şəhərdə evlər boşaldılsın. Əgər o evdə adamlar varsa, hər ev bir qalaya çevrilməlidir. Düşmən elə bilir ki, bəlkə, orada pulemyot, top, tank və sair var. Amma bu siyasəti kütləvi şəkildə camaatın beyninə kim yeritdi? Hətta o muzeylər, gizli obyektlər də gərək ağılla, siyasətlə köçürüləydi. Bu, mümkün deyildi.

Burada deyirlər ki, mən demokratiyanı anarxiyaya çevirmək istəmirəm. Trotskinin sözü olmasın, mədəni cəhətdən inkişaf etmiş ictimai şüurun yüksək səviyyədə inkişaf etdiyi bir cəmiyyətdə demokratiya qurmaq olar, əks təqdirdə, uşaq əlinə ülgüc vermək kimi bir şeydir. Əgər demokratiya bu neçə ildə gördüyümüzdürsə, Allah kəssin bu demokratiyanı. Neçə vaxtdır, biz birillik iqtidarı günahlandırırıq. Mən qətiyyən əleyhinəyəm ki, Əbülfəzin də ünvanına, başqalarının da ünvanına hissə qapılıb bir qədər nəzakətsiz danışaq. O da bu xalqın oğludur.

**Yerdən.** *(Eşidilmir.)*

**Xeyrulla Əliyev.** Xahiş edirəm, bəsdirin də. Siz danışanda mən deyirəm, qurtar?

O da bu xalqın oğludur, nəzakətsiz danışmayaq, ona pis-pis etiketlər yapışdırmayaq. Dayanın, bir dəqiqə. Bədbəxtdir, nə deyirsən, de, amma o bu hərəkəti ilə sübut edir ki, əsla meydan və küçə səviyyəsindən yüksəlməyib. Prezident kürsüsünə otursa da, heç olmasa, indi günahlarını, qəbahətlərini iyunun 15-də Prezident Aparatının qabağında günahı olduğunu etiraf etdiyi kimi boynuna alsa, xalqı bu gərginlikdən qurtarar. Onu indiki hərəkəti ilə də qınamaq lazım deyil. Bu cəhət bir çox bəylərə, bir çox yoldaşlara aiddir. O, indiki səviyyəsi ilə də sübut edir ki, heç də meydan, küçə, mitinqlər səviyyəsindən irəli getməyib və bunu hamımız etiraf eləməliyik.

Eləcə də partiyalar məsələsi. Hörmətli Heydər Əliyev, hörmətli millət vəkilləri! Çox adam deyir ki, tarixdə belə şeylər çox olub, tarixdə

rəhbərlərin və kütlələrin partiyası olub. Bu qədər partiya, ictimai hərəkatlar var. Məgər bunlar rəhbərlərin partiyasıdır? Yəni bunlar elə siyasi, ictimai nüfuz qazanmış adamların partiyasıdır? Əsla deyil. Nə qədər ki belə partiyalar mövcud olacaq – bunlar ancaq kütlələrin partiyasıdır və kütlələr də görürük, nəyə gətirib çıxarır, kütlələrin şüuru da görürük, nədən ibarət olur – belə davam edərsə, heç vaxt sabitlik olmayacaq. Mən ona görə burada səslənmiş o təklifi müdafiə edirəm. Heç olmasa, vətənin bu günlərində bütün ictimai-siyasi partiyalar, hərəkatlar ya özləri vətənpərvərlik göstərib fəaliyyətlərini dayandırsınlar, ya da bu barədə bir tədbir görülsün. Çünki bir şəhərdən olan deputatın buradan hadisələrə münasibəti müxtəlif cürdür. Biz niyə deyirik ki, birlik olaq, birləşək. Plüralizm deyirik, plüralizm, bayaq dediyim kimi, yüksək dərəcədə inkişaf etmiş cəmiyyətə xas olan keyfiyyətdir. Əgər bir şəhərdən iki deputatın fikri bir-birinə uyğun gəlmirsə, biz harada birləşə bilərik? Hamıda təsbeh var. Təsbehə bir dəqiqəlik özümüz də baxaq, onun iplərini, saplarını bir-bir götürsək, çox asanlıqla qıra bilərik. Amma o muncuqlar düzülmüş sapı heç kim qıra bilməz. Ona görə, birinci növbədə, hər şeydən əvvəl ictimai-siyasi partiyaların, hərəkatların fəaliyyətini dayandıraq. Sağ olun.

**Sədrlik edən.** Mürşüd Məmmədov, buyurun.

**Mürşüd Məmmədov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, mən belə hesab edirəm ki, hər birimiz çıxışımızda siyasi mədəniyyət normalarına kifayət qədər əməl eləyək, kimisə ucaltmaq naminə kimisə alçaltmayaq, kiminsə ləyaqətini heçə endirməyək. Elə biz bu ənənəni uzun müddət davam etdirdiyimizə görə bu gün qeyri-normal vəziyyətə çıxmışıq. Hörmətli Heydər müəllim, mən belə hesab edirəm ki, Sizin çıxışınızın əsas müddəaları xalq tərəfindən müdafiə olunacaq. Mən elə bilirəm ki, bu narahatlıq respublikada yaranmış gərginliyin ruhuna uyğun olan narahatlıqdır. Hesab edirəm ki, sabahdan etibarən hüquqşünasların məsləhəti ilə Siz belə bir fərman verəcəksiniz, yəni əhali içərisində vahimə, xüsusən döyüş bölgələrindəki əhali içərisində vahimə yaradan şayiə gəzdirənlər, qorxu hisslərini aşılayanlar, ümumi işimizə ümidsizlik aşılayanlar, ordunu siyasi oyuna qatanlar cinayət məsuliyyətinə cəlb olunsunlar. Amma cinayət məsuliyyətinin dərəcəsinin səviyyəsini, ölçüsünü ancaq hüquqşünaslarla müəyyənləşdirmək lazımdır. "Müdafiə üçün nə etmisən?" şüarı bu gün bütün idarələrin, təşkilatların, müəssisələrin, bütün ictimai-siyasi qurumların başçılarının qarşısında duran bir nömrəli məsələ olmalıdır. Yəni bu gün tariximizin elə bir faciəli anı

gəlib çatıb ki, bu sualı özümüzə verməklə biz konkret neyləməliyik, nə etməliyik? Bu gün müdafiəmizi, heç olmasa, mənəvi cəhətdən, siyasi cəhətdən dəstəkləmək üçün, konkret əməli addımlar atmaq üçün neyləməliyik?

Vətənin müdafiəsi məsələsində qətiyyən alternativ ola bilməz. Burada hamı başa düşməlidir ki, bu gün 7 milyonluq xalq məhşər ayağına çəkilir və Ernest Heminqueyin dediyi kimi, bu gün hamımız üçün belə bir zəng səsi çalınır. Mən belə hesab edirəm ki, televiziyada da, kütləvi informasiya vasitələrində də qarşıdurmanın bütün təzahürlərinə qarşı mübarizə aparılmalıdır. Bu gün köhnə iqtidarı nüfuzdan salmaq məqsədi ilə televiziyaya çıxarılan natiqlər 1 il iqtidarın başında duranları "дикая дивизия" adlandırırsa, təsəvvür eləyin ki, bu, əhalinin müəyyən təbəqəsində hansı hisslər yarada bilər... Yaxud indiki iqtidarı nüfuzdan salmaq istiqamətində, respublikada yaranmış indiki ictimai-siyasi vəziyyətdə qeyri-sağlam addımlar atılırsa, bu, xalq tərəfindən çox pis qarşılanır. İndiki ictimai-siyasi vəziyyətdə hər iki tərəfi, yəni sözü də işlədəndə adam ehtiyatlı olmalıdır ki, biz hansı tərəfləri deyirik. Bu gün ancaq bir tərəf olmalıdır və xalq başa düşməlidir ki, onun nicatı tarixi idarə etmək haqqını qazanmış adamlardadır. Kim bu gün tökülən qan izini kəsəcəksə, təbii ki, xalq ona öz tarixi minnətdarlığını bildirəcək.

Keçmiş SSRİ-də orta və ali məktəblərdə hərbi hazırlıq kursları fəaliyyət göstərirdi. Mən belə hesab edirəm ki, orta məktəblərin yuxarı sinfində, ali məktəblərin hamısında hərbi hazırlıq kursları bərpa olunmalıdır, yəni əhalinin bütün təbəqələri müharibə əhvali-ruhiyyəsi ilə yaşamalıdır. Gözünü dünyaya açan və orta məktəbin yuxarı sinfinə çatan, az-çox ictimai-siyasi məsələlərdən baş çıxaran, vətən təəssüfünü çəkən hər bir şəxs başa düşməlidir ki, gedib çayçıda saatlarla vaxt keçirmək lazım deyil. Bu gün sənin müqəddəs vəzifən vətənin müdafiəsinə hazırlaşmaqdır. Rahatlıq, dinclik, laqeydlik, biganəlik əhvali-ruhiyyəsinə qarşı bütün səviyyələrdə mübarizə aparılmalıdır. Ona görə respublikanın başqa şəhərlərində ayrı-ayrı adamların Ağdamın, Xocalının, Kəlbəcərin taleyinə biganə münasibət bəsləməsini görəndə əsəbiləşməyə bilmirsən.

Bu gün çox danışırlar ki, bizim müsibətlər Xocalı faciəsindən başlayıb. Mən də razılaşıram. Lakin Xocalı komissiyası hesabat verəndən sonra kimlər məsuliyyətə cəlb olundu? Heç kəs. Sonra Şuşa, Laçın kartı oynanıldı. Bayaq natiqlərdən biri haqlı olaraq dedi ki, kimisə hakimiyyətdən götürmək üçün. Mənə elə gəlir ki, Şuşa və Laçın məsələsi kifayət qədər hüquq-mühafizə orqanları tərəfindən, prokurorluq tərəfindən

araşdırılıb. Gəncə hadisələri ilə bağlı arayış hazırlamış deputat-istintaq komissiyası orada da belə bir maddə yazıb ki, Şuşa, Laçın faciəsi yaxın vaxtlarda Milli Məclisin müzakirəsinə verilsin. Onda kələfin ucunun haraya bağlandığı millətə aydın olacaq. Biz bu məsələləri, yəni bu gün torpağın taleyi ilə oynayanları, torpağı siyasi karta qoyanları vaxtında cəzalandırmasaq, sabah Bərdə, ola bilsin ki, başqa bölgələrimiz də gedəcək. Yəni bu adamlara qarşı qanunun bütün gücünü bütün səviyyələrdə tətbiq eləmək lazımdır.

Nəticə etibarilə demək istəyirəm ki, biz bu gün demokratiyadan çox danışırıq. Qanunla müdafiə olunmayan demokratiya mütləq anarxiyaya, xaosa gətirib çıxaracaq. Bəzən deyirlər ki, diktatura nə zaman yaranır. Diktaturanı demokratiya doğurur, yəni qanunla müdafiə olunmayan demokratiya. Çünki bu qanunla müdafiə olunmayan demokratiya xaos, anarxiya yaradır və anarxiya, xaos öz növbəsində diktaturaya gətirib çıxarır. Ona görə diktaturaya çıxmamaq üçün demokratiya mütləq qanunçuluqla möhkəmlənməlidir. Respublikanın bütün fəaliyyət sahələrində, təsərrüfat mexanizmində, idarə aparatında – hamısında qanunçuluq və nizam-intizam möhkəmlənməlidir. Xalq hiss eləməlidir ki, müharibə aparır, yəni xalqın hər bir fərdi müharibə aparan bölgələrin hamısının taleyi ilə yaşamalıdır. Belə olmasa, yəni konkret olaraq respublikanın müdafiəsi üçün tədbirlər planı işləyib hazırlanmasa və müharibə hər bir kəsin şəxsi işinə, şəxsi taleyinə çevrilməsə, gələcək qələbədən, gələcək uğurdan danışmaq mənasız olar. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** İbrahim İbrahimov.

**İbrahim İbrahimov.** Hörmətli sədr, əvvəlcə mən Sizdən xahiş edirəm ki, sədrlik səlahiyyətinizdən istifadə eləyib həm bizi, həm televiziya tamaşaçılarını, həm də Prezidenti təhqir eləyən millət vəkillərini yerində oturdasınız. Özlərinin dediyi kimi, onlara bir daha bu cür etik normaları pozduqlarına görə söz verməyəsiniz.

**Sədrlik edən.** Bağışlayın, mən, ümumiyyətlə, hesab edirəm ki, Milli Məclisin üzvləri, deputatlar gərək etika normalarını həmişə gözləsinlər. Uşaq deyillər ki, hər dəfə onlara “bu sözü demək olar, bu sözü demək olmaz” deyilsin. Mən güman edirəm ki, əgər bu salonda, bu Milli Məclisdə etika normaları indiyə qədər gözlənilməyibsə, indi bu gün mən bu adamların ağzını yuma bilmərəm. Ancaq təəssüf ki, burada etik normaları, mədəniyyət normaları çoxdan pozulub, söyüş söymək, cürbəcür tərbiyəsiz sözlər demək bu salonda son illərdə adi bir hadisəyə verilib.

Əlbəttə ki, bunlar bizim Məclis üçün, parlament üçün, ümumiyyətlə, bizim xalq üçün yaramaz. Biz nümunə göstərməliyik. Mədəniyyət nümunəsi, etika nümunəsi, ziyalılıq nümunəsi göstərməliyik, amma mən hər bir çıxış eləyənin sözünü kəsib deyə bilmərəm ki, bu sözü denən, ya demə. Bu divarlar, bilmirəm, necə dözürdü ki, bu illərdə əxlaqdan, tərbiyədən kənar sözlər həddindən artıq işlənib. Mən tamamilə tərəfdaram ki, bəli, etik normalar, əxlaq normaları gözlənilməlidir. Biz burada mədəniyyət nümunələri göstərməliyik. Buna nəinki tərəfdaram, mən həmişə belə olmuşam, belə də olacağam.

**İbrahim İbrahimov.** Heydər bəy, əgər burada bu davam eləyirsə, Siz sədrsiniz, bu gün bundan sonra məsələlərə Siz məsuliyyət daşıyırsınız və Siz buna imkan verməməlisiniz.

Bir neçə dəfədir, Məclisdə müharibə böhranı ilə bağlı məsələlər müzakirə olunur. Son müzakirədə belə bir qənaətə gəldim ki, görünür, biz – millət vəkilləri, müəyyən siyasi qruplar, siyasətlə məşğul olan ayrı-ayrı fərdlər, mən də daxil olmaq şərti ilə Qarabağ probleminin mahiyyətini, mənasını tam şəkildə özü üçün açıqlaya bilməyib. Problem nədir? Bu problemin əsrdən artıq ömrü var, yəni bir əsrdən artıqdır ki, bu problem həll olunmayıb. Əsrin əvvəllərində bu problem bizim xeyrimizə həll olunmadı, donduruldu, bu günə də qədər qalıb. Özünüz də hiss edirsiniz ki, son proseslərdə problemi yenidən dondurub konservləşdirmək istəyirlər. İndi bizim yeganə məqsədimiz ondan ibarət olmalıdır ki, problemi köklü şəkildə həll eləyək, bu günə qədər millətimiz üçün ağır faciə törədən bu problemi gələcək nəslin öhdəsinə onlar üçün problemə çeviriləcək bir məsələ kimi saxlamayaq.

Burada problemin müəyyən cəhətlərindən danışıldı. Son uğursuzluqlarımızın hərbi-siyasi, hərbi-psixoloji səbəbləri var. Xüsusən daxili səbəblər, daxili amillər həddindən artıq genişləndirildi və daha çox bir müstəvi üzərinə yönəldildi ki, guya Azərbaycandakı torpaqların verilməsi birbaşa hakimiyyət davası ilə bağlıdır. Əgər qəbul eləyiriksə, Qarabağ problemi Azərbaycanda siyasi stabilliyin formalaşmasına, yaranmasına şərait yaradılmaması üçün əldə bir təsir vasitəsidir, mütəmadi olaraq bundan istifadə edəcəklər. Öz siyasi məqsədləri üçün fəaliyyət göstərən qüvvələr də ümummilli mənafeyi bir tərəfə qoyub, təbii ki, bu məqsədlərdən istifadə edəcəklər.

Mən istərdim ki, burada bu məsələyə məqsədi yönəldim, əsas məzmundan yayınmayaq. Burada xüsusən xarici faktorlara daha diqqətlə

yanaşmaq lazımdır. Əvvəla, Azərbaycan elə bir region, elə bir bölgədir ki, burada dünya dövlətlərinin strateji maraqları var və o maraqlar bəzən burada üst-üstə düşür, bəzən isə kəsişir. Belə anlarda bizim başlıca vəzifəmiz yalnız ondan ibarət olmalıdır ki, maraqların bu kəsişmə, toqquşma anlarında bu milləti, xalqı zərbədən yayındıra bilək. Burada məsələlər müzakirə olunandan iki yol götürülürdü: hərbi-siyasi və siyasi-hərbi yol. Əgər bu gün daxili faktora, amilə fikir versək, doğrudan da, məğlubiyyətimizin başlıca səbəbi ondan ibarətdir ki, ordu qurulmayıb. Bu, faktdır. Ordunun qurulmama səbəbləri tamam başqadır. Yəni bundan bir qədər əvvəl ordunun daxilindəki vəziyyətlə bağlı xüsusi yoxlama işi gedib. Borcumuzdur ki, həmin yoxlama işinin nəticələrini ortalığa qoyaq və ordunun niyə qurulmadığını müəyyənləşdirək. Bu, daxili faktordur.

Amma xarici faktora da fikir vermək lazımdır, yəni bizim gücümüz yoxdursa, ordumuz qurulmayıbsa, hərbini önə çəkib, hərbi yolu birinci plana çıxarmaqla, siyasi yolu ikinci plana qoymaqla yenə uduzacağıq. Əvvəla, ermənilər də cəhd eləyiblər ki, bu məsələni beynəlxalq aləm səviyyəsinə çıxarıb beynəlmiləlləşdirsinlər. Sonrakı gedişlərdə bizim xarici siyasətimizin uğurlarından biri ondan ibarət oldu ki, biz onlardan qabağa düşüb bu problemi beynəlmiləlləşdirə bildik və dünya təşkilatlarında, ATƏM-də, BMT-də bizə olan münasibət tam şəkildə dəyişə bildi.

Ermənistanın daxilində vəziyyət çox gərgin olduğuna görə son dövrlərdə onların lüzumu, aktivləşməsi həddindən artıq güclənəcək. Bilirsiniz ki, Ermənistanın daxilində hakimiyyətdə olan qüvvələr erməni ümummilli hərəkatıdır. Müxalifətdə dayanan qüvvələr isə daşnak partiyası və digərləridir. Bunlar arasında kəskin mübarizə gedir. Hakimiyyətdə erməni ümummilli hərəkatı özünü hakimiyyətdə saxlamaq üçün bunu xüsusən gücləndirəcək, müharibədə aktivləşəcək. Bizim Füzuli torpaqlarımız da müəyyən vəziyyətdə təhlükə qarşısında qala bilər. Bu faktoru da nəzərə almaq lazımdır.

Bütün bunlarla mən sizin vaxtınızı almaq istəmirəm, yalnız bir şeyi nəzərdə saxlamaq lazımdır. Səsləndi ki, Qarabağ problemini ATƏM-dən çıxarmaq. Burada məsələnin beynəlxalq təşkilatlar səviyyəsində həll olunmasına fikir verin. Bu, çox qorxulu haldır. Əgər biz bu məsələni siyasi yolla həll eləyə bilməsək və beynəlxalq təşkilatların müzakirə obyektindən çıxarsaq, xüsusən də ATƏM-dən çıxarsaq, bu bizim üçün çox böyük təhlükəyə səbəb olacaq. Burada artıq belə hallar müşahidə olunur. Bu dəqiqə Azərbaycanda ruslarla ermənilərin maraqları tam

şəkildə üst-üstə düşür. Rusların burada bir dənə də olsun, qoşunu yoxdur. Azərbaycan yeganə respublikadır ki, Rusiyanın bütün qoşunlarını öz ərazisindən çıxarıb. Ermənilər burada bağlanmış müqavilə əsasında fəallaşırlar. Ruslar ermənilərə kömək eləyib bu cür uğursuzluq yaratmaqla yenidən bölgəyə qayıtmaq istəyirlər, özü də sülhməramlı statusu almaq məsələsi ilə qayıtmaq istəyirlər. Çünki biz məsələni beynəlxalq təşkilatlarda qoyub uğurlar qazandığımıza görə artıq onların təşəbbüsü əllərindən çıxır. Biz rus qoşunlarının yenidən bura qaytarılması üçün cəhdlərin qarşısını kəskin şəkildə almalıyıq.

İkinci əsas səbəb. Biz respublikada müharibəyə psixoloji cəhətdən hazır deyilik. Əhalini psixoloji cəhətdən müharibəyə hazırlamaq, respublikada müharibə əhvali-ruhiyyəsini yüksəltmək lazımdır. Bunun üçün təbliğat qurmaq lazımdır. Bunun üçün hər bir kəs öz evində oturub hiss eləməlidir ki, müharibə şəraitindədir. Ordu qurulmalıdır və siyasi məsələlər ön plana keçməlidir.

Mən, nəhayət, son məsələni diqqətinizə çatdırmaq istəyirəm. Burada Cümşüd bəy həddindən artıq fəallaşıb. Tez-tez iqtidara möhkəm döşəyir. Amma hörmətli Cümşüd bəyin nəzərinə çatdırmaq lazımdır ki, iqtidar səni ən yağlı yerlərə qoymuşdu. Gömrük komitəsindən, Kənd Təsərrüfatı Nazirliyindən tutmuş... Nə oldu? Qardaş, sən pul yığan olmamısan, onlar pul yığan olub? Onlar pul yığan olubsa, sən də onlardan betər pul yığan olmusan. Ona görə də çox xahiş edirəm, danışıqlarınıza, ümumiyyətlə, sədd qoyun. Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Rəhim Qazıyev, buyurun.

**Rəhim Qazıyev.** Hörmətli millət vəkilləri, hörmətli sədr. Bu gün müzakirə olunan məsələ uzun müddətdən bəri yetişmiş məsələdir. Çox təəssüflər olsun ki, burada əsas məsələ ordunun vaxtında formalaşmamasından və onun təşkil olunmamasından gedir. Bu zal və bu divarlar şahiddir ki, bu gün burada millətə mənəviyyat dərsi deyən, haqqı olan-olmayan vaxtında həbsdə oturub haqqını tapsaydı, o adamların çoxu indi danışmazdı. Burada dəfələrlə verilən layihələr, ordunun təşkil olunması üçün verilən qanunların uzadılması, cəzasızlıq mexanizminin zaman-zaman formalaşması və həyat normasına çevrilməsi bugünkü faciəni törədir.

İndiyə kimi burada Xocalı faciəsinin, Şuşa–Laçın faciəsinin, Kəlbəcər və nəhayət ki, Ağdam faciəsinin günahkarlarından və sairdən söhbət gedir. Bunların hər birində hakimiyyət dəyişilməsini uzlaşdırırlar. Əv-

vəla, mən qeyd eləmək istəyirəm, hörmətli millət vəkilləri, ordu yaranır. Özü də müharibə gedən, təcrübəsi, mütəxəssisi olmayan dövlətdə çox müvəffəqiyyətlə yaranır. Kifayət qədər lazımlı şeylər də alınırdı. Mən bilmirəm, iqtidarda olanlar, yaxud onları dəstəkləyənlər, hansı qüvvələr, təəssüflər olsun ki, onun dağıdılmasına gətirib çıxardı. Hələ bu günə kimi sərhəd bölgələrində olmayan, yaxud da doğumu oradan olub, vəziyyətin gərginləşdiyini görüb buradan qaçmış, indi isə burada deputatlıq eləyənlərin çoxu ittiham eləyirlər. İttiham olunası bu zaldır, burada oturanlar, hər birimizik. Ona görə ki indi Sizə, Sizdən əvvəlki sədrə təriflər deyən adamların o sədr gedəndən sonra kölgə qılınclamaqdan başqa heç bir ləyaqəti, heç bir səviyyəsi olmayıb. Əgər olubsa, qalxıb desinlər.

Bunların hamısını ittiham eləmək asandır. Əgər müharibə 5 ildir davam edirsə və axırıncı 2 il də müharibə gedirsə, ikiillik müharibədə əsgərindən tutmuş generalına qədər bir nəfər də cəza almayıbsa, hansı ordudan, hansı nizam-intizamdan danışmaq olardı? Burada dəfələrlə deyilib ki, əgər o müharibə gedən dövrdə hərbi cinayət işləmiş adamlar amnistiya alırsa, tutulan adamlar 3 gündən sonra həbsdən buraxılırsa, vuruşmağa və ölümə getməyə kimi məcbur eləmək olardı? Mən xahiş edirəm, hərbi prokuror bura dəvət olunsun. Danışsın ki, nə vaxtdan ona verilən materiallara hansı münasibət göstərib və harada onun qarşısı kəsilib. Bu gün işğal olunan torpaqlarımızdan çıxan çox yüksək döyüş keyfiyyəti olan adamlardan qruplar düzəldilib. Partizan, yaxud da ki bizim orada qalmış əmlakımızın qorunması səviyyəsində qrupların təşkil olunması məsələsi dövlət səviyyəsində getmədi, amma oradan çıxan adamların hərəsi bir siyasi partiyada, siyasi axında özünə sığınacaq tapdı. Burada dəfələrlə xahiş elədik ki, heç olmasa, dondurulsun. Amma nəticəsi nə oldu? Gündə bir partiya yağışdan sonra göbələk kimi fəaliyyət göstərməyə başladı və bu da o fəaliyyətin acı nəticəsidir, Ağdam da, Kəlbəcər də, Şuşa da, Laçın da hamımızın ləkəsidir.

Bu gün Şuşadan danışan adamlar burada ittiham olunmalıdır. İttihamın qarşısında getməyə hazıram. Amma deyin görək, aprelin 20-dən mayın 15-nə kimi burada neçə mitinq oldu? Neçə nəfərin hakimiyyətə gəlməsi haqqında mahnılar oxundu? Mənim dədəm Həsən kişidən ordu qalmışdı, mən onunla vuruşaydım. Mən mayın 15-də gəlib dedim. Ayın 14-də bir xəyanət, 15-də də digər xəyanət oldu. Bütün əlisilahlı adamların hamısı burada idi. Ordunun yaranması üçün hansı qayğı göstərildi? Dövlət səviyyəsində, ziyalılar səviyyəsində hansı getdi? Dəfələrlə

burada yalvardım, başınıza dönüm, gedin, övladlarınıza baxın, görün bu gün onlar necə ordu hissələrində xidmət eləmək istəyirlər. Hansı ardıcıllıqla getdi? Siz qeyd elədiniz ki, Səməd Vurğun "müfəssəl əsgərəm mən də bu gündən" şüarını ortaya atmışdı. Müfəssəl əsgərə atalıq eləmək qayğısı lazım idi. Hansı getdi? Bu gün vətənpərvərliyi başqalarına dərs verən hörmətli millət vəkilləri öz övladlarını 5 illik müharibəyə göndəriblərmi? Hamısı öz övladlarına respublikada və ondan kənarda çox mehriban, qayğıkeş institutlar və onlara yaxşı ixtisaslar tapıblar.

Müharibəni necə udmaq olar? Müharibəni udmaqdan ötrü səfərbərlik, ciddi nizam-intizam olmalıdır. Müharibə gedən bir dövlətdə 33-34 partiya var və o partiyaların bəzi üzvləri 3-4 partiyanın üzvüdürlər. Birinə sual verəndə dedi ki, mənim bədənim Xalq Cəbhəsidir, başım Müsavat partiyasıdır. Bu ideya ilə müharibə udmaq olar? Ordu yaratmaq olar? Axı bizim ordumuz olmayıb. Burada danışanda axıra kimi Müdafiə Nazirliyi tənqid olunur. Yedilər, dağıtdılar. "Azadlıq" qəzetində verilib, orada şərəfsizcəsinə nə yeyilib, nə dağıdılıb. Bu gündən sonra Azərbaycanda kim hər hansı müqavilə bağlayıbsa, nə isə alıbsa, nə isə verəcəksə, kimin bir cəzası var, tutub onu güllələyin. Amma Azərbaycan xalqının məhvini gözünün qarşısına gətirir.

Bu gün artıq keçmiş hadisədir. Dekabrdan bəri baş verən hadisələr və Gəncədə gedən hadisələr. Burada kim qayğıkeşlik edib getdi? Kim onun qarşısını aldı? Bu gün burada birinə "qatıq satan", o birinə, "ərik yeyən" adını qoyan kişilər, o qarpız satan burada seçiləndə niyə durub demədilər ki, a kişi, hara seçirsiniz? Əksinə, çox yumşaq formada dedilər ki, Prezidentin komandasıdır, Prezident deyib, buyursunlar, olsunlar. Gedəndən sonra ittiham eləmək asandır.

Heydər Əliyev, bu gün və sabah Siz gedəndən sonra görün, Sizin və Surətin arxasınca nələr danışacaqlar. Bunlar qarşıda durana sağlıq deməyə, gedənin də anasını ağlatmağa öyrəniblər. Bu gün bizdən ötrü bu qədər ağır, bu qədər ləkəli bir şəraitdə heç kim konstruktiv tədbir görmədi, dünən 15 dəqiqəyə katib seçib arxada lampa işığında da pul yığan adamlar indi iqtidardan, qətiyyətdən danışırlar. Bəli, 1 ildə dəhşətli dərəcədə kadr siyasəti, hərbi siyasət aparan, nə deyim, xalqın ümidini ayaqlar altına atan iqtidarın ləyaqətsizliyidir ki, bu gün danışmağa haqqı olmayan adamlar ittiham irəli sürürlər.

Bu gün hərbi struktur konkretləşməlidir. Hələ strukturumuz müəyyən deyil, gecə-gündüz gənclərimizin ciddi hərbi təlim alması üçün

bütün qüvvələr səfərbərliyə alınmalıdır. Bu, dəfələrlə deyildi, edilmədi. Kim ki deyir, silah-sursat çatışmır, vicdanları olsun. Kifayətdən də çox alınıb. Amma nəticəsi nə oldu? Oktyabrın 9-dan sonra Müdafiə Nazirliyinə olan xəyanət 4 dəfə artdı. Biz bunu o baxımdan göstərdik ki, ordumuzun yaranması üçün xalqımızın ləyaqəti də, qabiliyyəti də var. 4-5 ildir ki, müharibə gedir, amma müharibədə yaralananlar qaçar kimi döyüşə gedirlər. Ən ləyaqətli oğullarımız orada həlak olurlar. Biz göstərdik ki, xalqımızın ləyaqəti var. Onun əvəzinə nələr oldu? Balans yaratmaqdan ötrü 4-5 dənə alternativ ordu hissələri yarandı ki, insanların əqidəsinə baxın, birdən çevriliş olar. Gərək bir insanın əqidəsinə, Allahına, imanına, dədəsinin ruhuna, ölənlərinin ruhuna inamı ola ki, ona and içib başa salasan ki, vallah, billah, mənim məqsədim yoxdur, məqsədimiz ancaq qələbə çalmaqdır. Bu gün də o məqsədləri həyata keçirməkdən ötrü müxtəlif iyrənc oyunlar gedir. Qarabağ indi kiminsə bir kürsüdən o biri kürsüyə keçməsi üçün... Mən nə deyim, biədəb söz işlətmək istəmirəm. Bu gün bu ağır vəziyyətdən çıxış yolu üçün heç bir işləmək qabiliyyəti və konstitusion hüququ olmayan bizim dövlət strukturu qısa bir müddətdə, iki-üç günə burada oturmaqla formalaşmalıdır. Bir Kabinetin bir şöbə müdiri təyin eləməyə hüququ yoxdursa, o Kabinet müharibə vaxtı necə işləyə bilər? Əgər Kabinetə Prezident təklif verir ki, filankəs Baş nazir olsun və o Baş nazir də öz komandasını yığmırsa, hansı səlahiyyətin və hansı məsuliyyətin cavabı olacaq?

Bizim xalqımızın bir psixologiyası var. Kim işə qoyur, kim işdən çıxarırsa, o adamı sayır, yerdə qalanlarla hesablaşmır. Qısa müddətdə Nazirlər Kabinetinin strukturu müəyyənləşdirilməsə, Prezident Aparatı ilə Nazirlər Kabineti arasında icra sistemi kəskin qoyulub hər kəsin məsuliyyəti, fəaliyyəti, hüququ və vəzifələri müəyyən olunmasa, inanın, mən sizə bunu tam səmimiyyətlə deyirəm, heç nə əldə olunmayacaq. Gecə-gündüz işləməliyik. On gündür, Məclis yoxdur. Niyə? Deməli, biz hər dəfə bir şəhərimiz alınanda, yaxud hər dəfə bir faciə olanda yığılasıyıq? Gecə-gündüz işləmək lazımdır. Həm Kabinet, həm Müdafiə Nazirliyi, həm də Daxili İşlər Nazirliyi. Vuruşan qoşunların birdəfəlik statusu müəyyən olunmalıdır. Bunlar olmasa, bizdən ötrü həddindən artıq faciəli olan...

Konstitusiyamız bu gün məğlubiyyətimizin əsas səbəblərindən biridir. Ona görə ki bizim Konstitusiyamızda olan maddələr və tez-tez hamımız tərəfindən fəxrlə deyilən "müstəqil Azərbaycan, canım"... Biz hələ müstəqil deyilik. Niyə özümüzü aldadırıq? Haradan müstəqilik?

Bayaq Rusiya bizə himayəçilik edirdi, indi Rusiya, Amerika, Türkiyə, İran. Bizim neçə dənə ağamız olub? Hərənin bu torpaqda öz marağı var və hər kəs öz payını aparmağa gəlir. Hələ bizə kömək eləməyə gələn yoxdur. Biz "müstəqil" deyə-deyə bütün bu faciələrin hamısını Azərbaycan xalqının üstünə yıxırıq.

Mən ifadəmə görə çox üzr istəyirəm: yer bərk olanda öküz öküzdən görər. Qarabağ problemi orta səviyyəli və yaxud daxili səviyyəli problem deyil. Bəli, Qarabağ probleminin daha faciəvi şəkil alması üçün daxilimizdə olan, şərəfini, ləyaqətini, vicdanını itirib kürsüsündən ötrü hər şeyə gedən adamlardan çox güclü istifadə olunur. Bu gün kənarda olan düşmənin sifəti görünmür, görünən sifət ancaq özümüzünküdür, bu sifətləri məcbur edəcəklər ki, Azərbaycan xalqının psixologiyasından istifadə edib bir-birimizi əlimizdə olan silahlarla məhv edək və o silahlar da kifayət qədərdir. Erməniyə işlətməyə cəsarətimiz, cürətimiz, ləyaqətimiz çatmasa, bir-birimizə işlədəsiyik.

Mən uzun danışıb vaxtınızı aldığım üçün üzr istəyirəm. Heydər bəy, təklif edirəm, bu gündən etibarən üç-dörd gün ardıcıl komissiyalar, hüquqşünaslar Kabinetin, Müdafiə Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Prezident yanında yaradılmış Xüsusi idarənin... O idarədə orada olan rəis professionalların hamısını qaçırır. Böyük bir fəaliyyətlə Sizin adınızdan da deyir ki, məsləhət var, deyiblər ki, siz burada işləməyəcəksiniz. Təxribat ardıcıl davam edir, bunun qarşısı alınmalıdır ki, sonra biz müdafiəni işğal edilən torpaqlarımızın müvəffəqiyyətlə geri alınmasına yönəldək. Bundan ötrü konstruktiv oturub, 3, 4, 5 gün işləyib nəticəni stolun üstünə qoymaq lazımdır. Hər faciədən sonra bura yığılıb, dil töküb ağlaşıb, bir-birimizi təhqir edib gedəndən sonra heç nə əldə olunmayacaq.

Hər şey də kadrlardan başlayır. Mən burada son ifadəmdə də dedim, kimləri çıxarıb əvəzinə kimləri qoyurlar. Hər şeyi kadr həll edir. Əgər ləyaqətli, səviyyəli kadrlar olarsa, onlar da onun qarşısına qoyulan tapşırığı, yaxud da vəzifəni yerinə yetirəcək.

Ən nəhayət də, Kabinet üçün öz mülahizəmlə müəyyən yoldaşlarla oturub hazırlamışıq, layihəmiz də var və o layihə də Baş nazirə təqdim olunacaq. Layihəyə baxılıb tezliklə Konstitusiyada dəyişikliklər aparılsın və bizim bu fəlakətdən çıxmağımız üçün konstruktiv iş və ordunun birdəfəlik strukturu tezliklə təsdiq olunsun. Hər gələn burada özü üçün struktur hazırlayır. Məclis səviyyəsində bir dəfə struktur müəyyən

olunsun ki, o struktur üzrə də inkişaf, quruculuq işləri getsin. Çox sağ olun.

**Sədrlik edən.** Müzakirəni davam etdirməliyik, yaxud necə baxırsınız? Bəli?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Rauf İsmayılov, buyurun.

**Rauf İsmayılov.** Bir şeyi nəzərinizə çatdırmaq istəyirəm ki, həmin bu zalda bu millət vəkillərinin iştirakı ilə Kəlbəcər verilən günün səhəri burada BMT-yə Butros Qalinin adına bir məktub hazırlanmışdı. Həmin o məktub məndə var. Sabah onu "Azərbaycan" qəzetində çap elətdirəcəyəm. Onda mən öz sözümü dedim, Prezident də orada iştirak edirdi. İsa Qəmbər iclası aparırdı. Dedim ki, bu, X sinif səviyyəsində hazırlanmış məktubdur. Demək, Kəlbəcər gedib. Kəlbəcərin getməyinə baxmayaraq, məktubda yazılır: "Əxlaq normalarını ermənilər pozur və bizə qanqaraldıcı hərəkətlər edir". Bu, demək, dövlət müşavirinin yazdığı məktubdur. Sonra birinci bənd, demək, Kəlbəcər gedib, 50-60 min əhali qaçqın qalıb. Yazır ki, birinci maddə: hörmətli Butros Qali, sən bir az o humanitar yardımı bizə artır. Mən keçən dəfə burada deyəndə sənin heç bir cəsarətin çatmadı ki, durub mənə cavab verəsən. Amma bu gün deyirsən ki, buqələmun olsaydım, mən də vəzifə tutardım, Mikoyan kimi beş nəfər Prezidentlə işləməzdim. Buradan xahiş edirəm, yerini biləsən, həddini biləsən, özü də həddini aşmayasan. Bax budur sənin yerin.

**Sədrlik edən.** Bağışlayın. Əliyev Yaşar buyursun.

**Yaşar Əliyev.** Hörmətli sədr, mənə elə gəlir ki, müzakirə səmərəli keçib, qərar layihəsini qəbul eləmək lazımdır. İcazənizlə, mən Milli Məclisin üzvlərinin nəzərinə bir-iki bənd təklif edərdim. Birincisi, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin məlumatı nəzərə alınsın. İkincisi, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Qarabağda və respublikanın sərhəd bölgələrində yaranmış ağır vəziyyətlə əlaqədar apardığı siyasi, diplomatik və hərbi quruculuq sahəsindəki işlər məqsədəuyğun hesab edilsin və bu istiqamətdə iş davam etdirilsin. Üçüncüsü, Azərbaycan Respublikası Hərbi Prokurorluğuna tapşırılsın ki, Ağdam şəhərinin işğal edilməsində təqsirkar olan şəxslərin müəyyən edilib cinayət məsuliyyətinə cəlb olunması üçün qəti, qanuni tədbirlər görülsün. Xahiş edirəm, bu təkliflər nəzərə alınsın.

**Sədrlik edən.** Etibar Məmmədov, buyurun.

**Etibar Məmmədov.** Mən təəssüf edirəm ki, hər dəfə hansısa faciə müzakirə olunanda bu zalda bu tribunadan dəfələrlə çıxış eləmişəm. Ona görə də indi tribunaya çıxdım. Şuşa faciəsi, Laçın faciəsi, Kəlbəcər faciəsi, indi də Ağdam faciəsi müzakirə olunur. Əvvəl, lap birinci başlayan Xocalı faciəsini demirəm. Birdəfəlik dərk eləməsək ki, bu, ayrı-ayrı rayonların faciəsi deyil, ümumi Azərbaycanın faciəsidir, mənim fikrimcə, faciələr hələ də davam edəcək. Hər dəfə də bu zalda müzakirələrdən sonra aydın olur ki, heç bir qərar qəbul eləmirik, heç bir qəti tədbir görülmür və biz növbəti faciəni gözləyirik. Hər bir faciə müzakirə olunanda günahkarları öz daxilimizdə daxili düşmənlər simasında axtarmağa başlayırıq.

Mən heç vaxt nə tribunadan, nə də çıxışlarımda rəvayət danışan deyiləm, ancaq Molla Nəsrəddinin lətifəsi yadıma düşür: “Bir dəfə Mollanın evi oğurlananda biri deyir ki, günah səndədir. Niyə qapını açıq qoyurdun? Biri deyir, niyə dəmir qapı qoymadın? O biri deyir, qıfılı niyə möhkəm eləmədin? Axırda Molla deyir ki, axı bu oğrunun bir günahı yoxdur?” Biz burada müzakirə aparırıq. Az qala bütün Azərbaycan xalqının hər bir hissəsini, ayrı-ayrılıqda siyasi təşkilatlardan tutmuş rəhbərlərə qədər hamını düşmən eləmişik. Axı düşmən gözümüzün qabağındadır. Qarabağın işğalında erməninin günahı yoxdur? Bəlkə, hücum edən azərbaycanlılar idi, iki yerə bölünüb, bir hissəsi Ağdama hücum edirdi, biri müdafiə olunurdu? Bu məsələdən başlamaq lazımdır. Burada da hamı birlikdən danışır. Heydər müəllim, axı burada birlik deyən adamlar vaxtı ilə deyirdilər ki, Ayaz Mütəllibovun ətrafında birləşin. Ondan qabaq, nə bilim, Vəzirovun ətrafında birləşməyə, sonra da Elçibəyin ətrafında birləşməyə çağırırdılar. İndi də Sizin ətrafınızda birləşməyə çağırırlar. Sabah da, yenə də deyirəm, bir başqasının ətrafında birləşməyə çağıracaqlar. Birlik deyəndə biz birdəfəlik bilməliyik ki, bu birlik ayrı-ayrı adamların ətrafında deyil, ümumi bir ideyadır. Bu birlik Azərbaycanın ətrafında olmalıdır və bunu yaratmaq üçün biz öz daxilimizdə düşmənlər axtarmamalıyıq, adamlar vəzifədən gedəndən sonra onların dalınca danışıb təhqir eləməməliyik. Bunun hamısını siyasi oyunlara bağlayıb burada siyasi təşkilatları günahlandırmamalıyıq.

Burada tez-tez “göbələk kimi yerdən çıxan partiyalar” deyirlər. Birincisi, nə mən göbələyəm, nə də mənim partiyam göbələk kimi yaranıb. Kim özünü göbələk hesab edirsə, eləsin. Bu həm Azərbaycan xalqına, həm də, Heydər müəllim, Sizə təhqirdir. Çünki Siz də bir partiya

yaratmısınız. Bəlkə, Sizin də yaratdığınız partiya göbələkdir? Burada həmin o deputat – Cəbrayıl Nağıyev çıxış edir və bu partiyaları bu cür adlandırır. Axı Azərbaycan suverenliyini nə isə bir tarixi zərurətlə əsaslandırır. Axı Azərbaycanda azadlıq, müstəqillik uğrunda mübarizə olmasaydı, zərurət öz-özünə meydana çıxacaqdı? Axı sizin o sözləriniz 50 metr o tərəfdə yatan şəhidlərə xəyanətdir, onların ruhunu təhqir eləməkdir. Axı bu erməni Azərbaycana SSRİ dövründə hücum eləmişdi. SSRİ dövründə Dağlıq Qarabağı ayırmaq istəyirdi və o zaman Azərbaycan kəndləri tam silahsız idi. Ermənilər silahlandırılmışdılar. Azadlıq uğrunda, müstəqillik uğrunda mübarizə aparan adamlar Dağlıq Qarabağda əhalini silahlandıranda Sizdən, KQB-dən qorxurdular, çünki silahı bizim əlimizdən onlar alırdılar, əhalinin əlindən yığırdılar. Düzdür, onların arasında qeyrətli adamlar, kömək edənlər, bunu ört-basdır edənlər də var idi. Ancaq vəziyyətin dəyişməsindən asılı olaraq əhalinin bir hissəsini düşmən elan edib, dünən kommunisti düşmən elan eləmişdi, bu gün, nə bilim, cəbhəçini düşmən elan edirlər, sabah da hansısa partiyanı düşmən elan edəcəklər. Bunlara birdəfəlik son qoymaq lazımdır. Bugünkü müzakirə də göstərir ki, burada 6-7 saatlıq müzakirələr heç bir nəticə verməyəcək, bunların heç bir əhəmiyyəti olmayacaq, çünki bu Məclis həmin Məclisdir ki, 4 Prezidentə ayaq üstə əl çalıb, vəzifəyə qoyub, sonra fitə basıb, yola salıblar. Mənim Məclisin üzvlərini təhqir etmək fikrim yoxdur, ancaq bu belədir və bu işləməyəcək.

Burada biz müzakirə aparmaqla müharibəni uda bilmərik. Hər dəfə günahı siyasi partiyaların boyunlarına atmaqla da bu vəziyyətdən çıxmaq olmaz. Burada deyirlər ki, siyasi partiyaları qadağan edək, donduraq. Birincisi, mənim iradəm olmasa, heç kim mənim partiyamı bağlaya bilməz. Ona görə də mən bu gün burada öz iradəmlə təklif verirəm. Bu müraciət ayın 24-də yazılmışdı. Heydər müəllim, ayın 21-dən mən bu fikrə gəlmişəm. Bu müraciəti Sizə vermək üçün, bu məsələni, müharibə ilə əlaqədar məsələləri müzakirə etmək üçün, təəssüf edirəm ki, indiyə qədər Sizinlə görüşə bilməmişəm. Ona görə də ayın 24-də yazılmış bu müraciəti mən indi Sizin nəzərinizə çatdırmaq istəyirəm. Bu müraciət Azərbaycan xalqına, dövlət rəhbərlərinə, Milli Məclisə və bütün siyasi partiya, təşkilatlaradır. Giriş hissəsini oxumadan bildirmək istəyirəm ki, indi yeganə çıxış yolumuz vətənimiz və dövlətimizin varlığı naminə birgə fəaliyyətə başlayaraq bütün siyasi qüvvələrin həmrəyliyinə nail olmaqdır. Normal şəraitdə yaşayan cəmiyyət üçün təbii hal hesab edilən partiyalararası mübarizənin dayandırılması artıq həyati zərurətə

çevrilmişdir. Hər hansı bir formada təzahür edən qisasçılıq meyillərinə son qoyulmalıdır. Dövlət xalqı səfərbər etməli, onu birləşdirməlidir. Bizim güvənc yerimiz yalnız Azərbaycan və Azərbaycan vətəndaşlarıdır. Heç yerdən, heç kəsdən yardıma ümid bağlamadan vətənin müdafiəsinə qalxmalı və düşməni dəf etməliyik. Yaranmış vəziyyət qətiyyətli addımlar atılmasını tələb edir. Cəmiyyətdə siyasi sabitliyə nail olmaq və bütün xalqı səfərbərliyə, qələbəyə səfərbər etmək üçün təklif edirəm. Ayın 24-də yazıldığı üçün olduğu kimi oxuyuram:

1. Milli Məclis təcili surətdə fövqəladə iclasa toplanmalı, bütün qanunverici və icra hakimiyyətini müəyyən müddətə – 1991-ci il yanvarın 1-nə qədər Azərbaycanın bütün real və nüfuzlu siyasi qüvvələrinin təmsil olunduğu Dövlət Şurasına verilməsi haqqında qərar qəbul etməlidir.

2. Xarici təcavüzü dəf etmək üçün Dövlət Şurası ölkənin bütün iqtisadi və hərbi potensialını səfərbər etmək istiqamətində fövqəladə tədbirlərə başlamalıdır.

Hansı tədbirlər, bunu canlı yayımla gedən iclasda mən deyə bilmərəm. Hər halda, bu, hərbi müharibə dövrünün şəraitinə uyğun tədbirlər olmalıdır.

3. Dövlət Şurası Azərbaycanın bütün bölgələrində onun ərazi bütövlüyünə xələl gətirə biləcək hər növ hərəkətlərə qarşı amansız tədbirlər həyata keçirməlidir. Bu, Azərbaycanın ayrı-ayrı regionlarında başlamış dövlətə tabe olmamaq, Azərbaycanı parçalamaq siyasəti ilə əlaqədardır.

Mənim də fikrim budur ki, bu hərəkətlərə qarşı qəti tədbirlər həyata keçirilməlidir. Mən inanıram ki, Azərbaycanın istənilən bölgəsində yaşayan əhali bu tədbirləri müdafiə edəcək.

4. Dövlət Şurası yanında qeydiyyatdan keçmiş bütün siyasi partiya və ictimai-siyasi təşkilatların nümayəndələrindən ibarət məsləhət şurası yaradılmalı, onun yekdilliklə qəbul etdiyi qərarlar Dövlət Şurası tərəfindən nəzərə alınmalıdır.

5. Verilən təkliflərin gerçəkləşəcəyi təqdirdə bütün partiyalar və ictimai-siyasi təşkilatlar Dövlət Şurasında səlahiyyətləri müddətində siyasi fəaliyyətlərini dayandırmalıdırlar.

Mən birinci olaraq öz partiyamın adından sizə söz verirəm ki, əgər qəti tədbirlərin həyata keçirilməsinə başlanılarsa, biz partiyanın siyasi fəaliyyətini dayandırmağa söz veririk. Çox sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Nə deyirsiniz? Bağışlayın, rica edirəm, sözünüz varsa, ya sual vermək istəyirsinizsə, buyurun, mən Sizə söz verərəm. Amma bir-birinə belə kinayəli sözlər demək lazım deyil. Buyurun.

**Tamerlan Qarayev.** Bu gün burada belə hallarda həmişə gördüyümüz mənzərə idi. Çox çıxışlar oldu, çox təkliflər deyildi. Mənə elə gəlir ki, biz yeni bir fikir, yeni bir söz eşitmədik. Elə həmin fikirlərdir. Ona görə yox ki, hansısa yeni fikirlər eşitməliydik. Görünür, burada deyilənlərin çoxu haqq sözüdür, ancaq bunların həyata keçirilməsi məsələsi var. Növbəti, mən istəməzdim deyəm ki, ən böyük, amma Ağdamın Azərbaycan üçün əhəmiyyətini hamınız bilirsiniz, başa düşürsünüz. Biz bir daha çox böyük təhqir olunduq. Mən tamamilə razıyam ki, biz düşməni bilməliyik, düşməni tanımalıyıq və bütün qəzəbimizi, ilk növbədə, düşmənə yönəltməliyik, amma bizim öz aramızdakı münasibətləri araşdırmağa çox vaxt gedir.

Burada deyilən yeni söz yoxdur. Mən istəyirəm, bir-iki məsələyə diqqət yetirəm. Birinci, təxribatlar. Həmişəki kimi, növbəti rayonumuz işğal olunandan sonra biz bu mövzuda çox geniş danışırıq. Təxribat baş verib. Ancaq bunun bu rayon əhalisinə nə aidiyyəti var? Ağdamda təxribat olub, Ağdam verilib, bunun ağdamlılara, yaxud da ümumiyyətlə, qarabağlılara nə aidiyyəti var? Ayyarım bundan qabaq mən Ağdam camaatının, Ağdam İcra Hakimiyyətinin nümayəndələrinin verdiyi məlumatlar əsasında sizə dedim ki, bəli, təxribat gedir və təbiidir. Düşməni olan və müharibə aparan hər bir ölkədə təxribat getməlidir. Düşmən təxribat aparmalıdır və o, müharibə etdiyi ölkənin vətəndaşlarından da istifadə edir. Bu da məlumdur. Biz bunu bilirik, bu, təbii haldır ki, kimsə pulla, kimsə başqa vasitə ilə alır. Amma bunun camaata nə aidiyyəti var? Bizim müvafiq orqanlarımız haradadır? Niyə onlar bu təxribatları açmırlar? Niyə bu vaxta qədər, 5 ildir, Azərbaycanda ancaq təxribat söhbətləri gedir? Təxribatçılarla bağlı məsələ burada aparılmalı söhbət deyil. Deyirik, xalqı niyə ruhdan salır. Bu, televiziya ilə göstərilməli, burada aparılmalı söhbət deyil. Buna gərək məhkəmə salonunda qiymət verilə, təxribatçılar müəyyənləşdirilə, məhv oluna.

İkinci. Burada Ağdamın işğalı, orada hakimiyyət davası, mafioz qrupların fəaliyyəti və sairlə əlaqədar məsələyə toxunuldu. Gəlin açıq etiraf edək. Bəli, hakimiyyət davası hər bir yerdə var, təbii haldır. Nə vaxta qədər mitinq sözləri ilə ki, buna son qoymaq lazımdır, bu, ümumiyyətlə, əxlaqsız bir hərəkətdir və mənəviyyatsızlıqdır, bu da təbii haldır. Hər bir cəmiyyətdə bu baş verir, amma hər bir dövlətdə bunun qarşısını almaq,

müəyyən müharibə vaxtı bunu bir çərçivəyə salmaq üçün mexanizmlər var.

Heydər bəy, Ağdama dair mən Sizə də oradakı vəziyyət barədə demişdim. Bəli, müəyyən qruplar, müəyyən adamlar var, müəyyən vəzifələrə, necə deyərlər, keçmək istəyənlər var və sair. Orada keçmiş iqtidarın vaxtında təyin olunmuş adamlar idi. Rayonun ağır bir vaxtı idi. Onlara zəng eləyib "oturun yerinizdə, işləyin" və sair demək mənim səviyyəmdə deyil. Onların yanında, bəlkə də, şəxsən özünüz, bəlkə də, sizin nümayəndələriniz gedib oturmalı idi, onlar da bilsinlər ki, vəzifədə işləyirlər. Başqası da ora gəlib deməsin ki, bu gün kiminləsə telefonla danışmışam, çıxaracağam və sair. İndi bu da keçdi.

**Sədrlik edən.** Bilirsiniz, Tamerlan bəy, birinci, mən Sizə iki-üç dəfə demişdim ki, Siz onlarla əlaqədarsınız, işləyirlər, heç bir də etiraz yoxdur. İkincisi, həmin o icra hakimi iki-üç dəfə mənə telefon edib, mən onunla danışmışam. Mən ona heç vaxt deməmişəm ki, o işləməməlidir. Bunları ki mən Sizə demişəm.

**Tamerlan Qarayev.** Bəli, Heydər bəy, indi mən onu nəyə görə deyirəm, bu, təsirsiz oldu. Mən də o vaxt Sizə dedim ki, axı Siz mənim bu barədə vəziyyətimi bilirsiniz. Mən yerli adamam. Mənim zəngimlə o öz yerində oturan deyil.

**Sədrlik edən.** Yox, ona görə ki Siz orada onunla daimi əlaqədə idiniz. Siz burada uzun müddət Ali Sovetin sədr müavinisiniz və onlarla da daim əlaqədarsınız. Buna görə Sizi burada kənara qoymaq olmazdı ki. Necə ola bilərdi ki, Ağdam problemi həll olunanda Siz kənarda qalasınız? Kənara qoysaydıq da, Siz, ola bilər, buna etiraz edərdiniz. Ancaq Siz mənimlə danışanda mən Sizə bir-iki dəfə dedim ki, deyin, oturub, işləsinlər, heç bir problem yoxdur. Yadınızdadırmı? Elədirmi?

**Tamerlan Qarayev.** Bəli və mən onlara çatdırdım.

**Sədrlik edən.** Ondan sonra həmin o icra hakimi mənə gecə vaxtı bir-iki dəfə zəng elədi, onunla danışdım və dedim ki, bütün işləri görün. Mən bundan artıq neyləyim? Gedib Ağdamda bir də təsdiq eləməli idim ki, sən burada işləməlisən?

**Tamerlan Qarayev.** Ancaq mən bunu xatırlatmaq istəməzdim ki, bəs belə bir vəziyyətdə hakimiyyət dəyişikliyi oldu. Ancaq gəlin açıq etiraf edək ki, orada dəyişiklik olmasaydı da, o vəziyyətə dair heç bir dəyişiklik olmazdı. İcra hakimi getdi deyə vəziyyət belə pozuldu və Ağdam işğal olundu. Bu, düzgün deyil.

Mən burada deyilən bir fikirlə razılaşa bilmərəm. Bu, köhnə söhbətdir. Bilirsiniz, dəfələrlə bu söhbət olur ki, Ağdamı, tutaq ki, ağdamlılar, Şuşanı şuşalılar, Kəlbəcəri kəlbəcərlilər müdafiə eləməli idi, əgər indi orada torpaq işğal olunubsa, günahkar da özləridir. Mən belə bilirəm və burada oturanlar da hamısı razılaşar ki, ən böyük xoşbəxtlik – biz qarabağlılar nələr çəkirik, biz başa düşürük – öz torpağında həlak olmaqdır ki, bu işləri gözün görməsin, bəlkə, ən böyük xoşbəxtlik budur. Amma müharibəni dövlət aparar. Burada deyildi, Azərbaycanda bu günə kimi dövlət səviyyəsində müharibə aparılmayıb. Biz həmişə yerlərə istinad eləmişik, ancaq söhbət ondan gedib ki, Bakı, tutaq ki, Ağdama nə ilə isə kömək eləsin, ya Füzuliyə nə ilə isə kömək eləsin. Füzuliyə kömək eləmək lazım deyil, Azərbaycan gərək Füzulinin müdafiəsini təmin eləsin.

Bununla bağlı bir məsələ də. Mən başa düşürəm, indi respublika üçün, bütün camaatımız üçün ağır qaçqın məsələsi yenə də kəskinləşib. Əgər bir dövlət bir torpağın toxunulmazlığını təmin etmədisə, oradakı camaat hər bir şeyindən məhrum oldusa, ev-eşiyini, bütün əmlakını itirdisə, belə vəziyyətə düşdüsə, təbii ki, ilk növbədə, dövlət onların bütün qayğılarını öz üzərinə götürməlidir. Bununla əlaqədar respublikada əvvəlki qaçqınlara dair çox işlər görülüb, sonra da çox işlər görülüb, bunu etiraf eləmək lazımdır. Amma bilirsiniz, son günlərdə biz belə vəziyyəti dəfələrlə görürük. Bu, münasibət məsələsidir. Bilirsiniz, qaçqın elə bir insandır ki, ona, ilk növbədə, diqqət lazımdır. Dövlət ona elə münasibətdə olmalıdır ki, sanki o yaralı bir şikəst balasıdır, hər yeri ağrıyır. O, məsələn, artıq hərəkət də edə bilər, acı danışa da bilər, amma elə bil, balandır da, şikəst olub, yaralıdır, ağrıyır, ona ilk növbədə diqqət lazımdır. Yenə başlayırıq ki, raportlar, filan kömək olunacaq, yardım olacaq, yenə də televiziyada reportaj, nə lazımdır, necə filan.

Heydər bəy, Siz özünüz bunu etiraf etdiniz, çıxışınızda da demişdiniz. O camaatın istədiyi bircə şeydir – yanmış, dağılmış da olsa, torpağına qayıtmaq. Bu sahədə görülən işlərə dair deyirəm, işlər görülüb və görüləcək, mənim buna şübhəm də yoxdur. Amma camaata qarşı çox diqqətli olmaq lazımdır. Televiziyada deyilir ki, qarabağlılar, ağdamlılar, ya da indi Füzulidə vəziyyət ağırdır, onlar Bakıya buraxılmayacaq. Bunlar düz sözlər deyil. Bakıya gələnlərin qarşısına çomaqla deyil, ictimaiyyət nümayəndələri, ziyalılarımız, vəzifəli şəxslər çıxmalıdırlar. Əlindəki uşağı qucağına almalıdırlar, aparıb qarşısına bir stəkan çay qoymalıdırlar. Sonra ona başa salıb deməlidirlər ki, bax mənim imkanım budur, səni orada yerləşdirəcəyəm, qayğını, bütün əziyyətini götürəcəyəm və

sair. Sizə də dedim, mən respublikanın bu vəziyyətini dərk eləyib deyirəm. O mənada yox ki, yerlilərimdir və sair. Mən dərk eləyirəm. Çünki pis vəziyyətə gəlib çıxar. “Mən səni qoymuram, qovuram”.

Mən Bakının vəziyyətini başa düşürəm, vəziyyət ağırdır, mən özüm də qaçqınların yerləşdirilməsi ilə, onların qayğıları və sairlə məşğul olmuşam. Tək Bakıda deyil, bütün respublikada vəziyyət ağırdır. Amma imkanla götürsək, Bakı Azərbaycanın iqtisadi potensialının yarısıdır. Bakı Azərbaycan əhalisinin üçdəbiridir. Biz camaatı rayonlara səpələyirik. Rayonlarda məktəblər də işləməsin, məktəblərdə də yerləşdirək. Amma Bakıda bu qədər texnikum, yataqxana var. Mən indi demirəm ki, gəlin onların hamısını Bakıda yerləşdirək. Amma gəliblər. Bilirsiniz ki, çoxunun burada qohum-əqrəbası var. Kimsə gəlirsə və qohum-əqrəbası onu yerləşdirirsə, buna imkan yaratmaq lazımdır. Onları bir daha təhqir eləmək lazım deyil. Onlara şirin dillə hər şeyi başa salmaq olar.

Bəli, Ağdam ziyalıları haqqında da müəyyən şeylər dedilər ki, müəyyən qızışdırıcı iş aparırlar. Xoşagəlməz hadisədir ki, ağdamlılar kooperativ binaya gəliblər doluşublar. Çox pis məsələdir. Ona görə ki Bakıda illərlə, on illərlə mənzil gözləyən adamlar var idi. Qaçqın məsələsi onların vəziyyətini, əziyyətini neçə dəfə pozdu. On illərlə, iyirmi illərlə ev gözləyənlər var. Buna yol vermək olmaz, bu məsələni həll eləmək lazımdır. Amma hansı yolla? Getsinlər ki, sənə başqa ev verəcəyəm, yataqxana var. Bu tərəfdən də elan eləyirlər ki, Bakıya buraxılmamalıdır. O görür ki, onu aldadırlar. Aparıb harasa çöllərə atacaqlar. Mən xahiş eləyərdim ki, bu, Milli Məclis üzvlərinə də aiddir, hamımız bu məsələdə kömək eləyək, icra orqanlarına da kömək eləyək. İlk növbədə, diqqət lazımdır. Bu söhbətlər götürülsün.

Bakıda vəziyyət ağırdır, tək ona görə yox ki, çay-çörək azdır, ağırdır, çünki deyirlər, burada hakimiyyət əleyhinə istifadə eləmək... Camaat o qədər görüb ki, belə yalanları. Deyirlər, gedək filan yerdə mitinq keçirək. Mən sizə deyim ki, bu dəqiqə mən onlarla ünsiyyətdəyəm. Heç kəs inanmır. Heç kəs çağırışlarla o qaçqınları təhrik edib nə isə iş görə bilməz. Amma bununla da elə vəziyyət yaranar ki, onları heç təhrik etməyə, qızışdırmağa ehtiyac yoxdur, özləri öz ağılları ilə min faciə törədə bilərlər.

Nəhayət, burada o məsələyə toxunuldu. Mən istərdim, Ali Sovetin sədrinin də, Baş nazirin də diqqətini bir məsələyə yönəldəm. Hakimiyyət çox zəifləyib. Son vəziyyət çox böyük təsir göstərir. Prezident Aparatı

iflic vəziyyətdədir. Prezident Aparatının məsələsini təcili həll eləmək lazımdır. Onun funksiyaları və kadrlar məsələsi dəqiqləşdirilməlidir. O işləməlidir. Nazirlər Kabineti, bəziləri – mən onların sözləri ilə deyirəm – Baş nazir gələndə deyirdi ki, mənim sizinlə işim yoxdur, hərə oturub öz vəzifəsini icra eləsin. Yerinizdə oturun, işləyin. Amma bu, qaydadır, yeni Baş nazir təyin olunur və bütün nazirlər yenidən təsdiq olunmalıdır ki, kim gedəcəksə, getsin, kim qalacaqsa, işləsin. Bu, çox vacibdir.

Nəhayət, təşkilati məsələlər. Bəlkə də, bir həftə ərzində təcili görülməklə... Belə müzakirə nəticəsi ilə deyil, burada bu gün qərar qəbul eləyək və bütün məsələləri həll eləyək. Ancaq müvafiq orqanlar və rəhbərliklə bir yerdə.

Nəhayət, bəlkə, 5 ildən sonra Azərbaycanda müharibədən çıxmaq sözünün təmin olunmasına və torpaqlarımızın qaytarılmasına dair bütün dövlət və ictimai orqanlara aid vahid proqram olmalıdır. Hər kəs bilməlidir ki, kim nəyi icra eləyir və kim nəyə məsuliyyət daşıyır. Mən sizə deyim, bunu bəziləri bilirlər, vaxtikən hərbi mütəxəssislərin köməyi ilə, məsələn, müvafiq müdafiə proqramı tərtib olunmuşdu. Bütün təhlükəli yerlər, rayonlar mühəndis – istehkam qurğuları ilə bir yerdə general Bərşadlının köməyi ilə, onun cəlb elədiyi mütəxəssislərlə Nazirlər Kabineti tərəfindən tərtib olunmuşdu və bu, təsdiq olunmuşdu. İcra olunmadı, elə o vəziyyətdə qaldı. İndi, bəlkə, vaxt çatıb ki, həmin sənəd qaldırıla və soruşula: “Nəyə görə bu sənəd icra olunmadı, həyata keçirilmədi?” Bəlkə o, həyata keçirilsəydi, biz kəndlərimizi, şəhərlərimizi itirməzdik. Məsuliyyət ümumi sözlə deyil, konkret olmalıdır. Əgər o vəzifəli şəxslər onu həyata keçirmirsə, onlar məsuliyyət daşımalıdır.

Biz partizan hərəkatı barəsində çox danışırıq. Mən sizə bildirim. Bəlkə, Heydər bəy bilmir, ona bu barədə deməyiblər. Vaxtikən müvafiq sənədlər də işlənilib. Amma Prezident Aparatında tapılmasa, bilmirəm. Biz kimlər tərəfindən olduğunu bilirik, onları dəvət eləyərik. Bir daha o sənədləri bərpa eləyərlər. Bütün sənədlər var, amma onlar həyata keçirilməyib.

Sözümün sonunda demək istəyirəm ki, mən bir sözlə razıyam. Buraya hər dəfə, elə bil ki haranınsa faciəsini qeyd edirik, söhbətlər eləyib dağılışırıq kimi yığışmayaq. Söhbət işdən gedir, bu işi görməliyik. Faciə özü yaranmır, biz ya qələbə çalmalıyıq, ya da tam məğlub olacağıq, Azərbaycan olmayacaq. Başa düşün, burada söhbət Qarabağdan deyil, Azərbaycandan gedir. Ya özümüzdə qüvvə tapıb bu vəziyyətdən

çıxacağıq, bunun qarşısını alacağıq, ya da Azərbaycan olmayacaq, burada heç bir hakimiyyət davası, filan olmayacaq. Mən razıyam ki, bu gün bütün siyasi qüvvələr, bütün bacarıqlı şəxslər, bütün mütəxəssislər cəlb olunmalıdır. Amma onlar özbaşına gəlib iştirak eləmir. Dövlət onları gərək müvafiq strukturlara rəsmi cəlb eləyib vahid bir proqram həyata keçirsin.

**Afiyəddin Cəlilov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, Ağdamda baş vermiş hadisələr Qarabağda cərəyan edən gərgin vəziyyətin ən yüksək zirvəsi və faciəsidir. Bir sıra çıxışlarda mən öz fikrimi demək istəyirəm. Əfsuslar olsun ki, biz çox xırdalamadıq və baş vermiş hadisənin köklərinə yaxınlaşmadıq. Şübhəsiz ki, Ağdamda baş verən hadisə, onun işğalı Gəncə hadisələrinin məntiqi nəticəsidir, respublikada uzun sürən siyasi və dövlət böhranının, hərbdə hökm sürən özbaşınalığın yekunudur. Mən burada Rəhim Qazıyevin fikirlərini tamamilə bölüşürəm və bu haqda bir neçə kəlmə fikir söyləmək istəyirəm. Çatdırmaq istəyirəm ki, bizdə "hərbi quruculuq" sözü bütün hallarda hallandırılır. Hərbdə təklif olunmuş quruculuq proqramı Azərbaycanın indiki müharibə dövründə hərbi doktrinasının və hərbi quruculuqla əlaqədar olaraq digər struktur sənədlərin hazırlanıb qəbul olunmasına baxmayaraq, həyata keçirilməmişdir. Bu Məclisdə hərbi tribunalın, hərbi prokurorluğun, xüsusən şöbələrin hərbə aid digər qanun və qərarlarının qəbul edilməsinə baxmayaraq, bu gün Milli Orduda özbaşınalıq, fərarilik, intizamsızlıq baş alıb gedir. Belə hesab edirəm ki, hərbdə yaranmış vəziyyətlə əlaqədar olaraq Milli Məclisin xüsusi qapalı iclası keçirilməlidir və Heydər Əliyeviç, Sizin Gəncədə, Gəncə qarnizonunda görüşlərinizlə əlaqədar olaraq Azərbaycan Milli Ordusunun yüksək rütbəli şəxsləri ilə o söhbət Milli Məclisdə də davam etdirilməlidir.

İkinci. Burada respublikanın bir sıra bölgələrində olan hərc-mərcliklə əlaqədar məsələyə toxunuldu. Bu günlərdə bu, Bərdədə də öz məntiqi səsini, yekununu tapdı. Mən bir daha qeyd etmək istəyirdim, yerlərdə olan hərc-mərclik bu gün Azərbaycanda ənənəvi hal olaraq hərbi işlərə müdaxilə edilməsinin və vahid rəhbərliyin olmamasının nəticəsidir. Mən hesab edirəm ki, Azərbaycan Milli Ordusunun Baş qərərgahı, onun rolu, Milli Ordunun rəhbərliyi vahid rəhbərliyi öz əlinə alıb yerlərdə qeyri-qanuni silahlı dəstələrin, könüllülərin emosiya özülündə müharibə aparmasına son qoymalıdır. Çünki əməliyyatlar döyüş bölgələrində olarkən bu, Ağdamda da özünü təsdiq etdi. Qabaqcadan hazırlanmır, bir sıra hallarda bu və ya digər icra başçıları tərəfindən tənzimlənir.

Ağdam faciəsi ilə əlaqədar olaraq burada qaçqınlar probleminə toxunuldu. Mən burada çıxış edən xalq deputatı Verdiyevin və xalq deputatı Cəbrayıl Nağıyevin fikirləri tamamilə bölüşürəm və Qarabağın hərb bölgəsindən ayrı olan kəndlərdən camaatın süni şəkildə köçürülməsinin əleyhinəyəm. Burada qeyd olunmuş 80-90 kəndin hərbi bölgələrdən, döyüş bölgələrindən kənar olmasını nəzərə alaraq qaçqınların kompakt yaşayışının təmin edilməsində Nazirlər Kabinetinin, müvafiq respublika orqanlarının vəzifəsini görürəm.

Respublikada nizam-intizam məsələsinə də toxunuldu. Mən də bu sahədə öz fikrimi qeyd etmək istəyirəm ki, bu gün respublikada Azərbaycan Prezidentinin səlahiyyətini icra edən Ali Sovetin sədri Heydər Əliyev var, Baş nazir Surət Hüseynov var. Bu və ya digər struktur dəyişiklikləri heç də respublikanı bu vəziyyətdən çıxarmayacaq. Respublikanı vəziyyətdən çıxaran yeganə qanunun aliliyidir. Burada ideologiya, digər məsələlər qeyd olundu. Mənə belə gəlir ki, bizim ən böyük ideologiyamız bu gün qanunun aliliyini təmin etməkdir. Bu zəmində isə istər dövlətdə, istər bütün xalq təsərrüfatında, istər hərbi sənaye kompleksində, istərsə də orduda yüksək təlim və yüksək intizam qaydaları olmalıdır. Bunun da öhdəsindən gəlmək üçün, burada yenə səsləndi, əgər məsləhət bilinsə, yaranmış ağır vəziyyətlə əlaqədar respublikada hərbi vəziyyətin elan olunmasıdır. Mən güman edirəm ki, istər Bərdədə keçirilən müşavirə, istərsə də bu gün Milli Məclisin Ağdam faciəsinə həsr olunmuş iclası xalqımızı bir yumruğa yığacaq. Yaxın gələcəkdə, qısa bir müddətdə Ağdamın geri qaytarılmasını təmin edəcəkdir.

Mən deputat Yaşar Əliyevin irəli sürdüyü qərar layihəsinə dair müddəaları müdafiə edirəm və xahiş edirəm, onlar səsə qoyulsun. Sağ olun.

**Sədrlik edən.** Yenə də Firudin Cəlilov, bir də Vahid Əhmədov.

Çıxış etmək istəyirsiniz? Buyurun, Firudin bəy.

**Firudin Cəlilov.** Heydər bəy, mən Tamerlan bəyin çıxışına arayış vermək istəyirdim. Təəssüf ki, o çıxdı. Qaçqınların Bakıya gətirilməsi məsələsi. Yəni hamımız bilirik ki, 5-6 ildir, biz qaçqın problemləri ilə məşğuluq. 40 min məshəti türkü, Ermənistandan 250 min azərbaycanlı gəldi. Ardından Xocalı, Laçın, Şuşa, indi də Ağdam. Yəni Bakı həmişə qaçqın problemləri ilə üzləşib. Mən də daim o işin iştirakçısı olmuşam. Çox təəssüf ki, hər hansı bir kəndimiz boşalan kimi... Tofiq müəllim, üzr istəyirəm. Bir kəndimiz boşalan kimi səhəri gün iki sahə onun ağrısını çəkir. Biri səhiyyə, digəri də təhsil sahəsi. Çünki qaçqınların əksəriyyəti

məktəblərdə, yaxud səhiyyə sahələrində yerləşdirilir. Mən sizi inandırıram ki, Tamerlan bəy, düzdür, yataqxanalarda boş yerlər var. Amma sentyabrda tələbələr gələcək və ora 5-10 nəfər qaçqın da yerləşdirsək, gələn tələbələrlə onların arasında böyük gərginlik yaranacaq. Çünki gələn tələbənin də qalmağa yeri yoxdur. Bu məsələni arayış şəklində demək istəyirdim. Yəni bizim yataqxanalarımız, hətta məktəblər, uşaq bağçaları, internatlar qaçqın ailələri ilə doludur. Bir neçə institutun, texnikumun yataqxanasında boş yerlər var, o da, dediyim kimi, tələbələrin əşyaları oradadır, tətilə gediblər, sentyabrda dərsə gələcəklər.

İkinci bir məsələ. Madam ki mən çox azad söz alıram, Afiyəddin bəyin replikasına öz münasibətimi bildirmək istəyirəm. O söz mənim ürəyimdən oldu ki, biz bu günlərin birində Məclisin qapalı iclasını keçirək, Qarabağ probleminin bəzi məsələlərini ağsaqqal kimi açasınız. Çünki deputatların çoxu bilmir ki, Qarabağ problemi nə vaxtdan başlayıb. Bunların çoxu bilmir ki, 1986-cı ildə azərbaycanlılar bazarlara meyvə aparanda ermənilər onların pasportlarını yığıb Kremlə teleqramlar göndərirdilər. Hansı qüvvələr rus jurnalistlərini gətirib, “Azərbaycan” mehmanxanasında yedirib-içirib materiallar toplayırdılar. Respublikanın əhalisi arasında narazı adamları yığıb informasiya toplayırdılar. Onlar bilmirdilər ki, bu hadisələr necə başlayıb. Ona görə mən çox xahiş edərdim, günlərin birində imkan eləyək, Milli Məclisin iclasını qapalı keçirək və bu məsələlər aydınlaşsın. Bu məsələlər aydınlaşandan sonra heç kim deməyəcək ki, bəzi adamlar təxribat eləyir. Orada adlar aydınlaşacaq. Millət birdəfəlik bilməlidir ki, bu araqarışdıranlar kimdir, kim vəzifə davası eləyir. Mən Mütəllibovun vaxtında burada çıxıb təxminən eyni sözləri demişəm ki, respublikada olan qüvvələri bir yerə yığmaq lazımdır. Özü də səhv eləmirəmsə, Ali Sovetin sessiyası idi. Hətta o vaxt Mütəllibov da razılaşdı ki, ağsaqqalları, Heydər Əliyevi də, hətta Vəzirovu da, İmam Mustafayevi də – hamısını yığıb məsləhət keçirməliyik, çünki Qarabağ problemi bir günlük deyil, on il uzanıb gedəcək. Ona görə mən Sizdən xahiş edirəm, qapalı iclas keçirmək mümkündürsə, yəni efirə deyə bilməyəcəyimiz sözləri, heç olmasa, orada deyə bilək. Sağ olun.

**Sədrlik edən.** Vahid Əhmədov, buyurun.

**Vahid Əhmədov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, Ağdam faciəsi ilə əlaqədar olaraq bir sıra millət vəkilləri hökumətə iradlar tuturlar ki, guya qaçqınlarla və əhali ilə yaxından məşğul olmamışlar. Mən məlumat vermək istəyirəm. Birincisi, Ağdamın işğalı ilə əlaqədar olaraq

həmin günün səhəri hökumət tərəfindən Hökumət Komissiyası yaradılıb və bu komissiya həmin gündən Bərdə şəhərində yerləşdirilib. Həmin komissiyaya Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri İrşad Əliyev rəhbərlik edib, o cümlədən Baş nazirin müavinləri, bütün nazirlər Bərdə şəhərində bu komissiya ilə məşğul olmuşlar. Orada mənim rəhbərliyim altında aparılan iclaslarda Bərdə və onun ətrafında, Ağdamda, Ağcabədidə əsas problemlər müzakirə olunur və qəti tədbirlər planı işlənib hazırlanır.

O problemlərdən ən öncəsi Ağdamın o region üçün elektrik enerjisi və əsas baza məhv edildiyinə görə işıq problemidir. Srağagün mən Heydər Əliyevə məlumat verdim ki, artıq Ağcabədiyə işıq verilib. Bu gün saat 12-yə qədər Ağdamın hələlik əlimizdə olan 15 kəndindən 5-nə işıq verilib və axşam saat 5-ə kimi qalan 10 kəndə də işıq verilməli idi. Bizim energetiklər gecə-gündüz işləyirlər. Həm Ağdamın 15 kəndinə, həm də Ağcabədiyə işığı bərpa eləyiblər.

Həmin regionda çox ciddi su problemi var. Heydər Əliyevə də bu barədə müraciət ediblər. Həm Bakı şəhərindən köməklik vasitəsilə, həm də material ehtiyatları naziri, bizim Milli Məclisin üzvü Fərrux Zeynalovun köməkliyi ilə artıq 200-ə yaxın nasos Bərdə şəhərinə göndərilib və su problemi həll olunub. Bərdə şəhərində 20-yə yaxın su maşını Ağdam kəndlərini, onun əhalisini təmin etmək üçün təşkil olunub. Çörəklə əlaqədar problem aradan götürülüb. Benzinlə əlaqədar problem də Ağdam şəhərində, Bərdə ətrafında, demək olar ki, həll olunub.

Mən qeyd eləmək istəyirəm ki, bütün bu problemlərə baxmayaraq, Bakıya Ağdam qaçqınlarının gəlməsi hələlik davam eləyir. Dünən axşam Bakı şəhər İcra Hakimiyyətinin başçısı Rafael Allahverdiyevlə Bakı şəhərində geniş iclas keçirdik və bu məsələyə baxdıq. Mən qeyd eləmək istəyirəm ki, Ağdamı tərk eləmiş əhalinin yerləşdirilməsi hökumət tərəfindən təsdiq olunub. Bu gün hansı regionlarda imkan var, hansında yerləşdirmək mümkündür, bölüşdürülüb. Dünən mən Heydər Əliyevə məlumat verdim ki, bir gündə 242 ailə digər rayonlarda, o cümlədən Şəki, Zaqatala, Balakəndə yerləşdirilib. O rayonların hamısı müəyyən olunub və əhali həmin rayonlarda da yerləşdirilməlidir.

Dünən apardığımız iclasda rayon icra hakimiyyətlərinə və bütün rayon rəhbərlərinə bir daha başa saldıq ki, Bakıda vəziyyət həddən artıq ağırdır. Heydər Əliyev bunu bilir, biz məlumat vermişik. Bakıda su problemi çox qətidir, ciddidir, hətta sanitar-epidemioloji stansiyası su

ilə əlaqədar Bakını qapalı şəhər elan eləməyə məcbur edir. Bu bilirsiniz ki, Azərbaycan üçün çox ciddi, ağır problemdir. Mən televiziyada çox şeyi demək istəmirəm. Bakıda vəziyyət olduqca ağırdır, əhalinin sayı artıq 3 milyon yarıma çatıb. Bakının ümumi maddi təchizatı yalnız 1 milyon 750 nəfər adamı əhatə eləyir. Amma bu dəqiqə Bakıda iki dəfə artıq əhali yaşayır, biz onu təmin eləməyə məcburuq. Əgər biz Bakıda cəmi 5 ton çörək bişirirdiksə, hazırda gündəlik 850 ton çörək bişiririk və əhaliyə çörək çatdıra bilmirik. Bu, çox ciddi problemdir. Bu problemi həll eləmək qeyri-mümkündür. Ona görə də əhali bizi başa düşməlidir, hökuməti başa düşməlidir. Məsələ onda deyil ki, biz Ağdam camaatını Laçın, Şuşa camaatından ayırırıq. Xeyr. Hökumətin borcudur, bütün camaatı yerləşdirməlidir, onun qayğısına qalmalıdır. Bizim heç kimi küçəyə atmaq fikrimiz yoxdur.

Hökumət belə fikirdədir ki, aparılan iclaslar, əməliyyatlar nəticəsində biz bütün əhalini yerləşdirəcəyik. Mən televiziya ekranı vasitəsilə Ağdamın ziyalılarından artıq dərəcədə xahiş edirəm, başa düşmək lazımdır ki, vəziyyətimiz həddən artıq ağırdır. Əgər biz əhalini Bakıda yerləşdirməyə çağırsaq, Bakıda çox ağır vəziyyət yarana bilər. Siyasi partiyaların liderlərindən xahiş edərdim, belə vəziyyətdə, ümumiyyətlə, kreslo davası eləmək vaxtı deyil, respublikada vəziyyət ağırdır, gərgindir, bunu hamı başa düşə bilər.

Bundan başqa, mən məlumat vermək istəyirəm ki, Baş nazirin müavini Əli Təhməzovun rəhbərliyi altında 8 nazirliyin bütün təşkilatları bu dəqiqə Bərdədədir. Ağdamın Bərdə ətrafında istehkamı Müdafiə Nazirliyinin sənədləri əsasında qurulub. Bu gün bütün texnika, bütün zavodlar faktiki olaraq o regiona işləyir. Bununla əlaqədar mən demək istəyirəm ki, camaatı çox da panikaya salmağa ehtiyac yoxdur. Narahat olmaq lazım deyil. Hökumət tərəfindən, demək olar, bütün tədbirlər görülür ki, əhali həmin regionda sərbəst yaşasın. Mən artıq dərəcədə xahiş edirəm ki, bizim millət vəkilləri, siyasi partiyaların üzvləri bizi düzgün başa düşsünlər. Bakı şəhərində vəziyyət gərgindir və belə getsə, biz əhalini təmin etməkdə həddindən artıq əziyyət çəkəcəyik. Sağ olun.

**Sədrlik edən.** Güman edirəm ki, bu məsələ ətrafında geniş müzakirə oldu. Bütün Məclis üzvlərinə və iştirak edən deputatlara istənilən qədər danışmaq üçün imkan yarandı və hərə öz fikrini deyə bildi. Məsələnin müzakirəsinə başlayarkən mən çalışdım ki, gündəlikdə olan məsələ çərçivəsində lazımi məlumatları verim. Bir də qeyd etmək istəyirəm ki, bu məsələnin Məclisdə müzakirəyə çıxarılmasında əsas məqsəd

ondan ibarətdir ki, son dövrdə, yəni iyun ayının ikinci yarısından, iyul ayının əvvəlindən indiyə qədər Qarabağ bölgəsində gedən müharibənin sülh yolu ilə həll olunması barədə əvvəldən başlanmış tədbirlərin həyata keçirilməsi üçün lazımi işlər görülmüşdür və bu işlər müəyyən nəticə vermişdir. Bu barədə Məclisə məlumat verilməlidir və Məclisin fikri bilinməlidir. Eyni zamanda, bu dövrdə Qarabağ bölgəsində hərbi vəziyyət gərginləşmiş, nəticədə Ağdam şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və bununla əlaqədar olan tədbirlər Milli Məclisə çatdırılmalıdır. Milli Məclisin bu barədə fikri bilinməlidir. Bu hərbi nöqteyi-nəzərdən aparılan tədbirlər də, şübhəsiz ki, məlumdur. Onların burada təhlil olunmasına ehtiyac yoxdur. Siyasi-diplomatik nöqteyi-nəzərdən aparılan tədbirlər haqqında mən məlumat verdim, onlar tam zəruri olan tədbirlərdir, onların həyata keçirilməsi bu gün də, sabah da lazımdır.

Eyni zamanda Məclis üzvlərinə çatdırmağa çalışdım ki, Ağdam şəhərinin, bir neçə kəndlərin işğal olunması ilə əlaqədar öncə Ali Sovet, həm də Prezident səlahiyyətlərini yerinə yetirən bir şəxs kimi... Ümumiyyətlə, Ali Sovet, Nazirlər Kabineti lazımi tədbirlər görüb və buna görə də biz, mən, Baş nazir Surət Hüseynov, başqa vəzifəli şəxslər, Bərdə rayonunda olmuşuq, müşavirə keçirmişik. İki istiqamətdə, yəni o bölgənin müdafiəsini daha da etibarlı təmin etmək, Ağdamın işğal olunması ilə əlaqədar qaçqınların yerləşdirilməsi, onlara lazımi şəraitin yaradılması üçün lazımi tədbirlər görmüşük. Ona görə bu məsələ barəsində məlumat verməyə başlayarkən hamısını Milli Məclisə çatdırmaq lazımdır. Çünki Milli Məclis bizim ali hakimiyyət orqanıdır. Milli Məclis öz sözünü, öz fikrini deməlidir.

Şübhəsiz ki, bu məsələ müzakirə olunarkən Ağdamın işğal olunması ilə əlaqədar müəyyən mülahizələr oldu. Hərə öz fikrini bildirdi. Bu da təbii haldır. Bir halda ki məsələ müzakirə olunur, hər kəs öz fikrini deyə bilər, təklifini verə bilər. Ona görə də deyilən fikirlər və verilən təkliflər bir tərəfdən deyilirsə, verilirsə, o biri tərəfdən başqa cür qəbul olunmalıdır. Fikir azadlığı, fikir müxtəlifliyi bizim həyatımızın, demokratiyanın təbii bir cəhətidir və bu da yeni icad olunan şey deyil. Bizim Azərbaycanda çoxdan hökm sürən bir haldır və bundan da gərək heç kəs narahat olmasın, heç kəs inciməsin.

Burada diplomatik, siyasi yolla aparılan tədbirlər haqqında danışdıqdan sonra belə bir fikir söylənildi ki, onlar bizə lazım deyil, beynəlxalq təşkilatlar, ola bilər, bizi aldadırlar, filan eləyirlər. Biz müharibə

eləməliyik, torpaqlarımızı geri qaytarmalıyıq. Mən uzun müddət, üç-dörd il bu salonda oturanlardan soruşuram: Nə üçün indiyə qədər torpaqları qaytarmamısınız? Nə üçün bu tədbirləri açmamısınız? Kim sizin qolunuzu bağlamışdı, kim sizin qabağınızı kəsmişdi, sizə mane olmuşdu? Burada çox alovlu danışanlar var. Bunu eləmək lazımdır, onu eləmək lazımdır və sair deyirlər. Bunların heç birində yeni bir şey yoxdur. Ancaq təəccüb doğuran odur ki, tutduğu vəzifəyə görə həmin o əməliyyatları həyata keçirməli olan adamlar indi tövsiyələr, təkliflər verirlər ki, bunu eləmək lazımdır, onu eləmək lazımdır. Mən bütün təkliflərə çox hörmətlə, ehtiramla yanaşıram. Ancaq güman edirəm, vəzifəli şəxslər, bu salonda hakimiyyət mövqeyində olan adamlar indiyə qədər etmədiyi şeyləri istəyirlər ki, iki-üç gündə etsinlər. Gecə gündüz işləmək lazımdır. Bəli, biz gecə-gündüz işləyirik, amma bunu deyən adamlar nə gecə, nə də gündüz işləyirlər. Mənim bunu deməyə haqqım var, çünki Allah da şahiddir, burada oturanlar da şahiddir ki, biz gecə saat neçədə buradan gedirik.

İndi biz hərbi məsələləri müzakirə etmirik, şübhəsiz ki, bu, Müdafiə Nazirliyinin və bu işlərlə daha da yüksək vəzifədə məşğul olan adamların işidir. Ancaq bir şey məlumdur ki, əgər indiyə qədər silahlı qüvvələr parçalanmışdırsa, ayrı-ayrı əllərdə idisə... Burada Rəhim Qazıyev əvvəl demişdir, bu gün də çıxışında dedi ki, guya kimsə qorxurdu ki, haradasa çevriliş olar, bir silahlı qüvvəni əldə saxlayırdısa... Bunlar hamısı keçmişdir, bunlara son qoyuldu, bütün silahlı qüvvələr hamısı toplanıb, hamısının idarə olunması bir nöqtədə cəmlənib. Baş nazir Surət Hüseynova bu barədə lazımi səlahiyyətlər verilib və biz də, yəni Ali Sovet, Prezident səlahiyyətlərini idarə eləyən, həyata keçirən şəxs kimi bu şeylərin hamısına nəzarət edirik, heç bir parçalanmaya yol verməyəcəyik. Ancaq lazımdır ki, bu qüvvələr, doğrudan da, bir yerdə ahəngdar fəaliyyət göstərsinlər və Azərbaycanın torpaqlarını müdafiə etməyi, işğal olunmuş torpaqlarını geri qaytarmağı təmin etsinlər. Şübhəsiz ki, səlahiyyətli şəxslər tərəfindən bu barədə lazımi tədbirlər, lazımi işlər görülməlidir və görüləcək. Mənə belə gəlir ki, bu barədə geniş danışmağa ehtiyac yoxdur.

Bərdədə də biz demişdik, bu gün də mən məlumat verərkən demişəm və bir də deyirəm, Azərbaycan Respublikasının son illər Ermənistanla olan müharibədə Dağlıq Qarabağdan başlamış məğlubiyyətlərinin əsas səbəblərindən biri də Azərbaycanda döyüş ruhunun yaradılmaması, vətənpərvərlik hissiyatının əhalinin bütün təbəqələrinə siraət etməməsi,

insanlarda vətəni, torpağı qorumaq hissinin yüksək səviyyəyə qaldırılmaması və beləliklə də bəzi yerlərdə düşkünlük, passivlik, bəzi yerlərdə isə tamamilə biganəlik əhvali-ruhiyyəsinin mövcud olmasıdır. Biz bunların hamısına son qoymalıyıq, biz bu vəziyyəti dəyişdirməliyik. Aydındır ki, bu vəziyyət bir-iki gündə dəyişə bilməz. Ancaq biz bu yolla getməliyik, bu istiqamətdə getməliyik. Ona görə də biz biryerdə bütün əhaliyə müraciət etməliyik.

Mən Azərbaycanın vətəndaşlarına müraciət edirəm, Azərbaycanın ağsaqqallarına, düşünən adamlarına, hörmətli adamlarına, Azərbaycanın ziyalılarına, Azərbaycanın din xadimlərinə, Azərbaycanı sevən bütün adamlara müraciət edirəm ki, hamı ayağa qalxsın, hamı Azərbaycanın torpaqlarını müdafiə etmək üçün əlindən gələni etsin. Birləşmək deyəndə, şübhəsiz ki, burada söhbət bir şəxsin ətrafında birləşməkdən getmir. Etibar Məmmədov dedi ki, o vaxt deyirdilər, Vəzirovun, Mütəllibovun, sonra Elçibəyin ətrafında birləşmək lazımdır. Xeyr, biz belə fikirdə deyilik, bizim haqqımızda belə fikirdə olanlar səhv edirlər. Müstəqil Azərbaycan Respublikasının, Azərbaycan xalqının müstəqilliyinin ətrafında birləşmək lazımdır. Heç kəs Azərbaycanın azadlıq hərəkatına, Azərbaycanın müstəqilliyi uğrunda çalışan qüvvələrin fəaliyyətinə kölgə sala bilməz. Heç kəs siyasi partiyaların fəaliyyəti haqqında mənfi söz deyə bilməz. Kimsə öz fikrini deyirsə, bu o demək deyil ki, o, ümumi fikirdir. Azərbaycanda siyasi plüralizm, demokratiya özünə yer tapıbdır və bu davam etməlidir, bunun qabağını almaq düzgün olmaz. Bundan sonra da demokratiya siyasi plüralizmdir. Siyasi partiyaların qanun çərçivəsində fəaliyyət göstərməsinə, şübhəsiz ki, imkan yaradılacaqdır, mən şəxsən belə fikirdəyəm. Eyni zamanda bu gün burada bir çox natiq dedi ki, bu, anarxiyaya, xaosa, özbaşınalığa, zorakılığa, ayrı-ayrı partiyaların, siyasi qurumların, yaxud ictimai təşkilatların özünə silahlı dəstələr yaradıb bir-biri ilə silahlı mübarizəsinə gətirib çıxarmamalıdır. Bunlar demokratiyadan kənar hallardır, bunlara yol vermək olmaz. Bütün bu qüvvələr bir müqəddəs vəzifəyə xidmət etməlidir: Azərbaycan torpaqlarını qorumağa, müstəqil Azərbaycanın müstəqilliyini bir daha təsdiq etməyə və bunun üçün Azərbaycanın bütün ərazisində Azərbaycan dövlətinin hakimiyyətini təmin etməyə. Birləşmə bu mövhum ətrafında olmalıdır, ayrı-ayrı şəxslərin ətrafında deyil.

Burada Etibar Məmmədov müraciət mətnini oxudu. Bu müraciət artıq yeni bir şey deyil, sözlərin hamısı deyilibdir, bu müraciətlər olubdur və bunların hamısının üst-üstə düşməsi, yəqin, onu göstərir ki,

çoxumuz eyni istiqamətdə fikirləşirik, düşünürük, eyni qayğılarla yaşayırıq. Ancaq bunların hamısını sözdən əməli hərəkətə keçirmək lazımdır. Bizim indiki vəziyyətimizdə cürbəcür fikirlər ola bilər. Bizim müdafiə imkanlarımızı möhkəmləndirməyə beynəlxalq normalar əsasında tam hüquqlarımız var. Bizim respublikamız, xalqımız işğalçılar, qəsbkarlar tərəfindən təcavüzə məruz qalmışdır. Ona görə də biz torpaqlarımızı müdafiə edib işğalçıları öz torpaqlarımızdan çıxarmalıyıq və bu da bizim dövlət, milli hüquqlarımızdır. Bu tədbirləri daha da səmərəli həyata keçirərək, eyni zamanda biz beynəlxalq aləmdə siyasi fəaliyyətimizi, diplomatik fəaliyyətimizi davam etdirməliyik və buna da kölgə salmaq lazım deyil. Əgər bəzi siyasi addımlar, diplomatik addımlar lazımi nəticə verməyibsə, bu o demək deyil ki, biz bütün bu siyasi, diplomatik tədbirlərdən əl çəkib, sadəcə olaraq, bir istiqamətdə getməliyik. Şübhəsiz ki, bu 5 ildə bunu bir istiqamətdə etmək imkanı olsaydı, çox gözəl olardı və başqa imkanlara da ehtiyac qalmazdı. Ancaq təəssüf ki, bu olmayıbdır. Ona görə də həm Birləşmiş Millətlər Təşkilatının, həm ATƏM-in, həm də dünyada böyük gücə malik olan dövlətlərin imkanlarından istifadə edib Azərbaycan Respublikasının indiki vəziyyətini daha da geniş əks etdirmək, geniş təbliğ etmək, geniş yaymaq və Azərbaycana qarşı təcavüzün davam etdiyini beynəlxalq ictimaiyyətə daha da sübut etmək lazımdır. Bizim bu fəaliyyətimizdə, mənə belə gəlir ki, ATƏM-dən, Minsk konfransından, Birləşmiş Millətlər Təşkilatından və başqa bütün imkanlardan səmərəli istifadə olunmalıdır. Əgər biz bu imkanlardan istifadə ediriksə, bu heç də o demək deyil ki, Azərbaycanın müdafiəsini, müdafiə qüvvələrini zəiflətməliyik, yaxud da bu üsullara yol verməliyik. Bunlar ahəngdar olaraq bir-birini tamamlamalıdır, bir-birinə yardım etməlidir. Ona görə də son dövrdə bu sahədə görülmüş işlər, yaxud da bizdən öncə görülmüş işlər, mənə belə gəlir ki, lazımi tədbirlərdir və bu tədbirləri davam etdirmək lazımdır.

Burada çıxış edənlərin çoxu ordunun olmamasından, torpaqların dövlət səviyyəsində müdafiə olunmamasından və başqa şeylərdən şikayət edirlər. Mən yenə də deməyə məcburam ki, şikayət edən adamlar özləri bu illər ərzində bu işlərlə məşğul olublar. Kimdən şikayət edirlər, mən anlamıram. Bunları başa düşmək çətindir.

Konkret olaraq son günlər Ağdamın işğalı ilə əlaqədar məsələyə toxunularsa, burada bir şey aydın olmalıdır ki, Azərbaycanın müdafiə imkanlarının zəif olması və son dövrdə daha da zəifləməsi, şübhəsiz, Ermənistanın silahlı qüvvələrinə əlverişli şərait yaratmışdır, onlar da bu

şəraitdən istifadə etmişdir. Ağdamın əldən getməsi, əlbəttə, hamımız üçün ağır bir haldır. Heç kəs hesab etməməlidir ki, kim haralıdırsa, o yer onun üçün əzizdir. Yox. Əgər biz ümumi Azərbaycan əhvali-ruhiyyəsi ilə yaşayırıqsa, hamımız azərbaycanlıyıqsa, Azərbaycanın ərazisinin hər bir guşəsini özümüz üçün doğma hesab ediriksə, bizim üçün Ağdam da, Şuşa da, Laçın da, Kəlbəcər də, Füzuli də, Naxçıvan da və başqa yerlər də, hamısı eyni dərəcədə əziz olmalıdır. Dərd burasındadır ki, bəzi adamlar nədənsə ancaq öz yerini vətən hesab eləyir. Yox, bizim üçün Azərbaycan ümumi vətəndir. Heç kəs üçün kiçik vətən yoxdur, Azərbaycan bizim vətənimizdir. Azərbaycanın ən ucqar nöqtəsi bizim üçün vətəndir. Hər bir nöqtədə olan ağır vəziyyət bizim hamımızın ürəyimizi ağrıdır və ağrıtmalıdır. Heç kəs də gərək fikirləşməsin ki, o öz rayonu üçün, öz kəndi üçün, öz şəhəri üçün düşünməlidir. Yox. Əgər dövlət adamları belə düşünürlərsə də, demək, onlar hələ dövlət səviyyəsinə çatmayıblar. Ancaq lazımdır ki, dövlət işi ilə məşğul olan adamlar dövlət səviyyəsində fikirləşsinlər, düşünsünlər və dövlət səviyyəsində fikir yürütsünlər.

Ağdamdan və Ağdamın ətrafından qaçqın düşən adamların vəziyyəti bizim Azərbaycanın indiki rəhbərliyini həddindən artıq narahat etməsəydi, mən də, Baş nazir Surət Hüseynov da və bir çox rəhbər işçilər də Bərdəyə gedib, bütün günü orada keçirib vəziyyəti öz gözümüzlə gördükdən sonra tədbirlər keçirmək qərarına gəlməzdik. Əgər biz bunu etmişiksə, artıq sübut etmək lazım deyil ki, gedib görmək lazımdır, danışmaq lazımdır, fikirləşmək lazımdır. Mən Surət Hüseynovla bərabər onların hamısı ilə şəxsən danışmışam və o televiziya kasetlərinin hamısını bir yerə yığsaq, bütün gün çəkilən kasetlərin hamısı 8, 9, 10 saat vaxt aparar. Qadınla da, kişi ilə də, cavanla da, qoca ilə də, uşaqla da qucaqlaşmışam da, öpmüşəm də, bağrıma da basmışam, ayağımın altına yıxılanı qaldırıb alnından öpmüşəm, gözündən öpüb bağrıma basmışam. Onlar qarabağlılardır, ağdamlılardır, onlar mənim əziz bacılarım, qardaşlarım, mənim övladlarımdır. Onlar üçün hər bir şey etmək, təkcə ona görə deyil ki, onlar ağdamlıdır, qarabağlıdır, başqa yerdəndir, Azərbaycanın hər bir vətəndaşına qayğı göstərmək bizim borcumuzdur. Əgər xalq bizə belə etimad göstəribsə, əgər biz gəlib bu salonda bu kürsülərin arxasında oturmuşuqsa, bu bizim borcumuzdur, heç kəs heç kəsə minnət qoymamalıdır və mən heç kəsə minnət qoymuram. Bəlkə də, biz bu borcumuzu az müddətdə layiqincə yerinə yetirmirik. Bəli, bu barədə bizi tənqid etmək olar. Ancaq diqqətsizlikdə bizə heç bir söz deyən olmaz, imkan dairəsində nə lazımdırsa, etmişik.

Ağdamlılar harada yerləşəcək, Ağdamın ətrafında, Bərdədə, Ağcabədidə və ya Ağdamın hələ işğal olunmamış kəndlərində, yaxud da bəziləri gəlib şəhərdə, qohum-əqrəbasının evində yaşayacaq – bunlar problem deyil və bunu bir problemə çevirmək lazım da deyil. Mən Bərdədə olanda da dedim, böyük Vətən müharibəsində Rusiyadan, Ukraynadan, Belarusiyadan nə qədər adam köçkün düşmüşdü. Onlar Rusiyanın Şərq vilayətlərinə, Orta Asiyaya, Qazaxıstana, Zaqafqaziyaya gəlmişdilər. Azərbaycana da gəlmişdilər, hər bir ailə köçkün düşmüş bir-iki ailəni – o vaxtlar evakuasiya deyirdilər – gətirib evində saxlamışdı, uşaqlarını böyütmüşdü. Bu o vaxt hər yerdə böyük xeyirxah iş kimi təbliğ olunurdu. İndi nə üçün Bərdədə, Ağcabədidə, Yevlaxda, ondan o tərəfə yaxın olan evlərdə birinin beş otağı varsa, ikisini verməsin? Kiminsə iki otağı varsa, birinə yığışsın, o birini qardaşına, Ağdamdan, yaxud da Ağdamın kəndlərindən gələnlərə, yaxud da ondan qabaq Kəlbəcərdən köçmüş adamlara versin. Əgər Bakıda da hansı isə ağdamlı qohumunu, qardaşını, yaxud qonşusunu, tanışını öz evində yerləşdirirsə, gətirsin, yerləşdirsin. Ancaq iş burasındadır ki, bəziləri evində beş otaq ola-ola vermək istəmir, ancaq onun dalına düşüb orada-burada gəzir, onlara qeyri-qanuni yollara əl atmağa yardım edir.

Mən bəzi çıxışlara görə bu fikirləri bir daha deməyə ehtiyac duyuram. Burada söhbət oldu, o cümlədən Tamerlan Qarayev də belə bir fikir söylədi ki, müharibəni, şübhəsiz, hər kəndin sakini, yaxud hər rayonun sakini, hər şəhərin sakini aparmamalıdır, müharibə dövlət səviyyəsində getməlidir, müharibəni dövlət aparmalıdır. Bu, təbii bir şeydir, şübhə yoxdur. Ancaq bu dövlət kimdən ibarətdir? Bu salondanmı? Yəqin ki, bu salondan ibarətdir. Bu dövlət burada bu kürsünün arxasında oturanlardan ibarətdir? Bu dövlət, bu kürsü, bu salon, üç-dörd ildir, bu kürsünün arxasında oturan adamlar nə üçün indi bu müharibəni dövlət səviyyəsində aparmayıblar? Nə üçün indi tövsiyələr verirlər? Kim dövlət səviyyəsində müharibə aparılmasını təşkil etməyə, torpaqları müdafiə etməyə, o cümlədən Qarabağı, Dağlıq Qarabağı, Ağdamı müdafiə etməyə mane olurdu? Kim bu dövlətin əl-qolunu bağlamışdı? Ona görə də belə sözlər əhəmiyyətsizdir və belə sözlərə əl atmağa, mənə belə gəlir ki, ehtiyac yoxdur. Bəli, dövlət borcludur ki, vətəndaşlarını, ərazisini müdafiə eləsin. Dövlət müdafiə eləməyə borcludur. Dövlət başçısı və dövlətin başqa vəzifəli şəxsləri bu vəzifəyə qalxanda bu borcu öz üzərlərinə götürürlər və bu borca sadiq olmalıdırlar. Mən güman edirəm ki, əgər biz bu vəzifələri üzərimizə götürmüşüksə, çalışacağıq, bu istiqamətdə öz işimizi görək.

İndiyə qədər – 5 ildir ki, Dağlıq Qarabağda qan tökülür, bir də deyirəm, Dağlıq Qarabağın torpağı qana hopubdur, həmin o Ağdam şəhəri neçə ildir, gülləbarana tutulubdur. Ağdam şəhərinin sakinlərinin əksəriyyəti, varlıları, dövlətliləri Bakıda evlər alıblar, cürbəcür işlərlə məşğuldular, torpaqlarının qorunmasında o qədər də maraqları olmayıbdır. İndi üç-beş gün içərisində biz bunu həll eləməliyik.

Eyni zamanda tarixi təcrübələr göstərir və bunu mən yenə də bu yaxın vaxtlarda İkinci Dünya müharibəsindən, elə Avropada gedən dünya müharibəsindən, o cümlədən keçmiş Sovet İttifaqının ərazisində gedən Böyük Vətən müharibəsinin təcrübəsindən deyə bilərəm, bəli, o vaxt insanlar hətta faşistlər tərəfindən işğal olunmuş şəhərlərdə, kəndlərdə öz torpaqlarını azad etmək üçün partizan mübarizələri aparırdılar, öz kəndlərini, öz şəhərlərini, öz yaşadıqları yerləri saxlayırdılar. Belarusiya partizanlarının şücaəti bütün dünyanı bürümüşdü, bütün dünya buna heyran olmuşdu. Yəni hər bir vətəndaşın oturduğu torpağı, şəhəri, kəndi, komanı qoruması, şübhəsiz, lazımdır. Bu o demək deyil ki, bütün müdafiə, bütün müharibə onların üstünə atılmalıdır. Amma bu, eyni zamanda da o demək deyil ki, onlar çəkilib kənarda durmalıdır, əllərini cibinə qoymalıdır, ancaq başqası və ordu gəlib bunu eləməlidir. Ordu da bunu eləməlidir. Təəssüf ki, bizim orduda hələ indiyə qədər bu qabiliyyət olmayıb, ancaq hər bir adam öz torpağını, öz evini, öz kəndini müdafiə eləməlidir.

Güman edirəm ki, belə danışıqlar əhəmiyyətsizdir. Çalışaq, keçmişdə buraxılan səhvləri buraxmayaq, imkanlarımızdan istifadə edək, bunu möhkəmləndirək, doğrudan da, torpaqların müdafiə olunmasını dövlət səviyyəsində təmin edək. Amma əgər biz deyiriksə ki, hamı səfərbər olmalıdır, hamı müsəlləh əsgər olmalıdır, hamıda vətəni qorumaq, döyüşkənlik hissi yaranmalıdır, demək, bunu hər yerdə yazmalıyıq, o cümlədən sərhəd məntəqələrində, Ermənistanın təcavüzünə yaxın olan sərhəd məntəqələrində yaratmalıyıq. Şübhəsiz ki, Bakıda da yaranmalıdır. Ola bilər ki, bizim şimal rayonlarda da, cənub rayonlarda da yaranmalıdır, hamısında da yaranmalıdır. Çünki hər bir azərbaycanlı vətənini qorumaq üçün hazır olmalıdır, bu onun vətəndaşlıq borcudur və hərə öz vətəndaşlıq borcunu həyata keçirməlidir.

Burada bəzi adamlar, bağışlayın, natiqlər bir neçə kəlmə istədilər, müəyyən qədər fikirlərini bildirsinlər ki, nə bilim, siyasi oyun, təxribat olub-olmayıbdır. Bilirsiniz, indi bu məsələyə təhlil vermirik. Görünür, bizim orqanlar müharibəni, bu işləri araşdıracaq. Bəli,

daxildə olan didişmələr, ayrı-ayrı şəxslərin, ayrı-ayrı qrupların ədavəti, vəzifə hərisliyi və sair istər bir şəhərdə, istərsə də bir respublikada olsun, bizim daxili gücümüzü zəiflədir, bunu sübut etməyə ehtiyac yoxdur, bu, aksiomdur. Belə hal başqa yerlərdə də, şübhəsiz ki, Ağdamda da olub.

Bəli, təxribatlardan çox danışılır, amma tapılmır. Ona görə deyil ki, təxribat olmayıbdır. Ona görə ki tapmaq istəmirlər. Mən bu məsələlərə qayıtmaq istəmirəm. Xocalı hadisəsi haqqında komissiya yarandı, uzandı, heç bir iş getmədi. Sonra nəhayət, mən Naxçıvanda televiziyada eşitdim, bu komissiyanın katibi Əli Ömərov geniş bir məruzə elədi. Bu məruzə ilə bağlı mən öz fikrimi deyirəm, amma görürəm ki, bu, ümumi fikirlə uyğun gəlir, bu məruzə bütün respublikada çox böyük bir məmnuniyyətlə qarşılandı, çünki müəyyən qədər həqiqət aşkar olundu. Sonra nə oldu? Həmin bu Milli Məclis qərar qəbul elədi ki, bu materiallar prokurorluğa verilsin və işi prokurorluq aparsın. Bəs bu niyə axıra çatmayıbdır? Mənim bu Ali Sovetin sədrinin müavinlərindən soruşmağa haqqım varmı ki, niyə siz bunu təmin etməmisiniz? Sədr burada yoxdur, amma mənim müavinlərimdən soruşmağa haqqım var. Niyə axıra çatdırmamısınız? Özünüz axıra çatdırmamısınız, indi də deyirsiniz ki, təxribat varsa, niyə müvafiq orqanlar onu tapıb çıxarmırlar. Mən də sizdən soruşuram, niyə təmin eləmədiniz ki, prokurorluq lazımi tədbirləri görsün, komissiyanın qərarı, çıxardığı rəy, o materiallar istifadə olunsun, Xocalı hadisəsi açılsın? Nə üçün bunu eləmədiniz? Belə suallar çoxdur və belə sualları vermək olar. Ancaq mən vermək istəmirəm, çünki hesab edirəm ki, biz hamımız geriyə deyil, qabağa baxmalıyıq. Biz bugünkü vəziyyəti düzəltməliyik. Çalışmalıyıq ki, gələcəyimiz bundan da yaxşı olsun, rahat olsun, bundan uğurlu olsun, xalqımız üçün daha da səmərəli olsun.

Bəzi sözlər, bəzi çıxışlar məni müəyyən qədər bu mövzulara toxunmağa məcbur edir. Mən güman edirəm ki, bu sözlərdən hərə özü üçün lazımi nəticələr çıxara biləcəkdir. Etibar Məmmədov burada müraciət oxudu və təklif verdi ki, Dövlət Şurası yaransın.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən başa düşmədim. Necə?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Dövlət Şurası yaransın. Mən hər təklifə hörmətlə, ehtiramla yanaşıram. Əgər belə bir təklif verilibsə, güman edirəm ki, biz

buna gələn iclasların birində baxa bilərik. Ancaq gərək müvafiq şəxslər məsləhətləşsinlər, fikirləşsinlər ki, bu nə deməkdir, nədir, bizə nə verəcək, nəticəsi nə olacaq. Biz belə bir addım atırıqsa, doğrudan da, bilək ki, bunun səmərəsini nədə görürük. Çünki hər bir təklif gərək müəyyən qədər əsaslandırılsın.

Sonra burada bir neçə təklif oldu ki, ümumi hərbi vəziyyət elan olunsun, səfərbərlik elan olunsun və sair. Mən hesab edirəm ki, bu təkliflər hamısı baxılmalıdır, müzakirə olunmalıdır və bizim müvafiq komissiyalar bunlara baxmalıdır. Əgər bu təkliflər, doğrudan da, bizim üçün səmərəli olarsa, gələcək iclaslarımızda bunların konkret müzakirəsinə başlaya bilərik. Yəni indi bu təkliflər haqqında mən konkret bir şey deyə bilmərəm ki, bunu qəbul etmək olar, yaxud qəbul etmək olmaz. Ona görə də istəmirəm ki, bu təklifləri elə verilən təklif kimi müzakirəyə buraxım, yaxud da səsə qoyum. Bu təkliflərin hamısına baxılmalıdır, onların haqqında lazımi əsaslandırıcı sənədlər hazırlanmalıdır və müzakirəyə verilməlidir.

Mən bu barədə öz çıxışımı bitirərək bir də qeyd etmək istəyirəm ki, Dağlıq Qarabağda beş ildən artıq gedən proseslər, Azərbaycan Respublikasının torpaqlarının 17 faizinin işğal olunması və bunların nəticəsində bizim həmvətənlərimizin, vətəndaşlarımızın bir hissəsinin şəhid olması, bir hissəsinin didərgin düşməsi, bir hissəsinin həyatında böyük çətinliklərin yaranması, şübhəsiz, Azərbaycan Respublikasının son illərdəki həyatının xarakterik cəhətidir və biz bunlara nə qədər öyrənmiş olsaq da, eyni zamanda çox böyük məsuliyyət hissi ilə yanaşmalıyıq. Bu, son dövrdə Ağdam şəhərinin, Ağdamın bir neçə kəndlərinin işğalı ilə əlaqədar köçkün olmuş adamların vəziyyəti üçün daha aktual bir şeydir, çünki bu, son günlərin hadisələrinin nəticəsidir. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi lazımi tədbirlər görür və görəcək.

Bir daha qeyd etmək istəyirəm ki, Bərdədə, Ağcabədi rayonundakı görüşlərimizdə biz bir həqiqəti müşahidə etdik. Bu da odur ki, Azərbaycan xalqı, o cümlədən qarabağlılar, Qarabağın əhalisi, Ağdam bizim üçün çox əziz olan Ağdam şəhərinin, Ağdam rayonunun əhalisi dözümlü xalqdır, qədirbilən, hörmətə layiq insanlardır. Belə bir ağır vəziyyətdə hamımızın ən böyük vəzifəsi onlara maksimum qayğı göstərmək və onların bütün problemlərini həll etməkdir. Bu problemlər, ola bilər, hər gün meydana çıxsın. Ancaq bu gün bu Milli Məclisin iclasında mən bütün Milli Məclis üzvlərinin iradəsini ifadə edərək deyirəm ki, yerlərini

tərk etmiş, köçkün düşmüş adamlara qayğı göstərmək hamımızın borcudur. Xüsusən son günlərdə Ağdam rayonundan, Ağdam şəhərindən qaçqın düşmüş adamlara xüsusi qayğı göstərmək lazımdır. Bunun mexanizmi ilə, bu işlərlə nə cür məşğul olurlar, Vahid Əhmədov da bu barədə məlumat verdi, şəhər də məşğul olur. İrşad Əliyev Bərdədədir, orada bu işlərlə məşğuldur. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri, Nazirlər Kabineti, Ali Sovet bu məsələləri daim öz diqqət mərkəzində saxlayacaqdır.

Düzdür, biz çox vaxt itirdik, ancaq mən hesab edirəm ki, bu vaxt hədər getmədi. Biz heç də heyifsilənməməliyik ki, buna belə vaxt sərf etdik. Bu, çox mühüm və lazımi məsələ idi. Güman edirəm ki, bugünkü danışığımız, müzakirəmiz gələcəkdə, xüsusən Qarabağın, torpaqlarımızın müdafiəsi və köçkün düşmüş adamların həyatında lazımi problemlərin həll olunması məsələsində bizə kömək edəcəkdir.

İndi burada bir qərar layihəsi haqqında bir-iki təklif oldu. Əgər belə bir qərarın qəbul olunmasına ehtiyac varsa, mən etiraz etmirəm.

**Tamerlan Qarayev.** Deməli, Heydər bəy, üzr istəyirəm, burada suallar olurdu. Mən istəməzdim ki, biz gələcək işimizə, vəziyyətdən çıxış yoluna aid təkliflər verəndə bunlar hamısı belə qəzəblə qarşılansın. Ona görə ki, həqiqətən də, bu, vəziyyətdən çıxış yolu tapmağa yönəlir. O ki qaldı suallara, şəxsən mənə aid olan suallara, mən dəqiqləşdirmək istəyirəm. Ali Sovet, Milli Məclis parlamentdir, icra orqanı deyil və burada icra işinə baxmırıq. O ki qaldı müharibəyə, hərbi məsələlərə, Milli Məclis, həmin bu söyülən, döyülən, təhqir olunan Milli Məclis vaxtında müharibəyə, hərbi sahəyə aid bütün qanunvericilik aktları hazırlayıb qəbul etmişdi. Bəzi yerlərdə dəyişikliklərə, əlavələrə ehtiyac var. Düzdür, bunları da eləmək lazımdır, amma keçmiş ittifaqın respublikaları arasında heç bir respublika, müqayisə etsəniz, bütövlükdə, hərbə aid belə bir qanunvericilik aktları qəbul etməyib. Bizim Ali Sovetin sədrinin müavini kimi, yəni o hüquqi hissə burada mənə aid idi.

İkinci, partizan hərəkatı, o camaatın orada iştirakı. Birinci, camaat iştirak edib, Siz özünüz bilirsiniz...

**Sədrlik edən.** Tamerlan bəy, bir dəqiqə bağışlayın, axı bu ona görə deyil ki, mübahisə...

**Yerdən.** *(Eşidilmir.)*

**Tamerlan Qarayev.** Yox, mən Sizin sözünüzü kəsmədim. Burada mübahisə deyil, burada ittihamdır, mən buna hökmən cavab verməliyəm.

Hamı bilir, Siz özünüz də yaxşı bilirsiniz, bütün o bölgələrdə, bütün o rayonlarda neçə dənə ucu-bucağı görünməyən şəhidlər xiyabanı var, camaat qırılıb, çox adam vuruşub və qırılıb. Amma partizan müharibəsini də dövlət təşkil edir. Belarusiyada da onu o vaxt dövlət, Stalin təşkil eləmişdi və Stalinin birbaşa, necə deyərlər, müavinləri həmin partizan hərəkatına rəhbərlik edirdi.

O ki qaldı nəyə görə tələb eləmişik, deyirsiniz, bu Xocalı məsələsini, istintaqa nəzarət. Mütəmadi nəzarət olub. Burada dəfələrlə həm yanvar faciəsinin, həm Xocalı faciəsinin istintaqına dair, həm də Şuşa, Laçına dair hesabat tələb olunub. Biz burada prokurorluq tərəfindən məlumatı bir neçə dəfə dinləmişik. Hər dəfə deyiblər ki, istintaq davam edir. Mən Sizə deyim, nəinki mənim, heç Ali Sovetin sədrinin də səlahiyyəti çatmır ki, birbaşa istintaqın gedişinə müdaxilə eləsin. Burada prokuror oturub arayış verə bilər. İstintaq qurtarana və iş məhkəməyə verilənə qədər bizim ora birbaşa müdaxilə etməyə ixtiyarımız yoxdur. Biz Milli Məclisdə yalnız istintaqın gedişinə dair məlumatları dinləmişik. Yeni prokuror təyin olunub. Biz yaxın müddətdə xahiş edərdik, bütün istintaqların vəziyyəti barədə – bizim böyük şübhəmiz var ki, orada, həqiqətən də, düz-əməlli istintaq gedib – Milli Məclisə arayış verər. Bu qədər.

**Sədrlik edən.** Yaxşı. Demək, müəyyən bir qərarın qəbul olunması haqqında, o layihə haqqında təklif oldu. Bunu müzakirə etmək lazımdır, yaxud elə təxminən o təklif olunan kimi qəbul oluna bilər.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli? Buyurun.

**Tofiq Qasımov.** Əvvəli eşidilmir. Bəlkə, əlavə maddələrdə. Bir komissiya təşkil olunsun, sabah üzərində işləsinlər, sonra qəbul edək.

**Sədrlik edən.** Yəni indi qəbul eləmək olar, yaxud nə cür? Bu təklifləri qəbul eləmək olar, amma tamamilə işləmək üçün bunu bir komissiyaya tapşırmaq... İndi kimə tapşıraq? Bəli?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Əsasən qəbul olunsun. Hansı komissiyaya tapşıraq? Dövlət quruculuğu komissiyasına?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ola bilər, belədir. Biz Afiyəddin Cəlilova tapşırarıq, bu komissiyalarla birlikdə bu işi həll edək. Etirazınız yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur. Onda xahiş edirəm, hər şeyin hüquqi olması üçün bu təkliflərin qəbul olunmasına münasibətinizi bildirəsiniz. Kim bunun tərəfdarıdır, xahiş edirəm, münasibətini bildirsin.

***(Səsvermə)***

Qəbul olundu. Biz yalnız bir məsələni müzakirə etdik, ancaq təbiidir ki, buna bir belə vaxt sərf etdik. O biri məsələləri müzakirə etmək üçün, təklif edirəm, sabah saat 11-də Məclis bir də yığılsın. Etiraz etmirsiniz ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sağ olun.

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASI

*28 iyul 1993-cü il*

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri* ***Heydər Əliyev*** *sədrlik edir*

**Sədrlik edən.** Salaməleyküm, hörmətli millət vəkilləri, Məclis üzvləri. Məclisin iclası adətən gecikir, bu gün də bir az gecikməyinə səbəb vəziyyətlə əlaqədar tədbirlərin görülməsidir. Əvvəlcə qeydiyyatdan keçək, buyurun.

***(Qeydiyyat)***

Dünən biz birinci məsələni müzakirə edib qərarı, əsasən, qəbul etdik. Müəyyən olunmuş komissiyaya tapşırdıq ki, birinci məsələ üzrə o qərarı tamamilə hazırlasın. İndi belə bir mətn hazırlanıb. Ancaq onu Məclis üzvlərinə təqdim etməzdən öncə istərdim ki, bu məsələ ilə əlaqədar bir-iki nüansa toxunaq. Birincisi, dünən məlumat verdik ki, Ağdamın işğalı ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatına müraciətimiz olub. ATƏM də, başqa dövlətlər də müraciət ediblər. Bu barədə ilkin məlumatlarla, istərdim, Məclis üzvləri tanış olsunlar. Namiq Axundov buradadırmı? Buyurun.

**Namiq Axundov,** ***Ali Sovetin şöbə müdiri.*** Rus dilindədir. Rus dilində oxuyacağam.

**Sədrlik edən.** Birləşmiş Millətlər Təşkilatı haqqında, buyurun.

**Namiq Axundov.** *(Rus dilindən tərcümə.)*

BMT Təhlükəsizlik Şurasında Azərbaycan Prezidentinin səlahiyyətlərini icra edən Heydər Əliyevin işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə dair təxirəsalınmaz tədbirlərin görülməsi barədə xahişi ilə bağlı ilk müzakirələr keçirilib. Bu barədə çərşənbə axşamı keçirilən Şuranın məsləhətləşmələrindən sonra Təhlükəsizlik Şurasının sədri Devid Xenni Böyük Britaniyada bildirib.

Xenni qeyd edib ki, Təhlükəsizlik Şurası Ağdam şəhərinin işğal edilməsi və Dağlıq Qarabağ ətrafında və Azərbaycanda yaranmış olduqca ciddi vəziyyətlə bağlı Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edənin məktubuna baxıb. Şura bu məktubu çox diqqətlə

nəzərdən keçirib. Burada xüsusilə Dağlıq Qarabağ üzrə ATƏM-in Minsk prosesinin iştirakçısı olan 9 ölkənin nümayəndələri ilə Riqada görüşlər keçirmiş ATƏM-in vasitəçisi Mario Rafaelli tərəfindən təqdim edilmiş çox ətraflı məruzə nəzərə alınıb. Xenni bildirib ki, Rafaellinin məruzəsi məhz Təhlükəsizlik Şurasının məsləhətləşmələrindən əvvəl təqdim edildiyi üçün, Şura problemin yalnız ilkin müzakirəsini keçirib və çərşənbə günü səhər müzakirəni davam etdirəcək. Təhlükəsizlik Şurasının sədri bildirib ki, o vaxta qədər Təhlükəsizlik Şurası Azərbaycanla bağlı bəyanat vermək, yaxud qətnamə qəbul etmək barədə qərar verəcək.

**Sədrlik edən.** Bir məlumat da var, Türkiyənin təşəbbüsü haqqında. Onu da istərdim, Məclis üzvlərinə çatdırasınız.

**Namiq Axundov.** Bu da rus dilindədir. *(Rus dilindən tərcümə.)*

*Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəl bu gün Rusiya və Fransaya müraciət edərək, öz nüfuzlarından istifadə etməyə və Ermənistanın beynəlxalq qanunlara hörmətlə yanaşması və işğal etdiyi Azərbaycan torpaqlarından çıxması üçün ona təsir göstərməyə çağırıb. Bu barədə Türkiyə Radio və Televiziyası məlumat yayıb.*

*Ankara radiosunun məlumatına görə, Dağlıq Qarabağ ətrafında yaranmış gərgin vəziyyətlə əlaqədar bu gün Süleyman Dəmirəl Fransa prezidenti Fransua Mitteranla danışıqlar aparıb və Rusiya prezidenti Boris Yeltsinə müraciət edib. Beynəlxalq ictimaiyyətin Ermənistandan işğal etdiyi Azərbaycan torpaqlarını azad etməyi tələb etdiyi bir vaxtda, Ermənistan tam əksinə hərəkət edərək, üstəlik, Ağdam şəhərini də ələ keçirib. Prezident Süleyman Dəmirəl bəyan edib ki, bu, Ermənistanın beynəlxalq qərarlara məhəl qoymadığını göstərir. O deyib ki, dünyada belə halların hələ də baş verməsi narahatlıq doğurur.*

Bəyanatda daha sonra bildirilir ki, Ermənistanın mövqeyi regionda və bütün dünyada sülhə əsl təhdiddir. Türkiyə Prezidenti vurğulayıb ki, bu hadisələri nəzərə alaraq Ermənistana qarşı ciddi tədbirlər görməyin vaxtı yetişib və bu məqsədlə Türkiyə Fransa və Rusiya ilə BMT və ATƏM kimi beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyə hazırdır.

**Sədrlik edən.** Sizə bildirmək istəyirəm ki, dünən axşam Türkiyənin Prezidenti Süleyman Dəmirəl mənə telefon etdi və dedi ki, bir neçə tədbir görür. Bu məlumatı rəsmi yayıblar. Fransanın Prezidenti Fransua Mitteranla danışıb və ona vəziyyəti tamamilə aydınlaşdırıb, öz mövqeyini bildirib. O dedi ki, mən Fransua Mitterandan xahiş etdim ki, öz nüfuzundan, beynəlxalq aləmdə olan mövqeyindən istifadə eləsin ki, bu

məsələnin qarşısı alınsın, Ermənistanın təcavüzkar hərəkətləri dayandırılsın və ümumiyyətlə, bu məsələyə beynəlxalq təşkilatlarda ədalətli baxılsın. Süleyman Dəmirəlin dediyinə görə, Fransua Mitteran da söz verib, əlindən gələni edəcək ki, bu məsələlər ədalətli həll olunsun.

Sonra Süleyman Dəmirəl mənə bildirdi ki, Rusiyanın Prezidenti Boris Yeltsinə telefon eləyib. Boris Yeltsin yerində olmayıb, Boris Yeltsinə yazılı müraciət göndərib, orada bu məlumatlar göstərilir. Boris Yeltsin yerinə qayıdan kimi mütləq Süleyman Dəmirəllə əlaqə saxlayacaq.

Ondan sonra mənə dedi ki, Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonla da danışacaq və bu sahədə fəaliyyətini davam etdirəcək. Onlar hamısı dünən müzakirə olunan məsələyə əlavə məlumatlar kimi Məclis üzvlərinə çatdırılıb. Mənə belə gəlir ki, Məclis üzvlərinin bu barədə məlumatlı olması lazımdır.

Mən söylədim ki, dünən bir qərar qəbul elədik, onun mətni hazırdır. Ancaq bu gün səhər dünənki müzakirə olunan məsələ ilə əlaqədar yenə şəhərdə bir hadisə baş verib. Məlumat verdilər ki, Ağdamdan köçüb gəlmiş insanlar, dünən mən öz çıxışımda dediyim kimi, bəzi adamların fəaliyyəti nəticəsində gedib kooperativ evi tutublar. O evin sahibləri də gəlib şəhərin icra hakimiyyətinin qarşısında toplaşıblar, çox gərgin vəziyyət yaranıb. Ona görə mən hesab edirəm ki, bu vəziyyəti də Məclis üzvləri bilməlidirlər. Bu barədə daha dəqiq məlumat almaq üçün Bakının icra hakimi qısa da olsa məlumat versin, ondan sonra daxili işlər nazirinin də məlumatını dinləyək, görək, nə etmək lazımdır. Çünki vəziyyətimiz, onsuz da, gərgindir və bundan sonra da gərginləşdirmək lazım deyil. Buyurun.

**Rafael Allahverdiyev,** ***Bakı Şəhər İcra Hakimiyyətinin başçısı.*** Hörmətli sədr, hörmətli millət vəkilləri. Ağdam hadisələri ilə əlaqədar dünən burada söhbət açılmışdı, sizə məlumdur ki, Bakıda kriminogen vəziyyət gərginləşib. Ağdamdan bu günə qədər təxminən 15 mindən artıq qaçqın var. Özləri də hamısı bizdən tələb eləyirlər ki, onları evlə, yaxud da düşərgələrdə yaşayışla təmin eləyək. Bu da ki Bakıda mümkün deyil. Ona görə biz ağsaqqalların, Bakı Şəhər İcra Hakimiyyətinin vasitəsilə onlarla söhbətlər aparmışıq. Ancaq bu söhbətlər nəticə vermir. Dünən Yeni Yasamal rayonunda iki kooperativ ev tutulub. Ondan qabaqkı günlər Xətai, Suraxanı, Nəsimi, Nizami rayonlarında da 12 ev zəbt olunub. Ümumiyyətlə, bu saata qədər cəmi 15 ev tutulub. Yeni Yasamalda vəziyyət çox ağırdır. Polislə Ağdam qaçqınları arasında 3 gün

bundan qabaq gərginlik yaşanıb. 6 polis işçisi xəsarət alıb, indi də xəstəxanadadırlar. Dünən axşam gecə saat birin yarısında kooperativ evin sahibləri ilə Ağdamdan gələn qaçqınlar arasında qarşıdurma olub. İşə polis qarışıb. Ağdamdan gələn qaçqınlar balkonlardan polis işçilərini, yerli camaatı daşa basıblar. Bu gün səhər yerli camaat gəlib Bakı Şəhər İcra Hakimiyyətinin qarşısında piket keçirib. Bizə qəti şəkildə deyiblər ki, əgər Bakı Şəhər İcra Hakimiyyəti, yerli orqanlar tədbir görməsələr, özümüz onlara əncam çəkəcəyik. Biz birtəhər onları sakitləşdirmişik.

Mən bir neçə dəfə Tamerlan bəylə də, Heydər Əliyevin yanında da bu söhbəti danışmışam, xahiş eləmişəm. Tamerlan bəy deyir ki, təkcə Ağdam ağsaqqalları yox, Bakıda yaşayan ziyalılar da bu işə kömək eləsinlər. Biz bu üsula da əl atmışıq, amma qarşısını ala bilmirik. Xahiş edərdim, bu gün millət vəkillərindən bir neçə nümayəndə ayrılsın, getsin, o camaatla söhbət eləsin, bir yol tapmaq lazımdır. Daxili işlər naziri daha ətraflı məlumat verə bilər. Əgər biz bu gün bu məsələni həll etməsək, Bakıda olan camaatla Ağdamdan gələn qaçqınlar arasında qarşıdurma olacaq. Xahiş edirəm, bunu nəzərə alasınız.

**Sədrlik edən.** Daxili işlər naziri Vaqif Novruzov, buyurun.

**Vaqif Novruzov, *Azərbaycan Respublikasının daxili işlər naziri.*** İcazə versəydiniz, mən tək bu məsələ üzərində deyil, həm də bugünkü gündəlikdə "Fövqəladə vəziyyət haqqında" Qanunda dəyişiklik məsələsi qoyulub, bu məsələ üzərində də bir balaca dayanardım. Məsələ barəsində kiçik bir arayış vermək istəyirəm. Doğrudan da, vəziyyət gərgindir. Qaçqınlar Bakıya gəliblər, Yeni Yasamal küçəsindəki 9 nömrəli evin, ondan qabaq Suraxanı rayonundakı evlərin, digər rayonlardakı evlərin zəbt olunmasını, onların polislə qarşıdurma məsələlərini mən dünən, srağagün nazirliyin qarşısında olan piketin içərisindən dəvət etdiyim ağsaqqalların məlumatı vasitəsilə öyrənmişəm. Sonradan polis işçilərini həmin ünvanlara göndərib xahiş etmişəm ki, onların nümayəndələrini dəvət eləsinlər. Onlarla da görüşmüşəm, vəziyyət çox gərgindir. "Nicat" cəmiyyətinin sədri var, Famil Mehdiyev. Onun tərəfindən təşkil edilmiş bu məsələlər bütün rayonların ərazilərində olub. Bakı şəhərinin 11 rayonunun hər birinin ərazisində ev tutma, binaların, yataqxanaların zəbti məsələləri var. Biz bu məsələ üzərində işləyirik. Bakı şəhərinin icra hakimi ilə birlikdə belə bir təklifimiz var. Mümkünsə, burada bir qərar qəbul edilsin. İmkan olsaydı, şimal rayonlarında və ya digər rayonlarda yer ayrılardı, biz onların o rayonlarda yaşayışla təmin olunmasını təşkil edərdik.

**Sədrlik edən.** Yaxşı. Burada mənə dedilər ki, Yeni Yasamal kooperativinin sədri Şakir Manafov gəlib, çox təkid eləyir ki, onu dinləyək. Çünki o kooperativin adamları həyəcan içindədirlər və onlar bu vəziyyətdə, ola bilər, başqa tədbirlərə də əl atsınlar.

**Vaqif Novruzov.** Mən Şakir Manafovu qəbul edib, onunla söhbət eləmişəm. Yaxşı edirsiniz, ona söz verirsiniz. Qoy özləri desinlər ki, vəziyyət nə yerdədir. Yuxarıdan atılan daş prokurorluq nümayəndəsinə dəyib, xəsarət yetirib. Ancaq o, cinayət işi qaldırmaqdan imtina eləyib.

**Sədrlik edən.** Buyurun. Bilirsiniz, Məclis hər şeyə baxmalıdır. Bu dəqiqə Bakıda belə bir gərgin vəziyyət yaranıbsa, bəs buna kim baxmalıdır? Məhkəmə prosesi deyil, amma Məclis üzvləri dəqiq məlumat almalıdırlar.

**Şakir Manafov,** ***Bakı şəhəri Yeni Yasamal kooperativinin sədri.*** Hörmətli millət vəkilləri. Nəzərinizə çatdırırıq ki, iyulun 24-də Bakı şəhərində istifadəyə veriləcək və tikilməkdə olan bir neçə kooperativ bina Ağdamdan gələn qaçqınlar tərəfindən zəbt olunmuşdur. Bu, şəhərdə böyük gərginlik yaratmışdır. Burada yüzlərcə adam var: 20-30 il kooperativ binada mənzil növbəsində dayanıblar – təkuşaqlı, çoxuşaqlı analar var, həyat yoldaşları, qardaşları cəbhə bölgələrində döyüşən qadınlar var, onların hüquqları tapdalanır.

Ağdamdan gələn qaçqınlar bir neçə kooperativ binanın mənzillərini zəbt eləyiblər və bu binaların hər biri 180-200 sakinin yerləşdirilməsi üçün, demək olar ki, hazır idi. İnsanlar çox gərgin vəziyyətdədirlər. Binaya daxil olan qaçqınlar daşla, dəmir armaturlarla onlara hücum çəkir, bədən xəsarəti yetirirlər. Orada, demək olar ki, antisanitariya hökm sürür. Çünki bəzi tikilməkdə olan binaların heç sanitariya avadanlığı quraşdırılmayıb, camaat orada necə yaşayır, məlum deyil.

Xalq çox narahatdır. Hakimiyyət orqanlarından, Bakı şəhər rəhbərliyindən kömək gözləyir.

Eyni zamanda gələnlərin psixoloji sarsıntısını da başa düşürük, bilirik ki, onları Bakı şəhər nümayəndəliyi, hakimiyyət orqanları – polis idarəsinin rəisi, şəhər komendantı, nazir bir neçə dəfə qəbul eləyib. Onlarla söhbət aparılıb ki, siz heç biriniz dövlətin qayğısından kənarda qalmayacaqsınız, yerləşdiriləcəksiniz. Amma gələn adamların havadarlarının onlara deməsi ki, möhkəm dayanın, sizə Bakı şəhərində ev veriləcək və bunların da özlərinin tələblər qoyması ki, biz oranı istəmirik, burada yerləşdiriləcəyik, biz Bakıda məskunlaşmalıyıq, burada bizə

ev verilməlidir, bu şərait olmalıdır... Hesab edirik ki, bu, dözülməz haldır. Buna hakimiyyət orqanları yol verə bilməzlər.

Xalq bunu görür. Məsələ həll olunmalıdır. Onlara qayğı ilə yanaşılmalıdır. Bakı şəhərində çörək çatışmır, su problemi gərgin vəziyyətdədir. Bu halda onların burada yerləşdirilməsi heç cür mümkün deyil, yoldaşlar.

Biz kooperativ binanın bütün sakinləri adından sizdən xahiş edirik, bu işə birinci dərəcəli iş kimi baxasınız və Ağdamdan gələn camaatı sakitləşdirib Azərbaycanın rayonlarında yerləşdirmək üçün əlinizdən gələn imkanları əsirgəməyəsiniz. Bu, Bakı şəhərində sosial partlayışa gətirib çıxara bilər. Odur ki mən bütün kooperativ bina sakinləri adından sizdən xahiş edirəm ki, bu adamların məskunlaşdırılması üçün lazım olan bütün tədbirləri ən qısa müddətdə – bu gün, sabah yerinə yetirəsiniz.

**Sədrlik edən.** Yaxşı, əyləşin.

**Tamerlan Qarayev.** Siz bu binaya nə vaxt köçməliydiniz?

**Şakir Manafov.** Bizə məxsus olan və haqqı ödənilmiş 9 nömrəli bina hələ tikilməkdədir. Yenə deyirəm, bu binanın hələ heç avadanlığı qurulmayıb.

**Tamerlan Qarayev.** Aydındır, deməli, hələ ki, köçməyəcəkdiniz. Bu binalar hazır deyil. Siz bu gün, sabah ora köçməyəcəksinizsə, imkan verərsiniz ki, 3-5 günə onların yeri dəqiqləşdirilsin, nümayəndəsini aparaq, onları köçürək. İndi nə var ki, ora cumursunuz. Onlar müharibədən çıxıblar. Bilirsiniz, lazım deyil belə şeylər.

**Şakir Manafov.** Tamerlan bəy, əgər hörmətli Milli Məclis desə ki, 3-5 günə bu camaat yerləşdiriləcək, xalqın Milli Məclisə, rəhbərliyə böyük inamı var. İnanar, 3 gün də gözləyər, lap lazım gəlsə, bir ay da gözləyər.

**Tamerlan Qarayev.** Mən dünən çıxışımda da dedim. Camaat kooperativ binanın pulunu verib, ev tikdirib və təbii ki, hüququdur, hər kəs öz binasında, öz mənzilində yaşayacaq, amma məsələni gərginləşdirmək lazım deyil. Mən sizə dedim ki, bu məsələ həll olunacaq.

Ziyalıların adlarını çəkirlər, elə Famil Mehdinin. Famil Mehdi neçə gündür, gedib ağdamlılara yalvarır ki, onlar oradan çıxsınlar. Onun özünü təhqir eləyirlər. Ona görə də demək lazım deyil ki, guya o qızışdırır. Camaat küçələrə tökülüb. Famil Mehdinin də, burada əyləşən bütün ziyalıların da borcudur ki, gedib onları küçələrdən yığışdırıb kömək

eləsinlər, haradasa məskunlaşdıraq. Vəssalam. Xahiş edirik, gedin, adamlarınıza da deyin, məsələni həll eləyəcəyik. Onlar öz mənzillərinə köçəcəklər. İndi məsələni belə gərginləşdirmək lazım deyil.

**Sədrlik edən.** Mənə elə gəlir ki, bu gün Bakıda vəziyyətin bu dərəcədə gərginləşməsinə yol vermək olmaz. Dünən bu barədə kifayət qədər danışıldı və hamı, o cümlədən mən də dedim ki, Ağdamdan köçürülmüş və Bakıya gəlmiş adamların hər birinə qayğı, xoş münasibət göstərilməlidir, kömək olmalıdır. Ancaq eyni zamanda qeyri-qanuni hərəkətlərə, zorakılıq hərəkətlərinə yol vermək olmaz. Kimsə belə hərəkətlərə bəraət qazandırırsa, düz etmir. Qanunu bir adam bir yerdə pozanda və xüsusən rəhbər vəzifəli adam, başqaları 10 yerdə pozurlar. Buna görə son illər Azərbaycanda baş verən mürəkkəb vəziyyətin əsas səbəblərindən biri də odur ki, qanunu rəhbər vəzifəli şəxslər də pozublar və onlara baxaraq başqa adamlar da pozublar. Biz gərək bundan sonra qanunun təmin olunmasına çalışaq. Hər birimiz qanunun keşiyində durmalıyıq.

Güman edirəm ki, Baş nazirin birinci müavini Vahid Əhmədov Bərdədə bu işlərlə məşğul olub, gedib rəhbərlik eləyib. Vahid Əhmədova göstəriş verək, Bakı şəhər icra hakimi ilə bərabər, əgər Tamerlan Qarayev də bu işə çox maraq göstərirsə, o da iştirak etsin, başqa kim lazımdır, gəlin əlavə eləyək. Bu məsələlər həm qanuni yol ilə, həm də insanlara lazımi münasibət, qayğı göstərmək yolu ilə həll olunsun və heç kəs heç kəsə daş atmasın, heç kəs heç kəsi təhqir etməsin, heç kəs heç kəsə ağır söz deməsin. Bu barədə etiraz yoxdur ki?

Firudin bəy, buyurun.

**Firudin Cəlilov.** Hörmətli sədr. Məni qaçqınlar cəmiyyətinə çağırıb bir məktub veriblər, onların iki cümlədən ibarət bir müraciəti var, icazə versəniz, oxuyardım. Hələlik Bakı şəhərində qohum-əqrəbalarının, dostlarının evinə pənah gətirmiş onlarca Ağdam rayon qaçqını cəmiyyətə müraciət edərək rublların milli manata dəyişdirilməsi ilə əlaqədar onlara kömək göstərilməsini xahiş edirlər. Odur ki Milli Məclisdən xahiş edirik ki, Bakı şəhərində Ağdamdan olan qaçqınların pullarının cəmiyyətdə dəyişdirilməsinə imkan yaradılsın və hədd vahidində onlara üstünlük verilsin. Qaçqınlar cəmiyyətinin məktubudur. Qaçqınlara hər cür qayğı göstərmək bizim borcumuzdur, onlar qayğıya möhtacdırlar. Heydər bəy, əgər etiraz etməzsinizsə, mən bunu Bakı Şəhər İcra Hakimiyyətinə verərdim, bəlkə...

**Sədrlik edən.** Onu Bakı Şəhər İcra Hakimiyyətinə və Baş nazirin birinci müavini Vahid Əhmədova verin. Biz Vahid Əhmədova tapşırırıq ki, bu məsələyə Nazirlər Kabineti səviyyəsində rəhbərlik etsin. Yəqin ki, Vahid müəllim, Siz özünüz müəyyən edərsiniz ki, Məclisdən kimi bu işə cəlb etmək lazımdır. Daha əlavə adamlar lazım deyil ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda bu işlə məşğul olarsınız. Dünənki müzakirə etdiyimiz məsələni bitirmək üçün o qərarın mətnini sizə təqdim edirik.

**Afiyəddin Cəlilov, *Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini.*** Hörmətli sədr, hörmətli millət vəkilləri. Dünən Milli Məclisin axşam iclasında sizə təqdim olunan qərar layihəsi, əsasən, qəbul edilmişdir. Milli Məclis bizə tapşırmışdır ki, müzakirələrdə deyilən müddəalarla əlaqədar olaraq qərar layihəsi, əsasən, qəbul olunduqdan sonra hazır şəkildə Milli Məclisə təqdim edilsin. İzin verin, onu sizə təqdim edim.

***Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevlə ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının sədri Mario Rafaelli arasında danışıqların yekunları, döyüş bölgələrində son vaxtlar yaranmış vəziyyət və Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam şəhərinin işğalı ilə əlaqədar görülən tədbirlər haqqında***

***Azərbaycan Respublikası Milli Məclisinin Qərarı***

*Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevlə ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk konfransının sədri Mario Rafaelli arasında danışıqların yekunları, döyüş bölgələrində son vaxtlar yaranmış vəziyyət və Ermənistanın silahlı qüvvələri tərəfindən Ağdam şəhərinin işğalı ilə əlaqədar görülən tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin məlumatını dinləyərək* ***qərara alır****:*

*1. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin məlumatı nəzərə alınsın.*

*2. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Qarabağda və respublikanın digər sərhəd bölgələrində yaranmış ağır vəziyyətlə əlaqədar hərbi quruculuq sahəsində, siyasi, diplomatik iş sahəsində Birləşmiş Millətlər*

*Təşkilatı, ATƏM çərçivəsində, beynəlxalq aləmdə apardığı işlər təqdirəlayiq, məqsədəmüvafiq hesab edilsin və bu istiqamətdə işlər davam etdirilsin.*

*3. Nəzərə alınsın ki, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev başda olmaqla Azərbaycan Respublikasının Baş naziri Surət Hüseynov və respublikanın digər rəhbər vəzifəli şəxsləri Ağdam şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ilə əlaqədar 1993-cü il iyul ayının 25-də hadisə yerində olmuş, köçkünlərlə, həmçinin Bərdə və Ağcabədi rayonlarının sakinləri ilə çoxsaylı görüşlər keçirmişlər. Yaranmış vəziyyət yerindəcə hərtərəfli təhlil edilmiş, köçkünlərin müvəqqəti yerləşdirilməsi, bölgədə müdafiə tədbirlərinin gücləndirilməsi üçün Bərdə və Gəncə şəhərində aparılan müşavirələrdə konkret tədbirlər müəyyən olunmuşdur.*

*4. Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna tapşırılsın ki, Ağdam şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ilə əlaqədar geniş təhqiqat və istintaq aparsın və müqəssirlərin müəyyən edilib cinayət məsuliyyətinə cəlb olunması üçün qəti tədbirlər görsün.*

**Sədrlik edən.** Dünən qərara əsasən müəyyən etmişdik, sonra müəyyən müzakirələrə görə işlənilib, indi buna əlavə yoxdur ki? Qəbul oluna bilər?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda xahiş eləyirəm, münasibət bildirilsin, kim tərəfdardır, səs versin. Bütövlükdə, bəli, artıq səsvermə başlandı.

***(Səsvermə)***

Qəbul edildi. İndi sizə söz verərəm. Bağışlayın, sizin kartınız yoxdur, ona görə nə demək istəyirsiniz, buyurun.

**Hacıbaba Əzimov.** Heydər müəllim, hörmətli millət vəkilləri. Müzakirə etdiyimiz məsələ çox mühüm, çox vacib məsələdir. O qərarda göstərilən bəndlər, əlbəttə, artıq bir növ həyata keçmiş bəndlərdir və onların qəbul olunması mümkündür. Amma mənə elə gəlir ki, biz bu mühüm hadisə ilə bağlı daha ciddi, daha konkret tədbirlərin nəzərdə tutulması ilə əlaqədar qərar qəbul eləməliyik, yəni bu qərarda konkret tapşırıq, demək olar ki, yoxdur, bir prokurorluğa tapşırıq var, bu, təbiidir. Amma mənə elə gəlir ki, ilk növbədə, Ağdam şəhərinin və onun ətrafının əvvəlki ərazilərlə birlikdə Ermənistan Respublikası tərəfindən işğal edilməsi siyasi bir akt kimi burada əks etdirilməli idi. Bəli, Ağdam şəhəri Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Bu burada öz əksini tapmalıdır.

İkincisi, mənə elə gəlir ki, biz burada Azərbaycan Respublikasının rəhbərliyindən, Prezident səlahiyyətini həyata keçirən Ali Sovetin sədrindən, Baş nazirdən xahiş etməliyik və yaxud onlara tövsiyə etməliyik ki, Azərbaycana qarşı Ermənistanın apardığı işğalçılıq hərəkətlərinin qarşısını almaq məqsədilə beynəlxalq miqyasda öz əməli tədbirlərini, səylərini artırsınlar və BMT-də, Təhlükəsizlik Şurasında Ermənistan Respublikasının təcavüzkar bir dövlət kimi tanınması üçün lazımi məlumatları həmin təşkilatlara çatdırsınlar.

Bundan əlavə, mənə elə gəlir ki, burada belə bir məsələ də öz əksini tapmalıdır. Təhlükəsizlik Şurasından xahiş edilməlidir ki, Milli Məclis adından və yaxud ola bilsin ki, Prezident səlahiyyətini həyata keçirən Ali Sovetin sədri şəxsən əlavə bir məktubla, Milli Məclisin tövsiyəsi ilə Təhlükəsizlik Şurasından xahiş etməlidir ki, Ermənistan Respublikasının təcavüzünü qeyd etməklə bərabər, Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan qoşunlarının çıxarılması haqqında tədbirlər müəyyən etsin. Əgər Ermənistan öz qoşunlarını Azərbaycan ərazisindən qısa müddətdə çıxarmazsa, onda Ermənistan Respublikasına qarşı iqtisadi və siyasi sanksiyalar tətbiq etsin. Yəni bu məsələləri Milli Məclis parlament kimi, ali qanunverici orqan kimi həm dövlət rəhbərliyinə tövsiyə etməlidir, həm də dünya miqyasında BMT-yə və Təhlükəsizlik Şurasına müraciət etməlidir ki, özünün qərarı ilə onlar bunlara nəzarət etsinlər. Mənə elə gəlir ki, o qərar üzərində müəyyən bir komissiyanın işləməsi məqsədəuyğun olardı.

Dünən də buradan təkliflər verildi, biz onları, əsasən, qəbul etdik və elə güman elədik ki, bunun üzərində komissiya ciddi işləyəcək. Amma çox təəssüf ki, belə olmayıb. Mənə elə gəlir ki, bu qərarı biz daha təkmil, daha ciddi bir qərar kimi qəbul etməliyik. Çünki bu, tarixi bir hadisədir, bizim xalqın həyatında çox faciəli bir hadisədir. Bu hadisəyə daha ciddi münasibət bəslədiyimizə görə qərar da çox ciddi hazırlanmalıdır, geniş qərar olmalıdır. Sonra çalışıb həmin qərarı həyata keçirməliyik. Sağ olun.

**Afiyəddin Cəlilov.** Hörmətli sədr, hörmətli Hacıbaba müəllim. Qeydləriniz üçün sizə təşəkkür edirəm. Ancaq bir məsələni xatırlatmaq istəyirəm. Ağdamın işğalı ilə əlaqədar olaraq siz xüsusi bənd tələb eləyirsiniz. Həmin qərarın adı Ağdamın işğalıdır. Bu, qərarın adıdır.

İkinci bir tərəfdən, beynəlxalq miqyas məsələsi dünən burada geniş müzakirə olundu və Məclisin əvvəlində Heydər müəllim Azərbaycanda

gedən hadisələrlə əlaqədar beynəlxalq aləmin reaksiyasını bəyan etdi. Biz də ikinci bənddə siz dediyiniz tərzdə Azərbaycan Respublikasının rəhbərlərindən xahiş edirik və sizin də nəzərinizə çatdırıram ki, Birləşmiş Millətlər Təşkilatı, ATƏM çərçivəsində beynəlxalq aləmdə aparılan işlər məqsədəuyğun və məqsədəmüvafiq hesab edilsin və bu istiqamətdə işlər davam etdirilsin. Sağ olun.

**Sədrlik edən.** Bilirsiniz, bunu da əlavə etmək istəyirəm. Dünən burada məlumat verərkən mən təklif etdim ki, Birləşmiş Millətlər Təşkilatına məktub göndərmişik, o məktub oxunsun, başqa sənədlər də var idi. Məclis üzvləri dedilər ki, bunlar hamısı məlumdur.

Birləşmiş Millətlər Təşkilatına dərhal ciddi məktub göndərilib. Bu gün mən Ali Sovetin şöbə müdiri Namiq Axundova söz verdim. O burada Birləşmiş Millətlər Təşkilatının bu işə ilkin reaksiyasını, Təhlükəsizlik Şurasının sədrinin, İngiltərə nümayəndəsinin bu barədə bəyanatını və ilkin reaksiyasını bildirdi ki, bu gün Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bu məsələyə baxacaq. Burada bütün imkanlardan istifadə olunur. Yəni ATƏM-in, ATƏM-in Minsk konfransının, Birləşmiş Millətlər Təşkilatının, xüsusən Təhlükəsizlik Şurasının, bundan əlavə, Türkiyə hökumətinin, onun Prezidenti Süleyman Dəmirəlin də bu barədə təşəbbüslərini, addımlarını sizə çatdırdım. Həm artıq mətbuatda dərc olunmuş rəsmi bəyanata görə, həm də telefon danışıqlarına görə, mənə elə gəlir ki, bu məsələlər burada yetəri qədər əks olunubdur.

O ki qaldı Ağdamın işğal olunmasına siyasi qiymət verilməsinə, biz deyirik ki, Ağdam işğal olunubdur. Demək, bu artıq siyasi qiymətdir. Ermənistanın Azərbaycana təcavüzkarlığı artıq bir neçə ildir ki, tərəfimizdən qiymətləndirilib və bu, davam edir. Bunu bir daha qeyd etmək lazımdır.

Bununla əlaqədar olaraq mən istərdim, bir məsələyə də toxunum. Dünən burada, səhv etmirəmsə, Məclis üzvü Cümşüd Nuriyev məsələ qaldırdı ki, məhz Türkiyənin Baş naziri müraciət edib ki, Azərbaycana Birləşmiş Millətlər Təşkilatının müşahidəçiləri və nümayəndələri göndərilsin. Bəli, bu barədə məlumat var idi. Mən bununla əlaqədar dövlət müşaviri Vəfa Quluzadəyə göstəriş vermişdim ki, bu məsələni öyrənsin. Bu məsələyə münasibət bildirmək lüzumlu olardı. Bu barədə Vəfa Quluzadə qısa məlumat versin və Məclis də bu məsələyə münasibətini bildirsin.

Vəfa Quluzadə buradadırmı? Buyursun.

**Vəfa Quluzadə, *Azərbaycan Respublikasının dövlət müşaviri.*** Türkiyənin Baş naziri bəyanat vermişdir ki, Türkiyədə Krizis komissiyası yaradılmışdır, Ermənistanın Ağdam şəhərini işğal etməsi, Azərbaycanda yaranmış vəziyyət bu iclasda ətraflı müzakirə olunmuşdur. Deməli, Türkiyə rəhbərlərinin, Türkiyə Prezidenti Süleyman Dəmirəlin dövlət tədbirlərinin birində belə bir təklifi var idi ki, xahiş olunsun, Azərbaycanla Ermənistan arasında Birləşmiş Millətlər Təşkilatının silahlı qüvvələrini yerləşdirsinlər. Bu barədə mən sizə məlumat verə bilərəm. Deməli, beynəlxalq təcrübədə sərhədlərə Birləşmiş Millətlər Təşkilatının qoşunları göndərilir. Bu qoşunlar olduqca yüksək maaş alırlar. Birləşmiş Millətlər Təşkilatı maraqlıdır ki, onlar çox qısa müddətə getsinlər. Bu qoşunların əsas məqsədi atəşkəsi təmin etməkdir ki, heç bir tərəfdən atəşkəs pozulmasın.

Bu, çox mühüm təklifdir. Birləşmiş Millətlər Təşkilatı, bildiyimiz kimi, yalnız öz qərarları ilə hərəkət edir. Mən bu təklifin orada keçib-keçməyəcəyinə əmin deyiləm. Sözsüz ki, Təhlükəsizlik Şurasının tərkibi bizim hamımıza məlumdur. Bu tərkibdə Azərbaycanın tərəfində olan ölkələr də var. Ancaq elə ölkələr də var ki, baxmayaraq özləri bəyanat veriblər, amma onlar maraqlı deyillər ki, Təhlükəsizlik Şurası bu məsələyə aid ciddi tədbirlər görsün. Mən burada yalnız öz rəyimi deyə bilərəm. 1973-cü ildə Misir və İsrail arasında müharibə olanda oraya Birləşmiş Millətlər Təşkilatı qoşunları göndərilmişdi. O qoşunların tərkibində müxtəlif millətlərdən olan əsgərlər, zabitlər var idi, o cümlədən sovet zabitləri də. Orada iş iki mərhələdən ibarət idi: birincisi, Misirlə İsrail arasında atəşkəsin pozulmasını qoymamaq, ikincisi, Suriya ilə əlaqədar atəşkəs yaratmaq və çalışmaq ki, atəşkəs pozulmasın. Bu addım o zaman çox effektli oldu.

Azərbaycanda, mənim şəxsi rəyimə görə, sözsüz ki, Milli Məclis bu qərarı qəbul etməlidir. Millət vəkilləri bu barədə öz fikirlərini söyləməlidirlər. Mənə elə gəlir ki, əgər doğrudan da, belə bir qərar qəbul olunarsa, Azərbaycanın xeyrinə olan bir addım olacaqdır. Hamımıza məlumdur ki, Azərbaycan hücum etmir, əksinə, Azərbaycana qarşı hücumlar olunur. Buna baxmayaraq ictimai rəyi, Birləşmiş Millətlər Təşkilatını aldatmaq üçün Ermənistanın Xarici İşlər Nazirliyi hər gün bəyanatlar göndərir. Hətta dünən də bəyanat göndərmişdir ki, Azərbaycan Xankəndini, Əsgəranı və digər yerləri şiddətli şəkildə bombalamışdır. Guya Azərbaycan atəş açır və onlar da məcburdurlar ki, bu atəşə cavab versinlər.

Mənə elə gəlir ki, bizim strategiyamız regionda sülh yaratmaq olduğuna görə, beynəlxalq qanunlar bizim tərəfimizdə olduğuna görə, Dağlıq Qarabağ Respublikası adlı bədnam respublika heç kim tərəfindən tanınmadığına görə sərhədlərimizi Birləşmiş Millətlər Təşkilatı, Təhlükəsizlik Şurasının üzvləri tanıdığına görə biz öz haqqımıza sülh yolu ilə, danışıqlar yolu ilə, o cümlədən müstəqilliyimizi, dövlətimizi qura-qura nail ola bilərik.

Ancaq indiki şəraitdə deyək ki, Birləşmiş Millətlər Təşkilatı qərar qəbul etdi. Sözsüz ki, bu qərar bizim istəyimizdən asılı olmayaraq, qəbul edilə bilər. Qərar qəbul olundu ki, sərhədlərə BMT-nin qoşunları yerləşdirilsin. Deyək ki, biz bundan imtina etdik. Əgər biz bundan imtina etsək, birincisi, BMT-nin qarşısında şübhəli görünəcəyik. Ondan sonra da erməni təcavüzünə görə heç bir beynəlxalq təşkilata müraciət etməyə nə haqqımız, nə də hüququmuz olmayacaq. Həm də respublikamız bu vəziyyətdə ola-ola erməni hücumlarının qarşısında heç nə edə bilməyəcəyik.

Qərar siyasi qərardır. Burada həm respublikadakı daxili vəziyyət, həm bizim ordudakı vəziyyət, həm gücümüz, həm də bu konflikti nə cür, hansı yollarla həll edəcəyimiz nəzərə alınmalıdır. Deyilənlərin hamısı nəzərə alınandan sonra mən xahiş edərdim ki, Milli Məclis öz qərarını versin. Çox sağ olun.

**Cümşüd Nuriyev.** Olar?

**Sədrlik edən.** Buyurun, suallarınızı verin.

**Cümşüd Nuriyev.** Vəfa müəllim, məni bir məsələ maraqlandırır. BMT-nin qüvvələri Azərbaycana dəvət olunarsa, onu kim maliyyələşdirir, bu, bir. İkincisi, Siz dediniz ki, Azərbaycana xeyiri var, çünki Misirlə İsrail arasında belə bir qüvvə yerləşdirilmişdi. Axı Azərbaycan nə Misirdir, nə İsraildir. Çünki Dağlıq Qarabağ Azərbaycanın içərisindədir. Azərbaycana sərhəd bir Laçın rayonunu, bir də üst-üstə bir neçə kəndi biz qoruya bilərik. Bəs Dağlıq Qarabağ necə olur? Axı onlar sərhəddə yerləşdirilirsə, Dağlıq Qarabağın hansı təhlükəsizliyindən söhbət gedir? Sağ olun.

**Vəfa Quluzadə.** Birincisi, BMT öz qüvvələrini göndərəndə, sözsüz ki, bütün maliyyə xərcləri BMT-nin hesabına olur. Mən burada söyləmək istəyirdim, amma yadımdan çıxdı. İkinci məsələ, BMT belə bir qərar qəbul edərsə, qoşunların milli tərkibinə Azərbaycan təsir edə bilər. Məsələn, biz deyə bilərik ki, hansı ölkələrdən və hansı milliyyətdən olan əsgərlər gəlib sərhəddə dayansınlar.

Azərbaycan–Ermənistan sərhədi barədə yalnız Süleyman bəy danışıb, deyibdir. Mən Dağlıq Qarabağ haqqında fikrimi deyə bilərəm. Hazırda Azərbaycana Dağlıq Qarabağ tərəfdən ermənilər hücum edir. Əgər belə bir fikir olsa, qısa müddətə atəşkəs əldə etmək üçün Dağlıq Qarabağda da o qüvvələrin yerləşdirilməsi məqsədəuyğun olardı.

**Sədrlik edən.** Hacıbaba Əzimov, buyurun.

**Hacıbaba Əzimov.** Vəfa müəllim, mənim Sizə şəxsən çox böyük hörmətim var. Sizin uzun illər diplomatik işlərdə işləməyiniz və səriştəniz də bizə məlumdur. Amma mənim bundan xeyli əvvəl Sizin televiziyadakı çıxışlarınızla bağlı müəyyən bir təsəvvürüm var. İstərdim, həm onu aydınlaşdırasınız, həm də bu məsələ ilə bağlı olduğuna görə əlaqələndirəsiniz. Siz çıxışınızda sevinc hissi ilə bildirdiniz ki, nəhayət, ikinci tərəf 822-ci qətnamənin yerinə yetirilməsinə, yəni Kəlbəcərdən qoşunların çıxarılmasına imza atdı. Ter-Petrosyanın da Xankəndinə gəlməsini bəyəndiniz və bunu da xoş bir məram kimi təqdim etdiniz. Amma Xarici İşlər Nazirliyi bəyanat verdi, nota verdi ki, Ter-Petrosyan – başqa dövlətin prezidenti Azərbaycanın suverenliyini pozub, icazə olmadan onun ərazisinə daxil olub.

Bu münasibətlə Siz "üçüncü tərəf" ifadəsini də işlədirdiniz, yəni Dağlıq Qarabağ rəhbərliyinin üçüncü tərəf kimi belə bir imza atdığını qeyd eləyirdiniz. Mən bilmək istəyirəm, Siz üçüncü tərəfin rolunu necə görürsünüz? Bu suala cavab verin.

Bir də mən bilmək istəyirdim ki, Siz deyirsiniz, bu qoşunlar həm də Dağlıq Qarabağda yerləşə bilər. Bu nə ideyadır? Əgər bu, sərhəd boyudursa, biz nə üçün qoşunları Dağlıq Qarabağın ərazisinə yığırıq, sərhəddən danışmırıq. Bunun bizim milli mənafeyimizə nə dərəcədə uyğun olub-olmaması məsələsini izah edərdiniz. Buyurun.

**Vəfa Quluzadə.** Mən "üçüncü tərəf" deyəndə, ola bilsin ki, televiziyada çıxış edəndə tələsik demişəm, nəzərdə tuturdum ki, ATƏM-in vəsiqəsinə həm Qarabağ ermənilərinin, həm də Dağlıq Qarabağın azərbaycanlı əhalisinin nümayəndəsi daxil olsun. Burada belə bir problem yoxdur. İkincisi, erməni din xadimləri Amerikanın və ATƏM-in təzyiqi altında Ter-Petrosyana güclü təzyiq göstərmişlər ki, sən ölkənin prezidentisən, necə olur ki, Dağlıq Qarabağ erməniləri sənin sözünə baxmırlar, imtina edirlər, bu atəşkəsə və ATƏM-in qrafikinin yerinə yetirilməsinə qol çəkmirsiniz.

Mən reallıqdan çıxış edirəm. Reallıq isə budur ki, Azərbaycana, Azərbaycan xalqına, Qarabağda yaşayan əhaliyə bu dəqiqə sülh lazımdır,

atəşkəs lazımdır. Xoş məramla atılan hər addım həmişə alqışlanmalıdır. Məsələ bu cürdür.

Birləşmiş Millətlər Təşkilatının qoşunlarının Dağlıq Qarabağda yerləşdirilməsi isə heç də mənim ideyam deyildir. Bunun qərarını siz verəcəksiniz, qərara da siz səs verəcəksiniz. Bunun məqsədi yalnız bir şey ola bilər. Bu hər hansı bir ölkənin qoşunu deyil ki, gəlsin, girsin Azərbaycana və buradan çıxmasın. Mən yenə deyirəm, orada hər əsgər min dollardan artıq maaş alacaqdır, özü də BMT-nin büdcəsindən. Onun məqsədi o olacaqdır ki, gəlib orada möhkəm dayansın. Birincisi, Azərbaycan–Ermənistan sərhədində olan Laçın zonasını ermənilər alıblar, bu zonadan silah, sursat, hərbi qüvvələr göndərirlər. Laçın zonası BMT-nin nəzarəti altında olacaqdır. Heç bir hərbçi, heç bir texnika oradan gedə bilməyəcəkdir. Ağdamda, Füzulidə, Dağlıq Qarabağda olan qərarı özünüz verin, mən şəxsən burada pis bir şey görmürəm. Heç ümidvar da deyiləm ki, biz bu dəqiqə bunu xahiş eləsək, xahişimizlə onu edəcəklər. Mən buna əmin deyiləm. Bu, bir ideyadır. Bu, Türkiyədə Krizis komissiyasının, Türkiyə dövlət başçılarının ideyasıdır, Türkiyə dövlət başçılarının Azərbaycana qardaşyana münasibətidir. Bizim vəziyyətə ürəklərinin yanmasını aydın görürəm. Heç də elə hesab etmirəm ki, Türkiyə Azərbaycanın daxili işlərinə qarışır. Türk dövlətinin, türk xadimlərinin Azərbaycana qarşı atdıqları addımların hamısı Azərbaycan xalqının xeyrinə olan təkliflərdir. Onlar yalnız bizim rəyimiz və razılığımızdan sonra həyata keçə bilər.

**Sədrlik edən.** Etibar Məmmədov, buyurun.

**Etibar Məmmədov.** Heydər müəllim, mən bu məsələyə qəti etirazımı bildirmək istəyirəm. Gündəlikdə olmayan məsələ artıq müzakirə obyektinə çevrilib, yəni BMT-nin qoşunlarının Azərbaycanla Ermənistan sərhədinə gəlməsi haqqında qərar layihəsi yoxdur. Birdən-birə bu məsələ artıq burada müzakirə olunur və Vəfa Quluzadə bildirir ki, bu barədə Məclis qərar qəbul etməlidir. Türkiyə hökumətinin müraciətinə əsaslanılır. Mənim bildiyimə görə, Türkiyə hökuməti rəhbərliyi bunu açıq müzakirə etməyib, qapalı bir iclasda qəbul olunmuş qərarın nəticəsində bu müraciət olub. Ümumiyyətlə, bu atılacaq diplomatik addımların televiziya ilə birbaşa yayımlanan iclasda müzakirə olunmasının əleyhinəyəm. Bu cür məsələlər açıq şəkildə müzakirə oluna bilməz. Xarici işlər naziri, xarici işlər üzrə müşavir hər hansı təkliflər verirsə, bu təkliflər konkret olaraq yazılı şəkildə rəhbərliklə müzakirə olunmalıdır, sonra qərar layihəsi Məclisə çıxarılmalıdır. O cür iclaslar da qapalı

olmalıdır. Mən bu məsələnin müzakirəsinin dayandırılmasını təklif edirəm.

**Sədrlik edən.** Bilirsiniz, Siz nahaq güman edirsiniz ki, bu, məxfi məsələdir. Bu, məxfi məsələ deyil. Dünən Məclis üzvü Cümşüd Nuriyev bu məsələni qaldırdı və dedi ki, Türkiyənin Baş naziri BMT-yə qoşunlarının Azərbaycanda yerləşdirilməsi haqqında müraciət eləyib. Bu artıq mətbuatda işıqlandırılmış məsələdir. Ona görə də burada heç bir məxfi şey yoxdur. Türkiyənin Baş naziri əgər belə bir addım atıbsa və bunu bütün dünya mətbuatına veribsə, Milli Məclisdə buna öz münasibətimizi bildirməkdə və yaxud da müzakirə etməyimizdə heç bir qüsur yoxdur. Bu, birincisi. İkincisi, Siz deyirsiniz ki, bu gərək gündəliyə salınaydı, müzakirə olunaydı. Bilirsiniz, bu qədər formalistlik lazım deyil, bu, yeni bir məsələ deyil. Biz dünən buna çox vaxt sərf etmişik, bu gün də davam eləyirik. Əgər Türkiyə tərəfindən belə bir təklif irəli sürülübsə, o da Ağdamın işğalı ilə əlaqədar olubdur. Ona görə də bu, ayrı bir məsələ deyil ki, onu ayrıca gündəliyə salaq, sonra müzakirə eləyək. Bu məsələ, yenə də deyirəm, Məclis üzvü Cümşüd Nuriyev tərəfindən qaldırılıb və bu məsələdən biz yan keçə bilməzdik, ona münasibətimizi bildirməliyik. Burada məxfi bir şey yoxdur və bunun müzakirəsinin Məclisdə açıq aparılmasının da heç bir zərəri yoxdur.

**Vəfa Quluzadə.** Mən iki kəlmə də söz demək istəyirəm.

**Sədrlik edən.** Bu artıq bütün qəzetlərdə – hər yerdə yazılıbdır. Burada məxfi bir şey yoxdur.

**Vəfa Quluzadə.** Ondan başqa bir şey də nəzərə alınsın ki, vəziyyət gərgindir. Gərgindir o nöqteyi-nəzərdən ki, yeni bir şəhərimiz işğal olunubdur, o biri şəhərimiz də olduqca ağır, təhlükəli vəziyyətdədir, yəni bu cür şəraitdə, sözsüz ki, biz ən məxfi məsələləri də bu cür müzakirə edə bilərik.

**Sədrlik edən.** Tofiq Qasımov, buyurun.

**Tofiq Qasımov.** Mənim Vəfa bəyə sualım yoxdur, çıxış etmək istəyirəm.

**Sədrlik edən.** Bəli, Etibar Məmmədov. Bir dəqiqə, sual vermək istəyirsiniz? Vəfa, buyurun, əyləşin. Tofiq, buyurun.

**Tofiq Qasımov.** Mən öz fikirlərimi bildirmək istəyirəm. Birincisi, burada çox düzgün qeyd elədilər ki, son vaxtlar bizim rəhbərliyin xarici siyasətini müəyyən eləyən şəxslərin və rəhbərliyin özünün çıxışlarında çox tez-tez "Dağlıq Qarabağ tərəfinin rəhbər orqanları da buna

qol çəkiblər", "Dağlıq Qarabağ tərəfi qol çəkib" kimi çıxışlar olub. Vəfa Quluzadə də dedi ki, o, görünür, tələsikliyə yol verib. Mən elə bilirəm ki, bu məsələ olduqca ciddi məsələdir, ona görə biz çalışmalıyıq ki, burada özümüz təhriflərə yol verməyək. Çünki bugünkü qəzetdə Dağlıq Qarabağ tərəfin artıq özünə xarici işlər naziri təyin etməsi barədə bəyanat var. Deyirlər ki, onları guya beynəlxalq hüququn subyekti kimi tanıyıblar. Yəni bu tipli səhvlərimiz onlarda belə bir fikir yaradır ki, onlar hansısa sənədə qol çəkirlər, onlar beynəlxalq hüququn subyektidirlər. Əslində isə burada məsələ bu şəkildədir. Hələ ATƏM-in Minsk konfransı yaradılan vaxt o mandatda Azərbaycan və erməni icmalarının bu məsələdə maraqlı tərəf olması məsələsi vardı. Ona görə də razılıq deyəndə icmanın nümayəndələrinin razılığı nəzərdə tutulur və o razılığa formal şifahi razılıq tələb olunur. Kimsə bunu qol çəkmək şəklində ifadə eləyibdirsə, bu özü lazımi səviyyədə korreksiya deyil.

Sizin cənab Rafaelli ilə görüşünüzdə də Rafaelli bunu çox gözəl, dəqiq şəkildə ifadə elədi ki, burada iki tərəf var – Azərbaycan Respublikası və Ermənistan Respublikası. Bir tərəfdə Azərbaycan Respublikasının Dağlıq Qarabağda yaşayan Azərbaycan icmasının nümayəndələri və erməni icmasının nümayəndələri var, yəni bu məsələ çox dəqiq şəkildə qoyulmalıdır.

O ki qaldı Türkiyənin müraciətinə, Türkiyə bizə qardaş respublikadır. Amma ona baxmayaraq bu məsələni müraciət etməmişdən əvvəl Azərbaycan hökuməti ilə onların razılaşdırılması mütləq lazım idi. Ona görə ki Azərbaycan hökumətinin bu məsələdə mövqeyi əsas olmalıdır, yəni bunu Türkiyənin öz tərəfindən ortaya çıxarması da, bir növ, mən hesab eləyirəm ki, dövlətlərarası münasibətlərdə bir az korrekt məsələ deyil.

O ki qaldı bunun əhəmiyyəti məsələsinə, mən onu da qeyd etmək istəyirəm ki, indiyə qədər müşahidəçilər söhbəti olanda ancaq mülki müşahidəçilərdən söhbət gedirdi və onlar ATƏM çərçivəsində gəlməli idilər. Bu müşahidəçilərin ümumi sayı 600-ə qədər, yaxın gələcəkdə isə təxminən 90, 60-90 arasında olmalı idi. Mülki müşahidəçilərin həm sərhəddə, həm də Qarabağda yerləşdirilməsi nəzərdə tutulurdu ki, atəşkəsə nəzarət etsinlər və sülh danışıqlarını, yəni Minsk konfransına qədər olan addımların atılmasını, Minsk konfransının keçirilməsini təşkil eləsinlər.

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının qərarı ilə, əlbəttə, silahlı müşahidəçilər, silahlı qüvvələr göndərmək olar. Amma bunlar

ancaq dövlətlərin sərhədlərinə, yəni məlum, qəbul edilmiş, beynəlxalq şəkildə qəbul olunmuş sərhədlərinə gələ bilərlər. Yəni əgər bu məsələ olsa da, ancaq Ermənistanla Azərbaycan arasındakı sərhəd xəttinə bu müşahidəçilərin gəlməsi məsələsi qoyulmalıdır.

Bir şeyi də qeyd etmək istəyirəm ki, bunun biz fikirləşdiyimiz qədər də bizə xeyri olmayacaq. Hansı baxımdan? Ona görə ki Birləşmiş Millətlər Təşkilatı hansısa bir regiona silahlı qüvvələr göndərmək məsələsinə çox çətinliklə gedir. Ona görə ki bayaq deyildiyi kimi, bu, çox böyük xərc tələb edir. Ölkələrin özləri bu xərci boyunlarına götürmürlər. Birləşmiş Millətlər Təşkilatının büdcəsindən gedir deyə onlar çalışırlar ki, bu adamları regiona yaxın ölkələrdən götürsünlər. Əgər fikir vermisinizsə, son vaxtlar bir ildən də artıq müddətdə Rusiya çox ciddi səy göstərir ki, bu regionda olan sülh qoruyucu qüvvələr məhz rus qüvvələri olsun. Rusiyanın, yaxud SNQ-nin qüvvələrinin bura gəlməsinin təhlükəsizlik baxımından müəyyən zərəri ola bilər. Amma xeyri ancaq bu baxımdan ola bilər ki, Ermənistanla Azərbaycan arasında, tutaq ki, Laçın, Kəlbəcər və başqa sərhəd zonalarında bu qüvvələr yerləşdirilsə, əlbəttə, o dəhlizdən silahlı qüvvələrin Ermənistandan Azərbaycana gəlməsinin qarşısı alına bilər.

O ki qaldı Dağlıq Qarabağda Birləşmiş Millətlər Təşkilatının silahlı qüvvələrinin yerləşdirilməsinə, mən elə hesab edirəm ki, bu, iki baxımdan bizə zərərdir: birincisi, sərhəd deyəndə Dağlıq Qarabağın dəqiq sərhədi yoxdur. Biz sərhədi onda gərək qəbul eləmiş olaq, yəni onda Dağlıq Qarabağın statusunu qəbul eləmiş oluruq. İkincisi də, sərhədə gələndə onlar, adətən, üz-üzə duran qoşunların arasında dayanırlar, yəni atəş xəttində dayanırlar. İndi də atəş xətti Ağdamdan bu yana keçdiyinə görə, deməli, onlar gəlib Ağdamdan bu yana keçəcək və bu işğalı, bir növ, qanuniləşdirəcəklər. Yəni ola bilər ki, danışıqlar bir neçə il davam eləsin və bir neçə il biz Ağdamı, Kəlbəcəri, Laçını, Şuşanı və digər əraziləri geri ala bilməyək. Bax bu baxımdan mənə elə gəlir ki, onların daxilə gəlmək söhbəti olmalı deyil.

Amma Ermənistan–Azərbaycan sərhədində bu qüvvələrin dayanmasına, bir növ, getmək olar. Ancaq onda da Azərbaycan dövlətinin mövqeyi belə olmalıdır ki, bura mümkün qədər neytral ölkələrin, yəni bu münaqişədə marağı olmayan ölkələrin silahlı qüvvələri göndərilsin. Sağ olun.

**Sədrlik edən.** Tofiq bəy, Sizin bir sözünüzdəki müddəaya mən aydınlıq gətirmək istəyirəm. O da ondan ibarətdir ki, Kəlbəcər rayonu

işğal olunandan sonra ATƏM-in və üç dövlətin – Amerika Birləşmiş Ştatlarının, Türkiyənin və Rusiyanın təşəbbüsü ilə aparılan tədbirlər və ondan sonra ATƏM-in Minsk konfransının təklifi ilə imzalanan sənəd Sizin xarici işlər naziri işlədiyiniz vaxtda imzalanıb. Bunu televiziya ilə göstəriblər ki, Siz imzalayıb buna xeyir-dua verdiniz, ondan sonra bunu Ermənistanda imzaladılar, xeyir-dua verdilər, ondan sonra da bunu Dağlıq Qarabağda imzaladılar, hamısı Sizin iştirakınızla olub. Ona görə də Sizin Dağlıq Qarabağı nə cür qəbul etmək, necə qəbul etmək haqqında fikirləriniz müəyyən qədər qarışıqlıq yaradır. Mən istəyirəm, sadəcə, aydınlıq verəm ki, bəli, bunlar Sizin və Sizinlə bərabər o dövrdə Azərbaycanın rəhbərləri – Prezident, Məclis, Baş nazir... Bəlkə də, onlar iştirak etməyiblər, ancaq şəxsən Sizin bu sənədə təntənəli surətdə qol çəkməyiniz televiziya ilə verilib.

Bilirdiniz ki, Ermənistan da gərək buna şərh verəydi, buna Ermənistan da qol çəkməliydi, Dağlıq Qarabağda olan qüvvələr də qol çəkməliydi. Orada icmadan söhbət getmirdi. Siz məsələni qarışdırmayın. Onlar da qol çəkmirdi, ondan sonra burada deyildi, Ermənistanın prezidenti Levon Ter-Petrosyan ora getdi və ondan sonra ona qol çəkdilər. Bunlar hamısı Sizə məlum olan şeylərdir. Siz burada camaatı bir az çaşdırmayın.

Amma qalan məsələlərdə, əlbəttə, Sizin fikriniz aydındır.

Buyursun Etibar Məmmədov.

**Etibar Məmmədov.** Heydər müəllim, Sizin o formalizm dediyiniz şey qanundur, reqlamentdir, Ali Sovetin haqqında olan reqlamentdir və həmin reqlamentə görə, hər hansı bir qərarı qəbul etmək üçün qərar layihəsi verilməlidir, onun müəllifi məlum olmalıdır və o qərar qəbul olunması üçün məsələ də gündəliyə salınmalıdır. Ona görə də bu məsələnin birdən-birə ortaya çıxması, Siz deyirsiniz, Cümşüd Nuriyevin dünənki çıxışına görədir. Cümşüd Nuriyev Türkiyənin Baş nazirinin müraciəti haqqında öz fikrini bildirdi. Biz indi Məclisdə başqa bir dövlətin hökumətinin, Baş nazirinin hər hansı bir müraciətini müzakirə edə bilmərik. Həmin müraciətdə toxunulan mövzu haqqında bizim Xarici İşlər Nazirliyinin və yaxud hökumətin rəhbərliyinin və Sizin bu məsələyə münasibətiniz bilinsəydi, yəni Ermənistanla Azərbaycan münaqişəsini aradan qaldırmaq üçün BMT-nin silahlı qüvvələrinin bura yeridilməsi haqqında məsələyə Sizin münasibətiniz bildirilsəydi, Siz təkliflə çıxış etməliydiniz ki, buna razısınız və yaxud razı deyilsiniz. Razılıq üçün Məclisin qərarı lazımdır, onda bu müzakirə oluna bilərdi.

Mən yenə də həmin fikirdəyəm ki, atılacaq diplomatik addımlar açıq şəkildə müzakirə oluna bilməz. Bunun üçün Xarici İşlər Nazirliyi şəxsən Sizinlə məsələni müəyyənləşdirə bilər. Ondan sonra isə onun razılığının alınması üçün Məclisdə məsələ müzakirə oluna bilər. Ona görə mən bu gün Məclisdə müzakirə edilən bu məsələ gündəlikdə olmadığı üçün yenə də bu müzakirənin dayandırılmasını təklif edirəm.

**Sədrlik edən.** Bilirsiniz, ola bilər, Siz deyilən şeyi anlamaq istəmirsiniz, ancaq mən izahat verdim, bir də izahat verirəm. Birinci, bu, məsələ kimi müzakirə olunmur və Siz bunu qəsdən bu tərəfə yönəltməyin. Məclis üzvü bu məsələni qaldırıb. Bu, mətbuatda dərc olunmuş məsələdir, şübhəsiz ki, bunun haqqında fikir mübadiləsi aparmaq məsələni müzakirə etmək deyil və burada başqa bir dövlətin addımına biz qiymət verib-verməmək fikrində də deyilik. Sadəcə olaraq, fikir mübadiləsi gedir. Bu, birinci. İkinci, əgər Siz hesab edirsinizsə, şəxsən mən Ali Sovetin sədri kimi, yaxud Prezidentin səlahiyyətlərini həyata keçirən şəxs kimi bu məsələyə münasibət bildirməliyəm və Məclislə məsləhətləşirəm, burada nə pis şey var? Məsləhətləşirəm, fikir mübadiləsi aparılır, fikir öyrənilir. Ona görə də bunu başqa tərəfə yönəltmək lazım deyil. Məsləhətləşirik, nə qədər çox məsləhətləşsək, o qədər yaxşı olar. Mən hesab eləmirəm ki, təkbaşına buna cavab verə bilərdim. Bəlkə, bu fikir mübadiləsi bizə daha da kömək edər ki, bu işə daha dəqiq, daha məsuliyyətli, daha düzgün yanaşaq, addım ataq. Burada bu məsələ haqqında fikir mübadiləsi heç də Türkiyə dövlətinin atdığı addıma bizim münasibətimiz deyil. Türkiyə dövləti müstəqil dövlətdir, o hər bir addımı ata bilər və biz onun atdığı addımlara, əgər o bizə zərər etmirsə, heç bir etiraz edə bilmərik.

Ümumiyyətlə, burada bu gün elan olundu. Türkiyə hökuməti Azərbaycanda baş vermiş vəziyyət haqqında çox narahatdır və onlar bəyanatlar veriblər. Əgər Türkiyənin Baş naziri Süleyman Dəmirəl son vaxtlar – mən bunu, sadəcə olaraq, demək istəmirdim – bir neçə dəfə telefon edib, dünən gecə də telefon edib Mitteranla danışmağı haqqında, Yeltsinə telefon etdiyi haqqında, sonra Kolla danışacağı haqqında məlumat veribsə, demək, bu onu göstərir ki, Türkiyə bu işə biganə deyil və bizim bu ağır vəziyyətimizdə imkanları dairəsində bizə kömək etmək istəyir. Güman edirəm ki, bu məsələni uzatmağa ehtiyac yoxdur, fikir mübadiləsi aydındır. Biz burada bu məsələni müzakirə edib bir qərar qəbul etmək fikrində deyilik. Ona görə də biz əsas məsələ barəsində qərar qəbul etdik. Burada ayrı-ayrı Məclis üzvlərinin fikirləri müəyyən olundu. Biz

Ali Sovet rəhbərliyində toplaşaraq səlahiyyətli şəxslərlə bu barədə məsləhətləşib öz qəti fikrimizi bildirərik. Güman edirəm ki, bununla da bu məsələni bitirmək lazımdır. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yoxdur.

Gündəliyin ikinci məsələsinə keçirik. "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə Dövlət quruculuğu və hüquq siyasəti komissiyası. Bu barədə məlumatı kim verəcək? Buyurun, Tofiq bəy.

**Tofiq Qasımov, *Azərbaycan Respublikası Ali Sovetinin Dövlət quruculuğu və hüquq siyasəti komissiyasının sədri.*** "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununa bəzi dəyişikliklər edilməsi təklif olunub. Komissiya bunu Məclisin müzakirəsinə çıxarır. Burada, əsasən, iki maddə – 22-ci və 23-cü maddələrin redaksiyası dəyişdirilib. Bu redaksiyanın dəyişilməsi nə ilə bağlıdır? 22-ci maddədə fövqəladə vəziyyət rejiminin pozulması ilə əlaqədar olaraq baş vermiş hüquq pozuntularında müəyyən cərimə tətbiq olunmuşdu. Qanunda o cərimənin miqdarı 50 manatdan, tutaq ki, 500 manata qədər göstərilmişdi. Amma bildiyiniz kimi, bu cərimə indiki dövrə uyğun gəlmir. İnzibati hüquqpozmalarında məsuliyyətin dərəcəsi müəyyən olunduğuna görə, sadəcə olaraq, bunun redaksiyası dəyişdirilib, konkret cərimənin miqdarı göstərilmək əvəzinə, İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikasının Məcəlləsində müəyyən edilən "inzibati tənbehə səbəb olur" ifadəsi ilə əvəz edilib, yəni burada konkret rəqəmin dəyişməsi və inzibati hüquqpozmaları ilə "Fövqəladə vəziyyət haqqında" Qanunla uyğunluğu baxımından bunu təklif eləmişik.

İkinci maddədə də, demək olar ki, bu məsələ həmin qaydada – İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikası Məcəlləsində müəyyən edilən qaydada "inzibati tənbehə səbəb olur" kimi əlavə edilib ki, konkret cərimənin miqdarı göstərilməsin. Çünki bu, inzibati hüquqpozmalarında var. Bundan əlavə, qanuna 23.1-ci maddə əlavə olunub. Bu da, əslində, əvvəlki 23-cü maddənin sonuncu abzasının ayrıca bir maddə kimi faktiki olaraq verilməsi deməkdir. Çünki inzibati hüquqpozmalar vaxtı burada əlavə olaraq göstərilib ki, xalq hakimi, yaxud da Daxili İşlər İdarəsinin hansısa rəisi bu işə baxana qədər o şəxslər 3 gündən çox olmamaq müddətində həbsdə saxlanıla bilər, yəni inzibati

hüquqpozmalarına görə, fövqəladə vəziyyət rejimində 17-ci maddənin müddəalarını pozduqlarına görə müəyyən müddət tutulub saxlanıla bilərlər. Faktiki olaraq burada elə ciddi bir dəyişiklik təklif olunmur. Dəyişiklik, əsasən, “Fövqəladə vəziyyət haqqında” Qanunla İnzibati hüquqpozmalar haqqında Məcəllənin uyğunluğunu bərpa etməkdir. Bir də 7 gün müddətində baxılmaq və 3 gün müddətinə qədər tutulub saxlanmaq məsələsi bura əlavə edilib.

**Sədrlik edən.** Çıxışınızı bitirdiniz?

**Tofiq Qasımov.** Bəli.

**Sədrlik edən.** Bu barədə kimin sözü var? Tapdıq Kamalov buyursun.

**Tapdıq Kamalov.** Tofiq müəllim, 23-cü maddədə “fövqəladə vəziyyətin elan edildiyi yerlərdə fitnəkar şayiələr yayılmasına” yazılıb. Yaxşı olardı ki, ora dövlət əleyhinə çağırışları da əlavə edək. Çünki mitinqdə hər cür çağırışlar ola bilər, o cümlədən də dövlət əleyhinə çağırışlar. Yaxşı olardı ki, onu ora əlavə edək. Sağ olun.

**Sədrlik edən.** Kamran Rəhimov buyursun.

**Kamran Rəhimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bu layihəyə baxdım, dünən də fikrimi bildirdim. Mənə elə gəlir ki, burada biz Ağdam, sonra Şuşa, Kəlbəcər məsələsini müzakirə edəndə fitnəkar şayiələrin mənfi rolunu, nə qədər ağır rol oynadığını dəfələrlə təkrar eləmişik. Ancaq biz “Fövqəladə vəziyyət haqqında” Qanuna dəyişiklik edəndə bunu bir qədər gücləndirməliyik. Əksinə, biz burada onları daha da zəiflədirik. Çünki hər şey şayiədən, fitnəkarlıqdan, hüquq qaydalarının pozulmasından, milli ədavəti qızışdırmaqdan başlayır. Bunlar hamısı gəlib ümumi nəticədə bizim məğlubiyyətimizin əsas səbəblərindən birini təşkil edir.

Mənə elə gəlir ki, biz bu maddələri yüngülləşdirməkdən çox, onları daha da kəskinləşdirməliyik, çünki bu söhbətlər hamısı onu göstərir.

Dünən çıxış edənlər dedilər ki, biz burada cəzasızlıq şəraiti yaradırıq. Bunun nəticəsində də dalbadal torpaqları veririk. Məsələn, əgər vaxtilə Şuşada, Kəlbəcərdə qoyulan minaların partladılmasının səbəbləri araşdırılsaydı, günahkarlar kimdir, aşkara çıxarılsaydı, onlar haqqında cəza tədbirləri görülsəydi, bu şayiələri kim yayıb, kim edib, tədbir görülsəydi, indi biz Ağdamın getməsinin şahidi olmazdıq. Mənə elə gəlir ki, bu maddələr daha da gücləndirilməlidir.

Hətta indi belə vəziyyət yaranır ki, fövqəladə vəziyyətin müddətinin uzadılması məsələsi qoyulmalıdır. Çünki vəziyyət gərgindir, istər

Bakıda, istər rayonlarda, istərsə də başqa yerlərdə qaçqınlarla əlaqədar olaraq fövqəladə vəziyyətin müddətinin uzadılması məsələsinə baxılmalıdır. Bununla bağlı "Fövqəladə vəziyyət haqqında" Qanunun daha da kəskinləşdirilməsindən söhbət getməlidir. Mən ona görə bu qanun layihəsinin bu cür qəbul olunmasına tərəfdar deyiləm. Mənə elə gəlir ki, biz qanun layihəsinə tamamilə başqa səpkidə baxmalıyıq. Çox sağ olun.

**Sədrlik edən.** Hacıbaba Əzimov, buyurun.

**Hacıbaba Əzimov.** Hörmətli sədr, hörmətli xalq deputatları. Mən hesab edirəm ki, bu qanunda dəyişikliklər bütövlükdə məqbuldur, qəbul etmək olar. Ümumiyyətlə, bu dəyişikliklərin məzmunu və mənası başa düşülür. Lakin mən deputat Kamran Rəhimovun dediyi sözlərlə müəyyən mənada razıyam. İstəyirəm, bu barədə öz fikrimi nəzərinizə çatdırım. Birincisi, burada yazılan "fitnəkar şayiələrin yayılması" fikrinə. Biz bilirik ki, həqiqətən də, fitnəkar şayiələr bizim xalqın başına çox faciələr, çox fəlakətlər gətirib. Belə fitnəkar şayiələrin inzibati qaydada tənbeh edilməsi ilə nəticələnməsi, əlbəttə, bu, cəza mənasında yüngül cəzadır. Mən xatırlatmaq istəyirəm ki, Böyük Vətən müharibəsi illərində fitnəkar şayiələr yayanlar 5 ilə qədər, bəlkə də, səhv etmirəmsə, 7 ilə qədər həbs edilirdilər.

Azərbaycan şəraitində döyüş bölgələrində fitnəkar şayiələr yayan döyüşçülər, döyüş intizamını, ümumi əməliyyatları pozan adamlar haqqında inzibati qaydada tənbeh tətbiq edilir. Bu, son dərəcədə azdır. Mənə elə gəlir ki, Cinayət Məcəlləsində bu barədə çox ciddi cəza ölçüləri müəyyən olunmalıdır.

Bundan başqa, bilirsiniz ki, indi həyatımız o qədər mürəkkəbdir ki, düşmən təkcə topla, tüfənglə, silahla üzərimizə hücum etmir, torpaqlarımızı zəbt etmir. O həm də etnik, milli zəmində Azərbaycanda qarşıdurma yaratmaq, Azərbaycan xalqının milli birliyini pozmaq, respublikada milli ədavət salmaq yolu ilə də Azərbaycanı parçalamaq, Azərbaycan xalqının qüvvələrini zəiflətməyə cəhd edir. Belə olan surətdə 23-cü maddədə bir fikir var: "hüquq qaydalarının pozulmasına səbəb olan" və ya "milli ədavəti qızışdıran". Əvvəla, hüquq qaydalarının pozulmasına səbəb olan fikir ilə milli ədavət tamamilə düzgün gəlmir və ya yerinə düşmür. İkincisi, milli ədavəti qızışdıranlar, yenə də deyirəm, çox ciddi cəzaya layiq görülməlidirlər. Məsələn, hüquqşünaslar izah edə bilərlər ki, cinayət məsuliyyətinə səbəb tapılmayanda, ola bilsin ki, inzibati tənbeh olsun. Amma ümumiyyətlə, belə hallar üçün Cinayət Məcəlləsində

daha ciddi cəzalar müəyyən olunmalıdır. Mənə elə gəlir ki, bizim növbəti iclasda bu məsələyə ayrıca baxılmalıdır, Cinayət Məcəlləsində buna uyğun düzəlişlər, dəyişikliklər edilməlidir.

**Sədrlik edən.** Sultan Məmmədov, buyurun.

**Sultan Məmmədov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Mən də təqdim olunmuş bu qanun layihəsinin qəbul edilməsinə tərəfdaram. Eyni zamanda respublikada yaranmış çox ağır ictimai-siyasi vəziyyəti nəzərə alaraq təklif edirəm ki, fövqəladə vəziyyətin müddətinin uzadılması məsələsinə baxılsın. Biz fövqəladə vəziyyətin müddətini bir dəfə uzatmışıq. Mən təklif edirəm, bunu ikinci dəfə uzatmaq məsələsi də bu gün müzakirə olunsun. Ona görə ki respublikada hərbi, iqtisadi və siyasi vəziyyət çox ağırdır, qanunsuz silahlı dəstələr fəaliyyət göstərir, respublikanın ayrı-ayrı rayonlarında separatçılıq meyilləri gündən-günə güclənir. Bütün bunların qarşısını almaq, bu qüvvələri hərb üçün səfərbər etmək, intizamın mütəşəkkilliyini təmin etmək məqsədilə xahiş edirəm, dediyim təklif səsə qoyulsun.

**Sədrlik edən.** Cümşüd Nuriyev, buyurun.

**Cümşüd Nuriyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. "Fövqəladə vəziyyət haqqında" Qanuna əlavələr və dəyişikliklər barədə müxtəlif fikirlər söylənildi. Fövqəladə vəziyyət müddəti və yaxud digər vaxtlarda fitnəkar şayiələr yayanlar, milli ədavəti qızışdıranlar üçün ayrıca Cinayət Məcəlləsi var. Bu onunla tənzimlənir. Fövqəladə vəziyyət, ola bilər, iki ay olsun, ondan sonra olmasın, onu bura salmaq, ümumiyyətlə, düz deyil. O, digər qanunvericilik aktları ilə tənzimlənir.

Fövqəladə vəziyyətin vaxtının uzadılması üçün gərək biz bu qanunda mütləq dəyişiklik edək. Çünki bir dəfə fövqəladə vəziyyətin vaxtı uzadılıb. Bu qanunun 8-ci maddəsinə görə, fövqəladə vəziyyətin vaxtını Milli Məclis cəmi bir dəfə uzada bilər, onu da uzadıb. Ona görə biz həmin qanuna dəyişiklik edək ki, əgər fövqəladə vəziyyətin vaxtını uzatmaq məsələsi indi qaldırılsa, mən də əleyhinə deyiləm, amma onu qanuniləşdirmək lazımdır. Ondan ötrü biz 8-ci maddəyə düzəliş eləməliyik ki, yəni 3-cü, 4-cü dəfə də fövqəladə vəziyyətin vaxtının uzadılması Milli Məclis tərəfindən qanuni qəbul olunsun. Əks təqdirdə bu gün o məsələ qoyulub, amma vaxt uzadıla bilməz, çünki həmin qanuna indi dəyişiklik gedir, 8-ci maddə dəyişdirilməlidir ki, bu akt həyata keçirilə bilsin, yoxsa bunun qanuni qüvvəsi olmur. Sağ olun.

**Sədrlik edən.** Tofiq Qasımov, buyurun.

**Tofiq Qasımov.** Mən çox üzr istəyirəm, burada iki məsələ bir-biri ilə qarışdırıldı. Əgər maddələr axıracan diqqətlə oxunsaydı, burada yazılmışdır ki, əgər bu hüquq pozuntuları Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyində müvafiq surətdə cinayət məsuliyyətinə səbəb olmursa, yəni ancaq inzibati məsuliyyətə səbəb olursa, onda bu dəyişikliklər, yəni qanunun bu hissəsi onda tətbiq olunur. Yuxarıda deyilən hərəkətlər cinayət tərkiblidirsə, ona Cinayət Məcəlləsinin uyğun maddələrinə görə baxırlar. Burada isə söhbət cinayət xarakteri daşımayan bu tip hərəkətlər üçün inzibati hüquq pozuntularından gedir. Ona görə də bunu gücləndirmək, nə bilim, ağır cəza vermək söhbəti tamamilə lazımsızdır. Çünki bunlar üçün Cinayət Məcəlləsi var və uyğun maddələrdə də illərlə həmin cəzalar müəyyən olunub. Burada yeganə dəyişiklik, mən bayaq dedim, rəqəmləri dəyişdirib inzibati hüquq pozuntuları haqqında artıq qüvvədə olan qanuna istinad eləmişik. Bir də bir abzas ayırıb ayrıca bir maddə şəklində təklif edilibdir. Çünki o, sanksiya hissəsi olduğuna görə ayrıca bir şey tələb edir. Bu baxımdan mənə belə gəlir ki, burada deyilən iradların heç birinin mənası yoxdur.

**Sədrlik edən.** Şaitdin Əliyev, buyurun.

**Şaitdin Əliyev.** Hörmətli sədr, hörmətli xalq deputatları. Bu gün Milli Məclisin müzakirəsinə verilmiş "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununa əlavələr və dəyişikliklər edilməsi haqqında göstərilən maddələr, elə bilirəm ki, çox uzun müzakirəyə səbəb olmamalıdır. Bu dəyişiklikləri biz qəbul etməliyik. Çünki həmin bu qanuna nə səbəbə dəyişikliklər edilir, bu haqda bunu təqdim edən komissiyanın izahatında aydın göstərilmişdir və biz bunu qəbul etməliyik.

Burada bəzi bizim xalq deputatları məsələ qaldırdılar ki, cinayət edənlərə görə cəza tədbirləri gücləndirilməlidir. Əgər biz bundan sonrakı məsələyə – 3-cü məsələyə baxsaq, burada hüquqpozmalar haqqında Azərbaycan Respublikası Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqında, məsələdə görəcəyik ki, həmin bu deyilənlər orada öz əksini tapmışdır. Ona görə də elə bilirəm ki, biz bu qərarı, verilmiş dəyişiklikləri qəbul etməliyik.

Bununla əlaqədar olaraq bir məsələni də qeyd etmək istəyirəm. Burada Milli Məclisin üzvlərinin bəziləri ölkədə fövqəladə vəziyyətin vaxtının artırılması haqqında məsələ qaldırdılar. Doğrudan da, bu gün respublikadakı qeyri-sabitliyi, sərhədlərimizdə Ermənistanın bizə qarşı

təcavüzünün güclənməsini nəzərə alsaq, həqiqətən, bugünkü vəziyyətlə əlaqədar olaraq biz fövqəladə vəziyyətin vaxtının uzadılması məsələsi haqqında düşünməliyik. Lakin burada doğru olaraq deputat Cümşüd Nuriyev dedi ki, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində göstərilir ki, fövqəladə vəziyyət 60 gün müddətinə qəbul edilir. Mən elə bilirəm ki, həqiqətən, biz bu məsələyə – qanunda 8-ci maddədə dəyişikliyə baxmalıyıq ki, respublikada olan indiki vəziyyəti nəzərə alaraq Milli Məclisə icazə verilsin ki, bu müddətin daha uzaq müddətə, yəni 3 dəfə, 4 dəfə artırılması üçün onun səlahiyyəti olsun. Ona görə mən də bu təklifi müdafiə edirəm və təklif edirəm ki, Azərbaycan Respublikasının "Fövqəladə vəziyyət haqqında" Qanununun 8-ci maddəsində dəyişiklik məsələsi bu əlavələrlə birlikdə bu gün burada müzakirə edilib qərar çıxarılsın.

**Sədrlik edən.** Qüdrət Quliyev, buyurun.

**Qüdrət Quliyev.** Hörmətli Heydər bəy, hörmətli millət vəkilləri. Mən də 8-ci maddə ilə əlaqədar öz fikrimi bildirmək istəyirəm. Həqiqətən də, biz əgər bütövlükdə bu gün bu dəyişiklikləri qəbul edəcəyiksə, onda mütləq "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsini dəyişməliyik. Aydındır ki, respublikada hərbi və ictimai-siyasi vəziyyət elə bir həddə çatıb ki, biz istənilən anda fövqəladə vəziyyətin vaxtını bu və ya digər regionda artırmalı olacağıq. Ona görə də gələcəkdə həmin maddənin bu işi görməyimizə mane olmaması üçün mən də təklif edirəm ki, 8-ci maddədə müvafiq dəyişiklik edilsin və Milli Məclisin gələcəkdə lazım olarsa, ayrı-ayrı regionlarda fövqəladə vəziyyəti daha uzun müddətə artırmaq səlahiyyəti əldə olunsun.

**Sədrlik edən.** Daxili işlər naziri Vaqif Novruzov bu barədə nə deyə bilər?

**Vaqif Novruzov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Respublikada gedən proseslərdən Məclis üzvlərinin hamısının xəbəri var. Müharibədə olan uğursuzluqlarımız göz qabağındadır, respublikada ictimai-siyasi vəziyyət, qaçqınların Bakıya axını, paylanmış, əldə olan külli miqdarda silahlar, hökm sürən özbaşınalıq, qanunsuzluq əməliyyat şəraitinin həddindən artıq kəskinləşməsinə gətirib çıxarır. Respublikada yaranmış siyasi qarşıdurma cəhdləri, qanun keşiyində duran orqanlara və bütün dövlət strukturlarına olan təzyiq vəziyyəti gərginləşdirir və hüquqazidd hərəkətlərin miqyasını daha da genişləndirir. Belə bir şəraitdə

fövqəladə vəziyyətin tətbiq edilməsi əməliyyat şəraitinin həm Bakıda, həm də respublikada bir qədər gərginliyi azaltmasına imkan verir.

Ümumiyyətlə, Bakıda və respublikada fövqəladə vəziyyət elan ediləndən sonra cinayətlərin sayı xeyli azalmışdır. Buna mən misal göstərə bilərəm, 6 ay ərzində respublikada ümumi cinayətlərin sayı keçən il 10.000 olubsa, bu il 8900 cinayət törədilib. Cinayət-axtarış xətti üzrə keçən il 8076, bu il 6500, ağır cinayətlər üzrə keçən il 2500, bu il 1500, ölüm halları keçən il 301, bu il 225. Başqa cinayətlər üzrə də hamısında azalma nəzərə çarpır, bu, qeydiyyatdan keçib. Bunların hamısı ancaq orqanların aktiv işi sayəsində olmayıb. Bu göstəricilərə həm də Bakıda və digər regionlarda fövqəladə vəziyyətin elan edilməsi təsir göstərib. Son 20 gün ərzində qanunsuz paylanan silahların yığılması məsələsində də fövqəladə vəziyyət öz müsbət nəticələrini göstərməkdədir. Cəmi 20 gün ərzində respublika daxili işlər orqanları tərəfindən 423 silah, 30 mindən artıq güllə, min partlayıcı aşkar edilib götürülmüşdür. Həmin faktlar üzrə cinayət işləri aparılır.

Göründüyü kimi, fövqəladə vəziyyət respublikada və Bakı şəhərində əməliyyat şəraitinin stabilliyinə şərait yaradır. Bütün bunları nəzərə alaraq bu ağır günlərdə qanunçuluğun və asayişin mühafizəsini təmin etmək üçün fövqəladə vəziyyətin müddətinin daha iki ay uzadılması məqsədəuyğundur. Mən belə hesab edirəm. Bunun üçün "Fövqəladə vəziyyət haqqında" Qanunun 8-ci maddəsində dəyişiklik edilməsini sizdən xahiş edirəm. Bunu indiki şərait tələb edir. Bunu başqa cür qələmə vermək lazım deyil, bu heç kimin, heç bir siyasi qurumun, heç bir vətəndaşın özünün...

**Sədrlik edən.** Aydındır, layihə müzakirə olundu. Müzakirələrdən görünür ki, bunu, əsasən, qəbul etmək olar. Bir neçə təklif verildi, onların bəziləri dəyərli təkliflərdir. Ona görə hesab edirəm ki, bu layihəni qəbul edə bilərik. Komissiyaya tapşırarıq ki, bu təkliflərlə əlaqədar bəzi dəyişikliklər etsin. Etiraz yoxdur? Onda təklif edirəm, məsələyə münasibət bildirilsin.

*(Səsvermə)*

**Sədrlik edən.** Qəbul edildi. Komissiya müəyyən əlavə və dəyişiklikləri eləyər. Bu məsələnin müzakirəsi vaxtı Məclis üzvləri fövqəladə vəziyyətin vaxtının uzadılması və bununla əlaqədar olaraq qanunun 8-ci maddəsinə dəyişikliklər edilməsi haqqında təklif irəli sürdülər. Dünən burada birinci məsələ müzakirə olunarkən Məclis üzvləri Şadman Hüseynov, sonra başqaları da təklif etdilər ki, yaranmış vəziyyətlə əlaqədar

Azərbaycanda hərbi vəziyyət elan olunsun, yəni son dərəcəli tədbirlərə keçək. Doğrudan da, vəziyyət ciddi tədbirlərin qəbul olunmasını tələb edir. Ona görə də dünən biz belə qərara gəldik. Yəqin ki, müvafiq komissiyalarımız bu təklifə də baxıb öz fikirlərini gələcək iclaslarımıza təqdim edəcəklər. Ancaq biz aprel ayının 2-dən fövqəladə vəziyyət şəraitindəyik. Fövqəladə vəziyyət də Azərbaycan Prezidentinin təqdimatı və Milli Məclisin qərarı ilə qəbul olunub, tətbiq edilib. Kəlbəcər rayonu əldən getdiyinə görə cəbhədə daha da nizam-intizam yaratmaq üçün, xalqı Azərbaycan torpaqlarının müdafiəsinə səfərbər etmək üçün.

İndi vəziyyət daha da gərginləşib, Ağdam şəhəri də işğal olunub və Məclis üzvlərinin bir çoxu – burada çıxış edənlər fövqəladə vəziyyətin vaxtının uzadılması üçün qanunun 8-ci maddəsində dəyişikliklər edilməsi haqqında təklif etdilər. Güman edirəm ki, bu təkliflər məqsədəuyğundur.

Dünən səsləndi ki, biz hərbi vəziyyət elan etməliyik. Hərbi vəziyyət son tədbirdir. Bizim komissiyalar bu barədə işləyib öz təkliflərini verməlidirlər. Ancaq fövqəladə vəziyyət artıq mövcuddur, bunun vaxtının uzadılması haqqında təkliflər irəli sürülür. Yəqin ki, biz ola bilər, Dövlət quruculuğu və hüquq siyasəti komissiyasına tapşıraq ki, elə bu gün tənəffüs vaxtı bu barədə kiçik layihə hazırlasın və bu məsələni, etiraz etmirsinizsə, indi gündəliyə salaq və bu gün bu məsələni müzakirə edək. Etiraz yoxdur? "Fövqəladə vəziyyət haqqında" Qanuna dəyişiklikdir. Burada fövqəladə vəziyyət haqqında 8-ci maddəyə dəyişiklik və fövqəladə vəziyyətin müddətinin uzadılması haqqında, iki məsələdir. Həm qanuna dəyişiklik, həm də vaxtın uzadılması. Onda iki məsələnin gündəliyə salınması təklifi irəli sürülür. Xahiş edirəm, münasibət bildirəsiniz.

*(Səsvermə)*

**Sədrlik edən.** Qəbul olunur. Mən qeyd etdim ki, burada Məclis üzvlərinin əksəriyyəti təklif verdilər, amma yazılı surətdə təklifi Şaitdin Əliyev göndərib.

Üçüncü məsələ İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikası Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi haqqındadır. Bu da Dövlət quruculuğu və hüquq siyasəti komissiyası tərəfindən təqdim olunub. Tofiq bəy, buyurun.

**Tofiq Qasımov.** Bayaq mən dediyim kimi, "Fövqəladə vəziyyət haqqında" Qanunda və İnzibati hüquqpozmalar haqqında Məcəllədə

uyğunluq yaratmaq məqsədilə dəyişikliklər edilmişdi. İndi isə bir növ, əksinə dəyişikliklər edilir, yəni inzibati hüquqpozmalarında fövqəladə vəziyyət rejiminə xas olan əlavələr edilməsi təklif olunur. Çünki biz fövqəladə vəziyyət rejimində olduğumuza görə bu əlavələr təklif edilir. Bunlar nədən ibarətdir? 32-ci maddədə inzibati həbs məsələsi vardı. Yazılmışdı ki, yalnız müstəsna hallarda ola bilər və 15 gün müddətinə təsdiq edilə bilər. Amma o, fövqəladə vəziyyətə aid deyildi, adi vəziyyətə aid idi. Ora əlavə edilir ki, "tətbiq edilir" sözlərindən sonra "fövqəladə vəziyyət rejimi şəraitində törədilən bəzi inzibati hüquqpozmalara görə inzibati həbsin müddəti 30 gündən artıq müəyyən edilə bilməz". Yəni fövqəladə vəziyyət rejiminin pozulmasına görə 30 günə qədər inzibati həbs müəyyən olunur.

İkinci, 175-4. Fövqəladə vəziyyət rejiminin tələblərinin pozulması maddəsində bəzi dəyişikliklər edilib. Bu dəyişikliklər onunla əlaqədardır ki, əvvəlki maddədə hüquq pozuntuları adbaad çəkilmişdi. Burada isə ancaq "Fövqəladə vəziyyət haqqında" Qanunun 17-ci maddəsinə istinad edilməklə bu yazılır, yəni redaktə, sadəcə olaraq, dəyişilib. Həmin tədbirlər 17-ci maddədə bütünlükdə olduğuna görə, burada təkrar olunmasın deyə çıxarılıb.

Bir də 175-5-ci maddənin ancaq sanksiya hissəsində cərimələr orada manatlarla göstərilmişdi, burada isə minimal əmək haqqının misilləri ilə göstərilmişdir. Bütün dəyişikliklərin əsas hissələri budur.

251-ci maddənin üçüncü hissəsində xırda xuliqanlıq törətmiş, yığıncaqları, mitinqləri və 175-4-cü və 175-5-ci maddənin müddəalarını pozan adamların işlərinə xalq hakimləri və daxili işlər orqanlarının rəisi və rəis müavini tərəfindən baxılması müddətinə qədər onları tutub saxlamaq olar.

Beləliklə, bayaq dediyim kimi, bu qanun da bütünlüklə İnzibati hüquqpozmalar haqqında Məcəllənin müddəalarını "Fövqəladə vəziyyət haqqında" Qanunun tələblərinə əlavə etmək baxımından verilib ki, fövqəladə vəziyyət rejimində bizim inzibati hüquqpozmalara baxmaq üçün əlimizdə əsas olsun.

**Sədrlik edən.** Şaitdin Əliyev.

**Şaitdin Əliyev.** Tofiq müəllim, 175-5-ci maddədə məni maraqlandıran bir məsələ var. 175-5-ci maddənin sanksiyasında göstərilir ki, vətəndaşlar minimum əmək haqqının məbləğinin 7 misli qədər cərimə edilir və ya onlara 30 günədək müddətə inzibati həbs tətbiq

olunur, yəni 1 mislindən 7 mislinədək və 30 gün həbs cəzası. Burada müddətin arasında fərqə baxın. Ola bilər ki, əmək haqqının 1 mislinə qədər göstərilsin.

**Tofiq Qasımov.** 175-4-dən fərqli olaraq, daha ağır hüquq pozuntuları nəzərdə tutulduğuna görə orada 7 misli göstərilib. 1 mislindən başlamış.

**Şaitdin Əliyev.** Bir məsələni də qeyd etmək istəyirəm. Əgər qanunu pozduğuna görə 1 mislində cərimə edildi, yaxud da 30 gün müddətində... Əgər bu təkrar edilərsə, olmazmı, bu haqda həmin maddəyə əlavə olunsun ki, bu pozuntu təkrar edilərsə...

**Tofiq Qasımov.** Daimi rejim nəzərdə tutulmadığından, müvəqqəti xarakter daşıdığına görə, mənə elə gəlir, burada müntəzəm hüquq pozuntusundan danışmağın mənası yoxdur.

**Şaitdin Əliyev.** Həmin müddət ərzində 3 gündən sonra yenə də bu hadisə təkrar olunsa, onda?

**Sədrlik edən.** Səsə qoyuram, kim bu qanunun qəbul olunmasının tərəfdarıdır, xahiş edirəm, münasibət bildirsin.

***(Səsvermə)***

Qəbul edildi. Bir dəqiqə. Burada təklif var ki, fasilə elan olunsun. Dünən mən, ola bilər ki, bir balaca Məclis üzvlərinə əziyyət verdim, uzunmüddətli iclas keçirdim. Ancaq yəqin ki, siz özünüz də buna haqq qazandırarsınız ki, o məsələni qırmaq mümkün deyildi. Məsələ mürəkkəb məsələ idi. Bu gün, şübhəsiz ki, fasilə etmək lazımdır.

Ancaq fasilədən qabaq bir kiçik məsələni də müzakirə etmək istəyirəm. Dünən, səhv etmirəmsə, Məclis üzvü Cümşüd Nuriyev məsələ qaldırdı, iyul ayının 15-də və 16-da keçirilən Məclis yığıncaqlarında da məsələ qalxmışdı ki, Azərbaycan Prezidentinə etimadsızlıq göstərilsin. Biz o vaxt razılaşdıq, mən də təklif etdim, xahiş etdim və Məclis üzvləri də razı oldular ki, bu məsələdə tələsməyək, müəyyən qədər təmkin göstərək, Əbülfəz Elçibəyin özünə imkan verək, bu barədə düşünsün və ondan sonra bir fikrə gələk. Bizim iclasımız iyul ayının 16-da olmuşdu, indi bu gün iyul ayının 28-dir. Vaxt keçir.

İyun ayının 17-dən 18-nə keçən gecə Əbülfəz Elçibəy – Azərbaycan Prezidenti Bakını tərk edib. İyun ayının 24-də öz səlahiyyətlərini Ali Sovetin sədrinə vermək haqqında fərman imzalayıb. İyul ayının 24-də Milli Məclis Prezident səlahiyyətlərinin Azərbaycan Ali Sovetinin

sədrinə verilməsi haqqında qərar qəbul edib. Artıq bir aydan çox vaxt keçir, ancaq biz müəyyən qədər naməlum vəziyyətdəyik. Bu barədə fikir söyləyən ayrı-ayrı adamlar, xüsusən xarici ölkələrdən olan nümayəndələr beynəlxalq hüquq normalarına uyğun olaraq belə bir fikir irəli sürürlər ki, şübhəsiz ki, etmadsızlıq məsələsi də qoymaq olar. Ancaq Əbülfəz Elçibəy də bu dövrdə fikirləşməliydi, öz mövqeyini müəyyənləşdirməliydi. Ya gərək qayıdıb gəlib öz vəzifəsini icra edəydi, yaxud da özü haqqında bir qərar qəbul edəydi, ancaq bunları etmir. Hüquqi nöqteyi-nəzərdən həm beynəlxalq normalara, həm də bizim daxili hüquq normalarına uyğun olaraq, ümumi fikir belədir ki, belə halda referendum keçirmək lazımdır. Ona görə də biz Əbülfəz Elçibəyə möhlət verdik. O bu barədə susub və heç bir münasibət bildirmir. Əksinə, bir müddətdən sonra fərman verdi ki, öz səlahiyyətlərini geri götürür, ancaq geri götürəndən sonra o səlahiyyətləri necə yerinə yetirib, bizə məlum deyil. Ona görə də, yenə də deyirəm, hüquqi demokratik prinsiplər əsasında daha uyğun ümumxalq referendumu keçirmək olardı. Əgər Məclis üzvlərinin buna etirazı yoxdursa, referendum haqqında qərar qəbul etmək məsələsini gündəliyə salmalıyıq.

Bilirsiniz, referendumsuz da həll etmək olar. Keçən dəfə bunun yolları deyildi. Burada hüquqşünaslar bizim Konstitusiyadan maddələr misal gətirdilər, 121-6, 121-7. O da ola bilər və Əbülfəz Elçibəyin özü də artıq Prezident fəaliyyətini yerinə yetirə bilmirsə, özü də istefa verə bilərdi. Ancaq biz istədik ki, bu barədə təzyiq olmasın, münasibət sivilizasiyalı səviyyədə olsun. Ona görə də əgər Əbülfəz Elçibəy özü respublikanı atıb və bu işlərə tamam biganədirsə, nə olur-olsun gedib kənddə yaşayırsa, burada, şübhəsiz ki, etimadsızlıq göstərmək, o da ola bilər.

Amma Prezident xalq tərəfindən seçildiyinə görə xalq da öz fikrini deyə bilər. Referendum keçirmək nə çətin şeydir ki? Mən bu məsələni gündəliyə salmaq haqqında təklif verirəm. Etiraz yoxdur ki? Xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi, gündəliyə salındı. Saat 5-ə qədər fasilə elan olunur. Müvafiq komissiyalardan xahiş edirəm, referendum haqqında qərar layihəsini hazırlayıb saat 5-ə qədər təqdim etsinlər.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Tənəffüs təyin olunmuş vaxtdan çox çəkdi. Bu bizim tənəffüsə qədər müəyyən etdiyimiz komissiyaların işi ilə əlaqədardır,

çünki o komissiyaların rəyini gözləyirdik, onlar da bu işlə çox məşğul oldular. Məclis üzvləri bunu bilməlidirlər.

Xahiş edirəm, qeydiyyatdan keçək.

***(Qeydiyyat)***

Yetərsay var. 36 nəfər iştirak edir.

Biz gündəliyə iki məsələ əlavə etdik, fövqəladə vəziyyət haqqında, bir də referendum haqqında. Yəqin ki, bunlara gündəliyin əvvəlki məsələlərini müzakirə eləyəndən sonra baxacağıq və komissiyanın üzvləri də əgər nəsə çatdırmadılarsa, bu məsələlərlə məşğul ola bilərlər.

Ancaq dünən biz gündəliyə baxanda bir təklif də olmuşdu, mən onu unutdum. Bu da pul nişanlarının fəaliyyətinin dayandırılması ilə əlaqədar olaraq Azərbaycanda qəbul etdiyimiz qərar haqqında idi. O qərarı Nazirlər Kabineti qəbul edib. Mən dünən məlumat verdim ki, o qərar qəbul olunmamışdan da biz toplaşdıq və ümumi fikrə gəldik. Ancaq görünür, o qərar da Məclisə təqdim olunsa, Məclis tərəfindən fikir bildirilsə, daha yaxşı olar. Ona görə əgər etiraz etmirsinizsə, bu məsələni də biz gündəliyə salaq. Kim bu barədə məlumat verəcək? Vahid Əhmədov, Rəsul Quliyev bu işlə məşğul olmuşdur. Xahiş edirəm, onlar da hazırlaşsınlar, bu gün bu məsələləri bitirək. Güman edirəm ki, Məclis üzvləri müəyyən qədər güc toplayacaqlar ki, gündəlikdə olan məsələləri qurtaraq, daha sabaha qalmasın.

Üçüncü məsələ inzibati hüquqpozmalar haqqında idi, qəbul elədik.

Dördüncü məsələ haqqında Tofiq Əzizov xahiş etdi ki, gələn dəfəyə keçirək. Beşinci məsələ Birləşmiş Millətlər Təşkilatının yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə dair minimal standart qaydalarına Azərbaycan Respublikasının qoşulması barədədir. Dövlət quruculuğu komissiyası. Kim bu barədə məlumat verəcək? Tofiq bəy, buyurun.

**Tofiq Qasımov.** Birləşmiş Millətlər Təşkilatı 1980-ci ildə cinayətkarlığın qarşısının alınması və hüququ pozmuş şəxslərlə rəftar üzrə Karakas şəhərində keçirilən 6-cı konqresində yetkinlik yaşına çatmayan şəxslərin ədalət mühakiməsinin həyata keçirilməsi zamanı nəzərə alınmalı olan əsas prinsipləri bəyan etdi və bunlar da yetkinlik yaşına çatmamış, hüququ pozmuş şəxslərin əsas insan hüquqlarını qorumaq məqsədi daşıyırdı. Sonradan bu qaydalar Birləşmiş Millətlər Təşkilatının Sosial Müdafiə Elmi-Tədqiqat İnstitutu, Birləşmiş Millətlər Təşkilatının regional institutları və Katibliyi tərəfindən işlənib, ümumi

qaydalar layihəsi şəklində hazırlandı və Milanda keçirilən 7-ci konqresdə bəyənildi. Bu, 1985-ci ilin avqust-sentyabr aylarında olmuşdu. 1985-ci il sentyabrın 5-də yetkinlik yaşına çatmamışlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə dair minimal standart qaydalar müəyyən edildi. Bunun adı Pekin qaydaları idi, çünki bu iclas Pekində olmuşdu. Ondan sonra 1985-ci il noyabrın 29-da Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən bu qaydalar 40/33 nömrəli qətnamənin əlavəsi kimi qəbul edildi. Beləliklə, bu qaydalar yetkinlik yaşına çatmamış şəxslərin ədalət mühakiməsini aparan zaman onların hüquqlarını qorumaq üçün minimal qaydaları müəyyən etmiş bir sənəd şəklinə düşdü. Xüsusi qeyd olunur ki, bu sənəd şərhləri ilə birlikdə vahid sənəd kimi qəbul edilməlidir. Həmin sənədi Milli Məclisin Xarici əlaqələr komissiyası Milli Məclisə, Milli Məclisin rəhbərliyi isə bizim komissiyaya tövsiyə etmişdir. Biz də bu sənədin Milli Məclis tərəfindən qəbul edilməsini tövsiyə edirik və buna uyğun bir qərar layihəsi də var. İcazə versəniz, onu oxuyaram.

***Birləşmiş Millətlər Təşkilatının yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə dair minimal standart qaydalarına Azərbaycan Respublikasının qoşulması barədə***

***Azərbaycan Respublikası Milli Məclisinin Qərarı***

*Azərbaycan Respublikasının Milli Məclisi* ***qərara alır****:*

*1. Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının yetkinlik yaşına çatmayanlar barəsində ədalət mühakiməsinin həyata keçirilməsinə aid minimal standart qaydalarına qoşulmasını bəyan edir.*

*2. Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, bu sənədə qoşulmaqla bağlı olan məsələlərin həllini təmin etsinlər.*

*3. Azərbaycan Respublikası Ali Sovetinin sədrinə tapşırılsın ki, bu qərar haqqında Birləşmiş Millətlər Təşkilatına məlumat versin.*

**Sədrlik edən.** Sualı olan, yaxud bu barədə fikir söyləmək istəyən varmı? Yoxdur. Onda qərar layihəsi səsə qoyulur. Xahiş edirəm, münasibət bildirəsiniz.

***(Səsvermə)***

Qəbul olundu. Növbəti məsələ Azərbaycan Respublikasının Ali Sovetinə Azərbaycan Respublikası Ali Məhkəməsi üzvlərinin müraciəti

haqqındadır. Bu müraciət haradadır? Bu barədə kim məlumat verəcək? Ali Məhkəmənin 29 nəfər üzvü müraciət edib, buyurun.

**Afiyəddin Cəlilov.** Qeyd olunduğu kimi, Azərbaycan Respublikası Ali Məhkəməsinin 29 nəfər üzvü Azərbaycan Respublikası Ali Sovetinə müraciət edib. Müraciətin mətnini sizə çatdırıram.

*Biz, Azərbaycan Respublikası Ali Məhkəməsinin üzvləri aşağıdakıları bildirməyi zəruri hesab edirik. Respublikada ədalət mühakiməsinin həyata keçirilməsinə başçılıq edən Ali Məhkəmənin sədri Tahir Kərimli mövcud qanunlara zidd olaraq siyasətdən kənar müstəqil məhkəmə fəaliyyətini həyata keçirmək məqsədilə siyasi fəaliyyətə qoşulub. Bu hərəkətləri ilə kollektivdə yersiz gərginlik, əsəbilik şəraiti yaratmaqla belə bir inam aşılamağa çalışıb ki, guya Ali Məhkəmə bütövlükdə ancaq onun mənsub olduğu hərəkatı dəstəkləyir və yalnız onun mövqeyini müdafiə edir.*

*Bunu bəyan etməyi özümüzə borc bilirik ki, Ali Məhkəmənin üzvləri heç vaxt siyasətə qoşulmayıb, ədalət mühakiməsinin həyata keçirilməsi prosesində qanunun aliliyini rəhbər tutmuş heç bir partiya və hərəkat üzvlərinə üstünlük verməyib və verməyəcəkdir. Ali Məhkəmə sədrinin Ali Məhkəmə binasında keçirdiyi bugünkü mətbuat konfransında Ali Məhkəmə üzvlərinin iştirak etməkdən imtina etmələri buna əyani sübutdur. Tələb olunan hakimlik stajı və ixtisas kollegiyasının idarə heyəti adından respublikanın Konstitusiyasını və "Məhkəmə quruluşu haqqında" Qanunun tələblərini bir kənara qoyub konkret hərəkatın siyasətini müdafiə edib.*

*Bununla başqa partiyalara qarşı qərəzliyini bildirən şəxsin müstəqil siyasətdən kənar məhkəmə hakimiyyətini həyata keçirməli olan bir təşkilatın başında durmağa mənəvi haqqı yoxdur. Vəzifədən istefa verib ürəyi istəyən qədər siyasətlə məşğul olmasını biz Tahir Kərimlinin öz vicdanının səsinə buraxırıq.*

29 nəfər imza edib. Ehtiyac varsa, familiyalarını...

**Sədrlik edən.** Bəli, familiyalarını deyin.

**Afiyəddin Cəlilov.** Hacıyev – sədrin birinci müavini, Rzayeva – sədrin müavini, Ələsgərov – üzvü, Allahverdiyeva, Abdullayev, Sadıqov, Quliyev, Mərdanov, Məmmədov, Şükürov, Əliməmmədova, Hüseynova, Mustafayev, Zeynalov, Abdullayev, Hidayev, Məmmədova, Rüstəmov, Ələkbərov, Fərhadov, Ağazadə, Tixonova, İsgəndərov, Maqsudov, Ağazadə, Burcayev, Hüseynov, Səfərov, Hüseynova. Cəmi 29 nəfər. Diqqətiniz üçün sağ olun.

**Sədrlik edən.** Bunlar Ali Məhkəmənin üzvləridir?

**Afiyəddin Cəlilov.** Bəli, Ali Məhkəmənin sədrinin birinci müavini, qalanları üzvləridir.

**Sədrlik edən.** Bu barədə Tahir Kərimli nə deyə bilər? Buyursun.

**Tahir Kərimli.** Hörmətli sədr, hörmətli Milli Məclisin üzvləri və qonaqlar. Birbaşa yayım olduğu üçün hörmətli xalq, o cümlədən Ağdam qaçqınları, bağışlayın ki, belə məsul bir vaxtda mənim vəzifə məsələm qoyulub və bu belə bir təəssürat yaradır ki, biz burada millətin çətin vaxtında vəzifə davası eləyirik. Mən öz bacımın balasını Ağdam torpağında qurban vermişəm. Başqa qurbanlarımızın və yaralılarımızın da qanı torpağa hopub. Ona görə də hamınızdan üzr istəyirəm. Amma mən məcburam, bu barədə sizə öz fikrimi bildirim.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivində indiyə kimi kollektivlə mənim aramda heç bir narazılıq olmayıb. Necə olub ki, birdən-birə 29 yox, 26 nəfər şəxs – 3 nəfər qol çəkməyib – Ali Sovetə müraciət edib. Mən istəyərdim ki, bunun səbəblərini sizinlə bir yerdə ayırd edək. Əvvəlcə onu deyim ki, doğrudan da, mənim üçün çox ağırdır. Çox ağırdır ki, kollektivin müəyyən hissəsi öz vəzifəli və məsul şəxsinə qarşı belə hərəkət eləyiblər. Ürəyimdə ağrı keçirirəm və o vəzifədə, doğrudan da, belə vəziyyətdə işləmək olduqca çətindir və bu barədə fikrimi mən sonra sizə çatdıracağam. Amma belə hesab edirəm ki, bunu tələm-tələsik təşkil elədiklərindən Ali Məhkəmənin üzvlərindən çoxu mexaniki qol çəkiblər. Çox yaxşı ki bu gün özlərini bura dəvət etmisiniz. Bunu mən indi aşağıdakı səbəblərə görə izah edəcəyəm.

Birinci, Ali Məhkəmənin üzvləri çox yüksək dərəcəli hüquqşünaslardır. Onlar heç bilməmiş deyillər ki, respublikanın bu gün Ali Soveti yoxdur. Doğrudan da, paradoksdur – Ali Sovetin sədri var, Ali Sovetin aparatı var, amma Ali Sovet yoxdur. Əvvəla, bu müraciət Ali Sovetə ünvanlanıb və belə çıxır ki, doğrudan da, Ali Sovetin sessiyasını çağırıb bunu orada müzakirə üçün təqdim eləyiblər. Əgər bu belə deyildirsə, onlar, heç olmasa, "Ali Sovetin sədri", ya "Milli Məclisə" sözlərini işlədəydilər.

İkincisi, heç cür inanmaq olmur ki, yüksək ixtisaslı Ali Məhkəmənin üzvləri başa düşmürlər, yəni qanunu bilmirlər ki, Azərbaycanda beynəlxalq hüquq normalarında hakimin siyasətlə məşğul olmasını qadağan edən maddə, bənd, norma yoxdur. Bu, çox vacibdir, ona görə də mən bunu deməyi özümə borc bilirəm.

Doğrudan da, cəmiyyətimizdə qarışdırılır ki, hər hansı partiyanın üzvü olmağı, yaxud hər hansı ictimai-siyasi təşkilatın üzvü olmağı

qadağan edən norma eyni zamanda kiminsə siyasətlə məşğul olmasını qadağan eləyir. Bu belə deyil. Əvvəla, onu deyim ki, Ali Məhkəmənin üzvləri yüksək ixtisasa malikdirlər. Azərbaycan Respublikası Ali Məhkəməsinin 16 oktyabr 1992-ci il tarixli 1 nömrəli plenumunun qərarında belə bir müddəa var ki, hakimlər hər hansı partiyanın və ya siyasi təşkilatın üzvü ola bilməzlər və ya "Siyasi partiyalar haqqında" Qanunun 8-ci maddəsinin 3-cü bəndində yazılır ki, Prezident, hakimlər, hərbi qulluqçular, prokurorlar, Ədliyyə Nazirliyinin işçiləri hər hansı bir partiyanın və ictimai-siyasi təşkilatın üzvü ola bilməzlər.

Lakin mən sizdən soruşuram, əgər yazılırsa ki, Prezident heç bir partiyanın üzvü ola bilməz, ictimai-siyasi təşkilatın üzvü ola bilməz, məgər bu o deməkdir ki, o, siyasətlə məşğul ola bilməz? Axı onun vəzifəsi siyasi vəzifədir. O istəsə də, istəməsə də ölkənin daxili və xarici siyasəti ilə məşğul olmalıdır, o cümlədən onun özünün müstəqil siyasi fikri ola bilər. Eləcə də hər bir hakimin. İnsanı əqidəsindən, siyasi düşüncəsindən döndərmək mümkün deyil və hər hansı bir hüquqi norma ilə də bunu qadağan etmək mümkünsüzdür. Doğrudur, deyək ki, hakimlərdən və ya Prezidentdən tələb eləyirlər ki, hər hansı partiyadan çıxsın, bunu qanun tələb eləyir, mümkün deyil ki, o, siyasətlə məşğul olmasın.

"7 gün" qəzetində mən Ali Məhkəmənin sədri seçilərkən bəyan eləmişəm ki, həmin gündən Azərbaycan Xalq Cəbhəsinin üzvlüyünü dayandırıram. Mən Azərbaycan Xalq Hərəkatına və Azərbaycan Xalq Cəbhəsinə mənsub olmağımla fəxr eləyirəm. Orada çoxları, əksəriyyəti, həqiqətən, təmiz adamlar olublar, içimizdə natəmizlər də olub, lakin həmin gündən mən təşkilati formada iştirak etməmişəm, AXC-nin qurultayı da məni məclis üzvlüyündən xaric eləyib. Müraciətin mətnində "qanunu pozaraq siyasətlə məşğul olur" sözlərini yazmaq nə dərəcədə haqlıdır?

Yaxud sizə başqa bir məsələni deyim. Deməli, müraciətdə göstərilir ki, Tahir Kərimli mətbuat konfransı keçirib. Əvvəla, onu deyim ki, mətbuat konfransı 24 iyul 1993-cü il tarixli qərara – dövlət quruculuğuna aid idi. Lakin mən başqaları kimi riyakarlıq eləyib yalnız qanunun adından istifadə edərək, onun siyasətə aid olmadığını etiraf eləyə bilmərəm. Ona görə də etiraf eləmişəm ki, bu, siyasətdir. Nə qədər ki Prezidentin məsələsi qanuni yolla həll olunmayıb istər-istəməz həmin qanunla və siyasi yolla mübarizə aparacağam. Məndən bunu deputat statusu tələb edir.

Başınızı çox ağrıtmaq istəmirəm. Amma onu deyim ki, bütün dünya dövlətlərində Ali Məhkəmə çox yüksək kürsü, insan hüquqlarını qoruyan yüksək mərtəbədir və o Ali Məhkəmə sədrləri mətbuat konfransları keçirirlər. Hətta bu yaxınlarda Rusiya Ali Məhkəməsinin və Türkiyə Ali Məhkəməsinin sədrlərinin mətbuat konfranslarını televiziya ilə verdilər. Burada qəbahətli heç bir şey yoxdur. İnsanlığa toxunan bir odur ki, müraciətdə yazırlar ki, Tahir Kərimlinin lazımi iş stajı və ixtisas kollegiyasının rəyi olmadan Konstitusiya və "Məhkəmə quruluşu haqqında" Qanun pozulub. Mən sizə demək istəyirəm ki, müraciəti təşkil eləyəndə yenə də yanılmışlar, zəiflik göstərərək ona qol çəkmişlər. Mən onlardan bir insan kimi incimirəm. Konstitusiyada ixtisas kollegiyasının rəyinin tələb olunması və hakimin iş stajı haqqında bir kəlmə də yoxdur. Bu cəhətdən mən narahat olmamışam.

İkincisi, doğrudan da, "Məhkəmə quruluşu haqqında" Qanunun 78-ci maddəsinin ikinci bəndində deyilir ki, ali hüquq təhsilli hüquq ixtisası üzrə beş il, o cümlədən bir qayda olaraq, iki il hakimlik stajı olan Azərbaycan vətəndaşları yüksək məhkəmənin üzvləri seçilirlər. Mən sizin nəzərinizə çatdırmaq istəyirəm ki, mən Ali Məhkəmənin sədri seçilən zaman 5 il deyil, 13 il hüquq stajım olmuşdur, nəinki 2 il, 4 il hakim stajım var. Hələ mən onu demirəm ki, bir mən hakimlikdən məcburi kənarlaşdırılmışam və 1983-cü ildən üzü bəri hakimləri əvəz eləmişəm. Hakim olmayanda bunları nəzərə almıram, hətta bir gün olsa hakimlik stajım olmasaydı, yenə də məni Ali Məhkəmənin sədri seçə bilərdilər.

Nəzərinizə çatdırıram ki, burada Ali Məhkəmənin sədrinə və müavinlərinə aid qeyd yoxdur, ixtisas kollegiyasının rəyi alınmalıdır. Yalnız həmin oxuduğum bənddə yazılır ki, Ali Məhkəmənin sədrinin təqdimatı ilə Ali Məhkəmənin üzvləri təyin edilərkən ixtisas kollegiyasının rəyi alınır, amma buna aid deyil. Onu deyim ki, mənim özümün təqdim etdiyim Ali Məhkəmənin sədrinin birinci müavini Xanlar bəy və Fərhad Abdullayev burada oturublar. Ali Məhkəməyə seçilərkən heç yarım gün də stajları olmayıb. Amma buna baxmayaraq çox qəribədir ki, birinci imza eləyiblər, lakin buna diqqət yetirməyiblər.

Mən sizin nəzərinizə çatdırıram ki, Ali Məhkəmənin 86 nəfər işçisi var, ştatında 52 nəfər, Ali Məhkəmənin sədri, müavinləri və üzvləri var. Hərbi kollegiya ilə bir yerdə nəinki 26 nəfər, 10 nəfər, 5 nəfər adamın buna imza etməsi mənim üçün olduqca ağırdır. Ona görə ki nə qədər ki Azərbaycan Xalq Cəbhəsi hakimiyyətdə idi, mən respublikada o kollektivin Ali Məhkəməyə sadiqliyini, o məndən asılı olduğu üçün, qoruyub

saxlaya bildim. Ali Məhkəmənin üzvlərinə dəyən hər hansı bir zərbəni öz üzərimə götürdüm. Mən burada demək istəmirəm ki, həmin sabitliyi şərəflə qorudum. Lakin çox təəssüf ki, bu hakimiyyət sona yetdikdən sonra kənar təsirlə heç bir ay da keçmədən bu kampaniya mənim haqqımda bu fikirdə oldu. Bu da mənə, doğrudan da, bir insan kimi çox ağırdır.

Sizin vaxtınızı mən o qədər almayacam, ancaq zəruri məsələlərdən danışmaq istəyirəm. Yazırlar ki, Tahir Kərimli obyektiv adam olmayıb. Mən çalışmışam ki, bütün fəaliyyətim dövründə ehtiram mövqedə dayanım. Sizə demək istəyirəm ki, doğrudan da, mən iqtidarda olmazdan əvvəl öz yoldaşlarımla Azərbaycanın demokratiyası, müstəqilliyi, vahidliyi uğrunda birgə mübarizə aparmışam. Lakin heç kəs deyə bilməz ki, bir nəfər AXC üzvü Ali Məhkəməyə üzv götürülüb. AXC üzvü olmayan, erməniyə bəraət verəndən başqa, bir nəfər məhkəmədən xaric edilib. Siz bilirsiniz, mətbuatda da çıxıb, dəfələrlə tövsiyə eləmişəm, hakimlərə də həmişə demişəm ki, hər hansı bir siyasi qrupa üstünlük vermək lazım deyil. İndi gediblər, istəməzdim deyəm, ancaq siz bilirsiniz ki, fövqəladə vəziyyət rejimi şəraitində insan haqlarının, hüquqlarının qorunmasına dair Ali Məhkəmənin Rəyasət Heyəti mənim təşəbbüsümlə məhkəmələrə göndərilmişdir. Siz bilirsiniz, məni ittiham eləyirlər ki, milyonerlər məhkəmələrdə bərpa olunur. Lakin buna baxmayaraq mən çox ciddi müqavimət göstərdim ki, qanun hamıya eyni dərəcədə aiddir. Əgər qanun pozulubsa, hökmən həmin şəxslər məhkəməyə bərpa olunmalıdırlar. Mənim dediyim odur ki, bir nəfər də olsun, Ali Məhkəmənin üzvlərinə, oturublar burada, deməmişəm ki, siz AXC-nin üzvlüyünə daxil olun, AXC-ni dəstəkləyin və yaxud AXC-nin adından çıxış eləyin. Bir dəfə də olsun, belə hal olmayıb. Əksinə, demişəm, AXC üzvü burada bir nəfər mənəm. Bizə – xalqımıza, dövlətimizə yüksək professional və təmiz kadrlar lazımdır, oturun, işləyin. Görünür, bu cəhətdən yanılmışam. Əgər mən, doğrudan da, öz mənsub olduğum keçmiş hərəkatın nümayəndələrini Ali Məhkəməyə gətirsəydim, sizə tamamilə başqa məzmunda müraciət olunardı, yəqin ki, mənim müdafiəm olardı, nəinki ittiham. Lakin mən bunu etmədim. Bütün fəaliyyətim boyu çalışmışam ki, məhkəmənin müstəqilliyini artıram, onun qanunlarının mühafizəçisi kimi qayğısına qalam.

Siz yaxşı bilirsiniz ki, çox çətinliklə, əziyyətlə həbs qətimkan tədbirindən məhkəməyə şikayət haqqında, Cinayət-Prosessual Məcəllədə, mülki prosessual qanunvericilikdə dəyişiklik haqqında, "Hakimlərin

statusu haqqında", "Məhkəmə quruluşu haqqında" olduqca çətin qanunları böyük mübarizədən sonra sizin köməyinizlə qəbul eləmişik. Məhkəmə islahatı, dövlət quruculuğu ilə məşğul olan başqa bir orqan olmayıb. Mən bir daha fürsətdən istifadə edib sizə minnətdarlığımı bildirmək istəyirəm ki, dövlət quruculuğuna aid çox mühüm qanunlar qəbul etmisiniz. Mən təəssüf eləyirəm, bəzi qüvvələr Prezidentə həmin qanunları imzalamağa nə veto qoya bildilər, nə də imzalamağa imkan verdilər. O qanunlar imzalanmadan qalmışdır.

Ali Məhkəmənin sədri kim işləyirsə işləsin, o, qanunların aliliyini gözləməlidir, onun üçün qanun şah olmalıdır.

Mən müraciətlə bağlı bir məsələni də demək istəyirəm. Ali Məhkəmənin bir nəfər üzvü və ya kollektiv şəkildə yığışıb mənə deyə bilərdilər ki, Tahir bəy, bəlkə də, indiki halda siyasətlə məşğul olmaq lazım deyil. Yığışıb bir iclas keçirərdilər və həmin iclasa məni də dəvət eləyərdilər. Mən həmişə səmimi təklifi qəbul eləmişəm. Arxada belə bir aksiyanı keçirmək, bu onun müəlliflərinə şərəf gətirmir.

Nəhayət, demək istəyirəm ki, əlbəttə, mən Azərbaycan Respublikasının xalq deputatıyam və xalq deputatı kimi Ali Məhkəmənin üzvü işləməsəm də, bu Məclisdə öz seçicilərimin arzularını yerinə yetirmək üçün müəyyən qanunvericilik fəaliyyəti ilə məşğul olmalıyam. Yenə qismət də olsa, sizinlə işləyəcəyik. Mənim demək istədiyim odur ki, 1992-ci il avqustun 26-da Azərbaycan Respublikasının qanunu ilə Azərbaycan Respublikası Konstitusiyasının 82-ci maddəsinin 5-ci bəndinə əsasən, "Azərbaycan Respublikasının xalq deputatlarının seçkiləri haqqında" Qanunun 11-ci maddəsinin qüvvəsi dayandırılmışdır, yəni xalq hakiminin də, Ali Məhkəmənin sədrinin də, üzvlərinin də olmaması prinsipi yeni parlament seçkilərinə qədər dayandırılmışdır. Ona görə, təbii ki, bir çox prokurorlar, polis işçiləri siyasətlə məşğul olurlar, onlar bu salondadırlar, doğru olaraq məşğul olurlar, çünki onların siyasətlə məşğul olmasının qarşısını alan norma yoxdur, onların yalnız partiyada olmaması qanunu vardır.

Bu müraciətlə əlaqədar mən sözümü tamamlamaq istəyirəm. Əlbəttə, suallarınız olsa, cavab verməyə hazıram. Lakin bir şeyi nəzərinizə çatdırım, Ali Məhkəmənin sədri vəzifəsindən də gedə bilər, nə olur-olsun cəza da çəkə bilər, lakin nə qədər ki ikiqat toxunulmazlığı var, yəni hakim kimi və yaxud xalq deputatı kimi toxunulmazlığı olan bir şəxsin "Deputat statusu haqqında" Qanunun 34-cü maddəsinin tələblərinə

zidd olaraq maşınında axtarış aparılması, deputat kimi ona verilmiş silahın götürülməsi, sürücüsünün həbs olunması, 10 gündür xidməti maşınının aparılması, təhqir olunması nə dərəcədə indiki hakimiyyətə şərəf gətirir. Bəlkə də, Heydər bəy, Sizin bunlardan xəbəriniz yoxdur. Çünki Sizin münasibətinizi, yəqin, başa düşürlər ki, fikriniz mənim əleyhimədir. Əgər dörd maşın polis işçisi Ali Məhkəmənin sədrinin sürücüsünün qollarını bağlayıb Ali Məhkəmənin qabağında maşınını, sənədlərini götürüb 10 gündür aparırsa və bu gün mən müavinimin maşını ilə gəlməkdən ötəri müəyyən minnət çəkirəmsə, mənim özümə belə hörmətsizlik olan vaxt, görəsən, bu məmləkətdə adi vətəndaşların hüquqları necə qorunur? Mən bütün iradları, mənim haqqımda olan bütün söz-söhbətləri, sizin arzularınızı, təkliflərinizi qəbul eləyirəm. Doğrudan da, mən bəzən çox emosionallıq göstərmişəm. Bu mənim şəxsi həyatımla bağlıdır. Mən bu haqda danışmaq istəmirəm. Emosionallığıma görə üzr istəyirəm, məni bağışlayasınız. Ancaq mən heç bir qanunu pozmamışam. Ali Məhkəmənin sədrinin Konstitusiyada və Müstəqillik haqqında Konstitusiya qanununda çıxarılma mexanizmi olmadığı kimi, Ali Məhkəmə parlament və Prezident kimi dövlət hakimiyyət orqanını təmsil etdiyi üçün, "Məhkəmə quruluşu haqqında" Qanunun 87-ci maddəsi var, 87-ci maddədə qanunu bilə-bilə kobudcasına pozan, yüksək hakim adı ilə bir araya sığmayan, nalayiq hərəkətlər edən və ittiham hökmü olan hakimlərin vaxtından əvvəl vəzifədən getməsi də nəzərdə tutulur. Lakin mən hesab edirəm ki, hətta o əsasnaməyə baxmayaraq, bu, qanuna ziddir, çox əvvəllər qəbul olunub.

Hər bir şeyi qəbul eləyirəm, mən xalqım qarşısında mənəviyyatca təmizəm. Üzr istəyirəm, başımı qaldırıb, bir qadına baxmamışam, bir nalayiq hərəkət etməmişəm, haqqımda heç bir ittiham hökmü yoxdur və heç bir qanunu da pozmamışam. Bununla belə, sizi əmin edirəm ki, haqlı iradlarınız olarsa, mən bunu qəbul eləyirəm və sizi əmin eləyirəm ki, əgər qismət olarsa, işləyərəmsə, çalışacağam, həmişə siyasətdən uzaq olum. Lakin mən fikrimi əvvəllər də bildirmişəm, həmin fikrimin üstündə dururam. Qəribədir, burada yazıblar ki, Ali Sovetə göndəriblər. Amma içində yazıblar ki, öz vicdanının səsinə buraxırıq, mənəvi hüququ var, yoxdur, istefa versin. Belə bir müraciətdir.

Mən özümü vicdanlı adam sayıram, vəzifədən yapışmamışam. Min belə vəzifə qurban olsun xalqımın ağır gününə və belə vəziyyətinə. Heydər bəy, xahiş edirəm, respublika Prezidentinin məsələsi həll olunan gün mənim də rəsmi istefamı qəbul eləyəsiniz. Mənə suallarınız varsa...

**Sədrlik edən.** Məmmədov, Siz sual vermək istəyirsiniz?

**Sultan Məmmədov.** Bəli, sualım var.

**Sədrlik edən.** Buyurun.

**Sultan Məmmədov.** Tahir bəy, bu yaxınlarda mətbuatda Sizin təvazökarlıqdan kənara çıxıb, normadan artıq mənzil sahənizi təmtəraqla təmir etməyiniz haqqında material yazılmışdı. Bu barədə fikrinizi bilmək istəyirəm.

**Tahir Kərimli.** Bu, müraciətlə bağlı deyil. Sədr icazə verərsə, cavab verim.

**Sədrlik edən.** Buyurun, əlbəttə.

**Tahir Kərimli.** "Məhkəmə quruluşu haqqında" Qanunun, sonradan biz qəbul etdiyimiz "Hakim statusu haqqında" Qanunun 92-ci maddəsinə əsasən, xalq hakimi, tək sədr deyil, 6 aydan gec olmayaraq mənzillə təmin olunmalıdır. Sizin yadınızdadırsa, Sultan bəy, mən burada bu məsələni qaldırmışdım ki, mən Ali Məhkəmənin sədri ola-ola hələ mənzilim yoxdur. Həqiqətən, mənə Prezidentin sərəncamı, Ali Sovetin, Milli Məclisin qərarına əsaslanıb Bakı Soveti tərəfindən mənzil ayrılmışdır. Lakin həmin mənzildə rus millətindən olanlar yaşadıqlarına görə və onları çıxarmağın nə demək olduğunu bildiyim üçün mən bundan imtina etdim. Bundan sonra mən xahiş etdim, doğrudan da, mənə mənzil sahəsi ayırdılar. Normadan artıq deyirsinizsə, o, normadan artıq deyil. 20 kvadratmetr sahə mənim hüququmdur. 6 nəfər, daha doğrusu, 7 nəfər ailə üzvüm var. Əslində, 1 nəfər sığmadığı üçün 6 nəfər. 3 uşağım var, anam, iki nəfər də biz. Mən demək istəyirəm, buna uyğun olaraq mənzil sahəsi ayırdılar, 2 otağının pəncərəsi yox idi. Lakin mən razı idim, dedim, eybi yoxdur. Üzr istəyirəm, mənim sürücüm hələ də qarajda maşının içində yatır. İndi maşın yoxdur, özüm isə bir ildən artıqdır kirayədə yaşayıram. Ali Məhkəmənin sədri kimi bu mənzili ayırmışdılar. Mənzildə də o qədər belə biədəb şəkil-zad vardı ki, açığını deyim, gücüm çatmadı, çox təəssüf ki, 250 manat tapıb dövlət təşkilatı ilə müqavilə bağladım ki, bunu təmir eləsin. Lakin kiminsə yuxarıdan göstərişi ilə mənim mənzilimin təmirini saxlayıblar. Yəni bu gün də o mənzilimin sahibi ola bilməmişəm, hələ də mənə mənzil verilməyib, yenə də qanun pozulub. Qoy mənə mənzil verənlərin vicdanı ağrısın ki, nəyə görə indiyə kimi mənə – Ali Məhkəmənin sədrinə hələ mənzil verilməyib. Mən burada qanunu pozmamışam.

**Sədrlik edən.** Arif Rəhimzadə, buyurun.

**Arif Rəhimzadə.** Sizdən qabaq Ali Məhkəmənin sədri işdən necə götürülüb? Sizin ona münasibətinizi bilmək istəyərdim.

**Tahir Kərimli.** Çox sağ olun. Ali Məhkəmənin sədri, səhv etmirəmsə, o vaxt Prezident Aparatına dəvət olunub. Ona təklif edilib ki, ərizə versin, işdən getsin. O da onun müqabilində, səhv eləmirəmsə, elə konkret, Sumqayıt Şəhər Xalq Məhkəməsinin sədri vəzifəsini istəyib. Mən indiyə kimi çalışmışam, bir dəfə də ardınca danışmayım, ona o vəzifə ayrılıb, o da gedib, öz xoşu ilə gedib, ərizə verərək gedib, Sumqayıt Şəhər Xalq Məhkəməsinin sədri seçilib.

**Sədrlik edən.** Rauf İsmayılov, buyurun.

**Rauf İsmayılov.** Tahir bəy, Ali Məhkəmənin sədri kimi Sizə bir sualım var, mən çox üzr istəyirəm, bəlkə də, təvazökarlıqdan kənar olacaq. Siz bayaq danışdınız ki, xalq deputatı toxunulmazlığı və sairə. Mən elmlər doktoruyam, professoram, Əməkdar elm xadimiyəm, Milli Məclisin üzvüyəm, xalq deputatıyam. Fərmanla – Prezidentin səlahiyyətlərini yerinə yetirən Yaqub Məmmədovun fərmanı ilə Nazirlər Kabineti yanında Ali Attestasiya Komissiyasının sədri vəzifəsinə təyin olunmuşdum. Xəbərim olmadan, heç bir iş görməmişəm, əmrim verilməyib, möhürüm yox, bir sənədə qol çəkməmişəm, haradasa pozuntu işinə yol verməmişəm, yəni heç işə başlamamışam hələ, fəaliyyətim yoxdur. Bir də gördüm, televiziyada elan etdilər ki, filankəs vəzifədən çıxarılıb. Deyirsiniz, mənim statuslarım hamısı pozulub. Heç vaxt onun dalınca getməmişəm, birinci dəfə deyirəm. O vaxt Ali Məhkəmənin sədri kimi səsinizi qaldıra bilərdinizmi ki, bu kişi Milli Məclisin üzvüdür, Əməkdar elm xadimidir, professordur, bunu niyə çıxarırsınız? Bu hələ işə başlamayıb. Mən sizə sual verirəm. Cəbhə o qədər insan hüquqları pozub ki, o qədər tapdalayıb ki, o qədər üzümüzə tüpürüb ki, amma hamısına biz dözmüşük, səbir etmişik. Mən xahiş edirəm, sualıma cavab verin.

**Tahir Kərimli.** Əvvəla, həmişə dediyim sözü indi yenə təkrar etmək istəyirəm. Bu sözləri bu gün mənə demək ağırdır. Ona görə ki başa düşürəm, cəbhə artıq hakimiyyətdən gedib. Mənim həmişə dediyim sözü, mənim çıxışımı, xahiş edirəm, Prezident Aparatındakı müşavirədə iştirak edən adamlar desinlər. Ömrüm boyu qanunun hər hansı şəkildə, hər hansı siyasi ambisiyalara görə pozulmasının əleyhinə olmuşam, əleyhinəyəm və əleyhinə də olacağam. Mən nəinki vəzifədən qanunsuz çıxarılanların, başqa işə keçirilənlərin hamısının əleyhdarı

olmuşam. Amma bir şey deyim sizə. Mən məhkəmə orqanının sədriyəm. Mənə gərək müraciət oluna. Burada bir adam deyə bilməz ki, Ali Məhkəmənin sədrinə müraciət olunub, o, heç olmasa, reaksiya verməyib. Mən çalışmışam, həmişə reaksiya verim, həmişə istəmişəm ki, qanunun aliliyi ola. Mənə bu gün çətindir demək, amma pisləyirəm. Əlbəttə, Sizi o cür işdən çıxarmaq olmazdı. Ancaq işdən qanuna əsaslandırıb çıxarmaq olardı.

**Sədrlik edən.** Tofiq Əzizov, buyurun.

**Tofiq Əzizov.** Tahir müəllim, deyirsiniz, 26 nəfər imzalayıb. Siz bir ildən çox Ali Məhkəmənin sədri olduğunuz vaxtda işgüzar kollektiv yarada bilməmisiniz.

**Tahir Kərimli.** İcazə verirsiniz, cavab verim?

**Tofiq Əzizov.** Buyurun.

**Tahir Kərimli.** Tofiq müəllim, mən dedim ki, bu bir il müddətində çox səmimi və işgüzar kollektiv olmuşuq. Həmişə mehriban, səmimi. Bir adam deyə bilməz ki, onu mən axıra kimi dinləməyim, ona səmimi qiymət verməyib, hər hansı bir hakimin işinə qarışım. Gəlib mənim yaşımdan çox hakim işləyən adam deyib, bunu neyləyim, demişəm, məgər hakim deyilsən, mənim yaşımdan çox işləyirsən. Get, qanunu ali tut, vicdanınla iş gör. Mən niyə deməliyəm sənə?

Biz həmişə səmimi olmuşuq, işgüzar olmuşuq. Ancaq nəyə görə bu 26 imza var, bunu sizə deyəcəyəm. Mən də Etibar bəy demişkən, rəvayət danışmağı o qədər də bacarmıram, amma bir söz deyəcəyəm. Hər dəfə qartal, qırğı gəlib cücələri götürüb aparırmış. Nəhayət, xoruz bir dəfə deyir ki, bu dəfə vuruşacağam onunla. Bu dəfə qırğı, qartal gələn kimi cücələri aparsın, birinci, xoruz qaçıb gizlənir. Gedəndən sonra toyuq deyir, a xoruz, niyə gizləndin? Deyir, neyləyim, mən hələ o cücə boyda olanda mənim gözümün odunu alıb.

Heydər Əliyev bunların hamısının gözünün odunu hələ o vaxtdan alıb. Vallah, düz deyirəm. İndi bu boyda...

**Sədrlik edən.** Yox, Heydər Əliyevin bura nə dəxli var ki? Düzünü danışırsan, düzünü danışaq. Heydər Əliyev on il bundan qabaq Azərbaycandan gedib.

**Tahir Kərimli.** Bilirsiniz, necədir, Heydər bəy? Siz uzun müddət rəhbər işdə işləmisiniz.

**Sədrlik edən.** On il bundan qabaq mən getmişəm.

**Tahir Kərimli.** Yox, elə deyil də. Siz gəlmisiniz, gələndən də, açığını deyək də, indi etiraf etmək lazımdır ki, müəyyən qorxu var. Hamı qorxu içindədir...

**Sədrlik edən.** Nə qorxu? Tahir bəy, bilirsiniz ki, Sizinlə elə həmin bu salonda tanış olmuşuq. Mən şəxsən Sizin haqqınızda deyirəm və elə uzaqdan da Sizə həmişə hörmət eləmişəm və Sizin tərəfinizdən də özümə hörmət görmüşəm, heç bir hörmətsizlik görməmişəm, bunu bu gün burada etiraf etməliyəm. Başqalarından bu salonda hörmətsizlik görmüşəm, amma səndən, əksinə, hörmət görmüşəm. Amma sənin dediyin bu sözlə razı ola bilmərəm. Burada sən ədalətsizlik edirsən.

**Tahir Kərimli.** Yox, vallah, Heydər bəy, mən sözümü dedim.

**Sədrlik edən.** Mən də, hər halda, buna fikrimi bildirirəm.

**Tahir Kərimli.** İndi demək istəmirəm ki, Sizə qarşı hücumlar olan vaxt mən Sizi çox müdafiə eləmişəm. Bunun üstündə başım bəla çəkib. Amma mənim yeganə istəyim o idi ki, deyirdim, ay qardaş, bu, Prezidentdir, gəlin Prezidenti qanuni yolla... Axı Ali Sovetin sədri 3 aydan sonra – yeni Prezident and içəndən sonra onun vəzifəsini icra edə bilməz. Sabah müddət bitəndən sonra yenə qanun pozulacaq. Gəlin bunları qanunla edək. Prezidentimizi dəvət edək, gəlsin, gəlmirsə, axırı, bu, qanuni yolla olsun.

Başımızın bəlası budur ki, deyirəm, ay qardaş, hamımız birləşək, amma Heydər bəy, məni düz başa düşün, bu gün AXC-ni tamam kənara atmaq, Əbülfəz bəyi kənara qoymaq olmaz. Mənim istəyim odur ki, bütün qüvvələr gəlsin, birləşsin. Çünki Siz bir il bundan əvvəl deyirdiniz ki, vicdanı olan kəs AXC-yə kömək eləməlidir, Sizin müsahibələrinizdə var. Bu AXC birdən-birə hamısı düşmən ola bilməz axı. Gəlin, bütün qüvvələri birləşdirək, erməni ilə davamızı edək, ondan sonra istəyirsinizsə bir-birimizi qıraq. Mənim bircə istəyim budur. Yoxsa mən Sizi ağsaqqal kimi qəbul edirəm, böhrandan çıxmağa yüksək köməyinizi qəbul edirəm, çünki Sizin ağsaqqal sözünüz, yüksək təcrübəniz lazımdır.

Sizin heç xəbəriniz olmayıb, 1970-ci ildə hələ mən məktəbdə oxuyurdum, Sizə pamflet yazmışdım, çünki Siz getdiniz, Daşkənddə o vaxt öhdəlik götürdünüz və biz şagirdlər qaldıq başımıza döyə-döyə ki, yenə də bizi pambığa aparacaqlar. Necə gedib instituta girəcəyik, necə oxuyacağıq, belə də olub.

Amma heç kim inkar edə bilməz ki, Siz nələr tikmisiniz, nələr qoymusunuz, dövlət üçün nələr etmisiniz, yəni bunlar da olub, indi, bəlkə,

yeri deyil, amma mən deyirəm, mən Sizin yanınızda Əbülfəz bəyi görmək istəyirəm, qoy hüquqları lap məhdud olsun, amma Prezident kimi gəlsin, otursun.

**Sədrlik edən.** Tahir bəy, axı Allah da şahiddir, Siz də görürsünüz ki, mən bura gələndən Əbülfəz bəyin kənar olması üçün bir hərəkət belə etməmişəm, dəfələrlə demişəm, Əbülfəz bəy gəlsin. Ancaq Əbülfəz bəy özü gedib kənddə oturubsa və sən də deyirsən ki, o, Prezidentdir, o da deyir ki, Prezidentdir. Bəli, indi Prezident adı onun üstündədir, amma Prezidentlik eləmir axı. Neyləyək? Siz Ali Məhkəmənin sədrisiniz, Ali Məhkəmədən yüksək bizim ədalət orqanımız yoxdur. Bir çıxış yolunu Siz də demirsiniz axı.

Keçən dəfə burada təkliflər oldu ki, etimadsızlıq göstərilsin. Mən bunu təxirə saldım, bu gün yenə də bu təkliflər var. Ancaq təsəvvür edin, iyun ayının 17-dən bu adam buradan çıxıb gedib, bu gün də iyul ayının 28-dir. Respublikanı bu vəziyyətdə qoymaq olarmı?

**Tahir Kərimli.** Mən hesab edirəm ki, siz – Milli Məclis müraciət qəbul eləsə ki, gəlsin, o, hökmən gələr.

**Sədrlik edən.** Ay balam, buna nə müraciət qəbul etməliyik?

**Tahir Kərimli.** Müəyyən qorxu var da, Heydər bəy.

**Sədrlik edən.** Niyə qorxur axı?

**Tahir Kərimli.** Yox, elə mənada yox. Silahlı qüvvələr var axı...

**Sədrlik edən.** Tahir bəy, Prezident seçilən adam gərək biləydi ki, hər bir şey olacaq. Heç bir şeydən qoxmamalıdır. Prezidentə təcavüz də olar, Prezidentə terror da olar, Prezidenti qorxudarlar da. Amma Prezident bir kiçik hadisədən qorxub qaçsa, onda o nə Prezidentdir?

**Tahir Kərimli.** Yenə Siz ağsaqqalsınız, yolu Siz tapmalısınız.

**Sədrlik edən.** Amma Siz də yardım edin...

**Tahir Kərimli.** Yardım? Zəmanət verin, deyin, durun, gəlin, o gəlsin.

**Sədrlik edən.** Yaxşı, burada yazılıblar. Kamran Rəhimov sual vermək istəyir. Buyurun.

**Kamran Rəhimov.** Tahir müəllim, mənim bir sualım var. Siz belə bir söz dediniz ki, Ali Məhkəmənin bəzi üzvləri başa düşmədən buna qol çəkiblər. Axı Ali Məhkəmənin üzvü...

**Tahir Kərimli.** Başa düşmədən yox, oxumadan. Oxumadan. Baxmayıblar, çünki bu, mətndən görünür.

**Kamran Rəhimov.** Yox, elə mexaniki də ola bilməz axı. Bu, insan taleyini həll edir. Nə cür olar, onlar mexaniki surətdə buna qol çəksinlər. Məsələn, mən bunu təsəvvür edə bilmirəm.

**Tahir Kərimli.** Kamran müəllim, onda mən Sizdən soruşuram ki, necə ola bilər ki, bax, bu yazır, qanun pozulub, Konstitusiya pozulub, mən pozmamışam. Stajım da var. Burada yazılanın hansı biri düzdür ki? Mən inana bilmirəm, onlar qol çəkiblər. Açığını deyim, bəlkə də, zəiflik göstəriblər. Mən inana bilmirəm.

**Kamran Rəhimov.** Söhbət qanun pozğunluğundan getmir, bunların məktubunda söhbət sizin partiyanın mənafeyini müdafiə etməkdən gedir. İndi, yəqin ki, özləri çıxış edib deyərlər ki, doğrudan da, mexaniki surətdə qol çəkiblər, ya bunu bilərəkdən ediblər. Ali Məhkəmənin üzvü, demək olar ki, ən yüksək şəxsdir. O, insanların taleyini həll edir. Orada gərək mexaniki surətdə qol çəkmək məsələsi olmasın. Ümumiyyətlə, özünə hörmət edən adam gərək mexaniki surətdə qol çəkməsin.

**Tahir Kərimli.** Mən Sizinlə razıyam. Doğrudan da, mexaniki qol çəkilməməli idi, ciddi oxunmalı idi. Tələsiblər, bəziləri zəiflik göstərib, mənim üçün ağırdır, çünki mən orada çoxlarına ağsaqqal kimi baxmışam, çoxlarına hörmət etmişəm və bu gün də çoxlarından incimirəm. Xanlar müəllim, mən çörək yeyə bilmirdim, müavinimsiniz, deyirdim, gəl naharı bir yerdə edək. Onun birinci imza eləməyi, görün, insan kimi mənim ürəyimə necə təsir edir.

**Sədrlik edən.** Sabir Rüstəmxanlı, buyurun.

**Aslan Abbasov.** Heydər müəllim, Sabir Rüstəmxanlının kartından istifadə edən Gəncə şəhərindən deputat Aslan Abbasovdur. Söz demək istəyirəm. Birinci, sual verməmişdən əvvəl xahiş edirəm ki, o gün Yaqub müəllim də bu sualı verdi, bizə də ayrıca kart versinlər və biz də öz fikirlərimizi Milli Məclisdə deyə bilək. Bunu hamımızın adından, bütün deputatların adından xahiş edirəm.

**Sədrlik edən.** Bilirsiniz, mən dərhal cavab vermək istəyirəm. Xalq deputatları, burada iştirak edənlərə imkan yaradıram, söz verirəm. Ancaq siz də məni anlamalısınız. Milli Məclisin üzvlərinə söz verib qurtarandan sonra mən xalq deputatlarına da söz verirəm.

**Aslan Abbasov.** Xahiş edirəm, deputat səlahiyyətinə görə buna əməl olunsun.

**Sədrlik edən.** Milli Məclisin üzvləri Milli Məclisin üzvləridir. Siz də bunu bilməlisiniz.

**Aslan Abbasov.** Tahir bəy, Siz deputatsınız. Mənim bir sualım var. Bu mənəvi haqq məsələsini, istəyirəm ki, aydınlaşdırasınız. Burada iki tərəf var, bir Siz, bir də 26 nəfər imza qoymuş Ali Məhkəmənin üzvləri. Mənə elə gəlir ki, Siz bura gələnə kimi öz kollektivinizdə bunu araşdırmalıydınız ki, Siz düzsünüz, yoxsa o 26 nəfər. Bura gələndə Məclisə açıq deməliydiniz ki, 26 nəfərin imzası ilə, fikirləri ilə mən razıyam, mən günahkaram, yaxud da 26 nəfərin hər birinin arqumentini, günahını burada deməliydiniz. Millət vəkilləri də, bütün respublika əhalisi də bizi eşidir, bunlar biləydilər ki, kim düzdür. Burada da qərar qəbul etmək asan olsun. Xahiş edirəm, buna aydınlıq verin, camaat da bilsin. Çox sağ olun.

**Tahir Kərimli.** Aslan müəllim, mən Sizinlə razıyam. Doğrudan da, belə olmalı idi. Bilirsiniz ki, hakimlərdir. Ali Məhkəmənin üzvlərinin bəziləri ilə təklikdə əgər söhbət olubsa, əlbəttə, o sənə məhəbbətini də bildirir, xoş sözünü də deyir. Amma psixoloji vəziyyəti də nəzərə almaq lazımdır. Doğrudan da, çox ciddi pərtlik əmələ gəlib. Ali Məhkəmənin sədrinə qarşı öz kollektivi çıxır. Mən çox pərişanam ki, bu hal olub. Ona görə də bu pərtlik həddini, psixoloji səddi keçmək... Mənə elə gəlir ki, bir az münasibətlər durulaşar və ondan sonra bir-birimizlə görüşüb müəyyən bir fikir mübadiləsi apararıq.

**Sədrlik edən.** Deputat Murad Aşurov. Mikrofon verin.

**Murad Aşurov.** Çox sağ olun, hörmətli sədr. Tahir bəy, Siz dediniz ki, Ali Məhkəmənin üzvləri və sədri ədaləti qorumalıdırlar, insan hüququnu qorumalıdırlar, tamamilə düz deyirsiniz. Bəs deputatlar sessiya çağırmaq haqqında imza toplamışdılar, qəzetlərdə çıxmışdı, bütün dünya radioları verirdi. Siz, yəqin ki, onu oxumusunuz, ola bilməz ki, oxumamış olasınız. Respublika prokuroru cinayətkar Şirinov və onun müavini cinayətkar Tatıyev bu deputatların başına oyun açıb izahat alırdılar, eyni zamanda bir neçəsinə imza etdiklərinə görə cinayət işi qaldırmışdılar. Siz Ali Məhkəmənin sədri kimi, insan hüququnu qoruyan bir şəxs kimi bunu görmürdünüzmü? Bəs nə üçün onda səsinizi qaldırmırdınız?

Sonra deputat Musayevi və bir neçə deputatı döydülər, təhqir etdilər. Sizə ərizə yazdılar, Siz onu arxivə tulladınız, dediniz ki, bunlar partokratlardırlar, nə bilim, köhnə deputatlardırlar, qanunsuz seçiliblər. Halbuki eyni vaxtda seçilmişik, özünüz bilirsiniz.

Hansı insan hüququndan danışırsınız ki, hələ bu günə qədər biz deputatlar onun əzabını çəkirik. Niyə Ali Məhkəmənin sədri kimi səsinizi

qaldırmadınız, niyə Şirinova, cinayətkar Tatıyevə demədiniz ki, deputatları nə üçün təhqir edirsiniz, niyə izahat alırsınız, niyə onlara cinayət işi qaldırırsınız. Döyülən deputatların nə üçün ərizəsinə baxmadınız?

Ondan da başqa, Siz və Xalq Cəbhəsinin bir neçə üzvü bura – zala adamları saldınız. Sonra dedilər ki, guya Qarayev icazə verib. İndi mən bilmirəm, Qarayev icazə verib, verməyib. Orada deputatlara elə sözlər dedilər ki, mən heç uşaq vaxtı elə küçə söyüşü eşitməmişdim və Siz Ali Məhkəmənin sədri kimi gördünüz ki, deputatların statusuna, insan hüququna toxunurlar.

Bu gün Siz insan hüququndan danışırsınız. O ki qaldı kadr məsələsi, onu da düz demirsiniz. Siz nə qədər yaxın adamınızı vəzifəyə qoyub respublikanın başına oyun açdınız. Məgər kənd təsərrüfatı nazirini sən gətirib qoymadın? Kənd təsərrüfatı respublikada yox dərəcəsindədir. Yoxdur, dağıldı, getdi. Bəli, İsmayıllıdan sən gətirib Tovuz rayonunda xalq məhkəməsinə sədr qoymusan, bir gün də məhkəmədə işləməyib. O provokatoru mən tanıyıram. Siz gətirib qoymadınız? Bura onun yeri deyil. Demək istəmirəm axı. Burada həqiqətdən, ədalətdən danışırsan...

**Tahir Kərimli.** Bitirdinizmi? Çox kəskin ittihamlar irəli sürürsünüz. Mən indi deyəcəyəm, onlar nə qədər əsassızdır. Əvvəla, Tovuz hakiminin qərarlarının, demək olar ki, hamısını ləğv eləmişəm. Lakin onun seçilməyini, namizədliyini mən yox, Ədliyyə Nazirliyi verib. Bir dəqiqə. Lazım deyil axı elə söhbətlər. Deməli, Siz başa düşün. Bir nəfər var, Ali Məhkəmə özü kollektivdə bununla ciddi məşğul olmuşdu. O məsələdən ötrü iki nəfər göndərmişəm ki, qanunu pozmasın. Bu, bir, yəni məni ona görə ittiham eləməyin.

İkincisi, Maksim müəllimin ərizəsinin mənə gəlməyini xatırlamıram. Amma Maksim müəllim 118-ci maddəyə görə, mənə deyil, harada döyülmüşdü, cavabdeh təşkilatın olduğu o yerə, rayona ərizə verməli idi.

Üçüncüsü, bizim Azərbaycan Respublikası Ali Məhkəməsində, ümumiyyətlə, köhnə sovet sistemi qaldığı respublikalarda məhkəmənin öz təşəbbüsü ilə icraatına iş götürmək hüququ yoxdur. Yəni iddia ilə müraciət edilən mülki işlərdə ya ərizə ilə müraciət edirlər, ya da prokurorluq, daxili işlər və təhlükəsizlik orqanlarının istintaq şöbələri işi özləri göndərirlər. Yəni Ali Məhkəmə özü götürüb o işə baxa bilməz ki, nəyə görə bu hakimə, deputatlara imza yığılıb, niyə baxılmır və niyə bu hakimlər döyülür.

Sonra bir məsələni də deyim. Mən Sizdən soruşuram, bu gün adi polis işçisi Ali Məhkəmənin sədrini hörmətsiz vəziyyətdə qoyursa, bəyəm Ali Məhkəmənin sədrinin Baş prokurora təsir etmək imkanı var?

Həyatım boyu silahın, zorun əleyhinə olmuşam. Düzdür, çətin vaxt olub. 15 mayda, orada da gəlmişəm, getmişəm, amma həyatım boyu inqilabların da əleyhinə olmuşam, zorun da əleyhinə olmuşam. Xahiş edirəm, məni hər hansı silahlı adamla əlaqələndirməyəsiniz. Mənim ünvanıma o sözü deməyəsiniz. Sonra...

**Yerdən.** *(Eşidilmir.)*

**Tahir Kərimli.** Mən döymüşəm? Daha mənim sözüm yoxdur. Bir dəqiqə, xahiş edirəm, ayıbdır. Mən həmişə o zorun əleyhinə olmuşam. Qoyun sözümü deyim.

**Sədrlik edən.** Sakit olun, imkan verin, danışsın.

**Tahir Kərimli.** Bir dəqiqə. Mən heç gözləməzdim böhtanı. Deməli...

**Yerdən.** *(Eşidilmir.)*

**Tahir Kərimli.** Bir dəqiqə, xahiş edirəm, mənə də icazə verin. Kənd təsərrüfatı nazirini Əbülfəz Elçibəy İsmayıllı rayonunda olarkən işi ilə tanış olub, özü götürüb, çox təəssüf ki, onu indiyə kimi mənim adımla əlaqələndiriblər. Mən kim idim, vəzifəyə götürüm? Nahaq belə sözlər deyirsiniz. Hətta Pənahın o vaxt başqa namizədi də vardı, nə bilim, neylədilər, özləri bilərlər, xahiş edirəm, mənə belə şey deməyin.

**Sədrlik edən.** Deputat Cəfərquliyev, buyurun. Mikrofon verin, xahiş edirəm.

**Mirağa Cəfərquliyev.** Tahir bəy, mən sırf hüquqi cəhətdən sual vermək istəyirəm. Siz çox gözəl dediniz ki, Ali Məhkəmə hər dövlətdə ən yüksək hüquqi bir orqandır ki, insan hüquqlarını qoruyur. Demək, bu hüquqların qorunması bütün insanlar üçün eyni dərəcədə tutduğu vəzifədən, mövqedən asılı olmayaraq bərabərdir. Mən Sizdən bir şeyi soruşmaq istəyirəm. Yılmaz Axundzadə Binəqədidə prokuror olarkən o, Fəhmin Hacıyevi həbs etmişdi, onun üstündən silah çıxmışdı. Yılmaz Axundzadəni qanunsuz vəzifədən atdılar bayıra, Fəhmini də azad elədilər, qoydular Daxili Qoşunların komandanı. Siz bilirsiniz ki, hazırkı Baş prokurorumuz Əli Ömərov vaxtilə komissiyada iştirak edərkən orada neçə nəfərin günahkar olduğunu deyəndə Fəhmin Hacıyevin də adını çəkdi. Bundan sonra necə olur ki, Ali Məhkəmədə Fəhmin Hacıyev haqqında protest verilir, özü də səhv etmirəmsə, o protestə Siz qol çəkmisiniz. Vaxtilə 147-ci

maddə ilə məhkum olundu – rus qadınının çantasını, pulunu oğurlayanda... Bu yaxınlarda mətbuatda geniş verilmişdi. Yenə də ağılla hərəkət eləsəydi, bunu istintaqa qaytarsaydılar, istintaqda xətm eləsəydilər, deyərdim ki, bunu istintaq edib. O işi Bakı Şəhər Məhkəməsində xətm edib ona bəraət verdirmək nə dərəcədə düzgündür? Siz Ali Məhkəmənin sədri olandan sonra belə şeylərə yol verilib və bu, mətbuata çıxandan sonra bu yaxınlarda Sizin birinci müavinin imzası ilə verilən protestlə təzədən o, işə qayıtdı və xalq məhkəməsinin çıxardığı hökm qüvvədə saxlanıldı.

Mən Sizdən soruşmaq istəyirdim. Siz özünüz bunlara necə qiymət verirsiniz? Əgər Fəhmin Hacıyevin haqqında belə hərəkətlərə yol verilirsə, Siz xalqın qarşısında, camaatın gözündə haqq-ədalətin keşiyində durduğunuzu necə sübut edə bilərsiniz?

**Tahir Kərimli.** Mən çox təəssüf edirəm ki, səhv mühakimə yürüdürsünüz, sonra da ona əsaslanırsınız. Fəhmin Hacıyevin protestinə mən qol çəkməmişəm. Məhz Xanlar bəy özü qol çəkib, amma bu o demək deyil ki, iş mənə gələndə mən onu kiminsə üstünə yaza bilmərəm. Doğrudan da, yoxlanılası ərizə var, yoxlanılması üçün cinayət kollegiyasının sədri var. Mənim elə birinci addımım, bəlkə də, səhvim ondan ibarət olub ki, işlərin bölgüsünü məhz demişəm, kollegiyanın sədri...

Bir ildən artıq Ali Məhkəmənin cinayət işləri üzrə kollegiyasının sədri olmayıb, birinci müavin vəzifəsi olmayıb. Hamısı ilə sədr özü məşğul olub. Mənə gələn kimi dərhal 5-10 günə birinci müavin və kollegiyanın sədrini seçdirmişəm ki, cinayət işləri ilə oturub kollegiyanın sədri məşğul olsun. Siz onu düz demirsiniz.

Sonra Yılmaz bəyin işdən çıxarılması məni ağrıdıb, ondan ötrü çalışmışam. İndi demək istəmirəm. Allah şahiddir ki, ondan ötrü çalışmışam, gücüm çatmayıb. Amma onun nə dərəcədə Fəhminlə əlaqədar olmağını mən deyə bilmərəm.

Mən yanvarın 22-də "Amerikanın səsi" ilə Qorbaçovun ölüm hökmünü elan etdim – qiyabi, rəmzi, simvolik ölüm hökmü. Mirağa müəllim, mənim bütün qohumlarımı həbs elətdirdiniz və yaxud Sizin respublika prokurorluğu ilə rayonda ya həbs elətdirdiniz, ya da cinayət işi qaldırdınız, bu gün də hələ yoxlayırlar. Onda durum, deyim ki, ay Mirağa müəllim, təqsir səndədir? Mənim əlimdə əsas yoxdur axı.

**Sədrlik edən.** Bəsdir, bəsdir. Sual verirsiniz, cavab alırsınız.

**Tahir Kərimli.** Yəni mən Sizi ondan ötrü ittiham edə bilmərəm. Amma elə şeydən ötrü adamı ittiham edirsiniz, bu yapışmır axı.

**Sədrlik edən.** Güman edirəm ki, suallar yetər. Ancaq deputat Əli Ömərova söz verirəm. Bununla da suallar bitsin. Buyurun.

**Əli Ömərov.** Tahir bəy, deyə bilərsinizmi, ölkənin Ali Məhkəməsinin sədrinin şübhəli şəxsi əvvəlcədən müdafiə etməsi və yaxud hər hansı bir istintaq komissiyasında cinayət törətməkdə adıçəkilən şəxsi qabaqcadan müdafiə etməsi nə dərəcədə qanunidir? Ölkə Ali Məhkəməsinin sədrinin belə müdafiəsindən sonra hansı istintaqçı adıçəkilən adamı ittiham etməyə cürət edər?

**Tahir Kərimli.** Əli bəy, mən qəzetdə Sizin həmin müsahibənizi oxudum. Nəzərə almalısınız ki, Siz də həmin şəxsi cinayətkar elan etməkdə düzgün yolda deyildiniz...

**Əli Ömərov.** Mən cinayətkar elan eləmədim, mən dedim ki, bu və ya digər mənada məsuliyyət daşıyır, amma Sizin...

**Tahir Kərimli.** Siz deyirsiniz, şübhəli şəxs. Siz də onu cinayətkar elan eləmişdiniz...

**Əli Ömərov.** Amma həyat göstərdi ki, bu gün də o cinayət...

**Tahir Kərimli.** Bir dəqiqə, üzr istəyirəm. Bugünkü cinayət, ovaxtkı cinayət... Amma məsələ nədə idi. Həmin gün hamı bəri gəlirdi, Səriyyə xanım və başqaları şahiddir. Mən Xocalı faciəsini eşitdim, dayana bilmədim, getdim ora – Xocalıya, o qərargahda da oldum. İstədim, Mütəllibovla danışam, daxili işlər nazirinə də ağır sözlər dedim, niyə iki nəfər verirsiniz? Amma mən tək idim, məni yandıran o idi ki, o boyda cinayəti...

**Əli Ömərov.** Xahiş edirəm, sualıma konkret cavab verin.

**Tahir Kərimli.** Siz Fəhmin Hacıyevin üstünə yıxırdınız. O boyda hadisəni törədən kim idi? Onun kökünü tapıb çıxarmaq lazımdır.

**Əli Ömərov.** Ali Məhkəmənin sədrinin qabaqcadan fikir söyləməyə hüququ var idimi? Mən səndən onu soruşuram.

**Tahir Kərimli.** Fəhmin Hacıyevin hər hansı bir cinayət hərəkəti barədə mən heç bir fikir söyləməmişəm.

**Əli Ömərov.** Bəs onda niyə bizi "Ordu" qəzetində təhqir edirsiniz ki, Fəhmin Hacıyev kimi xalqın qəhrəman oğlu demokratik proseslər barədə mübarizə aparanda bu komissiyanın boş-boş danışan üzvləri, görəsən, harada idi?

**Tahir Kərimli.** Əli bəy, mən yenə təkrar edirəm. Onu konkret...

**Əli Ömərov.** Mən indi Sizin haqqınızda faktlarla çıxış edəcəyəm. Söhbət ondan getmir. Sualıma cavab verin.

**Tahir Kərimli.** Aydındır. Sualınıza cavab verirəm. Mən Sizə yenə deyirəm. Mən, həqiqətən, boş-boş danışdığını demişəm, çünki Sizin komissiyanın rəyi təsvirdən ibarət idi. Mən istəyirdim, orada yüksək rütbəli adamların adı çəkilsin. Məni yandıran o idi ki, belə olmasaydı, belə olardı, belə olmasaydı, belə olardı...

**Əli Ömərov.** Onda ikinci sualıma cavab verin. Biz burada demişdik ki, ən nəhayət, bu faciə Mütəllibov və ona qarşı duran qüvvələrin hakimiyyət davasının nəticəsi idi. Bir hüquqşünas kimi Siz bunu necə təhlil edirsiniz? Bundan da böyük vəzifəli şəxslər...

**Tahir Kərimli.** Onu mən deyə bilmərəm. O barədə mən mühakimə yürütməmişəm.

**Əli Ömərov.** Sərf eləmir, ona görə.

**Tahir Kərimli.** O barədə eləməmişəm.

**Sədrlik edən.** Güman edirəm ki, suallar bəsdir. Tahir bəy, əyləşə bilərsiniz.

**Tahir Kərimli.** Çox sağ olun.

**Sədrlik edən.** Bəli, daxili işlər nazirinə, deputat Novruzova mikrofon verilsin.

**Vaqif Novruzov.** Burada Ali Məhkəmənin sədri hörmətli Tahir Kərimli məsələ qaldırdı ki, guya Daxili İşlər Nazirliyinin əməkdaşları onun avtomaşınını tutub, həmin maşından silah tapıb, onun maşınını indiyə qədər qaytarmayıblar. Ali Məhkəmənin sədrinə bir sual vermək istəyirəm. Daxili İşlər Nazirliyindən Sizə "Mercedes" markalı xidməti avtomaşın bağışlanmışdır. Hazırda həmin avtomaşını Siz nə vaxt Daxili İşlər Nazirliyinə qaytarmaq istəyirsiniz? Bu məsələni Sizin qarşınızda mən nazir olan gündən qoymuşam, indiyə qədər avtomaşın Daxili İşlər Nazirliyinə qaytarılmayıb. Bu, bir. Həmin "Mercedes" avtomaşını hazırda haradadır? Siz o maşınla gəzmirsiniz, "QAZ-31" maşını Sizi işə aparıb-gətirir. Bu sualıma cavab verin.

İkincisi, Siz məlumat verəndə burada oturan deputatlara düzgün məlumat verin. Heç kim burada Sizin o ifadələriniz ki var, polis işçiləri döydülər... Bunlara heç kim inanmır, polis işçiləri həmin hərəkətləri etməyiblər. Sizin tabel adlandırdığınız silahı Siz maşında olmayarkən avtomaşından tapıblar, həmin silahın mənsubiyyətini yoxlayıblar. Hazırda həmin silahın hansı idarə tərəfindən Sizə verilməsini yoxlayırlar. Siz niyə bu məsələni qatışdırırsınız? Siz indi avtomaşını harada

gizlətdiyinizi və haradan çıxarıb Daxili İşlər Nazirliyinə qaytaracaqsınız, o haqda deputatlara məlumat verin. Sağ olun.

**Sədrlik edən.** Tahir bəy, bir dəqiqə, dayanın, Siz cavab verməzdən əvvəl deputat Vaqif Novruzovun bu bəyanatı ilə bağlı, mən istəyirəm, bir məsələni aydınlaşdırım. Daxili İşlər Nazirliyi bu qədər xarici markalı, xüsusən “Mercedes” maşınlarını haradan alıb ora-bura paylayıb? Kimdən soruşursan, deyirlər ki, daxili işlər naziri İsgəndər Həmidov ona bir “Mercedes” bağışlayıb, buna bir “Mercedes” bağışlayıb. Bu nə məsələdir?

**Vaqif Novruzov.** İcazə versəydiniz, bu suala cavab verərdim.

**Sədrlik edən.** Yox, mən istəmirəm, bunu indi aydınlaşdıraq. Mən, sadəcə olaraq, öz fikrimi bildirmək istəyirəm. Çünki Naxçıvanda biz işlədiyimiz dövrdə daxili işlər naziri İsgəndər Həmidov bir nəfər nazir təyin olunan kimi üç gündən sonra ona “Mercedes” göndərdi. Sonra bir nəfər gənci – heç bir polis işi ilə tanış olmayan adamı daxili işlər naziri təyin etmək istəyirdi, sonra müavin təyin elədi. 3 gündən sonra ona da bir “Mercedes” göndərdi. Naxçıvan Muxtar Respublikasında heç bir vəzifəli şəxsdə, o cümlədən Ali Məclisin sədrində, Baş nazirdə “Mercedes”, yaxud da xarici markalı maşın yoxdur. Hətta orada Ali Məclisin sədri və Baş nazir də, digər vəzifəli şəxslər də köhnədən – 10-15 il, yaxud da keçmiş Nazirlər Sovetindən qalmış maşınlardan istifadə edirlər. Ancaq İsgəndər Həmidov öz dostlarına bu maşınları paylayıb. İndi mən Sizin suallarınızdan görürəm, yəqin ki, bu paylardan biri də Ali Məhkəmənin sədrinə düşüb. Mən bunu, sadəcə olaraq, deməyi borc bilirəm və Sizə tapşırıram ki, qısa müddətdə bu maşınların haradan alınmasını, hansı yolla gətirilməsini və nə vasitələrlə, hansı hüquqlar əsasında ayrı-ayrı şəxslərə paylanmasını yoxlayıb Milli Məclisə arayış verəsiniz. İndi, Tahir bəy, buyurun.

**Tahir Kərimli.** Doğrudan da, Azərbaycan Respublikasının Ali Məhkəməsinə “Mercedes” maşını verilmişdir. Onun tarixçəsi belədir. Müstəqillik aktına əsasən, Ali Məhkəməyə müstəqil hakimiyyətin təmsilçisi kimi bina üçün ovaxtkı Lenin muzeyinin alınmasına nail olduq. Təəssüf ki, hələ də qərar bizdədir. Belə qərara gəlindi ki, Rusiya Ali Məhkəməsində, Türkiyə Ali Məhkəməsində və başqalarında da var, hətta Türkmənistan Ali Məhkəməsinin sədrinin də “Mercedes”i var. Mən “Mercedes” tələb eləməmişəm.

Məsələ belə oldu ki, Türkiyə Ali Məhkəməsinin sədrinin rəsmi səfəri gözlənilirdi. Belə məsləhət oldu ki, Daxili İşlər Nazirliyində artıq

maşınlar var. O maşınlar qanuna əsasən həmin yüksək qonaqları qarşılamaqdan ötrü o vaxt Ali Məhkəməyə verildi, Ali Məhkəmənin balansında oturur. Mən deyirəm, o "Mercedes" heç harada gizlənilməyib. Elə deməyin, o bu gün də Ali Məhkəmənin qarajındadır. Mən utandığımdan millətin belə vaxtında ona minə bilmirəm. Ona görə deyirəm, axı məndən soruşan olar ki, Ali Məhkəmənin balansında olan maşını neylədin? Mən bilmirəm, bir qərar verin, biz balansımızdan çıxaraq, bilək ki, Ali Məhkəmədən maşın çıxdı. Mən Ali Məhkəmənin inventarını sizə necə verim. Mən sizə deyirəm, o silahı mən sizə çatdırdım. Deputatlara o vaxt verilirdi. O zaman Tahir Əliyev nazir idi. Onun dövründə almışam, orada da baxdılar, yoxladılar, jurnalda da vardı, hamısı düzdür. Kağızını da verdim. Lakin qəbz verilmədi ki, bəlkə, sabah mənim silahımla adam öldürüləcək. Bunlar hamısı qanuni olan şeylərdir. 10 gündür mənim xidməti maşınım yoxdur. Sürücünü aparıb nahaqdan saxlayıblar, hər şeyin yeri var da.

**Sədrlik edən.** Suallar bitsin. Buyurun, əyləşin. Son sualla əlaqədar olaraq Azərbaycanda, yəni Bakıda rəhbər orqanlarda məsul vəzifəli şəxslərdə xəstəliklərin çoxu məlumdur, ancaq ən ağır xəstəliklərdən biri də "Mercedes" xəstəliyidir. Görürsünüz, Ali Məhkəmənin sədri nə qədər anlaşılmaz izahat verdi. Türkiyə Ali Məhkəməsinin sədri Bakıya gəlməliydi. Ona görə də Ali Məhkəməyə Daxili İşlər Nazirliyinin rezervindən "Mercedes" maşını verilir. Türkiyəninki də gəlsin, İranınkı da gəlsin, Amerikanınkı da gəlsin, nəyiniz var, onda qəbul eləyin. Bu nə məsələdir? Bunu mən anlaya bilmirəm. Keçmiş Sovet İttifaqı Kommunist Partiyası dövründə Azərbaycana Amerikadan da böyük adamlar gəlirdi, başqa ölkələrdən Prezidentlər də, Baş nazirlər də gəlirdi. Heç vaxt biz fikirləşmirdik ki, onlar "Mercedes"lərlə gəzir, filanlarla gəzir, onları hansı maşında qəbul eləyəcəyik. 1970-ci ildə rəhmətlik Brejnev Bakıya gəldi, burada bizim köhnə "Çayka" vardı, "Çayka"da gəzdi, o böyüklükdə dövlətin başçısı. İndi siz söyürsünüz o dövləti də, o dövlətin başçılarını da. Amma özünüz nə işlər görürsünüz?!

Keçən il may ayının 28-də Azərbaycanla Türkiyə arasında Naxçıvan bölgəsində körpü açılırdı. Özü də bunu may ayının 28-nə saldıq, çünki may ayının 28-i Azərbaycanın İstiqlal Günü elan olunmuşdur. Baş nazir, Baş nazirin birinci müavini Ərdal İnönü, bir neçə dövlət naziri, o cümlədən indi Baş nazir vəzifəsini icra edən, 60 nəfər millət vəkili, 20 nəfərə qədər nazir gəldilər. İnanın, biz fikirləşmədik ki, onları hansı avtomobillə qarşılayacağıq. O vaxt da Azərbaycandan heç kəs fikirləş-

mədi ki, Naxçıvana Süleyman Dəmirəl gəlir, Ərdal İnönü gəlir, böyük dövlət başçıları gəlir, Naxçıvana bir "Mercedes" versinlər. Bizdə də bu fikir olmadı.

Demək istəyirəm ki, Tahir Kərimlinin verdiyi izahat məni hiddətə gətirir və məcbur oldum ki, bu məlumatları deyim. "Mercedes" xəstəliyi olmasaydı, bəlkə də, işlərin bəziləri daha düz gedərdi. Ali Məhkəmənin üzvləri – burada imza atanlar dəvət olunub. Onlardan bu barədə fikir söyləmək istəyən varmı?

**Xanlar Hacıyev,** ***Ali Məhkəmə sədrinin birinci müavini*** *(Rus dilindən tərcümə.)* Yəqin ki, mən bu gün belə çıxış etməzdim və bizim sədrin fərdi keyfiyyətlərinə toxunmaq istəməzdim. Lazımdırsa, Azərbaycan dilində... Mən üzr istədim.

**Sədrlik edən.** Gəlin insanlara bu cür təzyiqlər göstərməyin. Bu, Azərbaycanın həqiqətidir ki, ziyalılarımızın bir qismi rus dilində danışıblar, bəlkə də, Azərbaycan dilini, ana dilini istənilən səviyyədə bilmirlər. Ondan ötrü incitmək lazım deyil.

**Xanlar Hacıyev.** Mən Azərbaycan dilində sərbəst danışıram. İntəhası, Siz bilirsiniz ki, hər dəfə belə imkan olmur ki, bu yüksək tribunadan Sizə müraciət edəm.

*(Rus dilindən tərcümə.)*

Bəyanatımız hansı zərurətdən yarandı? Əvvəla, onu demək istəyirəm ki, Ali Məhkəmənin 28 üzvünün imzaladığı bəyanat, belə ki, bu gün Ali Məhkəmənin 42 üzvü var. Təəssüf ki, sədrimiz deyir ki, Ali Məhkəmədə 180 və ya 160 nəfər işləyir. Mən demək istəyirəm ki, qanuna görə, ədalət mühakiməsini yalnız hakimlər həyata keçirir. Ona görə də yalnız Ali Məhkəmə üzvlərinin bu hüququ var idi və onlar belə bir bəyanatla müraciət etdilər.

Bizim Ali Məhkəmənin sədri burada bildirdi ki, Ali Məhkəmədə 4 kollegiya var. Onun nəzərinə çatdırmaq istəyirəm ki, o, bir il ərzində Ali Məhkəməyə rəhbərlik edib və bilməli idi ki, Ali Məhkəmənin 3 kollegiyası var, bu – cinayət, mülki və hərbi kollegiyalardır. Əgər Siz ixtisas kollegiyasından danışırsınızsa, onda bir hüquqşünas və hakim kimi bilməlisiniz ki, ixtisas kollegiyası məhkəmə kollegiyası deyil və ədalət mühakiməsini həyata keçirmir, yalnız hakimlərin rəhbər vəzifələrə irəli sürülməsi, yaxud onların geri çağırılması və ya intizam məsuliyyətinə cəlb edilməsi məsələləri ilə bağlı yekun qərarın verilməsi üçün yaradılır.

Sizin bu parlamentdə deputatlar qarşısında dəfələrlə səsləndirdiyiniz bəyanatlar, o cümlədən irəli sürdüyünüz siyasi ittihamlar, respublikanın siyasi fəaliyyətində fəal iştirakınız bizi bu bəyanatı verməyə vadar etdi. Bunun səbəbi də biz deyilik, bəzən Siz düşünürsünüz ki, bunu kimsə təşkil edib və mənim soyadımı, adımı hallandırırsınız və sairə. Axı Siz bir sədr kimi bilməlisiniz ki, Siz mənə bu vəzifəni təklif edəndə mən imtina edirdim və bizim həyata keçirdiyimiz Sizin dediyiniz həmin məhkəmə islahatı, mən bu konsepsiyanı yazdığım üçün, Siz də belə hesab etdiniz ki, əgər sən yazmısansa, gəlin məhkəmə islahatını həyata keçirək. Və bu binada həmin qanunlar müzakirə olunanda, qarışmamaq və imtina etmək barədə ilk olaraq mən qərar verdim. Mən anladım ki, Azərbaycanda dövlətçiliyin, dövlət və hakimiyyət qurumlarının olmadığı halda, məhkəmə islahatını həyata keçirmək bir fayda verməyəcək. Siz isə, üzr istəyirəm, mən bu haqda danışmaq istəmirdim, Siz bu qanunları heç oxumamısınız. Siz səhər oxudunuz, məni çağırtdırdınız və onlardan necə istifadə edəcəyimizi soruşdunuz. Mən də Sizə dedim ki, əvvəlcə, oxuyub öyrənmək, sonra isə fikirləşmək lazımdır ki, onlardan necə istifadə edəcəyik.

O ki qaldı, bizim Ali Məhkəmənin üzvlərinə müraciətimizə, məsələ ondadır ki, bu, yekdil rəydir və əgər Siz mətbuatla tanışsınızsa, sonradan bir jurnalist Ali Məhkəmədə olub, o, imza atmayan Ali Məhkəmənin üzvlərini sorğulayıb, çünki Sizin də bildiyiniz kimi, Azərbaycan Respublikasının Ali Məhkəməsi birinci instansiyada çoxlu sayda işə baxır və təbii ki, insanlar ezamiyyətdə olurlar. Müxbirlə söhbətdə onlar da öz razılıqlarını və həmrəyliklərini bildirdilər. Yer kürəsinin heç bir dövlətində, xəritəni götürün, Ali Məhkəmənin sədri siyasi fəaliyyətlə məşğul olmur. Əgər bu gün hörmətli parlament beynəlxalq müqaviləni, üzr istəyirəm, Birləşmiş Millətlər Təşkilatının qətnaməsini ratifikasiya edibsə, Siz də, hörmətli sədr, bu gün ona müraciət etmisinizsə, bilməliydiniz ki, Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1985-ci il 12 dekabr tarixli qətnaməsində bütün dövlətlərin hökumətlərinə tövsiyə olunub ki, məhkəmə islahatını həyata keçirən zaman öz şəxsi təcrübələrində ona əməl etsinlər və bu sənəd "Məhkəmə müstəqilliyinin əsas prinsipləri" adlanır. Sizin tərəfinizdən imzalanmış Ali Məhkəmə Plenumunun qərarında biz bu qətnaməni əsas kimi qəbul etmişik. Onun 7-ci bəndində isə deyilir ki, hakimlər partiya üzvü olmamalı və ya ictimai-siyasi fəaliyyətlə məşğul olmamalıdırlar. Bu, məlum bir düsturdur ki, hakim öz şəxsi fikrini ifadə edə bilməz. Sizə yaxşı məlum olmalıdır ki,

bütün bəşəriyyətin məhkəmə-hüquq sisteminin əsasında qərəzsizlik və təqsirsizlik prezumpsiyası kimi məsələlər durur. Əgər Siz bu və ya digər məsələ ilə bağlı əvvəlcədən öz mövqeyinizi bildirirsinizsə və hesab edirsinizsə ki, həmin təşkilat qanunsuz olaraq hakimiyyəti həyata keçirib və yaxud nə isə edib, Siz Ali Məhkəmənin sədri kimi bilməlisiniz ki, Sizin sədr kimi bunu etməyə hüququnuz yoxdur. Mən Sizinlə bu mövzuda bir neçə dəfə söhbət etmişəm və Sizdən öz mövqeyinizi bildirməməyi xahiş etmişəm, Siz isə söz verdiniz, amma sözünüzü tutmadınız. Və bu gün Siz Ali Məhkəmənin üzvlərini ittiham edirsiniz, çünki Siz heç vaxt öz danışığınıza fikir vermirsiniz. Sizin buradakı ilk açıqlamanız yalnız birinci müavin kimi mənim və Ali Məhkəmə üzvlərinin deyil, bütün Azərbaycan əhalisinin çaşqınlığına səbəb oldu. Axı Sizin ictimaiyyət qarşısında verdiyiniz bəyanatlar, Siz Ali Məhkəmənin sədrisiniz, mən Sizə bu barədə bildirmişəm, Siz dediniz ki, mən xalq deputatıyam, mən Sizə demişəm axı, sərfəli olanda Siz hakimiyyət bölgüsündən danışırsınız. Əgər biz hakimiyyət bölgüsünü qəbul ediriksə, necə ola bilər ki, Siz səhər burada oturub qanunlar qəbul edir, axşam isə onları icra edirsiniz. Ona görə sizdən bu bəyanatı ciddi qəbul etməyinizi xahiş edirəm, şəxsən mən öz imzamdan imtina etmirəm və hətta Sizin çıxışınızdan sonra və ondan əvvəl də hesab edirəm ki, biz bu məsələni qaldırmaqda düzgün etmişik və burada baş verənlərin günahkarı biz – Ali Məhkəmənin üzvləri deyilik, siz də Ali Məhkəmənin sədrini seçməklə, bu məsələyə səthi yanaşmısınız. Siz bu Respublikanın ədalət mühakiməsini hüquqi məsələlərdə səriştəsi olmayan bir insana tapşırdınız. Nə üçün o bilmirdi, ona görə ki işə nadir hallarda gəlirdi və məsuliyyətini hiss etmirdi. Əlbəttə, indi Hacıyev onu imzalayıb, Hacıyev bunu imzalayıb demək asandır. Bəli, mən kağızları imzalayırdım, nə üçün imzalayırdım, çünki sədr işdə olmadığı halda, kağızları imzalamadan necə işləmək olar? Partiyadaşlarınız belə, Sizi iş yerində heç vaxt tapa bilmirdilər və dəfələrlə mənə müraciət edirdilər ki, bu adam niyə işə çıxmır. Bu məsələ biz – Ali Məhkəmənin üzvləri tərəfindən yox, Xalq Cəbhəsi tərəfindən hələ 3-4 ay bundan əvvəl qaldırılmışdı.

Mən bu gün düşünürdüm ki, Siz bu tribunadan etiraf edəcəksiniz ki, bəli, siyasətlə məşğul olmusunuz, lakin bu yanlışdır. Mən bunu heç siyasət də adlandırmaq istəmirəm, çünki normal insanlar bunu heç siyasət kimi qəbul etmirlər. Lakin bu Sizin şəxsi qənaətinizdir və mənim buna toxunmağa haqqım yoxdur və heç hazırlaşmıram da. Ancaq dürüst olmaq və etiraf etmək lazım idi ki, Siz Ali Məhkəmənin sədrisiniz və

deyilən hər bir sözə görə cavabdehsiniz. Sizin müsahibəniz, ictimaiyyət qarşısında bəyanatınız, Prezident Aparatında çıxışınız daim çaşqınlıq yaradırdı. Siz Prezidentin qarşısında Ali Məhkəmənin hələ baxmadığı məsələlər barədə danışırdınız.

Yaxşı, Prezidentin iştirakı ilə keçirilən ilk iclası yadınıza salın. Siz deyirsiniz ki, Lukinin işi əlavə istintaqa göndərilib, Lukinin işini mən – Sizin birinci müavininiz tələb etmişəm, o hələ araşdırılırdı, Siz isə onu əlavə istintaqa göndərmisiniz. Cinayət işi başqa bir məsələdir...

Mən, sadəcə, demək istəyirəm ki, Siz heç vaxt öz açıqlamalarınız barədə düşünməmisiniz, bunu səmimi etiraf etmək lazım idi və mən ümid edirdim ki, Sizin iki çıxışınızdan sonra bu məsələnin təşəbbüskarı biz – Ali Məhkəmənin üzvləri deyil, bu parlament olacaq. Çünki onlar Sizi seçiblər və onlar da buyurub Sizdən tələb etsinlər, biz Sizdən tələb etməli deyilik. Biz gözləyirdik, ona görə də bu müraciət ortaya çıxdı, Siz isə hər zaman hesab etmisiniz ki, bu, şəxsən Sizə qarşı təşkil olunub. Heç kim Sizi nə təqib etmək, nə heç bir şey etmək istəmir. Məsələ çox sadədir – insanlara işləmək üçün şərait yaratmaq. Axı Ali Məhkəmədə elə hakimlər var ki, 10-20 il ərzində bu sahədə xidmət ediblər və bu yüksək vəzifəyə çatıblar. Onlar vəzifə tutmağa layiqdirlər. Məni başa düşün, burada söhbət vəzifələrdən getmir. Əgər siz öz xalqınızı sevirsinizsə və bu barədə hər zaman danışırsınızsa, habelə Siz dəfələrlə demisiniz ki, xalqa müraciət edəcəksiniz, o zaman, zəhmət olmasa, əvvəlcə, özünüzdə cəsarət tapıb etiraf edin ki, mən Ali Məhkəmənin sədri vəzifəsində çalışa bilərəm, ya yox. Bu barədə danışmaq lazımdır. Siz hüquqşünassınız, öz peşə biliklərinizi tərəzinin bir gözünə, sədr olmağınızı digər gözünə qoymaq lazımdır və görək hansı üstün olacaq.

Mən bu gün belə çıxış etmək istəmirdim. Mən, sadəcə, demək istəyirdim ki, Ali Məhkəmənin sədri respublikada baş verən siyasi proseslərə qarışmamalıdır. Siz axı hər zaman Amerika Birləşmiş Ştatlarına istinad etmisiniz. Bu gün də bəziləri deyirlər ki, ölkədə mexanizm var, ya yoxdur. Fikrimcə, həmin Amerika Birləşmiş Ştatlarında əgər hakim hərhansı bir hərəkətə yol versə, o qanunu və ya kiminsə ona xatırlatmasını gözləməyəcək, şəxsən özü həmin yüksək vəzifədən imtina edəcək və şərəflə işindən ayrılacaq. Biz Sizdən bax bunu gözləyirdik, ona görə də müraciətimizin sonunda Sizin vicdanınıza üz tutduq. Siz bu gün bizə müraciət edir və günahlandırırsınız, mənim adımı hallandırırsınız, bu da bir ildir kabinetdən çıxmayaraq işlədiyim üçün. Mən bacardığım hər şeyi etdim, lakin anladım ki, bunun heç bir faydası yoxdur.

Bağışlayın, təşəkkür edirəm.

**Sədrlik edən.** Ali Məhkəmənin dəvət olunmuş üzvlərindən fikir söyləmək istəyən varmı? Yoxdur. Buyurun. Sual verilənə qədər soruşmaq istəyirəm. Burada Tahir Kərimli qeyd etdi ki, imza atanların bəziləri guya imza atmayıblar, yaxud da məcburi imza atıblar. Bu barədə də istərdik, bilək.

**Oktay Maqsudov,** ***Ali Məhkəmənin üzvü.*** Hörmətli millət vəkilləri. Təbii ki, bu gün Ali Məhkəmənin sədrinin belə yüksək bir Məclisdə müzakirə olunması ona nə qədər ağır təsir göstərirsə, Ali Məhkəmənin üzvlərinə ondan da qat-qat artıq, hətta faciəvi bir təsir göstərir. 1962-ci ildə Ali Məhkəməyə gəlmişəm. Ali Məhkəmənin sabiq sədri Abdulla İbrahimov 18 ildən sonra Ali Məhkəmədən gedəndə onu Ali Məhkəmənin ən gözəl nümayəndəsi kimi, hakimi kimi yola saldıq. Çox təəssüf ki, o nümunə çox nadir hallarda olur.

Bir ildir Ali Məhkəməyə gəlmiş sədr barəsində üzvlərin əksəriyyəti ona öz etimadını göstərib. Nə üçün? Ali Məhkəmədə sədr olmalıdır. Bunu üzvlər də dərk edirlər. Hər bir kollektivdə rəhbər şəxs olmalıdır.

Amma biz Ali Məhkəməyə sədr seçiləndə də özümüzü təhqir olunmuş kimi hesab etdik. Ona görə yox ki, Tahir Kərimlini seçdilər. Qətiyyən. Biz Tahir Kərimlinin xüsusiyyətlərini də, xasiyyətini də, işə münasibətini də bilmirdik, yeni qurum gəlmişdi. Yeni qurumun yeni rəhbərləri rəhbər vəzifəyə namizədlər seçdilər. Amma bu seçkinin özünün aparılması bizdə çox təşviş doğurdu. İsa Qəmbər otağa daxil olmadan bu tərəfdən avtomat, (hələ Ali Məhkəmə bu dövrə qədər avtomat nədir görməmişdi, nə aşağıda milisdə, nə Ali Məhkəmənin binasında avtomatla hərəkət eləyən şəxs olmamışdı, bir konvoy dəstəsindən başqa. O, dustaqları müşayiət eləyən şəxsdir), o qapıdan avtomat, biri orada, biri burada elə mənzərə yarandı ki, görəsən, nə olacaq.

Bundan qabaq da Ali Məhkəmənin sədri seçilib. Bundan qabaq da Ali Məhkəmənin sədri ilə işləmişik, heç birimiz belə təəssüratda olmamışdıq ki, Ali Məhkəmənin sədrini bu cür seçərlər. “Çox gözəl seçdilər”.

Emosiya bütün vəzifəli şəxslərə aid olmuş olsa belə, hakimə emosiya qətiyyən yaraşmaz. Ona görə ki hakim həm sevincini, həm intiqamını – hər şeyi gizli saxlamalıdır ki, zalda onu başa düşən olmasın. Müşavirə otağına qədər bir şəxs onun bu və ya digər tərəfə meyil göstərməyi barədə heç bir fikir yürütməməlidir. Bu baxımdan emosiya bir olar, iki olar.

Ümumi etika qaydası var. Ali Məhkəmədə seleksiya telefonu var. Bütün məhkəmə sədrləri ilə lazım olan vaxt götürürdük – filan şikayət var, həllini gözləyirik, xahiş edirik, qəbul eləyin. Telefonu götürürdülər. Əvvəl, ümumiyyətlə, başa düşmürdük ki, bu telefon niyə işləmir, bəlkə, sədr yerində yoxdur? Sonradan bildik ki, həqiqətən, bəzi vaxtlarda bir az gec gəlir. Sonra köməkçidən soruşurduq ki, Tahir bəy yerindədir, yerindədirsə bəs niyə telefonu qaldırmır? Belə çıxırdı ki, ümumiyyətlə, heç bir əlaqə yoxdur.

Mənəviyyatdan danışanda mən, ümumiyyətlə, əsəbiləşirəm. Bu gün Tahir bəyin vəziyyətini başa düşürəm. Ali Məhkəmənin əksər üzvləri ona etimad göstərməyib, bu baxımdan, təbii ki... Məsələn, mən özümü bu səviyyəyə gətirib çıxarmazdım. Əgər işlədiyim 5 nəfərdən, heç olmasa, 1-i mənə etibar eləmirsə, mən dönüb çıxıb gedərdim. Deyərdim ki, yəqin ki, bu 1-2 nəfər ola bilər, 23 nəfər Ali Məhkəmə üzvünün imzasından sonra yenə o məsələnin bu səviyyəyə gətirilib çıxarılmasını, ondan sonra Ali Məhkəmənin üzvlərinin iki gün burada oturmasını və nəhayət, gərgin bir şəraitdə Məclis qarşısında çıxış eləməsini heç birimiz gözləmirdik. Buna Tahir bəy özü imkan yaratdı.

Mən bu gün mənəviyyatdan danışanda onu demək istəyirəm ki, mənəviyyatdan danışan adamın mənəvi əsası olmalıdır. Mənəvi əsas da ondan ibarətdir ki, məsələn, mən 1962-ci ildə Ali Məhkəməyə gələnədək 7 il Ali Sovetdə işləmişəm. 1972-ci ildə Cəfər Cəbrayıloviç Heydər Əliyevə məruzə elədi, Heydər Əliyev bizi hakim göndərdi. Hakim göndərəndən bəri də minlərlə kadr seçib göndəriblər. O dövrdən bəri adicə hakimlikdən, məhkəmə sədrliyindən Ali Məhkəmənin üzvü səviyyəsinə gəlib çıxmışıq.

Bu ola bilsin ki, qərəzçilik xüsusiyyəti daşısın, amma mənə elə gəlir ki, oturanlar hamısı dünyagörmüş adamlardır, ixtisas dərəcəsi, ümumiyyətlə, heç kəsə bir ixtisas kimi lazım deyil. İxtisas dərəcəsi hakim fəaliyyətidir. Uzun illər hakim işləmişik. 20 ildir hakiməm, mənim kimi bir çox üzv var ki, 20 ildir Ali Məhkəmənin üzvüdür. Amma ixtisas bölgüsünü hər yerdə bəyan eləyirdi ki, mən Ali Məhkəmənin üzvlərinin maddi cəhətdən təminatını... Məsələn, özünün ixtisas dərəcəsinə gələndə guya Ali Məhkəmənin sədrinə ixtisas dərəcəsini vəzifəyə görə verirlər. İxtisas dərəcəsini hakimlik dərəcəsinə, hakimlik ixtisasına görə verirlər. Bir il Ali Məhkəmənin sədri kimi ali ixtisas dərəcəsini özünə rəva bilən adam 20 il hakim işləyən adama birinci dərəcəli ixtisas dərəcəsi vermək üçün əsaslandırır ki, bəlkə, mən sabah onlarla işləmək istəməyəcəyəm.

Əgər bu gün Ali Məhkəmənin sədri Ali Məhkəmənin üzvlərinin təminatı ilə bu baxımdan məşğul olursa, onda mən təsəvvür eləyə bilmərəm ki, Ali Məhkəmənin sədri müstəqil ədalət mühakiməsinin həyata keçirilməsinə necə başçılıq eləyə bilər.

Mən hesab edirəm ki, Ali Məhkəmənin bütün üzvləri bu gün xəcalət çəkirlər ki, uzun illər yüksək nüfuzu, yaxşı hörməti olan Ali Məhkəmənin səviyyəsi bu gün burada ittiham nöqtəsinə, ittiham hədəfinə çevrilib, mühakimə olunur. Buna görə bütün Məclis üzvlərindən üzr istəyirik ki, belə bir məsələnin müzakirəsi bu səviyyəyə gəlib çatıb. Heydər Əliyev, Sizdən də üzr istəyirik ki, bu gün belə gərgin şəraitdə biz çıxış etməliyik.

Mən hesab edirəm ki, hər halda, bunun günahı, ola bilsin, Tahir Kərimlidə olmuş olsa da, Məclisdə də az deyil. Məclisin də Ali Məhkəmənin sədrinin seçilmə məsələsində, təbii ki, əsas rolu var. Əvvəllər də Ali Məhkəmənin sədri müəyyən olunmuş qaydada seçilib. Amma hər halda, bir kollektivdə üç hakimiyyətdən birinin başında duran rəhbər bir işçini, ədalət mühakiməsini yerinə yetirən bir işçini ədalət mühakiməsinin başına qoyanda, heç olmasa, etik cəhətdən də olsa ədalət mühakiməsini həyata keçirən şəxslərdən bir 5-10 nəfər ağsaqqal yığıb soruşmaq olar ki, bu adam hakim işləyib, bunu bu vəzifəyə seçməkdə nə dərəcədə düz hərəkət eləyirik, nə dərəcədə eləmirik. Birdən-birə seçib Ali Məhkəməyə sədr qoyanda, təbiidir ki, onun belə ağır nəticələri olacaq. Mən üzr istəyirəm.

**Sədrlik edən.** Ali Məhkəmənin üzvləri yazıb qol çəkiblər. Əlavə çıxışlara ehtiyac yoxdur. İmza atan adamlardan heç kəs imzasından imtina etmir ki? Əgər varsa, buyursun. Əgər yoxdursa, hamısının çıxış etməsinə ehtiyac yoxdur... Məclis üzvlərindən, görürəm ki, Cümşüd Nuriyev, Rauf İsmayılov, Sabir Rüstəmxanlı, Arif Rəhimzadə çıxışlara yazılıblar. Belə bir geniş müzakirəyə ehtiyac varmı? İstəyirsiniz müzakirə eləyək, ancaq bəlkə, Tahir Kərimli bu barədə özü bir balaca fikirləşsin. Nə deyirsiz? Yaxşı, Tahir Kərimli söz istəyir, buyursun Tahir Kərimli.

**Tahir Kərimli.** Heydər bəy, çox sağ olun, mənə söz verdiniz. Doğrudan da, mənə ali ixtisas dərəcəsi verilən zaman bunu Baş prokurorla bizə təqdim etdilər. Mən Prezidentdən xahiş etdim ki, bəlkə, lazım deyil, dedilər, mümkün deyil, çünki Arbitraj Məhkəməsinin sədrinə verilir. O yüksək dərəcəni almaqda mənim günahım yoxdur. Mən heç kimə subyektiv baxmamışam.

Sonra məni Milli Məclis seçib bəyəm? İsa Qəmbər məni, sadəcə olaraq, təqdim eləyib. Doğrudan da, mən qeyd eləmişəm ki, orada oturanlardan mənim stajım çox azdır. Təqdim eləyiblər, mən bu təşkilatın işi üçün gəlmişəm. Öz sözlərini o vaxt deyərdilər.

Doğrudan da, mən telefon götürməmişəm. Çünki bunu onlar özləri yaxşı bilirlər. Hamı zəng eləyirdi, onu-bunu xahiş eləyirdi. Mən istəmirdim ki, kimsə mənə telefonda təsir eləyə. Ona görə mən Sizə fikrimi deyərəm, Heydər bəy. Bu yaxında – bu gün, ya sabah...

**Sədrlik edən.** Onda mən məcburam, yazılan Məclis üzvlərinə söz verəm. Ancaq qısa, yəqin ki, iki dəqiqə. Əli Ömərov.

**Əli Ömərov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Mən dünən gündəliklə tanış olanda heç çıxış etmək məqsədim yox idi. Amma bu gün Ali Məhkəmənin sədrinin birinci müavini Xanlar Hacıyevin bir sözündən sonra çıxış etmək qənaətinə gəldim. Doğrudan da, hər hansı bir şəxs müəyyən bir vəzifəyə təyin olunarkən əvvəlcə özünün qabiliyyətini göstərməlidir.

Şəxsən mən 17 ildir ki, prokurorluq sistemində işləyirəm, adicə stajorluqdan baş müstəntiq, prokuror nəzarətinin müxtəlif sahələrində köməkçi, 10 ildir ki, prokuror işləyirəm. Bundan əlavə, peşəkarlıq səviyyəsinə görə hələ 1991-ci ilin yanvar ayında Azərbaycan Milli Elmlər Akademiyasının akademikləri məni hüquq elmləri doktoru seçmişdilər. Lakin məni Azərbaycan Respublikasının Baş prokuroru təyin etmək istərkən iki-üç gün bundan imtina etmək istədim. Belə fikirləşirdim ki, mən 17 il işləməyimə baxmayaraq, bəlkə də, bu vəzifənin öhdəsindən gələ bilmərəm. İnandırım sizi, indi də xidməti kabinetə qapını açıb girərkən bədənimdə bir üşütmə hiss eləyirəm, görəsən, mən bu işin öhdəsindən gələ biləcəyəmmi?

Tahir Kərimlinin siyasətlə məşğul olmasının ən pis cəhəti nədən ibarətdir. Mən, məsələn, 17 il həyat fəaliyyəti keçmiş bir adam əgər rəhbərlik tərəfindən respublikanın Baş prokuroru vəzifəsinə təyin olunmuşamsa, Tahir Kərimli "Mühakimə" qəzetində müsahibə verərkən indiki kadrların yerliçilik prinsipi əsasında seçilməsini göstərir. Bu mənim təqsirimdir ki, taleh mənə bəxş eləyib, Ermənistanın Amasiya rayonunda anadan olum? Hərçənd bu torpağın özü də vaxtilə türk torpağı olubdur. Axı kadrların seçilməsini yerlipərəstliyə və qohumbazlığa bağlayan bir vəzifəli şəxsin, o cümlədən Ali Məhkəmənin sədrinin belə bir ifadə verməsi, görün respublikada ictimai-siyasi vəziyyətin nə qədər

kəskinləşməsinə gətirib çıxara bilər. Buna düşmənin dəyirmanına su tökməkdən başqa ayrı cür ad verə bilmirəm.

Bundan əlavə, Tahir Kərimli öz məsləkdaşlarına, Ali Məhkəmənin üzvlərinə bu gün, demək olar ki, təhqiredici söz dedi. Guya ki Ali Məhkəmənin üzvləri olan bu peşəkarlar hələ indiyə kimi bilmirlər ki, Ali Sovet yoxdur. Necə yəni Ali Sovet yoxdur?

Ali Sovet var, Milli Məclisin özü Azərbaycan Ali Sovetinin Milli Məclisi adlanır, sadəcə olaraq, Ali Sovetin sessiyası öz funksiyalarını Milli Məclisə veribdir. Bu o demək deyildir ki, Ali Sovet yoxdur, Azərbaycan Ali Soveti var.

Tahir Kərimli təmizlikdən danışdı. Mən sizə bir fakt demək istəyirəm. İsmayıllı şəhərinin ərazi bölgü üzrə səlahiyyətli nümayəndəsi Həmidli və katibə Həsənovanın imzaladıqları 31 avqust 1992-ci il tarixli 9804 nömrəli arayışda Tahir Kərimlinin ailə tərkibi 8 nəfərdən ibarət göstərilib. Həmin arayışda da ailə tərkibində Tahir Kərimlinin qaynı Taleh, baldızı Nazirə və bacısı oğlu İlqar göstərilir. Tahir Kərimli mənzil sahəsi alarkən həmin arayışı, yəni saxta arayışı Bakı Şəhər İcra Hakimiyyətinə təqdim etmişdi, yoxlama zamanı aşkar olundu ki, həmin göstərilən şəxslər heç İsmayıllıda da Tahir Kərimlinin ev kitabçasına daxil deyillər, yəni onun ailə üzvləri sırasına daxil deyillər. 8 nəfəri təqdim eləyib ümumi mənzil sahəsi 101 kvadratmetr olan mənzil alandan sonra sərəncamda Tahir Kərimlinin ailə tərkibi 7 nəfər, orderdə isə 5 nəfər göstərilir. Mən bunu sənədlərlə deyirəm. Başınızı bulamayın, sənədlərin tarixini və nömrəsini mən Sizə deyə bilərəm.

Bir də sizə bildirmək istəyirəm ki, fakta görə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 167-ci maddəsi ilə bu barədə mən cinayət işi qaldırmışam. Özü də dediyim sözlərin məsuliyyətini dərk eləyirəm və bu dediklərimin hamısını sənədlə deyirəm.

Mən bir şey soruşmaq istəyirəm, Tahir Kərimli burada elan elədi ki, Ali Məhkəmənin sədri o vaxt vəzifəsindən istefa verə bilər ki, o, qanunu kobud surətdə pozsun. Rəsmi sənədləri bilə-bilə saxtalaşdırmaq və saxta sənədlərdən istifadə etməklə müəyyən hüquq və səlahiyyətlər əldə etməyin özü qanunu pozmaq deyilmi? Vəzifəli şəxs üçün bundan da böyük cinayət varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yox, bəsdir. Tahir bəy, sakit olun, əyləşin, sakit olun. Bağışlayın, üzr istəyirəm. Bilirsiniz, şübhəsiz ki, Tahir Kərimlinin ev

alanda o qanunsuz hərəkəti pislənməlidir. Bağışlayın, bağışlayın, ancaq biz, yəqin ki, Tahir Kərimli haqqında burada söhbət aparanda daha mühüm məsələlərə toxunmalıyıq.

Ali Məhkəmənin sədr müavini Rzayeva xahiş elədi. Rzayeva.

**Gülzar Rzayeva, *Ali Məhkəmənin sədr müavini.*** Ora gedim?

**Sədrlik edən.** Sakit olun. Ali Məhkəmənin sədr müavini, Siz söz istədinizmi?

**Gülzar Rzayeva.** Bəli, bəli. İstəmişəm.

**Sədrlik edən.** Buyurun.

**Gülzar Rzayeva.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Tahir Kərimlidə elə məharət var ki, ümumiyyətlə, biz Ali Məhkəmənin üzvləri də, hakimlər qrupu da hamısı onun o çıxış məharətinə, humanistliyinə çox inanmışıq, çox aldanmışıq. Təəssüf ki, onun bütün dedikləri hamısı reallıqdan uzaqdır. O, həmişə xalq adından danışıb, humanistlikdən danışıb. Hansı qəbul günü o vaxtında işdə olubdur, uzaq kəndlərdən, uzaq rayonlardan gələnləri qəbul eləyibdir? Əvvəllər bilirsiniz ki, xalqımız cəbhənin humanistliyinə, verdiyi vədlərə aldanmışdı. Ona görə də Ali Məhkəməyə axın yaranmışdı. Tahir Kərimlinin həftənin birinci günü qəbul günləri olubdur. Həmişə sorağı İsmayıllı şəhərindən gəlibdir. Saat 4-də, 5-də işə gəlib. Yaşlı qadınlar, qocalar, uşaqlı qadınlar həmişə Ali Məhkəmənin qarşısında daşların üstündə oturubdur. Hansı xalqdan danışır? Hansı xalqın qədrini Siz bilmisiniz?

Bir fakt deyim. Vicdan əzabı çəkmişik. Bu yaxınlarda Xanlar rayonundan ər-arvad – Quliyevlər gəlmişdilər. Neçə dəfə mənim qarşımı kəsiblər ki, Tahir Kərimli bizi qəbul eləmir, 4 min manat qonşudan borc alıb gəlmişik, nə üçün Tahir Kərimli bizi qəbul etmir.

Minlərcə belə fakt demək olar. Heç bir humanistlikdən söhbət gedə bilməz. Siz bunları xalqın gözünə kül üfürmək üçün demisiniz. Təəssüflər olsun ki, biz müavinlər və Ali Məhkəmənin üzvləri də sizə inanırdıq, lakin Siz tamamilə reallıqdan uzaq olmusunuz. Sizin bütün hərəkətləriniz bizi bura gətirib çıxarmışdır. Siz üç nəfər şikayətçi görən kimi, üzr istəyirəm, dustaqlar gələn yerdən – arxadan keçib getmisiniz. Ali Məhkəmədə Siz xalqdan qorxmusunuz. Xalqın adından danışırsınız, özünüzü xalqa elə göstərirsiniz ki, guya xalqı sevirsiniz, bu xalqın dərdinə qalırsınız. Çox təəssüf ki, Siz bunlardan uzaq olmusunuz. Özünüz də yaxşı bilirsiniz.

Siz Ali Məhkəmənin adından qəzet buraxmısınız – "Paklıq" qəzeti. Özünü doğrultmadı. İndi "Mühakimə" qəzeti buraxırsınız. Yazırsınız ki, Ali Məhkəmə həmin qəzetin təsisçisidir. Ali Məhkəmə nə vaxtdan qəzet təsisçisi olubdur? Millət vəkillərinin neçəsi orada təhqir olunubdur, özləri də, yəqin, bilirlər, oxuyublar. Sabah həmin millət vəkilləri və ya başqa vətəndaşlar bizi – Ali Məhkəməni məhkəməyə verəndə nə cavab verəcəyik? Nə üçün Siz vəzifənizdən sui-istifadə eləyib bizi qəzetin təsisçisi kimi yazırsınız? Ali Məhkəmə bəyəm təsisçi olmaq iqtidarındadır, Ali Məhkəmənin fondunda bir qəpik pul yoxdur.

Sonra "Mercedes" maşını haqqında. Siz həmişə "xalq-xalq" demisiniz. Bilirsiniz, bizi çıxış eləməyə, bizi bu vəziyyətə gətirməyə nə məcbur eləyir? Sizin xalqı aldatmağınız. Çox təəssüflər olsun ki, Siz xalqı aldadırsınız, Siz hansı xalqın qədrini bilmisiniz, hansı xalqdan danışırsınız? Gələndən ancaq maşınla məşğul olmusunuz. Siz "Mercedes"in 003 nömrəsinə görə Prezidentin qəbuluna getmisiniz. Dəfələrlə bizim yanımızda telefonlara yumruqla vurmusunuz. O daxili telefonlarda Siz nə şikayətçiyə cavab vermisiniz, nə də Ali Məhkəmənin üzvlərinə. Yoxlayıb görmək olar. Həftələrlə, aylarla tələb elədiyiniz işlər Ali Məhkəmənin üzvlərinin qoltuğunda qalıbdır, qəbulunuza düşə bilməyibdir. Siz bir nəfər köməkçi gətirmisiniz, dünənə qədər katib idi, onun vasitəsilə bizimlə danışmısınız. Nə vaxt işi məruzə eləməyə görə axtarmışıq, deyibsiniz, burada yoxsunuz, İsmayıllıdasınız. Yaxud gələndən iki-üç saat sonra niyə daxili telefonlara cavab vermirsiniz? Biz öz şəxsi işimiz üçün Sizi axtarmamışıq, xalq üçün, camaat üçün, şikayətçi üçün axtarmışıq. Dəfələrlə təkrar şikayət daxil olur, tələb elədiyiniz, Sizə məruzə edilməli işlər olubdur. Nə üçün bunlardan danışmırsınız? Ayrı şeylər danışırsınız. Bəsdirin də, heç olmasa, bu gün vicdanla deyin ki, mən səhv eləmişəm. Xalqın adından bu qədər istifadə etməyin!

**Sədrlik edən.** Rauf İsmayılov, buyurun. Mən çox rica edirəm, çox qısa, çünki...

**Rauf İsmayılov.** Hörmətli sədr. Mənim həmişə danışığım qısa və konkret olur. Mən Sizə bir şey demək istəyirəm. Siz bəzən təklifləri səsə qoyursunuz. Xahiş eləyirəm, mənim verdiyim bu təklifi də səsə qoyasınız, reaksiya verəsiniz. Təklifimi də bildirmək istəyirəm, mən elə bilmişəm ki, iqtidarın içərisində bir-iki nəfər babat adam varsa, biri də Tahir Kərimlidir. Amma bu gün o çıxışdan – Ali Məhkəmənin sədrinin birinci müavininin çıxışından sonra hiss olunur ki, ziyalı adamdır, mən qəti qərara gəlirəm və Milli Məclisin üzvü kimi təklif edirəm ki, bundan

sonra nəinki bir gün, heç bir saat da o, vəzifədə qala bilməz. Bu gün mən ona etimadsızlığımı bildirirəm və xahiş edirəm, təklifimi səsə qoyasınız. Sağ olun.

**Sədrlik edən.** Sabir Rüstəmxanlı.

**Sabir Rüstəmxanlı.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Rauf müəllim, üzr istəyirəm, çox təəssüf ki, Milli Məclisin yığıncağında millət vəkilləri bir məsələni unudurlar ki, burada respublikanın hakimiyyət orqanlarının birinin sədrindən söhbət gedir. Bura sex yığıncağı və ya hər hansı bir təşkilatın yığıncağı deyil ki, səsvermə ilə, yaxud ümumi müzakirə ilə, etimadsızlıqla biz onu bəyənmirik, bizim bundan xoşumuz gəlmir, ona görə filankəs işdən çıxarılmalıdır. Məsələni bu cür qoymaq olmaz. Onsuz da, biz qanunları poza-poza gedirik.

İndiki vaxtda, hörmətli sədr, Siz bu mühüm vəzifəni öz çiyinlərinizə götürəndə dönə-dönə elan elədiyiniz bir məsələ var, o da vətəndaş həmrəyliyidir, vətəndaş hüququdur, müxtəlif siyasi qurumlara, müxtəlif siyasi təşkilatlara eyni gözlə baxmaq və hamısının Azərbaycan hakimiyyətinə, Azərbaycan dövlətinin idarəçiliyinə cəlb olunmasıdır. Bu mənada, mənə elə gəlir ki, biz bu gün vəzifədə olan adamların hamısına bir az diqqətlə, qayğı ilə yanaşmalıyıq, o cümlədən Tahir Kərimliyə də. Tahir emosional adamdır, biz hamımız bilirik ki, nə qədər emosional olsa da, o heç vaxt haqqı nahaqa verməyib, həmişə ədalətli olub. Cəmi bir neçə ay bundan əvvəl Tahirin işdən çıxarılma məsələsi qoyulmuşdu. Onsuz da, köhnə iqtidar deyirsiniz və bu dəqiqə köhnə hakimiyyəti söymək dəb olub. Köhnə hakimiyyət də bu keyfiyyətlərinə görə, prinsipiallığına görə, həmişə sözü üzə dediyinə görə bu məsələni o qədər də yaxına buraxmırdı. Dəfələrlə Tahir haqqında məsələ qaldırılmışdır, onun işdən çıxarılması məsələsi, mən bilirəm, dəfələrlə müzakirə olunmuşdur. O, həmişə sözü üzə deyib, köhnə iqtidarın vaxtında da, indi də.

Mənə elə gəlir ki, bu gün qanundan danışılmır. Qanunun keşiyində dayanan hüquq işçiləri, hakimlər, təəssüf ki, qanundan az danışdılar. Tahir haqqında söhbət getmir. Maşın məsələsi, telefonu qaldırmır, adamları qəbul eləmir. Bu, qanun deyil. Mənə elə gəlir ki, hakimlər bu dillə danışmalı deyillər.

Burada söhbət ondan gedir ki, Tahir siyasətə qoşulub. Bu gün gərək etiraf eləyəydi ki, mən səhv eləmişəm. Amma təəssüf ki, elə bir zamanda yaşayırıq ki, hamı siyasətə qoşulub, prokuror da, məhkəmə də. Siyasətdən kənarda qalan adam olmayıb. Tahir də bu səhvin ucundan,

mənə elə gəlir ki, məhkəmə sədrinə yaraşmayan bir şəkildə bəzən müsahibələrində, buradakı çıxışlarında öz mövqeyini bildirib. Məncə, o bu səhvlərini başa düşür.

Biz bu gün heç bir qəti qərara gələ bilmərik. Əgər biz bir qərara gəlsək, bu da növbəti bir qanun pozuntusu olacaq.

Mən elə bilirəm ki, bu gün gərək bu iş bu səviyyədə müzakirə olunmayaydı. Müvafiq komissiyalar var, Ali Sovetin müxtəlif hüquq orqanları var, bu sənədi bişirib hazır şəkildə bura çıxarmalıydılar. Camaat bizə baxır və biz burada xırda şeylərdən ötrü bir-birimizi ittiham edirik. Ali Məhkəmənin hakimi deyir ki, xəcalət çəkirəm ki, filan məsələlərə görə Tahirlə bir yerdə işləmişəm. Bəli, bizim hüquq işçilərimizin bir çoxu xəcalət çəkməlidirlər, amma ona görə yox ki, filan adamlarla işləyiblər, ona görə ki bizim hüquq sistemimizdə qanunsuzluq, özbaşınalıq, əliəyrilik baş alıb gedir, ona görə xəcalət çəkmək lazımdır. Bu, faktdır, əgər faktlardan söhbət gedirsə, hər birimizin əlində kifayət qədər fakt var.

Mən təklif eləyirəm, bu gün əgər Tahirin səhvləri varsa... Ola bilsin, professional, peşəkarlıq cəhətdən respublikada o yerə Tahirdən də layiqli namizədlər tapıla bilər. Amma yenə hər şey qanunla həll olunmalıdır. Ali Sovetin komissiyaları bunu öyrənsin, Tahirin özü ilə danışıqlar aparılsın və sülh şəraitində, heç bir qarşıdurma yaratmadan respublikanın ümumi mənafeyi və yaranmış şərait nəzərə alınaraq qanuni yolla bu məsələ həll olunsun.

**Sədrlik edən.** Məclis üzvlərindən yenə də çıxış etmək istəyənlər var. Ancaq görürəm ki, iki təklif var, birini Rauf İsmayılov verib, birini də Sabir Rüstəmxanlı. Tofiq, Sizdən çox çıxış eləyən yoxdur. Yaxşı, Sizə söz verirəm, sonra bəhanə eləyəcəksiniz. Buyurun.

**Tofiq Qasımov.** Bəhanə eləmirəm, sözümü deməliyəm. Ona görə ki mən Dövlət quruculuğu və hüquq siyasəti komissiyasının üzvüyəm və bu məsələni birinci gün gündəliyə salanda da Sizdən xahiş eləmişdim ki, o, mütləq komissiyalarda müzakirə olunsun. Xüsusilə bizim komissiya bu məsələyə mütləq baxmalı idi. Bu məsələ birbaşa Məclisə çıxarılmaqdansa, o komissiyalarda müzakirə olunardı, daha yaxşı olardı.

Çünki elə bir şərait yaranıb ki, biz indi Milli Məclisi, sadəcə olaraq, bir növ kollektivlə ayrı-ayrı şəxslər arasında, nə bilim, onların işçiləri arasında intriqa mərkəzinə çevirmişik. Burada birini ittiham eləyirik, birini ittiham eləmirik.

Məsələ burasındadır ki, mən özüm də hesab eləyirəm ki, qanuni olaraq Ali Məhkəmənin sədri ədalət mühakiməsini həyata keçirən ali bir orqanın başçısı kimi heç bir siyasətlə məşğul olmalı deyil. Bu baxımdan Tahir bəy, doğrudan da, Xalq Cəbhəsində fəaliyyətini rəsmi şəkildə dayandırıb. Ona görə də onun, ümumiyyətlə, siyasətlə məşğul olması, mən də hesab eləyirəm ki, düzgün deyil.

Tahir emosionaldır. Hakim üçün emosionallıq mənfi bir xüsusiyyət kimi qəbul edilməlidir. Amma insandır da, biri emosional olur, biri həddindən artıq təmkinli olur. Bu da Allahın verdiyi paydır, onun təbiətinə aid olan şeydir. Yenə deyirəm, Tahir bəyin emosionallığı da, çılğınlığı da olsa, onun hər halda, ədalətli olmağına mən şübhə eləmirəm. Burada danışan adamların da böyük əksəriyyəti, elə Ali Məhkəmənin sədr müavini xanımın özü də bir siyasi xadim kimi çıxış elədi. Yəni Ali Məhkəmənin sədrinin birinci müavininin çıxışı, doğrudan da, müəyyən əsaslarla professional səviyyədə çıxış idisə, sonrakı çıxışlardan da bir çoxu elə siyasi çıxışlar oldu. Bu bizim ümumi xəstəliyimizdir ki, bu saat xalqın hamısı siyasətlə məşğul olur. O baxımdan da mən elə hesab eləyirəm ki, Tahir Kərimli bu məsələni mütləq, birinci növbədə, kollektivdə özlərinin daxili işi kimi həll etməli idi. Bu məsələ sonra bura çıxarılmalı idi.

Hesab eləyirəm ki, Tahir Kərimlinin müəyyən nöqsanı var, kollektivlə bir az inciklik, küskünlük əmələ gəlib. Məhz o incikliyi kollektivin özündə aradan qaldırsaydı, biz də bu gün buna bu qədər vaxt sərf etməzdik.

O biri tərəfdən, misal üçün, Rauf bəy dedi, Tahir Kərimliyə etimadsızlıq göstərək. Bu, yenə də bizim Konstitusiyamıza, qanunlarımıza zidd bir hərəkətdir. Ona görə ki bizim faktiki olaraq Ali Məhkəmənin sədrini hər hansı bir şəkildə sədrlikdən kənar etmək imkanımız yoxdur, qanun buna yol vermir, ancaq o özü istəsə, istefa verə bilər, könüllü olaraq bu vəzifədən gedə bilər.

Mən elə başa düşürəm ki, müraciətdə məsələ məhz bu şəkildə qoyulmuşdur, elə hüquqi cəhətdən də düzgün qoyulmuşdur. Məncə, müəyyən müddət vaxt verilməlidir. Ondan əlavə əgər Milli Məclis lazım bilərsə, bu məsələyə yenidən komissiyalarda da baxmaq olar. Çox sağ olun, təşəkkür eləyirəm.

**Sədrlik edən.** Mən Sizin çıxışınızla əlaqədar bir neçə kəlmə deməyə məcburam. Siz Milli Məclisdə Dövlət quruculuğu və hüquq siyasəti komissiyasının sədrisiniz. Bu komissiyanın sədri kimi sizə bildirmək

istəyirəm ki, Ali Məhkəmə hakimiyyət ölçüsündə üç hakimiyyətdən biridir. Bu, çox yüksək məsuliyyətə mənsub olan bir təşkilatdır. Ali Məhkəmənin sədri əgər, doğrudan da, müstəqil bir dövlətdə üç hakimiyyət bölgüsündə üçündən birinə rəhbərlik eləyirsə, onun səviyyəsində olmalıdır. Bu, bir.

İkincisi, Siz deyirsiniz ki, o, siyasətə qoşulmamalı idi. Bir ildir burada siyasətlə məşğul olur. Siz də bu Məclisdəsiniz. Nə üçün bir dəfə bunun qarşısını almamısınız? Eyni zamanda komissiya sədrisiniz, Sizin səlahiyyətiniz də var idi. Nə üçün bunun qarşısını almamısınız? Nə üçün bir dəfə bu Məclisdə çıxış edib ona deməmisiniz ki, Ali Məhkəmənin sədri siyasətlə məşğul ola bilməz. Nə üçün o burada isterikalar yaradanda bu sözü, təəssüf ki, mən Azərbaycan dilinə tərcümə eləyə bilmirəm, bu Məclisdə şəbihlər çıxaranda bir dəfə də onun qarşısını almamısınız.

İkinci tərəfdən, Sizin bu sözlərinizə mən tam etiraz eləyirəm ki, buranı məhkəməyə çevirmisiniz. Siz Dövlət quruculuğu və hüquq siyasəti komissiyasının sədri kimi bilməlisiniz ki, Ali Məhkəmə adi bir kollektiv deyil. Yəqin ki, bunları indiyə qədər hələ Siz öyrənməmisiniz. Ali Məhkəmənin hər bir üzvü yüksək vəzifəli şəxsdir. Ali Məhkəmə kollegiyası başqa nazirliklərin kollegiyası kimi deyil, Ali Məhkəmənin bütün işini aparan onun üzvləridir və üzvlərinin də üzərində sədri və müavinləridir. Ona görə də Ali Məhkəmənin 29 nəfər üzvü Milli Məclisə müraciət eləyibsə, bunu mən, sadəcə olaraq, nəzərdən kənarda qoya bilməzdim. Bu məsələnin buraya çıxarılması hüquqi nöqteyi-nəzərdən və Azərbaycanda Ali Məhkəmənin dövlət hakimiyyətində tutduğu yerə görə tamamilə haqlıdır, tamamilə əsaslıdır. Ona görə də Siz, yəqin ki, öz səlahiyyətlərinizlə, öz kompetensiyanızla hələ indiyə kimi lazımi qədər öyrənə bilməmisiniz, haqlı, haqsız, daim cürbəcür sözlər demisiniz, indi də deyirsiniz. Amma bilin ki, bunların cavabını verməyə də bizim imkanımız var.

Mən belə güman edirəm ki, bu məsələnin daha geniş müzakirə olunmasına ehtiyac yoxdur. Ancaq təklif olunubdur, Rauf İsmayılov, Sabir Rüstəmxanlı təklif veribdir. Bilmirəm, bu təkliflərin ikisini də səsə qoymaq lazımdır? Ancaq mən istərdim, bildirəm ki, biz hər bir məsələyə qanun çərçivəsində baxmalıyıq, heç bir ehtiraslara qapılmamalıyıq. Baxarkən bu işə ciddiyyətlə yanaşmalıyıq.

Şübhəsiz ki, Tofiq Qasımov da Tahir Kərimliyə tövsiyə etdi ki, belə bir vəziyyətdə özü istefa verə bilər. İndi Əbülfəz Elçibəyə də çox adam

deyir ki, istefa versin, amma vermir. Tahir Kərimliyə də burada çoxları – elə onun silahdaşı Tofiq Qasımov tövsiyə edir, ancaq o, istefa vermir. Ona görə də Rauf İsmayılov, yəqin ki, öz təklifi haqqında bir balaca düşünsün. Tahir Kərimlini vəzifədən azad etmək, mənə belə gəlir ki, o qədər də doğru olmaz. Bəlkə biz komissiyaya tapşıraq, bu məsələyə bir də baxsın və təklifini versin. Əgər o vaxta qədər Tahir Kərimli özü bu barədə dərindən düşünə bilməsə... Necə baxırsınız, Rauf İsmayılov?

Bizim komissiya da bu barədə qoy öz fikrini desin, çünki bizim Ali Məhkəmənin sədrini azad etmək haqqında şərtlər var.

Mən yenə də istəmirəm, bu söhbətə qayıdım. Tahir Kərimlidən qabaq Ali Məhkəmənin sədri işləyən adamı qanunsuz olaraq vəzifədən azad eləyəndə Tofiq Qasımov səsini qaldırmayıb, bu işin qanunsuz olduğunu bildirməyib. Onun Ali Məhkəmə sədrliyindən azad olunmasına heç bir komissiyada baxılmayıb. Ancaq biz bu yolla gedə bilmərik. Gərək işləri qanun çərçivəsində həll eləyək. Təklif edərdim ki, komissiyaya tapşıraq, yəqin ki, komissiya qısa müddətdə öz təklifini verə bilər. Çünki yenə də deyirəm, mən bir neçə şərtlərlə tanış oldum. Ali Məhkəmə sədrinin vəzifəsindən azad olunması üçün kollektivin rəyindən savayı, müəyyən şərtlər də var. Əgər komissiya belə bir fikrə gəlsə, o şərtləri gərək bizə bildirsin və biz də o şərtlər əsasında hərəkət eləyək.

Bununla mən onu demək istəmirəm ki, bu, Milli Məclis üçün çətin bir məsələdir. İstəyirəm ki, hər şey qanun çərçivəsində olsun.

Tahir Kərimli də əgər, doğrudan da, öz vəziyyətini anlayırsa, bu kollektivlə işləyəcəksə və kollektiv də ona belə bir münasibət göstərirsə, şübhəsiz ki, Tahir Kərimli gərək özü bundan nəticə çıxarsın. Axı kollektivlə işləmək lazımdır. Kollektiv də, yenə deyirəm, adi kollektiv deyil.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onlar Ali Məhkəmənin üzvləridirlər. Bunlar heç bir başqa kollektivin üzvlərinə bənzər vəzifəli şəxslər deyillər. Düşünsün. Mən belə təklif edərdim. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, üç gün müddətinə komissiya baxsın və öz təklifini versin. Belə bir təkliflə...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli. Dövlət quruculuğu və hüquq siyasəti komissiyası, Mandat və etika komissiyası. Daha hansı komissiyanı istəyirsiniz?

Üç gün, ya beş gün? Neçə gün istəyirsiniz? Bəli? Növbəti Məclisə qədər. Ola bilər, növbəti Məclis sabah olsun, o vaxta çatdıra bilməzlər. Gəlin üç gün vaxt verək. Üç günə komissiya baxıb öz fikrini desin. Əgər Məclis üzvləri bununla razıdırlarsa, onda xahiş edirəm, münasibət bildirsinlər.

***(Səsvermə)***

Qəbul edildi. Növbəti məsələ Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında Azərbaycan Respublikasının qanun layihəsi barədədir. Sosial siyasət komissiyası. Buyurun, Sultan bəy.

**Sultan Məmmədov, *Sosial siyasət komissiyasının sədri.*** Bu qanun Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş, hərbi əməliyyatla əlaqədar olaraq itkin düşmüş və qanunvericiliklə müəyyən edilmiş qaydada ölmüş hesab edilən şəxslərin və onların ailələrinin statusunu və sosial müdafiəsini tənzimləmək məqsədi güdür. Qanun 8 maddədən ibarətdir. Qanunun 1-ci maddəsində şəhid və şəhid ailəsi haqqında anlayış öz əksini tapmışdır. Burada şəhid hesab olunur: Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş, hərbi əməliyyatla əlaqədar olaraq itkin düşmüş və qanunvericiliklə müəyyən edilmiş qaydada ölmüş hesab edilən şəxs.

Şəhid ailəsinin üzvləri hesab edilirlər: ər-arvad, valideynlər, 18 yaşına çatmamış və ya həmin yaşa çatanadək əlil olmuş 18 yaşından yuxarı uşaqlar, qardaşlar, bacılar. Texniki peşə, orta ixtisas məktəblərində və ali təhsil məktəblərində təhsil alanlar isə bu məktəbləri bitirənədək, lakin ən çoxu 23 yaşına çatanadək qanunla onları saxlamalı şəxs yoxdursa, babalar və nənələr.

Qanunun 2-ci maddəsində şəhid və şəhid ailəsinin statusunun verilməsi öz əksini tapmışdır. Burada müvafiq dövlət orqanları ilk müraciətdən bir ay müddətində bu məsələni həll etməlidirlər.

3-cü maddədə şəhid xatirəsinin əbədiləşdirilməsi və şəhid ailələrinin hüquqları öz əksini tapmışdır. Bu maddədə göstərilir ki, şəhid haqqında qanun var. Bu qanuna Nazirlər Kabineti, Ədliyyə Nazirliyi, Əmək və Sosial Müdafiə Nazirliyi, Ali Sovetin Hüquq şöbəsi tərəfindən baxılıb rəy verilmişdir.

Ondan başqa qeyd etmək istəyirəm ki, bu qanunda müəyyən edilmiş güzəştlər və təminatlar Nazirlər Kabinetinin dəfələrlə qəbul etdiyi qərarlarla, Prezidentin fərmanları və 13 yanvar 1992-ci il tarixli Milli Şuranın qərarı ilə müəyyən edilmişdir. Bu qanunda müəyyən olunmuş güzəşt və təminatlar üçün heç bir əlavə vəsait tələb edilmir. Bu qədər.

**Sədrlik edən.** Sual varmı? Yoxdur. Əyləşə bilərsiniz. Sual var? Bağışlayın. Şadman Hüseynov, buyurun.

**Şadman Hüseynov.** Sultan bəy, əgər şəxs döyüş bölgəsində qarət, ya zorakılıq üstündə, yaxud da ola bilər, hərbçi tərəfindən öldürülübsə, bəs onun statusu necə təyin ediləcək?

**Sultan Məmmədov.** Burada söhbət şəhid statusundan gedir, qarətçinin statusundan yox. Əgər qanunvericiliklə o adam həlak olmuş və yaxud itkin düşmüş hesab edilirsə, bununla bağlı sənəd varsa, o, şəhid hesab olunur.

**Şadman Hüseynov.** İkinci sualım var. Birinci sualın cavabı məni qane eləmədi, ona görə çıxışımda deyərəm. Bu qanunun 3-cü maddəsinin 4-cü, 5-ci bəndləri var, abzasları var.

**Sultan Məmmədov.** Eşitmədim.

**Şadman Hüseynov.** Üçüncü maddə, abzas 4, bir də 5, 6, daha doğrusu, üzr istəyirəm.

**Sultan Məmmədov.** Nə barədədir o abzas? İndi mən burada durub yarım saat abzas axtaran deyiləm. Məzmununu deyin.

**Şadman Hüseynov.** Ailə başçısının itirilməsinə görə pensiya təyin edilərkən pensiyanın miqdarı ailənin əmək qabiliyyəti olmayan hər bir üzvü üçün minimum pensiyanın yüz faizindən az olmamalıdır. Bu, beşinci abzas. Altıncı abzas, valideynlərdən biri həlak olduğu halda, onların hər uşağına 18 yaşı, şagirdlər üçün 16 yaşından 18 yaşı tamam olana kimi minimum əmək haqqının üçdəbir hissəsi məbləğində dövlət müavinəti təyin edilməsi. Xahiş edirəm, bunu izah edin. Bunu şəhid ailəsinin üzvü necə başa düşməlidir?

**Sultan Məmmədov.** Bilirsiniz ki, minimum pensiya beş min manat müəyyən olunub. Onun yüz faizi qədər əmək qabiliyyəti olmayan hər ailə üzvünə müavinət verilir. İkincisi, Sizin dediyiniz o biri abzasda valideynlərdən biri həlak olduğu halda, onların hər uşağına 16 yaşı tamam olanadək minimum əmək haqqının üçdə bir hissəsi məbləğində, hələlik bizdə minimum əmək haqqı beş min manatdır, onun üçdəbir hissəsi hər bir həddi-büluğa çatmamış ailə üzvünə aylıq dövlət müavinəti kimi verilir.

**Şadman Hüseynov.** Heydər müəllim, xahiş edərdim, indi imkan yaradasınız, bir daha söz almamaq üçün mən çıxış edim.

**Sədrlik edən.** Mən Sizə söz verəcəyəm, indi qurtaraq. Bəlkə, başqa sual verənlər də var. Sual daha yoxdur ki? Var? Mən belə başa düşürəm, bu yazılanlar sual vermək istəyirlər. Tapdıq Kamalov buyursun.

**Tapdıq Kamalov.** Çox sağ olun. Sultan müəllim, sözsüz ki, qanun layihəsi üzərində zəhmət çəkilib, işlənilib, o qədər də çox qüsurlu deyil. Ancaq bununla əlaqədar mən bəzi təkliflər demək istəyirəm. Xahiş edirəm, nəzərə alın. 1-ci maddənin üçüncü bəndinə uşaq evləri də əlavə olunsun, yəni "texniki peşə, orta ixtisas məktəblərində və eləcə də ali təhsil ocaqlarında" cümləsinə "uşaq evləri də", ona "detdom" deyirlər, əlavə olunsun. Bu, bir. İkinci, 2-ci maddədə axırıncı abzasda "zəruri hallarda bu müddət həmin orqanın qərarı ilə artırıla bilər" yazılıb. Bu cümləni, ümumiyyətlə, çıxarmaq lazımdır. Zəruri hallarda bu necə başa düşülür?

**Sultan Məmmədov.** Mən izah edim də. Deməli, bir ay müddətində dövlət orqanları şəhid statusu və şəhid ailəsi haqqında sənəd verməlidirlər, ola bilsin ki, müəyyən səbəblərdən bu məsələni bir ay müddətində həll edə bilmirlər və yaxud hər hansı bir sənədi axtarıb tapmaq, araya çıxarmaq müəyyən vaxt tələb edir. Onunla əlaqədar olaraq dövlət orqanları bu müddəti uzada bilərlər.

**Tapdıq Kamalov.** Sultan müəllim, mən elə bilirəm ki, bunun axırı yenə gedib süründürməçiliyə çıxacaq. Hər məktuba yazacaqlar ki, bu, mümkün deyil. Bu söz çıxarılsa, daha yaxşı olar. Bu mənim fikrimdir, təklifimdir.

Sonra 3-cü maddədə yenə həmin sözlər var, "işçilərin sayı və ya ştatı ixtisar edildikdə əmək məhsuldarlığı və ixtisas dərəcəsi eyni olduqda". Bu sözləri də buradan çıxarmaq lazımdır.

**Sultan Məmmədov.** Təklif verin, münasibət bildirərlər.

**Tapdıq Kamalov.** Sonra, sualdır. Şəhid və şəhid ailələri məsələləri ilə Müdafiə Nazirliyi, Əmək... Orada da yazılsın ki, "yaşayış yerlərində". Burada "yaşayış yerləri" sözləri yazılmayıb. İcra hakimiyyətləri bir ölçü götürəndə burada yaşayış yerləri Bakı nəzərdə tutulur. Ancaq şəhid ailələrinin yaşayış yerində "icra hakimiyyətlərinin qərar qəbul etdiyi" yazılsın.

**Sultan Məmmədov.** Olar.

**Tapdıq Kamalov.** Mən təklif də vermək istəyirəm. Orada əlavə maddə qeyd edilsin ki, şəhid ailələri dövlətdən öz hesablarına növbədənkənar minik avtomaşını ilə təmin olunsunlar. Dövlət tərəfindən öz hesablarına, yəni növbə gözləməsinlər. Əgər istəyən varsa, imkanı olan varsa, növbədənkənar onlara minik avtomaşını verilsin. Bəlkə, ehtiyacları var?

**Sultan Məmmədov.** Mən belə hesab edirəm ki, buna heç bir ehtiyac yoxdur. İndiki vaxtda – bazar iqtisadiyyatı vaxtında minik avtomaşınları sərbəst, hər yerdə satılır, kim istəyir, gedib ala bilər.

**Tapdıq Kamalov.** Yox, bir dəqiqə. İkinci təklifim ondan ibarətdir ki, bu, qanun layihəsində göstərilməyib, əgər şahid ailələri müalicə üçün başqa respublikalara, şəhərlərə gedərlərsə, onlara növbədənkənar dəmir yolu və ya hava nəqliyyatı biletlərinin alınması təmin edilsin. Yaxşı olardı ki, əlli faiz məbləğində.

Sonuncu təklifim şəhid ailələrinin uşaqları ali məktəbə güzəştlə qəbul olunsunlar. Necə deyərlər, müsabiqədənkənar qəbul olunsunlar, onlara üstünlük verilsin.

**Sultan Məmmədov.** Tapdıq müəllim, yəqin, bilirsiniz ki, bizdə ali məktəblərə qəbul test üsulu ilə keçirilir. Orada heç bir müsabiqədənkənar qəbuldan söhbət gedə bilməz.

**Tapdıq Kamalov.** Şəhid ailələrinə güzəşt olmalıdır da.

**Sədrlik edən.** Şaitdin Əliyev, buyurun.

**Şaitdin Əliyev.** Sultan müəllim, çox sağ olsun komissiya ki, bu gün şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə güzəştlər haqqında Milli Məclisə qanun layihəsi vermişdir. Yəqin ki, bu, çoxdan qəbul edilməli idi. Hiss olunur ki, burada müəyyən iş görülüb. Bu qanun hökmən qəbul edilməlidir.

Bu qanunda, xahiş edirəm, bir məsələyə cavab verərdiniz. Maddə 2 şəhid və şəhid ailəsinin statusunun verilməsi qaydası haqqındadır. Burada yazılıb ki, "qanunun 1-ci maddəsində göstərilən əlamətlərə görə, həlak olmuş şəxslər və onun ailə üzvü statusu üçün maraqlı... Bu məsələyə dövlət orqanı və ya müvafiq hərbi hissənin vəsaiti ilə də baxıla bilər. Burada "dövlət orqanı" deyəndə, bilirsiniz, ümumi xarakter daşıyır. Ona görə də bu qanundan məlum deyil ki, dövlət orqanı deyəndə biz hansı dövlət orqanını nəzərdə tuturuq. Olmazmı ki, bu qanunda "dövlət orqanı" deyəndə həmin dövlət orqanının adı dəqiq yazılaydı, biz də o dövlət orqanının adını yazaydıq.

**Sultan Məmmədov.** Sizin bu sualınız qanunun 5-ci maddəsində öz əksini tapıb və dövlət orqanları göstərilir: Müdafiə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və respublikanın yerli icra hakimiyyəti orqanları.

**Şaitdin Əliyev.** Mən elə o məsələnin üzərinə gəlirəm. Sultan müəllim, 5-ci maddənin adını çəkdiniz. 5-ci maddədən belə çıxır ki, Müdafiə

Nazirliyi, yerli icra hakimiyyəti orqanları, yenə də bir neçə orqan var. Hər halda, yəqin ki, müəyyən bir rayonda, şəhərdə, qəsəbədə müvafiq orqan deyəndə bir orqan olmalıdır. Burada da üç orqanın adı çəkilir, hətta orqanlar deyəndə bura əlavə etmək olar, məsələn, Daxili İşlər Nazirliyini. Çünki Daxili İşlər Nazirliyinin nə qədər əməkdaşı şəhid olubdur. Elə bilirəm ki, bu orqanların haqqında da düşünmək lazımdır.

Sonra burada maddə 3-də belə bir cümlə var ki, "uşaqların məktəbəqədər tərbiyə ocağına birinci növbədə qəbulu və pulsuz saxlanması, yeniyetmələrin orta ümumtəhsil və peşə məktəblərinə güzəştli qəbulu". Orta məktəb və ümumtəhsil məktəblərinə qəbul olunub, burada güzəştli qəbul üçün, mən elə bilirəm ki, lazımi bir söz yoxdur.

**Sultan Məmmədov.** Burada çox aydın yazılıb ki, məktəbəqədər təhsil müəssisələri, bəzən bağçalarda...

**Şaitdin Əliyev.** Yox, məktəbəqədər təhsil müəssisələri düzdür. Ancaq orta məktəb və texniki peşə məktəblərinə, elə bilirəm ki, "güzəştli" sözü düz deyil. Ona görə də, məncə, o cümlənin çıxarılması məsələsinə baxmaq olar. Mən elə bilirəm ki, bu qanun layihəsini, deyilənləri nəzərə alıb, bu gün qəbul etmək olar.

**Sədrlik edən.** Firudin Cəlilov, buyurun.

**Firudin Cəlilov.** Sultan bəy, təklif edərdim, biz bunu birinci oxunuşda qəbul edək. Çünki bir çox qeyd oldu, yəqin, onlar nəzərə alınar. Amma Şaitdin bəyin sonuncu qeydi ciddi qeyddir. Çünki o həm Təhsil qanununa ziddir, həm də bir az məntiqsiz cümlədir. Çünki orta məktəbə güzəştli qəbul olmaz. Bütün o yaşda uşaqların hamısı oxumaq hüququna malikdirlər. Peşə məktəblərinə, mən hətta təklif edərdim, Kamal müəllim də dedi, düzdür, birinci kurslara Təhsil qanununa görə güzəşt olmur, amma hazırlıq fakültələrinə bunu etmək olar. Çünki dövlət ona güzəşt edir, oxudur, hazırladır, sonra birinci kursda imtahan verib oxuyurlar.

Bir də Heydər bəy, mən baxıram, yazılanlar çoxdur, amma şəhidlərlə bağlı mən bayaq Mətləb bəylə ayaqüstü bir söhbət etdim. Onun maraqlı bir fikri var, əgər imkan varsa, ona da iki kəlmə söz verək.

**Sədrlik edən.** Yazılanların hamısına söz verməliyəm, məcburam. Şadman Hüseynov, Siz danışdınız, yenə danışmaq istəyirsiniz? Çıxış edin. Mətləb Mütəllimov sual vermək istəyir, ya çıxış etmək istəyir? Onda, bəlkə, Sultan Məmmədov əyləşsin. Buyurun, əyləşin. Şadman Hüseynov, Siz buyurun, çıxış edin.

**Şadman Hüseynov.** Sultan müəllim, mən o sualı təsadüfən vermədim. Kimsə hansı şəraitdə döyüş meydanında şəhid olubsa, onun şəhid olması haqqında müvafiq sənədlər olmalıdır. O sənədi də ancaq hərbi hissə verə bilər, onların da şərtləri olmalıdır, o şərtlər də bu qanun layihəsində öz əksini tapmalıdır.

Qanun layihəsinin 3-cü maddəsinin 5-ci, 6-cı abzaslarına dair öz fikrimə qayıdıram. Deməli, 5-ci abzasda qeyd olunur ki, ailə başçısının biri həlak olanda. İndi biz haradan bilək ki, həmin ailənin başçısı qadın olub, yaxud kişi. Ola bilər ki, həmin ailənin kişisi olmayıb, həlak olub və yaxud da haradasa ölüb, həmin ailənin başçısı qadındır. Uşaqlarına verilən müavinətdə birinci halda yazılır ki, əmək qabiliyyəti olmayan uşaqlara, ailə üzvlərinə, şəhid ailəsinin üzvlərinə minimum əmək haqqının yüz faizi verilir. Daha doğrusu, pensiyanin yüz faizi. Belə çıxır ki, əmək qabiliyyəti yoxdur, bu, yüz faiz müavinət almalıdır.

6-cı abzasda göstərilir ki, 16 yaşından 18 yaşına kimi əgər şagirddirsə, bunun, deməli, əmək qabiliyyəti var, bu, minimum əmək haqqının üçdəbirini almalıdır. Mənim fikrimcə, bu, düzgün deyil. Belə olmamalıdır. Müavinət eyni verilməlidir, istər əmək qabiliyyəti var, istər yoxdur. 16 yaşında uşaq məktəbdə oxuyursa, bunun əmək qabiliyyəti var, ancaq bu, şagirddir. Nəyə görə o, minimum pensiyanın üçdəbirini almalıdır, ancaq əmək qabiliyyəti olmayan digər ailədə o biri uşaq minimum pensiyanın yüz faizini. Ona görə də mən təklif edirəm, bu iki abzas birləşdirilsin və vahid bir rəqəm qeyd olunsun ki, hər iki halda minimum pensiyanın yüz faizi təyin edilsin.

**Sədrlik edən.** Mətləb Mütəllimov, buyurun.

**Mətləb Mütəllimov.** Hörmətli millət vəkilləri. Bu beşillik müharibə bizə on mindən artıq şəhid, on minlərlə əlil vermişdir. Bəs şəhid ailələrinin, əlillərin hüquqlarını kim və necə müdafiə edir? Bu gün bizə təqdim olunmuş layihədə göstərilir ki, onların hüquqları Müdafiə Nazirliyi, Sosial Təminat Nazirliyi tərəfindən qorunur. Əlbəttə, biz bu sahədə kifayət qədər qanun qəbul etmişik. Amma Müdafiə Nazirliyini də başa düşmək olar. O, bir tərəfdən, deyək ki, müharibə aparır, digər tərəfdən, şəhid ailələrinin güzəştlərinin təmin olunmasını həyata keçirir. Bu, çox çətin problemdir.

Şəhid ailələrinin, eləcə də əlillərin təminatı, onların mühafizəsi və təhsili, sözsüz ki, dövlətin borcudur. Eyni zamanda döyüşə gedən əsgərlərdə də bu gün tam inam yoxdur ki, onun ailəsinə ondan sonra

dövlət qayğısı olacaqdır. Mən belə hesab edirəm ki, biz onsuz da vaxtı çox keçirmişik, şəhid ailələrinin və əlillərin hüquqlarını müdafiə edən dövlət komitəsi yaranmalıdır. Bu ideya mənim ideyam deyil. Bu təklif biz komissiyada söhbət edən zaman Baş nazir Surət Hüseynov tərəfindən verilmişdir. Elə bilirəm ki, gec də olsa, belə bir dövlət komitəsini yaratmalıyıq. Yəni şəhid ailələrinin və əlillərin hüquqlarını müdafiə edən dövlət komitəsi olmalıdır.

Əgər bu gün Milli Məclisdə belə bir qərar qəbul olunarsa, komissiyaya tapşırılarsa, on gün müddətində həmin komitənin həm Əsasnaməsini, həm də strukturunu hazırlaya bilərəm. Sağ olun.

**Sədrlik edən.** Mürşüd Məmmədov, buyurun.

**Mürşüd Məmmədov.** Hörmətli sədr. Mən bəri başdan Mətləb Mütəllimovun verdiyi təklifi müdafiə edirəm. Belə bir təklifin analogiyası keçmiş Sovetlər İttifaqında da olub. Müharibə Veteranları Komitəsi var idi və təbii ki, o bu problemlərlə məşğul olurdu. Elə bilirəm ki, bu komitə təcili surətdə yaradılmalıdır. Bunu vaxt tələb edir, zaman özü yetişdirib.

İkincisi, mən bu qərarla bağlı demək istəyirəm ki, bu qərar kifayət qədər əsaslandırılmış qərardır və bu gün şəhid ailələrinə, sözün həqiqi mənasında, dövlət səviyyəsində qayğı göstərilməsini zəruri hesab edən bir qərardır. Amma burada bir cümlə var. "Şəhid ailəsinin arzusuna müvafiq olaraq fərdi mənzil tikintisi üçün on il müddətinə güzəştli ssuda verilsin". Biz bilirik ki, şəhid ailələrinin əksəriyyəti imkansız ailələrdir, məsələn, cavan oğlandır, 19-20 yaşında həlak olub, onun bir uşağı qalıb. Təbii ki, bu ailə arzu da eləsə, on il müddətinə həmin ssudanı geri qaytara bilməz, yəni ev də tikdirə bilməz. Mən belə hesab edirəm ki, bura belə bir cümlə əlavə olunmalıdır ki, "dövlətin maddi imkanları artdıqca, yeni ehtiyat mənbələri meydana gəldikcə, şəhid ailələrinə ödənişsiz, müddəti göstərilmədən ssuda verilsin". Sağ olun.

**Sədrlik edən.** Tapdıq Kamalov.

**Tapdıq Kamalov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Mən heç də bu fikrimlə komissiyaya irad tutmaq, komissiyanı nəzərdən salmaq istəmirəm. Əgər millət vəkillərinin bəzilərinin yadındadırsa, biz burada mənzil fondunun özəlləşdirilməsi haqqında qanun layihəsini qəbul edəndə mən öz təklifimi demişdim ki, biz həmişə xalqa lazım olan qanun layihəsi qəbul edəndə tələsikliyə yol veririk. Həyat özü göstərdi ki, mənzil fondunun özəlləşdirilməsində qəbul etdiyimiz o qərar bu gün millətin başına əngəl törədir. Minlərlə arayış istəyirlər. Onu sadə yolla

da etmək olardı. Bu keçdi. Heç olmasa, bu gün şəhidlər haqqında qəbul etdiyimiz qanun layihəsinə tələsməyək. Bəzi millət vəkillərindən xahiş edirəm, başqasının təkliflərinə qulaq asmamış, bilməmiş tez irad tutub öz fikirlərini deməsinlər. Mən burada bu təklifləri verəndə heç də komissiyaya irad bildirməyi nəzərdə tutmuram. Məgər biz bilmirik ki, hər bir şəxs, əgər doğrudan da, bazar iqtisadiyyatıdırsa, bu saat şəhid ailəsi, ya bir vətəndaş "şapka"sı olmasa, gedib minik avtomaşını ala bilməz. Bunu hamı bilir. Bu gün burada deputat olmasın, necə deyərlər, imtiyazları olmayan adi şəxs olsun, gedib ya nəqliyyata, ya təyyarəyə, ya da dəmir yoluna bir bilet alıb başqa şəhərlərə gedə bilmir. Niyə biz bu üstünlüyü şəhid ailələrinə vermək istəmirik? Bundan imtina edirik.

Mən millət vəkillərindən xahiş edirəm, qanun layihəsi yenidən işlənilsin. Bayaq mən elə-belə demədim ki, ali məktəblərə qəbul olunanda onlara üstünlük verilməlidir. Bunu hörmətli nazir də təkrar elədi. Bütün təkliflər bu qanun layihəsində öz əksini tapmalıdır.

Mən təklif edirəm, qanun layihəsi birinci oxunuşda qəbul olunsun, işlənilsin və sonradan yenidən müzakirəyə verilsin. Sağ olun.

**Sədrlik edən.** Məclis üzvlərinin çıxışlarından belə aydın olur ki, ümumən, bu qərar məqsədəuyğundur və tələbatları təmin edir. Ancaq burada qeydlər, təkliflər oldu və eyni zamanda təklif oldu ki, birinci oxunuşda o, qəbul edilsin və komissiyaya tapşırılsın ki, bu təkliflərlə, güzəştlərlə bu qərar bir daha Məclisə təqdim olunsun. Onda təqdim olunan layihə birinci oxunuşda qəbul olunsun və komissiyaya tapşırılsın ki, müzakirə əsasında verilmiş təkliflərə, düzəlişlərə uyğun olaraq bu qərar layihəsi üzərində işləyib təkrarən qısa müddətdə Milli Məclisə təqdim etsin. Etiraz yoxdur? Onda xahiş edirəm, münasibətinizi bildirəsiniz.

*(Səsvermə)*

Qəbul edildi. Növbəti məsələ keçmiş SSRİ Dövlət Bankının və Rusiya Federasiyasının Mərkəzi Bankının bütün nominallardan olan 1961–1992-ci il nümunəli rubllarının Rusiya Mərkəzi Bankı tərəfindən dövriyyədən çıxarılması ilə əlaqədar olaraq pul dövriyyəsinin tənzimlənməsi tədbirləri haqqında Nazirlər Kabinetinin qərarı barədədir. Qərar Məclis üzvlərinə paylanıb. Müzakirəyə, məruzəyə, yaxud əlavə izahata ehtiyac varmı? Varsa, Vahid Əhmədov bu barədə məlumat verə bilər. Buyurun, Vahid.

**Vahid Əhmədov.** Nazirlər Kabineti tərəfindən qəbul edilmiş 407 nömrəli qərar ilə 26 iyul 1993-cü ildə keçmiş SSRİ Dövlət Bankının və Rusiya

Federasiyasının Mərkəzi Bankının bütün nominallardan olan 1961–1992-ci il nümunəli rubllarının Rusiya Mərkəzi Bankı tərəfindən dövriyyədən çıxarılması haqqında qərar imzalanıb. Əvvəla, mən millət vəkillərinin nəzərinə çatdırmaq istəyirəm ki, Azərbaycan hökumətinin Rusiya ilə 30 sentyabr 1992-ci il tarixli müqaviləsi var və Rusiya hökuməti bu addımı atmamışdan qabaq Azərbaycan hökuməti ilə həmin müqaviləyə əsasən razılaşdırmalı idi. Rusiya Federasiyasının Mərkəzi Bankı tərəfindən həmin müqavilə pozularaq belə bir islahata yol verilmişdir. Açıq demək lazımdır ki, belə bir islahatın aparılması faktiki olaraq Rusiya hökumətinin köhnə SSRİ dövlətlərinin rubl zonasından tez bir surətdə çıxarılması üçün atılmış addımlardan biridir və belə bir addımın atılması ilə əlaqədar olaraq Azərbaycan hökuməti həmin qərarı verməyə məcbur oldu. Bu addım atılanda biz, faktiki olaraq hökumətin əksər üzvləri Bərdə şəhərində idik. Heydər Əliyevlə bir yerdə. Gecə vaxtı Baş nazirin müavini Rəsul Quliyevin rəhbərliyi altında Nazirlər Kabinetində iclas keçirildi və xüsusi bir sərəncam qəbul edildi ki, bu əməliyyat rublların Azərbaycana axıdılıb gəlməməsi üçün hələlik dayandırılsın. Belə düzgün bir addım atılmışdır və bununla əlaqədar olaraq biz qayıdandan sonra Nazirlər Kabinetində Maliyyə Nazirliyi, banklarla bir yerdə və Rəsul Quliyev yığışıb belə bir qərarın qəbul edilməsini qərara aldıq. Respublika Prezidentinin səlahiyyətini icra edən Ali Sovetin sədri Heydər Əliyevin yanında müşavirədə hökumət üzvləri, bankın nümayəndələri, respublikanın rəhbərliyinin iştirakı ilə bu qərar müzakirə edildi və onun qəbul olunması haqqında qərar çıxarıldı. Orada da qeyd edildi ki, həmin qərar qəbul olunandan sonra səhərisi gün Milli Məclisə təqdim edilsin.

Burada mən qərarı şərh etmək istəmirəm. Bir-iki məsələyə öz fikrimi söyləmək istəyirəm. Bu qərarla əlaqədar suallar çoxdur. Sual verirlər ki, niyə dəyişilməyə 10 min manat icazə verilir. Mən qeyd etmək istəyirəm ki, bir sıra rəqəmləri burada deməyə məcburam. Azərbaycan dövlətinin bu gün dövriyyədə olan manatının məbləği haradasa 16 milyarda yaxındır. Bu da rubla çevriləndə 160 milyard eləyir. Amma bizim apardığımız hesablamalara görə rubl Azərbaycanda dövriyyədə cəmi 10 milyarda yaxındır. Bunun arasındakı fərq, münasibət həddən artıq böyükdür. Bütün bunları nəzərə alaraq biz 10 min manat təyin eləmişik.

Bundan başqa, Azərbaycan Mərkəzi Bankında hazırda cəmi 3 milyarda yaxın manat var. 18 yaşından yuxarı pasportu olan hər bir şəxsin 10 min manat dəyişdirməsi ilə əlaqədar olaraq bizim nağd pulumuzda da müəyyən çatışmazlıq var. Bu prinsiplər, əsasən, bundan ibarətdir.

Digər cəhətdən, bu qərara əlavə olaraq bu gün Baş nazir tərəfindən bir qərar da imzalanıb. Mən o qərar layihəsini sizin nəzərinizə çatdırmaq istəyirəm. Rusiya tərəfindən 1962-ci ildə buraxılmış 1, 3, 5, 10 rubllar hələlik saxlanılır. Xırda pula Azərbaycanda ehtiyac olduğu üçün avqust ayının axırına qədər, yəni sentyabrın 1-nə qədər 1, 3, 5, 10 rublları Azərbaycanda tədavüldə saxlamışıq.

İkinci əsas məsələ həmin qərarın 5-ci bəndində "müəyyən olunmuş həddə" sözləridir. Biz qaçqınlar üçün də 10 min rubl nəzərdə tutmuşduq, müəyyən şikayətləri nəzərə alaraq həmin rəqəmi 30 min rubl həcminə qaldırmışıq.

Bundan başqa, pulun dəyişməsinə yalnız Səhmdar Kommersiya Əmanət Bankında icazə verirdik, amma bu gün Baş nazir tərəfindən qəbul olunmuş qərara uyğun olaraq bütün respublika banklarında həmin pul dəyişmə əməliyyatları həyata keçirilir.

Mən Ali Sovetin sədrinin yanında keçirilən iclasda da qeyd etdim, bu gün də qeyd etmək istəyirəm, Azərbaycan öz yeganə ödəniş vasitəsi kimi milli valyutasına keçməkdə iki aydır gecikir. Gedən iqtisadi islahatlar nəticəsində şərait yaradılmışdı ki, iki ay bundan qabaq Azərbaycan öz milli valyutasına keçsin. Elə olsaydı, Rusiya bizi bu gün belə fakt qarşısında qoymazdı. Biz çox yaxşı vəziyyətdə olardıq. Necə ki, bir sıra respublikalar öz milli valyutasına keçiblər.

Mən iclasda da dedim, bu gün də qeyd edirəm ki, bu qərar Azərbaycanda yalnız 5-10 gün fəaliyyət göstərə bilər və biz qəti addımlar atıb yeganə ödəniş vasitəsi kimi Azərbaycanın milli valyutasına keçməliyik. Mən xahiş edərdim, Milli Məclisin İqtisadi siyasət komissiyasından, Büdcəyə nəzarət komissiyasından, banklarla, respublika hökuməti ilə bir yerdə iclasda o məsələyə baxıb qəti addımlar atsınlar. Çünki bu gün biz bu qərarı qəbul eləyəndən sonra da bir sıra həll olunmamış məsələlər var, ezamiyyətə gedənlər, Azərbaycana gəlib-gedənlərin pulunun dəyişilməsi, ödənilməsi məsələsi hələ açıq qalır. Ona görə də yeganə ödəniş vasitəsi kimi manatı dövriyyəyə buraxmalıyıq. Onun dönərliyini dollara, yaxud markaya, ya da digər dönərli valyutaya bağlamalıyıq, onun birjasını təşkil etməliyik. Azərbaycan bu yola artıq məcburdur, çünki bizi bu yola getməyə Rusiya məcbur eləyir.

**Sədrlik edən.** Əyləşin. Tofiq Əzizov, buyurun.

**Tofiq Əzizov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bugünkü qərardan məlum olmur ki, biz rubl zonasından çıxırıq, ya çıxmırıq? Bunu

özümüz üçün dəqiqləşdirməliyik. Mən komissiyanın sədri kimi deyə bilərəm ki, bu gün rubl zonasından çıxırıq. Bu, çox çətin məsələdir. Rubl zonasından çıxmaq nə deməkdir? Bizim bütün Rusiya ilə və digər rubl zonasında qalan respublikalarla bütün haqq-hesablarımız valyuta ilə ölçülməlidir. Onları ölçmək üçün biz bu gün o ehtiyatlara qiymət verib, o ehtiyatlara əsaslanıb gərək dəqiq bir nəticəyə gələk ki, rubl zonasından çıxmağa imkanımız var. Bu, bir.

Mən elə hesab edirəm ki, burada Vahid müəllim bildirdi ki, komissiyalar baxsın və öz təkliflərini versin, ciddi məsələdir. Biz hazırıq, bu məsələyə baxaq və təkliflərimizi verək.

O biri tərəfdən 10 min manat ki qoymuşuq, elə hesab edirəm ki, 10 min manat çox azdır, onun miqdarını artırmaq lazımdır. Bu gün, deyək ki, bizim milli valyutamız yoxdur. Əgər rubl zonasında qalırıq, üçlük, beşlik, onluq, iyirmi beşlik işlədiriksə, deməli, biz xarici dövlətin valyutasından istifadə edirik. Elə hesab edirəm, Rusiya dövləti ilə, Rusiya bankı ilə bizim Milli Bank təcili surətdə danışıqlar aparmalıdır və mən bildiyimə görə, 1993-cü ilin bizə çatacaq rubl kağız pullarını almamışıq ki, onlardan da istifadə edib pulu 30 min manat məbləğində dəyişdirək. Vaxtını iki həftə qoyaq və Milli Banka da təklif edək ki, Rusiya bankı ilə danışıb çatmayan milli pulun yerinə Rusiyadan o pulları alıb dəyişiklikər aparsın. Təklifim belədir. Milli Məclisin üzvlərindən də xahiş edirəm, iki həftə müddəti ilə 30 min manat məsələsini müdafiə eləsinlər və ona səs versinlər.

**Sədrlik edən.** Cümşüd Nuriyev.

**Cümşüd Nuriyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Rusiyada bu dəyişiklik birdən-birə aparıldığına görə bir qədər çaşqınlıq yaranıb və bu ağırlığı Nazirlər Kabineti üzərinə götürüb. Bu, eyni zamanda Azərbaycanda "Bank və banklar fəaliyyəti haqqında" Qanunun pozulması deməkdir, yəni bu, birbaşa Nazirlər Kabinetinin günahı deyil, Azərbaycan Milli Bankının günahıdır. "Bank və banklar fəaliyyəti haqqında" Qanunun 3-cü, 4-cü, 11-ci maddələri pozulub. Keçən il də bu qanunu pozdular, o vaxt da dedilər, baxmadılar sözə. Bu, birbaşa Milli Bankın səlahiyyətindədir. Pulun nominal dəyərini onlar müəyyən eləməlidirlər, tədavüldən pulu çıxarmağı da onlar boyunlarına götürmədilər. Amma bütün variantlarda qəbul olunmuş qərarda da düzəliş olunmalıdır. Çünki həmin qərarın 9-cu bəndinə əsasən, hökumət Milli Banka tövsiyə eləyə bilməz. Milli Bank bilavasitə parlamentin tabeliyində olduğuna

görə, ancaq parlament bunu eləyə bilər. Parlament həm hökumətə tövsiyə edə bilər, həm Milli Banka. Bu maddəyə baxmaq lazımdır.

12-ci maddədə göstərilir ki, tədavüldən çıxarılan pulların hökumətin göstərişi olana qədər saxlanılması. Bu, bilavasitə Milli Bankın öz səlahiyyətidir və hökumətin ona belə göstəriş verməsi qəbul olunmuş qanuna ziddir. Yəni bu, tələsik qəbul olunduğuna görə 407 nömrəli qərarda müəyyən tələskənliyə yol verilib. Hər halda, bu düzəliş olmalıdır, çünki bu, mövcud qanunvericiliyə ziddir.

Qaldı ki Tofiq müəllimin dediyi məsələyə, mən də o fikirlə razıyam. Bu barədə Nazirlər Kabineti fikirləşməlidir, biz rubl zonasından təcili çıxmalıyıq. Əgər 1, 3, 5, 10 rubllar – 1993-cü ilin əsginasları dövriyyədə qalırsa, onsuz da, inflyasiyaya gedən manat yenidən inflyasiyaya uğrayacaq. Çünki manatın nominal dəyəri qeyri-qanuni olaraq o vaxt da rublla müqayisə olunub. Bu, əslində, möhkəm valyutayla olunmalıydı. Bu proses davam edərsə, Azərbaycan manatı indiyə qədər haradasa, etiraz da eləyən olacaq, rublla müqayisədə bugünkü günə qədər 500 faiz inflyasiyaya uğrayıb, keçən il avqust ayının 15-i ilə müqayisədə.

Pulun rubl zonasına qalanda həmin pulun arxasında hansı dövlət zəmanəti, dövlət qarantı var, bu da bilinmir. Çünki bizim ləl-cəvahirat fondunun miqdarı bilinmir, yəni belə bir fond yaradıldı, stabilləşdirmə fondunda nə dəyər var, o da bilinmir. Düzdür, bu, dövlət sirridir. Hər halda, bu barədə Milli Bankın məlumatı olmalıdır ki, bunun arxasında hansı əmtəə dəyəri durur. Əgər bu əmtəə dəyəri yoxdursa, manat yenə inflyasiyaya uğrayacaq və milli valyutanın inflyasiyası davam edəcək.

Ona görə mən Tofiq müəllimin dediyi təkliflərə bircə düzəliş vermək istəyirəm ki, bu barədə Milli Banka parlamentin göstərişi olsun ki, bir həftə ərzində, uzağı, iki həftə ərzində bizim rubl zonasından çıxmağımız barədə qərar qəbul eləməliyik. Yaxud da çıxmırıqsa, manatın dəyərini Milli Bank necə qoruyacaq? Çünki çoxlu kredit verilib. Büdcə kəsiri böyükdür, resurs olmaya-olmaya biz Milli Bankı məcbur eləmişik, yeri gələndə kredit resursu ayırıb və bu resurslar hazırda ikitərəfli dövriyyə eləyir. Çünki rubl Azərbaycanın sərhədlərindən kənara çıxır və rubl, əksinə, manatı boğur. Belə bir şəraitdə, inflyasiya gedən bir dövrdə manatı qorumaqdan ötrü biz bu addımı atmalıyıq və Nazirlər Kabinetinin qəbul etdiyi 5-ci bəndin 1-ci bəndə də aid olmasını xahiş edirik. 30 min təkcə qaçqınlara yox, digərlərinə də aid olsun. İmkanı olanlar, onsuz da, heç vaxt nə rublla, nə manatla iş görməyiblər. Çünki Rusiyada da,

əsasən, burada da sahibkarlıq boğulacaq. İmkanı olanlar artıq o pulları dəyişiblər, kasıblar dəyişə bilməyib. Ona görə bunun müddətinin iki həftə olması xahiş olunsun, bu, parlamentin tövsiyəsidir.

**Sədrlik edən.** Qalib Qurbanov buyursun.

**Qalib Qurbanov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bu tədbiri mütəşəkkil aparmaq üçün, mən hesab edirəm ki, mütləq respublika üzrə rayon və şəhərlərdə müvafiq komissiyalar yaradılmalıdır. Çünki bu tədbirin keçirilməsini ancaq banklara tapşırmaq, yəqin ki, düzgün deyil. Onların fəaliyyəti barədə hamınızın məlumatı var. Bu yaxınlarda İqtisadi siyasət komissiyasının iclasında bankların fəaliyyətinə baxılmışdır, bu günlərdə komitə yaradılacaq. Milli Bankın, kommersiya banklarının fəaliyyətində çox ciddi nöqsanlar var. Ona görə də bu işi ancaq onlara tapşırmaq düzgün olmazdı. Belə praktika var idi, iki il bundan əvvəl pullar dövriyyədən çıxarılanda rayonlarda və şəhərlərdə komissiyalar yaradılmışdı və ona görə də hesab edirəm ki, yenə də o komissiyalar yaradılmalıdır. Ancaq banklara bu məsələni tapşırmaq düzgün olmazdı.

**Sədrlik edən.** Bu qərar təcili qəbul olunub. Rusiya Dövlət Bankı tərəfindən qəbul olunmuş qərardır. Qəflətən meydana çıxmış bir sənəddir. Ona görə də bu qərar təcili qəbul olunub. Eyni zamanda sizə mətbuatdan, televiziya verilişlərindən məlumdur ki, Rusiya rəhbərliyində bu məsələnin bu cür həll olunması mübahisəlidir. Orada parlamentlə hökumət arasında mübahisələr, çəkişmələr gedir, hətta parlamentdə bu məsələ müzakirə olunanda parlamentin sədri belə bəyanat verib ki, onlar bu qərarın ləğv olunmasına çalışacaqlar və güman edirlər ki, nail olacaqlar. Ona görə də biz Məclis üzvlərinin təklifləri, şübhəsiz ki, maraqlı təkliflərdir. Ancaq bəlkə, biz indi Nazirlər Kabinetinin qəbul etdiyi bu qərarı nəzərə alaq, eyni zamanda tapşıraq bizim İqtisadi siyasət komissiyasına ki, bu məsələnin bu günlərdə Rusiyada necə həll olunması prosesini izləsin. Əgər yeni bir qərar, yaxud yeni hadisə baş verərsə, ona müvafiq olaraq, bəlkə, əlavə qərar qəbul edək, yaxud da əlavələr edək. Bir halda ki Rusiyanın özündə bu barədə, yenə deyirəm, yüksək səviyyədə böyük mübahisə gedir, mənə belə gəlir ki, bu qərarı dəyişdirmək, yeni bir qərar qəbul etmək o qədər lüzumlu olmazdı. Necə baxırsınız?

**Tofiq Əzizov.** Heydər müəllim, pulların dəyişdirilməsi müəssisələrdə olacaq. Deyək ki, bank bu gün ancaq 10 minə zəmanət verib. Biz müəssisələrdə pulları dəyişdirəcəyik. Müəssisə rəhbərləri kimi öz işçilərimizə bir ay müddətində zəmanətlə 10 mini veririk. 20 mini Milli

Bankdan xahiş edirik, bizə 1 ay müddət verəndən sonra öz işçilərimizə bunu da veririk. 30 mini vermək lazımdır. Kimin ki pulu var, onlarda onminliklərdir. Rusiya limitini də qoymayır, bu, bir xahişim.

İkinci xahişim bu məsələyə aid deyil, amma vaxtı gəlib, deyirəm, sizin poçtunuzda Milli Məclisin üzvlərinin və respublikadakı idarələrin aylıq maaşı haqqında sənəd var. Ona baxın, imza atın.

**Sədrlik edən.** Onu bilirəm, baxacağam. Ancaq mən bir daha qeyd etmək istəyirəm ki, bir halda ki Rusiyanın rəhbərliyində bu məsələ mübahisəli xarakter daşıyır, indi bizim bu qərardan başqa digər qərar qəbul etməyimiz o qədər də doğru olmaz. Ona görə bizim İqtisadi siyasət komissiyasının sədri Tofiq Əzizov bu təklifləri verirsə, gəlin Nazirlər Kabinetinin bu qərarını nəzərə alaq, Milli Məclisin İqtisadi siyasət komissiyasına tapşırıq verək ki, onlar bu günlərdə Tofiq Əzizovun verdiyi təklifə komissiyada bir də baxsınlar, işləsinlər, Rusiyada gedən prosesləri izləyək və bir neçə gündən sonra bu məsələyə bir daha qayıdaq. Etiraz yoxdur?

**Tamerlan Qarayev.** Burada deyilənlərdən də artıq iradlar var. Birincisi, söhbət ondan gedir ki, bu praktikaya son qoymaq lazımdır. Bu qərarın özü qeyri-qanunidir. Ona görə ki hökumətin belə salahiyyəti yoxdur. Belə qərarı Prezident verə bilər – Prezident səlahiyyətlərini icra edən şəxs. Milli Məclis də düzəlişlər edə bilər.

İkinci, burada deyilir ki, bəli, bu iradlara komissiyalar baxsa, təkliflərini versə, burada üç gün vaxt qoyulub. Rusiyanın özü avqustun 31-nə qədər vaxt qoyub. Bizdə belə bir vəziyyətdə, özü də bu qədər qaçqının olduğu, camaatın belə bir vəziyyətində üç gündə bunu təşkil etmək mümkün deyil. Ona görə də bunun müddət məsələsi indi həll olunmalıdır və o müddət də kifayət qədər olmalıdır ki, komissiyalar təcili bu məsələyə baxsınlar və Milli Məclisdə bu məsələni qanuni şəkildə həll etsinlər.

Burada şübhəli məsələlər çoxdur. Ən əsası da odur ki, qanuna zidd olaraq vətəndaşların öz əmlakları üzərində sərəncamedici hüquqlarını əllərindən alırıq. Bu, çox ciddi məsələdir, Konstitusiyaya zidd məsələdir. Ona görə də təklif olunan vaxt uzadılsın və komissiyalara tapşırılsın ki, onlar bu məsələyə ciddi baxsınlar.

**Vahid Əhmədov.** Tamerlan bəy qeyd edir ki, verilən qərar qeyri-qanunidir, Prezidentin fərmanı ilə olmalıdır. Əvvəla, mən şərh eləyəndə qeyd etdim ki, bu qərar nə cür şəraitdə və hansı vaxt qəbul olunub. Biz

Heydər Əliyevin yanında müzakirə edəndə istədik ki, fərman verək, sonra belə düşündük ki, Milli Məclisə qərarla verək. Milli Məclis baxsın. Bəlkə, Milli Məclisin iradları oldu, ondan sonra bu məsələyə bir də qayıdarıq. Bu, bir.

İkincisi, qaldı vaxt məsələsinə, vaxtı uzada da bilərik. Burada elə böyük problem yoxdur, lap bir həftə də uzada bilərik.

Tofiq müəllim məsələ qaldırır ki, 10 mini 30 min eləyək, o, çox ciddi məsələdir, əgər elə bir qərar qəbul eləsəniz, Heydər bəy dedi, mən xahiş eləyərdim ki, İqtisadi siyasət komissiyasında buna baxılsın, qərar çıxarılsın, ondan sonra. Çünki Rusiyada da bu məsələ hələ axıra qədər qəbul olunmayıb. Ola bilər ki, bu gün, sabah başqa qərarlar qəbul olunsun. Ona görə də bunu izləmək lazımdır. Bir həftə bunu izləməklə Azərbaycanda elə böyük hadisə ola bilməz. Mən təklif edirəm ki, vaxtı bir həftə uzatmağa icazə verə bilərik, amma hələlik nominalları o səviyyədə saxlayın. İqtisadi siyasət komissiyası bu məsələyə baxar.

**Sədrlik edən.** Rəsul Quliyev, buyurun.

**Rəsul Quliyev.** Hörmətli millət vəkilləri. Mənə belə gəlir ki, bu qərar tez qəbul olunmayıb, səhvə yol verilib. Mən bununla razı deyiləm. Pul nişanlarının dəyişilməsi tezliklə olmalıdır. Bunun başqa yolu yoxdur. Pul nişanı ona görə dəyişir ki, bunu təcili eləsinlər. Mən sizə çatdırmaq istəyirəm ki, ümumiyyətlə, bir il ərzində Azərbaycanda iqtisadi cəhətdən dövlətçilik yoxdur. Ümumiyyətlə, yoxdur. Nə bank sistemi, nə maliyyə sistemi, nə də pul sistemi işləyir. Yəni dövlətçilik nöqteyi-nəzərdən, bu cəhətdən biz dövlət şəklində deyilik. Azərbaycanda 7-8 ay müddətində, ondan da artıq müddətdə əmək haqları manatla verilir. Azərbaycanda faktiki olaraq rublun dövriyyəsi 5-6 faiz təşkil eləyir. Əgər Rusiya 1965 –1993-cü il müddətində öz rubllarını dövriyyədən çıxarıbsa, bu, orada müəyyən böyük faiz təşkil eləyirsə, bizdə rubl cəmi 5 faiz təşkil eləyir. Yəni əgər rus 10 min rublu dəyişməyə gedirsə, biz o nisbətlə götürsək, 5 min dəyişməliyik. Burada əsas məqsəd nədir? Bir il müddətində Azərbaycanın bu günə düşməsinin səbəblərindən biri də odur ki, rüşvətxorluq Azərbaycanda kiçik vəzifə tutmuş şəxslərdən böyük vəzifə tutmuş şəxslərə qədər baş alıb gedib. Azərbaycanda inkişaf bu gün sıfırdadır, inkişaf yoxdur. Ona görə ki bir il müddətində Azərbaycan ancaq rüşvətxorluqla məşğul olub. Bunun qarşısını müəyyən mənada almaq lazımdır, heç olmasa, pul nişanlarının dəyişilməsi ilə.

Əgər burada biz Azərbaycan xalqından danışırıqsa, Azərbaycan xalqında rubl yoxdur, heç manat da yoxdur. Əgər söhbət ayrı-ayrı şəxslərdən gedirsə, bu, başqa məsələ. Sonra deyirlər ki, 4 gün azdır, bunu gərək artıraq, qaçqınlar və sair. Heç olmasa, qərarı oxumaq lazımdır. Qərarı oxumamışdan belə fikir söyləmək... Deməli, oxumadan söz deyirsiniz də. Burada yazılır ki, qaçqınlar üçün 10 gündür. Burada açıq yazılıb, heç olmasa, qərarı oxuyun. Bu ancaq müəssisələrdə işləyən adamlar üçündür – 4 gün. 1991-ci ildə 50, 100-lük dəyişilən vaxt 2-3 gün orada vaxt verilmişdi. Biz bilirik ki, o vaxt o pul nişanlarının dəyişilməsi prosesində nə qədər cinayət hadisələri baş verdi və bu günə qədər o məsələlər hələ gedir, hələ o vaxt kimlər nə qədər pul mənimsəyib, aydınlaşacaq. Ona görə bunun vaxtını artırmaq olar, mən etiraz eləmirəm, Tofiq Əzizov öz komissiyasında buna baxsın. Bunun vaxtını heç cür uzatmaq olmaz, 4 günə bu qurtarmalıdır. Qaçqınlar barəsində xüsusi qərarda onlar üçün böyük bir vaxt verilib. Qaçqınların pul nişanlarını dəyişmə kəmiyyəti qaldırılıb.

O ki qaldı rubl zonasından çıxılması və bizim manata keçməyimiz, bu, çox mürəkkəb bir məsələdir. Çünki bu barədə heç bir iş görülməyib. Bu dəqiqə ödənişlərin çoxu rublla aparılır, bunu hazırda manata keçirmək üçün bank sistemi yaranmalıdır. O bank sistemini də yaratmamışıq. Yəni keçmiş bir il ərzində bu bank sistemini yaratmalıydıq, amma təəssüf ki, yaratmamışıq. Ancaq bu barədə işləməliyik. Milli valyutamıza keçməsək, sözsüz ki, başqa dövlətlərlə kredit-bank sistemi üzrə münasibətlərimiz gərgin olaraq qalacaqdır. Rusiya özü də bunu istəyir ki, digər dövlətlər, yəni keçmişdə Sovet İttifaqına daxil olan respublikaların hamısı öz milli valyutalarına keçsinlər. Haqq-hesabın aparılması asanlaşdırılsın. Ona görə bu qərarı bu gün qəbul etmək lazımdır. Bəlkə, əlavələr ola bilər, ancaq belə elan eləsək ki, bunun vaxtı uzadılacaq və sair. Bu, camaatda çaşqınlıq yaradacaq, müəyyən ümid yaradacaq və müəyyən maxinasiyalar başlayacaq. Ona görə vaxtı düz təyin eləmişik, vaxta toxunmayaq.

**Sədrlik edən.** Mən bir daha qeyd etmək istəyirəm ki, daha düzgün olar ki, bu qərar nəzərə alınsın. Bu qərarın qəbul olunması bizim iştirakımızla Nazirlər Kabineti tərəfindən müzakirə edilib və təcili olaraq onun qəbul olunması lazımdır. Mən hesab edirəm ki, burada heç bir səhv buraxılmayıb, qərar qəbul olunmalıydı, lazımi tədbirlər görülməliydi. Rusiyada bu məsələ hələ indiyə qədər mübahisə obyekti olduğuna görə, tapşırılsın İqtisadi siyasət komissiyasına və Nazirlər Kabinetinə

ki, bu məsələni izləsinlər, əlavə tədbirlər haqqında təkliflərini versinlər. Mən belə təklif irəli sürürəm, xahiş edirəm, münasibət bildirəsiniz.

*(Səsvermə)*

Qəbul olundu. Tofiq müəllim, mən dedim ki, qərar nəzərə alınır. İqtisadi siyasət komissiyasına və Nazirlər Kabinetinə tapşırılır ki, əlavə tədbirlər haqqında təkliflərini versinlər. Əgər sabah yeni təklif versəniz, biz onu da qəbul edəcəyik. Tələsməyin. Əgər biz görsək ki, vaxt çatmadı və adamlarda pul qalır, onun vaxtını uzatmağa imkan var. İndi dəyişiklik etməyə ehtiyac yoxdur.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sakit olun. Xahiş edirəm, sakit olun.

Növbəti məsələ. Biz komissiyalara tapşırdıq ki, fövqəladə vəziyyət haqqında, fövqəladə vəziyyətin vaxtının uzadılması haqqında təkliflərini hazırlasınlar. Bu barədə kim məlumat verəcək? Tofiq Qasımov. Buyurun, Tofiq bəy.

**Tofiq Qasımov.** "Fövqəladə vəziyyət haqqında" Qanuna dəyişikliklər və əlavələr edilməsi barədə olan məsələyə Dövlət quruculuğu və hüquq siyasəti komissiyasında baxdıq. İki fikir oldu. Birinci fikir ondan ibarətdir ki, "Fövqəladə vəziyyət haqqında" Qanun fövqəladə vəziyyətin müddətini müəyyən edir. Bu müddət 60 gün müəyyən olunub və "Fövqəladə vəziyyət haqqında" Qanuna görə, Milli Məclisin qərarı və Prezidentin təqdimatı ilə 60 gün də bu müddət artırıla bilər.

"Fövqəladə vəziyyət haqqında" Qanun qəbul ediləndə bu barədə mütləq Birləşmiş Millətlər Təşkilatına xəbər verməliyik. Bu, insan hüquqlarının müəyyən müddətə məhdudlaşdırılması ilə bağlı olduğuna görə digər ölkələrin də qanunlarında bu müddət 60 gündən artıq deyil. O cümlədən keçmiş Sovetlər Birliyi ərazisində olan müstəqil dövlətlərin, eləcə də Rusiyanın qanununda da belədir. Bu baxımdan daha məqsədəuyğundur ki, biz "Fövqəladə vəziyyət haqqında" Qanunun 8-ci maddəsinə dəyişiklik edib, onun müddətini uzatmaq əvəzinə, daha yaxşı olardı ki – fövqəladə vəziyyətin müddəti bu yaxınlarda bitəcək – gələn ayın 3-də – o müddətə qədər gözləyib bir neçə gündən sonra yenidən fərmanla fövqəladə vəziyyət elan edək. Onda bu qanunda dəyişiklik etmək lazım gəlməz, yəni bizim imkanımız var ki, qanunun 8-ci maddəsinə uyğun olaraq bir neçə gündən sonra yenidən fövqəladə vəziyyət elan edək. Yəni dediyim odur ki, biz fövqəladə vəziyyətin müddətini bir qədər də uzatsaq, bu, təxminən yarım ilə

gəlib çıxır. O da, ola bilər ki, insan hüquqları baxımından bizə müəyyən iradlar olsun.

Yox, əgər biz bu yolla etmək istəmiriksə, hesab edirəm ki, indiki vəziyyətdə bir neçə gün fövqəladə vəziyyətin olmaması düzgün deyil, biz ikinci variant kimi bir təklif də hazırlamışıq. İcazə versəniz, onu oxuyaram.

***"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi haqqında***

***Azərbaycan Respublikasının Qanunu***

*Azərbaycan Respublikasının Milli Məclisi* ***qərara alır****:*

*"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa aşağıdakı dəyişikliklər və əlavələr edilsin:*

*1. 8-ci maddə aşağıdakı redaksiyada verilsin: "Fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında fərmanla fövqəladə vəziyyətin müddəti 60 gündən çox ola bilməz. Bu müddət başa çatdıqda, fövqəladə vəziyyət Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edilir, yaxud Prezidentin müraciəti əsasında 60 gündən artıq olmamaq şərti ilə iki dəfə Azərbaycan Respublikası Ali Soveti tərkibinin azı üçdə ikisindən ibarət çoxluqla uzadılır".*

*2. Bu qanun imzalandığı gündən qüvvəyə minir.*

İki təklif oldu. Biz bu təklifləri Məclisin müzakirəsinə təqdim etmək istəyirik ki, Məclis üzvləri bunlardan birini seçsinlər. Sağ olun.

**Sədrlik edən.** Saat 10-dur. Məclis üzvləri yorulub. Bizim komissiyada bu məsələnin hazırlanması üçün tənəffüsdə vaxt az olmuşdur. İki məsələmiz var. Biri fövqəladə vəziyyət haqqında, bir də referendum haqqında. Mən belə bir təklif edirəm, bəlkə, sabah saat 3-ə bir də Məclisin iclasını məhz bu iki məsələnin müzakirəsi üçün toplayaq. Etirazınız yoxdur ki?

Xahiş edirəm, gəlin belə danışaq, Nazirlər Kabinetinin tərkibində bir neçə kadr məsələsi var, ancaq mən təklif edirəm, onlara baxaq. Baş nazir Surət Hüseynov təklif edibdir, bu təklifi mən də müdafiə etmişəm və təqdim edirəm. Rəhim Qazıyevin Baş nazirin müavini təyin olunması haqqında məsələ müzakirəyə verilsin. Müdafiə sənayesi məsələləri üzrə Baş nazirin müavini vəzifəsinə təyin olunması haqqında.

Baş nazir Surət Hüseynov buradadır, əgər istəyirsinizsə, o da öz fikrini deyə bilər, yəni bu təklifi birlikdə vermişik.

Rəhim Qazıyev buradadırmı? Yoxdur? Mən xahiş etmişdim ki, Rəhim Qazıyevi dəvət eləsinlər.

**Afiyəddin Cəlilov.** Rəhim bəy evdədir, onunla Katibliyin nümayəndəsi əlaqə saxlayıb, o gəlməkdən imtina edib.

**Sədrlik edən.** Yaxşı, onda gəlin bunu sabaha saxlayaq. Sabah saat 3-də bir halda ki yığışacağıq, xahiş edirəm, Rəhim Qazıyevin bura dəvət olunması təmin edilsin.

Tofiq Cavad oğlu Hüseynov kənd təsərrüfatı naziri vəzifəsindən azad olunub. Prezidentin səlahiyyətini həyata keçirmək səlahiyyətindən istifadə edərək fərman imzalanıb, elan olunub, ancaq Məclisin razılığı lazımdır. Bəli?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mənə bizim hüquqçular deyiblər ki, belə lazımdır. Ona görə də belə bir fərmanın verilməsinə əgər Məclisin etirazı yoxdursa, xahiş edirəm, münasibətinizi bildirin. Buyurun.

***(Səsvermə)***

Qəbul edildi. Respublikanın kənd təsərrüfatı naziri vəzifəsinə təyin etmək üçün Müzamil İmran oğlu Abdullayev təqdim olunur. Müzamil Abdullayevi tanıyırsınız. O, kənd təsərrüfatı sahəsində uzun müddət işləyib, əvvəl də həm kənd təsərrüfatı naziri, həm də aqroprom işləyib. Müzamil Abdullayev buradadır, kimin sualı varsa, buyursun. Sual yoxdur ki? Onda mən bunu səsə qoyuram, xahiş edirəm, bu təklifə münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul olunur. Dövlət Gömrük Komitəsinin sədri İbrahim Vəliyevin vəzifədən azad olunması təklifini Milli Məclisə təqdim edirəm. Bu təklifə, xahiş edirəm, münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

Qəbul olundu. Dövlət Gömrük Komitəsinin sədrini təyin etmək üçün mən razılıq istəyirəm – Tahir Yunis oğlu Əliyevin bu vəzifəyə təyin olunması üçün. Tanıyırsınız Tahir Əliyevi. Sual yoxdur ki? Yoxdur. Əyləşin. Onda xahiş edirəm, bu təklifə münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul olundu. Fərmanla xarici iqtisadi əlaqələr naziri Rauf Qarayev vəzifəsindən azad olunub. Məclisin buna razılığı lazımdır, xahiş edirəm, bu məsələyə də münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul olundu. Kadr məsələləri bu qədər. Sabah saat 3-ə qədər.

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASI

*29 iyul 1993-cü il*

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri* ***Heydər Əliyev*** *sədrlik edir*

**Sədrlik edən.** Salaməleyküm hörmətli Məclis üzvləri, xalq deputatları və qonaqlar. Dünən bizim gündəlikdə olan iki məsələmizin müzakirəsinin bu günə keçirilməsi qərara alındı. Həmin məsələlərin müzakirəsini biz davam etdirməliyik. Ancaq istəyirəm bundan əvvəl bir məsələni də, əgər lazımdırsa, gündəliyə salaq, həll edək.

Bizim Milli Məclisin üzvləri 51 nəfərdən ibarət olmalıdır. 3 nəfər Milli Məclisin üzvlüyündən kənar olunub, ona görə mən Milli Məclisin üzvlərinin nəzərdə tutulmuş saya çatdırılmasını lazımlı hesab edirəm. Əgər bu məsələ gündəliyə salınmalıdırsa, mən xahiş edirəm, gündəliyə salaq və məsələni həll edək.

Bağışlayın, mən qeydiyyatdan keçmədim. Buyurun, qeydiyyatdan keçək.

***(Qeydiyyat)***

36 nəfər iştirak edir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli? 37 nəfər. Yetərsay var.

Bu məsələni gündəliyə salmaq lazımdır. Təklif edirəm ki, Milli Məclisin 3 yeni üzvünün seçilməsi məsələsi gündəliyə salınsın. Kim bunun tərəfdarıdır, xahiş edirəm, münasibət bildirsin.

***(Səsvermə)***

Qəbul olundu.

Onda, rica edirəm, icazə verin, bu məsələni müzakirə edək ki, Milli Məclis tam tərkibdə olsun. Ondan sonra dünəndən qalmış məsələləri müzakirə edərik.

Mən təklif edirəm, Baş nazir Surət Hüseynov Milli Məclisin üzvü seçilsin. Etirazı olan yoxdur? Onda xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi. Surət Hüseynov Milli Məclisin üzvü seçildi.

Təklif edirəm, xalq deputatı Asya Manafova Milli Məclisin üzvlüyünə seçilsin. Sualı olan yoxdur? Yoxdur. Xahiş edirəm, münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

Qəbul edildi. Təklif edirəm xalq deputatı Rəsul Quliyev Milli Məclisin üzvlüyünə seçilsin. Etirazı, sualı olan yoxdur? Xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi. Beləliklə, Rəsul Quliyev, Asya Manafova Milli Məclisin üzvü seçildilər. Milli Məclisin 51 nəfər üzvü nəzərdə tutulduğu üzrə tamamdır. 37 nəfər iştirak edirdi, Məclisin indiki iclasında 40 nəfər iştirak edir.

Hörmətli deputatlar. Dünən müzakirə olunan məsələlərdən biri Ali Məhkəmə haqqında olan məsələ idi. Ali Məhkəmənin sədri Tahir Kərimlinin haqqında. Ali Məhkəmə üzvlərinin təklifini müzakirə elədik və dünən komissiyaya tapşırıq verdik ki, bu məsələyə baxsınlar. Tahir Kərimliyə müraciət etdik ki, özü də bu barədə düşünsün. Tahir Kərimli, görünür, bu barədə düşünüb. Dünən Ali Məhkəmə üzvlərinin müraciətində də deyilirdi ki, bu məsələ onun öz vicdanına verilir. Görünür ki, bütün bunları nəzərə alaraq bu gün Tahir Kərimli Ali Sovetə gəldi, mənimlə görüş istədi. Mən onunla görüşdüm, söhbət etdik. Bu söhbətdən sonra Tahir Kərimli Ali Sovetin adına belə bir ərizə verib:

*"Azərbaycan Respublikası Ali Sovetinin sədri cənab Heydər Əliyevə, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Tahir Zayıdağa oğlu Kərimli tərəfindən ərizə.*

*Xahiş edirəm, tutduğum vəzifədən istefamı qəbul edəsiniz.*

*Tahir Kərimli.*

*29 iyul 1993-cü il."*

Məclis üzvləri necə baxır bu məsələyə? Səsə qoyaq? Onda, xahiş edirəm, bu istefa ərizəsinə münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

35 nəfər lehinə səs verdi. Qəbul olundu. Digər 3 nəfərin kartı yoxdur, yəqin, bu istefanı onlar da müdafiə ediblər. Onda 38 nəfər olur.

Beləliklə, Ali Məhkəmənin sədri vəzifəsini tutmuş Tahir Kərimlinin istefası Milli Məclis tərəfindən qəbul olunur. Tahir Kərimli Ali Məclisin qərarı ilə Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri vəzifəsindən azad olunur.

Digər məsələ – “Fövqəladə vəziyyət haqqında” Qanuna dəyişikliyin də dünən müzakirəsi getdi. Biz komissiyaya həvalə etmişdik ki, bu məsələ üzərində işləsin, öz təkliflərini hazırlasın. Komissiya da işləyib. Komissiyanın işini mən Ali Məclisin sədr müavini Afiyəddin Cəlilova həvalə etmişdim. O da məşğul olmuşdur. Ona görə də artıq bu barədə müzakirəyə ehtiyac yoxdur. Əgər əlavə məlumat vermək istəyən yoxdursa, bəlkə, bu barədə təkliflərə baxaq? Deputat Əli Ömərov buyursun. Bura, tribunaya gəlin.

**Əli Ömərov.** Hörmətli sədr, hörmətli deputatlar! Təklif edirəm ki, “Fövqəladə vəziyyət haqqında” Qanunun 8-ci maddəsi aşağıdakı redaksiyada verilsin: “Fövqəladə vəziyyət, bir qayda olaraq, 60 gün müddətinə tətbiq edilir və deputatların, Milli Məclisin üzvlərinin ümumi sayının üçdəiki hissəsinin səs çoxluğu ilə qəbul olunur. Bu müddət başa çatdıqda fövqəladə vəziyyət Ali Sovetin qərarı ilə ləğv edilir və yaxud müəyyən müddətə uzadılır. Uzadılarkən də sadə səs çoxluğu ilə qəbul olunmalıdır”. Ona görə də təklif edirəm ki, 8-ci maddə mənim təklif etdiyim redaksiyada verilsin.

**Sədrlik edən.** Yəni nə təklif edirsiniz?

**Əli Ömərov.** Yəni o 60 günlük müddət başa çatırsa və Milli Məclis tərəfindən müəyyən müddətə uzadılırsa, bu, sadə səs çoxluğu ilə qəbul olunsun, yəni...

**Sədrlik edən.** Aydındır. Biz axı demişdik ki, bunun uzadılmasına komissiya baxsın. Dünən dedik axı. Uzadılması yollarını hazırlayın. Dünən müzakirə bu tərzdə getdi. Bəli?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bilirsiniz, biz komissiya təşkil eləmişdik, komissiya Əli Ömərovu da bu işə cəlb etmişdi. Ona görə də o, komissiyanın adından danışır. Komissiya hər bir deputatı bu işə cəlb edə bilər.

**Əli Ömərov.** Təklif edirəm ki, müddət yenidən uzadılsın.

**Sədrlik edən.** Əli Ömərov şəxsən təklif etmir, bu komissiyanın adından...

**Əli Ömərov.** Mən komissiyanın adından təklif edirəm, özüm şəxsən təklif eləmirəm. Ali Sovet dünən tapşırıq vermişdi, Afiyəddin Cəlilov da o komissiyada təmsil olunur. Müəyyən tərkibdə olan bu komissiya təkliflər hazırlayıb və o komissiyanın üzvlərindən biri də mənəm.

**Sədrlik edən.** Bağışlayın, bu komissiya dünən Tofiq Qasımovun rəhbərliyi altında işləyib. Bu gün də işləyiblər və mənə verilən məlumata

görə belə bir ümumi rəy meydana çıxıb. Əgər burada fərqli bir təklif olsa, lazımdırsa, ona da qulaq asmaq olar. Narahat olmayın.

**Əli Ömərov.** Mən də o komissiyanın bir üzvü olduğum üçün komissiyanın tapşırığı ilə biz işləmişik. Mənə də həvalə ediblər ki, bu təklifi oxuyum.

**Sədrlik edən.** Bağışlayın, Siz sual vermək istəyirsiniz, ya danışmaq istəyirsiniz? Bəli? Buyurun, Etibar bəy.

**Etibar Məmmədov.** Əli müəllim, o komissiya harada olub, Siz orada nə cür iştirak etmisiniz? Komissiyanın tərkibində kim var və Sizə kim həvalə edib ki, burada komissiyanın adından təklif verəsiniz?

**Əli Ömərov.** Komissiyanın tərkibində Tofiq müəllim olub, Afiyəddin Cəlilov olub, işləyiblər. Mən də gəlib baxmışam. Fərqi nədir bu təklifi ya mən oxuyum, ya Tofiq Qasımov oxusun.

**Etibar Məmmədov.** Yox, o komissiyanın tərkibini kim müəyyənləşdirib?

**Əli Ömərov.** Dövlət quruculuğu və hüquq siyasəti komissiyası.

**Etibar Məmmədov.** Mən o komissiyanın üzvüyəmsə Sizi orada görməmişəm. Bu təklifi oxumağın komissiyanın üzvü kimi Sizə həvalə olunmağına da mən səs verməmişəm. Bəlkə, Tofiq müəllim özü komissiyanın sədri kimi bir izahat versin.

**Sədrlik edən.** Etibar bəy, ehtiraslara qapılmaq lazım deyil. Mənə belə gəlir ki, burada təhlükəli heç bir şey yoxdur ki, belə həyəcanlanasınız. Komissiyanın adından bəzi təklifləri kim verib, komissiyanın üzvüsünüz, Siz də deyə bilərsiniz, Tofiq Qasımov da deyə bilər... Burada narahatlığa ehtiyac yoxdur. Hər halda, Əli Ömərov komissiyanın adından danışdı. Əli Ömərov, əyləşin. Komissiyanın sədri Tofiq Qasımov, buyurun.

**Tofiq Qasımov.** Mən qeyd etmək istəyirəm ki, nə Afiyəddin bəy, nə də Əli bəy bizim komissiyanın iclaslarında iştirak etməyib. Amma bizim bu baxdığımız rəy bir şəkildə Afiyəddin bəyə çatdırılmışdı. Ola bilsin ki, bu məsələni Afiyəddin bəylə bir yerdə müzakirə ediblər, mən ona bir şey deyə bilmərəm. Məsələ burasındadır ki, komissiyanın nə dünənki iclasında, nə bugünkü iclasında fövqəladə vəziyyət müddətinin uzadılması, yaxud fövqəladə vəziyyətin zəruriliyinə heç kim tərəfindən etiraz olmayıb. Sadəcə olaraq, dünən iki variant təklif olunmuşdu, bu gün, əslində, səsə qoyulanda komissiya üzvləri birinci variantın üstündə

dayandı. Amma dünən iki variantın ikisini də bura çıxarmışdıq. Yəni mənə elə gəlir ki, hər iki üsulda bunu müzakirə eləmək olar. Birinci variant kimi təklif olunmuşdu ki, avqustun 2-də fövqəladə vəziyyətin müddəti qurtardığına görə bu qanuna heç bir dəyişiklik etmədən müddəti əlavə olaraq uzatmayaq və bir-iki gündən sonra yenidən Prezidentin, yəni Prezident səlahiyyətlərini icra edən şəxsin fərmanı ilə bu fövqəladə vəziyyəti yenidən elan edək. Onda bizim qazandığımız nə olur? Qazancımız o olur ki, biz bunu Birləşmiş Millətlər Təşkilatına göndərəcəyik. Fövqəladə vəziyyətin müddəti 60 gündür, 60 gün üç dəfə uzadılanda bu yarım il olur. Bir ilin yarısını fövqəladə vəziyyət elan eləmək insan hüquqları baxımından o qədər də düzgün deyil. Amma biz bunu bir dəfə dayandırıb, bir neçə gündən sonra böyük zərurət olduğuna görə yenidən elan edə bilərik və burada heç bir dəyişiklik lazım deyil.

İkinci variant da bu idi ki, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər və əlavələr etmək olar. Qanunda 8-ci maddə aşağıdakı şəkildə təklif olunurdu: "Fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında fərmanla fövqəladə vəziyyətin müddəti 60 gündən çox ola bilməz. Bu müddət başa çatdıqda fövqəladə vəziyyət Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edilir və yaxud Prezidentin müraciəti əsasında 60 gündən artıq olmamaq şərti ilə iki dəfə uzadılır". Yəni biz ora bir dəfə də əlavə edə bilərik. İki dəfə isə Azərbaycan Respublikası Ali Soveti tərkibinin azı üçdəikisinin səs çoxluğu ilə uzadılır. Çünki bu, "Fövqəladə vəziyyət haqqında" Qanun Konstitusiya qanunu olduğuna görə belədir. Keçən dəfə də belə bir şərh meydana çıxmışdı ki, ikinci dəfə Ali Sovetin qərarı ilə vaxt uzadılır deyə bu, sadə səs çoxluğu ilə qəbul olunmalıdır. Amma sonradan şöbənin hüquqşünaslarının bu barədə araşdırmaları nəticəsində belə qərara gəlindi ki, keçən dəfə düzgün olmayıb, bu mütləq üçdəiki səs çoxluğu ilə uzadılmalıdır. Yəni bunu da burada müzakirə eləmək olar. Biz bunu bu şəkildə keçən dəfə Məclisin müzakirəsinə təqdim etmək istəyirdik, yəni fövqəladə vəziyyətin uzadılmasına komissiya tərəfindən heç bir etiraz yox idi. Biz bu iki variantı təklif eləmişdik. Çox sağ olun.

**Afiyəddin Cəlilov.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən bir izahat vermək istəyirəm. Dünən mən Dövlət quruculuğu və hüquq siyasəti komissiyasının iclasında iki dəfə olmuşam. Komissiyanın üzvlərinə bəyan etmişəm ki, mən bu iclasa heç bir şeyə müdaxilə etmək üçün gəlməmişəm. Sadəcə olaraq, Məclisin başlanma vaxtı uzanır və bununla əlaqədar olaraq Məclisə bitmiş bir fikirlə çıxmaq lazımdır.

Tofiq bəyin qeyd etdiyi kimi, komissiyada iki fikir hasil olmuşdur və indi o fikirləri Tofiq bəyin verdiyi məlumatdan dinlədik. Amma mən bu məsələnin mahiyyəti ilə əlaqədar olaraq bir balaca geriyə qayıtmaq istəyirəm. Bildiyiniz kimi, Ağdamın işğalı ilə əlaqədar olan məsələnin müzakirəsi zamanı deputatlardan Cümşüd Nuriyev, Sultan Məmmədov, Şaitdin Əliyev və digərləri Ali Sovet qarşısında məsələ qaldırdılar ki, respublikada yaranmış durumla əlaqədar olaraq hərbi vəziyyət elan olunsun. Ali Sovetin rəhbərliyi bu fikri müdafiə etməklə yanaşı, bunun bir sıra amillərini nəzərə alaraq məsələni komissiyaya tapşırıb. Eyni zamanda xatırlatmaq istəyirəm ki, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsi barədə Məclisdə məsələ qalxdı. 8-ci maddə yenidən işlənilib, Tofiq bəydə bu qanuna əlavələrlə əlaqədar olan layihə var. Mən xahiş edərdim ki, o layihəni Milli Məclisə təqdim etsinlər və o layihə ətrafında müzakirələri davam etdirək. Sağ olun.

**Sədrlik edən.** Həm dünən, həm də ondan əvvəlki gün bu məsələ ətraflı müzakirə olundu. Son dövrlər baş verən hadisələrlə, Ağdam şəhərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunması ilə əlaqədar bu Məclisdə çox həyəcanlı əhvali-ruhiyyə var idi. Çıxış edən Məclis üzvlərinin və deputatların əksəriyyəti xalqın səfərbər olmasını, ümumi səfərbərliyin elan edilməsini və hərbi vəziyyət olmasını tələb edirdilər. Bu tələblərin hamısı bugünkü mövcud şəraitə uyğun olan tələblərdir. Şübhəsiz ki, hər şey qanun əsasında olmalıdır. Ona görə də belə bir vəziyyətdə, Məclis üzvlərinin əksəriyyətinin bu əhvali-ruhiyyədə olduğu bir halda fövqəladə vəziyyətin vaxtı çatdığına görə uzadılması məsələsini belə böyük bir problemə çevirmək bu qanunun orasında bu var, burasında bu var, bu kəlməsi belədir, o kəlməsi elədir demək bəzən təəccüb doğurur. Düşünürsən ki, doğrudanmı bizim Məclis üzvlərinin hamısı Azərbaycan torpaqlarını qorumaq üçün xalqın ayağa qalxmasını istəyirlər, nizam-intizamın möhkəmlənməsini, camaatda döyüş ruhunu artırmaq istəyirlər, yaxud başqa məqsəd daşıyırlar? Mənim belə bir şübhəyə düşməyimin əsası var. Dünənki və bugünkü bəzi çıxışlarda öz fikirlərimi açıqca bildirirəm. Ona görə də kimin nə sözü var, buyursun desin, hərbi vəziyyət lazımdır, gəlin hərbi vəziyyət elan edək. Daha kəskin vəziyyət lazımdır, gəlin onu edək... Əgər bizə fövqəladə vəziyyət imkan verəcəksə, gəlin bunun vaxtını uzadaq, amma burada bu işlərə mane olmaq lazım deyil. Vətənimiz ağır vəziyyətdədir, torpaqlarımızı qorumaq lazımdır, ona görə də hərə gərək öz məsuliyyətini hiss etsin.

Daxili işlər naziri bu gün müraciət edib ki, onun bu barədə əlavə məlumatları var. Xahiş edirəm, versin.

**Vaqif Novruzov.** Mən də bu respublikada sizinlə eyni şəraitdə yaşayan bir vətəndaşam, xalq deputatıyam. Məsələlərin nə yerdə olmasını başa düşürəm, ona görə də mən bu gün Ali Sovetə müraciət etmişəm. Müraciətim yazılı surətdə Ali Sovetə təqdim olunub. İcazə versəydiniz, oxuyardım:

Prezidentin fərmanı ilə 1993-cü il aprel ayının 3-də respublikanın bütün ərazisində fövqəladə vəziyyət elan olunmuş, iyun ayının 2-də onun müddəti daha 60 gün artırılmışdır. Fövqəladə vəziyyət obyektiv səbəblər üzündən real şəraitə uyğun olaraq tətbiq olunmuş, rejim tədbirləri qanun çərçivəsində həyata keçirilmişdir. Nəticədə keçən dövr ərzində iyirmi min nəfərdən artıq adam inzibati məsuliyyətə cəlb edilmiş və komendant saatının pozulmasına görə saxlanılmışdır, 1100 ədəddən artıq odlu silah, 37 min ədəd döyüş sursatı və partlayıcı maddə tərəfimizdən alınmışdır. Bir sıra təhlükəli cinayətkar qruplar zərərsizləşdirilmişdir. Görülən xəbərdarlıq, qabaqlayıcı təsir forma vəsaitləri hadisələrin neqativ inkişafının, cinayətkarlığın artım sürətinin bir qədər qarşısını ala bilmiş, bütövlüklə respublikada və eləcə də onun paytaxtında cinayət təzahürlərinin səviyyəsini aşağı salmağa imkan vermişdir. Bununla yanaşı, gərginlik azalmır, əksinə, son vaxtlar vəziyyət daha da kəskinləşir. Erməni təcavüzünün miqyasının genişlənməsi, daxili mürəkkəb siyasi proseslərin, sosial-iqtisadi və həyati fəaliyyətin digər sahələrində böhranın dərinləşməsinin, bir sıra şəhər və rayonların rəhbərlərinin bacarıqsızlığı və səriştəsizliyi idarəçiliyi, hakimiyyət strukturlarını iflic vəziyyətə salmış, hərc-mərcliyə, qayda-qanunun pozulmasına, çətin nəzarət olunan şəraitə gətirib çıxarmışdır. Bunu hamınız məndən yaxşı bilirsiniz. Bir sıra bölgələrdə özbaşınalıq, mənəm-mənəmlik hökm sürür, qanunlara məhəl qoyulmur, zor gücünə təzyiq göstərmək taktikası tətbiq olunur. İcra hakimiyyəti başçılarının zorakılıqla işdən kənarlaşdırılması faktlarına yol verilir. Siyasi qruplaşmaların qarşıdurmaları, ayrı-ayrı ictimai təşkilatların və partiyaların qanunsuz silahsız strukturlarına malik olmaları vəziyyəti daha da gərginləşdirir. Müxtəlif obyektiv çətinliklərdən, xüsusən qaçqınların yerləşdirilməsi ilə əlaqədar problemlərdən istifadə edərək iğtişaşlara, kütləvi çıxışlara təhrik edən pozucu elementlərin təxribat xarakterli fitnəkar aksiyaları davam edir. Buna da səbəb bu gün şəhərdə yayılan o müraciətlərdir. Bu gün şəhərdə o müraciətləri yayan şəxslərdən 4 nəfər götürmüşük...

**Sədrlik edən.** Nə müraciətdir? Buyurun.

**Vaqif Novruzov.** Müraciət buradadır, mən xahiş edirəm, təqdim edin. Respublikanın paytaxtında hazırda bu qüvvələr belə müraciətlər yayırlar.

**Sədrlik edən.** Buyurun. Müraciəti də oxuyun. Görək nə müraciətdir?

**Vaqif Novruzov.** Təxribat xarakterli fitnəkar aksiyalar davam edir. Fəlakət və milli faciəyə gətirib çıxaran dövlətin parçalanması, suverenlik və müstəqilliyimizin itirilməsi üçün real təhlükə yaradır. İcazə verin, öz müraciətimi oxuyum...

**Sədrlik edən.** Bəli, öz müraciətinizi, buyurun.

**Vaqif Novruzov.** Uçuruma yönəlmiş vəziyyətin qarşısının alınması üçün dövlət intizamının möhkəmləndirilməsi, hüquq qaydaları və asayişin qorunub saxlanması, qanunçuluğun bərpası üzrə təcili kompleks tədbirlərin görülməsi, onların sərt formalarının tətbiqi vacibdir. Hazırkı böhran şəraitində fövqəladə rejim tətbiqinin müddətinin uzadılmasına ehtiyac və mütləq zərurət vardır. Belə bir qərarın hüquqi baxımdan əsaslandırılması üçün Azərbaycan Respublikasında fövqəladə vəziyyət barədə qanunun 8-ci maddəsinə müvafiq dəyişikliklər və əlavələr edilməsi təklif olunur. Mən belə bir təkliflə müraciət etmişəm. Komissiya dünən yığılıb burada həmin məsələyə baxıb. Ancaq komissiyanın bu məsələyə dair işi ilə mən bir deputat və daxili işlər naziri kimi razı ola bilmərəm. Ona görə ki bu komissiyanın işinin dövlətçiliyimizə zərər gətirəcəyini mən əvvəlcədən görürəm. Sizdən xahiş edirəm, Milli Məclisin üzvləri hamısı bu barədə fikirləşsin. Demək istəyirəm ki, maddənin dəyişilməsi heç də deputat Qasımov yoldaşın dediyi kimi, üçdəiki səslə keçməməlidir. Üçdəiki səslə ancaq qanun əsasında keçə bilər. Qanunun özündə olan dəyişiklik, qanunla qəbul edilmiş fövqəladə vəziyyətin iki ay müddətinə artırılması ancaq səs çoxluğu ilə keçə bilərdi, onu da ikinci dəfə siz etmişdiniz. İndi respublikada olan vəziyyət bizə belə bir imkan yaratmır ki, durub bu məsələni geniş müzakirəyə verək. Əgər yoldaşlar bilmirlərsə, mən bunu açıq deyə bilərəm. Bəzi deputatlar başa düşsünlər ki, hazırda hansı oyun gedir. Məclis üzvlərindən bu oyunun nə olduğunu bilənlər çoxdur. Oyun bu dəqiqə başqa qruplaşmalar arasında gedir. Mən bir az əvvəl burada komissiyanın sədri Qasımov yoldaşa yaxınlaşdım və oyunların hansı səmtdə getməsi barədə məlumat verdim. Bu gün qanunun qəbul olunmaması respublikanı hansı vəziyyətə gətirib çıxara bilər? Bu məsələlərin hamısını mən özüm Qasımova

dedim və xahiş etdim ki, komissiyanın sədri kimi bu gün öz mövqeyində bir balaca dəyişiklik eləsin, həmin maddənin dəyişilməsinə imkan yaratsın. İndi icazə versəydiniz, mən şəhərdə yaranmış, təxribat adlandırdığım bu məlumatı sizə oxuyardım.

**Sədrlik edən.** Onun hamısını oxumağa ehtiyac yoxdur. Nə barədədir o?

**Vaqif Novruzov.** Söhbət hazırda respublikaya rəhbərlik eləyən şəxslər haqqında gedir. Elçibəyi imam kimi göstərməyə çalışırlar. Onun imamlığını bütün respublikada yaşayan əhali gördü. Respublikanın əhalisinə rəhbərlik eləmək və torpaqları qorumaq əvəzinə qaçıb gizlənməzdi. Biz qaçıb gizlənən adama imam deyə bilmərik. Respublikanın indiki rəhbərləri çalışırlar ki, Bakıda yaşayan xalqımızın nümayəndələri qarşısında digər vəzifəli şəxsləri gözdən salsınlar. Burada ancaq məqsəd budur. Bu, böyük təxribat xarakteri daşıyan müraciətdir. Bu müraciəti yayarkən bu gün 4 nəfər şəxsi saxlamışıq. Həmin şəxslər dindirilir. Biz çalışacağıq öyrənək ki, bu təxribatı kim, harada, hansı vasitə ilə təşkil eləyib. Bu məsələnin üzərində işləyirik. Mən xahiş edirəm, Milli Məclisin üzvləri bir balaca fikirləşsinlər. Görək onlar respublikanı hara aparmaq istəyirlər? Əgər onlar ölkə haqqında fikirləşirlərsə və bu xalqın oğullarıdırsa, bu gün özlərini göstərməlidirlər ki, doğrudan da, respublikaya qulluq edirlər, yoxsa hansısa başqa qüvvələrə? Mənim bundan başqa sözüm yoxdur.

**Sədrlik edən.** Mən siyahı üzrə söz verəcəyəm. Etibar Məmmədov, buyurun.

**Etibar Məmmədov.** Heydər müəllim, mən birinci ondan başlamaq istəyirəm ki, indiki ağır vəziyyətdə respublikada ciddi nizam-intizam, qayda-qanun yaratmaq lazımdır. Dövlət strukturlarında nizam-intizamın pozulması müharibədəki uğursuzluqların əsas səbəblərindən biridir və biz tezliklə bunu aradan qaldırmalıyıq. Bunun üçün də, birinci növbədə, qanunların qəbul olunmasında ciddi nizam-intizama əməl eləməliyik. Yəni ciddi qanunvericilik aktlarının qəbul olunmasında heç bir pozuntuya yol verə bilmərik. Qanunlar qəbul olunandan sonra isə onların icrasına nəzarəti təşkil etməliyik. Bayaq mənim respublikanın Baş prokuroru Əli Ömərovun çıxışına olan etirazım onunla əlaqədar idi. Bəli, Əli Ömərovun bir deputat kimi qanunvericilik təşəbbüsü hüququ var, öz adından qanunda hər hansı bir dəyişiklik haqqında təklif verə bilər. Amma məni təəssüfləndirən budur ki, təklifi komissiya adından verdi. Yəni bir komissiya yaradılmışdırsa bu komissiya haqqında

burada bir adamda məlumat olmalıydı. Ona görə də bu, başqa cür anlaşılmamalıdır. Yəni əsas məsələ qanunlara ciddi surətdə riayət olunmasından, ondan sonra da vətəndaşlardan qanunlara tabe olmalarını tələb etməkdən gedir.

Ona görə indi fövqəladə vəziyyətin uzadılması məsələsini müzakirə eləməmişdən qabaq bir söz deyim. Dünən komissiyaya tapşırılmışdı ki, qanunda dəyişikliklər məsələsi haqqında öz təkliflərini versin. Əvvəl qanunda dəyişiklik etməliyik. Ondan sonra təklif verilməlidir ki, fövqəladə vəziyyətin uzadılması məsələsinə ayrıca baxaq, gəlin bu məsələləri bir-birinə qarışdırmayaq. Əvvəl qanunda dəyişiklik olsun, ondan sonra isə həmin qanun əsasında fövqəladə vəziyyətin uzadılması məsələsinə baxılsın. Çünki "Fövqəladə vəziyyət haqqında" Qanunda bir dəfə aprelin 2-də dəyişiklik olub. Həmin dəyişikliyə qədər Azərbaycan ərazisində fövqəladə vəziyyət tətbiq etmək mümkün deyildi. Bu dəyişikliklərin əsasında qanuna ölkədə fövqəladə vəziyyəti tətbiq etmək haqqında maddə əlavə olunub. Qanuna üçüncü dəfə müddətin artırılması haqqında yeni bir əlavə olacaqsa, onu qəbul etməliyik. Ondan sonra fövqəladə vəziyyətin uzadılması məsələsinə ayrıca baxmalıyıq. Mənim fikrimcə, bunu, sadəcə, deputatların təklifi ilə etmək olmaz, çünki fövqəladə vəziyyətin tətbiq edilməsinin əsaslandırılması lazımdır. Birinci dəfə bu, Prezident tərəfindən əsaslandırılıb. Ondan sonra biz baxmalıyıq ki, görək bu dövrdə qarşıya qoyulmuş məqsədlərə nail olunub, yoxsa yox. Əgər nail olunmayıbsa, buna görə məsuliyyəti kim daşıyır? Üçüncü dəfə fövqəladə vəziyyətin müddətini uzadarkən biz qarşımıza qoyduğumuz məqsədə nail olmalıyıq. Heydər müəllim, Siz özünüz qeyd etmişdiniz ki, keçmiş hökumət tərəfindən bu vəziyyət siyasi məqsədlər üçün tətbiq olunub. Ancaq biz bunu müharibədən yaranmış ağır vəziyyətdən çıxmaq üçün tətbiq etməliyik. Əgər indiyə qədər bu ağır vəziyyətdən çıxmaq üçün heç bir cidd-cəhd olmayıbsa, bunun da məsuliyyətini kimsə daşımalıdır. Biz onu müəyyənləşdirməliyik və üçüncü dəfə bu müddət uzadılacaqsa, artıq konkret olaraq məsul adamlara bildirməlidirlər ki, onlar hansı məsuliyyət daşıyırlar. İki aya, yaxud bir aya kimi uzadılacaqsa, sonra biz onlardan tələb edə bilək ki, bu vəziyyəti aradan qaldırmaq üçün neynəyiblər? İndidən də bildirməlidirlər ki, nəyə ehtiyacları var, nələr olmalıdır? Mən ona görə xahiş edirəm ki, əvvəl qanunda ayrıca dəyişiklik məsələsinə, sonra isə fövqəladə vəziyyət məsələsinin uzadılmasına baxılsın.

**Sədrlik edən.** Rauf İsmayılov, buyurun.

**Rauf İsmayılov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Düz bir ildir bu zalda belə bir fikir səslənirdi ki, reallıqla ayaqlaşmaq lazımdır. Camaatın bəzisi onu lağla, bəzisi həqiqi mənada işlədirdi. Əgər doğrudan da, lağla deyilirsə, bu gün onu sözün əsl mənasında işlədək. Reallıqla ayaqlaşmaq lazımdır. Respublikada bu saat ictimai-siyasi vəziyyət gərgindir, bunu hamı bilir, ermənilərlə müharibə edirik. Bakıda deyilənlərə görə, təxmini 15 min erməni yaşayır. Bu qədər erməni Bakıda istənilən təxribatı edə bilər. Bizim neft bazalarımız, neft buruqlarımız, vacib obyektlərimiz var. İstənilən vaxt həmin yerlərdə təxribat işi apara bilərlər. Bu, bir. İkincisi, keçmiş Prezidentin göstərişinə görə bu saat külli miqdarda silah əllərdədir. Həmin silahlar istənilən vaxt öz xalqına qarşı çevrilə bilər. Mənə belə gəlir ki, fövqəladə vəziyyətin saxlanılması o silahların dövlət tərəfindən vaxtında yığılıb xalqın xeyrinə istifadə olunması üçün mütləq lazımdır.

Sonra daha bir şeyi demək istəyirəm. Anarxiya baş alıb gedir. Ciddi nizam-intizamın yaradılması üçün fövqəladə vəziyyətin uzadılması vacibdir. Fövqəladə vəziyyət rejimi tətbiq olunmalıdır və davam etdirilməlidir. İstədikləri vaxt Konstitusiyanı istədikləri tərəfə çəkiblər. İndi reallıqla barışmalıyıq. Konstitusiyaya o əlavəni, o dəyişikliyi eləyə bilərik. İnsan hüquqlarından tez-tez danışırıq. Bir ildir insan hüquqları addımbaşı tapdalanır. Heç deyən yoxdur ki, niyə tapdalanır?

Mən bu gün daxili işlər nazirinin çıxışını başa düşə bilmədim. Mənə belə gəlir ki, burada oturan millət vəkillərinin 90 faizi fövqəladə vəziyyətin uzadılmasına razıdır. Özü də üçdəiki səs verəcəklər. Ona görə də, hörmətli sədr, xahiş edirəm, o dəyişiklikləri eləyək, fövqəladə vəziyyəti uzadaq. Heç kim heç nə deyə bilməz. Müstəqil respublikayıq. Özümüzün Konstitusiyamız var, Konstitusiyaya əlavə də, dəyişiklik də eləyə bilərik. Bu reallıqla barışmalıyıq.

**Sədrlik edən.** Kamalov Tapdıq, buyurun.

**Tapdıq Kamalov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, mənim çox hörmət elədiyim Tofiq Qasımov tamamilə haqlı olaraq iki variant söylədi. Variantın birində dedi ki, 3-5 gün keçəndən sonra bu qərarı qəbul eləsək, yaxşı olar, başqa dövlətlər buna pis münasibət bəsləyə bilər. Birləşmiş Millətlər Təşkilatı, yaxud başqa bir qurum. Mən Tofiq müəllimə belə bir sual vermək istəyirəm. Əgər biz o xarici dövlətlərdən qorxuruqsa, çəkiniriksə, bəs o xarici dövlətlər, Birləşmiş Millətlər Təşkilatı, Amerika, Fransa, İngiltərə görmürlər ki, 5 ildir Azərbaycanda müharibə

gedir? Ermənistan Azərbaycanda insan hüquqlarını tapdalayır, insan tələfatı baş verir, bəs onda onlar öz səslərini niyə qaldırmırlar? Fövqəladə vəziyyət 3 dəfə olmaz, bunu başqaları pis anlayarsa, onda onlar niyə öz sözlərini demirlər? Səslərini qaldırmırlar? 5 ildir ölkəmizdə müharibə gedir, insan hüquqları tapdalanır. Müharibə gedən bir ölkədə fövqəladə vəziyyət qanuna görə iki dəfədən artıq olmaz nə deməkdir? Müharibə gedən ölkədə bütün il boyu fövqəladə vəziyyət qəbul eləmək lazımdır. Burada qəbahət bir iş yoxdur. Qoy başqa dövlətlər bizi necə başa düşürlər düşsünlər, biz öz fikrimizi deməliyik. Yaxşı yadınızdadır ki, evdə gecələr atışma əlindən yatmaq olmur. Bu zalda elə adam tapılmaz ki, desin, keçən gecə atışma olmadı. Əhalidə çoxlu silah var. Ona görə bütün bunları nəzərə alaraq mən elə bilirəm ki, fövqəladə vəziyyət rejimini uzadaq. Ermənilər artıq gəlib dayanıb. Ağdam da getdi... Belə bir faciəli vəziyyətdən sonra bizim fövqəladə vəziyyət rejimini uzatmaqda nə qəbahət iş var? Kimə sərf eləmir fövqəladə vəziyyəti tətbiq eləmək? Mən təklif edirəm ki, qanunda dəyişiklik eləyək. Bunu müzakirəyə qoymağa da heç ehtiyac yoxdur. Səsə qoyaq və fövqəladə vəziyyətin vaxtını uzadaq. Sağ olun.

**Sədrlik edən.** İnqilab Nadirov, buyurun.

**İnqilab Nadirov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, müzakirə olunan məsələ çox ciddi və vacib məsələdir. Respublika ərazisinin 17 faizindən çoxu düşmən tərəfindən işğal olunub, 1 milyon qaçqınımız, köçkünümüz, dilənçimiz var. Ona görə hazırda respublikada aparılan tədbirlər məni qane eləmir. Elə hesab edirəm ki, hərbi rejim yaradılmalıdır. Bütün fabrik, zavod, idarə, təşkilatlar hərbi qanunlar əsasında işləməlidir, hamısı hərbiləşdirilməlidir. Burada əgər kimsə deyirsə ki, fövqəladə vəziyyət rejimini artırmaq lazım deyil, mən bunun tamamilə əksini düşünürəm. Fövqəladə vəziyyətin uzadılmasını tələb eləyən yoldaşların təkliflərinə tərəfdar çıxıram. Təklif edirəm ki, çıxışlar kəsilsin və səsə qoyulsun.

**Sədrlik edən.** Şaitdin Əliyev.

**Şaitdin Əliyev.** Hörmətli sədr, hörmətli xalq deputatları. Dünən burada fövqəladə vəziyyətlə əlaqədar məsələ müzakirə edildi. Çıxış edən Məclis üzvlərinin əksəriyyəti fövqəladə vəziyyətin uzadılması və "Fövqəladə vəziyyət haqqında" Qanunun 8-ci maddəsində dəyişiklik edilməsi haqqında təklif irəli sürdülər. Həmin təklifi irəli sürənlərdən biri də mən idim. Bu gün respublikamızda elan edilməmiş müharibənin, qeyri-sabitliyin

şahidi oluruq. Bu gün Milli Məclisdə daxili işlər nazirinin məruzəsini eşidərkən məlum oldu ki, respublikada fövqəladə vəziyyət zamanı əhalidən nə qədər silah yığılıb, müəyyən cinayətlərin qarşısının alınması sahəsində xeyli iş görülüb. Bir neçə gün bundan qabaq keçirilən Milli Məclisin iclasında bu haqda qeyd etdim. Respublikada nizam-intizam olduqca pozulub. Bunun qarşısını almaq üçün qəti tədbirlər görmək lazımdır. Fövqəladə vəziyyətin vaxtının uzadılması hökmən elan edilməlidir. Bununla əlaqədar olaraq, yəqin ki, daxili işlər naziri, hüquq-mühafizə orqanları bu sahədə işlərini möhkəmləndirməlidirlər. Bu dövrdə, yəqin ki, sərhəd zonalarında müəyyən işlər görmək lazımdır. Burada xalq deputatı Əli Ömərov dəyişikliklə əlaqədar təklif söylədi. Mən həmin təklifi dünən yazılı şəkildə təqdim etmişdim. Reqlamentə görə, Milli Məclis üzvlərindən biri bu təqdimatı etməlidir deyə həmin təklifi irəli sürürəm. Ona görə də millət vəkillərindən, Məclis üzvlərindən xahiş edirəm ki, bu təklif müdafiə olunsun və səsə qoyulsun. Bundan sonra isə fövqəladə vəziyyətin uzadılması məsələsini səsə qoyaq və qəbul edək.

**Sədrlik edən.** Kamran Rəhimov.

**Kamran Rəhimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, mənə elə gəlir ki, fövqəladə vəziyyətin uzadılmasına Milli Məclisin üzvlərindən heç kəs etiraz eləməz. Hamı mövcud vəziyyəti başa düşür, dərk eləyir. Mütləq fövqəladə vəziyyəti uzatmalıyıq. Burada təklif edildiyi kimi, fövqəladə vəziyyət haqqında qanuna dəyişiklik eləyək və bunu səsə qoyaq. Çox müzakirə eləmək lazım deyil. Səsə qoyaq, bununla da bitirək. Nəyi müzakirə eləməliyik ki?

**Sədrlik edən.** Xeyrulla Əliyev.

**Xeyrulla Əliyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Həmkarımız Tofiq Qasımov dedi ki, beynəlxalq təşkilatların etirazını doğurmayaq deyə qanunda dəyişiklik olunsa yaxşı olar. Beynəlxalq təşkilatların nazı ilə oynaya-oynaya 7 milyonluq xalqın bir milyonunun hüquqları kobud surətdə pozulur. Əgər o qanunda göstərilməyibsə ki, mütləq dəyişiklik edilməlidir, bunu heç nəzərə almamaq da olar. Qanunda dəyişiklik eləmək vacib deyil. Sadəcə olaraq, uzatmaq lazımdır, özü də adi səs çoxluğu ilə. Bu bizim daxili işimişdir. Biz öz aramızda ədəb-ərkanı gözləmirik, amma beynəlxalq təşkilatların nazını çəkirik. Səsə qoymaq lazımdır. Bu başdan bilirəm ki, hamı buna səs verəcək. Keçən dəfə bu təklifi səsə qoyanda sübut olundu ki, adi səs çoxluğu yetərlidir. Elə də səsə qoyaq. Heç qanunun dəyişikliyinə ehtiyac yoxdur. Sağ olun.

**Sədrlik edən.** Əliyev Mürvət.

**Mürvət Əliyev.** Əgər biz, doğrudan da, Azərbaycanda sabitliyə nail olmaq istəyiriksə, heç kəs fövqəladə rejimin əleyhinə çıxa bilməz. Ancaq bir məsələni qeyd etmək istəyirəm ki, fövqəladə rejim şəraitindən səmərəli istifadə etmək lazımdır. Bütün xalq təsərrüfatı sahələrinin fövqəladə vəziyyət rejimi şəraitində normal işləməsinə nail olmaq lazımdır. Bundan başqa bütün sahələrdə qayda-qanuna, nizam-intizama ciddi riayət olunmalıdır. Buna görə mühafizə orqanlarının üzərinə çox böyük məsuliyyət düşür. Gərək bu dəfə keçən dövrlərdə bəzi sahələrdə buraxılmış nöqsanlardan əməlli-başlı nəticə çıxarılsın. Fövqəladə rejim vəziyyətində bu sahələrə böyük diqqət yetirilməlidir. Ona görə mən də deputat yoldaşların fikrinə şərik olaraq deyirəm ki, fövqəladə rejim vəziyyətinin uzadılması məsələsini səsə qoymaq olar.

**Sədrlik edən.** Firudin Cəlilov.

**Firudin Cəlilov.** Məndən sonra siyahıda olanlardan çox üzr istəyirəm. Gəlin hamımız kartımızı çıxaraq və səs verək. Çünki mənə elə gəlir ki, heç kəs etiraz eləmir.

**Sədrlik edən.** Firudin bəyin sözündən sonra siyahı pozuldu. Sağ olun, Firudin bəy. Asya xanım bizim yeni Məclis üzvüdür, buyursun.

**Asya Manafova.** Hörmətli sədr, hörmətli deputat yoldaşlar. İki gündür Ağdam-Ağcabədi-Bərdə-Tərtər-Yevlax zonasında idim, axşam qayıtmışam. Orada olan vəziyyətlə tanış olmuşam, qaçqınlarla görüşmüşəm. Müəyyən problemlər var. Bunlar elə hazırda müzakirə etdiyimiz fövqəladə vəziyyət şəraitinə aid olan məsələlərdir. Vəziyyət çox gərgindir. Düzdür, yol kənarlarında qalan müəyyən insanları yerləşdiriblər. Ancaq Bərdə-Qərvənd yolunda minlərlə vətəndaş yollarda qalıb, çadırları yoxdur. O istidə, ilan mələşir, amma hamısı qalıb yolun ortasında, bilmirlər neyləsinlər. Belə şəraitdən istifadə eləyən insanlara nə ad verəcəyimi bilmirəm, çörəyi 150 manatdan satırlar, suyu stəkanla da vermirlər. Vəziyyət olduqca gərgindir. Nəinki fövqəladə vəziyyət, hərbi zonalarda hərbi vəziyyət elan eləməliyik. İstər Bərdə, istər Ağcabədi camaatı bu saat çox gərgin və pis vəziyyətdədir. İnsanlar arasında ruh düşkünlüyü var. Bizim nümayəndələrimiz olmalıdır, gedib onlarla görüşməli, vəziyyəti izafə etməlidirlər.

Mən ön cəbhəyə getdim, hərbçilərlə görüşdüm. Səngər qazan hərbçinin ayağında qaloş var, onun da bir tərəfi cırılıb. Hansı müharibədən danışırıq? Onlara köməklik etmək üçün nə kimi tədbirlər görməliyik?

Biz o camaata, o hərbçilərə lazımi köməklik göstərməsək, onların vaxtında çörəyini, suyunu verməsək, nə hərbi vəziyyət, nə də fövqəladə vəziyyət bizə kömək eləməyəcək. Biz camaata deməsək ki, 3-5 gün müddətində əlimizdən nə gəlirsə edəcəyik, vəziyyət daha pis olacaq. Bilirsiniz ki, camaat şələ-küləsini yığışdırıb hazırlaşıb ora-bura dağılışır.

Bütün görüşdüyüm rayonların nümayəndələri məndən xahiş ediblər, özü də əli qabarlı fəhlələr, onlara kömək edək. Deyirlər, ac-acına qoyurlar bizi. İmkan varsa, bu məsələlərə diqqət yetirin.

Məclis üzvləri də məni düz başa düşər. Həmin zonada hərbi vəziyyət elan edilməlidir, səfərbərlik elan olunmalıdır. Hamımız orada olmalıyıq. Gedək Məclisimizi Ağcabədidə keçirək, yaxud Bərdədə. Rəhbərliyin nümayəndələrindən biri gündə bir dəfə gedib o məntəqələrə baş çəkməsə, orada heç bir intizamdan danışmaq mümkün olmayacaq.

Fövqəladə vəziyyət, qaldırdığımız məsələ ilə əlaqədar təklifim budur ki, həmin zonada hərbi vəziyyət elan edilməlidir. Çox sağ olun.

**Sədrlik edən.** Komissiyanın rəyi və Milli Məclisdəki çıxışlar hamısı üst-üstə gəlir. Fikir ayrılığı yoxdur. Burada təkliflər bundan ibarətdir ki, qanunun 8-ci maddəsinə müəyyən dəyişiklik etmək, onun əsasında fövqəladə vəziyyətin müddətini uzatmaq lazımdır. Mən güman edirəm ki, başqa təklif olmadı. Qanunun 8-ci maddəsinin dəyişdirilməsi redaksiyasını bu komissiya hazırlayıb, ona görə Afiyəddin Cəlilov elan etsin.

**Afiyəddin Cəlilov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, izin verin, layihəni elan etməzdən qabaq bir şey deyim. Əli Ömərovun Məclisin əməli heyətinə bir yazısı daxil olub, onunla əlaqədar bir arayış verib. Respublikanın Baş prokuroru burada çıxış edərkən, güman edirəm ki, anlaşılmazlıq ortaya çıxıb. Komissiyanın təqdim etdiyi qanun layihələri ilə bağlı respublikanın Baş prokuroru Əli Ömərov və Ali Sovetin Aparatının hüquqşünasları ilə fikir mübadiləsi aparılıb. Əli Ömərov o fikir mübadiləsinin yekununu sizə təqdim etdi.

İndi isə layihə haqqında.

***"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi haqqında***

***Azərbaycan Respublikasının Qanunu***

*Azərbaycan Respublikasının Milli Məclisi* ***qərara alır:***

*"Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununa aşağıdakı dəyişikliklər və əlavələr edilsin.*

*1. 8-ci maddə aşağıdakı redaksiyada verilsin:*

*Maddə 8. Fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında fərmanla fövqəladə vəziyyətin müddəti 60 gündən çox ola bilməz. Bu müddət başa çatdıqda fövqəladə vəziyyət Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə ləğv edilir və yaxud Ali Sovetin müəyyən etdiyi müddətdə Azərbaycan Respublikası Ali Soveti tərəfindən uzadılır. Bu qanun imzalandığı gündən qüvvəyə minir.*

**Sədrlik edən.** Xahiş edirəm, Məclis üzvləri qanunda dəyişiklik edilməsinə münasibətlərini bildirsinlər.

**Afiyəddin Cəlilov.** Hörmətli Cümşüd bəy, bir dəqiqə sakit olun. Yoldaş Əliyev, mən xahiş edirəm, Cümşüd bəyə söz verin, fikrini desin.

**Cümşüd Nuriyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri, onsuz da, Ali Sovetin qərarı ilə fövqəladə vəziyyətin 60 gün müddətində uzadılması qanunda var idi. Amma təklif bu olmalıdır ki, Ali Sovetin qərarı ilə iki dəfə uzadılır. Bu variant qəbul olunmalıdır, əks təqdirdə üçdəiki say məsələsi çıxacaq ortaya. Ona görə mütləq orada olmalıdır ki, iki dəfə uzadılır. Bir-iki dənə söz artırılmalıdır ora, başqa heç nə lazım deyil. Ali Sovetin qərarı ilə birinci dəfə artırılıb. Bu gün artırılmaq üçün qanunda yalnız iki dəfə sözünü yazırıq.

**Sədrlik edən.** Professor Murtuz Ələsgərov.

**Murtuz Ələsgərov.** Məsələ burasındadır ki, "Fövqəladə vəziyyət haqqında" Qanun qəbul edilərkən odövrkü şərait nəzərə alınmışdı. İndi zaman başqadır, vəziyyət olduqca gərgindir. Mən fövqəladə vəziyyəti sərtləşdirmək lazımdır deyən yoldaşların fikirləri ilə şərikəm. Ona görə ki əvvəl nəzərdə tutulurdu ki, iki dəfədən artıq artırıla bilməz. Mən belə bir redaksiya təklif eləyirəm, fövqəladə vəziyyət, bir qayda olaraq, 60 gün müddətinə tətbiq edilir. Bu müddət başa çatdıqdan sonra fövqəladə vəziyyət Ali Sovetin qərarı ilə ləğv edilir, yaxud onun qərarı ilə müəyyən müddətə uzadılır. Burada iki dəfə 60 gün sözünü təkrar etməyə ehtiyac yoxdur. Sonra burada bəzi yoldaşlar təklif etdilər ki, fövqəladə vəziyyət 60 gün, 60 gün bir neçə dəfə uzadılır. Bəli, Ali Sovet lazım bilirsə, fövqəladə vəziyyətin vaxtını 10 dəfə də 60 gün müddətinə uzatmaq olar. Bilmirəm, millət vəkilləri bu məsələyə necə baxacaqlar. Mən təklif edirəm ki, bu gün Milli Məclisdə hər dəfə uzatmamaq üçün fövqəladə vəziyyətin bu ilin axırına qədər uzadılması haqqında qərar qəbul edilsin. Çox sağ olun.

**Sədrlik edən.** Etibar Məmmədov, buyurun.

**Etibar Məmmədov.** Mən bir daha fikrimi bildirmək istəyirəm. Fövqəladə vəziyyət tətbiq olunarkən nəyəsə nail olmaq üçün qarşıya

məqsəd qoyulur. Keçmiş qanuna görə, bu vəziyyət ayrı-ayrı rayonlarda tətbiq oluna bilərdi, amma bütün Azərbaycan üzrə tətbiq oluna bilməzdi. Ona görə qanunda bir dəfə dəyişiklik edildi. Çünki əvvəlki dövrdə müharibə gedən zonalarda bu dəfələrlə artırılmışdı və burada heç bir məhdudiyyət qoymaq olmaz. Mənim fikrimcə, qanunda bütün ölkə ərazisində fövqəladə vəziyyəti tətbiq etmək və artırmaq üçün ayrıca bir bənd olmalıdır. Mənim fikrimcə, bu, Ali Sovetin qərarı ilə ola bilməz, bu qərarın çıxması üçün Prezidentin təqdimatı olmalıdır. Yəni Ali Sovetin qərarı əsaslandırılmalıdır ki, nəyə görə uzadılır. Prezident təqdimatını verməlidir, onun əsasında da Ali Sovet qərarını çıxarmalıdır.

**Sədrlik edən.** Bu məsələ üç gündür müzakirə olunur. Məclis üzvləri hamısı vəziyyətin ağır olduğunu qeyd edirlər və bu vəziyyətdən çıxış yolları axtarırlar. Deputat Etibar Məmmədov bununla iki dəfədir məsələ qaldırır ki, fövqəladə vəziyyət tətbiq olunanda və onun vaxtı uzadılanda Məclisə məlumat verilməlidir, görək fövqəladə vəziyyət dövründə nə əldə olunub? Hörmətli Etibar bəy! Mən də Məclisdən, o cümlədən deputatlardan soruşmaq istəyirəm ki, fövqəladə vəziyyət dörd aydır davam edir, nə əldə olundu? İndi mən buna cavab verməliyəmmi? Burada oturanların əksəriyyətinin iştirakı ilə fövqəladə vəziyyət aprelin 2-də tətbiq olunub. Aprel, may, iyun, indi də iyuldur. Biz indi işləməyə başlamışıq. Bu üç ayda nə oldu buna bizmi cavab verməliyik? Olan şeylər hamısı göz qabağındadır. Etibar Məmmədov da bunu yaxşı bilir. Bu məsələni iki dəfə qaldırmağa nə ehtiyac var? Lazımdırsa, gəlsin Əbülfəz Elçibəy məlumat versin, İsa Qəmbərov məlumat versin, keçmiş müdafiə naziri Dadaş Rzayev məlumat versin, keçmiş Baş nazir Pənah Hüseynov məlumat versin. Kimdən məlumat gözləyirsiniz? Bu məlumatların cavabı da 16 iyulda Gəncə hadisələri ilə əlaqədar Milli Məclisdə qəbul olunmuş qərar ilə verilib. Respublikada yaranmış vəziyyətlə əlaqədar suallara iyul ayının 16-da qəbul olunan qərar cavab verib. Hansı cavabı istəyirsiniz? Güman edirəm ki, artıq müzakirəyə ehtiyac yoxdur.

**Etibar Məmmədov.** Heydər müəllim, bir dəqiqə.

**Sədrlik edən.** Ehtiyac yoxdur. Bilirsiniz, gəlin burada bu müzakirəni mübahisəyə və yaxud deyişməyə çevirməyək. Siz iki dəfə çıxış etdiniz, üç dəfə çıxış etdiniz, sözünüzü dediniz, mən bircə dəfə buna cavab verdim. İndi hər dəfə mən dediyim sözə cavab verəcəksiniz? Nə qədər olar?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli. Verilən təklif səsə qoyulur, xahiş edirəm, münasibət bildirilsin. Afiyəddin Cəlilov hüquqşünaslarla bir yerdə hazırlanmış bir təklifi oxudu, onun müəyyən qədər təkmilləşdirilmiş hissəsini professor Murtuz Ələsgərov dedi. Hansını qəbul edirsiniz, gəlin edək. Mənim üçün fərqi yoxdur.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli? Dəqiqləşdirilmiş variantı? Murtuz Ələsgərovun təqdim etdiyini?

**Murtuz Ələsgərov.** *(Əvvəli eşidilmir.)* Variantlar arasında heç bir ciddi fərq yoxdur. Mən də o variantla razıyam, ancaq bir məsələni demək istəyirəm. Burada BMT-yə çox istinad elədilər, əvvəla, qanunda deyilmir ki, BMT insan hüquqlarının tapdalanması məsələsinə baxa bilər. Söhbət ondan gedir ki, hər dəfə bu və ya digər ölkədə fövqəladə vəziyyət yaranırsa, istəyir yüz dəfə tətbiq edilsin, sadəcə olaraq, BMT-yə məlumat verilməlidir. Təşkilat bizim daxili işlərimizə qarışa bilməz. Əgər ölkədə beş ildir müharibə gedirsə, BMT bu vəziyyəti dərk eləməlidir. Sadəcə olaraq, BMT-yə məlumat verilir ki, vəziyyətlə əlaqədar fövqəladə vəziyyət tətbiq olunub və yaxud müddəti uzadılıb.

**Sədrlik edən.** Aydındır. Əlavən var? Buyur.

**Afiyəddin Cəlilov.** Mənim elə bir əlavəm yoxdur. Hörmətli Murtuz müəllim bu haqda dedi. Murtuz müəllimin dediyi fikirlər cəm halda bu qərar layihəsində öz əksini tapıb, yəni Ali Sovet tərəfindən müəyyən edilən müddətdə.

**Sədrlik edən.** Xahiş edirəm, bu təklifə münasibət bildirilsin. Buyurun.

***(Səsvermə)***

Qəbul edildi. 35 nəfər, kartı olmayan 3 nəfər də, yəqin ki, müsbət səs verib. 38 nəfər. Bəli. Üçdəiki ilə daha da çox.

Qəbul olundu. Buyurun. İndi biz fövqəladə vəziyyətin uzadılması haqqında qərar layihəsini dinləyək. Buyurun.

**Afiyəddin Cəlilov.** Azərbaycan Respublikası Milli Məclisinin Qərarı.

Azərbaycan Respublikasında tətbiq edilmiş fövqəladə vəziyyətin müddətinin uzadılması haqqında.

*"Azərbaycan Respublikasının Milli Məclisi "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununun 8-ci maddəsinə əsasən* ***qərara alır:***

*Azərbaycan Respublikası Milli Məclisinin qərarları ilə tətbiq olunmuş və sonradan müddəti uzadılmış "Azərbaycan Respublikasında fövqəladə vəziyyət elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1993-cü il 2 aprel tarixli fərmanı ilə tətbiq edilmiş fövqəladə vəziyyət 1993-cü il avqustun 2-dən 60 gün müddətində uzadılsın".*

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirilsin.

*(Səsvermə)*

Qəbul olundu. 36 nəfər, kartı olmayanlar da müsbət səs verirlər, demək, 39 səslə qəbul olundu. Biz bu məsələni yekunlaşdırdıq.

Biz dünən gündəliyə salmışdıq, Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin vəziyyəti, yaxud onunla əlaqədar yaranmış problem haqqında məsələni müzakirə etdik. Burada Məclis üzvlərinin bir çoxu çıxış edərək Konstitusiyanın 121-ci maddəsinin 6-cı bəndinə əsasən etimadsızlıq göstərilməsini tələb etdilər. Bu tələb iyul ayının 15-də və 16-da deyildi. Biz o vaxt da dedik ki, səbirli olmaq lazımdır, fikirləşmək lazımdır. Fikirləşək, Əbülfəz Elçibəy də fikirləşsin. Bu gün artıq iyulun 29-dur, elədirmi? Biz bir qərara gəlməliyik. Çünki dünən də qeyd olundu, iyun ayının 17-dən 18-nə keçən gecə Azərbaycan Prezidenti Əbülfəz Elçibəy Bakını tərk edib. İyun ayının 23-də öz səlahiyyətlərinin əksər hissəsini Ali Sovetin sədrinə verib. İyun ayının 24-də Milli Məclis Azərbaycan Prezidenti Əbülfəz Elçibəyin səlahiyyətlərinin hamısını Ali Sovetin sədrinə veribdir. Bundan bir aydan çox vaxt – 35 gün keçir. İndiyə qədər də Əbülfəz Elçibəy Kələki kəndindədir. Dəfələrlə təkid olundu ki, Əbülfəz Elçibəy Bakıya qayıtsın. O qayıtmır və respublika müharibə şəraitində, belə bir vəziyyətdə artıq qala bilməz. Ona görə də təkrar edirəm, bu təkliflər iyulun 15-16-da keçirilən iclasda da olmuşdu və srağagün, dünən keçirilən iclaslarda da olubdur. Belə ki, bir Prezident kimi Əbülfəz Elçibəyə respublikanın Konstitusiyasını və qanunlarını pozduğuna görə etimadsızlıq göstərilsin. Yenə də əksər Məclis üzvləri bu fikirdədirlər. Hüquqşünaslar da belə bir təklifin həyata keçirilməsini qanuni hesab edirlər. Çünki iyul ayının 16-da qəbul etdiyimiz qərarın ikinci bəndində yazılıb:

"1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş qanlı hadisələr Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin və digər yüksək vəzifəli şəxslərin əvvəlcədən xüsusi düşünülmüş və planlaşdırılmış siyasətinin nəticəsi hesab edilsin. Onlar tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasının və qanunlarının kobud surətdə

pozulması kimi qiymətləndirilsin. Yəni əgər bizim Konstitusiyanın 121-ci maddəsinə nəzər salsaq, orada Prezident haqqında, Prezidentin statusu haqqında, Prezidentin vəzifəsi haqqında müddəalar var, orada göstərilir ki, əgər Prezident Konstitusiyanı, respublikanın qanunlarını pozarsa, o, vəzifəsindən kənar oluna bilər". Ona görə də Məclis üzvlərinin bu təklifləri hüquqa uyğundur, əsaslıdır və məntiqidir. Eyni zamanda belə bir fikir söyləndi ki, bəlkə biz bir daha bu demokratiyanın geniş surətdə Azərbaycanda bərqərar olduğunu nümayiş etdirək. Çünki təəssüf ki, əvvəlki dövrdə demokratiyadan çox danışılıb, ancaq hüquqlar və demokratik prinsiplər pozulub. İndi də bizim son vaxtlar 4 iyun Gəncə hadisələri ilə bağlı həyata keçirdiyimiz tədbirlər və qəbul etdiyimiz qərarlar respublikanın daxilində də, kənarda da bəzi mənbələr tərəfindən demokratiyanın və insan haqlarının pozulması kimi qələmə verilir, buna cəhdlər göstərilir. Dünən mən Məclisdən sonra, gecə saat 1-də Türkiyədən gəlmiş keçmişdə millət vəkili və indi isə yüksək vəzifədə olan bir şəxsi qəbul etdim. Bir tərəfi Gəncədən, bir tərəfi Naxçıvandan olan Qarsda doğulmuş, Türkiyədə böyümüş nüfuzlu bir adam məndən xahiş etdi, mən də onu qəbul etdim. Bir-iki saat söhbət etdik, gecə saat 2 idi ayrıldıq. Ondan sonra hətta dövlət katibinin də yanına getdilər, mən bildiyimə görə, onunla da söhbət etdilər. Məsələn, bizim bu Türkiyədə yaşayan həmin azəri qardaşımız böyük bir həyəcanla deyir ki, biz bir şeyi anlaya bilmirik. Sizin Türkiyədə bir konsulunuz var. Deyir şairdir, şairliyini eləsin, iki gündən bir adamları toplayır başına şeir oxuyur, sonra da başlayır ki, mən Ordubadla, Kələki kəndi ilə danışdım. Kələki kəndinə bir şeir qoşmuşam, nə bilim, Kələki kəndi belə gəldi, elə getdi, Əbülfəz Elçibəy Prezidentdir, filandır, beşməkandır... Abbas Abdulla bizim məşhur şairimizdir. Mənim də çox hörmət elədiyim adamdır, dəyərli şairdir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bağışlayın, üzr istəyirəm, imkan verin, mən danışım. Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında onun önəmli yeri var, bunu inkar etmək olmaz. İndi nə qədər qəbahəti olsa da, mən Abbas Abdullaya bir şair və ziyalı kimi və Azərbaycan ədəbiyyatında görkəmli yer tutan adam kimi hörmət etsəm də, o, əgər Azərbaycanın Baş konsuludursa, dövlət vəzifəsi icra edirsə, o, dövlətin qanunları çərçivəsində hərəkət etməlidir, öz şairlik təbiəti ilə, başqa duyğularla davrana bilməz. Ona görə də hətta yenə də deyirəm, Türkiyədən gəlmiş qardaşlarımız da mənə deyirdilər ki, siz bu məsələni qurtarın, buna son

qoyun. Heç də güman etməyin ki, Türkiyədə hamı elə hesab edir ki, burada insan haqları pozulur. Yox, onlar ayrı-ayrı adamlardır, elə hesab edirlər. Türkiyədə yaşayan bütün azərbaycanlılar heç də bunu belə hesab etmirlər. Deyir, İstanbulun özündə 600 min azərbaycanlı yaşayır, onların əksəriyyəti bunu belə hesab etmirlər. Ona görə də biz bu məsələni uzatmaqda və Əbülfəz Elçibəyə imkan yaratmaqda düz hərəkət edirik ki, o, şəxsi mənafeyi haqqında yox və ona bu gün də rəğbət bəsləyən, ilahiləşdirmək istəyən, yaxud o müraciətdə göstərildiyi kimi, imam kimi qəbul edən adamlar haqqında da düşünsün. Biz bunları mədəni yolla, ədəb-ərkan və hörmət yolu ilə həll eləməliyik. Ancaq bu məsələ belə davam edə bilməz.

Dünən belə bir fikir də meydana çıxdı və təklif olundu ki, bəlkə, referendum keçirilsin, Əbülfəz Elçibəyin Prezident vəzifəsində qalması haqqında xalq öz fikrini bildirsin. Bir halda ki bütün bu qəbul olunmuş qərarlar və bu qədər müraciətlər Əbülfəz Elçibəyə və onu bu mövqedə saxlamaq istəyən adamlara təsir etmir, deməli, bir daha bu məsələni müzakirə etməyə ehtiyac yoxdur. Kiminsə əlavə sözü varsa, mən etiraz etmirəm, buyursunlar. Ancaq yoxdursa, onda biz dünən bu məsələni Hüquq siyasəti və dövlət quruculuğu komissiyasına həvalə etmişdik, onlar işləmişdilər, ondan sonra bizim hüquqşünaslar da toplaşıb öz rəylərini vermişdilər. Bunlar hamısı mənim tapşırığımla olub. Afiyəddin Cəlilov da toplantıda iştirak edib, bu barədə bir qərar layihəsi hazırlanıb. Təqdim olunsun.

**Afiyəddin Cəlilov.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Milli Məclisin keçmiş iclasında qaldırılmış məsələlərlə əlaqədar olaraq Azərbaycanda ümumxalq səsverməsi – referendumun keçirilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərar layihəsi sizin diqqətinizə təqdim olunur.

Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin öz səlahiyyətlərini daha icra etməməsi və 4 iyun 1993-cü il tarixli Gəncə hadisələrinə görə şəxsi məsuliyyət daşımasını nəzərə alaraq qərara alır.

Burada bir məsələni, Heydər müəllim, məsləhətləşmək lazımdır, qərarda referendumun keçirilməsi müddəti müəyyən olunmalıdır. Mən Milli Məclisin üzvlərinə çatdırmaq istəyirəm ki, belə bir təklif var: referendum bir ay müddətinə hazırlansın və keçirilsin.

**Sədrlik edən.** Oxuyun, oxuyun, sonra müzakirə edəcəyik.

**Afiyəddin Cəlilov.** Və bununla əlaqədar olaraq.

1. Azərbaycan Respublikasında Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərilməsi haqqında ümumxalq səsverməsi – Azərbaycan Respublikasının referendumu keçirilsin.

2. Referendumda səsvermə bülleteninə "Siz Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə etimad göstərirsinizmi?" sualı və cavab variantları "hə" və "yox" sözləri daxil edilsin.

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının ümumxalq səsverməsi (referendum) Azərbaycan Respublikası Qanununun 17-ci və 18-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikasında bir ay müddətində keçiriləcək. Azərbaycan Respublikasının referendumunu mərkəzi komissiyanın və Naxçıvan Muxtar Respublikası Komissiyasının səlahiyyətlərini müvafiq surətdə Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası və Naxçıvan Muxtar Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası həyata keçirir.

4. Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasına və Naxçıvan Muxtar Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyasına tövsiyə olunsun ki, Azərbaycan Respublikasının ümumxalq səsverməsində (referendumunda) səsvermənin keçirilməsi üçün rayonların, respublika tabeli şəhərlərin hüdudları daxilində müvafiq dairələr təşkil etsinlər.

5. Müəyyən edilsin ki, Azərbaycan Respublikası ümumxalq səsverməsi (referendumu) üzrə dairə komissiyaları Azərbaycan Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası və Naxçıvan Muxtar Respublikası xalq deputatları seçkiləri üzrə Mərkəzi Seçki Komissiyası tərəfindən yaradılsın.

6. Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının rayon və şəhər xalq deputatları sovetləri Azərbaycan Respublikasının rayon və şəhər icra hakimiyyətlərinin başçıları, Azərbaycan Respublikasının ümumxalq səsverməsi (referendumu) haqqında Azərbaycan Respublikasının qanununa uyğun olaraq məntəqələrin təşkilini və məntəqə komissiyalarının yaradılmasını təmin edir.

7. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, həmin ümumxalq səsverməsinin (referendumun) keçirilməsi üçün lazımi vəsait ayrılsın.

**Sədrlik edən.** Bilirsiniz, bu layihəni müzakirə etməzdən əvvəl bir məsələni sizin nəzər-diqqətinizə çatdırmaq istəyirəm. Dünən biz Ali

Məhkəmənin sədri Tahir Kərimli haqqında Ali Məhkəmənin 29 üzvünün müraciətini burada müzakirə etdik. Müzakirələrdən sonra Tahir Kərimliyə burada cürbəcür təkliflər oldu. Ancaq biz Tahir Kərimliyə müraciət etdik ki, qoy o özü düşünsün. Bu gün Milli Məclisin də, Azərbaycan dövlətinin, dövlət strukturlarının indi, onsuz da, dərdi, işi çoxdur, bizi əziyyətə salmasın. Tahir Kərimlinin günahı ondan ibarət idi ki, o, vəzifəsini layiqincə yerinə yetirə bilməmişdi, işində səhvlər buraxmışdı. Onun tərəfindən Konstitusiya pozulmamışdı, qanunlar pozulmamışdı, bunu ədalət naminə demək lazımdır. Tahir Kərimli özündə, yəqin ki, güc və iradə tapdı, düşündü və bu gün gəldi, istefası haqqında ərizə verdi. Mənə belə gəlir ki, o özü də rahatlandı. Mən onunla söhbət edəndə belə başa düşdüm... Milli Məclisi də artıq bu məsələni müzakirə etməkdən azad etdi. Lakin təəccüblü burasıdır ki, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəy respublikanın belə bir vəziyyətdə olduğu, Milli Məclis tərəfindən qərar qəbul olunduğu halda, onun tərəfindən və yüksək vəzifəli şəxslər tərəfindən Konstitusiyanın və qanunların pozulması parlament tərəfindən tam qətiyyətlə bildirildiyi halda, respublikanı belə bir ağır şəraitə salır. Referendum haqqında təklif verilir, ancaq təsəvvür edin, referendumu keçirmək üçün nə qədər vəsait lazımdır, nə qədər insan gərək öz işindən müəyyən qədər uzaqlaşsın ki, bu ümumxalq səsverməsinin keçirilməsi üçün lazımi tədbirlər görülsün. Bizim bir çox təşkilatlarımız bir ay rayonlarda və şəhərlərdə bu işlərlə məşğul olacaqlar. Buna ehtiyac varmı? Bunun üçün bir daha həm Əbülfəz Elçibəyə, həm də bu salonda oturan, onunla daimi əlaqədə olan Məclis üzvlərinə müraciət edərək bildirmək istəyirəm ki, düşünmək lazımdır. Mən istərdim ki, bu layihənin müzakirəsinə keçməzdən öncə Ali Sovetin və şəxsən mənim ünvanıma daxil olan sabiq milli təhlükəsizlik naziri Təhməzovun və sabiq daxili işlər naziri Allahverdiyevin müraciətlərini sizə çatdırım. Bəlkə, bu müraciətləri siz də biləndən, Əbülfəz Elçibəy də eşidəndən sonra başqa iqlim yarana bilər. Buyurun.

**Afiyəddin Cəlilov.** Sabiq daxili işlər naziri Abdulla Allahverdiyev və sabiq milli təhlükəsizlik naziri Fəxrəddin Təhməzov 15-16 iyul 1993-cü il tarixdə keçirilmiş Milli Məclisin iclasında etdikləri çıxışları ilə əlaqədar Gəncə qarnizonu hərbi prokuroruna ərizə yazaraq bildirmişlər ki, Milli Məclisə müraciət yazıblar və həmin müraciətin sizə çatdırılmasını xahiş edirlər. Allahverdiyevin və Təhməzovun müraciəti sizə təqdim olunur.

Gəncə qarnizonunun hərbi prokuroru, ədliyyə polkovnik-leytenantı Yusifov.

Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əlirza oğlu Əliyev cənablarına

Daxili İşlər Nazirliyinin Gəncə şəhər 2 saylı təcridxanasında saxlanılan sabiq milli təhlükəsizlik naziri Təhməzov Fəxrəddin Ayat oğlu tərəfindən müraciət.

4 iyun 1993-cü il tarixində Gəncə şəhərində baş vermiş hadisələrlə əlaqədar Milli Məclis tərəfindən yaradılmış deputat-istintaq komissiyasının iyulun 15-16-da Milli Məclis qarşısında hesabatı dinlənilmiş, o cümlədən mənim çıxışlarım olmuşdur. Müzakirələrə qədər hadisələr barəsində bildiklərimi açıqlayacağım təqdirdə mənim özümün və ailə üzvlərimin öldürüləcəyi barədə dəfələrlə mənə olan naməlum telefon zənglərindən və Milli Məclisdə olan ümumi münasibətdən, çıxışlarımda fikirlərimi tam açıqlaya bilməmişəm. Ona görə də sizdən xahiş edirəm ki, mənim müraciətimi Milli Məclisə çatdırasınız.

Hörmətli sədr və Milli Məclis üzvləri!

Yuxarıda göstərdiyim səbəblərə görə Gəncə hadisələri barəsində bildiklərimi 15-16 iyul tarixli çıxışlarımda sizə çatdıra bilmədiyim üçün üzr istəyirəm. Gəncə hadisələri barədə mənim bildiklərim aşağıdakılardan ibarətdir: Hələ 1992-ci ilin noyabr ayında Surət Hüseynovun əhali və hərbçilər arasında artan nüfuzu respublikanın rəhbərliyini, xüsusən Prezident Əbülfəz Elçibəyi, ovaxtkı dövlət katibi Pənah Hüseynovu, daxili işlər naziri İsgəndər Həmidovu narahat edirdi. Lakin həmin vaxt Surət Hüseynovun Milli Qəhrəman, Prezidentin Qarabağ üzrə səlahiyyətli nümayəndəsi, Baş nazirin müavini və korpus komandiri olması bu narahatlığı artırırdı. Surət Hüseynov cavan olmasına baxmayaraq, bütün vəzifələrin öhdəsindən layiqincə gəlirdi. Bu da Pənah Hüseynovu, İsgəndər Həmidovu və Prezidentin ətrafında olan komandanın digər üzvlərini narahat etməyə bilməzdi. Bu səbəblərdən, nəyin bahasına olursa olsun Surət Hüseynovu nüfüzdan salmağa çalışırdılar. Surət Hüseynovun rəhbərlik etdiyi Gəncə şəhərindəki korpusun ləğvi və tərk-silah olunması üçün 1993-cü ilin mart ayında mənim xəbərim olmadan Pənah Hüseynovun rəhbərliyi ilə Daxili İşlər Nazirliyinin qüvvələri, Milli Təhlükəsizlik Nazirliyinin xüsusi təyinatlı dəstəsi və Prezident Qvardiyası Gəncə şəhərinə gətirildi. Həmin vaxt respublikanın ağsaqqalları İsmayıl Şıxlı və Tofiq Bağırovun səyi nəticəsində Gəncədə heç bir qan tökülmədi. Bundan sonra elə yuxarıda qeyd etdiyim şəxslər Surət Hüseynovu özlərinə rəqib hesab etdilər, hər dəfə Dövlət Müdafiə

Komitəsinin iclası yığılanda Surət Hüseynovun hərbi hissəsinin işlərinə qarışdığını, respublika rəhbərliyinə tabe olmamağını qeyd edirdilər. Onun özünün və tərəfdarlarının tərk-silah olunması məsələsi müzakirə olunurdu.

25 may 1993-cü il tarixdə keçirilən Dövlət Müdafiə Komitəsinin növbəti iclasında 709 saylı hərbi hissənin ləğv olunması məsələsi konkret olaraq Prezident Əbülfəz Elçibəy tərəfindən müdafiə naziri Dadaş Rzayevə tapşırıldı. Bunun üçün Dadaş Rzayevin və Pənah Hüseynovun təşəbbüsü ilə 30 may 1993-cü ildə Müdafiə Nazirliyində, 31 may 1993-cü ildə isə mənim iş otağımda Pənah Hüseynovun, Dadaş Rzayevin, Nurəddin Sadıqovun, Abdulla Allahverdiyevin, Fəhmin Hacıyevin, Qabil Məmmədovun, İxtiyar Şirinovun, Vəliyevin iştirakı ilə 709 nömrəli hərbi hissənin ləğvi və tərk-silah məsələsi müzakirə olundu. Bu müşavirədə Pənah Hüseynov məndən 709 saylı hərbi hissənin ləğvi və tərk-silah olunması üçün Milli Təhlükəsizlik Nazirliyinin xüsusi təyinatlı dəstəsinin 40 nəfər əməkdaşının Dadaş Rzayevin sərəncamına verilməsini tələb etdi. Mən bunu Prezidentə məruzə elədim. O isə bildirdi ki, Pənah Hüseynov bütün sərəncamları onun adından verir. Mən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanına, Prezident Əbülfəz Elçibəyə tabe olduğum üçün 40 nəfər xüsusi təyinatlı dəstənin əməkdaşını Dadaş Rzayevin sərəncamına göndərmişəm. 4 iyun 1993-cü il tarixdə Gəncə hadisələri baş verən zaman öz kabinetimdə olmuşam, Gəncədən mənə verilən məlumatları Prezidentə məruzə etmişəm. Həmin gün Pənah Hüseynovla İsa Qəmbər daxili işlər nazirinin iş otağında əməliyyatlara bilavasitə rəhbərlik ediblər.

Bildirmək istəyirəm ki, mən hərbçi kimi Ali Baş Komandana, Prezident Əbülfəz Elçibəyə tabe olaraq onun sərəncamlarını icra etmişəm. Mənim əməlimdə hansısa cinayət tərkibi varsa, ona görə olan cinayət məsuliyyətini daşımağa hazıram.

Gəncə hadisələri barəsində bildiklərimi təfsilatı ilə yazılı şəkildə ibtidai istintaq orqanlarına bildirmişəm və sizdən xahiş edirəm ki, mənim müraciətimi Milli Məclis üzvlərinə çatdırasınız.

İmza: Fəxrəddin Təhməzov

24 iyul 1993-cü il

**Sədrlik edən.** Sonra o biri müraciət.

**Afiyəddin Cəlilov.** Burada, demək, C.Vəliyev yazılıb, bəli, C.Vəliyev.

**Sədrlik edən.** Kimdir o Vəliyev?

**Afiyəddin Cəlilov.** Xüsusi idarənin rəisidir. İkinci müraciət Azərbaycanın sabiq daxili işlər nazirinindir.

Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev cənablarına.

Gəncə şəhəri 2 saylı istintaq təcridxanasında saxlanılan Allahverdiyev Abdulla Müseyib oğlu tərəfindən müraciət.

Bildirirəm ki, 4 iyun 1993-cü il tarixdə Gəncə şəhərində baş verən hadisələrlə əlaqədar mənə məlum olan faktları təfsilatı ilə heç nəyi gizlətmədən ibtidai istintaq və deputat-istintaq komissiyasına dəfələrlə göstərmişəm. 16 iyul 1993-cü il tarixdə keçirilən Milli Məclisin iclasına birbaşa Bakı təyyarə meydanından gəldiyim üçün və iclasın əvvəlində iştirak etmədiyimə görə çıxışımda bəzi faktları tam açıqlaya bilməmişəm.

Tam məsuliyyətimlə bildirirəm ki, 4-12 iyun Gəncə hadisələri ilə əlaqədar bütün göstərişləri Prezident Əbülfəz Elçibəy, Pənah Hüseynov, İsa Qəmbər və Əli Kərimovdan almışam, onların əmrləri, göstərişləri ilə hərəkət etmişəm. 25 may tarixli müşavirədə əvvəlcə Prezident, sonra Pənah Hüseynov, İsa Qəmbər və Əli Kərimov tələb etdilər ki, Surət Hüseynovun hörmətinin və nüfuzunun artmasına imkan vermək olmaz, onun hərbi hissəsi ləğv edilməlidir. Bunu məndən tələb etmişdi. Milli Təhlükəsizlik Nazirliyinin 31 may tarixli müşavirəsində də Pənah Hüseynov Prezidentin adından həmin tələbi etdi. 4 iyun 1993-cü il tarixdə Pənah Hüseynov, İsa Qəmbər və Əli Kərimov mənim iş otağımdan telefon vasitəsilə Prezidentdən əmrlər, göstərişlər alıb, respublikadakı müəyyən vəzifəli şəxslərə göstərişlər verdilər. Pənah Hüseynov mənim iş otağımdan telefonla Dadaş Rzayevlə və onun müavinləri ilə əlaqə saxlayıb əmr verdi ki, təyyarələri və vertolyotları qaldırıb Gəncədəki 709 saylı hərbi hissəni və təyyarə limanında və onun ətrafındakı olan hərbi texnikanı havadan bombardman etsin. Əli Kərimovun təkidi və Prezidentin göstərişinə baxmayaraq, AXC-yə silah verməkdən imtina etmişəm. Buna görə də onlarla mənim aramda ciddi narazılıq yaranmışdır. Əgər günahım varsa, öz cəzamı çəkməyə hazıram.

İmza: Abdulla Allahverdiyev

24 iyul 1993-cü il

**Sədrlik edən.** Güman edirəm ki, bu müraciətlərdən hər şey aydındır. Bir halda ki bu məhbuslar məndən xahiş ediblər ki, bu müraciətlər Milli Məclisə çatdırılsın, mən bunu yerinə yetirməliydim, bunu tamamilə

hüquqi hesab edirəm. Çıxış etmək istəyən varmı? Burada siyahı böyükdür. Mən siyahı əsasında söz verəcəyəm. Ədalət Rəhimli buyursun.

**Ədalət Rəhimli.** Hörmətli millət vəkilləri, hörmətli sədarət! Son iki ildə Azərbaycanda dövlət siyasətinin və ideologiyasının formalaşmasında Ali Sovetin də, deputatların da müəyyən rolu olub. Mən belə hesab edirəm ki, əgər biz özümüzə – yəni deputatlara da xalqın münasibətini bilsək yaxşı olar. Təklif edirəm ki, referendum suallarının birinə də Azərbaycan Ali Sovetinə etimad məsələsi qoyulsun. Sağ olun.

**Sədrlik edən.** Tofiq Qasımov, buyurun.

**Tofiq Qasımov.** Hörmətli deputatlar, mən bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. Bildiyiniz kimi, bəlkə də, burada mən referendumun keçirilməsini təklif edənlərdən birincisi olmuşam. Amma qanuna görə, fövqəladə vəziyyət rejimi şəraitində referendum keçirmək olmaz. Ona görə də referendumun müddətini təyin eləmək üçün biz ya o qanunda dəyişiklik edək, ya da referendum keçirmək üçün fövqəladə vəziyyətin müddətini dayandıraq. Hüquqi cəhətdən ikinci məsələ odur ki, bu təqdim edilən layihə hüquq şöbəsinin verdiyi qərar layihəsidir və bu bizim komissiya tərəfindən qəbul edilmədi. Çünki müxtəlif təkliflər oldu. Yəni o referenduma salınacaq əsas suala – Prezidentə etimad məsələsinə müsbət cavab verildi, biz səsə qoyub qəbul eləmişik. Qanuna görə referendum 2 aydan tez olmamaq şərti ilə təyin olunmalıdır, ən uzağı 4 ay müddətinə. Bunu da sizin diqqətinizə çatdırmaq istərdim. Çox sağ olun.

**Sədrlik edən.** Tofiq bəy, şübhəsiz ki, mən çıxış edənlərin sözünə heç bir əlavə etmək və ya cavab vermək fikrində deyiləm. Ancaq Siz məsələni elə qoyursunuz ki, mən bunu aydınlaşdırmaq məqsədilə sual vermək istəyirəm. Bir tərəfdən deyirsiniz ki, Siz referendum keçirilməsinin təşəbbüskarlarından birisiniz. Eyni zamanda fövqəladə vəziyyətin keçirilməsini lazımlı hesab etmişdiniz. İndi də deyirsiniz ki, fövqəladə vəziyyət zamanı referendum keçirmək olmaz. Onda nə təklif edirsiniz? Xahiş edirəm, bir Məclis üzvü və komissiya sədri kimi bizə məlumat verin.

**Tofiq Qasımov.** Yəni mən sizin diqqətinizi burada yaranan hüquqi paradoksa cəlb etmək istəyirdim. Belə bir vəziyyət yaranıb. Həm fövqəladə vəziyyət şəraitindəyik, həm də belə bir vəziyyətdə referendum keçirmək olmaz. Referendumu da keçirmək lazımdır. Ona görə referendum keçirmək müddətinə, ya bilmirəm, referendumla bağlı hansısa məqama dəyişiklik etməliyik. İcazə versəniz, biz onda komissiyalarda bunu müzakirə edərdik...

**Sədrlik edən.** Yox, buna icazə... Dünən də biz ona...

*(Səslər qarışır.)*

**Tofiq Qasımov.** Hüquqi cəhətdən bir yol tapmalıyıq ki, həm qanun pozulmasın, həm də referendum keçirilsin. Mənim təklifim buna aid idi.

**Sədrlik edən.** Tofiq bəy, dünən biz şərait yaratdıq, komissiya 3-4 saat işlədi. İndi bu gün də icazə versək, bu məsələ nə qədər uzanacaq? Məsələ tam aydındır. Siz özünüz dediniz ki, burada hüquqi paradoks yaranır. Siz bir komissiya sədri və siyasi təcrübəsi olan bir adam kimi bir ildən çoxdur ki, bu işlərlə ciddi məşğul olursunuz. Bu vəziyyətdən çıxış yolunu deyin. Yenə də deyirəm, Siz hər bir təklifin tərəfdarısınız, yəni həm fövqəladə vəziyyətin uzadılmasına, həm referendumun keçirilməsinə. Eyni zamanda deyirsiniz ki, fövqəladə vəziyyət vaxtında referendumu keçirmək olmaz. Onda nə edək?

**Tofiq Qasımov.** Ona görə də bayaq dedim ki, biz gözləyək, bir neçə gündən sonra fövqəladə vəziyyət elan edək. O da çıxış yolu idi. Referendum keçirməzdən əvvəl bir müddətə fövqəladə vəziyyəti saxlamaq olar. Referendum keçirib sonra elan etmək olar. Qanunu pozmamaq üçün mən belə bir şey təklif edə bilərəm.

**Sədrlik edən.** Tofiq bəy, bir tərəfdən, görürəm, zarafat edirsiniz, bir tərəfdən də istəyirsiniz bizi saxtakarlığa yönəldəsiniz. Yəni Sizin sözünüzdən belə çıxır ki, fövqəladə vəziyyətin vaxtı qurtarsın, üç gün gözləyək. Bu üç günün içərisində də referendum keçirək, bundan sonra yenidən fövqəladə vəziyyət elan edək. Belə şey ola bilməz axı. Siz vəziyyəti mürəkkəbləşdirirsiniz, vəziyyətdən çıxış yolunu da demək istəmirsiniz. İnqilab Nadirov buyursun.

**İnqilab Nadirov.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Ölkəmiz öz tarixi ərzində ən ağır və faciəli günlərini yaşayır. Bu acı günlərin əsl səbəbkarlarından biri də Əbülfəz Əliyev olub. O, xalqı bu acınacaqlı vəziyyətə salaraq gedib Naxçıvanın ən ucqar bir dağ kəndində özünə məskən tapıb. Biz bir aydan artıqdır ki, necə deyərlər, onun nazı ilə oynayırıq, yanına adamlar göndərmişik, ona hər cür imkan yaratmışıq ki, heç olmasa, bu adamların səsinə səs versin, gəlsin, istefasını versin. Lakin onda bu daxili güc və mənlik olmadığına görə gəlib belə bir hərəkət edə bilmədi. Respublikanın bu ağır vəziyyətində Prezidentin bu hərəkəti xalqa xəyanətdən başqa bir şey deyil. Ona görə də mən elə hesab edirəm ki, Tofiq Qasımovun dediyi sözdə müəyyən dərəcədə həqiqət var. Fövqəladə vəziyyət şəraitində referendum keçirmək düzgün deyil. Lakin

həm də nəzərə almaq lazımdır ki, bizim bu saat əhalimizin 600-700 mini qaçqın vəziyyətindədir. Referendumun keçirilməsi, onsuz da ağır vəziyyətdə olan ölkədə çox ciddi maliyyə çatışmazlığına gətirib çıxaracaq.

Mən Konstitusiyanın 121-ci maddəsinin 7-ci hissəsini nəzərinizə çatdırmaq istəyirəm: "Azərbaycan Respublikasının Prezidenti toxunulmazlıq hüququna malikdir və Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını pozduğu halda, yalnız Azərbaycan Respublikası Ali Soveti tərəfindən vəzifədən götürülə bilər. Bu, Azərbaycan Respublikası xalq deputatlarının ümumi sayının ücdəiki səs çoxluğundan az olmayaraq Azərbaycan Respublikası Ali Sovetinin təşəbbüsü ilə qəbul edilir". Ona görə mən elə hesab edirəm ki, Əbülfəz Elçibəyin nazı ilə oynamaq lazım deyil. Bu gün Milli Məclisdə bu məsələyə baxılmalıdır. Hələ 1993-cü il fevral ayının 16-da bu Milli Məclisdə mən Əbülfəz Elçibəyin respublika rəhbərliyindəki səriştəsizliyini nəzərə alaraq onun istefa verməsini və yaxud vəzifədən götürülməsini təklif etmişdim. Lakin Ali Sovetin və Milli Məclis rəhbərliyinin laqeyd münasibəti nəticəsində buna heç məhəl qoyulmadı. Bu təklifi ilk olaraq irəli sürənlərdən biri kimi mən yenə eyni fikirdəyəm. Təklif edirəm ki, Konstitusiyanın 121-ci maddəsinin 7-ci hissəsi tətbiq edilsin və Əbülfəz Elçibəy Azərbaycan Respublikasının Prezidenti vəzifəsindən götürülsün. Sağ olun.

**Sədrlik edən.** Əhədov Nurəddin buyursun.

**Nurəddin Əhədov.** Möhtərəm sədr, hörmətli millət vəkilləri! Mənim Prezidentə etimadsızlıq göstərilməsi barədə referendum keçirilməsinə bir sözüm yoxdur. Mən parlament haqqında danışmaq istəyirəm. Bilirsiniz ki, bizim indiki Ali Sovet, yəni parlament 1990-cı ildə seçilib və o zamandan bəri keçmiş SSRİ ərazisində və o cümlədən Azərbaycanda çox ciddi ictimai-siyasi hadisələr baş verib. Bunlardan biri odur ki, ölkə ərazisində müharibə gedir, daha bir ciddi hadisə Azərbaycanın siyasi müstəqillik qazanmasıdır. Siyasi müstəqillik qazanandan sonra Azərbaycanda Prezident seçkiləri keçirilib. Lakin parlament seçkiləri keçirilməyib. Ötən müddət ərzində Azərbaycanın siyasi həyatında baş verən ciddi dəyişikliklərdən biri də bir çox siyasi partiyaların yaranmasıdır. Bu partiyaların siyasi ehtirasları gün-gündən artır və onlar siyasi hakimiyyətdə iştirak etmək istəyirlər. Çünki onlar parlamentdə təmsil olunmurlar. Nə qədər ki siyasi partiyalar parlamentdə təmsil olunmayıblar, deputatları burada yoxdur, respublikada siyasi sabitlik yaratmaq çətin olacaq. Bu baxımdan Azərbaycanda yeni parlament seçkilərinə də ehtiyac vardır. Azərbaycanda son vaxtlar baş verən proseslərdə parlament

çox vaxt ciddi qərarlar qəbul edə bilmir, dəfələrlə öz çıxardığı qərarları dəyişir. Bundan əlavə, Azərbaycan parlamenti iki dəfə Prezidenti vəzifəsindən kənarlaşdırıb, Baş nazir, üç Ali Sovet sədrini dəyişib, bir dəfə keçmiş Ali Sovet sədrinin tutulmağına icazə verib. Heç kəsdən gizli deyil ki, bəzi deputatlarımız dəfələrlə açıq-aşkar vəzifə uğrunda mübarizə aparıblar. Buna görə də xalq arasında parlamentin reytinqi aşağı düşüb. Bir halda ki referendum keçiriləcək, xeyli vəsait sərf olunacaq, mən təklif edərdim, bülletenə birinci sualla yanaşı ikinci bir sual da daxil edilsin ki, "Siz Azərbaycanın indiki parlamentinə etimad göstərirsinizmi?" Diqqətinizə görə sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Qurbanov Qalib, buyurun.

**Qalib Qurbanov.** Xatırlatmaq istəyirəm ki, həm Mərkəzi Seçki Komissiyası, həm də rayon və şəhər seçki komissiyaları 1990-cı ildə seçilib. Onlar beş illik müddətə fəaliyyət göstərməli idilər, ancaq məlum səbəblərə görə keçmiş iqtidar bu komissiyaların tərkibində əsaslı dəyişikliklər apardı. Kimlər oradan çıxarılıb, kimlər ora seçilib, hamınız bilirsiniz. Mən hesab edirəm ki, bizim bu qərar layihəsində elə bir bənd də olmalıdır ki, həm Mərkəzi Seçki Komissiyasının, həm rayonlarda və şəhərlərdə seçki komissiyalarının tərkiblərinə yenidən baxılsın, müəyyən dəyişikliklər aparılsın.

**Sədrlik edən.** İbrahimov İbrahim, buyurun.

**İbrahim İbrahimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Biz prinsip etibarilə referendumun keçirilməsinə etiraz eləmirik. Amma burada müəyyən hüquqi dəqiqləşdirilmələr aparılmalıdır. İyunun 24-də Ali Sovetdə qəbul olunan, Prezidentin səlahiyyətlərinin Ali Sovetin sədrinə verilməsi ilə bağlı qərar Konstitusiyanın 121.7-ci maddəsinə əsaslanır, bu gün referendum haqqında təqdim olunan qərar isə Konstitusiyanın 121.6-cı maddəsinə əsaslanır. Amma burada bir məsələ var, bu iki qərar hüquqi baxımdan bir-birinə ziddiyyət təşkil edir. 24 iyundakı qərarla Prezidentin səlahiyyətləri Ali Sovetin sədrinə verilib. Faktiki olaraq bu dəqiqə Prezident yoxdur. Olmayan Prezidentə etimadsızlıq məsələsi necə ola bilər? Bu məsələnin hüquqi cəhətdən doğru olması üçün Milli Məclisin iyunun 24-də qəbul elədiyi qərar ləğv edilməlidir, referendum keçirilməlidir.

İkinci bir tərəfdən, referendum keçirilməsinin də hüquqi nəticələri olmayacaq. Burada hüquqşünaslar və hörmətli professor Murtuz Ələsgərov əyləşiblər. Məlum məsələdir ki, referendum yalnız ictimai rəyi

müəyyənləşdirir, hüquqi nəticələri olmur. Referendumdan sonra hətta Prezidentə etimadsızlıq göstərilsə belə, hüquqi baxımdan 50 üstəgəl 1 faizlə, Prezidentin vəzifədən kənarlaşdırılması mexanizmi yoxdur.

Başqa bir məqam budur ki, bayaq İnqilab bəy burada Konstitusiyanın 121.7-ci maddəsini diqqətə çatdırdı. Amma orada bir şeyi nəzərdən qaçırdı. Əvvəla, bizim Konstitusiyada Prezidentə etimadsızlıq yoxdur. Yalnız Ali Sovet üçdəiki səslə Prezidenti vəzifəsindən uzaqlaşdıra bilər, amma Prezident qanunları və Konstitusiyanı pozduğu halda. Bunu isə yeganə bir orqan – Konstitusiya Məhkəməsi dəqiqləşdirə bilər. Konstitusiya Məhkəməsindən başqa Prezidentin ölkə Konstitusiyasını və qanunları pozduğunu heç bir orqan müəyyən edə bilməz, Məclisin də bunu etməsi mümkün deyil. Ona görə də bu referendumun keçirilməsi, ölkə Prezidentinə birbaşa etimadsızlıq göstərilməsi, eyni zamanda Afiyəddin bəyin layihədə oxuduğu kimi, onun Konstitusiyanı və qanunları pozması düzgün deyil. Konstitusiya Məhkəməsinin rəyi yoxdur.

Amma bütövlükdə referendumun keçirilməsinə biz etiraz eləmirik. Mən məsələnin texniki tərəflərinə də nəzər salmaq istəyirəm. Bayaq burada o da deyildi ki, referendumun keçirilməsi üçün referendum qanunu var. Təbii ki, bu, yeni deyil, köhnə qanundur. Həmin qanunda göstərilir ki, yerli sovetlərin icra orqanları referendumun keçirilməsi üçün şərait yaradır və ictimai-siyasi təşkilatların lazımi təbliğat aparması üçün müəyyən imkanlar yaradılır. Keçən dəfə burada Ağdam məsələsi müzakirə olunanda göstərildi ki, Ağdamın icra aparatının başçısının dəyişdirilməsindən heç kimin xəbəri yoxdur. Hətta Məclisin qərarı ilə Prezidentin səlahiyyətlərini icra edən Ali Sovetin sədri Heydər Əliyev də dedi ki, mənim Ağdamın icra başçısının dəyişdirilməsindən xəbərim yoxdur. Bir faktı da nəzərinizə çatdırım: Ərazi idarəetmə orqanları üzrə müşavir Arif Rəhimzadənin Neftçalada keçirdiyi müşavirə hərbçilər tərəfindən mühasirəyə alınır, hətta onu girov götürmək istəyirlər, birtəhər razılaşmalardan sonra o girovluqdan güclə xilas olur. Deməli, yerlərdə icra hakimiyyətləri fəaliyyət göstərmir, hətta icra hakimlərinin birbaşa işi ilə bağlı müşavirəyə bu cür təzyiqlər olur. Bunları əsas götürərək deyirəm ki, yerli hakimiyyətlərdə qanunsuzluq, başsızlıq olduğuna görə biz referendumun obyektiv şəkildə keçirilməsinə nail ola bilməyəcəyik.

Məsələnin siyasi tərəfinə gəldikdə isə istər-istəməz demokratik qüvvələr özünü göstərəcəkdir. Ancaq həm Azərbaycan, həm də ictimai-siyasi təşkilatların liderləri dünyanın beynəlxalq sistemində özünü təsdiq eləmişdilər. Bu təşkilatlar eyni zamanda beynəlxalq qurumlarla da

əlaqə saxlayıblar. Biz bu məsələ ilə bağlı, yəni komissiyanın rəyi və gedən istintaqın nəticələri barədə, təbii ki, beynəlxalq məhkəməyə müraciət edəcəyik, xarici ekspertlərin buna münasibətini öyrənəcəyik. Yəni bu, o qədər də asan məsələ deyil. Fikirləşməyin ki, bunu elə burada "qızdır-basdırla" qəbul eləmək məsələləri tam şəkildə həll etməyə gətirib çıxaracaq. Yox! Bu istiqamətdə biz mübarizəmizi davam etdirəcək və bütün beynəlxalq məhkəmələrin ekspertlərinin rəyini bu istiqamətə yönəldəcəyik.

Mən bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. Bu gün saat 2-də Prezident Əbülfəz Elçibəylə danışdım. Nəzərinə çatdırım ki, Əbülfəz bəy, Sizin məsələ ilə bağlı referendum keçirmək istəyirlər, buna münasibətiniz necədir? Qanuna görə, referendum keçirilməsinin üç təşəbbüsçüsü var: Ali Sovet, Prezident, bir də vətəndaşlar. Yəni 300 min vətəndaşın imzası ilə keçirilə bilər. Təbii ki, mən dedim ki, Ali Sovetin təşəbbüsü var, Milli Məclisin buna səlahiyyəti var. Əbülfəz bəy dedi ki, mən əvvəllər də demişəm, indi də deyirəm ki, ümumiyyətlə, referendum keçirilməsinin əleyhinə deyiləm. Referendumla xalqın mənə münasibəti bilinəcək. Hüquqi cəhətdən Prezidentlikdən uzaqlaşdırılma mexanizmi olmadığına görə o etimadsızlığı görsəm, təbii ki, istefa verəcəyəm. Amma dedi, mən bir şərtlə razıyam ki, Ali Sovetə yeni seçkilərin keçirilməsi haqqında Konstitusiya qanunu mənim təşəbbüsümlə Milli Məclisə daxil olub, geniş müzakirəsi gedib. Qanun layihəsinin müzakirəsi sona çatdırılsın. Seçkilər haqqında qanun qəbul edilsin, seçkinin vaxtı müəyyənləşsin. Ondan bir həftə sonra mənə, yəni Prezidentə qarşı etimadsızlıq məsələsi referenduma qoyulsun, ümumxalq səsverməsi keçirilsin. Əbülfəz bəyin fikri belədir.

Məncə, hamıya məlumdur ki, Əbülfəz bəy nə üçün bura gələ bilmir, vəziyyət nə yerdədir. Bu gün əgər müəyyən qorxu ilə gərginliyin artmaması üçün məsələlər tam şəkildə açılmırsa, narahat olmayın. Tarixdə heç vaxt qapalı məsələ qalmayıb, üstündən bir müddət keçəndən sonra öz-özünə açılıb. Mən əminəm ki, Gəncə hadisələri də bir müddət sonra açılacaq və tam şəkildə dünya ictimaiyyətinə, burada əyləşənlərə, baş verənlərdən bixəbər olan xalqa bu məsələlər tam şəkildə aydınlaşacaq. Onda isə təbii ki, vəziyyət çətin olacaq. Buna görə də etik normalara uyğun şəkildə Prezidentin fikrini öyrənmək lazımdır və burada onun rəyi nəzərə alınmalıdır.

Qaldı məsələnin başqa bir tərəfinə, Heydər bəy, Siz burada dəfələrlə təkrar edirsiniz ki, qanunun aliliyinə bizim hörmətimiz böyükdür. Bir il

müddətində qanunlara hörmət olunmayıb və sair. Nəzərinizə çatdırım ki, Ali Sovetin keçmiş sədri İsa Qəmbərin həbsi tamamilə qeyri-qanunidır. Niyə? Çünki Məclisin qərarı var. Əgər qərara baxsanız, görərsiniz ki, sənəd iki hissədən ibarətdir. Qərarın birinci bəndində Milli Məclisin üzvü və keçmiş sədr İsa Qəmbər, eyni zamanda Sülhəddin Əkbərov və İxtiyar Şirinov Milli Məclisin üzvlüyündən çıxarıldı. Hələlik onların Milli Məclisin üzvlüyündən çıxarılması üçün əlimizdə elə bir fakt yoxdur. Onların Milli Məclisin üzvlüyündən çıxarılması qeyri-qanuni idi. İkincisi, Milli Məclisdən onların həbsinə və onlara cinayət işi açılmasına dair razılıq alınmayıb.

Dünya praktikasında görünməmiş bir hal idi ki, İsa Qəmbər Ali Sovetin binasında həbs olundu. Mən sual edirəm, doğrudan da, deyək ki, Ali Sovetin sədri ola-ola Məclisin çıxardığı bu qərarla İsa Qəmbərin haqqında həbs qətimkan tədbiri nəzərdə tutulmuşdu. Bəs Milli Məclisdən razılıq alınmadan Ali Sovetin binasında həbs olunub? Cinayət Məcəlləsinin 167-ci maddəsinə görə, buna 10 gün müddətində iddia qaldırılmalıdır. Özü də İsa Qəmbər Gəncəyə aparıldı. Biz bir neçə yerə sorğu verdik ki, nə üçün Gəncəyə aparmısınız? Hansı səbəbə? Məqsəd nədir? Bu da bizə məlum olmadı, müəmmalı qaldı, 10 gündən sonra İsa Qəmbərin haqqında iddia qaldırıldı və biz rəsmi şəkildə müraciət elədik, deputat kimi sorğu verdik. Deputat statusu haqqında qanuna görə, üç gün müddətində bizim sorğumuza cavab verilməlidir. Amma bu günə qədər bizə cavab verilməyib. Baş prokurorun qəbulunda olduq. Millət vəkilləri bu məsələ ilə əlaqədar Baş prokurorla danışıblar. Bəs siz İsa Qəmbərin qanunsuz həbsinə necə baxırsınız? Mən təqdimatı verəndə orada İsa Qəmbərin həbsi ilə bağlı maddə də var idi. Amma Milli Məclisdən buna icazə alınmayıbsa, bu, Milli Məclisin günahıdır. Mən parlamentdə bir şeyin şahidi oldum ki, hakimiyyətə gələn yeni qüvvələr özlərinin siyasi rəqiblərini nəyin vasitəsilə olur-olsun aradan götürmək, Azərbaycanda fəaliyyət göstərən demokratik qüvvələri lidersiz, başsız qoymaq, beləliklə də fövqəladə vəziyyəti ciddi şəkildə ağırlaşdırmaq, fövqəladə vəziyyəti əsas tutmaqla bu demokratik qüvvələri susdurmaq istəyirlər. Amma bir şeyi nəzərinizə çatdırım ki, tarixin qanunauyğunluğunun qarşısını almaq mümkün deyil. Bu gün hər hansı demokratik qüvvələrin liderləri həbs olunursa bu müvəqqətidir. Mən əminəm ki, ümumiyyətlə, məhkəmə onların cinayətkar olduqlarını sübut eləyə bilməyəcək. Onlar müəyyən müddətə uzaqlaşdırılsa da bu prosesin qarşısını almaq mümkün olmayacaq. Bu, tarixin qanunauyğunluğudur. Təcrübə sübut

edir ki, bunun qarşısını almaq mümkün deyil. Heydər bəy, çox güman ki, Siz özünüzün demokratik qüvvələrə münasibətinizi bu şəkildə aydınlaşdırandan sonra, yəqin ki, bu parlament Sizə qarşı çevriləcək. Mən əminəm ki, yaxın vaxtlarda təqribən bir neçə aydan sonra Siz bunun şahidi olacaqsınız.

Mənim bir millət vəkili kimi Sizdən xahişim var, yenidən Azərbaycanda hakimiyyət çevrilişinin baş verməməsi üçün bu parlamenti təcili buraxaq. İqtidarın ən başlıca günahı onda idi ki, özü bu Ali Sovetin seçkilərinin müəyyən qədər qeyri-qanuni olduğunu dəfələrlə elan elədi, amma parlamenti buraxıb yenidən seçkilər keçirmədi. Respublikada sabitlik yaratmağın ən başlıca şərtlərindən biri legitimliyi qaydasına qoymaq, hakimiyyət orqanlarını birləşdirmək idi. Bunun da ən əsas şərti yeni parlament seçkiləridir. Çünki parlament seçkiləri legitimləşsə siyasi stabillik yaranacaq, müəyyən qüvvələr burada təmsil olunacaq və icra orqanlarında da legitimlik yaranacaqdı. Belə olsa siz siyasi mübarizədə qalib olursunuz, baxmayaraq ki hansı vasitələrdən və metodlardan istifadə eləmisiniz. Keçmiş iqtidar özünün fərsizliyi ucbatından, o əməliyyatı keçirə bilməməyi səbəbindən məğlubiyyətə uğradı. Heç olmasa, bu millət naminə gələcəkdə bu cür çevrilişlərin baş verməməsi üçün Siz bu parlamenti buraxın. Bu parlament Sizi də devirəcək. Çox sağ olun, təşəkkür eləyirəm.

**Sədrlik edən.** Mən məcburam, İbrahim bəyin çıxışı ilə əlaqədar bir neçə kəlmə deyəm. Əvvəlcə mən son təklifinizə toxunuram. Bu parlamenti buraxmağa kim mane olurdu sizə? Yox, mən Sizin sözünüzü kəsmədim, xahiş eləyirəm, Siz də məni dinləyin. Kim mane olurdu sizə bu parlamenti buraxmağa? Bu parlament vaxtilə seçilib, indi kim qanuni seçilib, kim qeyri-qanuni, bunu sübut eləmək çətindir. Ancaq Siz həmin parlamentdə olmusunuz. Mənim heç bir siyasi rəqibim yoxdur. Mən Sizin kimi adamı, İbrahim bəy, Siz Zeynəddin kəndinin müəllimisiniz və Əbülfəz Elçibəy kimi adamı heç vaxt özümə siyasi rəqib hesab eləməmişəm, heç vaxt! Mən bunu özümə layiqli hesab eləməzdim ki, belə adamlar mənim siyasi rəqibim olsunlar. Siz yaxşı bilirsiniz ki, ona görə son üç ilə yaxın dövrdə Naxçıvanda yaşayaraq bütün bu məsələlərdən geri çəkilmişəm. Çünki nə Əbülfəz Elçibəyi və onun komandasını, nə də ondan əvvəlki adamları mən özümə siyasi rəqib hesab etməmişəm. Onların da hər birinin cinayətlərini burada, bu salonda üzlərinə demişəm. Bu gün də deməyə hazıram. Sizin kimi adamları da mən siyasi rəqib hesab etməmişəm. Siz keçən dəfə də belə ifadələr işlətdiniz. Yaraşmaz, öz

yerinizi bilin. Hər halda, özünüzü də, Əbülfəz Elçibəyi də, Heydər Əliyevi də tərəziyə qoyun. Görün, o çəki necədir, o fərq özünü necə göstərir?

İkinci, yenə də deyirəm, nə üçün parlamenti buraxmadınız? Əksinə, istədiyiniz kimi öz əlinizdə alət elədiniz. Bu aləti siz yaratmısınız, bunu mən icad eləməmişəm. Mən seçildikdən sonra bu parlamenti necə var elə qəbul etmişəm. Siz bir ildən artıq bu parlamenti istədiyiniz kimi saxlamısınız, istədiyiniz qərarı qəbul etmisiniz, istədiyiniz adamı çıxarmısınız. Dünən mən sual verdim, bu sual Sizə də aiddir, Ali Məhkəmənin sədrini azad edəndə burada dedilər ki, azad eləmək olmaz. Dünən də mən demədim ki, azad edək. Təkliflər var idi. Ancaq ondan qabaqkı Ali Məhkəmənin sədri və digər adamları götürək. Tutaq ki, günahı vardı, səhvi var idi, bəlkə, cinayəti də vardı, zorakılıqla onları vəzifədən azad edəndə, siz bilmirdiniz ki, qanunu pozursunuz? Bu parlamentdən özünüz istədiyiniz kimi istifadə edirdiniz? İndi respublika gəlib belə ağır vəziyyətə düşüb, torpaqların 17 faizi işğal olunub. Bu sizin dövrünüzdə baş verib. Siz cavabdehsiniz buna. İndi deyirsiniz ki, parlamenti buraxın, indi deyirsiniz ki, referendum keçirmək olmaz. Cürbəcür bəhanələr gətirirsiniz. Deyirsiniz ki, beynəlxalq məhkəmələrə müraciət etmisiniz. Müraciət edin, kim hara istəyir müraciət etsin. Siz bir nəfər adamın hüququnu müdafiə edərək bütöv Azərbaycan xalqının hüquqlarını tapdalayırsınız. Deyirsiniz ki, demokratik qüvvələr gələcək, gedəcək. Bilirsiniz, bu saat hansı qüvvə demokratikdir, hansı qüvvə qeyri-demokratikdir, bunu bir Allah bilir. Mən bir dəfə demişəm, bir də təkrar edirəm, elə bir hakim, elə bir məhkəmə yoxdur ki, təyin eləsin ki, İbrahim İbrahimov demokratik qüvvələrdəndir, Heydər Əliyev qeyri-demokratik qüvvələrdəndir.

Heydər Əliyev Azərbaycanda Azərbaycan xalqının mənafeyinə xidmət edəndə və o xidmətin nəticələri də görünəndə, Siz hələ uşaq idiniz, bəlkə də, Zeynəddin kəndində məktəbdə təzə dərs verməyə başlayırdınız. İndi Siz gəlib olmusunuz demokratik, qalanları qeyri-demokratik...

Xeyr, doğru demirsiniz. Xalqı aldadırsınız. Ona görə də mən bu sözləri deməyə məcburam, mən demək istəməzdim, bu uzun-uzadı nitqinizlə Siz məni vadar etdiniz. Mən Sizdən bir şey soruşmaq istəyirəm, bəs nə edək? Müharibə gedir, 17 faiz torpaqlar gedir, Ağdam işğal olundu, camaatın yaşayışı pisdir, gün-gündən xarablaşır, iqtisadiyyat dağılıb. Bəli, son illərdə dağılıb. Ancaq bu iqtisadiyyata ən böyük zərbə son bir ildə vurulub, bu da məlumdur. Hərc-mərclik, qanun pozuntuları baş alıb gedir. Əgər Xalq Cəbhəsi qeyri-qanuni silahlar saxlayırdısa və

Azərbaycanın Prezidenti Xalq Cəbhəsinin sədri olaraq qalırsa, Azərbaycan dövlətinin hansı mənəvi hüququ var idi ki, silahları insanlardan toplasın?

Naxçıvanda Xalq Cəbhəsinin silahlı dəstələrinin ləğv olunması haqqında Muxtar Respublikanın Ali Məclisi 3 dəfə qərar verdi. Amma burada, bu Məclisdə həmin qərara tüpürdülər, Əbülfəz Elçibəy bu qərara tüpürdü... Baxmayaraq ki Naxçıvan Muxtar Respublikasının özünün Konstitusiyası var. Dünən meydana gəlmiş uşaqlar mənə sübut etmək istəyir ki, Naxçıvanda dövlət yoxdur. Əgər qurumun Konstitusiyası varsa, o, dövlətdir. Mən sözümü o adamlara və Sizə demək istəyirəm. Siz naxçıvanlısınız, amma düz bir il Naxçıvanın Ali Məclisi ilə əlaqələri qırdınız, ona görə ki orada Heydər Əliyev oturmuşdu. Siz demokratik qüvvələrsiniz? Naxçıvana gəlib Xalq Cəbhəsinin qərargahında oturdunuz, Milli Məclisin üzvü kimi bir dəfə də Ali Məclisə gəlmədiniz. Naxçıvanda oktyabrın 24-də həmin o silahlı dəstələr çevriliş etdilər. Siz səsinizi qaldırmadınız. Oktyabrın 25-də fövqəladə sessiya keçirdik, qərar qəbul etdik, Milli Məclisə, Əbülfəz Elçibəyə göndərdik, o qərarı yeşiyə atdılar. Bəs onda niyə səsinizi qaldırmadınız, niyə insan hüquqlarından danışmadınız? Onda nə üçün Konstitusiyadan danışmırdınız? Özünüz də Naxçıvandansınız, Naxçıvanın əhalisi Sizi deputat seçib ki, Siz burada oturmusunuz, başqa cür otura bilməzdiniz. İndi isə vəziyyətdən çıxış yolu tapmaq üçün burada bizim üçün cürbəcür çətinliklər yaratmaq istəyirsiniz. Belə olmaz. Bunun hüququ yoxdur, onun hüququ yoxdur. Yoxdur, ay qardaş, gəlin bu xalqı vəziyyətdən Siz çıxarın. Şəxsi maraqlarınız üçün bu xalqı dolamayın, millət yazıqdır. Məgər 7 milyonluq bir xalq tək Əbülfəz Elçibəyin şıltaqlığından, yaxud da kefinin vəziyyətindən asılı olmalıdır? Axı belə şey olmaz. Siz bunu anlayın.

Əbülfəz Elçibəy özünü Prezident sayırsa, gəlsin, otursun, Prezidentliyini eləsin. Əgər onun qüdrəti yoxdursa, bunu etiraf eləsin və çəkilsin kənara. Mən Sizin çıxışınızda bu məsələnin həll olunması üçün heç bir konstruktiv təklif görmədim. Sizin çıxışınız yalnız və yalnız vəziyyəti daha da mürəkkəbləşdirmək, onsuz da, ağır vəziyyəti bir qədər də ağırlaşdırmaqdır. Prezident seçmək olmaz, Prezidentə etimadsızlıq göstərmək olmaz, bu olmaz, o olmaz, bəs nə olar? Onu Siz demədiniz. Amma burada hər bir namuslu və vətənpərvər adam – biri səngərdə vuruşursa, biri bu salonda konkret fikir deməlidir. Nə etmək lazımdır ki, bu ağır vəziyyətdən çıxaq?

Şaitdin Əliyev, buyurun.

**Şaitdin Əliyev.** Hörmətli sədr, hörmətli xalq deputatları. Burada çox düzgün qeyd edildi ki, tarix öz hökmünü verir. Keçən gün geri qayıtmır və hər günün öz hökmü var. İyun ayının 24-də burada Gəncə hadisələri müzakirə olunan zaman Məclisdə çıxış edənlər açıq-aydın göstərdilər ki, Prezident Əbülfəz Əliyev tərəfindən Azərbaycan Respublikasının Konstitusiyası və qanunları pozulmuşdur. Ona görə də burada Məclis üzvləri təklif verdilər ki, Konstitusiyanın 121.6-ci maddəsinə əsasən, Prezident Əbülfəz Əliyev vəzifəsindən azad edilsin.

Heydər Əliyev tərəfindən vaxt verildi ki, bir qədər də gözləyək. Məclis üzvləri də bununla razılaşdılar ki, bəlkə, Prezident, həqiqətən, öz səhvini başa düşərək Məclisə istefası ilə bağlı müraciət edəcək. Lakin müəyyən qədər müddət keçsə də, Prezident tərəfindən heç bir müraciət daxil olmamışdır. Bu gün Məclisin gündəliyində respublikada Prezidentə etimadsızlıq göstərilməsi haqqında referendum keçirilməsi məsələsi müzakirə edilir.

Birincisi, mən demək istərdim ki, bəlkə də, heç referendumun keçirilməsinə gərək yoxdur. Çünki bu gün burada respublikanın iki keçmiş güc nazirinin məktubu oxundu. Həmin məktublardan aydın oldu ki, həqiqətən, respublikanın Prezidenti Gəncə hadisələrinə rəhbərlik etmişdir, xalqın qanı tökülmüşdür və respublikanın Konstitusiyası və qanunları aşkar surətdə pozulmuşdur. Ona görə də bu gün Məclisdə Azərbaycan Konstitusiyasının 121-6-cı maddəsinə əsasən, respublika Prezidentinin vəzifədən azad edilməsi məsələsini qoymaq olardı. Aydındır ki, referendumun keçirilməsi məsələsi yenə də xalqın bu haqda öz sözünü deməsi məqsədilə edilir.

Eyni zamanda Məclisdə çıxış edən bəzi xalq deputatları bu referendumda parlamentə etimadsızlıq göstərilməsi, yenidən parlament seçkilərinin keçirilməsi məsələsini qoydu. Respublikada baş verən ictimai-siyasi proseslərdə parlamentin böyük rolu olmuşdur. Sözsüz ki, ölkə rəhbərliyində müəyyən dəyişikliklərin edilməsində parlament öz sözünü deməlidir. Lakin mən bir məsələyə toxunmaq istəyirəm. Gəlin tarixə nəzər salaq, burada həmin parlamentin üzvləri oturmuşlar. Yadınıza salın, burada parlament hansı şəraitdə hakimiyyətin dəyişilməsi məsələsini həll etdi. Bu və ya digər məsələnin qəbul edilməsinə parlament zorla məcbur edilirdi, silah gücünə içəridə qalırdılar. Xalqın qanı tökülməsin deyə parlament üzvləri bəs nə hərəkət etməliydilər? Məgər belə etməli deyildilər? Burada ayrı-ayrı şəxslər tərəfindən nə qədər söyüşlər eşidilirdi. Ona görə bu dəqiqə parlament seçkiləri

keçirilməsinin, parlamentə etimadsızlıq göstərilməsi məsələsinin vaxtı deyildir.

Respublika ağır vəziyyətdədir, müharibə gedir. Təklif edilir ki, yenidən parlament seçkiləri keçirək. Mən də razıyam ki, müəyyən müddətdən sonra yeni seçkilər keçirək. Ancaq indiki vəziyyətdə deputat seçkiləri keçirməyin vaxtıdırmı? Xalq nə vəziyyətdə yaşayır? Sərhədlərimiz nə vəziyyətdədir? Respublikanın 17 faiz torpağı işğal edilmişdir. Bu saat xalqa parlament seçkisi keçirmək maraqlıdırmı? Ona görə də mən elə bilirəm ki, bu məsələyə toxunmağın heç bir mənası yoxdur. Müzakirəyə verilmiş referendumun keçirilməsi haqqında qanun layihəsini mən də müdafiə edirəm və həmin qanun layihəsinin səsə qoyulub Məclis tərəfindən qəbul edilməsini təklif edirəm.

**Sədrlik edən.** Arif Rəhimzadə.

**Arif Rəhimzadə.** Hörmətli sədr, mən hesab edirəm, referendum haqqında məsələ tam müzakirə olundu, fikirlər söyləndi. Odur ki, birincisi, Sizdən xahiş edirəm, müzakirələri dayandırın və səsvermə keçirək. İkinci, burada məsələ qaldırıldı ki, fövqəladə vəziyyət şəraitində referendum keçirmək qadağandır. Bu belə deyil. Qanunda tövsiyə olunur ki, referendum keçirilirsə, fövqəladə vəziyyət dayandırıla bilər. Bu o demək deyil ki, fövqəladə vəziyyət şəraitində referendum keçirilə bilməz.

Bir də deputat İbrahim İbrahimovun çıxışı ilə əlaqədar bir neçə söz demək istəyirəm. O burada bir çox məsələləri qarışdırdı. Yəqin ki, ona cavab verməyə ehtiyac yoxdur, çünki məndən qabaq çıxış eləyənlər tərəfindən çox ətraflı cavab verildi. Yalnız onu demək istəyirəm ki, Neftçalada heç bir qarşıdurma olmayıb, məni heç kəs girov götürməyib. Görünür, bu, İbrahim İbrahimovun növbəti uydurmasıdır. Mən Salyan rayonunda, Biləsuvarda, Lənkəranda, Lerikdə olmuşam, sonra Neftçalaya qayıtmışam, oradan da Bakıya gəlmişəm. O dediyi məsələlər həqiqətə uyğun deyil. Mən yenə Sizdən xahiş edirəm, müzakirələr kəsilsin və səsverməyə keçək. Sağ olun.

**Sədrlik edən.** Bilirsiniz, düzdür, təklif edildi ki, müzakirələr kəsilsin, amma burada böyük bir siyahı var. Bir məsələni sizin diqqətinizə çatdırmaq istəyirəm. Burada dəfələrlə vaxtilə prezidentliyə namizəd olmuş Nizami Süleymanov Məclisə müraciət edib ki, ona söz verək. Ola bilər ki, Nizami Süleymanov məndən inciyir, amma mən istəmirdim ki, Məclisin üzvü, deputat olmayan adamlar bizim işlərimizə müdaxilə eləsin. Lakin hər dəfə bu müraciətləri mən alıram və bunu camaata

çatdırmadan məsuliyyəti öz üzərimə götürürəm. Bu işə necə baxırsınız? Söz verək? Onda bir şərtlə, Nizami Süleymanov çox qısa danışsın və heç bir təhqiramiz ifadələrə yol verməsin. Bunu ona görə deyirəm ki, ola bilər, onun qəzəbi və əsəbi olması belə hallara gətirib çıxarar.

**Nizami Süleymanov.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən çox böyük təəssüflə qeyd edirəm ki, keçən ildən üzü bəri bu Milli Məclisdə nəinki çıxış edə bilməmişəm, hətta onun kandarından içəri daxil olmaq mümkün olmayıb. Bir-iki dəfə gəlmək istəmişəm, amma köhnə iqtidarın qoçuları tərəfindən təhqir olunub geri qaytarılmışam. Bu gün çox şadam ki, Heydər müəllim bir neçə kəlmə söz deməyə imkan verdi. Mən çalışaram ki, Sizin tövsiyənizə əməl edərək bundan sui-istifadə eləməyim.

Mən bir şeyə quruyub qalıram. Bizim hörmətli millət vəkilləri niyə odu söndürüb külü ilə oynayırlar? Ay kişilər, siz hansı Prezidentdən danışırsınız, başa düşə bilmirəm. Sizin hər biriniz bir bölgənin nümayəndəsi, millət vəkilisiniz. Kim bu gün deyirsə ki, bu deputat kommunistdir, o biri başqa partiyanın üzvüdür, elə şey yoxdur. Hamı bu xalqın oğludur, hamının səhvi də, müsbət cəhəti də var. Mənə dəfələrlə Heydər Əliyevin şəxsiyyəti barədə sual veriləndə demişəm ki, ola bilər, səhvləri olub. Amma Amerika Birləşmiş Ştatlarında belə bir qayda var. Əgər Prezidentin qəbul etdiyi qərarların və ümumiyyətlə, fəaliyyətinin 70 faizi düzgündürsə, 30 faizi səhv ola bilər və o, ölkənin ən ideal Prezidenti sayılır. Heç kim Heydər Əliyevin Azərbaycanda ən azı 400 orta və iri müəssisəni tikdirdiyindən söz açmır. Nə isə...

Bu Məclisdə bir nəfər varmı durub desin ki, Əbülfəz Elçibəy 7 iyunda, həqiqətən, Azərbaycan xalqının Prezidenti seçilib. Yoxdur! Hörmətli Heydər Əliyev, özlərini demokrat adlandıran bəylərin cinayət silsiləsində Xocalı, Şuşa, Laçın, Kəlbəcər hadisələri ilə yanaşı, ifadəmə görə məni bağışlayın, Prezident seçkisində öz xalqının üzünə tüpürmək də olub. Əbülfəz Elçibəy belə seçilib. Buyurun, yüz minlərlə belə bülleten bizə təqdim edilib. Keçən il iki kisədən artıq. Mən əvvəla, üzr istəyirəm, qətiyyən elə fikirləşməyin ki, mənim hansısa bir iddiam var və ya durub tələb eləyəcəyəm ki, yox, komissiya ayırın, yoxlanılsın, Prezident Əbülfəz deyil, mənəm. Qətiyyən! Mən keçən il də dedim ki, mənim topladığım səsin əksəriyyəti Heydər Əliyevə verilən səs idi. Niyə? Ona görə ki Heydər Əliyevin Azərbaycan Prezidentliyinə namizədliyini verməsini tələb edirdim və əgər o, namizədliyini verərsə mən öz namizədliyimi geri götürəcəkdim. Mənim səsimin böyük bir hissəsi Heydər Əliyevin, digər bir

hissəsi Etibar Məmmədovun idi. Ona görə ki Etibar Məmmədov da götürmüşdü. Bir hissəsi də xalqın hörməti olan başqa namizədlərin idi. Mən demirəm ki, o səsləri mən toplamışam, xeyr! Heydər Əliyev, Etibar Məmmədov və ümumiyyətlə, idraka, işığa, nura, elmə, tərəqqiyə, zəkaya, mədəniyyətə xidmət edən qüvvələr toplamışdı. Mən sizə dəqiq deyirəm, mənim ucbatımdan keçən il o seçkilərdən sonra Faiq Baxşəliyev, mənim ikiqat adaşım Nizami Süleymanov – Qusar rayonunun icra başçısı, yüzlərlə şəxs mənə müraciət etdi. Səsvermə prosesində saxtalığa yol vermədikləri üçün bu adamlar ailəsinin bir tikə çörəyindən məhrum edilmiş və işdən qovulmuşlar. Bu gün buna kim cavab verməlidir? Bilirsiniz ki, Markos Filippində seçkidə saxtakarlıq etdi, buna beynəlxalq aləm qarışdı və Markos ölkədən qovuldu. Əgər 7 iyunda seçki cinayəti olmasaydı, bu gün Azərbaycan bu cür xarabazara dönməzdi.

Mən hələ bizim partiya qurultayından bir gün öncə Şəhidlər Xiyabanına gedərkən orada ağlayan anaları gördüm. Yadıma bir ibrətamiz misal düşdü, onlara da dedim. Görkəmli şairimiz Nizaminin “Nuşirəvanla bayquşların söhbəti” əsərində bayquşlar dava eləyirlər. Biri deyir, bu xarabazarlıq mənə düşür, o biri deyir, mənə düşür, bu biri deyir, mənimdir... Axırda bayquşun biri deyir ki, ay bayquşlar, niyə narahat olursunuz, inşallah, bu padşahımızın canı sağ olsa, bütün ölkə xarabazarlığa dönəcək... Həqiqətən də, iqtidara gəlmiş bəylərin bir illik hakimiyyəti dövründə Azərbaycan, demək olar ki, əsl xarabazara dönüb. Təhsilimizdə, mədəniyyətimizdə, incəsənətimizdə, kadr siyasətində, iqtisadiyyatımızda da rüşvətxorluq və genosid yaşanır. Torpaqların verilməsi, ana-bacılarımızın, qız-gəlinlərimizin ermənilərə satılmasını heç cür qəbul eləyə bilmirəm.

İnanın Allaha, mən bunu emosiya xatirinə demirəm, bu hadisələri bir türk kimi, bir azərbaycanlı kimi vicdanım qəbul etmir. Bu iqtidar necə qəbul eləyir ki, on minlərlə övladımız gedib həlak olub, özü də necə oğlanlar. Onları dalbadal fərsizcəsinə qurulan əməliyyatlara göndərirdilər. Hərbi vertolyotlar ancaq şəhərə meyit daşıyırdı. Yaxşı, bu müddətdə iqtidardakı bəylərin birinin balasına bir şey olubmu? 1990-cı ildə 20 yanvarda insanları kütləvi surətdə guya imperiya əleyhinə qaldırmaq adı altında evlərindən çağıranda, o gecə millət güllənbaran olunanda, küçələrdə qan su yerinə axanda bu bəylər hardaydı? Mən sizə dəqiq bir faktı deyirəm, şahid-sübutum da var. Ona Əbülfəz bəy deyirlər. O bəy həmin gecə 8-ci mikrorayonda “V kruqu semyi” adlı restoranda sərxoş olana qədər içib, pis vəziyyətdə yıxılıb orada qalmışdı. Bu bəylər əvvəldən

öyrəniblər xalqı kütləvi qırğına versinlər, özləri sağ-salamat qalsınlar. Bəs indi o ah-naləsi göyə yüksələn yetim balalara kim baxmalıdır? Tək Heydər Əliyev, ya Surət Hüseynov baxmalıdır? Mən bu yaxınlarda bir rayonda oldum, bir ailəyə baş çəkdim. Uşağın atası həlak olub, ona deməyiblər gələnlər kimdir, elə bilir ki, atası da onlarla gəlir, uşaq üstümə yüyürdü. Məni hönkürtü tutdu. Çünki hər axşam başqa atalar öz evlərinə gəlir, onunku gəlmir, gözləri yoldadır. Bəs bu bəylər axşamlar evlərinə əlidolu qayıdanda, "Mercedes"lərdə bol-bol ərzaq, yemək, pal-paltar daşıyanda, o yetimlərin hər gün ata yolu gözlədiyini bilmirlərmi? Bu iqtidar nə fikirləşir? Axı bunu Əbülfəz eləyib, Pənah Hüseynov eləyib, İsa Qəmbər eləyib. Bu gün isə utanmadan demokratiyadan, demokratik qüvvələrdən danışırlar. İnsanın vicdanı susanda nə desən danışa bilər.

Mən Heydər Əliyevin xahişini nəzərə alaraq çalışıram, çox şeyləri deməyim. Bunlar, ümumiyyətlə, nəinki iqtidardırlar, fərsiz, fərasətsiz cinayətkardırlar. İnsanlıq adına elə naqis hərəkətləri var ki, onları açıb danışmağa adam utanır.

Heydər müəllim, bilirəm, Siz dünya miqyasında tanınan siyasi baxış sahibi olaraq bu addımı atmaq istəyirsiniz. İndi bu dəqiqə Əli Kərimov gedib Türkiyədə Türkiyə rəhbərliyi və səfirlərlə görüşür. O birilər orada-burada gizli iş görürlər. Burada İbrahim İbrahimov Milli Məclisi, Sizi beynəlxalq məhkəmələrlə hədələmək istəyir.

Mən dəqiq bilirdim ki, seçkilərdə orta hesabla 80 faizdən az olmayan səs toplamışdım. Qarabağda gedən müharibənin xatirinə mən bunu beynəlxalq məhkəməyə vermədim. Türkiyədən mənim professor qonaqlarım gəlmişdi. Biri dedi ki, sizin Əbülfəz Elçibəy Türkiyəyə gəlmişdi, bir tədbirdə çıxış elədi. Deyir, mənim xanımım baxdı-baxdı buna, min dəfə üzr istəyirəm, dedi, kül bu millətin başına ki, belə bir Prezident seçib. Həmin sözü üzümüzə Rusiyada da, İranda da, Türkmənistanda da, Özbəkistanda da deyiblər. Doğrudanmı Azərbaycan xalqı belə bir təhqirə məruz qalmalıdır? Əbülfəz Elçibəy adlı bir adamı, doğrudanmı Azərbaycan xalqı özünə Prezident seçib? Xeyr. Nizami Gəncəvi, Füzuli, Məhəmməd Hadi, Nəsirəddin Tusi, Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Qara Qarayev və bu cür yüzlərlə dahini yetirən bir xalq Əbülfəz Elçibəy qaragüruhuna səs verə bilməzdi. Bu, qəti mümkün deyildi. Azərbaycan xalqı ona səs verməyib. Sizdən rica edirəm, bu qara ləkəni Azərbaycan xalqının üstündən götürün. Bu Milli Məclis tarixə belə şəkildə düşməsin ki, guya Əbülfəz Elçibəy devrilmiş demokratdır. Keçmiş Kommunist Partiyası lideri Heydər Əliyev və parlament də bu

yazıq demokratı, imam Əbülfəz Elçibəyi hakimiyyətdən Surətin silahı vasitəsilə devirib. Axı, bunlar ona çalışırlar. Fikir yaratmaq istəyirlər ki, guya Əbülfəz Elçibəy xalq tərəfindən seçilmişdi, köhnə kommunistlərlə parlament birləşdi, cürbəcür siyasi oyunlar oynadılar. Bunlar tarixin səhifələrindən demokratik qüvvələr, devrilmiş demokratlar kimi keçmək istəyirlər. Mən yenə deyirəm, Azərbaycan xalqının bəxti bircə onda gətirib ki, bizim Heydər Əliyev kimi ağsaqqalımız, böyüyümüz var. Mən Etibar müəllimə də 5 partiyanın əlaqələndirmə şurası yarananda dedim ki, belə bir şura yaranırsa, biz hakimiyyət bölgüsünü öz üzərimizə götürək. Heydər Əliyev otursun Naxçıvanda, biz burada, mən belə bir oyuna getmirəm. Yox, əgər bizim birliyimizə Heydər Əliyev ağsaqqallıq edəcəksə, bu yolda ölümə də getməyə hazıram.

Mənim gizli bir fikrim vardı, bir neçə həmkarım onu bilirdilər, Prezident olsaydım, hökmən Heydər Əliyev səhərisi günü Bakıya gəlməli idi. Bir-iki aydan sonra isə yol tapmalıydıq ki, Heydər Əliyev birinci olsun. Heydər Əliyev olan yerdə ikinci demirəm, 20-ci, 30-cu olmağı da mən özümə şərəf bilərdim. Biz hələ Heydər Əliyevdən uzun illər dövlətçiliyi öyrənməliyik. İqtisadiyyatı yarada, pul qazana bilərik, amma dövlətçilik və Azərbaycanı layiqincə təmsil etmək bu gün nə mənim, nə o biri siyasi həmfikirlərimin işi deyil. Ona görə bu gün burada heç bir iddia barədə söhbət gedə bilməz. Mən arzuma çatmışam, xoşbəxtəm. İtirilmiş torpaqlarımız da, inşallah, geri qayıdacaq.

Deyirlər, Ağdamı bu hakimiyyət satdı. Xeyr. Ağdam da, bütün strateji təpələr də əvvəlcədən verilmişdi. Bunların hamısını Əbülfəz təşkil eləmişdi. Demək olar ki, Füzulinin bütün strateji nöqtələri verilib. İqtidar verdiklərini verib, qalan yerləri də hərbi cəhətdən tamamilə verilmiş vəziyyətə salıb, çıxıb aradan. Bizim hörmətli yazıçımız, ağsaqqalımız İsmayıl Şıxlı Mirzə Fətəli Axundovun "Aldanmış kəvakib" əsərindən Yusif Sərracı nahaq yerə misal çəkmədi. Əbülfəz və onu xaricdən idarə edənlər artıq gördülər ki, çox ağır bir vəziyyət yaranıb, Ağdam getməlidir, Füzuli və digər rayonları da eyni aqibət gözləyir. Bunlar da Yusif Sərrac rolunda Heydər Əliyevi görmək istədilər. Lakin yanılıblar, Heydər Əliyev, Azərbaycanı ağır vəziyyətdən xilas edəcək olan şəxslər və bizim hamımız bu işdə ona yardımçı olacağıq. Mən inanıram ki, inşallah, qısa vaxtda, sentyabrın axırına, oktyabrın əvvəlinə qədər biz Qarabağ məsələsini nə yolla olur-olsun bitirəcəyik.

Bir də sonda mənim iki təklifim var. Birincisi, Əbülfəz Elçibəyin saxta seçilməsini isbat eləməliyik. Bunun üçün bir qəpik də pul lazım deyil.

Ekspertlər qrupu var. Elə Gəncədə neçə məntəqə olubsa protokolları-nı gətirin. Mən dəqiq deyirəm ki, hamısı bir saxtakarın əli ilə köçürdü-rülüb. Goranboy rayonunun Todan seçki məntəqəsindən Əbülfəzə 48 adam səs verib, Nizami Süleymanova isə 483 nəfər. Gedin, baxın, bu protokol dəyişdirilib. Belə protokollar yüzlərlə, minlərlədir. Xalq tərə-findən seçilməyən bir adam bu gün yenə insanları ikinci bəlaya salıb. Milyonlarla xərc çəkib, əziyyət çəkib, təzədən Əbülfəzin şərəfinə bir re-ferendum da keçirək? Yox, əgər referendum keçirilirsə, onda orada açıq şəkildə bir sual da yazılmalıdır ki, siz 7 iyunda Əbülfəz Elçibəyə səs ver-mişdinizmi?

Mən sizi inandırıram, dəqiq öyrənmişəm, bu gün Türkiyədə bəzi adamlar – bizim sərvətlərimizi soyub aparan, adı türk olub ermənidən dönmə olan biznesmenlər maliyyə buraxıb qəzetlərdə yazdırırlar ki, ay köhnələr, ay yaşlılar, qoymayın, bu təzə gələnlər hər yerə dırmaşdılar... Yəni bunlar narahatdırlar, türk xalqı yox. 1919-cu ildə parlamentdə mə-sələ müzakirə olunub. Tarix təkrar olunur. Eynilə bu bir il ərzində olan kimi sərvətlərimizi necə soyub aparıblar. O kitabı mənə gətirib veriblər. Guya indi bunlar demokrat olub, Heydər Əliyev də Kommunist Parti-yasının qalığı... O şəxs ki qanunun aliliyini əlində bayraq tutur, dünya-nın ən gözəl demokratı məhz odur. Heydər Əliyev əvvəl işlədiyi bütün dövrlərdə də, Naxçıvanda olanda da, indi də ilk addımlarını demokratik atır. Bir şəxs ki qanunla hərəkət eləyir, ən böyük demokrat odur. Bəs bu anarxistlər nə eləyiblər? Burada tavanlarda nə qədər güllə yerləri qa-lıb. Həmin o Fransa səfirini, mənim türk qardaşımı da, alman səfirini, Amerika Konqresinin nümayəndələrini də gətirin, o güllələrin yerləri-nə baxsınlar. Məgər bunlar demokratiya ilə hakimiyyətə gəliblər, yoxsa topla-tüfənglə, güllə ilə? Deyir, gen qaz, dərin qaz, özün düşərsən...

İndi mən sizdən rica edirəm, nə cür qərar qəbul edirsiniz edin, bu sizin öz işinizdir, 7 milyonluq xalqa qarşı işlədilən bu cinayəti də açın və Azərbaycan xalqının üstündən bu ləkəni götürün. Onda bilinər ki, demokrat kimdir, diktator kimdir, xunta kimdir. Diqqətinizə görə sizə minnətdaram, çox sağ olun.

**Sədrlik edən.** 10 nəfər Məclis üzvü yazılıb, 3 nəfər də deputat. Təklif olunmuşdu ki, çıxışlar dayansın. Necə baxırsınız? Əlavə bir fikir söylə-mək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ali Məhkəmə sədrinin müavini. Buyurun.

**Çingiz Bəşirov,** ***Ali Məhkəmə sədrinin müavini.*** Hörmətli sədr, hörmətli millət vəkilləri, burada Tofiq Qasımov qanunun müddəalarından sitatlar gətirdi. Seçki qanununda referendum haqqında bənddə yazılıb ki, bir ay ərzində keçirmək olmaz. 2 aydan 4 aya kimi keçirmək olar. Tofiq Qasımov qanunu oxuyanda, deyəsən, həmişəki kimi axıracan oxumur. Çünki əgər o qanunun 15-ci maddəsini oxusaydı, məndə rus dilindədir (Rusca oxuyur, ruscadan tərcümə). "Referendum haqqında" Qanunun həmin maddəsində yazılır ki, referendum iki aydan tez və dörd aydan gec müddətdə keçirilə bilməz. Amma elə oradaca yazılıb ki, istisna hallarda Azərbaycan Respublikasının Ali Soveti referendumun keçirilməsi üçün başqa müddətlər müəyyən edə bilər. Bundan başqa, həmin qanunun 16-cı maddəsinə əsasən, fövqəladə vəziyyətdə də referendum keçirilə bilər. Bağışlayın ki, mən rus dilində danışdım.

Konstitusiyanın 121-6-cı maddəsində referendumsuz da var. Orada var ki, parlament üçdəiki səslə Prezidenti əgər o Konstitusiyanı və yaxud Azərbaycan qanunlarını pozursa, vəzifəsindən azad edə bilər. Amma orada o da yazılıb ki, bunun üçün Konstitusiya Məhkəməsinin rəyi olmalıdır. Konstitusiya Məhkəməsinin rəyi yoxdursa da bu mümkündür, sizin praktikanızda belə hal olub. "Partiyalar haqqında" Qanunla siz bir dəfə belə bir şey eləmisiniz. Belə ki, əgər partiya qeydiyyata alınmırsa, buradan Konstitusiya Məhkəməsinə şikayət vermək olar.

Amma hazırda Konstitusiya Məhkəməsi olmadığına görə siz qərarda yazmısınız ki, Konstitusiya Məhkəməsi təşkil olunanacan bu vəzifələr Ali Məhkəməyə verilsin. Əgər istəyirsinizsə əlavə belə bir qərar qəbul eləyə bilərsiniz ki, bu rəy Ali Məhkəmənin Rəyasət Heyətindən verilsin və məsələ həll olunsun. Mən belə fikirləşirəm ki, bu, qanuni məsələdir və heç kim buna heç nə deyə bilməz. Bu, Amerikada da belədir, Avropada da, hər yerdə də. Qanuni seçilmiş Prezident olsa da, qanunu pozursa, parlament onu vəzifəsindən azad eləyə bilər. İki ay çox böyük müddətdir, bir ay ərzində də bunu eləmək olar. Əgər burada siz onu da istəyirsinizsə, birincisi, seçkilərlə əlaqədar komissiya təşkil eləmək də olar, mən əminəm ki, o komissiya əgər doğrudan da, iş aparsa, seçkilərdə saxtalaşdırmanın bütün faktları üzə çıxacaq. Əgər istəyirsinizsə o referendum haqqında bülletenə bununla bağlı sual da əlavə edə bilərsiniz: *(Ruscadan tərcümə.)* "Siz Əbülfəz Elçibəyi qanuni seçilmiş prezident hesab edirsinizmi?" Mən əminəm ki, Siz bu suala "yox" cavabı alacaqsınız. Bu da Sizdə onun necə seçildiyi barədə təsəvvür yaradacaq.

**Sədrlik edən.** Qurtardınız? Sağ olun. Görürəm ki, bu məsələ haqqında çox danışmaq olar. Məclis üzvlərindən 10 nəfər yazılıb, 3 nəfər də deputat. Faiq Baxşəliyev, sənin də əlini görürəm. Ancaq mənə belə gəlir ki, yeni bir fikir söylənilmir. Burada əvvəldən də söylənilir ki, Konstitusiyanın müvafiq maddələrini tətbiq edərək Konstitusiyanı və qanunları pozduğuna görə Əbülfəz Elçibəyi Prezidentlikdən kənarlaşdırmaq və bir ay müddətində referendum keçirmək ki, nə cür olur-olsun xalqın rəyi bilinsin. Nizami Süleymanov iddia edir ki, Əbülfəz Elçibəy saxta yolla seçilib, həqiqi seçilməyib.

Çingiz Bəşirov da deyir ki, həmin dövrdə seçki komissiyasının sədr müavini olub, saxtakarlıq olub. Ancaq biz bu saxtakarlığı aydınlaşdırmaq, araşdırmaq, sübut etmək işləri ilə məşğul olsaq, çox vaxtımız gedəcək. Mənə elə gəlir ki, buna da ehtiyac yoxdur. Ona görə də referendum keçirək, qoy xalq rəyini desin.

Deyirlər ki, referendum rəy sorğusudur. Xeyr, bu belə deyil. Referendum seçki kimi bir şeydir. Seçicilər gəlib öz fikirlərini deyəcəklər. Düzdür, burada bir məsələ çıxır ki, Prezident səlahiyyətləri Əbulfəz Elçibəyin əlindən alınıb, amma Prezident adı hələ də onun üzərindədir. Ona görə də mən hesab edirəm ki, bəlkə, bu layihəni qəbul edək. Əlbəttə, siz əgər imkan versəniz bəzi dəyişikliklər də edərik. Bilirsiniz, mən birinci məsələni səsə qoysam, keçəcək.

**Rəhim Qazıyev.** Əvvəla, mən xahiş edirəm, mənim bu təklifim sizə təəccüblü görsənməsin. Birincisi, bir milyon qaçqını olan xalqın referendum təşkil eləməyə imkanı yoxdur, bu, real deyil.

İkincisi də, mən xahiş edirəm, ümumiyyətlə, həkim-ekspert qrupu müəyyən olunsun və Əbülfəz bəyin sağlamlığını yoxlasınlar. Ondan başqa heç bir şey lazım deyil.

Üçüncüsü, təklif edirəm ki, bu gün bu zalda Ali Məhkəmənin sədr müavini Bəşirova etimadsızlıq göstərilsin, işdən çıxarılsın. Xalqı bir ildir dərdə salan, belə bir cinayəti görüb susan adamın Ali Məhkəmə sədrinin birinci müavini işləməyə mənəvi haqqı yoxdur. Mən xahiş edirəm ki, bu təklif səsə qoyulsun. Vicdanı susub, minlərlə adam qırılıb, xalqımız bu qədər sərvət itirib, o isə öz canından, vəzifəsindən qorxub. İndi ab-hava dəyişəndən sonra bura çıxıb nələr isə söyləyir. Bu, kişilik deyil, nakişilikdir.

Mən xahiş edirəm, həkim-ekspert qrupu müəyyənləşdirilsin. Əminəm, Prezident idarəetmə qabiliyyətinə malik adam deyil. Onunla da

millətin canı bu referendumdan qurtaracaq. Onun kimi bir adamın Prezident olmağı, Bəşirov kimi adamın da Ali Məhkəmə sədrinin birinci müavini işləməsi bir cinayətdir. Bu qədər faktı biləsən və susub deməyəsən ki, birdən nə isə mənə bir çırtma dəyər. Bu hansı həqiqətdir, bu hansı ləyaqətdir və nə adla ona ali qanunun müdafiəsini tapşırmaq olar? Mən xahiş edirəm, Heydər bəy, mənim bu iki təklifimi səsə qoyun.

**Sədrlik edən.** Bilirsiniz, Rəhim bəy, Siz təkid etsəniz, mən bu təklifləri səsə qoyaram. Ancaq indi biz ekspert qrupu yaradaq, Əbülfəz bəyin ölkəni idarəetmə qabiliyyətini yoxlayaq, bilmirəm, bu nə dərəcədə məqsədəuyğun olar? Sizin bu təklifinizin əsaslı olduğuna mənim şübhəm və etirazım yoxdur. Amma güman edirəm ki, Siz bu təklifinizi geri götürsəniz, daha da yaxşı olar. Gəlin vəziyyəti gərginləşdirməyək.

O ki qaldı Bəşirovun haqqında dediklərinizə, ola bilər ki, Sizin bu cür həyəcanla, ədalətli danışmağa əsasınız var. Çünki doğrudan da, Bəşirov seçkilərdə komissiyanın üzvü olub. Ancaq o deyir ki, mən heç bir şeyə qol çəkməmişəm, kənarda olmuşam, bu prosesdə iştirak etməmişəm. Gəlin bu məsələni Məclis səviyyəsinə qaldırmayaq. Əgər doğrudan da, belə bir məsələ varsa, yəqin ki, aidiyyəti təşkilatlar bu işlə məşğul olarlar.

Rəhim bəy, təkid etməyin. Əbülfəz Elçibəy Bakıda olanda, Siz də müdafiə naziri idiniz. Hərbi həkimlərdən bir qrup düzəldib onu yoxlatsaydınız, daha asan olardı. Amma indi bu çox çətin məsələdir. Xahiş edirəm, bunu qəbul eləyəsiniz. Bizi o təkliflə divara dirəməyin, bu çətin məsələdir.

Buyurun, Hüseynağa Qəniyev.

**Hüseynağa Qəniyev.** Bəşirov Prezident seçkilərinin yekunlarında olan protokola qol çəkməyib və ona səs verməyib. Bunu hamı bilir, bu, bir. İkincisi, bunu hamı bilir ki, Əbülfəz Elçibəy Prezident seçilən gündən Bəşirov təqib olunur ki, o, işdən çıxarılsın. Üçüncüsü, Bəşirov seçkilərdə dairə komissiyasının sədri deyil, sıravi üzvlərindən olub.

**Sədrlik edən.** Bilirsiniz, əgər belə getsə onda bu salonda oturanlara deyəcəyəm ki, Əbülfəz Elçibəy burada – bu kürsüdə oturdu, nitq söylədi, əlini Qurana basdı, Azərbaycanın Himni çalındı, siz də hamınız onu alqışladınız. Niyə alqışladınız? Ona görə də gəlin bu məsələni uzatmayaq. Xahiş eləyirəm, səs-küy salmayın. Biz bu məsələni qurtarmalıyıq. Bir dəqiqə, bir dəqiqə, hamı artıqlaması ilə çıxış eləyibdir, fikirlər məlumdur. Məclis üzvləri bu barədə dünən də, ondan qabaqkı gün də, bu gün də danışıblar. Məsələ aydındır.

Yenə deyirəm, təkid edirlər ki, mən birinci təklifi səsə qoyum ki, Konstitusiyanın maddəsinə görə vəzifəsindən kənar olunsun. Ola bilər, bu məsələni mən səsə qoyum, keçsin. Ancaq siz də gəlin razı olun ki, biz özümüzü bir də əziyyətə salaq. Əgər Əbülfəz Elçibəy bizi bu əziyyətə salmaq istəyirsə ki, referendum keçirək, gəlin keçirək. Bununla da hər şey qurtarsın getsin. Mən heç şübhə etmirəm ki, bu referendum Əbülfəz Elçibəyə və onun bu salonda oturan-oturmayan çevrəsinə heç bir xeyir gətirməyəcək. Ancaq gəlin bu qərarı qəbul edək, mən rica edirəm!

Mən təklif olunan bu layihəni səsə qoyuram, kim razıdırsa, xahiş edirəm, münasibətinizi bildirin.

***(Səsvermə)***

Qəbul edildi.

Güman edirəm ki, hüquqşünasların bu sənəd üzərində bəzi redaksiya dəyişiklikləri aparmasına, bəzi məsələlərin yenidən işlənməsinə ixtiyar verirsiniz, elədirmi?

***(Səsvermə)***

Qəbul olundu.

Bəli, onda tələsməyin, yəqin ki, biz yığışıb danışarıq. Bir ay müddətində referendumun gününü təyin eləyərik. İki gün var. Avqustun 28-i 6-cı gündür, bir də var sentyabrın 4-ü. Avqustun 28-i? Oldu!

Sonra burada Məclis üzvlərindən təklif verən olmuşdu. Deyəsən, Ədalət Rəhimov idi, dedi ki, Ali Sovetə etimadsızlıq göstərilsin. Sonra bir təklif də olmuşdur, deyəsən, Əhədov dedi ki, parlamentə etimadsızlıq göstərilib-göstərilməməsi haqqında məsələ qoyulsun. Başqa bir təklif də vardı ki, Ali Sovet buraxılsın. Bu təklifləri səsə qoymağa ehtiyac var? Nurəddin Əhədov, Siz öz təklifinizdə təkid eləyirsiniz? Etmirsiniz. Ədalət Rəhimov, Siz necə? O da yoxdur, onda hesab eləyirəm, bu məsələləri səsə qoymağa ehtiyac da yoxdur, elədirmi? Biz bu məsələləri qurtardıq.

Sonra dünən mən sizə bildirdim ki, Baş nazir Surət Hüseynovla birlikdə bir məsələni müzakirə etdik. Baş nazir təqdimat veribdir. Mən bu təqdimatı Prezident səlahiyyətlərini həyata keçirən bir insan kimi Məclisə təqdim edirəm. Rəhim Qazıyev müdafiə sənayesi üzrə Baş nazirin müavini təyin olunsun. Etiraz yoxdur ki? Kim bu təklifin tərəfdarıdır? Mikrofon verin, buyurun.

**Rəhim Qazıyev.** Hörmətli sədr, hörmətli Baş nazir, hörmətli parlament üzvləri. Çox sağ olun, etimad üçün. Amma təəssüflər olsun ki,

mən bu etimadı bir dəfə böyük alqışlarla qazanmışam. Burada hamı da söz verdi ki, sənə əlimizdən gələn köməyi edəcəyik. Elə həmin parlamentdə də bir nəfər kimi istefam qəbul olundu. Bir nəfər də durub, nə ağ, nə qara danışan olmadı. Bu gün də xahiş edirəm, yerinizdən danışmayın. Hamınızı tanıyıram, bu çətin günlərdə belə bir məsuliyyətli vəzifəyə gəlmək, özü də hərbi sənaye kompleksi üzrə, ağır yükdür.

Məlumunuz olsun ki, martın 18-də burada mənim müdafiə naziri kimi təqdimatım olanda nazirliyin adı var idi, özü yox idi. Nə tankı, nə topu, nə silahı, nə sursatı, nə arxa cəbhəsi, nə ön cəbhəsi vardı. Bu qısa müddətdə mən nə elədim, elədim, bu divarlar da şahiddir ki, dəfələrlə mən nələri tələb elədim. 6-7 aydan sonra – avqustun 25-də zorla Hərbi Prokurorluq yaradıldı. Hələ də mənim oraya verdiyim layihələr, hərbi işlərin təşkili, nizam-intizamın möhkəmlənməsi üçün bizim konsepsiyalarımız buralarda yatır. Dünya tarixində ikinci bir nümunə görməmişəm ki, dövlətdə hərbi cinayətlərə amnistiya verilsin, məhkum buraxılsın. Bunun da Azərbaycanda şahidi olmuşam. Ona görə də bu gün bu vəzifəyə getməyi keçmişdəki kimi özümə şərəf qəbul eləmirəm. Xalqımızın, millətimizin qarşısında böyük məsuliyyət kimi qəbul eləyirəm. Ona görə də bu məsuliyyəti mənə bu ağır vaxtda etibar eləyənlərə minnətdarlığımı bildirirəm. Bir şey də demək istəyirəm. Konstitusion səlahiyyətlər kabinetə verilməsə, bizim mövcud kabinet strukturu heç bir işin getməsinə imkan verməyəcək. Baş nazirin birinci müavininin səlahiyyətləri Konstitusiya ilə konkret müəyyən olunmasa, biz bu krizisdən çıxa biləsi deyilik.

İndi bu gün referendum keçirilməsi ilə bağlı layihə müzakirə edildi, gedir. Mən əleyhinə səs verdim, özü də ona görə yox ki, əleyhinəyəm. Əldə 50 min silah var, bu 50 min silahı və bir milyon qaçqını olan bir ölkədə necə referendum keçirmək olar? Onun yarada biləcəyi faciələri görə bilirsinizmi? İndidən görürsünüzmü bunu? Həmişə biz sağlıq deyib bir adamı seçmişik, yaxud da ağı deyib çıxarmışıq. Mən o sağlıqları da, o ağıları da eşitmişəm. Bu gün hamımız burada Heydər Əliyevlə böyük hörmətlə danışırıq. Çünki onun qədər respublikanın potensialını bilən yoxdur. Amma biz respublikanın böyük bir şəxsiyyətini belə cılız və xırda işlərə qoşuruq, qlobal problemlərimiz qalır. Özünüz də bilirsiniz ki, mənim Surət Hüseynovla münasibətim necə olub, onu bütün varlığımla müdafiə eləmişəm, əlimdən gələni eləmişəm. Məhv eləmək istəyirdilər Surəti. İndi bu iki cavan kadrın, vətən övladının və respublikanın nüfuzlu bir ağsaqqalının vəhdətini təşkil eləyib səlahiyyətlərin

bölünməsi üçün böyük sürətlə konkret işlər görülməlidir. Yoxsa bu iki adam arasında inanın ki, ziddiyyətlər yaranacaqdır. Bunu hamı görür və susur.

Bu gün həm də həmişə sədrlərin böyründə müavin olanlar ətrafında təzə oyunlar aparılır. Müxtəlif adamları regionlardan çağırıb vəzifə məsələləri həll etmək istəyirlər. Lazım gəlsə, onların da ad-familiyalarını çəkərəm, o adamları bura da gətirə bilərəm. Ona görə də bu layihə pis-yaxşı işlənilib, var, bir saata, iki saata gələ bilər. Amma o layihə Quran ayəsi deyil. Onu gətirib bura qoymaq lazımdır ki, Dövlət quruculuğu və hüquq siyasəti komissiyası ilə bunu ətraflı müzakirə edək, kabinet səviyyəsində olsun, "JEK" səviyyəsində olmasın.

Heydər Əliyev kimi də dünya siyasətini, xarici siyasəti bilən ziyalımız var. Bizim qlobal diplomatik problemlərimiz mövcuddur, bununla məşğul olmalıyıq. Yəni insanlar arasında vəhdət və inam yaransın, bilinsin ki, kabinetdə oturan öz millətinin oğludur. Biz bilirik ki, bu başda oturan millətimizin ağsaqqalıdır, bundan sonra bütün qüvvələr onun ətrafında birləşib iş görməlidir ki, qısa müddətdə bu vəziyyətdən çıxaq. Burada potensial imkanı olan digər adamlar da var, ləyaqətli oğullarımız var. Yəni lazımi səmimiyyət, sədaqət və inam yaranmasa, mən o vəzifəyə getməyəcəm. Bir dəfə başımı o kötüyə qoymuşam. Özü də mənim nə dədəm, nə babam, nə də nəslimizdən bir kimsə heç vaxt vəzifədə olmayıb. Heç vaxt kabinet aşiqi olmamışam. Mən o vəzifəyə də qəlb ağrısı ilə getdim, nə lazımdırsa elədim, bundan sonra da eləməyə hazıram. Amma səlahiyyət olmasa, konstitusion məsələlər həll olunmasa, qəbul etməyəcəyəm. Mən sizin hamınıza mənə göstərilən bu etimada görə baş əyirəm. Amma xahiş eləyirəm, bu məsələ səsə qoyulmasın. Bu gün referendum keçirilir, sabah Prezident seçkiləri məsələsi qoyulacaq... Taleyimiz necə olacaq? Ona görə də qoy millət bilsin ki, müvəqqəti də olsa, 6 aylıq və ya bir illik Prezident seçkiləri olmayacaq. Bu səlahiyyətlər Ali Sovetin sədri Heydər Əliyevə verilib, bu səlahiyyətlər Baş nazirə, kabinetə keçib. Birdəfəlik siyasi partiyalar da, hakimiyyətdə olanlar da, olmayan torpağımız, olmayan dövlətimiz uğrunda hakimiyyətdən ötəri ölənlər də bilsin ki, bu seçki olmayacaq. Bu vəziyyətdən çıxaq.

Ondan sonra bizə parlament üsul-idarəsimi lazımdır, olsun! Prezident üsulumu lazımdır, olsun! Şahlıq lazımdırsa, onu da müəyyən edərik. Vallah, yoxsa bu nüfuzlu və müdrik siyasətçini – Heydər Əliyevin də əsəblərini gərginləşdirəcəyik. O, sağlamlığını, xalq isə son ümidini itirəcək. Ondan sonra vətəndaş müharibəsi başlayacaq və taleyimiz

ağırlaşacaq. Açıq danışdığım üçün hamınızdan üzr istəyirəm, mən bunu belə qəbul eləyirəm. Heç olmasa, indidən sonra millət vəkilləri sağlıq deməkdən vaz keçib düşünərək danışsınlar. Məsələn, Rəhimi bu gün bu vəzifəyə qoyuruq və yaxud Surət Hüseynovu gətirmişik, buna hamımız kömək eləməliyik ki, heç olmasa, Heydər Əliyevin təcrübəsi Surət Hüseynovu təkmilləşdirsin, mükəmməlləşdirsin, beş ildən sonra bilək ki, bir Surət Hüseynovumuz var. Onun arxasından da biri yetişir. Yoxsa ki, biz təzəcə yetişənlərin hamısını məhv eləmək yolu ilə gedirik. Elçibəyin dövründə də mən burada qışqırdım ki, kadrları bu günə salmaq olmaz. Yadınızdadırmı? 2 iyunda mən sizə çıxışımı da payladım. Burada kadr genosidi getdi. Hazırda türmədə yatan Qabil də yaxşı oğlan idi, Sülhəddin də yaxşı oğlan idi, Pənah da bizim üçün işləyə bilərdi, hamısı məhv oldu... Şitil səviyyəsində olan bir adamı gətirib dirək yerinə qoydular... 5 dəfə mənim həyatıma qəsd olunub. Bunu mənə edən adamlar da dəqiq bilirlər ki, mən ölümdən qorxmuram, həqiqəti axıra kimi deyəcəm. Çünki dünyada varlığımdan, həyatımdan çox sevdiyim torpağım var. Bu torpağı, bu xalqı bir günə çıxarmaqdan ötrü gəlin, bu gün səhərə kimi oturaq, fikirləşək. İddiasız bir şəkildə, qohum-qardaşsız, dostsuz fikirləşək. Bu xalqı, bütün regionları gözümüzün qabağına qoyaq. Bunun Lənkəranı var, Şəkisi var, Ermənistandan gələni var... Amma hamı öz qohum-qardaşını axtarır, dostunu axtarır. Layiqdir, layiq deyil, bacarar-bacarmaz onu gətirir, qoyur. Bu gün, heç olmasa, xalqın Heydər Əliyevə ümidi var. Ola bilər ki, burada kimsə Heydər Əliyevin gücünə də inanmasın, Surətin cəsarətinə də inanmasın. Amma xalqın, heç olmasa, 70-80 faizi buna inanır. Heç olmasa, bu son inamı məhv etməyək. Ondan sonra lazım bilirsinizsə məni, lazım bilməzsinizsə kimi o vəzifəyə istəyirsiniz qoyun. İş düz gedəndə mənə deyin ki, bundan sonra qapıda dur, buraxılışları yoxla. Mən onu da etməsəm, məndən vicdansız adam yoxdur.

Mən özüm üçün heç bir vəzifə seçməmişəm, heç bir kürsü arzulamamışam. Mübarizə apardığım müddətdə əqidəm də, tutduğum yol da bu olub. Mənim ürəyim ağrıyır və qəbul eləyə bilmirəm ki, artıq torpaqlarımızın Kürə qədər işğalından söhbət gedir. Amma çox qısa müddətdə biz bunun qarşısını ala bilərik, qarşılıqlı cavab verə bilərik.

Ona görə də hörmətli sədr, hörmətli Baş nazir, mənə göstərdiyiniz etimadı qəbul eləyirəm. Amma bu şərtlər olmasa, mən o vəzifəyə getməyəcəm və heç bir vəzifədə də işləməyəcəm. Bir-iki gün ərzində o struktur məsələləri konstitusion şəkildə həll olunsun, hüquqi sə-

lahiyyət məsələsi həll olunsun, ondan sonra hər kəs bilsin ki, məsuliyyəti nədən ibarətdir, vəzifəsi nədir. Sonra işə başlasın. Çox sağ olun, minnətdaram.

**Sədrlik edən.** Rəhim bəy, biz Baş nazir Surət Hüseynovla bu məsələni bir neçə dəfə müzakirə eləmişik. Surət Hüseynov özü də Sizinlə danışıb. Bu gün də mən Sizinlə danışdım. Baş nazirin hərbi müdafiə sənayesi üzrə müavini vəzifəsi Sizə təklif olunur. Vəzifəyə gedən heç bir adam şərt qoymamalıdır, şərtlə heç kəs vəzifəyə gedə bilməz. Mən də bura gələndə heç bir şərt qoymadım və nə qədər ki burada oturmuşam, heç kəsin bir şərtini də qəbul etməyəcəm. Əgər doğrudan da, bu problemlər varsa, bunlar həll olunacaq. Yoxsa məsələni belə qoymaq olmaz ki, bu şərtlər olmasa, mən bu vəzifəyə getmirəm. Sizə vəzifə təklif olunur və hesab edirəm ki, böyük etimad göstərilir həm Nazirlər Kabineti, həm də Ali Sovet tərəfindən. Mən həm Ali Sovetin sədri, həm Prezidentin səlahiyyətlərini icra edən bir şəxs kimi bunu təklif edirəm, işləmək lazımdır. Mən bu gün Sizə də dedim, hərə bu işin bir tərəfindən tutmalıdır. Bu sahə bizim üçün mühüm bir sahədir. Sizin də lazımi təcrübəniz var. İşləmək lazımdır. İşləyəndə də hansı problemlər meydana çıxacaqsa və əgər doğrudan da, o problemlər həll edilməlidirsə onda həll olunacaq. Ancaq Siz işə başlamamış, deyirsiniz ki, bunu eləməsəniz mən o vəzifəyə getmirəm. Bu yaramaz axı. Mən hesab eləyirəm, heç kəs belə iddiada ola bilməz. Mən sizi anlamıram. Bu gün Sizinlə ətraflı söhbət etdim axı, bilirsiniz ki, Məclisdə söhbəti aparmağa ehtiyac yox idi. Buyur, mikrofon verin.

**Rəhim Qazıyev.** Mən hesab eləyirəm ki, danışığımızın əksinə olan heç bir söhbət eləməmişəm. Göstərdiyiniz etimad üçün çox sağ olun. Mən o vəzifəni bacarmaram.

**Sədrlik edən.** Yaxşı, belə olan halda, Surət Hüseynovla biz bu məsələni bir də müzakirə eləyərik. Onda məsələni gündəlikdən çıxarıram. “Azərbaycan” qəzetinin baş redaktoru yeri boşdur, ona görə də təklif var burada, buyurun.

**Afiyəddin Cəlilov.** “Azərbaycan” qəzetinin baş redaktoru, sabiq redaktor Mehman Cavad oğlu Məmmədov Ali Sovetin rəhbərliyinə müraciət edərək tutduğu vəzifədən azad edilməsini xahiş edir. Bununla əlaqədar qərar layihəsi sizin diqqətinizə çatdırılır.

Mehman Cavad oğlu Məmmədov öz ərizəsinə görə Azərbaycan Respublikası Ali Sovetinin orqanı olan “Azərbaycan” qəzetinin baş redaktoru vəzifəsindən azad edilsin.

**Sədrlik edən.** Xahiş edirəm, münasibət bildirilsin.

***(Səsvermə)***

Qəbul edildi. Redaktor vəzifəsinə...

**Yerdən.** *(Eşidilmir.)*

**Afiyəddin Cəlilov.**

**Əmir Gülbala oğlu Mustafayevin "Azərbaycan" qəzetinin baş redaktoru təyin edilməsi haqqında**

*Azərbaycan Respublikası Milli Məclisi* ***qərara alır:***

*Əmir Gülbala oğlu Mustafayev Azərbaycan Respublikası Ali Sovetinin orqanı olan "Azərbaycan" qəzetinin baş redaktoru vəzifəsinə təyin edilsin.*

Əmir Mustafayev zaldadır.

**Sədrlik edən.** Zaldadırmı? Əmir Mustafayevə sual vermək lazımdırmı? Bura gəlin, keçin bura. Əmir Mustafayev məşhur jurnalistdir, uzun müddət jurnalistlik fəaliyyəti ilə məşğul olub. Bir neçə qəzetin redaktoru olubdur. Kimin sualı varsa, buyursun. Sual yoxdur. Onda xahiş edirəm, münasibətinizi bildirəsiniz. Bəli, buyurun. Səs eləməyin.

**Afiyəddin Cəlilov.** Cümşüd bəyin qaldırdığı məsələ ilə əlaqədar olaraq Katibliyin verdiyi arayışa görə bu vəzifə komissiyadan keçməyib və Ali Sovet sədrinin səlahiyyətindədir. Bunu Milli Məclis təyin eləyir.

**Sədrlik edən.** Əyləşə bilərsiniz. Xahiş edirəm, münasibətinizi bildirin.

***(Səsvermə)***

Qəbul edildi. Əmir Mustafayev "Azərbaycan" qəzetinin redaktoru təsdiq olundu.

Bir məsələ də var, Birləşmiş Millətlər Təşkilatı ilə əlaqədar son vaxtlar yaranmış vəziyyət haqqında informasiyalarla bağlı Vəfa Quluzadəyə istəyirəm söz verim. O, informasiyaları və məlumatları Məclis üzvlərinə çatdırsın, buyurun.

**Vəfa Quluzadə.** Birinci, Türkiyə Respublikasının Bakıdakı səfirliyinin bəyanatı.

**Sədrlik edən.** Onu oxumayın, birinci, Birləşmiş Millətlər Təşkilatı ilə əlaqədar məsələni deyin.

**Vəfa Quluzadə.** Yaxşı. Birləşmiş Millətlər Təşkilatı ilə əlaqədar.

Rafaellinin Birləşmiş Millətlər Təşkilatına göndərdiyi raport. Raport rus dilindədir, icazə verin, onu rus dilində oxuyum. *(Raportu rusca oxuyur.)*

***Ruscadan tərcümə:***

*Hörmətli cənab sədr !*

*Qafqaz regionuna və Dağlıq Qarabağ münaqişəsi zonasına səfərimdən sonra Birləşmiş Millətlər Təşkilatının Bakı və İrəvandakı nümayəndələrinin artıq təqdim etdikləri elementlərə bir neçə yeni element əlavə etmək istərdim. Fürsətdən istifadə edərək, bu nümayəndələrə hər iki paytaxtda göstərdikləri əvəzsizköməyə və hərtərəfli əməkdaşlığa görə minnətdarlığımı bildirirəm. Təbii ki, Ağdam şəhəri əks qüvvələr tərəfindən ələ keçirildikdən sonra vəziyyət kəskin şəkildə dəyişdi. Danışıqlar prosesinə ciddi zərbə vuruldu ki, bu da mənim missiyamı göndərmək barədə qərarı müəyyən dərəcədə dəyişdi. ATƏM-in hazırkı sədrinin nümayəndələrinin də daxil olduğu missiyanın vəzifəsi regiondakı vəziyyətin qiymətləndirilməsi, bunun mümkün olub-olmayacağı və mümkünsə, BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinin yerinə yetirilməsi üçün Minsk qrupunun 9 ölkəsi tərəfindən hazırlanmış tədbirlər planının nə vaxt həyata keçirilməsi tarixini müəyyən etmək idi. Səfər zamanı həm Ermənistan Respublikasının Prezidenti, həm də Azərbaycan Respublikasının hazırkı Prezidenti ATƏM-in Minsk qrupunun iş qrafikini tam dəstəklədiklərini bir daha təsdiq etdilər. Hər ikisi onun tezliklə və eyni zamanda heç bir dəyişiklik etmədən qüvvəyə minməsində israr edirdilər. Onların hər ikisi hökumət orqanlarının bunu həyata keçirmək üçün əməkdaşlığa hazır olduqlarına əminlik ifadə edirdilər. Bundan əlavə, ən təəccüblü dərəcədə sevindirici yenilik hər iki prezidentin bunun həyata keçirilməsi üçün bir-biri ilə məsləhətləşməyə və lazım gələrsə, əməkdaşlıq etməyə açıq-aşkar hazır olması idi. Mən Dağlıq Qarabağda yerli erməni icmasının rəhbərlərinin tamamilə əks münasibəti ilə qarşılaşdım. Onların münasibətləri sərt idi və diplomatik deyil, hərbi mülahizələrlə idarə olunurdu. Onların Ali Sovetinin sədri qrafiki imzalasa da, bizə dedilər ki, bu imzanı o, rəsmi şəkildə deyil, şəxsi imza kimi qoyub. Onlar bir sıra etirazlarını sadaladılar və sonda mənə bütün bu etirazları göstərən 13 iyul 1993-cü il tarixli məktub verdilər. Onların bəziləri ümumi siyasi xarakter daşıyırdı, məsələn, hazırda Azərbaycanda gedən siyasi proseslərlə bağlı məsələlər. Qalan məqamlar planın özü ilə bağlı idi, lakin onların heç biri qrafikin qüvvəyə minməsinə əsaslı maneə yaratmırdı. Daha sonra səslənən müxtəlif məqamlar və etirazlarla bağlı onlara cavab məktubu göndərməyə razılaşdım. Mən iyulun 18-də danışıqlar prosesi kontekstində siyasi məsələləri yersiz hesab edərək bunu etdim. Mən həmçinin texniki məsələlərlə bağlı istənilmiş izahat və dəqiqləşdirmələri onların diqqətinə çatdırdım və imzalarını mütləq təsdiq etmələrini xahiş etdim. Onların iyulun 20-də yazdığı məktubda görünür ki, onlar əvvəlki etirazlarının bir*

*qismini kənara qoyub, bəzilərində israr edib, yenilərini ortaya qoyublar. Onlar prinsipial olaraq razılaşdıqlarını qeyd ediblər. Amma onu təsdiq etmədilər və ona etiraz da etmədilər. Onlar həmçinin münaqişənin sülh yolu ilə həllinə sadiqliklərini təsdiqlədilər.*

*Bundan sonra mən iyulun 22-23-də Romada 9 ölkənin iclasını çağırdım. Görüş zamanı biz qrafikin son variantı üzərində işləyərkən biz artıq bilirdik ki, uzun müddət davam edən döyüş əməliyyatlarından və silahlı hücumlardan sonra Ağdam şəhəri əks qüvvələr tərəfindən zəbt edilib. Bundan sonra biz elə bir vəziyyətlə üzləşdik ki, BMT-nin 822 saylı qətnaməsinin yerinə yetirilməməsi ilə yanaşı, Azərbaycan Respublikasının yeni əraziləri zəbt olundu. Mən sonra təklif etdim ki, doqquzluq tərəfindən yekdilliklə təsdiqlənən əlavə edilmiş bəyanat dərc edilsin. Doqquzluq, həmçinin ATƏM-in regionda mövcudluğunu təmin etmək və ATƏM müşahidəçiləri missiyasının hazırlanması üzrə işin həyata keçirilməsi məqsədilə fəaliyyətdə olan sədrə göndərdiyim məktubun mövqeyini təsdiqlədi. Ağdamın ələ keçirilməsinin Dağlıq Qarabağ ermənilərinin münaqişənin sülh yolu ilə həllinə sadiqlikləri, xüsusən də onların sülh yolu ilə həllinə sadiqlikləri ilə bağlı verilən təminatlarla tam ziddiyyət təşkil etməsi faktını vurğulamağa ehtiyac görmürəm. Bu həm də onların Ağdam rayonundakı qüvvələrinin irəli getmək niyyətində olmadığı iddiasının əsassızlığını ortaya qoyur. Bununla da onlar danışıqlara gedən yolları bağlayıblar və bu yolları açmaq mümkün görünmür.*

*Ona görə də onlar mənim Ağdam–Stepanakert yolu boyunca araşdırma aparmaq missiyama icazə verməkdən imtina etdilər. Ağdamın tutulmasına özünümüdafiə motivi ilə də haqq qazandırmaq olmaz. Mən şəxsən həmin yerə baş çəkdim, mənim və missiyamın qənaətinə əsasən, hesab edirəm ki, hərbi baxımdan Ağdam Dağlıq Qarabağ üçün ciddi təhlükə yaratmayıb. İndi biz başa düşməyə çalışırıq ki, Ağdamın ələ keçirilməsi Dağlıq Qarabağ ermənilərinin digər münaqişə tərəfləri kimi öz real məqsədlərinə tam nail ola bilməyəcəkləri kompromis nizamlanmadan müəyyən qədər geri çəkilməsi deməkdirmi? ATƏM-in danışıqlar prosesi bu, şübhəsiz uğursuzluğa baxmayaraq davam edəcək.*

*Lakin mən əminəm ki, mövcud siyasi və hərbi qüvvələr balansını nəzərə alsaq, sırf diplomatik fəaliyyətlə sülh prosesinə yeni təkan vermək mümkün deyil. ATƏM-in danışıqlar prosesinin davam etdirilməsi ilə yanaşı, beynəlxalq ictimaiyyətin siyasi təzyiqinə və bəzi diplomatik işlərə ehtiyac var. ATƏM-in müşahidəçi missiyasını göndərməyə hazır olması dəyişməmiş qalır. İnanıram ki, bizim davam edən danışıqlar prosesi beynəlxalq ictimaiyyətin davamlı siyasi dəstəyi və əlaqələndirilmiş siyasi təzyiqi ilə gücləndiriləcək.*

*Bu baxımdan mən Təhlükəsizlik Şurasının əvvəlki reaksiyasının BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsinə uyğun olaraq münaqişənin sülh yolu ilə həllinə töhfə verə biləcəyi bəzi sahələrlə bağlı təkliflər irəli sürməyə cəsarət edərdim:*

*Bu hərəkətlərə Ağdamın ələ keçirilməsinin regionda sülh və təhlükəsizliyə yeni və fərqli təhdid kimi, özünümüdafiə zəminində bəraət qazandırıla bilməyən və münaqişənin sülh yolu ilə həlli öhdəliyinə zidd addım kimi pislənməsi də daxil ola bilər;*

*Münaqişə zonasında yaşayış məntəqələrinin və mərkəzlərin hər cür bombalanması və atəşə tutulmasının qınanılması;*

*BMT Təhlükəsizlik Şurasının 822 saylı qətnaməsində artıq qeyd olunduğu kimi, bütün yeni işğal edilmiş ərazilərdən, o cümlədən növbəti dağıntı və talanlardan qorunmalı olan Ağdam şəhərindən və qətnamənin təsdiqindən sonra işğal olunmuş digər ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmanın tələb olunması;*

*Bütün münaqişə zonasında hərbi əməliyyatların dərhal dayandırılması və işğalçı qüvvələr çıxarıldıqdan dərhal sonra qaçqınların öz evlərinə qayıtması üçün birgə beynəlxalq tədbirlərin görülməsi xahişi ilə müraciət etmək;*

*Minsk qrupunun 9 ölkəsi tərəfindən hazırlanmış BMT TŞ-nin 822 saylı qətnaməsinin icrası üçün həyata keçirilməli olan təxirəsalınmaz addımlar cədvəlinə və qrupun münaqişənin sülh yolu ilə həlli istiqamətində davam edən səylərinə dəstək verilməsi;*

*Dağlıq Qarabağ zonasında hərbi əməliyyatlarda iştirak edən qüvvələrin bütün silah və sursatla təchizatına dərhal embarqo qoyulması xahişi ilə bütün dövlətlərə müraciət etmək;*

*Münaqişə tərəflərini hərbi əməliyyatların daha da genişlənməsindən çəkindirmək və bu cür hərəkətlərin beynəlxalq nəticələri barədə xəbərdar etmək.*

Bunlar ATƏM-in, Mario Rafaellinin Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına göndərdiyi məktub və təkliflərdir. Bu birinci məlumat.

**Sədrlik edən.** Hamısını oxusun, sonra suallarınızı verərsiz.

**Vəfa Quluzadə.** Oxuyuram hamısını. İkincisi. Türkiyə Respublikasının Bakıdakı səfirliyinin bəyanatı.

*Türkiyə Respublikasının Baş naziri Tansu Çillərin Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzü ilə əlaqədar olaraq BMT Təhlükəsizlik Şurasına müraciət etmək və iki ölkə arasında BMT-nin sülh qüvvələrinin*

*yerləşdirilməsini təklif etmək haqqındakı bəyanatının Azərbaycan ictimaiyyəti arasında bəzi yanlış fikirlər yaratdığını öyrəndik. Baş nazir Tansu Çillərin bəyanatı mövcud ağır böhranla əlaqədar olaraq atıla biləcək addımlar haqqında bir təklifdən ibarətdir. Yuxarıda qeyd edilən kimi BMT qüvvələrinin dəvət edilməsi Azərbaycan hökumətinin qərarlarından asılıdır, Baş nazir Tansu Çillər Azərbaycanın bununla əlaqədar bir müraciəti olarsa, Türkiyə tərəfindən, şübhəsiz ki, lazımi kömək ediləcəyini bildirmək məqsədi ilə bəyanat vermişdir. Hələlik Azərbaycan tərəfindən razılıq alınmadığı üçün Türkiyə BMT-yə müraciət etməmişdir, Türkiyə Ermənistanın Azərbaycana qarşı təcavüzü və müstəqil Azərbaycan torpaqlarının bütünlüyünün Ermənistan tərəfindən pozulması hallarının yalnız Azərbaycanın daxili işi olaraq qalmadığına, bütün beynəlxalq qanunları tapdalayan, beynəlxalq hüququ pozan, beynəlxalq ictimaiyyətə və insanlığa dair dünya miqyasında təhlükəli bir məsələ olduğuna inanır. Türkiyə bütün dünyanı işğal və təcavüzə qarşı səfərbər etmək üçün meydanda tək qalsa belə, əlindən gələn bütün imkanları sərf edəcəyini və üstünə düşən məsuliyyəti həyata keçirəcəyini bir daha elan edir.*

**Sədrlik edən.** Başqa nə var?

**Vəfa Quluzadə.** Başqa Böyük Britaniya hökumətinin bəyanatı.

**Sədrlik edən.** Buyurun.

**Vəfa Quluzadə.** Mən qeyd etmək istəyirəm ki, bu, Xarici İşlər Nazirliyinin bəyanatı yox, dövlətin bəyanatıdır, bəyanat rus dilində göndərilib, onu oxuyuram. *(Bəyanatı rusca oxuyur.)*

***Ruscadan tərcümə:***

*Böyük Britaniya hökuməti Ağdam, Füzuli və onların ətrafında hərbi əməliyyatlara görə təəssüfünü bildirir və bu hərbi əməliyyatlara cəlb edilmiş erməni qüvvələrinin Azərbaycan ərazisindən təxirə salınmadan çıxarılmasına çağırır.*

*Qeyd etmək istəyirəm ki, burada "Karabaxskiye silı" yox, "Armyanskiye silı" yazılması qərb ölkələrinin mövqeyində bir irəliləyişdir.*

*Böyük Britaniya hökuməti Azərbaycana qarşı bu cür hücumu qəti şəkildə qınayır və onu ATƏM-in Minsk qrupunun sülh prosesinin həyata keçirilməsi perspektivinə ciddi təhdid sayır. Bu proses Ermənistan və Azərbaycan hökumətləri ilə razılaşdırılıb. Dağlıq Qarabağın hakimiyyət dairələri də bu prosesdə iştirak edən tərəfdirlər və onun həyata keçirilməsini ləngitməyi dayandırmalıdırlar. Hərbi əməliyyatların dayandırılması və bütün tərəflərin regionda sülhün bərpası məqsədilə qarşılıqlı etimad şəraitində konstruktiv şəkildə çalışması vacibdir.*

Bu qədər.

**Sədrlik edən.** Başqa bir məlumat yoxdur ki?

**Vəfa Quluzadə.** Yoxdur, xeyr.

**Sədrlik edən.** Siz sual verməkistəyirdiniz? Cümşüd Nuriyev, buyurun.

**Cümşüd Nuriyev.** Vəfa müəllim, Siz mən bilən diplomatiya sahəsində çoxdan çalışırsınız, Mario Rafaellinin həmin o BMT-yə verdiyi məlumatı bir diplomat kimi necə qiymətləndirirsiniz?

**Vəfa Quluzadə.** Bilirsinizmi, mən burada Mario Rafaelliyə qiymət verməyə çəkinirəm, Mario Rafaelli məlumatı Birləşmiş Millətlər Təşkilatına təqdim edibdir. Onun nəticəsində qərar qəbul olunacaqdır. O qərarın nəticəsini gözləyək. Ondan sonra görək Azərbaycanda buna nə qiymət veriləcəkdir?

**Cümşüd Nuriyev.** Vəfa müəllim, Siz axı diplomatsınız. Onun nəticəsi Sizə məlumdur.

**Vəfa Quluzadə.** Mən burada bunu müzakirə etməyi tamamilə yersiz hesab edirəm.

**Sədrlik edən.** Bağışlayın, bu məsələ barəsində müzakirə açmağa ehtiyac yoxdur. Əgər Məclisə hörmət edərək mən alınan məlumatları deputatlara çatdırıramsa, ola bilər, Siz də bəzi şeyləri araşdırarsınız. Amma burada mübahisəyə girmək, başqa fikir söyləməyə ehtiyac yoxdur. Çünki biz bunu müzakirə etmirik. Burada Məclis üzvləri yazılıblar – Tofiq Əzizov, Timoşenko Viktor, Sabir Rüstəmxanlı, Qəniyev Hüseynağa. Tofiq Əzizov, buyurun.

**Tofiq Əzizov.** Heydər müəllim, mən İqtisadiyyat komissiyasının sədri kimi sizdən bir xahiş edirəm. Bu yaxın günlərdə Nazirlər Kabinetinin strukturu və onun tərkibi Məclisin komissiyalarına verilsin və onu müzakirə edərək burada təsdiq edək. Mən dünən Surət müəllimdən bir də xahiş etdim ki, bu strukturu Məclisə təqdim etsin. Surət müəllimi vəzifəsinə təsdiq eləyəndə o burada bizə söz verdi ki, 15 gün ərzində bu məsələ Məclisə təqdim olunacaq. Biz onu müzakirə edib bir qərara gələcəyik. Mən başa düşürəm, Ağdam məsələsi var, başqa çətinliklər var. Ancaq burada Rəhim müəllimin sözləri ilə şərikəm ki, biz strukturu təyin eləməmiş, Nazirlər Kabinetinin tərkibini bilməmiş gündə bir nazir təsdiq edirik. Mən elə hesab eləyirəm ki, biz onu burada təsdiq etməliyik, müzakirə etməliyik, baxaq görək ki, bizim Nazirlər Kabineti necə

işləyəcək. Ondan sonra da biz özümüz üçün müəyyən eləyək ki, belə bir vəzifə bizə lazımdır, yoxsa yox.

Mən 37 ildir hərbi sənaye sahəsində işləyirəm. Rəhim Qazıyevə böyük hörmətim var. Ancaq bu gün bu kabinetin nəzdində komitə olaraq biz çalışdıq ki, həm Prezidentin, həm Ali Sovetin sədrinin, həm də Baş nazirin... Bizə xüsusi maşınqayırma sənayesi və konversiya komitəsi yaratmaq lazımdır, bizim sənayeni cəlb eləmək üçün addımlar ataq. Bu təzə yaranıb və ilk addımlarını atır. Komitənin adından biz böyük silahların sərgisini hazırlamışıq, bütün respublika rəhbərlərini ora dəvət edirik.

**Sədrlik edən.** Bu söhbətləri açıq şəkildə etmək lazım deyil, Tofiq bəy, bunu ayrıca danışarıq.

**Tofiq Əzizov.** Mən onu bilirəm. Amma xahiş olunur ki, Nazirlər Kabinetinin tərkibi və onun strukturu bizə verilsin, komissiyalarda müzakirə edib onları təsdiq edək. Sonra biz nazirlərin və müavinlərin məsələsinə baxaq.

**Sədrlik edən.** Tofiq bəy, Siz üç ilə yaxındır ki, bu Ali Sovetin İqtisadi komissiyasının sədrisiniz. Mənə elə gəlir ki, bu üç illik dövrdə nə qədər struktur dəyişiklikləri olub, onlara da Siz baxmısınız, təsdiq eləmisiniz. Hamısına dözmüsünüz, amma indi nədənsə buna dözə bilmirsiniz ki, biz bir balaca başımızı qaldıraq görək, nə edirik. Birincisi, mənim yadımdadır, Sizə məlumat verim ki, həmin bu salonda 28 aprel 1993-cü ildə Nazirlər Kabinetinin strukturunu Siz təsdiqləmisiniz. Bildinizmi, yaddaşınızı bir balaca itiləyin.

İkincisi, biz Surət Hüseynovu Baş nazir təyin eləyəndə Nazirlər Kabinetinin strukturunda dəyişiklik etmişik. Üç nazirliyi Nazirlər Kabinetinin strukturuna salmışıq. Bunu da Sizin yadınıza salıram.

Üçüncüsü, Surət Hüseynov Baş nazir təyin olunanda söz verib ki, o iqtisadi proqram təqdim edəcəkdir. Ancaq bu müddətdə Surət Hüseynov üç dəfə Gəncəyə gedib gəlib. Müharibə gedir, ona görə də mən rica edirəm ki, bu təklifləri verəndə, bu sözləri deyəndə bir balaca fikirləşəsiniz. Mən xronologiyanı Sizin yadınıza saldım ki, Nazirlər Kabinetinin strukturunu Siz 28 apreldə təsdiq eləmisiniz. Milli Məclisin qərarını qaldırın, baxın. Nazirlər Sovetinin strukturunda biz iyun ayının 30-da dəyişiklik eləmişik. Şübhəsiz ki, Nazirlər Kabinetinin strukturu və ümumiyyətlə, dövlət orqanlarının strukturunun təkmilləşdirilməsi üzərində biz işləyirik, qurtaran kimi təqdim eləyəcəyik. Niyə narahatsınız? Timoşenko.

**Vladimir Timoşenko.** *(rusca danışır, çıxışın mətni yoxdur.)* Sağ olun...

**Sədrlik edən.** Sabir Rüstəmxanlı.

**Sabir Rüstəmxanlı.** Hörmətli sədr, bu gün müzakirə olunan məsələlərin fonunda xırda görünsə də jurnalistlərin bir müraciətini Sizə çatdırmaq istəyirəm. Çünki jurnalistlərin həyatı üçün bu çox əhəmiyyətli məsələlərdən biridir.

*Azərbaycan Respublikası Ali Sovetinin sədrinə, Milli Məclisin üzvlərinə.*

*"Hörmətli sədr, hörmətli millət vəkilləri, diqqətinizə çatdırmaq məcburiyyətindəyik ki, Azərbaycanda fövqəladə vəziyyət rejiminin qanunlarına görə, tətbiq edilmiş senzuranın hüquqi səlahiyyətləri hər hansı bir rəsmi sənədlə müəyyənləşdirilmədiyindən tez-tez qəzet işçiləri ilə senzura arasında mübahisələr əmələ gəlir və nəticədə qəzetlər qanunla nəzərdə tutulan qaydada deyil, adamların cəsarət həddinə və şəxsi istəklərinə uyğunlaşdırılaraq nəşr edilir. Bəzən bir qəzetdə dərc edilməsi mümkün olmayan, başqa bir qəzetdə heç bir ixtisar aparılmadan dərc edilir. Təəccüblüdür ki, siyasi partiyaların fəaliyyəti davam etdiyi halda, onların rəsmi orqanlar tərəfindən qəbul edilən və fövqəladə vəziyyət rejiminə heç bir dəxli olmayan materiallar senzura tərəfindən ixtisar edilir, yaxud buraxılmır. Bütün bunlar, yuxarıda qeyd edildiyi kimi, senzuranın hüquqi statusunun müəyyənləşdirilməməsindən irəli gəlir. Şübhəsiz, senzura, birinci növbədə, hərbi informasiyaların sızması, dövlət sirlərinin qorunması, şəxsiyyətin təhqir edilməməsi, bir sözlə, mətbuat qanununa tam riayət edilməsi məqsədilə yaradılıb. Qeyd edilənləri nəzərə alaraq, xahiş edirik ki, yaxın günlərdə senzuranın hüquqi səlahiyyətlərini müəyyənləşdirən bir sənədlə bizim mübahisələrimizə son qoyasınız. Əlavə olaraq bildiririk ki, belə bir sənədin hazırlanması imza edən qəzet rəhbərlərinə həvalə edilsə, biz öz köməyimizi əsirgəməyəcəyik".*

Bura bir neçə qəzet redaktoru imza atıb. Əlavə olaraq onu bildirmək istəyirəm ki, yəqin ki, bilirsiniz, vaxtilə Mirzə Cəlil "Molla Nəsrəddin" jurnalında senzura tərəfindən çıxarılan materialların yeri bir-iki dəfə ağ qoyulmuşdur. İndi bizim qəzetlər çox eybəcər vəziyyətdə çıxır, hər hansı material çıxarılırsa da yeri boş qalır, ala-bəzək səhifələr çıxır, kağızın çatışmayan vaxtında, ciddi çətinliklər olduğu vaxtda bu lazımsızdır. Ona görə "Bədii özfəaliyyət", "Senzura haqqında" qanun ittifaq üçün hazırlanmışdır. Bəli, öz dövlətimizin belə bir qanunu yoxdur. Bəlkə, komissiyaya, müvafiq orqanlara və ya bizim nazirliyə tapşırılsın ki, belə bir sənəd hazırlansın. Bilək ki, hansı materiallara senzuranın toxunmağa

ixtiyarı var, hansına yoxdur. Bu narazılıq aradan qaldırılmalıdır. Çünki burada hiss olunmur, amma qəzetçilərin mühitində bu çox hiss olunan bir məsələdir.

**Sədrlik edən.** Təklif olunur ki, bu müraciət Ali Sovetin Elm və mədəniyyət komissiyasına, Rauf İsmayılova verilsin. Rauf İsmayılov komissiyada bu müraciətə baxsın və lazımi təkliflər hazırlayıb versin. Etiraz yoxdur? Hüseynağa Qəniyev.

**Hüseynağa Qəniyev.** Hörmətli Heydər Əliyev, hörmətli millət vəkilləri, sizə yaxşı məlumdur ki, keçən il ali və orta ixtisas məktəblərinə qəbul son dərəcə gecikdirildi. Burada çox tələm-tələskənliyə yol verildi. İndi, bu il də iyul ayının axırıdır. Amma valideynlər və abituriyentlər bu vaxta kimi heç bir məlumata malik deyillər. Bu haqda söz-söhbət genişlənir, bu da daha bir gərginlik yaradır. Mən xahiş eləyirəm, əgər mümkündürsə, Təhsil komitəsinin sədri, heç olmasa, bu haqda beş dəqiqəlik məlumat versin. Həm biz bilək, həm də əhali bilsin ki, bu nigaranlıqdan bir az qurtulsunlar, təsəlli tapa bilsinlər.

**Sədrlik edən.** Bu məsələ ilə bizim dövlət katibi məşğul olur, müəyyən layihə hazırlanıb, bu layihəyə biz baxacağıq, lazımi tədbirlər görəcəyik, bununla da bizim iclasımız qurtardı. Sağ olun. Yaxşı, qayıdırıq pul məsələsinə. Bağışlayın. Onu unutdum. Buyurun, Tofiq bəy.

**Tofiq Əzizov.** Heydər müəllim, dünən Milli Məclisin tapşırığı ilə iki komissiya – İqtisadiyyat komissiyası və Büdcəyə nəzarət komissiyası, Milli Bankın prezidenti və dövlət kommersiya banklarının sədrləri ilə, maliyyə naziri, Ali Sovetin şöbələrinin işçiləri bir yerdə bu gün müzakirə keçirdik, o dünənki təkliflərə – əhalinin əlində olan pulları dəyişmək məsələsinə baxdıq və layihə sizdədir. Afiyəddin müəllimə layihə verilib, Nazirlər Kabinetinin sədrinin birinci müavini Vahid Əhmədovla, müavin Rəsul Quliyevlə razılaşdırılıb. Nazirlər Kabineti də razılığını verib, Milli Bank və o biri banklar da bütün ehtiyatlarını ölçüb-biçiblər. Belə bir layihə hazırlanıb və xahiş olunur, mən layihəni oxuyum.

**Sədrlik edən.** Layihəni oxuyun.

**Tofiq Əzizov.**

*Azərbaycan Respublikasının Milli Məclisi* ***qərara alır:***

*1. Əhalinin əlində olan 1961–1992-ci il pul nişanlarının dəyişdirilməsi müddəti avqust ayının 6-sı 00:00 saata kimi uzadılsın.*

*2. Milli Banka tapşırılsın ki, nağd pul problemi həll olunduqca zəruri hallarda bir il müddəti gözləmədən bu islahatla əlaqədar olaraq yığılan əmanətlərin qaytarılmasını təmin etsin.*

*3. Azərbaycan Respublikası Nazirlər Kabinetinə tapşırılsın ki, bu mövzuda qəbul etdikləri mövcud qərarlarını bu qərarla uyğunlaşdırsın.*

**Sədrlik edən.** Layihəyə münasibət. Etiraz yoxdur? Onda xahiş edirəm, münasibətinizi bildirin, səsvermə vasitəsilə.

***(Səsvermə)***

Asya xanım səs verir, Surət bəy, Siz də səs verirsiniz?

Qəbul olundu. Sağ olun.



1



2



**3**



**4**



5



6



**7**



**8**



9



10


**11**


**12**



13



14


15


16



17



18



19



20



21



22


**23**


**24**



25



26



**27**



**28**

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASI

*16 avqust 1993-cü il*

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri* ***Heydər Əliyev*** *sədrlik edir*

**Sədrlik edən.** Axşamınız xeyir, hörmətli Milli Məclis üzvləri, deputatlar, qonaqlar, mətbuat nümayəndələri. Milli Məclisin növbəti iclası açıq elan olunur. Rica edirəm, Milli Məclisin üzvləri qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

41 nəfər Məclis üzvü iştirak edir. Yetərsay var, işə başlaya bilərik.

Gündəlik haqqında. Məlumdur ki, Milli Məclisin say tərkibi 75 nəfər nəzərdə tutulmuşdur, sonra bu, 50 nəfər olmuşdur, əvvəl nəzərdə tutulan say tərkibinə çatdırılmamışdır. İndi bizim Milli Məclisin tərkibində 51 nəfər Məclis üzvü vardır. Məclisin işini daha da mütəşəkkil aparmaq, Ali Sovetin komissiyalarının işini daha da yaxşı təşkil etmək üçün belə fikir var ki, Milli Məclisin say tərkibini əvvəl nəzərdə tutulmuş həddə çatdıraq. Çünki indi mənə məlumat verdilər ki, komissiyaların bəzilərində 3-4 nəfər Məclis üzvü var, bu qədər işi təmin eləyə bilmirlər. Bir tərəfdən də bizim deputatların bir hissəsi Məclisdən kənardadırlar, bəziləri işsizdirlər, ancaq onlar Məclisdə fəaliyyət göstərə bilərlər. Ona görə də mən təklif edirəm ki, birinci məsələ Milli Məclisin say tərkibinə bir daha baxılması və əvvəl olduğu kimi, üzvlərin sayının 75 nəfərə çatdırılması haqqında olsun.

Gündəlikdəki məsələləri ayrı-ayrı səsə qoymaq lazımdır, yoxsa bir yerdə?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bu məsələnin gündəliyə salınması haqqında başqa bir fikri olan yoxdur ki? Onda mən xahiş edirəm, bu məsələnin gündəliyə salınmasına münasibətinizi bildirin.

***(Səsvermə)***

Qəbul olundu, demək, bu məsələ gündəliyə salındı.

İkinci məsələ Azərbaycan Respublikasının Lənkəran, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət haqqında. Bu vəziyyət artıq bir xeyli müddətdir ki, Azərbaycan ictimaiyyətinə məlumdur. İki gün bundan öncə biz bu məsələni həmin rayonlardan Azərbaycan Respublikası Ali Sovetinə seçilmiş deputatlar, respublika rəhbərliyi və bu rayonlardan olan orada, yaxud Bakıda yaşayan ziyalılarla, yüksək vəzifəli şəxslərlə bərabər müzakirə etdik. Güman edirəm ki, bu müzakirə haqqında sizin hamınızın məlumatınız var, həmin müzakirə Azərbaycan televiziyası vasitəsi ilə verilmişdir. Bizim o müşavirə, şübhəsiz ki, məsləhət xarakteri daşıyırdı. Bu problem bizi çox narahat edirdi, ancaq müşavirədə qeyd edildiyi kimi, biz müəyyən səbəblərə görə bu məsələnin həllini müxtəlif yollarla arayırdıq, ona görə də bu məsələ genişləndi, yoğunladı və artıq dözülməz bir vəziyyət aldı. Qeyd edim ki, biz bu məsələni məsləhət nöqteyi-nəzərincə müzakirə etmədik, yəni bununla bağlı geniş fikir mübadiləsi apardıq. Fikir mübadiləsi apararkən bu rayonlardan olan Azərbaycan Respublikasının, yaxud rayon sovetlərinin deputatları, ziyalılar, ayrı-ayrı nümayəndələr, Bakıda və o rayonlarda yaşayan nüfuzlu adamlar bizə çox irad tutdular ki, niyə indiyə qədər bu məsələlərə respublikanın dövlət rəhbərliyi, dövlət orqanları tərəfindən lazımi münasibət bildirilməyibdir, buna dövlət qiyməti verilməyibdir. Ona görə də biz bu məsələnin Milli Məclisin müzakirəsinə çıxarılmasını lazım bilmişik. Mən xahiş edirəm ki, Məclis üzvləri bu məsələnin gündəliyə salınmasına münasibət bildirsinlər.

***(Səsvermə)***

Qəbul olundu, 46 nəfər iştirak eləyir. Bu məsələ də gündəliyə salındı.

Sonra son günlər bizim Ermənistanla olan sərhədlərimizdə, döyüş bölgələrində vəziyyət ağırlaşıb, gərginləşibdir. Dünən, srağagün çox həyəcanlı məlumatlar gəlibdir, həm bizim respublikada, həm də ümumiyyətlə, bizim respublikanın xaricində çox narahat vəziyyət yaranıbdır. Biz bu məsələni dünən respublika rəhbərliyi səviyyəsində müzakirə etdik, vəziyyət həddindən artıq gərgindir, ağırdır, ona görə də bu vəziyyət haqqında gərək həm Məclis məlumat alsın, həm də biz müəyyən məsələləri aydınlaşdırıb müəyyən tədbirlər görmək əzmindəyik. Bunun üçün də bu məsələni Məclisdə müzakirə edib, Məclisin üzvlərinin fikirlərini bilmək lazımdır. Ona görə də mən Azərbaycan Respublikasının cəbhə bölgələrindəki yaranmış ictimai-siyasi şərait haqqında məsələnin gündəliyə salınmasını təklif edirəm. Xahiş edirəm, Məclis üzvləri öz münasibətlərini bildirsinlər.

*(Səsvermə)*

Qəbul edildi, bu məsələ də gündəliyə salındı.

Nəhayət, bilirsiniz ki, fərmanla bir qrup adamın əmək haqlarını artırmışıq, ancaq Milli Məclisin üzvlərinin, Ali Sovetin işçilərinin, dövlət aparatının işçilərinin əmək haqları artırılmayıbdır. Bu barədə təkliflər var, bu təkliflər də bir müddətdir ki, qalıbdır, çünki bunların bir hissəsi Prezident fərmanı ilə, amma xüsusən Ali Sovetə, onun işçilərinə aid olan məsələlər Milli Məclisin qərarı ilə olmalıdır. Ona görə də mən bu məsələnin gündəliyə salınmasını təklif edirəm. Xahiş edirəm, buna münasibət bildirilsin.

*(Səsvermə)*

Qəbul edildi.

Beləliklə, iclasımızın gündəliyi təsdiq olundu. Qəbul olundu, indi gündəliyin məsələlərinin müzakirəsinə keçirik.

**Tamerlan Qarayev,** ***Ali Sovet sədrinin birinci müavini.*** Heydər bəy, mənim təklifim var gündəliyə, məsələlərin baxılmasının ardıcıllığına aiddir. Üçüncü məsələ kimi təklif olunmuş Azərbaycan Respublikasının cəbhə bölgələrindəki vəziyyətlə əlaqədar respublikada yaranmış ictimai-siyasi şərait haqqında məsələyə, təklif edirəm ki, birinci məsələ kimi baxaq. Ona görə ki ikinci məsələ kimi baxılması təklif olunan məsələ, yəni Lənkəran və digər rayonlarda yaranmış vəziyyət haqqında, elə bu da xüsusilə onunla bağlı bir məsələdir. Ümumi məsələnin həlli yollarını tapmamış xüsusi məsələlərin həlli yolunu tapmaq çətindir. Birinci, bu məsələ.

Gündəliyə bir təklifim də var. Lənkəran, Astara və sair rayonlarda yaranmış vəziyyət haqqında keçirdiyiniz müşavirə televiziyada göstərildi, orada müşavirədə, əsasən həmin bölgədə qanunçuluğun, Konstitusiyanın pozulmasından söhbət gedirdi. Bununla əlaqədar istərdim ki, elə bizim tərəfimizdən qanuna riayət olunması, qanunun keşiyində durulması ilə əlaqədar bir məsələ təklif edim. Bildiyiniz kimi, Milli Məclis Ali Sovetin sabiq sədri İsa Qəmbərovun cinayət məsuliyyətinə cəlb olunmasına razılıq verib, ancaq onun həbs olunmasına razılıq verməyib. Bununla əlaqədar əgər respublikanın Baş prokuroru onun həbsxanada saxlanılmasına ehtiyac duyursa, yəni bunu əsaslandıra bilirsə, təklif versin. Biz bunu xüsusi gündəliyə salıb baxaq. Yox belə təklif daxil olmayıbsa, onda xahiş olunur, Siz səlahiyyətlərinizdən istifadə eləyib – Baş prokuror da buradadır – göstəriş verəsiniz ki, qeyri-qanuni

həbsxanada saxlanılan Ali Sovetin sabiq sədri İsa Qəmbərovu elə bu dəqiqə indi həbsxanadan azad eləyib zala gətirsinlər.

**Sədrlik edən.** Deməк, Tamerlan Qarayevin birinci təklifi haqqında. Bu gündəlik, bunun ardıcıllığı təsadüfi tərtib olunmayıbdır. Çünki Azərbaycanda, ümumiyyətlə, ictimai-siyasi vəziyyəti ən çox gərginləşdirən məsələlərdən biri bu cənub rayonlarında olan vəziyyətdir. Bir də qeyd edirəm, sizə artıq vəziyyətin məzmunu və xarakteri məlumdur. Bu vəziyyət, ümumiyyətlə, bizim respublikamızda indi Ermənistanla olan cəbhə bölgələrində əməliyyatın, əməli fəaliyyətin aparılmasına çox mane olur. Ona görə bu məsələyə konkret baxılmalıdır və konkret qiymət verilməlidir. Bundan, məsələnin bir hissəsindən məsələnin ümumi hissəsinə keçəcəyik. Ona görə də mən hesab edirəm ki, gündəlik necə qəbul olunub, o cür də müzakirə olunmalıdır.

İkinci, İsa Qəmbərov haqqında. Ali Sovetin sədri kimi, mən onun vəziyyəti ilə məşğul oluram, bunu, yəqin ki, Tamerlan Qarayev də yaxşı bilir. İsa Qəmbərovun həyat yoldaşını, həyat yoldaşının atasını qəbul eləmişəm, söhbət eləmişəm, bu barədə həm Baş prokurorla, həm də başqa hüquq-mühafizə orqanlarının rəhbərləri ilə müzakirələr aparmışam. Bu məsələ ilə məşğul oluruq, mən şəxsən məşğul oluram. Burada qabağa atılmaq lazım deyil, bu məsələ həll olunacaqdır, bu məsələnin indi bu dəqiqə Məclisdə həll olunmasını mən lüzumlu bilmirəm, ona görə də gəlin məsələlərin müzakirəsinə keçək.

**Tamerlan Qarayev.** Ona görə də mən xahiş eləyirəm ki, mənim təkliflərim səsə qoyulsun, Milli Məclisin hər bir üzvü təklif verəndə təkliflər səsə qoyulur.

**Sədrlik edən.** Bilmirəm, bunları səsə qoymağa ehtiyac varmı, yoxdur.

**Tamerlan Qarayev.** Bir-iki adamın yox deməyi ilə deyil, təklif səsə qoyulsun, əgər keçmirsə, onda Siz dediyiniz təkliflə işimizi davam etdirək. Təklif keçirsə, Siz söhbətlər aparmısınız, həyat yoldaşı ilə və sair. Burada konkret qayda-qanunun pozulmasından söhbət gedir, İsa Qəmbər bu dəqiqə qeyri-qanuni həbsxanada saxlanılır, ya bunu qanuniləşdirmək lazımdır, Baş prokurorun müraciəti olsun, Milli Məclis buna öz mövqeyini bildirsin, ya da o, dərhal həbsxanadan azad olunmalıdır. Bu, konkret məsələdir, burada qanunçuluqdan söhbət gedir.

**Sədrlik edən.** Siz bu Məclisdə vəziyyəti gərginləşdirməyin, İsa Qəmbərov təxminən bir ay bundan qabaq həbs olunub, bu müddət ərzində

bizim iclaslarımız olub, Siz bir dəfə bu məsələni qoymamısınız. Əgər Siz qanun keşiyində durursunuzsa, indi gəlib məsələ həll olunanda fürsətdən istifadə eləmək istəyirsinizsə, bu da lazım deyil. Mən yenə də deyirəm, işləmək lazımdır və imkan verin ki, işləyək. İsa Qəmbərov iyul ayının 16-da həbs olunub, ondan sonra bizim bir neçə dəfə Məclisimiz olubdur, bu qanun pozuntusu haqqında Siz nə üçün məsələ qaldırmamısınız?

**Tamerlan Qarayev.** Mən cavab vermək istəyirəm, mən bu barədə Baş prokurorla danışmışam, söhbətimiz olub, prokurorluq tərəfindən qanun pozuntusu olmayıb. Ona görə ki prokurorluq lazımi qaydada müraciət eləmişdir, qanun pozuntusu burada olubdur, yəni bu məsələnin müzakirəsində və qərar qəbul olunanda. Biz qərar qəbul eləyəndə xəbərimiz yox idi ki, İsa Qəmbərov artıq həbs olunmuşdur. Digər tərəfdən, bəli, bir belə vaxt müraciət eləmirdik, ona görə ki elə hesab eləyirdik, Siz bu məsələni həll edəcəksiniz.

**Sədrlik edən.** Mən həll edirəm.

**Tamerlan Qarayev.** Ancaq bir belə vaxt bir insan bir gün də həbsxanada qeyri-qanuni saxlanıla bilməz. Bu vaxt uzanır, bu məsələ həll olunmalıdır, bu, birinci.

İkinci, mən yenə də təkid eləyirəm, məsələ başqa cürdür, hər bir təklif səsə qoyular, qəbul olunmaz, qoy müzakirə dediyiniz qaydada getsin. Siz Ali Sovetin sədri kimi təklifləri səsə qoymalısınız.

**Sədrlik edən.** Vaxtımızı alırsınız, mən güman edirəm ki, vaxtımızı alırsınız. Çünki Siz özünüz işləmirsiniz, vaxtımızı alırsınız, qoymursunuz işləyək, ona görə də mən bilmirəm, səsə qoymaq lazımdır, yoxsa yox. Kim təkid edir ki, bu təklif səsə qoyulsun, xahiş edirəm.

Bəli, Mirmahmud Fəttayev, buyurun.

**Mirmahmud Fəttayev.** Çox sağ olun. Hörmətli Heydər bəy, əgər Milli Məclis üzvü, Ali Sovet sədrinin birinci müavini özü təklif eləyirsə, ehtiyac yoxdur, bizdən soruşasınız, ona görə də Siz təklifi səsə qoymalısınız. Sadəcə olaraq, Sizin dediyiniz kimi, əgər işləmək lazımdırsa, təklifi səsə qoyun, səs toplayacaq, keçəcək, səs toplamayacaq, keçməyəcək. Sağ olun.

**Sədrlik edən.** Yaxşı, səsə qoyuram. Birinci təklif səsə qoyulası deyil, çünki gündəlik və onun ardıcıllığı da təsdiq olundu, indi buna təzədən baxmalıyıq. Əgər bu məsələni təsdiq olunanda desəydi, o başqa məsələ. Ona görə bu məsələni mən səsə qoya bilmirəm, çünki bu artıq təsdiq

olunubdur. Siz bu gündəliyin bu ardıcıllıqla tərtib olunmasına səs vermisiniz, ona görə mən bunu səsə qoymuram, qərar  qəbul olunub. Mən ikinci dəfə qərarı qəbul eləməyəcəm ki.

O ki qaldı İsa Qəmbərovun məsələsinə, mən məlumat verdim, əgər bu məlumat qane etmirsə, bunun, İsa Qəmbərovun məsələsini burada müzakirə eləməyin nəyini səsə qoyum. Tamerlan Qarayev deyir ki, burada qanun pozuntusu olub, burada heç bir qanun pozuntusu olmayıbdır. Biz qərar qəbul eləmişik ki, İsa Qəmbərov Milli Məclis üzvlüyündən azad olunur və onun cinayət məsuliyyətinə cəlb olunmasına icazə verilir, burada nə qanun pozuntusu var, hansı qanun pozuntusundan söhbət gedir? Sonra bu həbs olunubdur, bununla da biz məşğul oluruq. Əgər bunu prokuror həbs eləyibdirsə, biz prokurorla danışırıq, bu, Məclisdə müzakirə olunası  məsələ deyil. Ona görə əgər bunu Məclisdə müzakirəyə qoymaq lazımdırsa, mən səsə qoyuram.

Buyursun Tofiq Qasımov.

**Tofiq Qasımov.** Heydər bəy, bu məsələ mütləq Məclisdə müzakirə olunmalıdır, ona görə ki Məclisdən başqa heç kimin xalq deputatının həbs edilməsinə icazə vermək hüququ yoxdur. Milli Məclisin qərarında isə İsa Qəmbər deyil, eyni zamanda Sülhəddin Əkbərov və İxtiyar Şirinov barədə qərarda da ancaq deyilir ki, onlar Məclisin üzvlüyündən azad edilsin, yəni onların deputat toxunulmazlığı götürülsün sözləri yoxdur, elə olmalı idi. Yazılıb ki, Məclisin üzvlüyündən azad edilsin, onun deputat statusuna təsir eləmir. Deyilib, onların cinayət məsuliyyətinə cəlb olunmasına icazə verilsin, gərək əlavə də yazılaydı ki, onlar barədə qətimkan tədbiri kimi həbslərinin keçirilməsinə icazə verilsin. Ona icazə verilmədiyinə görə faktiki olaraq bunlar həbsdə qanunsuz otururlar və söhbət də ondan gedir ki, bunu qanuniləşdirmək lazımdır. Əgər Respublika Prokurorluğunun əlində dəlil, sübut varsa, Məclisə müraciət eləsin, Məclis də bunu qanuniləşdirsin, yoxdursa, bu adamları həbsdən buraxsın, söhbət bundan gedir.

**Sədrlik edən.** Belə olduğu halda, mən təklif eləyirəm, respublikanın Baş prokuroruna tapşırılsın ki, bu məsələ barəsində məlumat və təklif hazırlayıb bizə təqdim etsin. Etiraz yoxdur ki? Kim belə qərarın qəbul olunmasına tərəfdardır, xahiş eləyirəm, münasibətini bildirsin.

***(Səsvermə)***

Belə bir qərar qəbul edildi.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sakit olun, Tofiq bəy, Siz də, o tərəfdə oturan deputatlar da sakit olsunlar. Mən Sizin sözlərinizi eşidirəm, Siz orada deyirsiniz ki, burada deputatlar Məclissiz-filansız dəfələrcə tutulurdular, həbs olunurdular, həbsxanada qalıblar, amma nədənsə o vaxt Ali Sovet sədrinin birinci müavini Tamerlan Qarayev bir dəfə səsini qaldırmayıb. Siz onu demək istəyirsiniz, mən bunu eşitdim. Bəli, onda Tofiq Qasımov da səsini qaldırmayıbdır, Tamerlan Qarayev də səsini qaldırmayıbdır. Onlar da insandırlar, onlar da deputatdırlar, onların da hüquqları var, onların da hüquqları pozulmuşdur, nə qədər adamlar, deputatlar həbs olundu, nə üçün bir dəfə burada müzakirə olunmadı? Çünki o vaxtlar bu Məclisdə hökmdarlıq var idi, indi mən izahat verirəm ki, bu məsələ ilə məşğul oluruq, bu məsələni biz aydınlaşdırırıq, bu məsələ barədə bu günlərdə mənə məlumat veriləcəkdir. Yox, fürsətdən istifadə eləyib, hərə özünə bir xal qazanmaq istəyir.

**Tamerlan Qarayev.** Mən üzr istəyirəm, deyəsən, Siz bir balaca qeyri-dəqiqliyə yol verdiniz, Ali Sovetin, Milli Məclisin bütün iclaslarının stenoqramları durur, onları qaldırmaq və baxmaq olar, hər bir halda Milli Məclisin iclaslarını televiziya ilə də göstəriblər. Belə hallar olub, bəli, mən məhz özümdən danışıram, hər bir halda səsimi də qaldırmışam, məsələ də qoymuşam və qeyri-qanuniliyin aradan götürülməsini tələb də etmişəm. Ona görə də mən bu sözləri özümə qəbul eləyə bilmərəm.

Burada heç bir xal qazanmaqdan söhbət getmir, söhbət adi qayda-qanuna riayət olunmasından gedir, xahiş eləyirəm, bu, siyasi məsələ deyil, biz iclas keçiririksə, gəlin bir-birimizə diqqətli olaq, təklif verənin də təklifinə diqqətli olaq, burada başqa nəticə axtarmayaq.

**Sədrlik edən.** Yaxşı, məsələlər həll olundu.

Tahir bəy, söz istəyirsiniz? Tahir Əliyev.

**Tahir Əliyev.** Bilirsiniz, bu məsələ ilə əlaqədar istərdim, bir dəqiqəlik çıxış eləyim. Ümumiyyətlə, istəmirdim, danışam, mənim yadımdadır, burada oturmuşduq, Ali Sovetin bir deputatı qanunsuz həbs olunmuşdu, biz onda burada məsələ qaldırdıq ki, qanunu pozmaq olmaz, mən həm onda, həm də indi qanunun pozulmasının əleyhinə olmuşam. Tamerlan bəy, mən istəmirəm, Heydər bəyin dediyi sözləri təkrar eləyim, Siz də onda İsa bəyin yanında oturmuşdunuz, yadınızdadırmı – düzdür, onu televiziyada göstərmədilər – o deputatın həbsi haqqında məsələni birinci dəfə səsə qoydular, keçmədi, İsa Qəmbər Sizin yanınızda dedi ki, siz razılıq versəniz də, verməsəniz də biz həmin deputatı həbsdə saxlayacağıq.

Bilirsiniz, istəmirəm ki, xırdaçılığa gedək, gəlin, xahiş edirəm, bir-birimizə, necə deyərlər – özü də yaxşı deyil, yıxılan adama balta vurmaq – maneçilik törətməyək. Mənim xəbərim var, respublika rəhbərliyi bu işlə məşğuldur, əgər lazım olsa, Baş prokuror bu haqda məlumat verə bilər. Gəlin bir-birimizə maneçilik törətməyək, respublikada vəziyyət gərgindir. Sağ olun.

**Sədrlik edən.** Yaxşı, qurtardıq. Bəsdir.

**Tamerlan Qarayev.** Mən üzr istəyirəm, Heydər bəy, bir dəqiqə, Tahir bəy yaxşı yadıma saldı, söhbət Bəxtiyar Əliyevdən gedir. Bəli, burada Bəxtiyar Əliyevin məsələsi qeyri-qanuni qoyulanda mən izahat da verdim ki, onun həbsi qeyri-qanunidir, o, amnistiyaya düşüb və dərhal həbsxanadan azad olunmalıdır. Ancaq burada mənim sözüm keçmədi, üstündən bir-iki gün keçəndən sonra məcbur oldular, onu azad etdilər. Tahir bəy, söz deyəndə bütövlükdə deyin, yadınıza onu da salım ki, məhz Tamerlan Qarayev burada bu barədə məsələ qaldırmışdı.

**Sədrlik edən.** Yaxşı, bitdi, vaxtımızı itirməyək, onsuz da, vaxtımız çox azdır. Məsələlərin müzakirəsinə keçək.

Birinci, Milli Məclisin say tərkibinin artırılması. Mən qeyd etdim, belə bir təklif var – bu, əvvəl də olubdur – 75 nəfərdən ibarət olsun. Milli Məclis üzvlərindən kimin bu barədə sözü var, buyurun.

**Afiyəddin Cəlilov, *Ali Sovet sədrinin müavini.*** Hörmətli millət vəkilləri, gündəliyin birinci məsələsi ilə əlaqədar olaraq qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq, Milli Məclisin say tərkibi 50 nəfərdən ibarət müəyyən olunmuşdur. Ona görə də məsələnin müzakirəsinə keçməzdən əvvəl biz bu qanunun ikinci bəndində dəyişiklik edib 50 nəfər yerinə 75 nəfərdən ibarət tərkibin təşkil edilməsini səsə qoymalıyıq.

**Sədrlik edən.** Səsə qoyuram, kim bu təklifin tərəfdarıdır ki, qanunda dəyişiklik edilsin, Milli Məclisin tərkibi 75 nəfərdən ibarət olsun, xahiş edirəm, münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

Qəbul olundu.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Edilmədi, kimin etirazı var? Onda etirazı olanlar buyursunlar. Tofiq Qasımov buyursun.

**Tofiq Qasımov.** Deməli, Milli Məclisin üzvlərinin say tərkibi müəyyən olunanda, daha doğrusu, Milli Şura məsələsi olan vaxt belə bir təklif olmuşdur ki, 72 nəfərdən ibarət olsun. Amma sonra Milli Məclisin say tərkibi 50 nəfərdən ibarət təsdiq olundu və bir müddət də bu Milli Məclis, mənə elə gəlir ki, kifayət qədər lazımi səviyyədə işləyirdi. Ona görə də mənə elə gəlir ki, bu səsvermədən əvvəl mütləq bunun 75 nəfərdən ibarət olmasını əsaslandırmaq lazımdır. Heç olmasa, o, müzakirə olunmalıdır ki, nəyə görə 75 nəfər olmalıdır. Niyə 100, niyə 60 olmalı deyil, məhz 75 olmalıdır və bu nə kimi üstünlüklər verəcək. Ona görə də mən əleyhinə səs vermişəm. Sağ olun.

**Sədrlik edən.** Bəli, buyurun. Buyurun, mikrofon verin.

**Gülabbas Qəhrəmanlı.** Mən deputat Tofiq Qasımova cavab vermək istəyirəm. Milli Məclis təşkil olunanda, əlbəttə, bütün Konstitusiyamız pozuldu, deputatların hüquqları başdan ayağa pozuldu. Şirvanda 11 rayon var, 11 rayondan Milli Məclisdə bir nəfər deputat yoxdur. Ona görə də, məsələn, elə bölgələr var ki, bütün Milli Məclisin beşdə birini təşkil eləyir, Şirvanın 11 rayonunda bir milyon əhali var, amma bir nəfər deputat onu təmsil eləmir. Məhz ona görə də Milli Məclisin say tərkibi dəyişdirilməlidir, çünki hər bir bölgənin, hər bir seçicinin haqqı, hüququ var ki, Milli Məclisdə müdafiə olunsun, amma bu gün o müdafiə olunmur.

Tofiq Qasımov, bunu bilməlisən. Ona görə də bu məsələni bir neçə dəfə biz qaldırmışıq ki, Şirvan deputatlarına bu cür ögey münasibət bəsləmək olmaz, bizim seçicilərimiz Tofiq Qasımovun, Tamerlan Qarayev, Sizin seçicilərinizdən əskik seçicilər deyillər.

**Sədrlik edən.** Mən Tofiq Qasımovun niyə 75, niyə 50 yox fikri barədə bir balaca məlumat verim.

Siz bu əllini qəbul eləyəndə nə fikirləşirdiniz, niyə 50 qəbul elədiniz? Siz mənə cavab verə bilərsiniz?

**Tofiq Qasımov.** Deməli, ona görə 50 qəbul eləmişdik ki, seçilmiş Ali Sovetin tərkibində 90 faiz hökumətin tərəfdarı olan deputatlar, 10 faiz demokratik blok deyilən blokun deputatları var idi. Ona görə də o vaxt üçün, deməli, Milli Məclisin tərkibində, necə deyərlər, plüralizmi, demokratiyanı bərqərar etmək üçün Milli Məclisdə razılaşıb seçilmişdir. Bu qaydada səs verilib, bu qaydada müəyyən olunmuşdur. Düzdür, əyridir, mexanizmi bu idi. İndi də ona oxşar mexanizm verin, mən etiraz eləmirəm. Sağ olun.

**Sədrlik edən.** O vaxt Siz 50 nəfər təklif eləmişdiniz, indi də təklif olunur, 75 nəfər olsun. Ancaq deyirsiniz, plüralizmi təmin etmək üçün... Plüralizm o demək deyil ki, süni surətdə qüvvələri bərabərləşdirmək lazımdır, Siz bu barədə səhvlərə yol verirsiniz. Odur ki, hərə öz sözünü deyə bilər. Fikir müxtəlifliyinə imkan verilir, amma plüralizm o deyil ki, zorla, süni surətdə qüvvələrin nisbətini bərabərləşdirəsiniz. Siz orada zor işlətdiniz, ancaq mən izah edirəm ki, nə üçün 75, mən bunu dedim, ancaq yenə də deyirəm, çünki Ali Sovetin komissiyalarının tərkibində üzvlərin sayı azdır, cəmi 3-4 nəfərdən ibarətdir, belə bir halda komissiyalar səmərəli işləyə bilmirlər.

İkinci, bəzən bizim Məclislərin iclaslarında yetərsay çatmır, 50 nəfərdən bir hissəsi xəstə olur, bir hissəsi ezamiyyətdə olur, bir hissəsi burada olur. Ona görə də yetərsay çatmır. Üçüncü də mən qeyd etdim ki, bəli, seçilmiş deputatların bir hissəsi işə cəlb olunmalıdır, bunlar xalq deputatları seçilibdir, hökumətin tərəfdarları, yaxud demokratik qüvvələr, bilirsiniz, bunlar artıq keçib getmişdir. İndi bütün deputatlar eyni səsə malik deputatlardır, onlar xalq tərəfindən seçilibdir, xalq seçibdir, mən buna şübhə etmirəm, o birisi deputatları da xalq seçibdir, hərənin öz seçicisi var, ona görə də Ali Məclisdə bunu bu cür əsaslandırmaq olmaz. Mən hesab edirəm ki, burada çox böyük...

Bəli, Arif bəy buyursun.

**Arif Əliyev, *52-ci dairədən deputat.*** Hörmətli millət vəkilləri, yadınızdadırsa, hələ vaxtilə Milli Məclis yaradılan zaman mən öz etiraz səsimi təkidlə bildirdim ki, 350 dairədən ibarət respublikanın 7 milyon əhalisini təmsil edə bilən 350 deputatı 50 deputatla təmsil etmək olmaz. Bu, səlahiyyətsiz, necə deyərlər, modernləşdirilmiş bir Milli Məclisdir, qanunverici orqandır. İndi Hüquq komissiyasına rəhbərlik eləyən bizim hörmətli keçmiş nazirimiz, Hüquq komissiyasının sədri, hüquq təhsili, hüquqşünas olmayan Tofiq Qasımov bildirir ki, nə üçün, hansı əsasla 50 deputat 75 olur. Bəs o vaxt necə olurdu ki, 350 dairəni, 7 milyonu təmsil eləyən 350 nəfər deputat 50 nəfər olurdu, məgər o vaxt modernləşdirilməmişdir? İndi bilirsiniz ki, deputatların əksəriyyəti hüquqşünaslardan ibarətdir, həmin hüquq işçilərinin hazırda çoxları işsizdir, nə kombloka, nə digər bloka, heç bir siyasi oyunlara qoşulmayan bir çox bizim hüquqşünaslarımız kənardadır. Onların hamısı yüksək ixtisaslı, respublikada tanınmış hüquq işçiləridir. Nə üçün Milli Məclisin üzvü kimi də olmasa, heç olmasa, bir deputat, bir hüquqşünas kimi Ali Sovetin işinə cəlb olunmurlar?

Ona görə də mən Milli Məclisin üzvü olmayan bir deputat kimi təklif eləyirəm ki, 50-dən ibarət olan Milli Məclis səlahiyyətsizdir, bu, respublika əhalisinin hamısını təmsil eləyə bilməz. Təklif olunan 75 say tərkibi Milli Məclisdən asılı olmayaraq komissiyaların tərkibini düzəltmək üçün qəbul olunmalıdır.

**Afiyəddin Cəlilov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, burada mən cavab qaytarmaq niyyəti ilə çıxış eləmək istəmirəm, amma Milli Məclisin işində bir neçə dəfə bu məsələ qaldırılıb, istər Milli Məclisin sabiq rəhbəri fəaliyyətdə olarkən, istərsə də Milli Məclisin gündəlik fəaliyyətində. Həqiqətən, Milli Məclisin komissiyalarının bir çoxu formal xarakter daşıyır, iclaslar keçirilmir, işin səmərəsi çox aşağıdır və mən güman edirəm ki, burada Ali Sovetin sədri Heydər Əliyev tərəfindən qaldırılmış say tərkibi hər bir millət vəkilinin ürəyindəndir. Mən dəvət edirəm ki, ambisiyaları kənara qoyub, işin səmərəli keçməsi üçün bu təklifə səs verəsiniz.

**Sədrlik edən.** Burada böyük siyahı yazılıbdır, bilmirəm, əleyhinə çıxan adamlardır, yoxsa.

Bəli, buyurun, Mirmahmud müəllim.

**Mirmahmud Fəttayev.** Çox sağ olun. Siz əvvəlcədən çox gözəl qeyd elədiniz ki, əleyhinə çıxan 9 nəfərə söz vermək lazımdır, onlar öz münasibətlərini bildirsinlər. Sizin gətirdiyiniz arqumentlərin biri ilə mən razıyam ki, komissiyaların tərkibi, deyək, bəzi komissiyaların, o cümlədən bizim komissiyanın tərkibi üç nəfərdən ibarətdir, amma digər arqumentlərin heç biri ilə razılaşmaq olmaz. Ona görə də razılaşmaq olmaz ki, birinci səbəb budur, bugünkü gündəliyimizdə büdcədən maliyyələşdirilən dövlət orqanlarının əmək haqlarının artırılması məsələsi qoyulur, şükür Allaha, bu gün də büdcədə heç nə yoxdur, bu tərəfdən də Milli Məclisin üzvləri...

**Yerdən.** *(Eşidilmir.)*

**Mirmahmud Fəttayev.** Sən yerlisən, artıq-əskik danışma. Mən Sizdən çox xahiş eləyirəm, mən Sizin alicənablığınıza dözürəm, yaşınıza görə dözürəm, xahiş edirəm ki, zalda sakitliyi bərpa eləyin. Onlar Sizə qurban olsunlar.

**Sədrlik edən.** Sakit olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Mirmahmud Fəttayev.** Mədəniyyətsiz Siz özünüzsünüz, göstərdiniz mədəniyyətinizi.

**Sədrlik edən.** Sakit olun, rica edirəm, sakit olun.

**Mirmahmud Fəttayev.** O kişinin boşqabının dibini yalayırsınız, bəsdirin də, heç olmasa, ona hörmət qoyun. Bəsdir, boşqab dibi yaladığınız.

**Sədrlik edən.** Sakit olun, sakit olun. Siz davam eləyin.

**Mirmahmud Fəttayev.** İkincisi, deyirsiniz ki, zorla qüvvələr nisbəti bərabərləşdirilir, ola bilsin ki, Sizin nəzərinizdə elədir. Bu gündəlikdə daha bir məsələ var, Talış-Muğan Muxtar Respublikasına münasibət bildirəcəyik və mən inanıram ki, bu gün həmin respublikanı biz darmadağın edəcəyik. Vəzifə gözləyən deputatlara orada vəzifə tapmaq olar, haradadır o hüquqşünaslar, deyirlər ki, biz vəzifəsiz qalmışıq, yaxud bu gün Sizin nüfuzunuzdan, Sizə olan yalançı hörmətdən sui-istifadə eləyib, söz alıb danışırlar, deyirlər, belədir. Siz axı özünüz gözəl bilirsiniz ki, respublikada vəziyyət necədir və həmin adamları bura gətirməklə Milli Məclis nə udacaq, nə qazanacaq?

Mən ona görə əleyhinə səs vermişəm ki, gündəliyə məsələ salınanda onun əleyhinə səs verən 8 nəfərdən biri idim, təbii olaraq da həmin məsələnin, Milli Məclisin tərkibinin 75 nəfərdən ibarət olmasının ona görə də əleyhinə səs verdim. Əleyhinə səs verməyimi də bununla əsaslandırıram. Sağ olun.

**Sədrlik edən.** Bilirsiniz, hərə öz fikrini istədiyi kimi bildirsin. Bəli, elə plüralizm bundan ibarətdir, ancaq mən istərdim ki, Məclis üzvləri bugünkü gündə bizim ümumi məsuliyyətimiz haqqında düşünsün. Milli Məclis mənə etimad göstəribsə, məni Ali Sovetə sədr seçibsə və belə bir ağır vəziyyətdə biz işləməliyiksə, xahiş edirəm, mənim təkliflərimi qəbul edəsiniz və mənə kömək edəsiniz. Belə olan halda bir çox qrup məsələ qoydu ki, ümumiyyətlə, Ali Soveti çağırmaq lazımdır, onda nə deyəcəksiniz? Mən əvvəllər olduğu kimi, onları tüfənglə, topla hədələməliyəm, Ali Soveti çağıran adamları prokurorluğa verməliyəm? Mən bunu eləyə bilmərəm, mən konstruktiv yol axtarıram, amma nədənsə bəzi şəxslər bu məsələlərə birtərəfli yanaşırlar.

Ona görə mən müraciət edirəm, xahiş edirəm ki, bu məsələ uzanmasın. Mən bu təklifi Ali Sovetin sədri kimi Məclisin say tərkibinin artırılması, əlavə adamların cəlb olunması və Məclis üzvlərinin daha fəal işləməsi üçün irəli sürürəm. Bilirsiniz, burada çox adam yazılıb, mən başa düşürəm. Mirmahmud müəllim, bir mövqedən çıxış eləyirsiniz, ya başqa mövqedən çıxış eləyəcəksiniz, amma mən istəyirəm ki, burada ümumi bir anlaşma olsun.

Etibar bəy, buyurun.

**Etibar Məmmədov.** Deməli, burada mən bir məsələni aydınlaşdırmaq istəyirəm. Milli Şura haqqında, sonra da Milli Məclis haqqında Ali Sovetin qəbul elədiyi qanun var, Konstitusiya qanunudur. Orada göstərilib ki, Milli Məclis birinci dəfə qəbul olunanda 50 nəfərdən ibarət olub və onun tərkibini Ali Sovet seçib, yəni 50 nəfər tərkib Ali Sovetdə seçilib və tərkibdə dəyişiklik, yəni 50 nəfərin içərisində rotasiya Milli Məclis tərəfindən həyata keçirilə bilər. İndi bu içəridə dəyişiklik edilməsi 25 nəfərin artırılmasıdır. Məni belə bir sual ona görə maraqlandırır ki, həmin 25 nəfəri seçmək üçün bu Məclisin qanuni əsasla hüququ var, yoxsa yox. Hüquqşünaslar buna cavab verə bilərlər.

**Sədrlik edən.** Etibar bəy, hüquqşünasların əvəzinə mən Sizə cavab verə bilərəm, əgər bu Məclis indiyə qədər bütün qanunları qəbul eləyibsə, hər bir qanunu qəbul eləməyə haqqı var. Bəli, bütün səlahiyyət Milli Məclisə verilibdir. Milli Məclis bütün qanunları qəbul eləyə bilər. Mən Məclis üzvlərinə müraciət edirəm, hesab edirəm ki, indiki dövrdə bu zəruri təklifdir, bu təklifin qəbul olunması lazımdır. Əksinə çıxış eləyənlərdən biri Mirmahmud müəllim aydınlaşdırdı, bir də Tofiq Qasımov, əgər başqaları öz fikirlərindən çəkinirlərsə, yaxud bizim bu dediyimiz izahatlarla razılaşırlarsa, bəlkə, bir daha səsə qoyaq, necə baxırsınız?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mən bir daha səsə qoyuram. Xahiş eləyirəm...

**Yerdən.** (Eşidilmir.)

**Sədrlik edən.** Bəli, bir daha səsə qoyuram. Burada sizdən əvvəl yazılanlar var, Siz doqquzuncusunuz. Onda gərək mən hamıya söz verim, Mürvət Əliyev, Cəlilov, Nadirov, Qəniyev, İsmayılov, Əzizov, Qazıyev, sonra Rəhimzadə. Gərək hamıya söz verim də.

Mən bu məsələni bir də səsə qoyuram, Məclis üzvlərinə müraciət edirəm, xahiş eləyirəm, münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

31 nəfər. 44 nəfər iştirak eləyir, bəlkə, səs verməyən, yaxud kartı olmayan olubdur? Burada bir nəfər səs verməyib. Mən xahiş edirəm, Məclis üzvləri bir də qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

43 nəfər, yetərsay var.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Gətirin. Bilirsiniz, mən Məclisə müraciət eləyirəm, bu məsələ həll olunmasa, mən Məclisin iclasını bağlayacam. Əgər konstruktiv əməkdaşlıq etmək istəyirsinizsə, gəlin əməkdaşlıq edək, yox, Məclisin işini pozmaq istəyirsiniz, onda özünüz bilərsiniz. Onda qoyun respublika da dağılsın, onsuz da dağıdırlar, millət də dağılsın, ayrı-ayrı adamlar məqsədlərinə nail olmaq üçün onsuz da dağıdırlar, hər şey dağılsın, onsuz da dağılır. Bəli, belə halda mən Milli Məclisi buraxıb sessiyanı çağıracağam.

**Yerdən.** *(Kimsə qışqırır.)*

**Sədrlik edən.** Mən Məclis üzvlərinə bir də müraciət edirəm.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, yox, sən mənə de görüm, bunlar kimdirlər, bilirsiniz nə var, mənə belə məlumat verdilər, Qasımov Tofiq, Hüseynağa Qəniyev, Zeynalov, Mütəllimov, Fətəliyev, Əzizov, Mürvət Əliyev, Arif Hacıyev və Hacıkərimov. Bu kompüter göstərir ki, 9 nəfər adam düyməni basmayıb, nə o tərəfə, nə bu tərəfə, kompüterdən gələn məlumat belədir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, buyurun. İki dəfə keçdik qeydiyyatdan, daha nə qədər keçəcəyik? Yaxşı, belə halda bir də qeydiyyatdan keçək.

***(Qeydiyyat)***

46 nəfər iştirak eləyir, amma burada kompüter göstərib ki, bu 9 nəfər düyməni basmayıb, belə iştirak etmək olmaz ki.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, adbaad səs nə cür ola bilər, lazımdır adbaad. Mən Məclis üzvlərinə bir də müraciət edirəm, respublika ağır vəziyyətdədir, hər kəs öz məsuliyyətini hiss etməlidir, ona görə də rica edirəm ki, bu təklifə bir də baxasınız. Ona görə də mən 15 dəqiqəlik tənəffüs elan edirəm.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Tənəffüsdən sonra bir də qeydiyyatdan keçmək lazımdırmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, xahiş eləyirəm, qeydiyyatdan keçək.

***(Qeydiyyat)***

36 nəfər. Görürsünüz, Məclis üzvləri hansılar ki, bu məsələnin müzakirəsinə və qəbul olunmasına mane olurlar, səs verməyiblər. İndi zalda 36 nəfər Məclis üzvü var. Əgər siz bu Məclisin işləməsinin tərəfdarısınızsa, gərək belə şeylərə yol verməyəsiniz. Biz 15 dəqiqəlik tənəffüs elan eləmişdik, ancaq bizim Məclis üzvlərinin bəziləri bu məsələni düzgün qəbul etmədiklərinə görə mən hesab edirəm ki, bu məsələni biz sonra müzakirə edərik, məsələ gündəlikdə var, müzakirə olunacaqdır.

Mən ikinci məsələnin müzakirəsinə keçirəm. İkinci məsələ, bir də elan edirəm, Azərbaycan Respublikasının Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət haqqında. Bu barədə təklif var ki, biz Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, Baş prokurorun məlumatlarını dinləyək. Bu məsələnin müzakirəsinə Milli Məclisin üzvü olmayan, bu rayonlardan olan Azərbaycan Respublikasının xalq deputatlarının hamısı dəvət olunub. Bu məsələnin müzakirəsinə bu rayonların ağsaqqalları, hörmətli adamları, ziyalıları, o cümlədən kökləri bu rayonlardan olan, Bakı şəhərində yaşayan və yüksək vəzifələr tutan şəxslər dəvət olunublar. Ona görə də bu məsələ, bax bu tərkibdə müzakirə olunacaqdır.

Bu məsələni müzakirə etmək üçün orada yaranmış vəziyyətin əsas günahkarı olan Əlikram Hümbətov Məclisə dəvət olunub, ancaq mənə məlumat veriblər ki, o bu məlumatı ya qəbul etməyib, ya da nədənsə gəlməyib. Ona görə də, xahiş edirəm ki, bunu biz təklif olunan şəkildə müzakirə edək. Söz verilir müdafiə naziri vəzifəsini icra eləyən Baş Qərargah rəisi Səfər Əbiyevə. Buyurun.

**Səfər Əbiyev,** ***Azərbaycan Respublikasının müdafiə naziri vəzifəsini icra edən, Baş Qərargah rəisi.*** *(Rus dilində danışır. Çıxış tərcümə olunaraq verilib.)* Səfər Əbiyev. Hörmətli deputatlar, bildiyiniz kimi, Lənkəran rayonunda və digər rayonlarda müəyyən vaxta qədər Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissə var. Bu hərbi hissə müdafiə nazirinin 16 noyabr 1992-ci il tarixli fərmanı ilə yaradılmışdır. Həmçinin müdafiə nazirinin 25 aprel tarixli 088 saylı əmri ilə döyüş bölgəsinə göndərilməsi nəzərdə tutulan bu briqadanın bölmələrindən birinin əsasında taborlar və motoatıcı, tank və digər birləşmələr yaradılıb. Müəyyən dairələrin bu sahədəki fəaliyyəti nəticəsində onlar döyüş bölgəsinə göndərilməmiş və özbaşına bu ərazilərdə saxlanılmışlar. Hümbətov müdafiə nazirinin gənclərin hərbi xidmətə çağırılması ilə bağlı əmrinə məhəl qoymayaraq, respublikanın cənub rayonlarından hərbi xidmətə

çağırılan kontingenti bu rayonlardan buraxılmayıb, onun özünün adlandırdığı kimi, onları öz hərbi hissəsinə cəlb edib. Əraziyə gedən yollarda hələ də dayanan silahlı postlar qurulub.

Bildiyiniz kimi, bəlkə də, bilmirsiniz, amma bütün deputatlara bildirirəm ki, Hümbətov Əlikram Ələkbər oğlu Azərbaycan Silahlı Qüvvələrinin zabit heyətinin siyahısında yoxdur. Hümbətovun və digər şəxslərin rəhbərlik etdiyi silahlı birləşmələrin qanunsuz hərəkətləri nəticəsində onun keçmiş komandiri polkovnik Nəsirov hərbi hissədən qanunsuz olaraq xaric edilib. Amma mövcud vəziyyətə əsaslanaraq, biz yeni komandir polkovnik İsrafilovu təyin etmək qərarına gəldik. Həmin gün, ayın 11-də nazirin fərmanı ilə o, hərbi hissəyə təyin edilərək göndərilsə də, iyunun 13-də Hümbətov şəxsən onu silahlı dəstə ilə rayondan göndərərək bu posta öz namizədinin olduğunu bildirib. Hərbi hissənin ştat cədvəli müəyyən şəxslərin ixtiyarına verilib, yəni onlar Hümbətovla razılaşdıraraq bu hissədə kimin xidmət etməli, kimin xidmət etməməli olduğunu müəyyən edirlər. Ola bilər ki, bilmirsiniz, amma bu hissəyə bir sıra zabitlər, gizirlər təyin edilib, praktiki olaraq bölmə tam komplektləşdirilib, lakin qanunsuz hərəkətlər nəticəsində zabitlərin çoxu oradan qovulub. Əsgərlərin çoxu bu zorakılığa dözməyərək bölmələrini icazəsiz tərk etdilər, qalan hissə isə, sözün əsl mənasında, pərən-pərən oldu. Zabit, gizir və əsgərlərin izahatlarına görə, onların qovulmasına səbəb qondarma Talış-Muğan Respublikasının silahlı qüvvələrinin tərəfinə keçməkdən imtina etmələri olub. Həmçinin əməliyyat zamanı məlum olub ki, Hümbətov döyüş bölgəsinə bir nəfər də olsun əsgər göndərməyəcəyini, bu hərbi hissənin Müdafiə Nazirliyinə tabe olmadığını və tabe olmayacağını bəyan edir. Yəqin ki, siz də yaxşı bilirsiniz, bütün bunlar silahlı qüvvələrin yaradılmasında böyük nöqsanların baş verməsinə səbəb olub. İcra başçılarının, siyasi partiyaların, klanların rəhbərliyi altında olmuş batalyonlar hərbi bölmələrin tərkibinə daxil ediləndə hələ də onların bəziləri, əslində, komandanlığa tabeçilik göstərmirlər. Bu qüvvələr gizli şəkildə idarə olunur. Müdafiə nazirinin rəhbərliyi ilə hazırlanan plan nəticəsində bu qüvvələr ya cəbhədəki qüvvələrlə birləşdirilməli və ya onların bir hissəsi ilə əvəz olunmalı idi. Amma qeyri-qanuni hərəkətlər, hətta mən deyərdim ki, cinayətlər nəticəsində, sizə açıq deyim ki, 2000-dən çox insan olan bu qrup əməlli-başlı parçalanıb və bunun nəticəsində cəbhədə gərgin bir vəziyyət yaranıb. İndi cəbhədə qeyri-müəyyən situasiya ətrafında hansısa siyasi mübarizə aparan bu qüvvələr, bildiyiniz kimi, cəbhədəki müəyyən birliklərə rəhbərlik

etməklə Ağdam cəbhəsi və hazırda Füzuli istiqamətində vəziyyət son dərəcə gərgindir. Mən sizə açıq deyim ki, indi biz bunu araşdırırıq, cəbhə komandirinin müavini orada müəyyən şəxslər tərəfindən döyülüb, başı yarılıb və onu təcili xəstəxanaya göndərmək məcburiyyətində qaldıq. Bu gün biz onu belə bir vəziyyətdə bu zonaya göndərməyə məcbur olduq. Dediklərim bir daha təsdiq edir ki, Hümbətovun rəhbərlik etdiyi müəyyən alayların hərəkətləri qanunsuzdur və bütün qanunlara ziddir. Hesab edirəm ki, respublikamız vahid və bölünməzdir. Burada heç bir bölünmə və ya silahlı birləşmə ola bilməz və olmamalıdır.

**Sədrlik edən.** Siz bitirdiniz? Sizə mən sual verirəm, Əlikram Hümbətov böyük bir hərbi hissəni əlinə keçirib. Bu nə cür olub və o hansı səlahiyyətlərdən istifadə edib, həm hərbi texnikanı, həm silahları, həm şəxsi heyəti nə cür əlinə keçirib? Buna Siz izahat vermədiniz.

**Səfər Əbiyev.** Mən bu suala cavab verirəm. Vaxtilə Hümbətov Lənkəran zonasında batalyon komandiri idi, bunu bilirsiniz.

**Sədrlik edən.** Nə vaxt? Hansı müddətdə?

**Səfər Əbiyev.** Bu, 16 oktyabr 1992-ci ilə qədər olub. Lakin silahlı qüvvələrin yaradılması istiqamətində düzgün olmayan hərəkətlər və ya hərəkətlərin düzgün aparılmaması nəticəsində artıq bu bölmənin bazasında 704-cü hərbi hissə yaradılıb. Onun tərkibinə bu taborda olanların hamısı daxil edilib, indi isə demək olar ki, qanunsuz işlərin hamısı bu şəxslər vasitəsilə aparılır.

**Sədrlik edən.** Yaxşı, siz dediniz, batalyon komandiri təyin edilib.

**Səfər Əbiyev.** Bəli, olub.

**Sədrlik edən.** Olub. Nə vaxta qədər, o, bütün bu hərbi hissəyə, bütün bu silahlı qüvvələrə necə sahib olub, bunu izah edə bilərsiniz, ya yox?

**Səfər Əbiyev.** Demək, o, hərbi hissəyə necə sahiblənib, Sizə izah edəcəyəm. Bir səbəb...

**Sədrlik edən.** Bunlar Müdafiə Nazirliyinin qoşunlarıdır, bu, Müdafiə Nazirliyinin texnikasıdır, Müdafiə Nazirliyinin silahlarıdır. Necə oldu ki, başqasının əlinə keçdilər?

**Səfər Əbiyev.** Bəli, bunlar Müdafiə Nazirliyinin qoşunlarıdır və bütün texnika, silahlar Müdafiə Nazirliyinindir. Eyni zamanda bundan başqa, buna dediklərim səbəb oldu.

İkincisi, silahlı birləşmələrin bir hissəsi özbaşına cəbhədən qovularaq hərbi hissələrin ərazisinə gəldi. Faktiki olaraq yararsız zabitləri qovdular,

amma bildiyiniz kimi, əksəriyyəti bir vaxtlar onun tabeliyində olan adamlar idi, amma orduda bir müddət xidmət edən, demək olar ki, ay yarım, bir ay xidmət etmiş gənc əsgərlər var idi və onlar buna qarşı çıxa bilmədilər. Onların zabitləri Hümbətovun istədiyi kimi komanda verə bilmədilər.

**Sədrlik edən.** Bilirsiniz, yenə cavabınız məni qane etmədi. Deyə bilərsinizmi, Hümbətov necə və nə vaxt hərbi hissələri ələ keçirib? Onları özü ələ keçirib, yoxsa kimsə ona təhvil verib? Niyə bu suala cavab verə bilmirsiniz? Bilirsinizsə, cavab verin ki, hər şey aydın olsun.

**Səfər Əbiyev.** Əmrlə onu heç kim bu vəzifəyə təyin etməyib, o, vaxtilə onunla, daha doğrusu, onun klanında xidmət etmiş şəxslərin qüvvələri ilə onu özbaşına ələ keçirib.

**Sədrlik edən.** Bu nə vaxt baş verib?

**Səfər Əbiyev.** Bu, ayın 4-dəki hadisədən sonra baş verdi, həmin vaxt onlar texnikanın və adamların bir hissəsini cəbhədən bu rayona geri çəkdilər və dərhal postlar qurdular. Postlar qurduqdan sonra heç kimi buraxmadılar və sevmədikləri adamların hamısını hərbi hissələrdən göndərməyə başladılar.

**Sədrlik edən.** Bəs bundan əvvəl Hümbətov kim idi?

**Səfər Əbiyev.** O, tabor komandiri, sonra Müdafiə Nazirliyində döyüş hazırlığı idarəsinin rəisi olub.

**Sədrlik edən.** Yaxşı, bəs sonra?

**Səfər Əbiyev.** Sonra Azərbaycan Silahlı Qüvvələri sıralarından xaric edilib.

**Sədrlik edən.** Nə ilə əlaqədar?

**Səfər Əbiyev.** İxtisaslı şəxslər lazım olduğu kimi uyğunlaşmağa və xidmət etməyə başladıqlarına görə, ixtisaslı olmayan insanlar işdən çıxarıldı.

**Sədrlik edən.** Onu işdən çıxardılar.

**Səfər Əbiyev.** Tamamilə doğrudur.

**Sədrlik edən.** Bəs sonra?

**Səfər Əbiyev.** Sonra o, silahlı qüvvələrdə deyildi.

**Sədrlik edən.** Yaxşı, bir nəfər bütün bu silahlı birləşmələri necə idarə edə bilərdi?

**Səfər Əbiyev.** O, tək deyil. Onların bütöv bir qrupu var idi. Bu qrup bir gündə yaradılmayıb və onlar məsul şəxsə xidmət edirlər. Hansısa siyasi dairələr onlarla oynayırlar, bu onlara yaxşı məlumdur.

**Sədrlik edən.** Siz qurtardınız. Polkovnik Əbiyevə kimin sualı var? Bəli, Surət, buyurun. Surət Hüseynova mikrofon verin.

**Surət Hüseynov, *Azərbaycan Respublikasının Baş naziri.*** Demək, yoldaş Əbiyev, Siz deyirsiniz ki, qeyri-qanuni hərbi hissədir, onu deyə bilərsinizmi, hazırda Lənkəran briqadasının neçə taboru döyüş bölgələrində vuruşur? İndi burada belə bir məsələni müzakirə eləmək və Sizin onları qeyri-qanuni saymağınız...

**Yerdən.** *(Eşidilmir.)*

**Surət Hüseynov.** Bir dəqiqə, bir dəqiqə, mənə belə gəlir ki, o Füzuli, Ağcabədi istiqamətində hazırda onların iki taboru, hərbi texnikası, artilleriyası fəaliyyət göstərir, demək, döyüşürlər. Mənə belə gəlir, Siz deməlisiniz ki, onlar qeyri-qanuni deyil, bu onlara aid deyil, hazırda o taborlar orada döyüşürlər. İndi bunu efir vasitəsilə eşidib orada çıxıb eləyə bilərlər, ona görə mənə elə gəlir ki, Sizin danışıqlarınız o döyüşən taborlara şamil deyildir.

**Səfər Əbiyev.** *(Rus dilində cavab verir.)* Bu, Surət müəllimin də irad tutduğu kimi, döyüş bölgəsindəki batalyonlara qətiyyən aid deyil. Onlar öz vəzifələrini vicdanla həyata keçirirlər.

**Sədrlik edən.** *(Rusca danışır.)* Mən də Lənkəran bölgəsində yerləşən və Əlikram Hümbətovun birbaşa tabeliyində olan hərbi hissələr barədə sual verirəm. Əlbəttə, digər hərbi hissələrdən söhbət getmir.

Daha kimin nə sualı var? Kamran Rəhimov, sual vermək istəyirsiniz, buyurun.

**Kamran Rəhimov.** Birinci, bilmək istərdim ki, indi oradakı hissələr kim tərəfindən maliyyələşdirilir? Onun pulunu, vəsaitini kim verir, Müdafiə Nazirliyi verir, onlar bu pulu haradan alırlar?

**Səfər Əbiyev.** *(Rus dilində cavab verir.)* Müdafiə Nazirliyi onlara pul ayırmır, dayandırıb. Kimsə onları təmin edir.

**Sədrlik edən.** İnqilab Nadirov, buyurun, sualdır.

**İnqilab Nadirov.** Yoldaş Əbiyev, Sizin verdiyiniz məlumat və verilən suallara olan cavablar, əlbəttə, məni qane etmədi, çünki ətraflı cavab vermədiniz. Ona görə də mən bir şeyi bilmək istəyirəm ki, hazırda Əlikram Hümbətovun sərəncamında, yəni Lənkəran zonasında olan silahlı qüvvələrin tərkibi həm canlı qüvvə, həm də texnika etibarı ilə nədən ibarətdir?

**Səfər Əbiyev.** *(Rus dilində cavab verir.)* Onun canlı qüvvəsi və texnikası var, sayını bilmirəm.

**Sədrlik edən.** Arif Rəhimzadə.

**Arif Rəhimzadə.** *(Rus dilində sual verir.)* Siz daim deyirsiniz ki, burada maraqlı olan hansısa qüvvələr var. Bu qüvvələr kimlərdir? Siz axı hərbi nazirliksiniz, Sizin kəşfiyyatınız və əks-kəşfiyyatınız var. Onlar nə qədər zəif olsalar da, Sizin məlumatınız olmalıdır ki, bunlar kimlərdir. Konkret şəxslər, konkret qruplar, əgər bilirsinizsə, zəhmət olmasa, deyin.

**Səfər Əbiyev.** *(Rus dilində cavab verir.)* Bildiyiniz kimi, Müdafiə Nazirliyi siyasi məsələlərlə məşğul olmur. Düşünürəm ki, bu başqa orqanların səlahiyyətindədir. Onlar bunu öyrənib məlumat verərlər.

**Rəhim Qazıyev.** Əbiyev, mənim Sizə iki sualım var. Birinci sual odur ki, o dediyi komandiri döyüblər, harada döyüblər, yerini demədin.

**Səfər Əbiyev.** Füzulidə.

**Rəhim Qazıyev.** Füzulidə döyüblər, çox sağ olun, aydındır. Bu hadisələr başlayandan sonra Ağcabədi bölgəsində dayanan döyüşçüləri dəyişdirməyə Lənkərandan taborlar gedib, getməyib?

**Səfər Əbiyev.** Getməyib.

**Rəhim Qazıyev.** Düz demirsiniz, gedib.

**Səfər Əbiyev.** Düz deyirəm.

**Rəhim Qazıyev.** Aydındır.

**Sədrlik edən.** Yaxşı, Mirmahmud Fəttayev buyursun.

**Mirmahmud Fəttayev.** Cənab polkovnik, Siz dediniz ki, Əlikram Hümbətovun tabeliyində olan əsgərlər bir il, il yarım xidmət eləyiblər, buna görə də onlar bir az ehtiyat eləyirlər, qorxurlar. Siz Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Baş Qərargahının rəisisiniz, yəqin ki, neçə illərdir, xidmət eləyirsiniz, Siz özünüz qorxduğunuz məsələləri açıqcasına demədiyiniz halda, həmin əsgərləri niyə qınayırsınız, niyə burada açıq danışmırsınız, niyə suallara ətraflı cavab vermirsiniz? Yalandan deyirsiniz, Sizdə məlumat... Ola bilsin ki, indi deyəcəksiniz, nə bilim, filan əmrə görə, Əlikram Hümbətov Müdafiə Nazirliyinin siyahısında yoxdur. Əlikram Hümbətov bu gün də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin siyahısında hərbçi kimi var. Polkovnikdir, niyə burada bizim hamımızı, 7 milyonluq milləti aldadırsınız?

**Səfər Əbiyev.** *(Rus dilində cavab verir.)* O, Azərbaycan Silahlı Qüvvələrinin siyahısında yoxdur. Yəqin ki, mən Sizdən yaxşı bilirəm.

**Sədrlik edən.** Yəqin ki, bunu Müdafiə Nazirliyinin Baş Qərargahının rəisi daha çox bilir, nəinki Mirmahmud Fəttayev.

Hacıkərimov buyursun.

**Şirin Hacıkərimov.** Yoldaş nazir müavini, indi bu saat deyə bilmərəm, Siz nazirsiniz, yoxsa müavin, ya Baş Qərargah rəisi, amma bir hərbçi, məsul bir şəxs kimi istəyirəm, birinci növbədə, Sizin dilinizdən və burada oturan yoldaşların hamısının dilindən çıxsın ki, 741 nömrəli, 742 nömrəli Lənkəran taborları 849 nömrəli o taborla bir yerdə gözəl insani sifətdə Azərbaycanın müdafiəsində iştirak edib və edirlər. Şəxsən Sizin və mənim öz adımdan onlara mən öz minnətdarlığımı bildirirəm, onlar eşitsələr də, qoy orada kapitan Qurbanov onların hamısına başa salsın ki, onların bu deyilən, burada həll olunan məsələlərə heç bir dəxli yoxdur. Onların anasının südü onlara halal olsun.

Amma ikinci bir məsələ, Siz onlarla olubsunuzmu və onların vəziyyətindən xəbəriniz varmı? Necə məsləhət bilirsiniz, o taborların fədakarcasına vuruşduqlarına baxmayaraq, şəraitləri necədir? Bu gün Hümbətov düşünürmü ki, elə qəhrəman oğlanlar orada Vətəninin müdafiəsi ilə məşğuldur, amma biz burada əsas bir məsələ kimi onun müzakirəsini aparırıq.

**Sədrlik edən.** Bilirsiniz, mən bu barədə müdaxilə eləmək istəyirəm, xahiş edirəm, məsələdən, əsas mövzudan kənara çıxmayasınız. Söhbət Lənkəran və onun ətrafındakı rayonların vəziyyətindən gedir, Əlikram Hümbətov orada qeyri-qanuni işlər görür, silahlı qüvvələri əlinə keçirib, heç kəsə tabe olmur. Bunun cəbhədə olan taborlara nə dəxli var, nə üçün bu məsələyə düzgün baxmaq istəmirsiniz? Səfər Əbiyevin burada nə günahı var, Səfər Əbiyevin o günahı var ki, Baş Qərargahın rəisi kimi indiyə qədər buna yol veribdir. Burada oturanların hamısının günahı var. Mən Sizin sualınızı başa düşmürəm və hesab edirəm ki, Əbiyev heç ona cavab da verməli deyil.

Əyləşin. Bilirsiniz, respublika dağılır, respublikanın Müdafiə Nazirliyini dağıdıblar, parçalayıblar, yeddi rayonda camaatı qanunsuz olaraq əzirlər, həbs edirlər, guya bir respublika yaradırlar, bu məsələ artıq açılıbdır, bütün ictimaiyyətə çatdırılıb, bunu biz Məclisə çıxarmışıq ki, Məclis öz münasibətini bildirsin. Bunun əvəzində burada anlaşılmaz suallar verilir. Məgər o taborlar Əlikram Hümbətovun şəxsi taborlarıdır, onlar Müdafiə Nazirliyinin taborlarıdırlar, bir hissəsi orada olar, bir hissəsi burada olar, ancaq bu dəqiqə söhbət Lənkəran və onun ətrafında olan rayonlardan, orada baş vermiş vəziyyətdən gedir.

Vaqif Novruzova söz verilir.

**Vaqif Novruzov,** ***Azərbaycan Respublikasının daxili işlər naziri.*** Hörmətli sədr, hörmətli millət vəkilləri. Müzakirə olunan məsələlər xüsusi əhəmiyyət kəsb edir. Respublikadakı vəziyyəti ağırlaşdıran başlıca amil – bayaq bu məsələnin qoyuluşunda Tamerlan bəy dedi ki, məsələni ikinci hal kimi keçirək, ancaq biz hesab edirik ki, başlıca amil Lənkəran zonasında olan bu haldır – Lənkəran zonasında Hümbətovun qanunsuz rəhbərlik etdiyi hərbi hissələr bütün respublikada əməliyyat şəraitinə təsir edir, onu ağırlaşdırır, özbaşınalığa, azğınlıqlara gətirib çıxarır, açıq-açığına respublikanın ərazisinin parçalanması və bölüşdürülməsi üçün cəhd göstərilir, qanunçuluq kobudcasına pozulur, əhali, sözün əsl mənasında, terrora məruz qalır, qısa müddətdə meydana çıxmış yalançı liderin təyin etdiyi rəhbərlər qanuni hakimiyyət orqanlarını devirir, hüquq-mühafizə orqanlarının nümayəndələrinə qarşı zorakılıq göstərir. Hadisələr hələ iyunun əvvəlindən sürətlə cərəyan etməyə, qanunsuzluqların miqyası genişlənməyə başlamışdır. Bayaq Əbiyev yoldaşa sual veriləndə o dedi ki, xahiş eləyirəm, bu sualı Rəhim Qazıyevə verin, çünki o silahlı qüvvələrin qanunsuz ələ keçirilməsi Rəhim Qazıyevin müdafiə naziri olduğu vaxta düşür, ona görə də bu suala Rəhim Qazıyev cavab versəydi yaxşı olardı.

İyunun 11-də Lənkəran rayon polis şöbəsinin iki əməkdaşı iyunun 1-də Masallı Rayon İcra Hakimiyyətinin başçısı tərəfindən güc işlədilməklə girov götürülmüşlər. Özbaşınalıqlar əhalinin narazılığını bildirməsi ilə əlaqədar... İyunun 8-də Masallıda 3 nəfərə, iyulun 14-də Biləsuvarda 2 nəfərə odlu silahla xəsarət yetirilmişdir. Avqustun 6-da Cəlilabad rayon polisləri, Masallı rayon prokurorunun müavini, avqustun 10-da isə Astara rayon polis şöbəsinin rəisi və bir nəfər əməkdaşı təcrid olunaraq Lənkərana aparılmış, avqustun 13-də ərzaq və təsərrüfat idarəsinin müdiri girov götürülmüş, İstisu deyilən meşəlikdə müəyyən bir müddət zor işlədilməklə saxlanılmış, burada ziyalılarla görüşqabağı, saat 7-də onlar buraxılmışlar. Onlar girov götürülərkən də, götürüləndən sonra da həm mənəvi, həm də fiziki təzyiqlərə məruz qalmışdılar.

Zona ziyalılarının Ali Sovetdə respublika rəhbərliyi ilə görüşündən sonra avqustun 15-də Hümbətov yerli televiziya proqramında çıxış etmiş, görüşdə iştirak etmiş həmin şəxsləri, deputatları və respublika rəhbərliyini hədələmişdir. Hümbətovun cəzasızlığı yeni-yeni azğın cinayətkar aksiyalar doğurur, nə onun özü və hərəkətləri, nə də qanunsuz elan olunmuş respublika və yaradılmış hökumət əhalinin heç bir təbə-

qəsi tərəfindən rəğbətlə qarşılanmamış və dəstəklənmir. Zonanın əksər sakinləri belə özbaşınalıqlara dərhal son qoyulmasını tələb edirlər.

Hümbətovun kimliyi hamımıza məlumdur, o, gündə bir hərəkata qoşulan, siyasi baxışlarını tez-tez dəyişən, kənardan idarə olunan, əqidəsi olmayan bir şəxsdir. Hələ 1990-cı il hadisələrində bir qrup adamla Xanbulançay meşələrinə çəkilib qaçaqlıq etmiş, nəticədə onun günahı üzündən bir neçə adam öldürülmüşdür. Əvvəllər Lənkəranda avtonəqliyyat müəssisəsində partiya komitəsinin katibi, sonra AXC-nin üzvü, ondan sonra Sosial-Demokrat Partiyasının üzvü olub, indi də "Azərbaycan xalqının bərabərliyi" adlandırılan qurumda fəaliyyət göstərir. Köhnə məsləkdaşlarına müharibə elan edərək bu yaxınlarda Lənkəranda və Biləsuvarda AXC-nin üzvləri adı ilə 30-35 nəfəri həbs edərək işgəncə vermişdir. Onun təxribatçı hərəkətləri nəticəsində regionun təsərrüfat mexanizmi iflic hala salınmış, illərlə mövcud olan qarşılıqlı iqtisadi əlaqələr, infrastruktur pozulmuş, manatı nüfuzdan salmaq üçün – bu yaxınlarda özünüz şahid oldunuz – rus pulunun dəyişdirilməməsi haqqında qərar qəbul edilmişdir. Bu qərardan sonra İrandan xeyli rus pulunun Azərbaycana gətirilməsi və orada dəyişdirilməsi, əldə olan məlumatlara görə, Hümbətov və respublikadan kənarda olan müəyyən maraqlı dairələr və qüvvələr tərəfindən öz mənafeləri və məqsədləri üçün istifadə edilir.

Bundan başqa, daxil olan məlumatlardan görünür ki, ekstremist təşkilat "Hizbullah" partiyası ilə də əlaqə saxlayır. Onun ətrafında narkomanlar, cinayətkarlar, o cümlədən mafioz qrupların nümayəndələri vardır. Bunu mən özümdən demirəm, bunu Lənkərandan gəlmiş, Hümbətov tərəfindən tutulmuş həm Xalq Cəbhəsinin nümayəndələrinin nazirlikdə olarkən verdikləri izahlarından, həm də polis işçilərinin həbsdən buraxılandan sonra Daxili İşlər Nazirliyinə gələrək verdikləri məlumatlardan bilirəm və hamısını sizə çatdırıram.

Bir də burada bir sual ortaya çıxır, Əliyev yoldaş dedi, Lənkərandan olan özbaşınalıqda iştirak eləyən hərbçilər iki aydan artıqdır ki, məvacib almırlar. Bu zabitlər və əsgərlər əgər iki aydan çox məvacib almayıb, maliyyələşdirilə bilmirlərsə, aydın məsələdir ki, görünür, hansısa mafioz qruplar tərəfindən hesaba pul keçirilir. Yeri gəlmişkən, qeyd edim ki, nazir əvəzi bayaq bu suala cavab verdi, görünür, o, hesab elədi, burada oturan şəxslər – deputatlar, yəqin, bu məxfi məlumatları almayıblar, ancaq deyim ki, bu qanunsuz hərbi birləşmənin tərkibində 3000-ə yaxın əsgər və zabit, 80-ə yaxın texnika cəmləşmişdir. Mən bunu de-

məliyəm, ona görə ki burada oturan deputatlar bunu bilməlidirlər. Mən yenə də deyirəm ki, keçmiş müdafiə naziri bu suala cavab verməlidir, nə üçün, nəyə görə, bu qədər qüvvə həmin müharibə olmayan zonada saxlanılmış, sonradan başqa qanunsuz bir qrupun əlinə keçmişdir. Deyilənə görə, briqadanın 3 alayı hərbi zonalarda vuruşur, mən bunu deyə bilmərəm, ancaq 25 gün bundan qabaq bilirəm ki, onlar Ağcabədi istiqamətində yerləşdirilmişdilər. Hazırda onların Füzuli zonasında vuruşmasından, yəqin ki, müdafiə naziri məndən daha məlumatlıdır.

Zonada baş verən qanunsuz, Konstitusiyaya zidd hərəkətlərə, hadisələrə və onların nəticələrinə siyasi qiymət verilməlidir, mən istərdim ki, bu məsələyə bir az ciddi yanaşasınız. Yaranmış gərgin və böhranlı vəziyyətə görə vəzifəli şəxslərin, günahkarların məsuliyyəti müəyyən edilməlidir. Vəziyyətin normallaşması, sabitlik və qayda-qanunun bərpası üçün təxirəsalınmaz, qəti tədbirlər görülməsi haqqında siz qanunlar qəbul eləməlisiniz, qərarlar verməlisiniz. Hesab edirəm ki, milliyyətçi, separatçı xarakter daşıyan Azərbaycan Xalqlarının Bərabərliyi Partiyasının fəaliyyətinin dayandırılması məsələsini bu Məclisdə siz Ədliyyə Nazirliyindən tələb etməlisiniz, bu məsələ Milli Məclisin qərarına düşməlidir.

Bu çıxışdan sonra Siz, yəqin ki, Qazıyevə də söz verəcəksiniz, xahiş edərdim ki, Qazıyev Hümbətovla olan əlaqəsini aydınlaşdırsın. Bu əlaqə, doğrudan da, şəxsən mən bir daxili işlər naziri kimi deyirəm, məndə çox böyük şübhə doğurur və bu əlaqə hansı tərəfdən idarə olunursa, Qazıyev bunu bizə aydınlaşdırsın. Diqqətinizə görə... Qazıyev çıxış eləyəndə mən heç vaxt onun sözünü kəsməmişəm, xahiş edirəm, dəqiq məlumatdır, bunu nəzərə alasınız. Respublikanı dağıtmağa cəhd göstərirlər, buna da cavab versinlər. Mən bu qədər, sağ olun.

**Sədrlik edən.** Milli təhlükəsizlik naziri Nəriman İmranov.

**Nəriman İmranov,** ***Azərbaycan Respublikasının milli təhlükəsizlik naziri.*** Hörmətli sədr, hörmətli millət vəkilləri. Bu gün torpaqlarımızın 17 faizinin düşmən tapdağı altında qaldığı, respublikamızın yüzlərlə kənd və şəhərinin viran qoyulduğu bir zamanda ölkəmizdə 700 minə qədər qaçqın, köçkün, didərgin olduğu halda, yüzlərlə ana-bacımız girov və əsir qala-qala yeni münaqişə ocağının yarandığının şahidi olduq.

Milli Təhlükəsizlik Nazirliyi bu hadisələri izləyir və bu hadisələrin başlanmasını 1993-cü illə bağlamaq düzgün deyil. Hadisənin kökləri

bir qədər qabağa gedir. Bunun təşəbbüskarları, ideya mənbələri məlumdur və vaxtında dövlətin rəhbərlərinə, hökumət başçılarına məlumatlar verilmişdir.

Əlikram Hümbətovun başladığı siyasi cərəyan çox ciddi və təhlükəli inkişaf edir. Belə ki, rayon icra başçılarının, rəhbərlərinin yarıtmaz fəaliyyətinin tənqidi, Milli Məclisin buraxılması, yeni seçkilərin keçirilməsi, latın qrafikalı əlifbadan imtina edib kiril əlifbasına keçirilməsi, fövqəladə rejimin ləğv edilməsi, bu kimi nisbətən çox səslənən siyasi müxalifət tələbləri olan bir siyasi platformadan birdən-birə Talış-Muğan Respublikasının elan edilməsi kimi ciddi və kəskin bir addımın real şəkildə atılması baş verdi. İyulun 21-də Hümbətov tərəfindən elan edilən Talış-Muğan Respublikasının ərazi inzibati tərkibinə 7 rayonun – Lənkəran, Astara, Yardımlı, Lerik, Cəlilabad, Biləsuvar, Masallı rayonlarının daxil edildiyi bildirilmişdirsə də, daha sonra, yəni iyunun 23-də Cəlilabadda olarkən Salyan rayonunun da bu quruma daxil edilən rayonların sırasında olduğu elan olunmuşdur.

Hadisələrin təhlili deməyə əsas verir ki, ilk dövrdə Hümbətov qeyri-sabit və qeyri-müəyyən siyasi tələblərlə çıxış etmişdir. O, ilk dövrdə Talış-Muğan Respublikasının yaradılması fikrinin əleyhinə olmuş, hətta kütləvi informasiya vasitələrində və başqa siyasi məclislərdə dəfələrlə bildirilmişdir ki, bu barədə Moskva televiziyasının "Vesti" proqramının yaydığı xəbərlər uydurmadır və onun belə bir hərəkət etməyə heç bir fikri yoxdur. Lakin sonra, yəni iyunun 21-də Lənkəranda fəaliyyət göstərən müstəqil "Real" televiziyasında çıxış edərək Talış-Muğan Respublikasının yaradıldığını bildirmiş və özünün də bu dövlətin başçısı və ali baş komandanı elan etmişdir. Hadisələrin gərgin xətt boyunca inkişafının ardıcıl təhlilindən belə bir qənaətə gəlmək olar ki, Hümbətovu qeyri-adi siyasi addım atmağa vadar edən amillərdən biri də Talış Mədəniyyət Mərkəzinin sədri Mehdi bəy Səfərovun və Azərbaycan Xalqlarının Bərabərliyi Partiyasının, yəni keçmiş Talış Partiyasının lideri Hilal Məmmədovun aktiv təhriki və təklifləridir.

İyulun 4-də Lənkəran İcra Hakimiyyətinin binasında Hümbətovun dəvəti ilə bu zonadan olan respublika Ali Sovetinin deputatları və vəzifəli şəxsləri ilə keçirilən görüşdə Məmmədov bildirmişdir ki, əgər Talış-Muğan Respublikasının yaradılması baş tutmazsa, onda ən azı muxtar vilayət və ya Lənkəran talış mahalı formasında dövlət qurumu yaradılmalı və bu qurumun adında mütləq "talış" ifadəsi əks olunmalıdır. Son vaxtlar isə Məmmədov və Səfərov Hümbətovun fikirləri ilə

razılaşmırlar. Bu yaxınlarda partiyanın bürosu da Hümbətova etimadsızlıq göstərərək belə təklif verib ki, yaxın günlərdə Lənkəran şəhərində partiyanın qurultayı keçirilsin. Etimadsızlığa səbəb isə Hümbətov tərəfindən talışların vəzifəyə təyin olunması və Talış-Muğan Respublikasının adının tamlıqla elan edilməsidir. Müxtəlif dövlət strukturları atributlarının yaradılması, əslində, məsələnin gələcəkdə dinc vasitələrlə həll edilməsini çətinləşdirə bilər. Hətta Hümbətov tərəfindən respublikanın yaradılması ilə Azərbaycanın vahid siyasi, hərbi, hüquqi, iqtisadi məkanı ortadan götürülür və federativ dövlət quruluşu yaradılması üçün zəmin hazırlanır ki, onun da gözlənilən nəticələri haqqında aşağıda müəyyən faktlarla, fikirlərlə məlumat vermək olar.

İyulun 26-da Hümbətovun telefaksla MDB-yə daxil olmaq məqsədilə Rusiya, Ukrayna və Belarusiyaya müraciətlərinə cavab olaraq iyulun 28-də Rusiyanın Baş naziri Çernomırdindən cavab almışdır. Kravçuk və Şuşkeviçin cavablarından aydın olur ki, Talış-Muğan Respublikasının elanı ilə əlaqədar müraciət hər iki respublikanın rəhbərləri tərəfindən müzakirə edilir. Bundan başqa, Hümbətov Talış-Muğan Respublikasının yaradılması münasibəti ilə telefaksla BMT-yə müraciət etmişdir.

Hümbətovun atdığı addımlar heç də bu regionu təmsil edən əhalinin fikri deyildir. Bir çox partiyalar və siyasi qurumlar bu ideyanı rədd edirlər. Məsələn, əhalinin bu ideyaya konkret mənfi münasibəti 19 iyunda Lerikdə, 25 iyunda Cəlilabadda, 24 iyunda Yardımlıda, 26 iyunda Masallıda və  keçirilən başqa görüşlər zamanı açıq bildirilmişdir. Lakin öz növbəsində Hümbətov və onun adamları kəndlərdə təbliğat işlərini aparır və hətta özlərinə sosial baza formalaşdırmaq üçün ucuz qiymətə ərzaq məhsullarının satışını təşkil edirlər.

Bundan başqa, Talış-Muğan Respublikasının yaradılmasının elan olunması ilə bağlı olaraq regionda bir sıra böyük maliyyə-iqtisadi xarakterli cinayətlər törədilmişdir. Lənkəranda qanunsuz olaraq rayon rəhbərlərinin vəzifələrini ələ keçirmiş bu qruplar çay fabrikində istehsal edilən məhsulların regiondan kənara daşınmaması haqqında müvafiq göstəriş vermiş, kəndlərdə ərzaq məhsullarını müəyyən pərakəndə satış qiymətindən xeyli ucuz qiymətə satdırmış, habelə rubl pul əsginaslarının tədavülünün dayandırılması haqqında məlum islahatın əleyhinə olaraq bu regionda gündəlik tələbat mallarının satılmasında, nəqliyyat vasitələrinin işində, təmir işlərində istifadə edilməsinin davam etməsinə göstəriş vermişlər. Bunun nəticəsində də dövlətə xeyli miqdarda maddi ziyan vurulmuşdur.

Vəzifəli şəxsləri qanunsuz olaraq həbs etməsi kimi hallar onun əleyhinə fəaliyyət göstərən siyasi təşkilatları və ətrafına toplaşmış qrupları getdikcə radikallaşdırır, bəzi hallarda isə analoji tədbirlərə əl atılması ilə nəticələnir. Məsələn, avqustun 11-də Astara rayon Ərkivan kəndindən olan silahlı dəstə rayonun Peysər kəndində Hilal Məmmədovu girov götürmüşdür. Astara rayonunda silahlı qruplaşmalar yaranır. Müvafiq şəkildə vəzifə almaq, yaxud vəzifəyə bərpa edilmək məqsədi güdür. Əks tərəfin də marağı eynidir. Məsələn, avqustun 4-də rayonda icra hakimiyyətinin keçmiş başçısı Faiq Cəfərov bir qrup adamla icra hakimiyyətinin binasına daxil olmuş və Hümbətov tərəfindən yeni təyin olunmuş icra başçısı Xeyrulla Cəfərovun xidməti otağında oturmuş və bildirmişdir ki, onu qanunsuz olaraq vəzifədən kənarlaşdırmışlar. Xeyrulla Cəfərov bunlar üçün əmioğludur, əmioğlunun birini çıxarıb o birisini qoyublar, o da gəlib öz yerində oturub.

Talış-Muğan Respublikasının yaradılmasının elan olunması ilə bərabər hadisələrin gərginləşmə istiqamətində inkişaf etməsinin təhlükəsini sübut edən başqa bir dəlil də ondan ibarətdir ki, Hümbətovun və onun ətrafındakı milliyyətcə talış olan bəzi şəxslərin təşəbbüsü ilə qonşu İran və Rusiya ilə sərbəst iqtisadi əlaqələrin formalaşdırılmasına təşəbbüs edilmişdir. Hətta Nərimanabad balıq kombinatının gəmiləri Həştərxan, Quri və Krasnovodsk şəhərlərinə humanitar yardım gətirməyə yola düşmüşlər. Göründüyü kimi, bütün bunlar Azərbaycanın müstəsna dövlət hüquqlarının əyalət səviyyəsində mənimsənilməsi deməkdir və 1989-cu ildə keçmiş Dağlıq Qarabağ Muxtar Respublikasının təsərrüfat əlaqələrinin Azərbaycanın nəzarəti altından çıxarılması prosesi ilə analoji bir oxşarlıq təşkil edir. Hətta Məmmədov açıq şəkildə bildirmişdir ki, onlar lazım gələrsə İrana və Rusiyaya müraciət edəcəklər.

Qeyd etmək zəruridir ki, partiyanın liderləri öz siyasətlərini müstəqillik üzərində qurmaq naminə 1812-ci ildə Rusiya ilə Talış xanlığı arasında olan müqaviləni bərpa etmək fikri ilə də çıxış edirlər. Talış-Muğan Respublikasının yaradılması prosesini müdafiə və təbliğ eləyənlər arasında keçmiş və indiki vəzifə sahiblərinin də adlarına rast gəlmək olur. Onların çıxışlarından belə bir nəticə formalaşır ki, belə adamların bir çoxu vəzifələrini itirdikləri üçün şəxsi intiqam və revanş xatirinə Hümbətovun fəaliyyətini müdafiə edirlər. Qeyd edilməlidir ki, çox təəssüf, milliyyətcə talış olan və bizim tanınmış, hörmətli hüquqşünasların belə ciddi məsələyə hüquqi don geyindirmək üçün bu zonada referendum keçirilməsi məsələsini də Hümbətova bildirmişlər.

Talış hadisələri dövlətimizin hərbi strukturlarında müəyyən arzuedilməz qanunsuz hərəkətlərin yaranmasında da zəmin rolu oynamışdır. Son vaxtlar Hümbətovun Qarabağ cəbhəsinə hərbi qüvvə göndərməsi ilə bağlı partiya liderləri arasında müəyyən narazılıqlar əmələ gəlmişdir. Belə bir təşəbbüs irəli sürülür ki, orada olan milliyyətcə talış olanlar geri çağırılsın, onların əvəzinə Lənkəran talış zonasından azərbaycanlı milliyyətindən olan adamlar göndərilsin. Çox şadıq ki, hərbi hissənin komandanlığı və bəzi siyasi cəhətdən sağlam yoldaşlar buna yol verməmiş, qarşısını almışlar. Hümbətovun ətrafında yüzlərcə silahlı və MDB diviziyasını qəbul edərkən yoxa çıxmış silahlar, tanklar, BTR-lər və başqa onlarca hərbi texnika və sursat cəmlənmişdir. Bundan başqa, Hümbətov 704-cü briqadanın tərkibində olan hərbi hissələri parçalayıb şəxsi heyətini və hərbi sursatını Lənkəran şəhərində olan və ona sadiq hərbi hissələrə vermək istəyir. Hümbətov həmin ərazidə yerləşən sərhəd dəstəsini də özünə tabe etmək istəmiş, lakin bu təklif sərhədçilər tərəfindən rədd edilmişdir.

Hümbətovun silahlı qüvvəyə malik olmasına əsasən respublikadakı daxili hərbi vəziyyətin hər an təhlükəli vəziyyətə çatması da ehtimal edilir. Hətta o, rəsmi şəkildə bildirmişdir ki, əgər bizə təzyiq edilərsə, silahlı müqavimət göstərəcək, lazım gəlsə, Bakıya qədər gedəcəyik. Təsdiq etməyə ehtiyac yoxdur ki, müxtəlif qurumların hərbi strukturlara malik olması regionda hansı ağır nəticələrə gətirib çıxara bilər.

Məndən qabaqkı natiqlərə belə suallar verildi ki, ordu məfhumu, Hümbətovun qoşunları və Hümbətovun apardığı siyasət, bunu bir-birinə qatmaq lazım deyil. Hümbətovun ordu sıralarında kifayət qədər namuslu, qeyrətli, torpağının qədrini bilən, xalqına bağlı sərkərdələr, zabitlər, sıravi əsgərlər var. Bizim bəlamız ondadır ki, bu pərdə altında Hümbətov onun bir hissəsini, iradəcə zəif, tez təsirə düşən qüvvələri öz tərəfinə çəkmiş və bundan istifadə edərək belə bir qurum, vilayət yaratmaq fikrinə düşmüşdür.

Hadisəyə biz bir qədər ciddi yanaşmalıyıq. Bu, bir tərəfdən mənim vəzifə borcumdur, digər tərəfdən vətəndaşlıq borcumdur. Dünənki müşavirədə mən təklif elədim ki, respublikada bir qədər ciddi tədbirlər görülməlidir. Azərbaycan öz tarixinin ən dramatik və ağır günlərindən birini yaşayır. Ərazimizin 17 faizi ayın 10-a qədər tutulmuşdur. Cəbrayılın bir hissəsi, Füzuli rayonunun bir hissəsinin getməsi bu faizi artıracaq. Özünə hörmət edən hər bir xalq, hər bir dövlət, ona belə bir təcavüz edilirsə, bütün imkanlar, bütün qüvvələr səfərbər olunmalı və bir məqsədə

yönəlməlidir, onun ərazisi qorunsun, sərhədləri bərpa olunsun, onun əhalisinin, xalqının təhlükəsizliyi təmin olunsun. Bugünkü hadisələrin gedişi, hiss eləyirəm, bəzən yoldaşlarla söhbətdə də gülümsəməyə gətirib çıxarır ki, elə bir faciə yoxdur, bu gün, ya sabah ləğv edilər. Təsəvvür edin, mən Heydər Əliyevə məlumat vermişəm ki, Kiyevdə, Moskvada, Tallində yaşayan azərbaycanlılar, Lənkəran zonasından olanlar hər biri özü ilə bir-iki nəfər gətirib dava eləməyə hazır olduqlarını bildiriblər və bu barədə mənə zəngləri olub və xahiş ediblər, bu işə münasibətinizi bildirin. Digər tərəfdən, əhalinin digər bir hissəsi özünü hələ sakit aparır, bu işə son qoyulacağını gözləyir, hesab edir, bu məsələ yaxın günlərdə dövlət başçısı, hökumət başçısı səviyyəsində həll olunacaq və bunların əksəriyyəti bu tədbirə qatılmayıb. Belə bir şeyi gözümüzün qabağına gətirək ki, Hümbətovun dəstəsi buna qarşı əks tədbirlər görüb. Əhalinin digər hissəsi silahlansın və Hümbətov özünü qorumağa başlasın.

Azərbaycanın cənubunda, 8-10 rayonu əhatə edən bir ərazidə, milyondan çox əhali yaşayan bir regionda nələr baş verməli idi, gərək hamımız gözümüzün qabağına gətirək. Ona görə mən Milli Məclis üzvləri, Ali Sovetin sədrindən, hökumətin başçısı Surət Hüseynovdan artıq dərəcədə xahiş edirəm ki, biz bu gün bunun məsuliyyətini hiss eləməli, Milli Məclis səviyyəsində ağıllı, sanballı tədbirlər keçirməliyik. Bizim tədbirlərimiz ağıllı, sanballı olub, ancaq burada söhbət silahdan gedir, torpağın, ərazinin parçalanmasından gedir, Azərbaycanı federasiya səviyyəsinə gətirib çıxarmaqdan gedir.

Axırıncı bir-iki məlumatı nəzərinizə çatdırıram. “Hümbətovun göstərişi ilə xüsusi istirahət zolağının yuxarı hissəsində, meşə zolağında müdafiə məqsədilə istehkamlar hazırlanır. Ərazinin müəyyən hissəsini hər ehtimala qarşı minalamaq nəzərdə tutulur. Hümbətov və Səfərov partiyanın nümayəndələri ilə müraciət edərək bildirmişlər ki, Azərbaycan federasiyaya çevrilir və bununla əlaqədar talışları müdafiə etmək sizin borcunuzdur”.

Mənə elə gəlir ki, burada əlavə bir şərh verməyə ehtiyac yoxdur. Bu işin nə qədər təhlükəli və xoşagəlməz forma almasının məsuliyyətini biz hər birimiz hiss eləməliyik. Diqqətinizə görə sağ olun. Məlumatım qurtardı.

**Sədrlik edən.** Baş prokuror Əli Ömərov.

**Əli Ömərov,** ***Azərbaycan Respublikasının Baş prokuroru.*** Deputat yoldaşlar, hörmətli iştirakçılar. Məndən əvvəl çıxış eləyən yoldaşların

söylədiklərini, Əlikram Hümbətovun törətdiyi cinayət faktlarını təkrar eləmək istəmirəm, çünki çıxış eləyən yoldaşlar kifayət qədər göstərdilər. Qısa olaraq bir-iki faktın üzərində dayanmaq istəyirəm, bu faktlar hansılardır.

Bayaq sual olundu ki, Əlikram Hümbətov başına yığdığı dəstəni hansı vəsaitlə saxlayır. Hər şeydən əvvəl, demək istəyirəm ki, Əlikram Hümbətov başına yığdığı dəstə ilə cinayətkar əlaqəyə girərək soyğunçuluqla, quldurluqla, qarətlərlə məşğul olmaq yolundadır. Son nəticə etibarilə Hümbətov həmin törətdiyi cinayət əməllərinə görə məsuliyyətdən yaxa qurtarmaq üçün hansı vasitələrə əl atır. Əvvəlcə mən onun hələ 1992-ci ildə özünün və başçılıq etdiyi dəstənin törətdiyi bir neçə cinayət faktını sadalamaq, sonra isə hazırkı vəziyyətdə o cinayət əməllərinə görə məsuliyyətdən hansı qayda ilə yaxa qurtarmaq tədbirlərini həyata keçirdiyini söyləmək istəyirəm.

Əlikram Hümbətov Lənkəran rayonunda yerləşən 740 nömrəli hərbi hissənin komandiri vəzifəsində işləyərkən həmin hissədə qulluq edən Məmmədov Naib Bahadır oğluna, Həbibov Vaqif Rüstəm oğluna və digər hərbçilərə ayrı-ayrı rayonlarda cinayət hərəkətləri etmələrinə şərait yaratmış, bir sıra hallarda hərbçilər tərəfindən törədilən cinayətlərin bilavasitə iştirakçısı olmuşdur. Belə ki, Məmmədov Naib Bahadır oğlu Hümbətov tərəfindən müdafiə ediləcəyinə əmin olduğu üçün 1992-ci il 1 iyul tarixində Cəlilabad rayonunun Göytəpə şəhər sakini Ağayev Xanhüseyn Qasımoğlunun yaşadığı həyətə gəlib ona məxsus olan şəxsi “ZİL-130” markalı avtomaşını zorla aparmaq istəyərkən Ağayevin ona maneçilik törədəcəyini görüb, tabeçiliyində olan əsgərlərə silah işlətmək barədə əmr vermişdir. Nəticədə Ağayev sol ayaq nahiyəsindən güllə yarası almış, qardaşı Mustafa Qasım oğluna isə avtomatın qundağı ilə burun nahiyəsindən ağır dərəcəli bədən xəsarəti yetirilmişdir. Məmmədov və ona tabe olan taborun əsgərləri həmin vaxt hadisə yerinə gəlmiş, ictimai qaydanı qorumaq sahəsində üzərilərinə qoyulmuş vəzifəni icra edən milis işçilərinə müqavimət göstərərək təhqir etmiş və onlara cismani cəza vermişdir.

Bundan əlavə, 1992-ci il 18 iyul tarixində Məmmədov və ona tabe olan taborun əsgərləri Cəlilabad rayonu Sazaqlı kənd sakini Amanov Eyvaz Ağabala oğluna məxsus şəxsi xırda buynuzlu heyvanları 829 nömrəli hərbi hissəyə aparmaq istəmişdir. Bununla əlaqədar yaranmış mübahisə zamanı ora gəlmiş kənd sakinlərindən Eynullayev Sabir Mehdi oğlunu və onunla birlikdə digər 6 nəfəri Məmmədov zorla səhərə qədər

kəndin yaxınlığında, karyer adlanan yerdə saxlamış, sonra isə qeyri-qanuni hərəkətlərini davam etdirərək 1992-ci il iyulun 19-da Amanovu, Əzizovu zorla Göytəpə qəsəbəsində yerləşən 629 nömrəli hərbi hissəyə aparmış və orada onlara bədən xəsarəti yetirmişlər. 1992-ci il avqustun 4-də Məmmədovun göstərişi və şəxsi iştirakı ilə Bakı-Astara magistral yolunun Cəlilabad rayonunda Alar kəndi yaxınlığında qeyri-qanuni post qurulmuş, Ağcabədi rayon Araz heyvandarlıq kooperativinə məxsus, müvafiq sənədlərlə Cəlilabad rayonunun ərazisində yerləşən filialına gələrək 15 baş cöngə, 65-67 baş qoçu heç bir əsas olmadan saxlamış və qeyri-qanuni olaraq ələ keçirmişlər. Habelə Məmmədov ona tabe olan taborun əsgərləri ilə 1992-ci il avqustun 21-də Neftçala rayonunun ərazisinə gələrək Əsgərov Qorxmaz Nadir oğluna və digər vətəndaşlara zor göstərmək yolu ilə onların şəxsi əmlakını qarət etmişlər. Qeyd olunan əməllərinə görə 1992-ci il oktyabr ayının 27-də Məmmədov Azərbaycan Cinayət Məcəlləsinin 255-ci maddəsinin (b) bəndi, 189-cu maddəsinin birinci hissəsi və 191-ci maddəsinin ikinci hissəsi ilə ittiham edilərək haqqında həbs qətimkan tədbiri seçilmişdir. Göstərilən vətəndaşlar məhkəmə tərəfindən məhkum olunmuşlar.

Bundan başqa, 1992-ci ilin sentyabrın 13-dən 14-nə keçən gecə Cəlilabad rayonunun Şüləvəngə kəndi ərazisində Həbibov Vaqif Rüstəm oğlu iki nəfər hərbi geyimdə olan, istintaqa məlum olmayan şəxslərlə birgə tapança və avtomat silahla basqın və quldurluq yolu ilə Əsgərov Vaqif İzzət oğlunun 16900, Quliyev Vidadi Əzizağa oğlunun 39350, Əzizov Rasim Qiyas oğlunun isə 88500 manat pulunu ələ keçirmişlər. Qeyd olunan cinayət əməllərinə görə Məmmədov Azərbaycan Cinayət Məcəlləsinin 220-prim maddəsinin 2-ci hissəsi, 145-ci maddəsinin 2-ci hissəsi, 102-ci maddəsinin 1-ci hissəsi ilə müqəssirliyə cəlb olunub, haqqında həbs qətimkan tədbiri seçilmişdir.

Hümbətov 704 nömrəli hərbi hissənin komandiri vəzifəsindən azad edildikdən sonra Məmmədov və digər şəxslərlə cinayət əlaqəsinə girərək öz qanunsuz hərəkətlərini davam elətdirmişlər. Belə ki, Lənkəran şəhərində qanunsuz yaradılmış müvəqqəti müdafiə komitəsinin üzvü kimi 1990-cı ilin yanvar ayının 11-dən 26-na kimi olan dövrdə bir qrup şəxslə ictimai qaydanı pozan, hakimiyyət nümayəndələrinə açıqcasına tabe olmayan və şəhərin bir sıra idarə, müəssisə və təşkilatlarının işini pozmağa səbəb olan hərəkətlər törətmiş və həmin hərəkətləri təşkil etmişdir.

1993-ci il 22 yanvar tarixində bir qrup silahlı şəxslə birlikdə “Əmanət” və “Aqrosənaye” banklarının Lənkəran şöbələrinə quldurcasına

basqın edib, oradan çoxlu silah və döyüş sursatları oğurlamış, əldə etdiyi PD markalı pistoleti güllələri ilə birlikdə qanunsuz olaraq saxlamışdır. Ona görə də Əlikram Hümbətov Azərbaycan Cinayət Məcəlləsinin 188-3-cü maddəsi ilə, 220-ci maddəsinin 1-ci hissəsi ilə məsuliyyətə cəlb olunmuşdur və Azərbaycan Respublikası Ali Məhkəməsi işə baxaraq onun haqqında ittihamedici hökm çıxarmışdır.

Məndən qabaq çıxış eləyən yoldaşlar Əlikram Hümbətovun törətdiyi bir sıra cinayət əməllərini saydılar, ona görə mən sadalamaq istəmirəm. Bizim həmin zonada çalışan prokurorluq işçilərini, demək olar ki, kütləvi surətdə aparmış, onların əksəriyyətini döyərək bədən xəsarəti yetirmişdir. Onun bu hərəkətləri barədə qanunla nəzərdə tutulan qaydada tədbir görülür. Əlikram Hümbətov həmin törətdiyi cinayət əməlindən yaxa qurtarmaq üçün, mən deyərdim ki, bəlkə də, dövlət çevrilişi kimi qeyri-qanuni fikrə düşmüşdür, bu mənim şəxsi qənaətimdir. Belə ki, əgər bir şəxs hakimiyyət nümayəndəsini, inzibati hüquq işçilərini qanunsuz yolla həbs eləyirsə, hakimiyyətdən özü bildiyi kimi istifadə eləyirsə, silahlı qüvvələri və digər silahlı birləşmələri öz xalqına qarşı yeridirsə, o, Azərbaycan Cinayət Məcəlləsinin 57-prim-1 maddəsində nəzərdə tutulan cinayət əməlini törətmiş olur. Əlikram Hümbətov həmin cinayətlərdən yaxa qurtarmaq üçün, ilk növbədə, hüquq-mühafizə orqanı işçilərini aradan götürüb öz şəxsi adamlarını həmin vəzifələrə təyin elətdirmək, yaxud özünün qanunsuz əmrləri ilə təyin eləmək istəyir. Buna aid bir misal çəkmək istəyirəm.

Talış-Muğan Respublikası Baş prokurorunun təyin edilməsi haqqında Talış-Muğan Respublikası ali baş komandanın sərəncamı. Talış-Muğan Respublikası ərazisində vətəndaşların şərəf və ləyaqətinin qorunması, hüquq-mühafizə orqanlarının fəaliyyətinə operativ rəhbərlik göstərilməsi, qanunların icrasına nəzarətin qüvvətləndirilməsi məqsədilə qərara alıram:

1. Talış-Muğan Respublikasının prokurorluğu yaradılsın.

2. Əliyev Arif Sabir oğlu Talış-Muğan Respublikasının Baş prokuroru təyin edilsin.

3. Əliyevə tapşırılsın ki, qısa müddətdə prokurorluğun fəaliyyətə başlamasını təmin etsin. Talış-Muğan Respublikası ərazisindəki rayonların prokurorlarının təyin edilməsi üçün təcili təkliflər versin.

Talış-Muğan Respublikasının ali baş komandanı Hümbətov. Lənkəran şəhəri, 6 avqust 1993-cü il.

Deməli, Əlikram Hümbətov həmin hərəkətləri törədərkən – yəqin ki, sərəncamın məzmunundan siz də hiss etdiniz – burada hüquqşünas əli var, çünki bu, Əlikram Hümbətovun savad dairəsi deyil. Bu işçiləri təyin edərkən hətta həmin işçilər bu sərəncamın qeyri-qanuni olduğunu bildikləri üçün Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanlarının strukturunu ona təqdim edərək xahiş eləmişdilər ki, heç olmasa, bu strukturda prokurorluq orqanı yaradılsın. O, qəti olaraq etirazını bildirərək göstərmiş ki, bizim, ümumiyyətlə, Azərbaycan Respublikası deyilən respublika ilə heç bir əlaqəmiz olmamalıdır. Bizim özümüzə məxsus strukturumuz olmalıdır və bu ancaq mənim sərəncamlarım, əmrlərimlə yerinə yetirilməlidir. Diqqətinizə görə sağ olun. Sualınız varsa, cavab verməyə hazıram.

**Sədrlik edən.** Əyləşin. Bu məsələ ilə əlaqədar çıxış edən nazirlər, Baş prokuror məlumat verdilər, ancaq onların məlumatları, şübhəsiz ki, müəyyən qədər bu məsələnin məzmununu açsa da, bunu tamam açmadı. Mən hesab edirəm ki, bu şəxslər həm hüquqi, həm də siyasi nöqteyi-nəzərdən gərək daha da dolğun, daha da geniş məlumat verəydilər və bu məsələlərə öz münasibətlərini ciddi göstərəydilər. Məsələ ayrı-ayrı cinayətkarlıqdan getmir, söhbət bizim Azərbaycanın bir tərəfinin parçalanmasından və Azərbaycanın 7 rayonunda uzun müddətdə qanun pozuntusundan, Azərbaycanın onsuz da zəif olan ordusunun bir hissəsinin parçalanmasından və başqa məqsədlərlə istifadə olunmasından gedir.

Milli təhlükəsizlik naziri İmranovun bu barədə məlumatı daha da geniş oldu, ancaq yenə də mənə belə gəlir ki, bəzi məsələləri açmaq lazımdır, bu proseslərə geniş və dərin siyasi qiymət vermək lazımdır. Ona görə mən istərdim ki, Məclis üzvləri icazə versin, mən bu barədə bəzi məlumatları, mülahizələri də sizə çatdırım.

Lənkəran və onun ətrafında olan rayonlarda, 7 rayonda gedən proseslər yeni bir şey deyil. Bunların kökü bir il bundan əvvəlki dövrə aiddir. Ancaq son dövrdə bu proseslər həddindən artıq güclənmiş, artıq çox eybəcər, yaramaz və dözülməz bir vəziyyətə gətirib çıxarmışdır. Səbəbləri çoxdur. Bəzi şəxslər belə proseslərin getməsini Lənkəran, Astara, Yardımlı, Lerik, Masallı, Cəlilabad, Biləsuvar rayonlarında sosial-iqtisadi vəziyyətin ağırlığı ilə, bu rayonlara respublikanın dövlət, hökumət orqanlarının diqqətsizliyi ilə əlaqələndirirlər və beləliklə də müəyyən qədər buna bəraət qazandırmaq istəyirlər. Biz aparılan müşavirədə bunu qeyd etdik.

Məclis üzvləri qarşısında mən öz fikrimi bildirmək istəyirəm ki, şübhəsiz, bu rayonlarda həll olunası sosial-iqtisadi problemlər var, çoxdur. Azərbaycan Respublikasının bütün rayonlarında belə problemlər var, Azərbaycan Respublikası böhran içindədir. Azərbaycan Respublikasının iqtisadiyyatı dağılır, Azərbaycan Respublikasında sosial-iqtisadi vəziyyət indi həddindən artıq dözülməz haldadır. Bir tərəfdən 5 ildən artıq respublika müharibə aparır, ikinci tərəfdən 5 il müddətində Azərbaycan Respublikasının dövlət orqanlarında gedən proseslər, gedən dəyişikliklər və çox hallarda qanunsuzluqlar, vəzifəli şəxslərin vəzifələrindən sui-istifadə etməsi və cürbəcür başqa hallar Azərbaycan Respublikasını indi iqtisadi, sosial, siyasi böhran vəziyyətinə gətirib çıxarıb və son dövrdə bu böhran daha da dərinləşir. Şübhəsiz ki, belə bir vəziyyət Lənkəran və onun ətrafında olan rayonlara da aiddir. Ola bilər, bir zonada, bir regionda sosial-iqtisadi vəziyyət birindən bir balaca artıqdır, birindən əskikdir, amma ümumiyyətlə, Azərbaycanda hər yerdə vəziyyət belədir. Ona görə də belə bir məsələnin bu hərəkətlərə əsas olmasını və bu faktora görə buna bəraət qazandırılması, şübhəsiz ki, mümkün deyil.

Əsas səbəb ondan ibarətdir ki, Azərbaycanda son dövrdə hərc-mərclik, qanunsuzluq baş verib, idarəetmə sistemi dağılıb, dövlət idarəçiliyi çox bərbad vəziyyətdədir. Tələbkarlıq azalıb, kim nə istəyib, onu eləyib. Bu, dövlətin lap başından aşağıya qədər bütün mərtəbələrdə, bütün sahələrdə mövcuddur. Belə bir şəraitdən istifadə edən bir qrup şəxs öz şəxsi məqsədlərinə nail olmaq üçün bu yola düşüblər və bu yolda gedərək artıq bu bölgədə belə bir vəziyyət yaranıb. Ancaq bu onun görünən tərəfidir, iç tərəfi isə Azərbaycanı parçalamaq, Azərbaycanı dağıtmaq, Azərbaycan Respublikasını bir dövlət kimi dağıtmaq niyyətləridir. Bu isə Azərbaycan xalqının, Azərbaycan Respublikasının həm xaricdə, həm də daxildə olan düşmənləri tərəfindən uzun illər həyata keçirilən planların bir mərhələsidir və müəyyən qədər nəticəsidir.

Bu planlar, bəli, Azərbaycana düşmən olan ölkələrdə Azərbaycana düşmən olan qüvvələr tərəfindən hələ yüz il bundan qabaq nəzərdə tutulmuşdur. Məlumdur ki, Daşnaksutyun partiyasının Azərbaycanı parçalamaq planı yüz il bundan qabaq meydana çıxmışdır. Bu parçalamaq planı 5-6 il bundan qabaq Dağlıq Qarabağ bölgəsində gedir, indi isə ayrı-ayrı bu cür siyasətbazları, öz şəxsi məqsədləri üçün xalqı, milləti, torpağı satmağa hazır olan və satan, dağıdan insanları istifadə edərək, onları əllərində alət edərək Azərbaycanı parçalayırlar, dağıdırlar.

Bu bizim düşmənlərimizin planlarının həyata keçirilməsidir və təəssüf ki, bizim daxilimizdə olan ayrı-ayrı vəzifəli şəxslər, siyasətə qoşulmuş ayrı-ayrı adamlar bu planın həyata keçirilməsinə bəzən kortəbii, bəzən isə qəsdən qoşulublar, kömək ediblər və onun icraçısıdırlar. Bu icraçılardan biri Əlikram Hümbətovdur. Ancaq o, tək deyil, başqaları da var, bəzilərinin adlarını mən bu gün deyəcəyəm.

Burada çıxış edən adamlar, 4 nəfər çıxış etdi, çox qorxa-qorxa danışırlar, çox ehtiyatla danışırlar. Özlərini mühafizə etmək istəyirlər. Bəli, sabah mənim uşağım belə olacaq, qayınanama filan deyəcəklər, nə bilim, atamı orada söyəcəklər, ona görə mən burada səsimi çıxarmıram. Namusdan, qeyrətdən danışan adamlar bu gün Azərbaycanı dağıdırlar və bunu görə-görə bəziləri susurlar və bəziləri də danışanda çox yuvarlaq danışmaq istəyirlər ki, bunun danışığından sonra bir şey çıxmasın, o özünü mühafizə eləmək istəsin. Onlara dözmək olarmı, hansı azərbaycanlı, hansı millətini sevən, hansı torpağını sevən adam bunlara dözə bilər? Mən şəxsən dözmürəm və fikirlərimi açıq deyəcəyəm, heç kəsdən də qorxmuram, heç kəsdən də çəkinmirəm.

Təsadüfi deyil, mən polkovnik Səfər Əbiyevə sual verirdim ki, belə bir qoşun hissəsinin Əlikram Hümbətova keçməsinə kim icazə verib? Təsadüfi deyildir ki, mən ondan soruşurdum ki, nə cür oldu, bu qoşun hissələri Əlikram Hümbətovun əlinə keçdi, onlara biz cavab ala bilmədik, müəyyən cavablar verildi, ancaq qəti bir cavab alına bilmədi. Bu nə cür ola bilər ki, bir adam bir yerdən avtomat alanda, tapança alanda, bunu cəzalandırmaq lazımdır. Burada cinayət var, o, günahkardır, indi böyük bir bölgədə hərbi hissəni əlinə keçirib, tank da, BTR də, avtomobil də, filan da var, onun benzini haradan gəlir, onun yağı haradan gəlir, bunun filanı haradan gəlir. Bunlar hamısı bir adamın, özü özünü hakim təyin etmiş bir adamın əlinə keçib, hamı da çəkilib durub kənarda, hamı da deyir ki, bunu bilmirik, necə oldu, başa düşə bilmirik. Bununla nə cür razı olmaq olar? Nə cür buna dözmək olar?

Mən Naxçıvanda yaşayarkən ara-sıra eşidirdim ki, Lənkəran və onun ətrafında olan rayonlarda nə isə gedir, ancaq məlumatım yox idi. Mən Azərbaycanın hər bölgəsindən narahat idim, ancaq təcrid olunmuşdum, siz bilirsiniz, qapalı şəraitdə yaşayırdıq, çox şeylərdən məlumatımız yox idi, məlumat almaq istəyəndə də onu ala bilmirdik. Bura gələndən sonra mən bu məsələlərin çox pis istiqamətdə inkişaf etməsini gördüm. Mən bunu avqust ayının 13-də müşavirədə demişəm, bu gün də qeyd etmək istəyirəm. Ancaq bizim başımız o dövrdə o qədər Gəncə

hadisələri ilə qarışıq idi, o qədər daxildə yaranmış ictimai-siyasi sabitsizliklə, eyni zamanda Dağlıq Qarabağda gedən müharibə ilə məşğul idik ki, şəxsən özüm haqqında deyirəm, belə güman edirdim ki, bu məsələlər, bəlkə də, öz-özünə yerinə oturacaqdır. Bu bölgələrdən bizim çox hörmətli adamlarımız var, ağsaqqallarımız var, Məclis üzvlərimiz var, nazirlərimiz var. Onlar, yəqin, bu məsələlərə müəyyən diqqət yetirəcəklər, bunlara yol verməzlər, müəyyən qədər həm narahat idim, həm də elə hesab edirdim ki, bizim əsas məsələlərimizi həll etmək lazımdır.

Siz bilirsiniz ki, 4 iyundan sonra Azərbaycan vətəndaş müharibəsi həddinə gəlib çıxmışdı və bu vətəndaş müharibəsini aradan götürmək lazım idi. Bu qardaş qarşıdurmasını aradan götürmək lazım idi. 4 iyunda Gəncədə qardaş qanı töküldü. Günahsız insanlar həlak oldu, qan töküldü, qanunsuzluqlar oldu. Ondan sonra və iyunun ortasına, 20-nə, 25-nə qədər bu qarşıdurma aradan götürülməmişdi. Bu qarşıdurma artıq Nəvaiyə gəlib çıxmışdı, siz bilirsiniz, Bakının 100 kilometrliyində də az da olsa qan töküldü, vuruşma oldu. O tərəfdən də, bu tərəfdən də tələf olanlar, yaralananlar oldu. Ona görə bu məsələlərlə biz məşğul olarkən və o vaxt bizim dövlət, ümumiyyətlə, biz müəyyən qədər çətinliklər çəkdiyimizə görə bu məsələlərlə şəxsən yaxından maraqlana, məşğul ola bilməmişəm.

Bir tərəfdən də, düzü, mən hesab edirdim ki, yenə burada, bu bölgədə bizim böyük insanlarımız var. O bölgədən çıxmış insanlarımız var, onlar yol verməzlər ki, Azərbaycan bu tərəfdən də parçalansın, Azərbaycana bu tərəfdən də zərbə vursunlar. Ancaq sonra işlər get-gedə yoğunladı, get-gedə mürəkkəbləşdi. Vəziyyət get-gedə dərinləşdi. Belə halda Lənkəran bölgəsindən, o regiondan olan bəzi şəxslər mənə müraciət etdilər. Qafqaz müsəlmanlarının dini rəhbəri Şeyxülislam Allahşükür Paşazadə bir-iki dəfə mənim yanıma gəldi. Öz xidmətlərini təklif etdi və mən bundan çox razı oldum və hesab etdim ki, belə bir nüfuzlu, müsəlman aləmində tanınmış bir şəxs, eyni zamanda Lənkəran rayonundan olan adam şəxsən gedib həll edə bilər, başa sala bilər, mən buna arxayın oldum. Getdi, görüşdü, gəldi, bir dəfə getdi, iki dəfə getdi, ancaq bunlar bir nəticə vermədi. Sonra bizim Məclis üzvü Ramiz Fətəliyev, deputat Hafiz Babayev gəldilər mənim yanıma ki, gedək, danışaq eləyək, getdilər, gəldilər, dedilər, elə bir şey yoxdur, sadəcə olaraq, Sizinlə görüşmək, bəzi məsələləri həll etmək istəyir. Mən dedim, nə vaxt istəyir, gəlsin görüşək.

Sonra biz eşitdik ki, orada nə isə bir müşavirə keçirilir. Lənkəran və onun ətrafında olan rayonlardan və xüsusən talış köklü olan Bakıda

olan adamlar ora dəvət olunublar, onlar gediblər, orada bir müşavirə keçiriblər. Onlar mənim yanıma gəldilər. Şeyxülislam Allahşükür Paşazadə, Məclis üzvü Hüseynağa Qəniyev, Vaqif Musayev və iki şəxs, 5 nəfər adam gəldilər mənim yanıma ki, orada bu müşavirədən bunları nümayəndə heyəti kimi göndəriblər, müəyyən tələblər var, bu tələblərlə göndəriblər Sizin yanınıza, Siz bunlara baxasınız. Mən bunlara baxdım, burada bir də Talış-Muğan Respublikasının yaranması məsələsi vardı. Mən dedim, siz buna necə baxırsınız? Yox, bunlar, əlbəttə ki, tamamilə qəbul olunmalı şey deyil, ancaq bu tələbləri veriblər, biz də sizə gətirib veririk, belə çıxır ki, guya ötürücü bir funksiya daşıyırlar. Mən bizim hörmətli şəxslərin yanında Əlikram Hümbətova telefon elədim, ondan qabaq da mən bir dəfə onunla telefonla danışdım və xahiş etdim ki, Bakıya gəlsin, sonra mən eşitdim, o, Bakıya gəlib, Baş nazir Surət Hüseynovla görüşüb, ancaq Ali Sovetə gəlməyib, çıxıb gediblər. Sonra hətta Surət Hüseynov təəccüb elədi ki, nə cür oldu, o mənim yanımdan çıxandan sonra dedi, Sizin yanınıza gələcək, dedim, gəlmədi.

Şeyxülislam, Hüseynağa Qəniyev və başqa dediyim şəxslər mənim yanımda olarkən mən  telefon etdim Əlikram Hümbətova, danışdım. Onların yanında. Bu, deyəsən, təxminən ayın 7-də idi, mən səhv etmirəmsə, iyul ayının 7-də. Yadımdadır, iyul ayının 9-da Şeyxülislam xaricə getməli idi, ona görə dedi ki, mən 9-da gedirəm, bəlkə, sabah gəlsin görüşə. Mən dəvət elədim, dedim, sabah gəlin, şeyx də buradadır, o da xahiş edir ki, gələsiniz görüşək. Dedi, yox, sabah gələ bilmərəm, amma bir neçə gündən sonra gələrəm.

Gözlədim, bir neçə vaxtdan sonra gəldi. Mənə dedilər, gəlib, qəbul etdim, 4 saat söhbət etdim. 4 saat söhbətin əksər hissəsini Əlikram Hümbətov ona aid olmayan məsələlərə həsr etdi. Azərbaycan Respublikası dağılır, qanun pozulub. Hamımıza məlumdur. Bəli, niyə belədir, nə üçün belədir, bunu düzəltmək lazımdır. Cəbhədə vəziyyət ağırdır, döyüşlər pis gedir, torpaqlarımız gedib, bu da tamamilə düzdür, bəli, burada da lazımdır, nə eləyə bilərik, eləyək. Müdafiə Nazirliyinin vəzifəsi çox ağırdır. Müdafiə Nazirliyi çox pis vəziyyətdədir, Müdafiə Nazirliyi təşkil olunmalıdır, müdafiə qurulmalıdır. Bəli, burada da fikir tamamilə eynidir, mənim də Müdafiə Nazirliyi barədə fikrim belədir.

Sonra məsələni gətirib çıxardı ki, bəs müdafiə naziri qoymaq lazımdır, nə üçün qoymursunuz? Mən dedim ki, Baş nazir Surət Hüseynov bizim müdafiə işləri ilə məşğul olur. O, Baş nazir təyin olunandan sonra onun xahişi ilə 3 nazirlik Nazirlər Kabinetinin strukturuna verilib, o bu

işlərlə məşğul olur. Biz məsləhətləşirik, fikir mübadiləsi aparırıq, yəqin ki, bu yaxınlarda müdafiə naziri də təyin olunacaq. Mən heç də şübhəli yanaşmırdım ki, nə üçün bu belə söhbət yaradır. Ondan sonra Müdafiə Nazirliyində olan adamlara, ona, buna qiymət verməklə mənim vaxtımı aldı, axırda gətirib çıxardı ki, bilirsiniz, Siz gərək Vahid Musayevi müdafiə naziri təyin eləyəsiniz. Dedim, mən Vahid Musayevi tanımıram, bəlkə də, Vahid Musayev müdafiə naziri təyin etmək üçün yararlıdır, ancaq Sizin rəyiniz də bizim üçün çox önəmli olardı. Ancaq biz bunu müzakirə edəcəyik. Mən Sizin bu təkliflərinizi də müdafiə naziri təyin olunanda nəzərə alaram.

Sonra başladı ki, bilirsiniz, Azərbaycanda yenidən inzibati ərazi bölgüsü yaratmaq lazımdır, o məsələyə baxmaq lazımdır. Yenidən inzibati ərazi bölgüsü aparılmalıdır. Mən dedim, Azərbaycanda 60-70 ildir bu ərazi bölgüsü var, indi müəyyən dəyişikliklər olur, bir rayon biri ilə birləşir, biri ayrılır, bunlar hamısı var, ancaq indi buna ehtiyac yoxdur. Axırda gətirib çıxardı, gördüm ki, bu nə istəyir. Azərbaycanda bir söz var, mus-mus deyincə Mustafa de. Bəli, bu respublikaya. Mən dedim ki, nə məsələdir? O çalışdı, sübut eləsin ki, bu, əsaslı bir şeydir. Ancaq mən onunla bu söhbəti davam etdirmədim. Nə üçün? Mən hər şeyi açıq deməliyəm. Çünki bu məsələ haqqında Surət Hüseynovla mənim aramda bir neçə dəfə fikir mübadiləsi, danışıqlar olmuşdu. Surət Hüseynov Baş nazir kimi məni ümidvar etmişdi ki, bu belə bir təhlükəli bir şey deyil. Əlikram Hümbətov, doğrudan da, orduda olub və Surət Hüseynov onu tanıyır və bu məsələlər lazımi vaxtında yerinə qoyulacaq, heç narahat olmayın. Ona görə də Əlikram Hümbətov Talış-Muğan Respublikası haqqında söhbət açarkən mən bu söhbəti kəsdim, dedim ki, Baş nazir Surət Hüseynov indi Gəncədədir, o, Gəncədən qayıdandan sonra biz Sizi dəvət eləyərik, bərabər söhbət edərik.

Nə üçün mən bunu etdim, mən təkbətək onunla söhbət etmək istəmədim, çünki bir də qeyd edirəm, Surət Hüseynov bir neçə dəfə mənə bildirmişdi ki, Əlikram və onun apardığı işlər heç də təhlükəli işlər deyil, o, sadəcə olaraq, Əlikramla tanışdır və düşünürdüm, ona bir-iki kəlmə deyər, əgər belə məsələlər bir-iki kəlmə sözlə, yaxud bir danışıqla bitirsə, onda nə üçün buna vaxt sərf etmək lazımdır. Ona görə dedim ki, bu söhbəti saxlayaq, Surət Hüseynov Gəncədən qayıdacaq, biz Sizinlə əlaqəyə girəcəyik, görüşəcəyik.

Surət Hüseynov Gəncədən qayıdandan sonra mən bizim bu söhbətimizin məzmununu ona çatdırdım və rica etdim ki, bu məsələ ilə məşğul

olsun. Ondan sonra vaxt keçdi, ancaq orada proseslər daha da inkişaf etdi. Burada Nəriman İmranov bəzi günləri xatırlatdı, 19 iyuldan olub, 21 iyuldan olub və Vaqif Novruzov da dedi, bəli, bu hadisələr baş verdi və baş verdikcə biz narahat olduq. Ancaq Surət Hüseynov hər dəfə məni rahatlatdı, Siz narahat olmayın, bu məsələni həll edəcəyik. Sonra isə biz yenə də Surət Hüseynovla görüşdük və belə bir fikrə gəldik ki, Surət Hüseynov bu rayona getməlidir, doğrudan da, bu regionun sosial-iqtisadi məsələlərinə baxmalıdır, əhali ilə də görüşməlidir və bu məsələlər həll olunmalıdır və bunların həll olunması üçün lazımi şərait yaranmalıdır. Eyni zamanda bu proseslərə son qoyulmalıdır, nöqtə qoyulmalıdır.

Belə danışıqdan sonra avqust ayının 2-də bir qrup nazir və rəhbər şəxslər Bakıdan bu bölgəyə getdilər, vəziyyəti öyrəndilər, avqust ayının 3-də Baş nazir Surət Hüseynov bir neçə nazirlə ora getdi, orada geniş görüşlər, müşavirə keçirdi, Əlikram Hümbətovla danışıqlar apardı. Qayıdandan sonra avqust ayının 4-də mənə məlumat verdi ki, bütün məsələlərə baxdıq, orada sosial-iqtisadi problemlərin həll olunması üçün Nazirlər Kabineti müvafiq qərar hazırlayıb qəbul edəcək, ancaq o ki qaldı Talış-Muğan Respublikası, bunlar boş şeydir, əhəmiyyətsiz şeydir və biz dedik, Əlikram Hümbətov da dedi ki, bəli, bunlar elə-belə guya zarafatmış, nə imiş, belə. Yenə də mən rahat oldum.

Ancaq sonra yenidən orada hadisələr çox pis cərəyan etdi. Avqust ayının 5-də məlumat gəldi, Əlikram Hümbətov orada Cəlilabad rayon prokurorluğunun işçilərini tutub aparıb, böyük qarşıdurma yaranıb. Hətta böyük şayiələr yayıldı, guya orada atışma gedəcək, insanlar bir-birinə güllə atacaqlar. Axşam şayiə yayıldı ki, guya Şeyxülislam Allahşükür Paşazadəni kimsə burada həbs eləyib, kimsə ona sui-qəsd etmək istəyir. Mən dərhal Allahşükür Paşazadə ilə telefon əlaqəsinə girdim və onu Lənkəranla bağladım, sonra mənə telefonla dedi, yaxşı ki ora zəng eləyib. Çünki orada onun qohum-əqrəbası çox həyəcan keçirirdi ki, guya Allahşükür Paşazadəni ya burada həbs ediblər, ya sui-qəsd ediblər. Yəni belə şayiələrlə vəziyyət qarışdı.

Belə olan halda ayın 6 və 7-də mən Surət Hüseynovdan xahiş etdim ki, bu məsələyə bir də girişsin, bu məsələlərə son qoyulsun. Bəs nə cür, ayın 3-də söz verildi ki, bu məsələlərə son qoyulacaq, son qoyulmadı. Sonra biz görüşdük, Surət Hüseynov, Vaqif Novruzov, Əli Ömərov bəzi məsələləri müzakirə etdik, bizə axşam məlumat gəldi ki, Bakıda yaşayan, o regiondan olan 50 nəfər adama, rəhbər şəxslərə dəvətnamələr gəlib, orada təsis konfransı, ya qurultay keçirilir və respublika yaranır. Allahşükür

Paşazadə mənə telefon etdi. Mənimlə görüşmək istədi, mənim vaxtımı almadı, çünki Baş nazir Surət Hüseynov bu işlə məşğul olduğuna görə mən dedim ki, Baş nazir məşğul olur. O mənə dedi ki, belə dəvətnamələr gəlib, bir çox adamlar da mənə müraciət eləyiblər, mən özüm də ora getmirəm, o dəvət olunanlar da getmir, amma belə proseslər gedir.

Ayın 7-si idi, bizə xəbər gəldi ki, orada artıq bu iclas başlayıb. Surət Hüseynov, Əli Ömərov, Vaqif Novruzov mənim iş otağımda yığışdıq, Surət Hüseynov telefonla Hümbətovla danışdı, düzdür, o, dərhal telefona gəlmədi, guya nitq söyləyirmiş, biz yarım saat gözləməli olduq ki, bu nitqini tamamlasın, sonra gəlsin. Danışıqdan belə məlum oldu ki, orada guya heç nə yoxdur. Surət Hüseynov bizə məlumat verdi ki, orada heç bir şey yoxdur. Amma axşam məlumat gəldi ki, bu hadisələr baş verib. Talış-Muğan Respublikası elan olunub, Hümbətov oranın Prezidenti təyin olunub, Baş nazir təyin olunub, Ali Sovetin sədri təyin olunub, prokuror təyin olunub, daxili işlər naziri təyin olunub. Səhərisi gün biz çox narahat olduq. Mən yenə də Surət Hüseynova müraciət etdim ki, bu məsələlər necə olub. O dedi ki, bu, yəqin, nəsə anlamır, mən onun yanına adam göndərəcəyəm, dedim, göndər. Surət Hüseynov öz nümayəndəsini ora göndərdi, bir gün gözlədik, nümayəndə sabahısı gün axşam qayıdıb gəldi. Aypara getdi ora, mənə məlumat gəldi ki, Hümbətov deyib, bu məsələlər üçün gərək Hümbətov həm Baş nazirlə, həm də Ali Sovetin sədri Heydər Əliyevlə birlikdə, üçü görüşsün. Dedim, yaxşı görüşək. Nə vaxt gələ bilər, demək, həftənin birinci günü mənə məlumat verildi, üçüncü gün gələ bilər. Mən dedim, sabah gəlsin, vaxt keçir, yox, sabah mümkün deyil, çünki orada Xanbulançay dəryaçasında bunun qoruyucuları batıblar, boğulublar, nə olub, guya onun özü də düşüb, batırmış, boğulurmuş, ona görə də xəstədir. İkinci gün gələ bilməz, üçüncü gün gələcək. Yaxşı, gözlədik üçüncü günü. Üçüncü gün gəlmədi, dördüncü gün gəldi, ancaq mənə məlumat təxminən günün ortasında gəldi ki, o gəlib.

O gün Moskvanın meri Yuri Lujkov Bakıya gəlmişdi, biz onunla görüşməli idik. Bir neçə tədbirimiz vardı, həm Ali Sovetdə, həm Nazirlər Kabinetində, həm də Prezident Aparatında görüşməli idik. Ona görə də mən dedim ki, bu məsələləri gəlin axşama keçirək. Görüş qurtarandan, biz Lujkovu yola salandan sonra danışdıq ki, görüşək, təxminən axşam saat 8-in yarısı idi. Ali Sovetin binasında görüşdük.

Bunun hamısını sizə nə üçün deyirəm. Bir tərəfdən, ona görə ki bu vəziyyəti təsvir edim, ikinci tərəfdən, ona görə ki özümün bu işlərə münasibətimi deyim və əgər mənim məsuliyyətim varsa, sizin qarşınızda

məsuliyyəti də daşımağa hazıram, üçüncü tərəfdən hər şey aydın olsun ki, bu dövrdə bu proseslər nə cür gedib. Düzdür, bəzi adamlar dəfələrcə mənim yanıma gəlmişdilər ki, biz gedib bu məsələni həll eləyə bilərik. Məsələn, Şeyx bir-iki dəfə gəldi, dedim, get, həll elə, həll elədi. Lənkərandan olan başqa adamlar gəldilər. Əlikram Hümbətov bir neçə dəfə bizim dövlət katibi Lalə Şövkət Hacıyevaya müraciət etmişdi və onunla əlaqəyə girmişdi, hətta onu ora dəvət etmişdi. Onunla görüşmək istəmişdi və ona da söz vermişdi ki, Siz gəlin bura, görüşək, bütün məsələlər həll olunacaq. Lalə xanım bu barədə mənə müraciət edəndə, bu məlumatları verəndə mən dedim ki, lazım deyil. Çünki bir halda ki Baş nazir Surət Hüseynov bu məsələləri öz üzərinə götürüb. Ona görə də gəlin bu məsələlərə başqa adam qarışmasın, bir Surət Hüseynov bu işlərlə məşğul olur və o da bu adamla köhnədən tanışdır, bunu daha da müvəffəqiyyətlə həll edəcək. Buna görə bu məsələlər uzandı və nəhayət, avqust ayının 12-də biz görüşdük.

Axşam saat 8-in yarısı idi, mən gözləyirdim, gəldilər mənim iş otağıma, Baş nazir Surət Hüseynov, Əlikram Hümbətov və onlarla bir yerdə iş otağıma Rəhim Qazıyev daxil oldu. Mən Rəhim Qazıyevin bunlarla bura gəlməsinə çox təəccübləndim, ancaq eyni zamanda təəccüblənmədim. Dedim, biz əvvəldən danışmışıq ki, bu söhbət üçümüzün arasında olacaq, yəni Heydər Əliyev, Surət Hüseynov, Əlikram Hümbətov, dördüncü adamın burada iştirak etməsinə lüzum yoxdur. İkinci tərəfdən də Rəhim Qazıyevin bu məsələlərlə məşğul olmağa heç bir səlahiyyəti yoxdur. Üçüncü tərəfdən də mən bilirdim ki, Rəhim Qazıyev bütün bu məsələlərdə müsbət rol oynamır, mənfi rol oynayır. Ona görə də mən dedim ki, Rəhim Qazıyevin burada iştirak etməsi lüzumlu deyil. Rəhim Qazıyev özü bundan narazı oldu, Əlikram Hümbətov, Rəhim Qazıyev kabinetimdə olduğu vaxt çox təkidlə dedi ki, Rəhim Qazıyev burada olmalıdır, o da, nə bilim, qüdrət sahibidir, onun da qüvvəsi var. Mən ona dedim ki, burada qüvvədən söhbət getmir, kimin nə qədər qüvvəsi var, Azərbaycan indi elə bərbad hala düşüb ki, çox adam var, qüvvəsi var, kimi soruşursan, deyir, mənim qüvvəm var, kimi soruşursan, deyir, mənim dalımda adamlar var. Mən bunların hamısını bilirəm. Ancaq bu söhbətdə Rəhim Qazıyevin iştirakı mümkün deyil. Ona görə də mən Rəhim Qazıyevdən xahiş elədim ki, kabineti tərk etsin və bizə, söhbətimizi aparmağa mane olmasın.

Təsəvvür edin ki, ondan sonra yarım saat Əlikram Hümbətov mənimlə mübahisə apardı ki, mən nə üçün Rəhim Qazıyevi incitdim, nə

üçün Rəhim Qazıyev burada iştirak etmir. Mən də buna başa salmağa çalışdım ki, Rəhim Qazıyevin burada iştirak etməyə bir səlahiyyəti yoxdur, Rəhim Qazıyev Milli Məclisin üzvüdür, Milli Məclisin Rəhim Qazıyevdən savayı 50 nəfər üzvü var, bu üzvlərdən ikisi burada iştirak eləyir, Ali Sovetin sədri, bir də Baş nazir, qalanları iştirak etmir. Onda gərək hamısını bura çağırım. Qüvvət sahibi deyirsən, Azərbaycanda qüvvət sahibləri də çoxdur, partiya başçıları da çoxdur, ictimai təşkilat başçıları da çoxdur, gərək onları da çağıraq. Əgər lazım olarsa, bizim bu söhbətimizdə belə bir zəruriyyət yaransa ki, Rəhim Qazıyev və başqaları da iştirak etməlidir, biz onları cəlb eləyəcəyik. Mən ona görə də dedim, bu mübahisəni qurtaraq, əsas mövzuya keçək.

Yarım saat mənim vaxtımı aldı. Nə üçün mən Rəhim Qazıyevi bura buraxmadım. Rəhim Qazıyev haqqında mən sözlərimi deyəcəyəm, ancaq məsələ belə oldu, bundan sonra biz söhbətimizə başladıq. Mən dedim ki, gəlin danışaq, nə məsələdir, Lənkəranda camaatı incidirsən, filan edirsən, səbəbləri nədir? O mənə qayıtdı ki, bilirsiniz, mən bura bu məsələlərdən ötrü gəlməmişəm, mən bura Azərbaycanın vəziyyətini Sizinlə müzakirə etməyə, Azərbaycanın rəhbərliyində olan dövlətsizliyi müzakirə etməyə, Azərbaycanı bu ağır vəziyyətdən nə cür çıxarmaq, onu müzakirə etməyə gəlmişəm və nəhayət, müharibə gedir, müharibə nə üçün uduzulur, torpaqlar nə üçün gedir, bunu müzakirə etməyə. Dedim ki, bunlar, şübhəsiz ki, müzakirə mövzusu ola bilər, hər adamla biz müzakirə eləyə bilərik. Ancaq Sizin xahişinizlə Siz bura gəlmisiniz, biz də Sizi Lənkəran və onun ətrafında olan vəziyyəti təhlil etməyə və birlikdə bundan çıxış yolu tapmağa dəvət etmişik. Yox, mən bu məsələləri müzakirə etmirəm. Çox böyük mübahisə. Mən qayıdanda ki, axı Siz orada qanunsuz işlər görürsünüz, qanunsuz hərəkətlər edirsiniz, qanunsuz silahlı qüvvə saxlayırsınız, insanları tutursunuz, həbs edirsiniz, təzyiq edirsiniz, filan edirsiniz, o deyir, Azərbaycanda qanun yoxdur, Siz də qanunsuzsunuz, Milli Məclis də qanunsuzdur, Siz kimsiniz, mənimlə danışasınız, mənə dedi, Sizin özünüz qanunsuz seçilmiş adamsınız. Milli Məclis də qanunsuzdur, Konstitusiya da pozulub. Azərbaycanda hər şey pozulub. Mənim də pozmağa ixtiyarım var. Çox çalışdım, Əlikram Hümbətova başa salam ki, bu məsələni qarşılıqlı anlaşma yolu ilə müzakirə etmək lazımdır, bu müzakirədən çəkindi və dedi, Talış-Muğan Respublikasını yaratmışıq, Talış-Muğan Respublikası o vaxta qədər olacaq ki... Siz bizim tələblərimizi yerinə yetirmirsiniz. Yetirəndən sonra qalan şeylər öz yerində olacaq. Tələblər də ondan ibarətdir ki, biz bir

bəyləri qovladıq, indi gəlib onun yerinə Siz oturmusunuz. Siz ondan da pis adamsınız, Siz işləri onlardan da pis aparırsınız. Ona görə Siz burada oturmamalısınız, mənim haqqımda deyir.

Bir sözlə, mən demək istəmirəm, mənə qarşı hörmətsizlik, təhqir, cürbəcür böhtanlar, mən bunların hamısına dözdüm, hamısını uddum, yenə də çalışdım ki, Talış-Muğan Respublikasıdır, nədir, orada gedən prosesləri müzakirə eləyək, mən bunları müzakirə edə bilmədim. Yox, mənim tələblərim var, beşməkənlarım var.

Mən Surət Hüseynova müraciət etdim ki, bəs nə məsələdir, nədən ötrü gəlib, nə istəyir? Təəssüf, Surət Hüseynov da onun bu cür hərəkətlərinə bizim danışığımızda lazımi qiymət vermədi, ona lazımi cavab vermədi və dedi ki, bunun siyasi tələbləri var, bu siyasi tərəflərə baxmaq lazımdır. Dedim ki, yaxşı gəlin baxaq. Nədir bunun siyasi tərəfləri, yazmışam. Ali Sovet çağırılmalıdır. Məsələlər Ali Sovetdə müzakirə olunmalıdır, dedim, aydındır, sənin fikrin də, başqalarının fikri də aydındır. Bəziləri belə bir xülyayla yaşayırlar ki, Ali Sovet çağırılmalıdır, keçmiş, vaxtilə kənar olunmuş Prezident Mütəllibov bura qaytarılmalıdır və Əlikram Hümbətov da onunla bərabər burada böyük bir işdə olmalıdır. Dedim, bu, aydındır. Ali Soveti lazımdırsa, çağıraq, mən yenə də deyirəm, bəzi adamlar hədələyirdilər ki, Ali Soveti çağıraq, guya biz bundan qorxuruq. Mən yenə deyirəm, burada Məclis üzvləri var, bizi hədələyirlər ki, Prezident Mütəllibovu bura, Ali Sovetə çağırmaq lazımdır, mən Ali Sovetin sədri kimi lazımi vaxt bunu çağıra bilərəm, ancaq nədən ötrü, Əlikram Hümbətovun bu çirkin niyyətlərini həyata keçirməyə? Ya Mütəllibovu bura Prezident gətirmək üçün? Burada torpaqlar gedir, millət qırılır, qanlar tökülüb, kimlərisə vəzifəyə gətirməkdən ötrü? Mən buna dedim ki, Sizin niyyətiniz aydındır, çünki Sizin Mütəllibovla və onun silahlı dəstələri ilə əlaqələriniz məlumdur. Nədənsə onlar danışmağa qorxurlar. Nədən qorxursunuz? O məlumatları siz mənə verirsiniz. Mənə gətirib verirsiniz, amma burada Məclisdə deməyə qorxursunuz. Deyirəm, bu, aydındır.

İkinci məsələ, Nazirlər Kabineti, Baş nazirin səlahiyyətləri yoxdur, ona səlahiyyətlər verilməlidir, o mənim dostumdur, mənim silahdaşımdır, Siz bunu gətirmisiniz, o burada işləyə bilmir, Surət Hüseynova səlahiyyətlər verilməlidir. Dedim, bilirsən, bu sənin işin deyil. Bu, Ali Sovetin və Nazirlər Kabinetinin işidir və əgər Milli Məclis Heydər Əliyevi seçibsə və Ali Sovet Baş nazir Surət Hüseynovu təyin eləyibsə, şübhəsiz ki, bu bizim aramızda olan işdir, sən bu işə nə cür qarışırsan? Biz bu mə-

sələləri özümüz həll edirik, bu məsələ Məclisin səlahiyyətindədir, əgər kiməsə lazımdırsa, əlavə səlahiyyət veriləcək, burada bir şey yoxdur.

Mən vaxtınızı almaq istəmirəm, bu mövzu Əlikram tərəfindən çox geniş, çox kəskin qoyuldu, mən də ona lazımi cavablar verdim. Üçüncü, referendumun istiqaməti dəyişməlidir, referendumda bir sual yazılmalıdır ki, Prezident lazımdır, ya lazım deyil. Camaat da cavab verəcək ki, lazım deyil, mən onsuz da 7 rayonda bu referendumu pozacağam. Prezident üsul-idarəsi ləğv olunmalıdır, Prezidentin bütün səlahiyyətləri Baş nazirə verilməlidir. Dedim, yaxşı, bunu müzakirə eləyərik. Hər bir təklifi müzakirə eləyərik. Beləliklə, bunun əsas təklifləri bundan ibarət oldu, dedi ki, bu təkliflər həyata keçməsə, Talış-Muğan Respublikası yaşayacaq və bu təkliflər həyata keçəndən sonra Talış-Muğan Respublikası ləğv olunacaq.

Belə çıxır, bunu əgər bizim düşmənlərimiz Azərbaycanı parçalamaq üçün yaradırlarsa, içimizdə və xaricimizdə olan Əlikram kimi adamlar onların əlində bir alətdirsə, bəzi adamlar da həm o məqsədlə, həm də öz şəxsi məqsədlərinə nail olmaq üçün bundan istifadə edirlər ki, bəli, Məclisdə şəxsən Heydər Əliyevə təzyiq etsinlər. Demək, bu, faktdır, əgər o mənim qabağımda bu cür şərt qoyursa, məsələ bundan ibarətdir. Mənim üçün aydındır. Mən bütün bunlara baxmayaraq, çox çalışdım, bu adamı yola gətirim, danışıq aparaq, bunların hamısından bu imtina etdi, çıxıb getdi. Danışarkən o mənə qarşı bir neçə ittiham irəli sürdü ki, Siz burada qeyri-qanuni oturmusunuz. Biz inqilab eləmişik, bəyləri yıxmışıq, Siz bizim çiynimizdə gəlmisiniz bura, mənə deyir və Siz buradan çıxıb getməlisiniz. Mən dedim, mən hər gün gedə bilərəm. Mən çox şad olaram ki, Siz bu dəqiqə buradan çıxıb gedəsiniz.

Mən ona deyəndə ki, axı Sizin nə səlahiyyətləriniz var, mənimlə belə danışmağa, mənə dedi, mənim səlahiyyətim mənim avtomatımdır, mən dedim, bilirsiniz, mənim nə avtomatım var, nə pulemyotum var, nə topum var, mənim bir canım var, bir də, siyasi biliyim, bacarığım var, ona görə də mən bu işləri aparıram. Kim avtomatla mənimlə mübarizə aparmaq istəyirsə, o, böyük səhv edir. O, avtomatla, sadəcə olaraq, məni vurub öldürə bilər, mən demişəm, bir də deyirəm, mən canımdan qorxan adam deyiləm, heç kəs də mənim qarşımda heç bir şərt qoya bilməz, kim də məni öldürmək istəyirsə, gəlsin, öldürsün, əgər öldürə bilirsə, öldürə də bilərlər, mən başqaları kimi deyiləm ki, qaçım kənddə gizlənim. Burada oturacağam. Əgər cinayətkar adamlar öz istədiklərinə nail olmaq istəsələr, bəli, həlak olmağa hazıram. Çünki bu tək

Əlikramin sözü deyil, Əlikramin arxasında duran adamların sözləridir. Bunların hamısına cavab verirəm, onların bəziləri bu zalda oturublar. Ona görə də bu söhbət bitdi, bir şey alınmadı, Surət Hüseynova mən öz narazılığımı bildirdim, dedim ki, belə olmaz. Bu məsələləri qurtarmaq lazımdır, həll eləmək lazımdır.

Bu söhbətdə bir fikir də, bir tələb də var idi ki, Siz Milli Məclisdə səlahiyyətsiz adamlarsınız, o regiondan cəmi 8 nəfər Milli Məclisin üzvü var, 41 nəfər deputat var. Bu deputatları niyə çağırmırsınız? Mən dərhal onun bu tələbini də yerinə yetirdim. Ayın 3-də axşam saat 10-da o regiondan olan deputatlar, 41 deputatdan da çox deputat gəldi, deputatlar hamısı dəvət olundu, hətta deputatlardan savayı orada şəhər sovetinin deputatları, rayon sovetinin deputatları, ağsaqqal adamlar, alimlər, akademiklər, professorlar, filanlar, nazirlər, onlar dəvət olundu. 4 saat biz bu məsələni müzakirə elədik, bu, televiziyada verilib. Ola bilər, bu sözlərimin də bir çoxunu mən orada demişəm, təkrar edirəm, Məclisə hörmət edərək mən Məclis qarşısında hesabat verirəm. Mən vaxtınızı boş yerə almıram. Yığdıq, danışdıq, bəli, ayın 13-14-nə keçən gecə saat 2-də biz iclası qurtardıq, camaat, deputatlar da öz fikrini dedi, bir kəs Əlikram Hümbətovu müdafiə etmədi. Düzdür, bizim rəhbərlikdən olanlar bəziləri öz çıxışlarında nala-mıxa vururdular. Onu da siz eşitdiniz. Onların bəzilərinə mən dedim, mövqe tutmaq lazımdır, kim, doğrudan da, ciddi mövqe tutursa, hansı mövqe tutursa, tutsun, o insan hörmətə layiqdir. Amma kim bu tərəfə, o tərəfə vurursa, onlar heç bir hörmətə layiq deyillər. Bizim içimizdə beləsləri var.

Bu iclasın nəticəsi də sizə məlumdur və burada iclasda dəfələrlə qeyd etdilər ki, nə üçün indiyə qədər buna münasibət bildirilməyib, nə üçün dövlət səviyyəsində buna baxılmayıb. Doğrudan, bunda həqiqət var və mən də günahkaram, ancaq bunun səbəblərini orada da izah etdim, sizə də izah edirəm və güman edirəm ki, siz bunu düzgün qəbul edəcəksiniz və şəxsən məni çox günahlandırmayacaqsınız, əgər günahlandırsanız, mən cəzamı çəkməyə hazıram. Ona görə də mən bu məsələni Məclisin müzakirəsinə çıxardım. Bəziləri nəyə lazımdır, dedilər, ancaq mən razılaşmadım.

Təsəvvür edin, dünən məlumat verirlər ki, Əlikram Hümbətov Lənkəranda televiziya ötürücü stansiyasına 8 nəfər avtomatçı göndərib, onların adamlarını həbs edib, Azərbaycan Televiziyasının verilişlərinin yayımlanmasını qadağan edib. Mən Vahid Əhmədova göstəriş verdim, bir şey eləmədi, axşam ondan soruşdum, deyir ki, belə elədi, elə elədi.

Rəsul Quliyevə göstəriş verdim, sonra daxili işlər naziri gedib orada onları hədələyibłər, bu gün də mən Rəsul Quliyevdən soruşdum, deyirlər ki, indi ora mühafizə olunur, ancaq nə olacaq, onu bilmirik.

Belə olan halda, Əlikram Hümbətov dəlidir, nədir? Əlikram Hümbətov bir nəfər, o qədər böyük bir ağıla malik olmayan adam bu bölgəni necə əlində fırladır, burada oturan bəziləri də ona yaltaqlıq eləyirlər. Bəziləri onun bu hərəkətindən yararlanmaq istəyirlər. Bəziləri isə onu qızışdırır, bu işə sövq edirlər və beləliklə, respublikanı dağıtmaq istəyirlər. Belələrindən biri Rəhim Qazıyevdir. Mən Rəhim Qazıyevi əvvəllər uzaqdan tanıyırdım. Bura gələndən sonra onu yaxından tanıdım. Mən sözümün əvvəlində də deyirəm, axırında da deyəcəyəm, Azərbaycanı dağıtmaq istəyənlərdən ən təhlükəli adam Rəhim Qazıyevdir. Sübutlarım var. Sübutlarım ondan ibarətdir ki, Rəhim Qazıyev dəfələrcə Lənkərana gedib, dəfələrcə Əlikramla görüşüb, onunla bir yerdə saatlarla oturub. Soruşuram, nəyə görə, nə marağı var?

Burada sual verdik, Əbiyev cavab verə bilmədi. O hərbi hissələr məhz Rəhim Qazıyevin vaxtında Əlikramin əlinə keçib, Rəhim Qazıyev ona həmişə himayədarlıq eləyib. Nəinki onun bütün qanunsuz hərəkətlərinə yol verib, onların hamısına kömək edib. Mən burada işlədiyim dövrdə Rəhim Qazıyev dəfələrcə Lənkərana gedib. Hər dəfə də deyib ki, getdim, danışdım, düzələcək. Bir dəfə də o mənə telefon etdi, yaxud kabinetdə görüşdü, dedi ki, mən istəyirəm, Lənkərana gedəm. Dedim, sənin Lənkərana getməyin lazım deyil, bu işlərlə Baş nazir Surət Hüseynov məşğul olur, ona mane olma, sənin ora gedib-gəlməyində heç bir mənfəət yoxdur, sən ora getmə. Mən bunu Rəhim Qazıyevə dedim. Ancaq Rəhim Qazıyev bundan əl çəkmir.

Məsələn, mən sizə deyirəm, ayın 7-8-dən sonra biz Surət Hüseynovla vəziyyətdən çox narahat olduq, Surət Hüseynov ora getdi, bütün xalq gördü, televiziya göstərdi, o regionda olan adamlar hamısı bu səfəri çox yüksək qiymətləndirdilər, böyük ümid bəslədilər. Surət Hüseynov qayıdandan sonra Əlikram bu fırıldaqlarla məşğul oldu, beləliklə, bu kişini də hörmətdən, nüfuzdan saldı, ona da böyük zərbə vurdu. Ona görə də biz məsləhətləşdik, yenə bir adam göndərək ki, bəlkə, bu məsələni tezliklə həll eləyək. Sonra mən eşidirəm ki, Aypara ora gedəndə Rəhim Qazıyev də onunla olub. Soruşdum, dedilər ki, Rəhim Qazıyevi Surət Hüseynov göndərməyib, bilib ki, Aypara ora gedir, dalınca gedib, gecə səhərə qədər Əlikramla Rəhim Qazıyev Aypara ilə söhbət eləyiblər, soruşublar, niyə, sənin nə marağın var, kim səni bura göndərib. Surət

Hüseynov göndərməyib, mən göndərməmişəm, vəziyyət belə gərgin, nə marağın var? Əgər sən burada müsbət rol oynamaq istəyirdinsə, onda niyə sən gedib-gələndən sonra Əlikram gəlib bu cür tələblər verdi? Ancaq onun tələblərinin bəzilərini Rəhim Qazıyev bu salonda dedi ki, Nazirlər Kabinetinə səlahiyyətlər vermək lazımdır və səlahiyyətlər verilsə...

Biz ona Baş nazirin müavini vəzifəsini təklif eləmişdik, ona görə mən Rəhim Qazıyevdən sual edirəm və siz də sual edin, aydınlaşdırın. Rəhim Qazıyevin nə marağı var, nədən ötrü Aypara ora gedəndə – Aypara Baş nazirin xüsusi nümayəndəsidir – o da ora gedib. Nə üçün ona qoşulub, hətta mənə deyirlər ki, qoşulmayıb, o getdiyini eşidib, dalınca gedib. Əlikram Bakıya Baş nazirin yanına gəlib, o da kabinetə soxulub onunla oturub, nə üçün?

Cavan adamdır, qeyrətli, namuslu adamdır, xalq ona inanıb, Məclis etimad göstərib Baş nazir qoyulub, işləməlidir. Nə üçün bundan əl çəkmirsən, nə üçün mane olursan? Ona görə də mən Rəhim Qazıyevi ayın 12-də bizim Əlikramla, Surət Hüseynovla görüşümüzə buraxmadım və onun orada iştirak eləməyə haqqı yox idi. Onun haqqı ondan ibarətdir ki, bütün bu çirkin işlərinə cavab versin və o, cavab verməlidir və verəcək də.

Rəhim Qazıyevin işləri bir bununla qurtarmır. Əlikramla bütün bunlar hamısı bərabər gedir. Rəhim Qazıyev vəzifə iddiasındadır. Prezident olmaq istəyirdi, indi görür ki, alınmır, ona görə Əbülfəz Elçibəyi yıxırdı. Burada durub danışdı ki, Əbülfəz Elçibəyi ekspertizadan keçirmək lazımdır ki, onun idarəetmə keyfiyyəti var, yoxsa yox. Rəhim Qazıyevin dilindən bu sözləri eşidəndə nifrət elədim. Nə üçün? Sən o adam deyilsən ki, 4 il Əbülfəz Elçibəyin rəhbərliyi altında Xalq Cəbhəsində olmusan. Sən o vaxt görmürdün ki, Əbülfəz Elçibəy hansı keyfiyyətlərə malikdir, Əbülfəz Elçibəy Prezident seçiləndə sən onun yanında deyildin? Mayın 15-də Mütəllibov ikinci dəfə hakimiyyətə gələndə və onu yıxanda Rəhim Qazıyev öz silahlı dəstəsi ilə – mən bunu televiziyada görmüşəm – başında da bir buxara papaq gəlib meydanda çıxış eləmirdi? Nə qədər ikiüzlülük olar? Nə qədər bu xalqa xəyanət olar? Həmin Rəhim Qazıyev deyilmi, mənim gözümün qabağındadır, əgər siz televiziya lentlərini, başqa şeyləri görsəniz, dəhşətə gələrsiniz.

Bəli, Əbülfəz Elçibəyi yıxırdı ki, Prezident olsun, görəndə ki, Prezident ola bilmir, Baş nazir olmaq istəyirdi və bu iddia ilə yaşayırdı.

Şübhəsiz, bir halda ki bu səlahiyyət mənə verilmişdi, mən belə adamı Baş nazir təqdim eləyə bilməzdim.

Ondan sonra bir təklif vermişdi ki, burada bir dövlət naziri vəzifəsi yaratmaq və üç güc nazirini ona tabe eləmək lazımdır. Surət Hüseynovla biz bu məsələni müzakirə etdik, mən hər məsələni müzakirə edirəm. Güc nazirliklərini biz Prezidentdən savayı, eyni zamanda Baş nazirə tabe etdik ki, Baş nazir bunlara operativ rəhbərlik edib, Azərbaycanın müdafiə məsələlərini yaxşı təşkil eləyə bilsin. Məhz buna görə bunu etdik. İndi ikinci bir həlqənin yaranmasına ehtiyac varmı? Bir Rəhim Qazıyevdən ötrümü bunu eləməliyik? Surət Hüseynov özü mənə dedi ki, Heydər müəllim, bu, boş şeydir, belə şey ola bilməz. Dedim, ola bilməz, onda özün cavabını ver. Yəqin ki, cavabını verdi, amma Rəhim Qazıyev bu iddia ilə yaşayır.

Sonra yenə də Rəhim Qazıyevin müəyyən iddialarını, vəzifə davasını, filanını qurtarmaq üçün Surət Hüseynovla danışdıq ki, bəli, bunu qoyaq, Baş nazirin hərbi sənaye üzrə müavini işləsin. Başımıza nə iş gətirdi, gördünüz. Sonra müdafiə naziri olmaq fikrinə düşdü və bilirəm, dəfələrlə Surət Hüseynova müraciət eləyib ki, onu müdafiə naziri qoysunlar. Surət Hüseynov bu işə getməyib və belə alınmayanda o, Surət Hüseynova Vahid Musayevi təklif eləyib. Mən Vahid Musayevi tanımıram. Ancaq nə əsasım var bunu deməyə? Ona görə ki biz hələ burada işləyəndə Surət Hüseynov Gəncədə idi, biz onunla danışıqlar apardıq, o vaxt bizim Baş nazirin müavinləri ilə bir neçə çevrədə söhbətlərimiz gedirdi. Burada Rəhim Qazıyev, Etibar Məmmədov iştirak edirdi. Bir gün yığışmışdıq, gəlib məcbur eləyir ki, Vahid Musayevi müdafiə naziri qoymaq lazımdır. Mən dedim, bilirsiniz, nə var, bir halda ki mən Surət Hüseynovla danışıqlar aparıram, Surət Hüseynov bura gələcək, biz müdafiə məsələlərini onunla müzakirə edəcəyik. Mən Surət Hüseynovla razılaşmamış müdafiə naziri məsələsini, ümumiyyətlə, həll edə bilmərəm. Vahid Musayev, ya başqası, ya o birisi, ya da bu birisi. O mənə qayıtdı ki, mən Surət Hüseynovla danışdım, dedim, haradan danışdın, dedi, Sizin qəbul otağınızdan. Dedim, mən bilmirəm, danışmısan, danışmamısan, bu, telefonla həll olunası məsələ deyil. Azərbaycanın müdafiə naziri, bu, ciddi bir məsələdir, elə də yanan bir şey deyil. Surət Hüseynov Bakıya gələcək, biz onunla görüşüb müzakirə edəcəyik və müdafiə naziri də təyin edəcəyik.

Mən sizə çatdıra bilərəm ki, Surət Hüseynov işə başlayandan sonra biz müzakirə etdik. Surət Hüseynov özü dedi ki, indi bu dəqiqə müdafiə

naziri təyin etməyə layiqli bir namizəd tapa bilmir. Bir balaca gözləyək, bəzi namizədlərə baxaq, ondan sonra fikrimizi deyərik. Ancaq Rəhim Qazıyev bu tələbi tələsik mənim qarşıma qoydu, Rəsul Quliyev də, Etibar Məmmədov da oradaydı, başqaları da təsdiq eləyərlər. Çünki onun fikri o idi, bəli, Vahid Musayev olsun müdafiə naziri, o, Baş nazir, əgər alınmırsa, dövlət naziri, hamısı keçsin onların əlinə. Mən qoymadım.

İndi niyə mən bu nəticəyə gəldim. Bu təklifi bir neçə adamın yanında Rəhim Qazıyev verib, mən imtina etmişəm, bu təklifi Əlikram Hümbətov da verib, bir dəfə şəxsi danışıqda, bir dəfə də avqust ayının 12-də Surətlə danışığında verib ki, müdafiə naziri ancaq Vahid Musayev olmalıdır. Beləliklə, bu kişini, Surət Hüseynovu da yoldan çıxarırlar, işləməyə qoymurlar. Öz şəxsi mənafelərinə görə. Ancaq bir bu deyil, Rəhim Qazıyevlə Əlikramin çirkin işləri təkcə bundan ibarət deyil. Ondan ibarətdir ki, Rəhim Qazıyev burada provokasiyalarla məşğul olur, vaxtaşırı adamları qorxudur, Mütəllibovu tezliklə Azərbaycana gətirin, Mütəllibov Azərbaycana gəlməsə, Rusiya ermənilərə daha çox kömək edəcək və ermənilər hər yeri alacaqlar, çünki Mütəllibov Moskvada dövlət dairələri ilə əlaqədədir, onun bura gəlməsi lazımdır, filandır. Ağdama hücumlar olanda, orada vəziyyətimiz ağır olanda mənə də, bir neçə başqa adama da telefon edib, tezliklə Mütəllibovu bura gətirmək lazımdır, çünki Mütəllibov bura gəlməsə, biz ermənilərin qabağında dura bilməyəcəyik, çünki Rusiya onu müdafiə eləyir. Yalan danışır, camaatı aldadır, başdan ayağa provokasiyadır. Düzdür, o, Mütəllibovu özü üçün bura gətirmək istəyir, amma Rusiyanın buna heç bir aidiyyəti yoxdur.

Mən bunların hamısını sizə deyəcəyəm, Rusiyanın dəxli yoxdur, bu, Mütəllibovla Rəhim Qazıyev və Əlikram Hümbətov arasında olan sazişlərdir, bunlar hamısı məlumdur. Məlumdur ki, Mütəllibovun adamları Lənkərana Əlikramin yanına gedib-gəlirlər, burada bəzi adamlarla görüşürlər, gedib Moskvada görüşürlər. Məlumdur ki, Əlikram Hümbətov Lənkərandan Mütəllibovla danışır, Rəhim Qazıyev də. Rəhim Qazıyev də dalbadal onun yanına gedir, bunlar da məlumdur. Hamısı məlumdur. Bəli, Mütəllibovu tez gətirmək lazımdır, yoxsa ruslar ermənilərə kömək edirlər, gəlib bizim torpağımızı alacaqlar. A kişi, Mütəllibov torpağı saxlayan idi, elə Prezident idi, saxlayaydı da. Saxlayaydı bu torpağı da. Əlikram Hümbətov da bu məsələni mənim qarşıma qoyur və Rusiya faktorunu istifadə edirlər.

Əlikram Hümbətov Surət Hüseynovun yanında mənim üzümə nə dedi, Siz niyə burada oturmusunuz, Rusiya sizi qəbul etmir. Bir halda ki

Rusiya Sizi qəbul etmir, Siz Azərbaycanın rəhbəri ola bilməzsiniz, çıxıb buradan getməlisiniz. Mən dedim ki, sən nə bilirsən, Rusiya məni qəbul etmir? Mən bilirəm ki, Rusiya Sizi qəbul etmir. Dedim, birinci, tutaq ki, Rusiya qəbul edir, ya qəbul etmir, Rusiyanın bizim daxili işlərimizə qarışmağa haqqı yoxdur. İkinci də, sən haradan bilirsən, sən Rusiyanın rəhbərləri ilə əlaqədəsən, filansan, beşməkansan, Rusiya Sizi qəbul etmir. Bəs Rusiya kimi qəbul edir? Surət Hüseynovu qəbul edir. Dedim, onda yaxşı, Surət Hüseynov bəs niyə indiyə qədər Rusiya ilə əlaqəyə girib bizim bu işləri həll eləmir? Deyir, Siz ona səlahiyyət verməmisiniz. Səlahiyyət verin, qoyun, həll eləsin. Mən dedim ki, bütün səlahiyyətlər var, bu gün Surət Hüseynovu Moskvaya göndərə bilərəm, Rusiya ilə danışsın.

İş nə dərəcəyə çatıb, bunların hamısı Rəhim Qazıyevin işləridir, Əlikramin işləri deyil. Oradan-buradan, burada camaatı qorxudur, məni qorxutmaq istəyir ki, Mütəllibov bura gəlməsə, ermənilər gəlib Bakıya çıxacaq. Camaatda bu cür qorxu yaradır, oradan Əlikramə, Surət Hüseynova belə təsirlər edir. Görün bir nəfər adam nə qədər çirkin işlər görür.

Mən sizə məlumat verə bilərəm ki, Rusiyanın xarici işlər naziri Andrey Vladimiroviç Kozırev mənə telefon eləmişdi. Mənim başqa adamlarla da əlaqəm var, mən əlaqələrimi heç gizlətmirəm. Amma şəxsən mənə telefon etmişdi, dedi ki, mən Sizinlə Rusiyanın Prezidenti Boris Yeltsinin göstərişi ilə danışıram. Bir neçə məsələni müzakirə etdik. O cümlədən onlar xahiş edirlər, Boris Yeltsin əvvəl də xahiş edib və bu məsələni, beş nəfər burada məhkum olunmuş rus vətəndaşının onlara verilməsini də mən tapşırmışam, komissiyalar baxsın. Başqa məsələləri də müzakirə etdik. Sonra mən ona dedim, bilirsiniz, Andrey Vladimiroviç, burada belə bir məsələ var, mən aydınlaşdırmaq istəyirəm, bəzi adamlar şayiə yayırlar ki, guya Rusiya hökuməti Mütəllibovu Azərbaycanda prezidentliyə, Azərbaycanın rəhbərliyinə gətirmək istəyir və bu adamlar stabilliyi pozurlar. Bir halda Siz Prezidentin adından mənimlə danışırsınız, ona görə mən Sizə bunu rəsmi deyirəm və rəsmi də Sizdən cavab almaq istəyirəm. O mənə dedi ki, Heydər müəllim, Siz çox təcrübəli bir siyasətçisiniz, təcrübəli bir adamsınız, Siz belə şeylərə inanırsınızmı? Dedim, mən bunlara inanmıram. Ancaq bizim bəzi adamlar bu şeylərlə spekulyasiya edirlər, provokasiya aparırlar, Rusiyanın adını ləkələyirlər. Ona görə mən Sizdən rəsmi cavab almaq istəyirəm. Dedi ki, mən Rusiyanın Prezidenti adından deyirəm, biz Azərbaycanın daxili işlərinə qarışmırıq. Bu

sözləri mənə Rusiya parlamentinin başçısı da deyib, biz Azərbaycanın daxili işlərinə qarışmırıq, bunlar hamısı uydurmadır və yəqin ki, Sizin vəziyyətinizi çətinləşdirmək, işinizi pozmaq üçün eləyirlər.

Mən sizə məlumat verə bilərəm, heç nəyi gizlətmərəm, Rusiyanın rəhbərliyi ilə mənim əlaqələrim davam edir və hesab edirəm ki, bu əlaqələr lazımdır. Ona görə yox ki, mən qorxuram, kimi gətirəcəklər, kimi gətirməyəcəklər, Azərbaycan xalqının bugünkü vəziyyətində Rusiya dövləti ilə münasibətlər yaxınlaşmalıdır və Rusiyanın rəhbərləri ilə əlaqələr davam etməlidir. Bu mənim fikrimdir və bu fikri də mən həyata keçirəcəyəm. Mən Rusiyanın səfiri ilə söhbət eləmişəm. Demişəm ki, bu nədir, nə məsələdir? Səfir də mənə deyir ki, Heydər müəllim, Siz nə başa düşürsünüz, Rəhim Qazıyev kimdir, nə bilim, filan kimdir, beşməkan kimdir. Rusiyanın səfirinə mən deyirəm ki, burada "Zerkalo" qəzetində Baba Nəzərli bir müsahibə verib, Rəhim Qazıyevlə Baba Nəzərli Qraçovdan silahı nə cür alırmışlar, nə bilim, Kolesnikovdan, filandan, beşməkandan, bu sizi, Rusiyanı çox yaxşı şəkildəmi göstərir? "Zerkalo" qəzetində oxumusunuz, o silahlar nə cür alınıb, guya onu veriblər, sübut eləsinlər ki, bu silahları Əbülfəz Elçibəyin göstərişi ilə alıblar, ancaq bu cür çirkin işlər olarmı, gedib silah alırlar. Bəli, bunlar silah alveri ediblər, bunu artıq özləri açıq deyiblər, amma silah alverini gətirib dövləti hərraca qoymağa çıxarmaq olmaz, necə ki Rəhim Qazıyev edir.

**Rəhim Qazıyev.** *(Mikrofondan kənar eşidilmir.)*

**Sədrlik edən.** Mənim qanacağım var, hamısını deyəcəyəm, otur yerində.

**Rəhim Qazıyev.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Otur yerində, otur yerində. Otur. Sən çox adamın üstünə qışqırmısan. Mən sənə qışqırmıram. Otur yerində. Otur, otur. Heç narahat olma. Xalq hər şeyi bilməlidir. Otur yerində. Əyləşin. Mən nitqimi davam etməliyəm. Mən sözlərimi deməliyəm. Xalq hər şeyi bilməlidir. Burada səs-küy salmaq lazım deyil. Əyləşin. Hamısı məlumdur. Əyləşin. Sakit olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, Rusiyanın adını ləkələmək lazım deyil. Rusiya dövləti və onun başçıları Azərbaycana qarşı çox düzgün münasibətdədirlər və belə şeylərdən öz məqsədlərindən ötrü istifadə etmək lazım deyil. Mən bunu bu gün burada deməliyəm, çünki bu söhbət camaatın arasında gedir.

İkinci, burada Rəhim Qazıyev və başqa onun kimi adamlar Mütəllibovu bura gətirmək istəyirlər. Bilirsiniz, nə var? Xalq hər şeyi bağışlaya bilər, ancaq xalq qarşısında cinayəti bağışlaya bilməz. Mütəllibovun ailəsi bir müddət bundan qabaq gəlib burada yaşayır, yaşasın. Allah onlara imkan versin, yaşasın. Mütəllibov da bir vətəndaş kimi yaşaya bilər, ancaq o silahlı qüvvələr ki Mütəllibovun ətrafında yığışıblar və Rəhim Qazıyevlə, Əlikramla bərabər bu işləri görmək istəyirlər, onlar bilsinlər, xalq bunu qəbul etməz. Mən şəxsən məni söyəni də, döyəni də bağışlayıram, mənə pislik edəni də bağışlayıram, amma xalqa xəyanət edən adamı bağışlaya bilmərəm. Ona görə də bu söhbətləri qurtarmaq lazımdır. Qurtarmaq lazımdır və insanları çaşbaş salmaq lazım deyil.

Mütəllibov istefa verib, çıxıb gedib, bir dəfə cəhd göstərib, çalışıb gəlsin, o gün də dayana bilməyib çıxıb gedib, qurtarıb, keçib tarixə. Ondan sonra Prezident seçilib, indi o Prezidentin müqəddəratı həll olunur, burada nə cür bu danışıqlar aparılır, bu danışıqların müəllifi kimdir? Xalqın bu ağır vəziyyətində bunları nə üçün edirsiniz? Nədən ötrü bunları edirsiniz? Həmin o Əlikram də,  başqaları da, Ali Soveti çağıraq, nə bilim, filan edək. Adil Hacıyev var, xalq deputatıdır, Mütəllibovun vaxtında nə işlər görüb, siz yaxşı bilirsiniz, burada cürbəcür işlər aparır, bir dəfə də gəlmişdi bura, söz istəyirdi, mən hələ istədim, ona söz də verəm. Ancaq sonra eşidirəm, bəli, orada-burada adam yığır, Mütəllibov bu gün gəldi, sabah gəldi, camaatı qorxudurlar ki, Mütəllibov, nə bilim, bu gün gəlir, qoşunla gəlir. Bəsdir, bu camaatı bu vəziyyətə qoymaq.

Mən bir fakt da deyə bilərəm, mən heç bir şeyi yalan danışmıram. Müzamil Abdullayev, bizim kənd təsərrüfatı naziri, bu gün də mənimlə danışanda dedi ki, hələ Surət Hüseynov Gəncədə oturanda Rəhim Qazıyev onun yanına gəlmişdi, deyirdi, Mütəllibov artıq Rusiyanın diviziyası ilə gəlib oturub Dağıstanda, bu dəqiqə Azərbaycana girəcək. Bunu Müzamil Abdullayev mənə deyib, başqa adam deməyib. Bəli, Müzamil Abdullayev bu danışıqda iştirak edib.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Nəyə çağırtdıracağam? O mənə deyib, mən də deyirəm. Əgər deməyibsə, gəlsin, desin, deməmişəm. Bəli...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsini çıxarma, sonra danışarsan. Bəli, bəli, ona görə də bax bunların hamısını mən açıram və deyirəm. Azərbaycan ağır vəziyyətdədir. Biz məğlub oluruq, Ermənistan tərəfindən torpaqlarımız

işğal olunub, dünən bütün günü biz Füzuli ilə məşğul olmuşuq. Ermənistanın rəhbərliyi ilə əlaqəyə girmişik ki, atəş dayandırılsın, indi biz buna cəhd edirik. Oradan qoşunlar çıxıb qaçıb, mən bu məsələləri açmaq istəmirəm, ancaq bunların hamısı bizim içimizdə olan qanunsuzluq və belə adamların, ayrı-ayrı adamların bu cür hərəkətlərinin nəticəsidir.

Mənim bu sözləri deməyə haqqım var, çünki Rəhim Qazıyevin əgər bu dediyim şeylərdə marağı yox idisə, nə üçün bu işlərlə məşğul idi? Məsələn, biz Surət Hüseynovla Qarabağa getmişik, Rəhim Qazıyev gəlib çıxıb ora. Səni kimdir bura dəvət edən? Biz Surət Hüseynovla Gəncəyə getmişik, gəlib ora. Səni kimdir bura dəvət edən? Nə istəyirsən, ay qardaş? Daha sən vəzifədən getdin, bəsdir də. Nə istəyirsən, düşüb Ayparanın, Sadayın yanına, ora gedirik, ora gəlir, oradan gedirlər, həmin yerə gəlir. Bunlar da düz demir, bunlar ki camaatın gözünün qabağında olan şeydir. Mən səndən soruşuram, səni kim ora çağırmışdı? Sən ora nəyə gəlmişdin? Nə üçün bu kişinin işləməsinə mane olursan? Niyə əl çəkmirsən bundan?

Mən bir məsələni də demək istəyirəm. Burada bəzi çıxışlarda və bəzən belə fikirlər yayılır ki, guya Əlikramin hərəkəti filan İran İslam Respublikası tərəfindən istiqamətləndirilir, yaxud onlar kömək edirlər, filan. Mən bunu da demək istəyirəm, bu da yalandır. İran hökumətinin rəhbərləri ilə mən əlaqədəyəm, sabah İranın xarici işlər naziri Ağaye doktor Vilayəti bura səfərə gəlir, bizim onunla görüşlərimiz, söhbətlərimiz olacaq. Mən bu yaxınlarda İran İslam Cümhuriyyətinin səfiri Ağaye Ələsgər Navahandiyanla görüşmüşəm, o mənə deyib ki, İranın dövlət orqanları ilə Əlikramin qüvvələrinin heç bir əlaqəsi yoxdur, əlbəttə, əgər bizim içərimizdə mafioz qruplar onunla əlaqədardırsa, yəqin, İrandan da belə qüvvələr var, ola bilər. Ona görə də mən bunu da açıq demək istəyirəm ki, biz İran İslam Respublikası ilə münasibətlərimizi bərpa etməliyik, bu bizim böyük qonşumuzdur və doktor Vilayətinin, xarici işlər nazirinin sabahkı səfəri də bununla əlaqədardır. Mən istəməzdim ki, ayrı-ayrı şəxslər öz şəxsi məqsədləri üçün, bizim bu əlaqələri ləkələmək üçün cürbəcür şayiələr yaysınlar.

Beləliklə, mən sizə deyəcəyim bütün məlumatları bitirdim, bəlkə də, vaxtınızı çox aldım, bəlkə də, bəzi şeyləri demək lazım deyildi, ancaq mən sizə düzünü deyim, mənim ürəyim artıq partlayır, çünki mən bu qədər burada oyunbazlıq, bu qədər çirkin işlər görürəm, bu qədər vəzifəpərəstlik görürəm. Torpaq gedir, millət qırılır, qan tökülür, insanlar

burada vəzifə hərisliyindən əl çəkmirlər. Ona görə də mən bunları sizə deyirəm, düz deyirəm, ürəyimdə olan sözləri deyirəm, bəlkə də, deməməli idim, amma deyirəm ki, siz də biləsiniz, xalq da bilsin, qoy özü öz hökmünü çıxarsın. Mən hesab edirəm ki, biz çox işləyirik. 20 dəqiqəlik tənəffüs elan edirəm.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Rica edirəm, Məclis üzvləri qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

46 nəfər iştirak edir, yetərsay var.

Mən geniş məlumat verdim sizə, ola bilər, vaxtınızı aldım, ancaq bir də qeyd edirəm ki, dediklərimin hamısı həqiqətdir və həqiqəti də xalq bilməlidir. Nəyin bahasına olur-olsun, nə cür olur-olsun, xalq bunu bilməlidir. Ancaq biz böyük bir problemi müzakirə edirik, burada ayrı-ayrı adamlardan söhbət getmir, bu, çıxışımın əvvəlində dediyim kimi, Azərbaycanı parçalamaq cəhdləridir, azərbaycanlıların düşmənləri tərəfindən xaricdə uzun illər, on illiklərdən bəri hazırlanmış planların həyata keçirilməsidir.

Ona görə də mən dediyim sözlərə bir neçə kəlmə əlavə etmək istəyirəm. O mənada ki, Azərbaycan Azərbaycanın torpağında yaşayan vətəndaşların hamısı üçün vətəndir, biz hamımız azərbaycanlıyıq, bu torpaqda azərbaycanlı kimi doğulmuşuq, azərbaycanlı kimi yaşayırıq, Cənub zonasında, Şimal zonasında, Qərb zonasında, Şərq zonasında olanlar, hamısı azərbaycanlıdır. Ona görə də indi Azərbaycanın həyatının bu ağır dövründə bəzi adamların etnik qruplardan və ya başqa şeylərdən istifadə edib millətlərin arasını vurmaq, ümumi Azərbaycan məfhumunu dağıtmaq, Azərbaycan xalqını parçalamaq cəhdləri Azərbaycan Respublikası, Azərbaycan xalqı və müstəqil Azərbaycan üçün ən böyük xəyanətdir.

Mən bu işə başlayarkən dəfələrlə bildirmişəm və bir də bildirirəm, bunu Ali Sovetin sədri kimi bəyan edirəm, bundan sonra Azərbaycan Respublikasının Ali Sovetinin istiqaməti ondan ibarət olacaq ki, Azərbaycanda yaşayan bütün xalqlar eyni hüquqa malik olmalıdırlar, hamısı eyni hüquq əsasında Azərbaycan Respublikasının bütün nemətlərindən istifadə etməlidirlər və eyni hüquqa görə də vəzifələr tutmalıdırlar, təhsil almalıdırlar, bütün həyati məqsədlərini normal şəkildə, əlbəttə, qanun çərçivəsində həyata keçirməlidirlər. Mən sizi Ali Sovetin sədri kimi əmin edirəm ki, bütün bu dediyim şeylərin hamısının həyata

keçirilməsində bundan sonra da çalışacağam və cəhd edəcəyəm. Heç vaxt Azərbaycanda talış problemi olmayıb, bu Talış-Muğan Respublikası uydurma bir şeydir, mən yenə də deyirəm, bu, Azərbaycanı parçalamaq istəyən ayrı-ayrı qrupların əlində bəhanədir. Bəli, xaricdən, keçən dəfə burada danışıldı, Azərbaycanda indi bu talış problemini, ləzgi problemini yaratmaq, yaxud orada avarlar yaşayır, o problemi yaratmaq, bunlar hamısı Azərbaycana olan təxribatdır və Azərbaycanı parçalamağa yönəldilmiş cəhdlərdir.

Məsələn, dünən, srağagün bizim nümayəndələrimiz Qusar rayonunda olublar, orada ləzgi xalqının nümayəndələri ilə görüşüblər, söhbət ediblər, burada görüşüblər, danışıblar, bir neçə problemə baxıblar, o problemləri həll ediblər və bundan sonra da həll olunacaq. Ancaq təsəvvür edin, məsələn, mənə dünən gecə gəlib danışıblar ki, orada ləzgi partiyası, yaxud ləzgi, nə bilim, birliyinin başında Murtuzayev durub, vaxtilə Qusar rayonunda Rayon Partiya Komitəsinin birinci katibi olub. Xatirimə düşür, Murtuzayev Qusarda Rayon Partiya Komitəsinin birinci katibi idi, özü də ləzgidir, ancaq zaman keçdi, elə həmin Qusar rayonunun özündə onun ləzgi qardaşları bundan narazılıq elədilər, iş apara bilmədi, o vaxtlar biz onu Qusardan götürüb apardıq Kəlbəcərə, Rayon Partiya Komitəsinin birinci katibi qoyduq. Məgər biz onda düşünürdük ki, bu, ləzgidir, Kəlbəcərdə işləyə bilməz. Yaxud xatirimdədir, gənclik vaxtımda mən Naxçıvanda yaşayanda Naxçıvanda Nazirlər Sovetinin sədri Balometov var idi, ləzgi idi. Naxçıvanda bir nəfər ləzgi yoxdur, amma mən deyirəm, bu şəxs müharibə vaxtında orada Nazirlər Sovetinin sədri idi, ləzgi idi. Ondan sonra Orduxan Nazirlər Soveti sədrinin birinci müavini işləmişdi, özü də onlar Naxçıvanda çox sevilən, çox hörmətli adamlar olublar.

Mən hələ fevral ayında Naxçıvanda işləyərkən bura gəlmişdim, Qusardan bir tanış adamla rastlaşdım, o mənə dedi ki, Heydər Əliyev, Siz işləyən vaxt 9 rayonda rayon partiya komitəsinin birinci katibi ləzgi idi. Dedim, vallah, billah, mən heç bilməmişəm və saymamışam ki, ləzgi olub, ləzgi olmayıb, ya başqa olub, hamısı azərbaycanlı olub, hamısı eyni hüquqa malik olub, doğrudan da, belə olub.

Məsələn, talışları götürək, nə vaxt sayılıb ki, bu, talışdır, bu, azərbaycanlıdır, biz Lənkərana getmişik də, gəlmişik də, mənim vaxtımda da, bizdən qabaq da, bizdən sonra da gediblər də, gəliblər də, görüşüblər də. Bəs orada, Lənkəranda biz o qurğuları quranda Xanbulançay dəryaçasını, yaxud orada böyük bir konserv zavodu, hava limanı

və başqa şeylər tikəndə, Lənkəranda teatr açanda, ora qaz çəkdirəndə, Lənkəranın başqa sosial-iqtisadi məsələlərini təmin edəndə, yaxud da Masallıda Viləşçay dəryaçasını, çay fabrikini tikəndə, kanallar düzəldəndə, orada subtropik bitkiləri inkişaf etdirəndə biz hesab edirdik ki, burada talış var, ya azərbaycanlı var, ya da başqası var? Bunların fərqi yoxdur.

Ona görə də mən hesab edirəm ki, ayrı-ayrı adamlar, Əlikram kimi, Rəhim Qazıyev kimi adamlar, başqaları, sadəcə, bundan istifadə edib Azərbaycanı qarışdırmaq, parçalamaq istəyirlər. Şübhəsiz ki, bizim hamımızın Azərbaycanda olan bütün millətlərə hörmətimiz var, mənim şəxsən ləzgiyə də, talışa da, avara da, kumıka da, darginə də, rusa da, ukraynalıya da, belarusa da, yəhudiyə də hörmətim var, hamısına hörmətim var və bu hörmətimi də mənim qəlbimdən heç kəs silməyəcəkdir. Eləcə də mən hesab edirəm, Azərbaycanda olan vətəndaşların, azərbaycanlıların hamısının o birilərinə, onların da azərbaycanlılara hörməti var, bu bizim tarixi nailiyyətimizdir ki, Azərbaycanın ərazisində əsrlər boyu cürbəcür millətlər bir yerdə yaşayıblar və bir-biri ilə qardaş olublar, bir-birinə qovuşublar, bir-birinə birləşiblər. Ancaq eyni zamanda tarixi kökləri də, milli ənənələri də itirməyiblər. Bunlar bizim böyük tarixi nailiyyətimizdir, indi bu nailiyyətimizi də pozaq? İqtisadiyyatımızı dağıtdıq, torpaqlarımız getdi, əlimizdə olan bu mənəvi nailiyyət var, bunu da pozaq, bunu da dağıdaq?

Mən güman edirəm ki, bizi bütün Lənkəran regionunda olan azərbaycanlılar, talışlar da eşidir, canlı yayım gedir, başqaları da eşidir və burada da o bölgədən nümayəndələr var, onlar da iştirak edirlər. Biz hamımız əl-ələ verməliyik, hamımız birləşməliyik, hamımızda milli həmrəylik, milli birlik hissi yaratmalıyıq. Milli deyəndə, mən ümumi Azərbaycan, ümumi xalq məfhumu deyirəm. Bu əsasda biz bütün bu yaranmış problemləri aradan qaldırmaq istəyirik, aradan qaldırmalıyıq.

Mən güman edirəm, biz bu gün bu barədə məsələni müzakirə edib, əsas orada gedən proseslərə, birinci növbədə, siyasi qiymət verib və lazımi tədbirlər görməliyik ki, tezliklə bu rayonlarda əmin-amanlıq olsun, orada dövlət tərəfindən təyin olunmuş və xalq tərəfindən qəbul edilən başçılar, rəhbərlər olsun, rayon əhalisi rahat yaşasın, heç kəs heç kəsə zorakılıq etməsin, silah qaldırmasın. Beləliklə də biz xırda-xırda Azərbaycanı bu böhran vəziyyətdən çıxara bilək. Burada mənə Lənkəran zonasından bura dəvət olunmuş deputatlar yazıblar.

Buyursun Ramazan Bunyatov, çıxış etsin, sonra bu məsələ barəsində başqa kim istəyirsə, bir neçə adam yazılıb, söz veriləcək. Mən Məclis üzvlərindən xahiş edirəm, çıxış etsinlər, münasibətlərini bildirsinlər, təkliflərini versinlər.

**Ramazan Bunyatov.** Hörmətli yoldaşlar, hörmətli sədr! Zorən qurulan hər hansı qurum qeyri-qanuni sayılır və mən də bu məsələni qeyri-qanuni hesab edirəm. Dünən keçirilən görüşdə öz fikirlərimi qismən də olsa çatdırdım, lakin bu gün bir sıra məsələlər haqqında öz fikirlərimi açıqlayıram, çünki silah gücünə rayonlarda sessiyalar çağırmaq, zorən nümayəndələr seçmək və qorxu gəlməklə kiminsə adını siyahılara daxil etmək heç bir məntiqə sığmır.

Açıq demək lazımdır ki, bu məsələyə vaxtında münasibət bildirilmədi. Əsəblər gərildikdən sonra lazımi reaksiya olmadı və o regionun camaatı çox çaşbaş vəziyyətdə qaldı. Axı ayağa durmuş xalq yenə silahla qarşılanmalı olurdu, bundan isə xalq artıq qorxur, odur ki onların böyük sözünə ehtiyacı var idi. Yerli inzibati orqan işçiləri ilə bunu həll etmək qərarına gəlindi, lakin respublika yaratmaq iddiasında olan qüvvələr inzibati orqanların rəhbərlərinə qarşı zor işlətdilər və onlar hətta həbs etdilər, ağır texnika qarşısında aciz qaldılar. Hazırda bilirsiniz ki, bizim inzibati orqanlar, ən başlıcası isə daxili işlər şöbəsi – düzdür, onların fəaliyyəti çox böyükdür – bu cür tank, ağır texnika qarşısında ona layiq texnika çıxarmaq ixtiyarında deyillər, ona görə Heydər Əliyevlə müzakirənin gedişi bizə artıq hər şeyi verdi, hər şey bizə bəlli oldu. Bir növ, hakimiyyəti qeyri-qanuni yolla ələ almış həmin dəstə halallığa haradasa haramlıq gətirmək niyyətindədir və bu istiqamətdə də əsaslı iş görməyə çalışırlar. Lakin mən yenə də burada çıxış edib qeyd etmək istəyirəm, o halallığa ki onlar haramlıq gətirirlər, heç vaxt düz gəlməyəcək, cücərti bar verməyəcək, ona görə gəlin bəri başdan başa düşək, bizim doğma Azərbaycanın parçalanmasına heç bir mənəvi, hətta vətəndaşlıq hüququmuz yoxdur.

Mən 37 yaşındayam, indiyə kimi bilməmişəm ki, Azərbaycanı parçalamaq olar, bu termin heç mənim ağlıma da gəlməmişdi, lakin bir silahlı dəstə, silahlı adam... Burada bəzən belə səsləndi ki, hərbi müxalifət, axı hərbi müxalifətin silahı öz xalqına qarşı işlətməsinin acı nəticələrini biz artıq görmüşük, bunu təkrarlamaq, xalqı yenə qorxu, hədə altında saxlamaq, görəsən, biz kimin dəyirmanına su tökürük? Biz bu dəqiqə çalışmalıyıq, dünənki sözümü yenə təkrar edirəm, Dağlıq Qarabağ ətrafında baş vermiş hadisələrdə, heç olmasa, öz vətəndaşlıq borcumuzu

yerinə yetirək. Səfərbərliklə məşğul olaq, təbliğat işlərini gücləndirək və camaat başa düşsün ki, vətəni qorumaq nə deməkdir. Haradasa çağırış vərəqələri verilir və adamlara çağırış vərəqələri çatdırılır, həmin adamlar biləndə bunları harasa aparırlar, təşvişə düşürlər, ona görə boyun qaçırırlar, təxribatlar aparılır ki, çağırışdan yayınsınlar. Çağırış nə üçün keçirilir? Keçirilir ki, bilavasitə cəbhə bölgələrinə yola düşsünlər çağırış vərəqəsi alanlar, lakin bu başqa məqsədlər üçün istifadə olunur. Bu gün burada eşitdim, 3 minə yaxın ordu, bu 3 min nəfəri məgər o regionda saxlamaq düzgündürmü?

Axı bu gün Əlikram Hümbətov bura dəvət olunubsa, gəlməli idi, çünki bu, ali Məclisdir, onun bura gəlməməsi özü də, bir növ, şübhə altındadır. Heydər müəllim, mən öz fikrimi demək istəyirəm, artıq xalq Sizə inanır, bu mənim öz fikrimdir və Sizə böyük ümid bəsləyir, bu bəlanın tezliklə aradan qaldırılması üçün Sizdən kömək gözləyir.

Tam qətiyyətlə deyə bilərəm ki, Astara xalqının 99 faizi doğma Azərbaycanın parçalanmasını istəmir. Bunu qətiyyətlə Sizə demək və Məclis üzvlərinə də çatdırmaq istəyirəm. Kimsə hansı mövqedən haralardasa çıxış edirsə, mən yenə deyirəm, o adamlar bizim daxili düşmənlərimizdir, onlar bizim talışların nüfuzdan salınması üçün atılan addımlardır. Talışlar heç də bu əqidədə deyillər. Biz bilməmişik, azərbaycanlı-talış, bizim hər birimizin, burada oturan və oturmayan yoldaşların pasportlarında yazılıb ki, azərbaycanlıyıq, “talış” sözü yazılmayıb, indi isə kimlərsə istəyir, bundan istifadə eləsin, “talış” sözünü işlətsinlər. Axı indiki şəraitdə bu işə getmək lazımdırmı? Əlbəttə, mən belə başa düşürəm ki, son qəti hərəkətlər edilməli, son qəti tədbirlər görülməlidir.

Bu tribunadan çıxış eləmək məsuliyyətini dərk edirəm, çünki məni bura dəstəkləyib göndərən adamlar bu fikirdədirlər və onların fikirlərini bu yüksək tribunadan mən Məclisə çatdırıram. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Belə başa düşürəm ki, Astara rayonundan çıxış edən deputatın kökü talışdır. Sözünə əlavə olaraq demək istəyirəm, Astaranın Pensar kəndi var, mən bu kənddə olmuşam, 500 adam qol çəkib göndərib ki – belə məktublar bizdə çoxdur – biz bu hərəkətlərə etiraz edirik, biz Azərbaycanın parçalanmasına yol verməyəcəyik və biz Azərbaycanın vətəndaşlarıyıq, heç bir başqa qurum ola bilməz.

Tofiq Bağırov buyursun. O zonadan deputatdır. Sonra Mirməhəmməd Cavadzadə, deputat.

**Tofiq Bağırov.** Hörmətli millət vəkilləri, hörmətli sədr! Avqustun 13-də keçirilən müşavirədə mən qeyd elədim, bu gün də qeyd eləmək istəyirəm, məndə əvvəldən belə bir inam var idi ki, bu aksiyanın arxasında heç vaxt Talış-Muğan Respublikası yaratmaq fikri olmayıb. Bunu adi məntiq sübut edir, çünki 7 rayonda icra hakimiyyəti başçıları təyin olunan vaxt sessiyalar keçirilir və həmin sessiyalarda Talış-Muğan Respublikasının ali baş komandanlığı tərəfindən əsasən iki məsələ müzakirəyə təqdim olunub, Talış-Muğan Respublikasının yaranmasına münasibət və yeni icra hakimiyyətinin təyin olunması. Əgər həmin sessiyada yeni icra hakimiyyətinin başçısı "ali baş komandan"ın təklif etdiyi adam olurdusa, həmin sessiya keçirilir və əgər başqa namizəd irəli sürülürdüsə, həmin sessiya dərhal silah gücünə pozulurdu.

İkinci məsələ, guya əsas məsələ isə, bir qayda olaraq, həmin sessiyalarda Lənkəran rayon, şəhər sovetinin sessiyaları istisna olmaqla, digər rayonlarda qəbul olunmurdu, yəni Talış-Muğan Respublikasına mənfi münasibət bəslənirdi, o cümlədən Cəlilabadda həmin məsələyə etimadsızlıq göstərilirdi. Buradan belə adi məntiq çıxır ki, yəni Talış-Muğan Respublikasına mənfi münasibət göstəriləndə həmin sessiya pozulmur, lakin ora yeni icra hakimiyyəti başçısı təyin olunan vaxt fikir müxtəlifliyi yaranarsa, həmin sessiyalar pozulurdu. Mənə elə gəlir ki, bütün bunlar sübut edir ki, doğrudan da, burada əsas məsələ Talış-Muğan Respublikasının yaranması olmamışdır. Biz, ola bilsin, hadisələri tam dəqiqliyi ilə bilmirdik, yəni bu hadisələri respublika miqyasında təsəvvür edirdik, amma bu gün məlum oldu ki, doğrudan da, bu, çox böyük oyundur. Çox təəssüf ki, digər rayonlarla birlikdə mənim mənsub olduğum Cəlilabad rayonunun əhalisi də bu oyunun iştirakçısı olub.

Bir halda ki bugünkü Milli Məclisin yığıncağı birbaşa efirə gedir, üzümü bütün Cəlilabad xalqına tutub deyirəm, siz bu oyunun iştirakçısı olmamalısınız, siz öz sözünüzü deməlisiniz. Dünən mənə gələn məlumata görə, icra hakimiyyəti aparatında oturan yoldaşlar da – baxmayaraq ki, onlar yeni yaradılmış qondarma respublikanın təqdimatı ilə orada oturublar – bir neçə gün bundan qabaq rayonda keçirilən aksiyada, yəni prokurorluq işçiləri tutulub aparılarkən Əlikram Hümbətova öz etirazlarını bildirmiş, hətta onun tərəfindən ora təyin olunmuş bir müavin istefa verib çıxıb getmişdir.

Lakin bütün bunlar olub, indi biz bu vəziyyətdən necə çıxmalıyıq. Belə hesab edirəm, təbiidir ki, bunu silah gücü ilə aradan qaldırmaq istisna olunmalıdır, bu, mümkün olan məsələ deyil. Yerdə iki yol qalır,

biz ya Əlikram Hümbətovun və onu dəstəkləyən adamların dedikləri ilə razılaşmalıyıq, ya da o bizim dediklərimizlə razılaşmalıdır. Təbiidir ki, o bizim dediklərimizlə razılaşmır. Ona görə indi daha təcrübəli, daha ağsaqqal adamlarla, xüsusən gözləyirik ki, bu, 3-cü yolla həll edilməlidir. Yəni o bizim dediklərimizlə müəyyən qədər razılaşmalıdır. Bu məsələnin həlli üçün biz də imkanımız daxilində sizə kömək etməyə hazırıq.

Mən yenə təkrar edirəm, bir az çeynənmiş sözdür, orada, ola bilər ki, deyirlər, talışlar bunu istəmirlər, mən üzr istəyirəm, bu söhbəti nə Biləsuvara, nə də Cəlilabada, ümumiyyətlə, aid eləmək olmaz, onlar necə istəyə bilərlər. Əgər, doğrudan da, bir anlığa təsəvvür eləsək ki, talışlar ayrı millətdir, söz yox, biz onları ayrı millət hesab eləmirik, bəs onda nəyə görə Cəlilabad, Yardımlı, yaxud Biləsuvar rayonlarının əhalisi gedib başqa millətlə birlikdə ayrıca bir qurum yaratmalıdır. Yəni bu, ümumiyyətlə, mümkün olan, ağlasığan iş deyil.

Mən yenə bu tribunadan istifadə edib 150 minlik Cəlilabad əhalisinə müraciət edirəm ki, bir də götür-qoy eləsinlər, bir daha fikirləşsinlər və sülh, əmin-amanlıq yolu ilə bu məsələnin həllində respublika rəhbərliyinə kömək eləsinlər.

**Sədrlik edən.** Sağ olun.

Akademik Mirməhəmməd Cavadzadə buyursun. Hazırlaşsın Fəzail Tağıyev. Bu zonadan deputatdır.

**Mirməhəmməd Cavadzadə.** Hörmətli Heydər müəllim, hörmətli millət vəkilləri! Əziz qardaşlar, bacılar! Bilirsiniz, mən, demək olar ki, 4 gündür heç yata bilmirəm. Nəinki mən, məzuniyyətdə olan professorlar hamısı gəlib mənim yanıma, xahiş edirlər, sizə çatdıram, biz çox ağır vəziyyətdəyik, hamısı gəlib deyir ki, axı bu niyə belə olur, bugünkü gündə biz niyə birləşmirik, niyə əl-ələ verib bir nəfərə kömək eləmirik. Bu bir nəfər də Heydər Əliyevdir. Əgər ondan böyük, müdrik varsa, xahiş edirəm, gəlsin, bu dəqiqə desin ki, Heydər Əliyev, Siz qalın qıraqda, mən bu məsələni həll edə bilərəm.

Mən üzümü Lənkəran camaatına tuturam, onlar məni eşidirlər, mən orada böyümüşəm, o torpağın övladıyam. Siz bilirsiniz ki, 12 il mən Moskvada işləmişəm, sovet hökumətində ilk dəfə uroloji klinika yaratmışam, bütün dünyadan bizə müalicə olunmağa gəlirlər. İlk dəfə 1972-ci ildə birinci konqres Azərbaycanda keçirilib. Bizim hotellərdə cəmi 1200 yer var idi, amma 1600 adam dəvət olunmuşdu, onda respublikanın birinci katibi Heydər Əliyev idi. Mən uroloqlarla gedib onunla

söhbət elədim, çıxanda hamısı mənə rus dilində dedilər, Мамед, ты счастливый человек, что такой руководитель.

Mən sizin hamınıza deyirəm, biz gərək indi hamımız əl-ələ verək, çünki bugünkü gündə bizim respublika çox çətin vəziyyətdədir, 700 min qaçqın var, respublikanın 17 faiz ərazisi yoxdur, indi bir məsələ gəlir, o da Lənkəran məsələsidir. Mən keçən dəfə çıxışımda dedim ki, Əlikramla mən 1989-cu ildə görüşmüşəm. Bizi Vəzirovun zamanında buradan, bu zaldan göndərdilər, mən, Daşdəmirov, Rəsizadə gedib çatdıq, onunla 4 saat söhbət elədik. Onda mən ona dedim ki, bilirsiniz, bu xalq hərəkatı ki var, bu, gözəl şeydir, mən bir şeyi başa düşmürəm, siz belinizdə iki dənə tir tüfəngi ola-ola raykomun binasını, rayon icraiyyə komitəsinin binasını götürmüsünüz, bu cavanları da yoldan çıxarmısınız. Axı bunun axırını bilmirsiniz ki, bu boyda Rusiya ilə baş-başa dura bilərsiniz. Bu cavanlara yazığınız gəlsin. Yaxşı işdir, xalq hərəkatı çox gözəldir, mən alqışlayıram, amma bir ağacdır, indi siz əkmisiniz, gözətləyin, bu ağac gərək çiçək aça, çiçəkdən sonra bəhər gətirər. İndi çiçək açıb, siz istəyirsiniz ki, indi dərək? Bu gülü, çiçəyi, amma bəhəri gözləməyib? Elə belə də oldu.

Düz bir aydan sonra, bilmirəm, on iki, ya on dörd cavan, gözəl oğlanı orada öldürdülər, özü də qaçdı. Əlikram qaçdı, necə ki, elə o biriləri də belə edib, camaatı, cavanları veriblər qabağa, özləri vaxtında qaçıblar, indi də salamatdırlar.

Mən yenə də üzümü sizə tutub deyirəm, biz gərək əl-ələ verək, Azərbaycan xalqını, onun nüfuzunu da qaldıraq. Mən əminəm, inanın, mən indi sizə deyirəm, əgər biz Heydər Əliyevin rəhbərliyi altında birləşsək, hər kəs öz sahəsində bir-birimizə kömək eləsək, sizi əmin edə bilərəm ki, səhiyyə, elm sahəsində mən kömək edərəm. Eləmişəm, eləyəcəyəm də, hər kəs öz sahəsində kömək edər. Mən utanıram, inanın, televizora baxanda ki, 12 kənd getdi, o birisi getdi, yatmaq olmur. Axı bizim vicdanımız haradadır, bu tərəfdən də Lənkəran məsələsi gəlib. Bu kimə lazımdır? Mənim zənnimcə, heç kəsə. Bizim xalqa bu lazım deyil. Gərək birləşək, erməni bizim düşmənimizdir, biz gərək yerlərimizi alaq.

Mən bir həkim kimi, hamınızdan xahiş edirəm – bayaqdan yanımda İlyas Abbasoviç oturub, deyirəm, mən həkim kimi baxıram, niyə bu kişini biz gətirmişik, Yaqubu da burada sədr olanda belə elədilər – bəsdirin də.

Heydər müəllim, bir həkim kimi deyirəm, mən dözə bilmirəm, hər kəs öz sahəsində bir-birimizə kömək edək. Mən hamınızdan xahiş

edirəm, gərək biz hamımız birləşək, kömək edək ki, Azərbaycan xalqının başını yenə də ucaldaq, necə həmişə ucalıb. Sağ olun.

**Sədrlik edən.** Tağıyev Fəzail buyursun. Sonra Ədalət Hüseynov çıxış edəcək. Bu bölgədən olan deputatlardır, qoy öz sözlərini desinlər.

**Fəzail Tağıyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar! Biz iki gün bundan qabaq keçirilən müşavirədə çox məlumatları təzə eşitdik və mən Yardımlı rayonundan seçilmiş deputat kimi o vaxt durub öz fikrimi dedim. Məni həmişə bir şey düşündürür, o gündən bu günə qədər fikirləşirəm ki, onsuz da  tarix yazılır, yazılacaq, bu hadisələr hamısı yazılacaq və bu hadisələrin yazılmasında, mən istəməzdim, yardımlıları gələcək nəsillər ermənilərə kömək edən bir nəsil, bir xalq kimi tanısın.

Heydər müəllim, Siz özünüz dediniz, o gün müşavirədə də yoldaşlar dedilər, həqiqətdə də Daşnaksutyun partiyasının proqramında nəzərdə tutulan maddələrdən biri odur ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılıb Ermənistana birləşsin. O maddələrdən biri də Azərbaycanın parçalanmasıdır, demək, bizim cənub zonası vasitəsilə parçalanmağa başlanır, belə çıxır. Bizim xalq bizim zona üçün böyük bir ləkədir, bütün cənub zonası üçün.

Mən keçən dəfə çıxışımda dedim, cənub zonasından olan ziyalıların 99 faizi ilə tanışam və görüşürük, söhbət edirik, heç biri istəmir, bu məsələ belə olsun, heç biri istəmir ki, ayrıca respublika, ya bir muxtariyyət yaransın. Bir də adamı ən incidən, ağrıdan odur ki, o torpağın, o yerin ağıllı, savadlı övladları qalıb, deməli, ən kənarda, ən aşağıda olan adam gəlib deyir, mən belə ağsaqqallıq edirəm və mən belə bir quruluş yaratmaq istəyirəm.

Bilirəm, bu gün canlı yayım gedir, ona görə də mən Yardımlı camaatına, Yardımlı xalqına müraciət edirəm. Mən istəməzdim ki, gələcəkdə bizim adımıza bir ləkəli söz deyilsin. Yardımlı camaatı, Yardımlı xalqı onsuz da bunu istəmir və iqtisadiyyatın indiki dağılmış, belə acınacaqlı vaxtında – bu gün mən Füzulidən, Cəbrayıldan, Zəngilandan olan yoldaşlarla görüşmüşəm, söhbət eləmişəm, hamısının da vəziyyəti ağırdır – belə ağır vəziyyətdə heç cür Azərbaycan xalqını başa salmaq olmaz ki, biz də bu tərəfdən ayrıca respublika yaradaq, ya baş qarışdıraq. Mən keçən dəfə Rəhim Qazıyev barədə öz sözümü dedim, amma indi demək istəmirəm. Mən dedim ki, axı haradan belə respublikanın, millətin ağsaqqalı oldu, o harada var? Amma indi demək istəmirəm.

Məsələ hamısı aydındır, hamı da bunu gördü, bu görülür. Deməli, mən bilmirəm, gərək insanda üz olsun ki, çağırılmamış yerə, Ali Sovetin sədrinin, ya Prezidenti əvəz edən şəxsin kabinetinə gəlib zorla girəsən ki, mən burada iştirak eləməliyəm. Məni bağışlayın, üzr istəyirəm, kolxoz sədrinin kabinetinə elə soxulub girmirlər. Bununla da, demək, indi bilməliyik ki, biz gör nə qədər insanda bu hərəkətə yol vermək üçün...

Mən bir şeyi deyim, artıq özü buradadır, ona görə deyə bilərəm. Şuşada hadisə olanda – indiyədək mən fikirləşirəm – o Stepanakerti vuran qradlar niyə Malıbəyli əldən gedəndə açılmadı? Şuşada olan adamların hamısı bilir ki, necə Stepanakert sol tərəfdən əlinin içi kimi görünən kimi, Malıbəyli də üzbəüzdür, o biri də üzbəüzdür. Niyə o qradlar açılmadı və onda dönə-dönə deyildi ki, atılanda Stepanakertdə hərbi hissənin ərazisinə atılırdı.

Heydər müəllim, şübhəli məsələlər çoxdur, bu respublika o vaxta kimi düzəlməyəcək ki, Laçının, Şuşanın, Kəlbəcərin, o birisinin verilməsi, bunlar hamısı açılsın. O su durulmalıdır, durulmasa, xeyri yoxdur. Bu məsələlər, bu hadisələr açıldıqca xəyanətkarlar da, xəyanət eləmişlər də, xalqı qızışdırıb bir-birinin üstünə salanlar da açılacaq, onda hamısı bilinəcək.

Mən yenə deyirəm, bəlkə də, vaxt, ya vəziyyət imkan vermir, çox çəkir, indi artıq bir ay yarımdır Siz işləyirsiniz, siftə bu Gəncə hadisəsi yaxşı açıldı, amma sonra Sizin də, hakimiyyətdə olanların da, vəzifə sahiblərinin də başı qarışıb, nə isə yubanır. Nə qədər tez açılsa, bizim işimiz o qədər yaxşı gedəcək, çünki artıq bu neçə ildə xalqın əli də soyuyub, pozulub da, işə də girişmək istəmir.

Deməli, bunların hamısı ilə məşğul olmaq lazımdır. Ona görə mən öz xalqımı, bütün cənub zonasını – orada az-çox mənim xətrimi istəyənlər var – bütün yardımlıları çağırıram ki, bu işə həmişə etirazlarını bildirsinlər və Əlikram kimi özbaşına, özünü sədr sayan adamı tanımasınlar. Mənim sözüm bu qədər.

**Sədrlik edən.** Ədalət Hüseynov buyursun. Sonra Sabir Xanlarov çıxış edəcək.

**Ədalət Hüseynov.** Hörmətli Heydər Əliyev, hörmətli Məclis iştirakçıları. Mən çox heyifsilənirəm ki, bu yaxınlarda cənub rayonlarından olan deputatlarla, digər şəxslərlə keçirilən görüşdə iştirak etməmişəm, ona görə ki o mənə çatdırılmamışdır. Bu gün çıxışımda mən bir neçə məsələyə toxunmaq istəyirəm. Qabaqcadan demək istəyirəm ki, mən

1990-cı il mart ayının 8-dən 1993-cü il iyul ayının 29-na qədər Milli Təhlükəsizlik Nazirliyi Lənkəran şöbəsinin rəisi olmuşam. İyul ayında da səhhətimə görə pensiyaya çıxmışam, məndə xroniki qastrit var.

Heydər Əliyev Müdafiə Nazirliyinin nümayəndəsinə sual verdi ki, haradan Əlikram Hümbətovun taboru olub, bu silahlar haradan əldə olunub? İndi həmin sənədlər mənim əlimdə yoxdur, ona görə mən onların tarixlərində çaşa bilərəm, qabaqcadan üzr istəyirəm. Yadda saxlasınlar, tapsınlar, bu, çox lazımlı faktlardır. Deməli, o vaxt Müdafiə Şurası var idi, belə bir məlumat gəldi ki, respublika Müdafiə Şurasından – onda Mütəllibov Prezident idi – Lənkərana məktub gələcək, Lənkəranda özünümüdafiə taboru yaranacaq. Bir neçə gün sonra icra hakimiyyətinə belə bir məktub gəldi, indi bilmirəm, o məktub orada qalıb, qalmayıb, mən işləmirəm, pensiyadayam, xəbərim də yoxdur. Əgər saxlayıblarsa, bu, Heydər Əliyevin sualına yaxşı cavabdır. Yazılmışdı, nə bilim, təşkil olunsun, aşağıda şuranın sədri, ya Prezident Mütəllibov, amma qol onun deyildi.

Bu proseslə biz də məşğul idik, bu nə məsələdir, mən rəhbərliyə müraciət elədim ki, bilək, bu ərazidə də sovet ordusu da var, bu yandan da belə bir şey yarandı. Deməli, bizim rəhbərlik Mütəllibovla danışdı, Mütəllibov dedi, mən bilmirəm. Narahatedici məsələ idi, mən şəxsən dəfələrlə məşğul olurdum ki, hökmən öyrənək, bu nə məsələdir. Yenə də Mütəllibova bizim rəhbərlik tərəfindən müraciət olundu və axırda, vaxtınızı almayıb, qısası sizə deyim, o məktuba Araz Əlizadə qol çəkmişdi, indi hansı partiyanın rəhbəridir, nə bilim, nədir, ötən şeylərdir. Yaxşı olardı, yoldaşlar məşğul olsunlar, əgər lazımdırsa, Mütəllibov yazılıb, amma Araz Əlizadə qol çəkmişdi, bu oldu özünümüdafiə taboru.

İndi buna kim top-tüfəng verəcək – Heydər müəllimin yadına düşər, təhlükəsizlik orqanında bir qeyri-leqal agent var, mən bunu qeyri-leqal agentə oxşadıram – bəlkə də, bu günlər üçün saxlamışlar, bu özünümüdafiə taborunu yaradaq, bəlkə, bir xeyli müddətdən sonra bu, lazım olar. Bu səfəri hay-küy qalxandan sonra...

**Yerdən.** *(Eşidilmir.)*

Mən vaxt alıramsa...

**Sədrlik edən.** Yığcam danışsanız, yaxşı olar.

**Ədalət Hüseynov.** Baş üstə. Sonra, deməli, Müdafiə Nazirliyi tərəfindən bu artıq qanuniləşdirildi, Əlikramə tabor verildi, o oldu komandir. Bir müddətdən sonra məktub alındı ki, bu, artıq polkovnik oldu və sair.

Mən demək istəyirəm ki, o vaxt Əlikram Hümbətov Azərbaycanın daxilində və kənar, yəni müstəqil Talış-Muğan Respublikasının yaranması haqqında heç bir söz demirdi. Bu adamın dilinə yaxınlarda düşüb. Bu, həmişə ona qarşı çıxırdı. Yəqin, indi Əlikram Hümbətov özü də qulaq asır, bilirsiniz, bizim və sair orqanların əsas məqsədi bu olmalıdır, qabaqcadan profilaktik tədbirlər görülməlidir ki, hadisə olmasın. Mən işlədiyim müddətdə də çalışırdım ki, geniş profilaktik tədbirlər keçirək və hadisələr olmasın. Ona görə də, necə deyərlər, bizim Əlikram Hümbətovla münasibətlərimiz elə qurulurdu ki, onun taboru tərəfindən hadisələr olmasın. Bir dəfə özü şəxsən mənə dedi ki, mən eşitmişəm, Astara İcra Hakimiyyətinin başçısı Məmməd Əsgərov – o da, Əlikram Hümbətov da Lerikdəndir – belə bir məsələ qaldırır, Talış Respublikası, mən gedib onunla danışacağam, bu, düzgün deyil və sair. Əlikram özü bunun qarşısını alırdı...

**Sədrlik edən.** Hörmətli Ədalət Hüseynov, bu tarixi danışmağa bizim vaxtımız yoxdur, Siz bu məsələyə münasibətinizi bildirin, qiymət verin. Yoxsa nə vaxt o Sizə nə dedi, nə deyəcək, belə olsa, biz gərək bir saat da gözləyək ki, Siz gəlib mətləbə çatasınız. Münasibətinizi bildirin.

**Ədalət Hüseynov.** Münasibətim çox pis, xüsusi ilə onun qeyri-qanuni hərəkətləri, deməli, orqanlara qarşı müqavimət göstərməyi – mən yaxşı tanıyıram, el-obanın da hörməti var – Astaranın milis rəisinin tutulması məni çox hiddətləndirir. Bu cinayət hərəkətlərinin qarşısı alınmalıdır və layiqli cəzalar verilməlidir. Əgər qısa deyirsiniz, bu qədər.

**Sədrlik edən.** Sabir Xanlarov buyursun. Bağışlayın, Xanməmmədov.

**Sabir Xanməmmədov.** Hörmətli sədr, hörmətli Məclis iştirakçıları! Xeyli vaxtdır məni bir məsələ düşündürür və həmişə bir istəklə, arzu ilə istəmişəm, bu tribunaya yaxınlaşam, öz ürəyimdən keçənlər barədə xalqa televiziya vasitəsilə müraciət edəm. Ola bilsin, Məclisdə seçilmiş deputatlar arasında yaşca da kiçikləri mənəm və ürəyimdə belə bir hiss olub ki, nə olar, Azərbaycanın dövlətçiliyi, onun bütövlüyü uğrunda bizim böyük, yaşlı nəsillərimiz bəzən öz şəxsi ambisiyalarından keçib xalqımızın birliyi və düşdüyümüz bu ağır vəziyyətdən çıxmaq üçün yollar axtarıb birləşsinlər. İnanın, bunu səmimiyyətlə deyirəm və həmişə də çalışmışam, daha doğrusu, istəmişəm ki, vəzifədə olanlara yanaşam, xahiş eləyəm ki, gəlin bu vəzifələrdən hələlik müəyyən dövr gözünüzü çəkin, hamımız birləşək, ümumi problemimiz var, müharibə gedir, övladlarımız döyüşlərdə həlak olurlar, torpaqlarımız, namusumuz əldən

gedir, vicdanımız ləkələnir, gəlin, bu vəzifə davasını qoyaq sonraya. İnanın buna, mən səmimiyyətlə, bir azərbaycanlı kimi deyirəm və bilirsiniz ki, seçildiyim müddətdə mən bu tribunadan çox az-az hallarda, cəmi bir neçə dəfə çıxış eləmişəm. İki gün bundan əvvəl keçirilmiş müşavirədə də mən Biləsuvar camaatının adından çıxış eləmişəm, Talış-Muğan Respublikasının yaradılması haqqında fikrə öz münasibətimi də bildirmişəm. Dünən, srağagün də rayonda olmuşam, camaatın mənə zənglərindən sonra, şəxsi görüşlərimizdən aydın olub ki, o münasibətim, o fikir bütün biləsuvarlılar tərəfindən müdafiə olunur.

Həyəcanlı günlər yaşayırıq. Ağır günlər keçiririk. Mən Biləsuvar camaatının adından onu deyə bilərəm ki, Talış-Muğan Respublikasının yaradılması biləsuvarlılar tərəfindən birmənalı rədd edilir, qəbul edilmir. Xalqımız bugünkü rəhbərliyin – Heydər müəllim, mənim şəxsən tərifləməyimə, bəlkə də, Sizin ehtiyacınız yoxdur, amma Siz bizim xalqımızın böyük oğlusunuz – Sizin ətrafınızda xalqımız hamısı birləşməlidir, bu ağır vəziyyətdən çıxmalıyıq. Vəziyyət düzələndən sonra Prezident də seçiləcək, yenilər də hakimiyyətə gələcək, hakimiyyətdən də gedəcəklər.

Mən bu sözümü onunla yekunlaşdırıram ki, üzümü Biləsuvar camaatına tuturam, orada müxtəlif rayonların nümayəndələri yaşayır, uzun illərdir hamı bir-biri ilə doğmalaşıb, qohumlaşıb. Orada cəlilabadlı da, Lənkərandan da, Lerik rayonundan da çoxlu adamlar var, Masallıdan azdır, uzun illərdir, 1953-cü ildən bəri yaşayırlar, qaynayıb-qarışıb doğmalaşıblar. Mən üzümü bütün biləsuvarlılara tutub deyirəm ki, Azərbaycan dövlətçiliyinin qorunub saxlanması üçün respublika rəhbərliyi ətrafında daha da sıx birləşməliyik.

**Sədrlik edən.** Ələkbər Həmzəyev buyursun. Sonra Məclis üzvləri yazılıblar burada, Kamran Rəhimov.

**Ələkbər Həmzəyev.** Hörmətli millət vəkilləri, hörmətli Heydər Əliyev! Mən, doğrusu, bu gün bu camaatın qabağında utanıram, xəcalət çəkirəm, ona görə ki respublikanın belə bir ağır vəziyyətində, torpaqlarımızın 17 faizi düşmən tapdağı altında olduğu, xalqın vəziyyətinin çox ağır, çətin vaxtında biz respublika rəhbərliyinin başını qarışdırmışıq, biz millət vəkillərinin vaxtını alırıq, heç bir əsası, mənası olmayan, heç nəyə əsaslanmayan bir məsələ haqqında söhbət edirik.

Yoldaş Əliyev, məlumatınız olsun ki, bizim bölgə, yəni Lənkəran, Astara, Lerik talışların yaşadığı əsas rayonlardır. Çünki yoldaşların bəziləri

çıxışlarında inkar edirlər, deyirlər, Cəlilabad, Biləsuvarda talışlar yoxdur, müəyyən mənada düzdür, əgər nəzərə alsaq ki, əsas talışlar bizim Astara, Lənkəran, Lerik rayonlarındadır. Mən Sizi inandırıram, tam məsuliyyətlə deyirəm, bu camaatın 99 faizinin bu məsələdən xəbəri yoxdur, bu məsələyə mənfi münasibət bəsləyirlər, ümumiyyətlə, bunu rədd ediblər, çünki biz burada bir əsas görmürük, bunun mahiyyətini başa düşmürük. Bunun heç bir əsası yoxdur, nə siyasi, nə iqtisadi və sair.

Sizin verdiyiniz bugünkü məlumat bu günə kimi mənə aydın olmayan bir sıra suallara cavab verdi. Mən Sizin məlumatınızda cavab tapdım, çünki bizə camaat yerlərdə çoxlu suallar verirlər ki, bəs nə üçün indiyə qədər ay yarım, iki ay bu proseslər gedir, qanunsuzluqlar davam edir, özbaşınalıq var, adamlar təhqir olunur, tutulur və ilaxır, amma yoldaş Əliyev buna əhəmiyyət vermir. Məsələn, mənə dəfələrlə bu sualı veriblər, lakin mən bu suala cavab verə bilməmişəm. Mən özüm də təəccüb edirəm ki, necə ola bilər, nəinki Azərbaycanda, keçmiş ittifaqda, dünyada görkəmli bir siyasi, ictimai xadim, siyasətçi kimi məşhur bir adam bu məsələyə münasibət bildirmir, amma əsl həqiqət də elə deyilmiş. Bu gün mənə aydın oldu ki, Siz bu məsələlərlə məşğul olursunuz, özü də çox ciddi məşğul olursunuz, aidiyyəti yoldaşlarla məsləhətləşirsiniz, göstəriş vermisiniz. Bu gün mənə məlum oldu və burada mənim yadıma bir şey gəldi. Napoleonun bir məşhur diplomatı Taleyran – hamınız yaxşı bilirsiniz ki, dünya tarixində çox məşhur diplomat kimi tanınır – vəfat edəndə dünyanın və Avropanın bir sıra diplomatları yığışır, tanıyanların bəziləri başsağlığı verir və sair. Amma daha yaxşı tanıyanlardan biri deyir ki, yox, tələsməyin – Taleyran o qədər böyük siyasətçi olur ki, hətta onun ölümü bəzilərini şübhələndirir – o elə-belə ölməz, nəsə onun ölümündə də bir şey var, siyasi oyun var.

Bu gün mənə məlum oldu, doğrudan da, biz düz fikirləşməmişik, düzgün başa düşməmişik, əslində, Siz bu işlərlə məşğul olursunuz, lakin çox ağıllı hərəkət eləmisiniz, istəmisiniz ki, bu məsələ yerli camaatın, ağsaqqalların köməyi ilə həll olunsun. Lakin məlum olub ki, indi bölgədə çox arzuedilməz bir vəziyyət yaranıb, bu, gün-gündən genişlənir, çətinləşir. İstər-istəməz biz, bölgənin deputatları, bu zonanın hər bir vətəndaşı bu gün buna öz münasibətimizi bildirməliyik.

Şəxsən mənə gəldikdə, bir deputat kimi mənim buna münasibətim çox pisdir, bunu qəbul eləmirəm və rədd edirəm. Bu gün Sizin məlumatınızdan hər şey bizə aydın oldu və məlum oldu ki, doğrudan da, bu məsələlər kənardan idarə olunur, kənardan təşkil olunur, tamam başqa

məsələlərdir. Çünki bunlar bilirlər ki, respublikanı yalnız Siz vəziyyətdən çıxara biləcəksiniz. Mən xahiş edirəm, yoldaşlar məni düzgün başa düşsünlər, Heydər Əliyev yoldaş məni tanımır, mən də elə böyük bir adam da deyiləm, ondan bir vəzifə iddiam da yoxdur, lakin mən burada tam məsuliyyətlə deyirəm, əminəm ki, o adam respublikanı vəziyyətdən çıxara bilər, çünki bütün Azərbaycan xalqının fikri belədir. Lakin bu, müəyyən adamlara sərf eləmir, onlar istəyirlər ki, hər vasitə ilə olur-sa-olsun, respublikanın ayrı-ayrı yerlərində, şimal zonasında, Naxçıvanda, Qarabağda məlum hadisələr baş verib, indi də Cənubda bu hadisələri qızışdırsınlar və nəhayət, əsas göstərsinlər ki, bax, gördünüz, Heydər Əliyev də bu vəziyyətdən respublikanı çıxara bilmədi. Amma əslində, elə deyil. Mən bunu istəyirəm deyim ki, heç vaxt xalq Sizə olan inamını itirməyəcək, itirmir də və biz, bütün cənub rayonlarının deputatları, camaatı Sizin ətrafınızda birləşirik və bu problemlərin həllində Sizə kömək etməyə hazırıq.

O ki qaldı yoldaşlardan bəziləri bir sıra məsələlər qaldırdılar ki, bölgənin problemləri, guya dəniz məsələsi, bilmirəm, dəniz sahili yuyub aparır, adamlar vəzifədən çıxarılır, nə olur, bunlar çox xırda məsələlərdir, bunlar həqiqətdir, lakin mən elə başa düşürəm, bunlar xırda həqiqətlərdir. Bu dəqiqə böyük məqsəd Azərbaycanın bütövlüyüdür, Azərbaycanın torpaqlarının azad edilməsidir. Mən elə başa düşürəm ki, xırda həqiqətləri hələlik böyük məqsədlərə qurban vermək olar və verilməlidir. Bunun heç bir əsası yoxdur və bu əsas ola bilməz. Ona görə də mənim münasibətim belədir ki, bu məsələlərə – mən bu camaatın, seçicilərin təklifini, tələbini Sizə deyirəm – çox vaxt itirmədən konkret olaraq bu gün siyasi qiymət verilməlidir. Adamlar, kim ki bu işləri təşkil edib, öz layiqli cəzalarına çatmalıdır və biz Sizin ətrafınızda birləşməliyik, Azərbaycanı bu çətin, bu ağır vəziyyətdən qurtarmalıyıq. İndi bu işlərin vaxtı deyil. Mən belə başa düşürəm.

**Sədrlik edən.** Kamran Rəhimov buyursun.

**Kamran Rəhimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Doğrudan da, bu gün biz respublikamız, xalqımız üçün çox mürəkkəb şəraitdə bizə yad olan və heç birimizin gözləmədiyi bir məsələni müzakirə edirik. Əlbəttə, bu Talış-Muğan Respublikası məsələsi yeni deyil, bu hələ birinci dəfə 1918–1920-ci illərdə Azərbaycanın müstəqilliyinə qarşı yaradılmışdır. O vaxt da həmin Talış-Muğan Respublikasını yaradanlar Azərbaycanı parçalamağı, onun müstəqilliyini ləğv etməyi öz qarşılarına məqsəd qoymuşdular və indi də tarix, demək olar ki, eyni ilə təkrar

olunur. İndi də Talış-Muğan Respublikasını yaradanlar heç də respublikanın mənafeyindən, xalqımızın mənafeyindən çıxış eləmirlər.

İndi respublikamız, demək olar ki, ölüm-dirim qarşısında durur, ərazimiz işğal olunur. Belə bir şəraitdə respublikanı parçalamaq Azərbaycanın müstəqilliyinə xəyanət kimi qiymətləndirilməlidir və bunu mən belə qiymətləndirirəm. Bunun əsas səbəbləri aşağıdakılardır.

Hümbətov hələ vaxtilə – burada oturanlar şahiddir – orada dövlət çevrilişi eləmişdi, dövlət çevrilişi edən vaxt ona cavab verilmədi, ona, demək olar ki, güzəştə gedildi və o, şirnikləndirildi. İndi mən inanıram və görürəm, bu kiməsə lazım imiş, kimsə, hansı qüvvə isə ona güzəştə gedib ki, gələcəkdə ondan istifadə eləsin. Bu gün Hümbətov özünün hərəkətləri ilə həmin 1990-cı ildə olan qüvvələrə yarınmaq və ona etdiyi güzəştin əvəzini vermək üçün belə hərəkət edib.

Mən televiziyadan müşavirənin bütün çıxışlarını diqqətlə izlədim. Qabaq, burada Gəncə məsələsi müzakirə olunanda da Hümbətov məsələsi barəsində, demək, söhbət qalxdı. Bizim Milli Məclisin üzvlərindən bəziləri çıxış edərək dedilər ki, Hümbətov xalqın qeyrətli, namuslu oğludur, onu müdafiə elədilər. Əgər o vaxt Lənkərandan, həmin zonadan olan Milli Məclisin üzvləri həqiqəti olduğu kimi desəydilər, əlbəttə, onda müəyyən tədbir görmək olardı. İndi görünür ki, onlar o vaxt düzgün deməyiblər və Milli Məclisin bütün üzvlərini tamamilə başqa səmtə yönəldiblər. Mənə elə gəlir ki, həmin vaxt Əlikram Hümbətovu xalqın qeyrətli oğlu kimi adlandıran adamlar, yəqin ki, özləri indi öz sözlərini deyəcəklər. Bütün bunlarla əlaqədar olaraq mən bir sıra təkliflər irəli sürmək istəyirəm.

Əlbəttə, Hümbətovun hərəkətləri xalqımıza, demək olar ki, yabançıdır, o, Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə, xalqımızın bütövlüyünə yönəldilmiş bir cinayətdir. Bunu belə də qeyd etmək, Milli Məclisin qərarında göstərmək lazımdır.

Mən istərdim ki, bizim Milli Məclis həmin Talış-Muğan Respublikasının qeyri-qanuni olduğu haqqında qərar qəbul eləsin. Ondan başqa Milli Məclis həmin...

**Sədrlik edən.** Elə bir respublikanı tanıya bilməliyik ki, onu da qeyri-qanuni hesab edək. Onlar özbaşına işlər görürlər, biz onların hərəkətlərini qeyri-qanuni hesab edə bilərik. Onların hərəkətlərinə qiymət verə bilərik. Ona görə biz tanımamışıq ki, bunu qeyri-qanuni, ya qanuni hesab edək. Bunu Siz səhv edirsiniz.

**Kamran Rəhimov.** Yox, o mənada deyirəm ki, yəni...

**Sədrlik edən.** Yox da, mənası budur ki, Siz bir balaca belə şeylərə diqqət verin.

**Kamran Rəhimov.** Odur ki, demək, bu, fitnəkarlıq kimi qiymətləndirilməlidir və bunlar Milli Məclisin qərarında göstərilməlidir. Mən Sizin yanınızda gedən müşavirədə akademik Cavadzadənin dediyi bir məsələ ilə çox şərikəm, orada dedi ki, o, kor bağırsaqdır, onu kəsib atmaq lazımdır. Mənə elə gəlir ki, biz bu barədə qəti addım atmalıyıq və Milli Məclis öz qəti sözünü deməlidir. Sağ olun.

**Sədrlik edən.** Məclis üzvləri, mən geniş təhlil verdim, kimin burada nə günahının olduğunu dedim, əgər cürətləri varsa, münasibətlərini bildirsinlər, ya desinlər ki, Heydər Əliyev, sən düz demirsən, bu belə deyil, ya da bu deyilən sözlərdən yan keçməsinlər. Əgər cürətləri varsa, yox, cürətləri yoxdursa, desinlər ki, bizim danışmağa cürətimiz çatmır, elə bizim başımıza döyüblər, döyəcəklər, bundan sonra da döyəcəklər.

Buyursun Şadman Hüseynov.

**Şadman Hüseynov.** Hörmətli millət vəkilləri, hörmətli qonaqlar! Ali Sovetin sədri hadisələrə geniş təhlil verdi, onları burada bir daha təkrar etməyə heç bir ehtiyac yoxdur, özü də düzgün qeyd elədi ki, hadisələrə qiymət vermək lazımdır. Mən şəxsən hesab edirəm ki, Əlikram Hümbətovun və onun ətrafında toplaşanların hərəkəti Azərbaycana xəyanətdir, Azərbaycan xalqına xəyanətdir, Azərbaycan dövlətçiliyini parçalamağa yönəldilmiş bir işdir, ona görə də Milli Məclis bu haqda öz qərarını çıxarmalıdır. Bu gün burada qərar qəbul edilməli idi, həmin o siyasi qiymət də verilməlidir.

Qaldı hüquqi tərəfi, respublikanın hüquqşünasları burada iştirak edir, onlar öz hüquqi qiymətlərini verməlidirlər. Qiymət verildikdən sonra hüquqşünaslar öz işlərinə başlamalıdır, çünki respublikada bu dərəcədə özbaşınalıq davam edə bilməz. Müəyyən hadisə ilə bağlı bir həftədir mən Gəncədəyəm və demək olar ki, Azərbaycanın bütün bölgələrindən adamlarla görüşmüşəm, söhbətlərimiz olub, hamı respublikada gedən prosesləri izləyir, Heydər müəllim, özbaşınalıqlara son qoyulmasını tələb edirlər. Bu tələb bir Sizdən yox, bütün Azərbaycan Respublikasının rəhbərliyindəndir, ona görə də qəti addımlar atılmalıdır və Azərbaycanda sabitlik yaradılmalıdır.

Son günlərdə Gəncədə bir neçə ölüm hadisəsi olub, odlu silahdan bir neçə vətəndaş qətlə yetirilib, silahlar tam nəzarətdən çıxıb. Fövqəladə

vəziyyət rejimi, demək olar ki, gözlənilmir. Əgər gözlənilsə, indiyə qədər o silahlar yığılardı, heç olmasa, onun müəyyən qismi yığılardı, halbuki bu da edilməyib. Ona görə də bugünkü Milli Məclis, təkrar deyirəm, həm Əlikram Hümbətovun və onun silahdaşlarının hərəkətinə, həm də respublikada gedən özbaşınalığa qiymət verməlidir. Mənim deyəcəyim bu qədərdir.

Mən bir də təkrar deyirəm, Azərbaycan xalqına, Azərbaycana xəyanət kimi qiymətləndirirəm. Bizim millət vəkili Rəhim Qazıyevin burada bugünkü hərəkəti düzgün hərəkət deyil. Heydər Əliyev respublikanın Ali Sovetinin sədri olmaqdan başqa, respublikanın ağsaqqalıdır, biz də ağsaqqala hörmət qoymağı bacarmalıyıq, əgər onun səhvi də varsa, o səhvi deməyin də yolu var. Sağ olun.

**Sədrlik edən.** Arif Rəhimzadə buyursun.

**Arif Rəhimzadə.** Heydər müəllim, birincisi, mən Sizə öz minnətdarlığımı bildirmək istəyirəm ki, nəhayət, uzun dövr ərzində birinci dəfə olaraq burada, bu zalda hadisələr açıq şərh olundu və hadisələr haqqında konkret söz deyildi. İndiyə qədər, çox əfsuslar olsun, bizim rəhbərlər həmişə vəd verirdilər ki, mən bu məsələni bilirəm, mən bu məsələni açacağam, vaxtı gəlsin, deyəcəyəm. Elə onun nəticəsidir ki, heç kəs öz üzərinə məsuliyyət götürmək istəmirdi, sözü açıq demək istəməməyin nəticəsində belə bir xaos vəziyyəti yaranıb.

O ki qaldı siyasi qiymət məsələsi. Mən hesab edirəm ki, Əlikram Hümbətovun bu hərəkətlərinin heç bir nə iqtisadi, nə etnik, nə də bir siyasi əsası yoxdur, bu, sadəcə olaraq, aranı qarışdırmaq və bunun nəticəsində bəhrələnmək niyyətini güdən bir hərəkətdir. Ancaq bu gün biz Əlikram Hümbətovu o hərəkətlərin müəllifi hesab eləsək, böyük səhvə yol verərdik. Əlikram Hümbətov bu oyunda yalnız icraçıdır, onun bir elə intellektual səviyyəsi də, ağlı da yoxdur ki, bu məsələləri fikirləşsin. O, kənardan istiqamətləndirilən, yönəldilən bir adamdır və biz, birinci növbədə, əlbəttə, gərək buna da qiymət verək. Burada, əlbəttə, müəyyən adamlar var ki, bu məsələdən istifadə edib öz mövqeyini möhkəmləndirmək, vəzifədən çıxmaq təhlükəsi qarşısında olan adamlar özlərini vəzifədə saxlamaq, ancaq əsas bu deyil. Bu daha yüksək səviyyədə idarə olunan bir prosesdir və biz bu gün bunu açmasaq, əlbəttə, mən hesab edirəm ki, bugünkü söhbətlərin bir elə faydası olmayacaq.

Burada Rəhim Qazıyevin hərəkətləri haqqında danışıldı. Mən sizə açıq deməliyəm ki, Rəhim Qazıyevin xətası yalnız bu məsələ olsaydı,

bəlkə də, bunu ona bağışlamaq olardı. Rəhim Qazıyev bütün respublikada hərc-mərclik yaratmaq niyyətindədir, nə bir savadı, nə bir bacarığı, nə də bir səriştəsi olmayan bir adam ilk günlərdən bizim ordunu bu vəziyyətə gətirən bir amil oldu. İlk gündən, ora nazir müəyyən olunandan bu buna imkan vermədi ki, bu adam işləsin və beləliklə, ordunun vəziyyəti indi necədir, bilirsiniz.

Hazırda da Rəhim Qazıyev çox çirkin oyunlarla məşğuldur. O bu dəqiqə Şadman müəllimin dediyi silahlı qüvvələr ki var, onlara rəhbərlik edir, daim onlarla əlaqə saxlayır, Goranboy rayonunda quşçuluq kompleksi var, orada yığışan adamlar daim bununla əlaqə saxlayırlar, hansı telefonla zəng edirlər, hətta o da aydındır. Rəhim Qazıyevin əli hətta gedib Qusar rayonuna da çıxır, orada da bu məsələlərə istiqamət verir və mən hesab edirəm ki, belə bir adamın Milli Məclisin tərkibində qalması Milli Məclisə böyük bir təhqirdir, Azərbaycan xalqına təhqirdir. Onun hərəkətləri ilə əlaqədar, mən hesab edirəm, bu gün bizim prokurorluq ona qarşı cinayət işi qaldırasıdır və bizim deputatlar, Məclis qərar çıxarmalıdır ki, o, deputatlıq imtiyazlarından, səlahiyyətlərindən azad olunsun. Mən xahiş edirəm, bu məsələni lazımdırsa, o qərara daxil edəsiniz.

Burada indi məsələnin həlli yolları. Biz hamımız deyirik ki, bu məsələni həll eləmək lazımdır. Ancaq bunun həlli yolları, yəqin ki, müəyyən mübahisələr doğura bilər. Əlbəttə, hərbi yolla, yəqin, bu işə getmək olmaz, ancaq digər tərəfdən də, biz görürük ki, bunu tumarlamaqla, dilə tutmaqla, izah etməklə biz bu məsələlərə nail ola bilməyəcəyik. Odur ki çox qəti tədbirlər görüləsidir. Mən hesab edirəm, birinci tədbir o olmalıdır ki, bunun hərəkətlərinə hüquqi qiymət verilməlidir, yəni mən Şadman müəllimlə tamamilə razıyam ki, onun qanunsuz hərəkətlərinin vaxtında qarşısına hədd qoyulsaydı, ona hüquqi qiymət verilsəydi, indi o bu həddə gəlib çatmazdı.

Məlumdur ki, Əlikram Hümbətovun təqsiri üzündən Azərbaycanın 10-mu, 12-mi vətəndaşı ölübdür, nəyə görə bu adam ondan sonra azadlığa buraxıldı? Bu hətta gəlib dövlət strukturlarında, Müdafiə Nazirliyində yüksək bir vəzifəyə sahib oldu. Onun indiki hərəkətlərində də cinayət tərkibi var, odur ki bu məsələ ətrafında bizim inzibati orqanlarımız, prokurorluq gərək ciddi sözünü desin.

İkinci tərəfdən, ona havadarlıq edən qüvvələr var, gərək qısa müddətdə bunların arasında hədd qoyulsun. O havadarlıq edən qüvvələr bundan uzaqlaşdırılsın, hansı yolla, necə, onu fikirləşmək lazımdır.

Eyni zamanda görünür, digər tədbirlər də görüləsidir ki, həqiqətən, bu tədbirlər qətiyyətli olsun. İndiyə kimi, demək, ona izah eləmək, təbliğ eləmək söhbətindən biz gərək tamamilə kənarlaşaq.

Beləliklə, mən hesab edirəm ki, Lənkəran–Astara bölgəsində olan məsələlərə son qoymaq lazımdır. Son vaxtlar Əlikram Hümbətovun iştahası daha da artıb, hətta belə məlumat var ki, o, Salyan tərəfə hərəkət eləmək istəyir, buna heç cür yol verməк olmaz. Bunun qabağından qaçdıqca, bu adam daha da azğınlaşır. Ümumiyyətlə, tək bu yox, elə ona havadarlıq edən adamlar da cəzalandırılmalıdır. Odur ki mən xahiş edirəm, Milli Məclisin bugünkü qərarında bu məsələlər gərək mütləq öz əksini tapsın. Sağ olun.

**Sədrlik edən.** Məclis üzvü Hacıbaba Əzimov buyursun.

Hörmətli sədarət, hörmətli millət vəkilləri! Həqiqətən, xalqımız, respublikamız çox ağır günlər keçirir və çox təəssüf ki, bu ağır günlər respublikadan kənarda yazılmış dram ssenariləri, faciə ssenariləri ilə idarə olunur. İki ay bundan qabaq, xatırladıram, "Komsomolskaya pravda" qəzetində belə bir başlıqla məqalə verilmişdi ki, Azərbaycan teatrının dramı. Onun yeni səhifələrini, təəssüf ki, bu gün daha yeni bir faciəni, dramı, hadisəni biz müzakirə etməli oluruq. Əlbəttə, bütün bu faciəli hadisələrdə əsas xalq kütlələri, zəhmət adamları əziyyət çəkir, amma bu faciəli dramların müəllifləri hakimiyyətə yiyələnmək istəyən müəyyən qrup mənsəbpərəstlər, şöhrətpərəstlər, firavan yaşamaq həvəsində olanlar və hökmranlıq etmək istəyənlərdir. Çox təəssüf ki, bu adamlar indi də bizim Azərbaycanın gözəl guşəsi, cənub mirvarisi adlanan Lənkəran bölgəsində belə bir siyasi oyunbazlıqla məşğul olurlar və bu əhalinin, xüsusən talış xalqının adını bədnamlığa çıxarmaq, onun adına ləkə vurmaq istəyirlər.

Burada belə bir ifadə də işləndi, Lənkəran məsələsi. Əslində, bu nə Lənkəran məsələsi, nə də talış məsələsi deyil, bu ancaq respublikada hakimiyyətə gəlmək istəyən dediyim müəyyən qrup adamların məsələsidir. Belə bir məsələdir ki, bu təkcə respublikada fəaliyyət göstərən, hakimiyyətə gəlmək istəyən adamların adı ilə bağlı deyil, həm də Azərbaycandan xaricdə hazırlanan planların bir hissəsidir və faciə də bundadır, biz bunu görməliyik.

Mən tam məsuliyyətlə deyirəm, bunu bilirəm ki, Lənkəran–Astara bölgəsinin əhalisi, o cümlədən talış xalqı Talış-Muğan Muxtar Respublikası yaradılması fikrini qətiyyətlə rədd edir, tamamilə bunun

əleyhinədir və o əhali bütün qəlbi ilə özünü Azərbaycan xalqının bir hissəsi, Azərbaycan torpağının bir hissəsi hiss edir və necə əvvəllər olduğu kimi, indi də bütün Azərbaycanla, Azərbaycan xalqı ilə birlikdə nəfəs alır. Mən belə hesab edirəm ki, müəyyən adamların burada yerli əhaliyə müəyyən qədər nəsə belə bir irad tutmasına heç bir ehtiyac yoxdur. Olsa-olsa, bu yerli əhali içərisində ancaq müəyyən sadəlövh adamların, yaxud yenə də vəzifə tutmaq, hansısa mənsəbə çatmaq istəyən tək-tək şəxslərin bu işdə əlləri var, bu işdə iştirak edirlər. Amma qətiyyən bunu əhalinin adına çıxmaq olmaz.

Mən bunun şəxsən şahidiyəm və deyə bilərəm ki, hələ 4 iyulda guya cənub bölgəsinin problemlərini həll etmək üçün Lənkəran İcra Hakimiyyətində müşavirə keçirilməli idi, deputatlar çağırılmışdı. Həmin vaxt Lənkəranda fəaliyyət göstərən siyasi partiyalar, ictimai təşkilatlar ayrıca yığışdılar, həmin müşavirəyə getmədilər və orada belə bir hərəkətin, yəni Talış-Muğan Respublikası yaratmaq fikrinin tamamilə bu bölgənin əhalisinin, talış xalqının adına ləkə gətirdiyi haqqında bəyanat qəbul etdilər. Onu mətbuatda da dərc etdilər və yerli əhalinin münasibəti Baş nazir Surət Hüseynovun iştirakı ilə Lənkəranda təxminən 600-700 adamın iştirakı ilə keçirilən müşavirədə bir daha məlum oldu. Belə ki, Surət Hüseynov orada deyəndə ki, mən Talış-Muğan Respublikası sözlərini eşidəndə pərt oldum və biz Azərbaycanı parçalamağa yol verə bilmərik, onda yerdə oturanlar hamısı sürəkli alqışlarla Surət Hüseynovun bu sözlərinə öz münasibətlərini, rəğbətlərini bildirdilər. Belə misallar çox çəkmək olar.

Lakin çox təəssüf ki, həqiqətən, burada qeyd olundu, respublika rəhbərliyi Surət Hüseynovun Lənkərana gəlməsinə iki gün bundan qabağa qədər hələ rəsmi surətdə özünün münasibətini bildirməmişdi. Bu da, əlbəttə, adamlarda müəyyən qədər çaşqınlıq yaradırdı və bundan da həmin mənsəbpərəst qrup, o adamlar sui-istifadə edirdilər, şayiələr buraxırdılar ki, guya bu məsələlər respublika rəhbərliyi ilə razılaşdırılır və sair.

Nəhayət, mən demək istəyirəm, bu hərəkətlər, yəni hər hansı bir qondarma Talış-Muğan indi muxtar sözü də əlavə olunub, respublikasının yaradılması kimi cəfəngiyyatın ortaya atılması ancaq Azərbaycan xalqını parçalamaq, Azərbaycan Respublikasının ərazi bütövlüyünü pozmaq cəhdlərdən başqa bir şey deyil. Biz bütün lənkəranlılar, o bölgədən olan bütün ziyalılar, o cümlədən deputatlar, mən elə bilirəm, burada oturanların hamısı, hər bir vicdanlı azərbaycanlı belə hesab edir

ki, buna biz yol verə bilmərik və bunun qarşısını bütün qüvvələrimizi birləşdirməklə, birgə səylərlə almalıyıq. Bunun üçün də, əlbəttə, birinci növbədə, respublika rəhbərliyinə, respublika hökumətinə kömək eləməliyik və yenə də deyirəm, qoy o mənsəbə çatmaq, hakimiyyətə çatmaq üçün oyunbazlıqla məşğul olanlar bir daha ayılsınlar, başa düşsünlər ki, Azərbaycanın bu ağır günündə, Vətənin bu dərdli günündə, millətin gözəl övladlarının şəhid olduğu, minlərcə adamların qırıldığı, yüz minlərcə adamların qaçqın düşdüyü bir vaxtda öz bədnam fitnəkar hərəkətlərindən çəkinməlidirlər. Çünki onlar özləri, onların balaları, bəlkə də, nəvələri var və onlar bunu nəzərə almalıdırlar. Onlar nəzərə almalıdırlar ki, doğrudan da, tarix heç nəyi unutmur, heç nəyi də bağışlamır, xalq mütləq bunun, yəni bu hadisələri törədənlərin cəzasını verəcək, onların qiymətini deyəcək, nə qədər gec deyil onlar bu əməllərindən əl çəksinlər. Mən hesab edirəm ki, Milli Məclis bu hərəkətlərə düzgün siyasi qiymət verməklə həmin adamların özünə də və bütün xalqa kömək etmiş olacaq. Sağ olun.

**Sədrlik edən.** Hacıbaba müəllim, Siz ziyalı adamsınız – mən müraciət edərək bir-iki kəlmə söz demək istəyirəm – tarixi bu gün biz yazırıq, tarix bundan sonra qiymət verməməlidir, bu gün qiymət verməliyik, bu gün sözümüzü deməliyik. Siz bu Məclisin üzvüsünüz, sizin gözünüzün qabağında olubdur. İndi bunu kim necə dedi, nə cür dedi, amma Sizdən bir dənə kəskin söz eşitmirəm. Bu, cinayətdir, bu, Azərbaycan xalqına xəyanətdir, xəyanət edənləri də mən dedim, Əlikram Hümbətov, Rəhim Qazıyev və başqaları. Amma Siz alim adamsınız, iki kəlmə deyin qiymətiniz nədən ibarətdir, o yana fırlayırsınız, bu yana fırlayırsınız, elə fırlamaqla da yaşamısınız, bəsdirin.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yox, bəsdir də deyəcəksiniz deyin də. Axı mən Sizi 10 dəqiqədir eşidirəm, Siz elə o yana fırlayırsınız, bu yana fırlayırsınız, filankəs belə gəldi, biz belə düşünürdük, mən bunu Sizə açıq deyirəm, ordu parçalanıbdır, respublikanı parçalayan bunlardır. Mən Rəhim Qazıyevin bütün günahlarını burada dedim, Siz durun deyin ki, mən düz demirəm, mən Sizə konkret faktlar deyirəm, bəsdirin.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Siz sözünüzü qurtardınız, mən ikinci dəfə sizə söz verməyəcəm.

Asya Manafova buyursun.

**Asya Manafova.** Hörmətli xalq deputatları, hörmətli sədr.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəsdirin, beş stulda oturmaq, hərənin bir mövqeyi olmalıdır, bəsdirin.

Buyurun, Asya xanım, üzr istəyirəm.

**Asya Manafova.** Bu gün müzakirə olunan məsələyə mən biganə qala bilmərəm, birinci ona görə ki mən Masallı rayonunun Xalq Deputatları Sovetinin sədri işləmişəm, o regionla əlaqəm kəsilməyibdir, o camaatın qayğılarına bələdəm, xasiyyətinə bələdəm. Təəssüflər olsun ki, bu gün burada müzakirə olunan bu məsələ barədə mənə Masallıdan onlarca yoldaş müraciət eləyib, mənimlə görüşüblər, xahiş eləyiblər ki, bugünkü Milli Məclisdə mən onların sözlərini iştirak eləyən yoldaşlara çatdırım. Bu məsələ ilə əlaqədar dörd dəfə çalışıblar, rayon sovetinin sessiyası keçirilsin və bu, üç dəfə baş tutmayıbdır, silahlı şəxslərin köməyi ilə dördüncü dəfə sessiyaya yığışıb, rayon Xalq Sovetinin deputatları bu məsələyə etirazlarını bildiriblər və deyiblər ki, biz belə bir respublikanı tanımırıq, tanıya da bilmərik, biz heç vaxt Azərbaycan xalqından ayrılmamışıq və ayrılmaq fikrində də deyilik. Təəssüflər olsun, bu məsələdə yalnız rayonda yaşayanlar yox, respublikanın digər rayonlarından da, xüsusilə mərkəzdən müdaxilə edilir və onların fikridir ki, orada, necə deyərlər, belə bir respublika yaratsınlar. Bir daha Heydər Əliyevin çıxışında da bu deyilənlərin təsdiqini mən eşitdim.

Məni bir şey təəssüfləndirir, məgər bu gün Azərbaycan xalqını düşündürmürmü ki, Füzuli məsələsinə, yaxud Ağdam məsələsinə baxılmalıdır, amma biz Talış-Muğan Respublikasını müzakirə eləyirik. Məgər Azərbaycan xalqı fikirləşmirmi ki, bu gün Talış-Muğandan söhbət gedirsə, sabah Ləzgistandan, birisi gün Kürdüstandan, Tatarıstandan və digər söhbətlər də meydana çıxacaq. Biz bu gün burada oturub parçalamaqla məşğul olsaq, digər məsələlərə kim biganə qala bilər. Mən çox məyus oluram ki, bu Milli Məclisdə oturan yoldaşlar vaxtı ilə 28 nəfərin səsi ilə biz türkdilliyik deyəndə bu məsələlərin ardı olacağını fikirləşmirdilərmi? Təəssüflər olsun, belədir, biz hər məsələyə belə qiymət verdiyimiz üçün bu gün Talış-Muğan məsələsinə gəlib çıxmışıq. Biz hər bir məsələnin üstündən keçdiyimiz üçün, belə ifadə işlətdiyim üçün üzr istəyirəm, bu gün bu məsələlərin qoynunda çabalayırıq.

Necə ola bilər ki, Əlikram orada ordu yığsın, qanunsuz hərəkət eləsin, cinayət etsin, buna da biz, necə deyərlər, kənardan baxaq. Kimli-

yindən, tutduğu vəzifəsindən asılı olmayaraq, Əlikrammi, Rəhim Qazıyevmi, digər rəhbər işçilərmi olur, mənə elə gəlir ki, bunların haqqında qəti tədbir görülməlidir, bunlar cinayət məsuliyyətinə cəlb edilməlidir, xalqın qarşısında cavab verməlidir. O səviyyədə verilməlidir ki, bu, xalera kimi o biri regionlara da yayılmasın, bunun qarşısını biz vaxtında, lazımi səviyyədə almalıyıq.

Burada bir sıra faktlar aydınlaşıb, bizim köhnə Prezidentimiz haqqında burada çıxış eləyən yoldaşlar – mən həmin sessiyalarda çıxış eləmişdim – Rəhim Qazıyev birinci əl qaldırırdı ki, Mütəllibov getsin, yaxşı Mütəllibov getdi, Mütəllibovu indi qaytarmağa niyə çalışırsınız, bəs bunu nə ilə izah eləyək, budurmu bizim hörmətimiz, izzətimiz? Yaxud digər məsələlərdə, mən başa düşə bilmirəm, Heydər Əliyev Rəhim Qazıyevin babası yerindədir, hər halda, danışanda mənə belə gəlir ki, etikanı gözləmək lazımdır, bunu bütün camaat eşidir, ayıb deyilmi bizim üçün. Azərbaycanın yaxşı bir misalı var, deyir ki, hörmət olmayan yerdə bərəkət də olmaz, ona görə Allah bizim bərəkətimizi də əlimizdən almışdır. Bu gün mənə elə gəlir ki, bu məsələlərə çox ciddi yanaşmalıyıq, ona siyasi qiymət verməliyik, adları çəkilən yoldaşlar cinayət əməllərinə görə məsuliyyət daşımalıdırlar və bugünkü Milli Məclisdə həmin yoldaşlar – mən onlara yoldaş deyə bilmərəm, onlar cinayətkardırlar – necə deyərlər, qəti olaraq cavab verməlidirlər. Çox sağ olun.

**Sədrlik edən.** Nemət Pənahov buyursun. Bir necə dəfə rica edibdir, düzdür, millət vəkili deyil, ancaq Azərbaycanda məşhur bir adamdır, ona söz verməyi mən gərəkli bilirəm, Azərbaycanda gedən siyasi proseslərdə həmişə fəal iştirak eləyib.

**Nemət Pənahov.** Hörmətli Heydər bəy, hörmətli millət vəkilləri, hörmətli Azərbaycan xalqı, hörmətli televiziya tamaşaçıları. Bu gün, həqiqətən də, Azərbaycanın ən ağır, ən dəhşətli bir dövrüdür ki, son sessiyalarda da bu görünür. Son Lənkəran hadisələri, Talış-Muğan Respublikasının yaranması ilə əlaqədar istər Heydər Əliyev, həmin bölgədən gələn deputatlar, istərsə də yerli əhali tərəfindən məlumatlar verildi. Mən də bu hadisəyə münasibətimi bildirməyə bilmərəm, çünki elan edilən Talış-Muğan Respublikası bu günün məsələsi deyil. Heydər Əliyev bu məsələyə çox düzgün toxundu, bu, Azərbaycanın xarici düşmənləri tərəfindən Azərbaycanı parçalamaq, unitar dövlətdən konfederativ dövlətə keçirmək, Azərbaycanı xarici düşmənlərin qarşısında diz çökdürməklə, məhv etmək planlarını həyata keçirmək məqsədi güdür.

Burada xarici düşməndən çox danışmağa ehtiyac yoxdur, aydın məsələdir ki, Ermənistan bu gün açıqdan-açığa bizə müharibə elan eləyib. Biz baxsaq, Ermənistanın Daşnaksütyun partiyasının proqramında bu, yüz illərlə nəzərdə tutulub. Mən qayıdacam, sadəcə olaraq, Azərbaycanda başlayan son milli azadlıq mübarizəsi dövründə yadınızdadırsa, Azərbaycan 1988-ci ildə erməni təcavüzünə qarşı ümumxalq mübarizəsinə qalxanda nə talış, nə ləzgi, nə tat, nə kürd, nə bakılı, nə də şəkili söhbəti yox idi. Azərbaycanda yaşayan bütün xalqlar, etnik qruplar bir xarici düşmənə qarşı yumruq kimi birləşib, amansız mübarizəyə qalxmışdılar. Televiziya çıxışımda mən deyəndə ki, mənim həyatımda ən böyük səhvim Azərbaycan Xalq Cəbhəsinin yaranmasına imkan verməyim və Azərbaycan Xalq Cəbhəsinin yaranmasında iştirak etməyimdir, bunu təsadüfən demirdim.

Həmin Talış-Muğan Respublikası və Kürdüstan ilk dəfə Azərbaycan Xalq Cəbhəsi tərəfindən 1989-cu ildə Zərdüşt Əlizadə, Araz Əlizadə və onillik deyilən həmin blok tərəfindən ortalığa atılmışdır. Ondan sonra Milli Müdafiə Şurasından söhbət gedirdi – biri var 1990-cı ildə yaranan Milli Müdafiə Şurası, biri də var 1990-cı ildən sonra Ayaz Mütəllibovun rəhbərliyi altında yaradılan Milli Müdafiə Şurası – heç bir hərbi təcrübəsi, hərbi səriştəsi olmayan Əlikram Hümbətov kimilərinin, Araz Əlizadələrin əli ilə silahlandırılması və Azərbaycanda nəinki Sosial Demokratik Partiyasının bir üzvünün, Hümbətovun Rusiya Sosial Demokrat Partiyasının üzvü və sədr müavini seçilməsi, bunların heç biri təsadüfi deyildir. Bunların hamısı tarixi fakt idi.

Ermənistan Azərbaycana qarşı silahlı müharibəyə başladığı bir vaxtda keçmiş rəhbərlər, yəni keçmiş rəhbərlər deyəndə, son dövrdə o söz az qala ikrah hissi ilə xatırlanılır, müstəqillik sözü lağa qoyulur və son dövrdə Azərbaycanın başına gətirilən bütün fəlakətlər ancaq və ancaq Əbülfəz Əliyev dövrünün hakimiyyəti ilə eyniləşdirilir. Bu, ən azı tarixi saxtalaşdırmaq, ən azı cinayətlərdən yan keçmək, ən azı Azərbaycanda edilən cinayətlərin böyük mənada izini itirməkdir. Həmin müddətdə Azərbaycanda erməni daşnaklarına, erməni milliyyətçilərinə qarşı ümumxalq mübarizəsi başlayanda, Azərbaycan hökumətinin əli ilə – mən dəfələrlə müsahibəmdə qeyd eləmişəm ki, Ermənistanın Dağlıq Qarabağda qələbəsinin 99 faizi Azərbaycan hökumətinə və Azərbaycan rəhbərliyinə bağlıdır – həmin dövrlərdə biz Ermənistandan qovulan qaçqınları aparıb Dağlıq Qarabağda gecə ilə yerləşdirirdik. Ermənistandan gələn qaçqınların bir nəfərinin belə nə Bakıya, nə Şəkiyə, nə

də Azərbaycanın başqa bölgələrinə yerləşmək fikirləri yox idi, onların hamısı tələb eləyirdi ki, biz Qarabağa gedək və ermənini oradan biz çıxarmalıyıq. Biz gecə ilə avtobuslar tuturduq, oğurluq avtobuslarla yola salırdıq, səhər məlum olurdu ki, Azərbaycanın rəhbərliyi, Telman Orucov, Əlisahib Orucov, yaxud bir başqası Vəzirovun göstərişi ilə qaçqınları o bölgədən çıxarıb.

Ermənilər bizə silah atmağa başlayan müddətdə Azərbaycan xalqının sərhəd bölgələrində ov tüfəngləri yığıldı və biz düşmənin qarşısında tam tərk-silah, diz çökmüş vəziyyətə salındıq. Həmin xəyanətkar dediyiniz, mənim bu hakimiyyətə gəldiyi gündən xəyanətkar bir qüvvə kimi tanıdığım Əbülfəz Əliyevin 1989-cu ildə hakimiyyətə gətirilməsi milləti özü özündən iyrəndirmək, elə simasız, şəxsiyyətsiz, mənəviyyatsız adamları hakimiyyətə gətirməklə həmin keçmiş cinayətlərinə haqq qazandırmaq və özlərinin cinayətlərini ört-basdır etmək məqsədi güdürdü.

**Sədrlik edən.** Nemət, bu məsələ haqqında bir az qısa və konkret. Bu tarix artıq bizə məlumdur, bunu dəfələrlə eşitmişik.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yox, bu məsələ haqqında qısa.

**Nemət Pənahov.** Heydər bəy, xahiş edirəm, bu hərəkat haqqında bir az geniş danışmağımın səbəbi konkret tələblərlə çıxış eləyəcəm, mən bu bölgələrdə şəxsən iştirak etmişəm, Əlikram Hümbətovla da şəxsən tanışam, Rəhim Qazıyevin də ora etdiyi səfərlərdən də xəbərim var, mən dəfələrlə Lənkəran, Astara, Talış bölgəsində olmuşam. İnanın, yerli əhalidə bir dənə belə fikir yoxdur və burada da bu, dəfələrlə işlədilir ki, gah talış-türk, gah Gəncə–Bakı, gah Naxçıvan–Bakı, gah da gəlmə-yerli qarşıdurması, bunlar hamısı süni şəkildə şişirdilir.

Heydər bəy, burada məqsəd bu gün artıq Sizin Azərbaycan hakimiyyətinə gəlişinizdən sonra Azərbaycana qarşı xəyanət edənlərin kürkünə birə düşüb. Burada bir faktı çox gözəl dedilər ki, indiyə qədər burada nə qədər cinayətlər olub, o ona deyib, deyəcəm, bu buna deyib, deyəcəm, o ona deyib ki, komissiya açılacaq, ya açılmayıb, niyə çünki 1988-ci ildən bu günə qədər bu xalqın başına bəlaları bu zal gətirib, birinin cinayətinin üstü açılmayıb.

Heydər bəy, bu gün onun üçün Siz kişi kimi, cəsarətlə onların üzünə baxa bilirsiniz ki – mən oturub özüm üçün təhlil eləyirəm – Sizin bu cinayətlərdə əliniz yoxdur. Bu bunun bir cinayətini deyəndə o biri qalxır ki, sənin cinayətini açacam.

Əsas məsələ, Əlikram məsələsi Azərbaycan xalqına qarşı zərbədir, sadəcə olaraq, Gəncə hadisələri və Gəncə hadisələrindən əvvəl Azərbaycanda cərəyan edən proseslər, həqiqətən də, hakimiyyətin dəyişilməsinə xidmət eləyirdi. Ayaz Mütəllibovun yenidən hakimiyyətə qaytarılmasına xidmət eləyən oyunlar idi və həmin ssenarinin pozulmasında bircə səbəb oldu ki, Heydər Əliyev Azərbaycan hakimiyyətinin başına gəldi. Heydər Əliyev Azərbaycana hakimiyyət başına gəldikdən sonra 1988-ci ildən indiyə qədər xalqın qanı ilə oynayan, bir tərəfdən, millət, vətən, namus uğrunda qan töküldüyü müddətdə, bir tərəfdən də, var-dövlət, şan-şöhrət, vəzifə hərisliyi eləyənlər, həmin qanların hesabına var-dövlət, şan-şöhrət sahibi olmaq istəyənlər artıq bu gün başa düşürlər ki, haqq divanı çəkilir.

Mən ömrümdə çəkinməmişəm, qorxmamışam və bunu yalan demirəm, Sizə qarşı sui-qəsdlər də var. Sizin hakimiyyətə gəlməyinizlə gecə-gündüz şəxsən mənim evimə də, işimə də, hara gedirəmsə hədə gəlirlər ki, KQB generalını gətirdin Azərbaycanın başına çıxardın, səni gör qan içində nə cür boğacağıq,  gör başına nə oyunlar açacağıq. İndi də bəli, Lənkəran hadisələri izi azdırmaqdır, Bakıda, burada əlaqələr var, birbaşa Bakıdan idarə edilir və həmin Milli Müdafiə Şurasının yaradılması ilə Azərbaycanda Milli Ordunun yaradılmasına imkan verməyən diletant, ordudan başı çıxmayan adamlar Dağlıq Qarabağda sallaqxana təkəsi rolu oynayıblar, milli qüvvələri ləğv elədilər. İndi də artıq həmin cinayətlərin – Siz dediniz ki, Xocalı açılacaq, 20 Yanvar açılacaq, bütün cinayətlər  açılacaq – açılmaması üçün bütün qüvvələr fəaliyyətdədir, bütün gücləri ilə işə düşüblər, nəyin bahasına olur olsun, istər terror, istər Azərbaycanı parçalamaq vasitəsilə, istərsə də  nə bilim, Lənkəran–Talış qarşıdurması, ləzgi problemini yaratmaqla bu cinayətlərdən yaxa qurtarmağa çalışırlar.

**Sədrlik edən.** Nemət, konkret danış, deyirsən ki, qüvvələr, qüvvələr, kimdir o qüvvələr, iki kəlmə de, bununla da qurtaraq da.

**Nemət Pənahov.** Qüvvələri açıq deyirəm, mən heç vaxt qüvvələri gizlətməmişəm, qüvvələr Vəzirov dövründən başlayaraq Əbülfəz Əliyevin dövrünə qədər Azərbaycana son dövrdə rəhbərlik etmiş rəhbərlər. Burada konkret olaraq birini deyəsən ki, bunun günahı var, onun yox, Vəzirovun dövründən Azərbaycana başlayan təcavüzdən başda Əbdürrəhman Vəzirov olmaqla onun davamçısı Ayaz Mütəllibov, ondan sonra gələcək Əbülfəz Əliyev və onun əlaltıları və piyadaları.

Heydər bəy, onun üçün mən təklif edirəm ki, millət xarici təcavüzə məruz qalanda, dəhşətli vəziyyətə düşəndə milləti iki şey xilas eləyir, ya onun milli əxlaqı, ya vətənpərvərlik hissi, ya da milli qüruru, düşmənə qarşı nifrəti. Bunu 1988–1989-cü illərdə öldürdülər. İkinci, milləti xilas eləyəcək millətin içərisindən çıxan şəxsiyyətdir ki, milləti səfərbər eləyib hərbin, nizam-intizamın gücü ilə dövlət gücünə müharibəyə cəlb eləmək. Azərbaycan Fələstin olmaq təhlükəsi qarşısındadır. Azərbaycan əgər həqiqətən də, Sizin hakimiyyət də devrilsə, 100 faiz Fələstindən pis vəziyyətə düşəcək. Biz azərbaycanlılar, sayılan azərbaycanlılar dünyada qaçqın vəziyyətində qalacağıq və onun üçün mən xahiş eləyirəm, tələb eləyirəm – əgər olmasa yenə deyirəm Azərbaycan xalqına üz tutacam, müraciət və son nəfəsinə qədər vətən, millət uğrunda mübarizəyə qalxıb ölümə gedən oğullar çıxacaqdır – indi Əlikram Hümbətov və onunla əlaqəli olan bütün şəxslər xain elan edilməlidir, müharibə dövrünün ən ağır şərtləri ilə cəzalandırılmalıdır. Azərbaycanda bu gündən etibarən fövqəladə vəziyyət yox, səfərbərlik elan edilməlidir, 18 yaşından tutmuş 40, 50 yaşına qədər erməniyə qarşı müharibəyə cəlb edilməlidir. Təcili şəkildə, nə qədər ki imkan var 20 Yanvar, Xocalı, Şuşa, Laçın cinayətləri açılmalıdır.

Bir böyrünüzdə bir cinayətkar, bir böyrünüzdə o bir cinayətkar oturub, özü də qabaqda, o cinayətkarlar imkan verməyəcəklər ki, Siz Azərbaycana rəhbərlik eləyəsiniz. Necə ki, onların cinayətkar maskası açılıb hamının qarşısında elan edilməyənə qədər. Xocalını, 20 Yanvarı kim gizlədib, Xocalını kim verib, Şuşanı kim verib, milli ordu yaranıb, indiyə qədər bu məğlubiyyətlərimiz nə ilə əlaqədardır. O cinayətlər açılmayınca, Heydər bəy, nə Azərbaycan xalqına nicat yoxdur, nə də Azərbaycan dövlətçiliyi yaranmayacaqdır, onun üçün Sizdən xahişim budur ki, bugünkü vəziyyətdə qəti tədbir...

**Sədrlik edən.** Açmaq istəyirik, sən də burada yarım saatdır danışırsan, bir dənə demirsən ki, kimdir bunun günahkarı.

**Nemət Pənahov.** Mən deyirəm ki, bunun günahkarı başda Əlikram Hümbətov olmaqla onunla əlaqələndirdiyiniz...

**Sədrlik edən.** Başda Əlikram Hümbətov deyil, başda başqalarıdır. Hümbətov əldə alətdir.

**Nemət Pənahov.** Çünki Əlikram hümbətovlar qarmağa keçiriləndən sonra onun arxasındakı qüvvələr bir-bir meydana çıxacaq. Elə Əlikram Hümbətovdur, Rəhim Qazıyevdir, qeyriləridir, onlar müttəhimlər

kürsüsündə oturandan sonra, kim tərəfdən, haradan, nə cür idarə edilirdilər, o milyonları onlara kim vermişdir, o silahları kim vermişdir, hansı ağlına, necə deyərlər, generallığına görə ordu Əlikram Hümbətovun ixtiyarına buraxılıb getmişdir. Onun üçün də qəti tədbir görülüb cəzalandırılmalıdır.

**Sədrlik edən.** Aydındır, aydındır.

Hüseynağa Qəniyev buyursun.

**Hüseynağa Qəniyev.** Hörmətli Məclis üzvləri.

**Sədrlik edən.** Bağışlayın, Hüseynağa müəllim. Bir balaca Sizi dayandırım, telefonla belə bir məlumat gəlibdir, Zaur Rzayev generaldır, talışdır, indi biz onu cəbhəyə Baş komandan qoymuşuq, bütün cəbhədə vuruşlara rəhbərlik eləyir. Mən bu yaxınlarda Gəncədə olanda o generalla tanış olmuşam, belə çox görkəmli bir adamdır, yaxşı hərbçidir. General Zaur Rzayev telefonla, bəli telefonla məlumat verir, Azərbaycan böyükdür və bütövdür, biz Azərbaycanın bütövlüyü uğrunda lazım gəlsə, canımızdan da keçməyə hazırıq, mən Arif Rəhimzadənin təklifinə tərəfdaram. Sizə elan edirəm, cəbhədən gələn məlumatdır. Buyurun, Hüseynağa müəllim.

**Hüseynağa Qəniyev.** Çox sağ olsun Zaur Rzayev, biz də onun sözlərinə qoşuluruq.

Heydər müəllim, bu məsələ ilə əlaqədar biz Sizinlə də görüşmüşük, bu yaxınlarda da müşavirə oldu və bu gün də Siz çox əhatəli, çox dərin, məzmunlu məlumat verdiniz. Sözün düzü, belə geniş məlumatdan sonra danışmaq çətindir, çünki hərtərəfli izahat verdiniz, bütün suallara elə özünüz də cavab verdiniz. Ümumi nəticə aydındır ki, Talış-Muğan Respublikası yaratmaq hakimiyyət uğrunda mübarizədir və bu mübarizə də Azərbaycanın parçalanmaq təhlükəsidir.

Heydər müəllim, bu Muğan Respublikası haqqında Sizə qısa tarixi bir arayış vermək istəyirəm. XX əsrdə üç Muğan Respublikası yaranıb. 1918-ci ildə Bakı Kommunasının süqutundan sonra rus milli komitəsi respublikada həmin ərazidə Muğan Respublikası yaradıb. Ondan sonra bir qədər...

**Sədrlik edən.** Onu da Sizə deyim ki, bu tarixi mən də bilirəm, onu da yaradan ruslardır, onun rəhbərləri də ruslardır, onu da bilin. Ruslar Kaspidən gəlib onu orada yaratmışdır. Bu tarixi mən yaxşı bilirəm.

**Hüseynağa Qəniyev.** Bəli, bəli ondan sonra 1919-cu ildə ikincisi yaranıb. Onu yaradanların tərkibində, çox maraqlıdır ki, 1000 nəfər o

qurultayda iştirak eləyib, bunun 600-ü azərbaycanlı, 300-ü rus, 100 nəfəri erməni olub. Bütün o ərazini axtarsan bir nəfər erməni yoxdur, amma o qurultayda 100 erməni olub. Nə isə, o yerdən, o torpaqdan bu məqsədlər üçün istifadə eləmək üçün bu tarixi bir ənənə şəklini alıb. Məsələ burasındadır ki, bu respublikaların heç birinin ömrü üç aydan artıq olmayıb, üç aydan sonra tarix onların haqqında öz sözünü deyib. Məsələ burasındadır ki, bu respublikaların yaranmasının heç birinin etnik əsası olmayıb. Nə isə, bu etnik əsası kənardan gətirib, zorla o torpağa bağlamaq istəyiblər. Həqiqətən, burada Siz də qeyd elədiniz, başqa çıxış eləyənlər də dedilər, ümumiyyətlə, bu, etnik xarakter daşımır, bunun talışlarla heç bir əlaqəsi yoxdur. Ümumiyyətlə, Sizin dediyinizlə mən tərəfdaram ki, müxtəlif kanallardan – çoxlarının adlarını Siz qeyd elədiniz, bəlkə də, bizim bilmədiklərimizin bir çoxunu da Siz qeyd eləmədiniz, başqaları da var – bunlar bu formada ayrı-ayrı adamların arzuları ilə həyata keçirilir. Ən xarakterik cəhət budur ki, mən yenə də bu üç respublikaya qayıdıram, bunların üçü də Azərbaycanın dövlətçiliyi zəifləyəndə yaranıb. Siz çox haqlısınız Azərbaycanda dövlətçilik zəifləyib, bu dövlətçiliyi biz qaldırmalıyıq.

Azərbaycan dövlətçiliyini qaldırmaq üçün, birinci növbədə, Azərbaycanın Konstitusiyasını qaldırmalıyıq, bütün məsələlərdə Azərbaycan Konstitusiyasının bütün gücünü tətbiq eləmək lazımdır, Azərbaycan vahid, suveren, bölünməz bir respublikadır. Onun vahid Konstitusiyası var və o Konstitusiya Azərbaycan vətəndaşlarının hamısı üçün müqəddəsdir, hamının borcudur ki, o Konstitusiyanı qorusun. Bu Talış-Muğan Respublikası Azərbaycan Konstitusiyasına ziddir, antikonstitusiondur, ona görə də mən hesab edirəm ki, bu məsələ Azərbaycan Konstitusiyası çərçivəsində həll olunmalıdır.

Əlbəttə, burada təklif vermək çox çətindir, çoxlu təkliflər verilib, siyasi qiymət verilməlidir, amma yenə də mənə elə gəlir, bu məsələnin konkret həlli – indi, bəlkə də, səhv eləyirəm, amma bu mənim fikrimdir – yaxşı olar ki, Milli Məclisin qərarı ilə Nazirlər Kabinetinə tapşırılsın və müəyyən müddət ərzində Nazirlər Kabinetindən tələb olunsun. Əgər bu, mümkünsə, bu mənim fikrimdir.

Heydər müəllim, mən bir-iki başqa məsələ haqqında da danışmaq istəyirəm. Demək bu region nümayəndələri ilə görüş zamanı orada natiqlərdən biri çıxış elədi, Lənkəranda olan toplantıdan danışdı, mən onların adını çəkmək istəmirəm. Mənə müraciətlə dedi ki, orada çıxış eləyən deputatların hamısı deyiblər, muxtar respublika, mən ona cavab

vermədim, hesab elədim, bu, televiziyaya getməyəcək, ona görə mən çoxlu suallara cavab verməli oldum, o məsələyə cavab verirəm ki, bu mənə və deputatlara qarşı qərəzlidir. Mən xahiş edirəm ki, şəxsən mənim oradakı çıxışımı Azərbaycan televiziyası ilə versinlər. Bax, orada Sultan Məmmədov da, Cavanşir müəllim də iştirak edib, orada professor Əbülfəz var, əyləşib, hamı görüb ki, vəziyyət necə olub? İndi elə adamlar var ki, belə proseslərdən müəyyən karyera, müəyyən məqsədlər üçün bundan istifadə edirlər. Ya da qulağına bir söz dəyib. Mən, ümumiyyətlə, Sizin münasibətlərinizə fikir verirəm və görürəm ki, Siz əsla belə hallara uymursunuz, o qlobal, böyük məsələlərlə çox düzgün gedirsiniz.

İkinci bir fikrim də var ki, Siz qeyd etdiniz ki, bizim Sizə gətirdiyimiz təkliflərin bir maddəsində yazılmışdı, demək, Talış-Muğan Respublikası, ola bilsin, o haqda söhbət gedir, mən çox üzr istəyirəm, orada elə bənd verilməmişdi. Düzdür, onlar yazmışdılar Talış-Muğan Respublikasının problemləri, hətta biz onun adını da pozduq və onun özünə, Əlikramə də dedik ki, biz bu adla təkliflər təqdim edə bilmərik. Biz orada "Cənub regionunun təklifləri" yazdıq. İçəridə də, ümumiyyətlə, o məsələ haqqında heç bir təklif yox idi, çünki biz özümüz də onu başa salırdıq ki, bu təklif deyil, bu mümkün olmayan məsələdir və bu haqda heç düşünmək də lazım deyil, bunu təklif kimi də vermək olmaz.

Bizim məqsədimiz Azərbaycanı qorumaqdır, biz hamımız azərbaycanlıyıq və biz Azərbaycanda azərbaycançılıq ideyasını, necə deyərlər, sözün əsl mənasında, bərqərar eləməliyik. Hər bir azərbaycanlı vətəndaşı milliyyətindən asılı olmayaraq – indi bu millət məsələsi də son zaman çox geniş yayılıb – özünü azərbaycanlı hesab eləməlidir, Azərbaycan Konstitusiyasına hörmət eləməlidir və Azərbaycanın bütövlüyü, suverenliyi uğrunda mübarizə aparmalıdır. Çünki bu bütövlük, suverenlik uğrunda çoxlu qanlar gedib, çoxlu azərbaycanlılar, Azərbaycan vətəndaşları həlak olub. Mənim fikrim bu qədər.

**Sədrlik edən.** Hüseynağa müəllim, Siz çox dəyərli sözlər dediniz və bunların hamısına şəxsən mən inanıram və əminəm ki, Siz bu dediyiniz sözlərə əməl edəcəksiniz. Ancaq bir şey təəccüblüdür, mən bunu hörmətli Şeyxülislamla telefonla danışanda da dedim, Sizə də deyirəm, Lənkəranın Sizin kimi belə çox ağıllı bir nümayəndəsi Milli Məclisin üzvüdür, Azərbaycan Respublikasının demək, din xadimi, dini başçısı Allahşükür Paşazadə Lənkərandandır, özü də kökünə baxsan talışdır. Yadınızdadır, bir dəfə Sizinlə söhbət edəndə də dedim, vaxtilə Allahşükür Paşazadəni Azərbaycan dindarları özünə Şeyxülislam seçəndə fikir-

ləşmirdilər ki, bu talışdır, ya azərbaycanlıdır. O vaxt elə mən də ona səs vermişdim, ancaq mən də heç fərq qoymurdum ki, bu nədir, elədirmi? Ancaq nə cür olub bunlar qalxıb, bu, birinci.

İkinci də, mən hörmətli Şeyxə də, Sizə də dedim axı, Əlikram sizin dırnağınızın tozu da ola bilməz, sizin kimi adamların Lənkəranda və bütün o rayonlarda nüfuzu Əlikram kimi adamın nüfuzundan yüz qat artıqdır. Belə olan surətdə necə sizin kimi adamların gözünün qabağında belə bir şey peyda olubdur, belə bir hadisə mövcud olubdur, hətta bu adam bütün rayonu, yox e, bütün 7 rayonu yesir edib, bağışlayın bu sözə görə, insanları əzir, boğur və Siz də gedirsiniz, gəlirsiniz, gedirsiniz, gəlirsiniz, salam, əleykəssalam, filan, beşməkan. Başa düşürsünüzmü? Bu Sizi nüfuzdan salır. Mən bunu Şeyxülislama da dedim, Sizə də deyirəm və Sizin kimi o bölgədən olan adamlara da deyirəm. Axı insan gərək öz şəxsiyyətini həmişə lazımi səviyyədə tutsun. Sizin kimi adamlar yetirmiş Lənkəran torpağı, o torpaq, o bölgə necə o cür cinayətkarlara dözür? Bu xalq buna necə dözür?

İndi burada hamı deyir ki, indiyə qədər biz Azərbaycan rəhbərliyinin və Heydər Əliyevin sözünü bilmirdik. Məgər bundan ötrü Heydər Əliyevin sözü lazımdır? Bundan ötrü dövlətin sözü lazımdır və sizin gözünüz görmür ki, burada cinayətdir? Bilmirsiniz ki, bu, xalqı uçuruma aparır, xalqı bədbəxt edir? Mən bu sözləri tək Sizə yox, bütün bax, bu bölgədən olan ağsaqqal, hörmətli adamlara, ziyalı adamlara, o xalqın, bütün bölgənin, o rayonların qabaqcıl adamlarına, fərqi yoxdur, azərbaycanlıdır, türkdür, talışdır, hamıya deyirəm, müraciət edirəm və xahiş edirəm. Buna cavab verməyin, mən, sadəcə olaraq, bunu belə ürəyimdə ağrıyan sözlər kimi deyirəm və güman edirəm ki, bu sözləri Siz səmimi sözlər kimi qəbul edəcəksiniz. Mən bu sözləri Sizə və Sizin kimi şəxslərə böyük hörmət hissi ilə deyirəm, amma deyirəm ki, qalxın, oyanın, mübariz olun, qoymayın bizim xalqımız parçalansın, qoymayın bizim torpağımız parçalansın və Əlikram kimi, Rəhim Qazıyev kimi adamlara bizim içərimizdə yer olmamalıdır.

Firudin Cəlilov buyursun.

**Firudin Cəlilov.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Burada danışılan sözlər artıq bir-birini təkrar eləməyə başlayır, ona görə mən xahiş edirəm, gəlin, təkliflərimizi verək. Əgər əks fikirdə olan varsa, buyursun fikrini desin. Hamı eyni fikirdədir, ona görə konkret təklifləri versək, mənə elə gəlir ki, biz ümumi fikrə gələ bilərik.

Əvvəla, burada səsləndi ki, Lənkəran hadisələrinə siyasi, hüquqi qiymət verilməlidir, təbii. Mən də onun tərəfdarıyam ki, bunun qiymətini verək və mən öz tərəfimdən bunu belə qiymətləndirirəm, bu, Azərbaycan dövlətçiliyinin əleyhinə olan bir hərəkatdır. Burada Konstitusiya pozulub və bu hərəkatı törədənlər istəyir birbaşa, yaxud dolayısı iştirakçılar olsun, bunlar ən ciddi cəzaya layiqdirlər. Bu bunun siyasi, hüquqi qiyməti. Amma gəlin, bir real vəziyyəti də nəzərə alaq və mənə elə gəlir ki, bu gün biz burada dövlət komissiyası yaratmalıyıq, bu dövlət komissiyasına vaxt verilməlidir, qısa müddətdə həmin hadisələri törədənlərlə görüşüb danışıqlar aparılmalıdır. Dövlət komissiyası qarant olmalıdır ki, onlar o silahları təhvil verəndən sonra onlara toxunulmayacaq.

Bir də bu danışıqlardan qorxmaq lazım deyil, əgər orada tələblər varsa, bu tələbləri lap xırdalamaq da olar, deyək ki, sosial tələblərdir, milli məsələdir. Sosial tələblərin içində deyək, mən təhsillə bağlı adamam, mən yüz faiz əlimi ürəyimin üstünə qoyub deyə bilərəm, düzdür, burada bəzi millət vəkilləri son bir ildə olan iqtidarı çox söyüb, amma mən millət vəkillərini əmin edirəm ki, təhsil naziri kimi bu bir ildə cənub bölgəsi ən çox qayğı göstərdiyim bölgə olub və respublikada əgər bir təzə institut açılıbsa, o Lənkəranda açılıb. Lap bu yaxınlarda Surət bəyin imzası ilə Astarada pedaqoji texnikum açmışıq, biz talış dilində dərsliklər hazırlayırıq və bundan artıq hansı işləri görmək olar, əgər əlavə tələb, ehtiyac varsa, təbii, bunlar bir-bir ortalığa qoyulub xırdalanmalıdır. Yəni demək istəyirəm ki, bu tələblərin əksəriyyəti bəhanədir, yəni oturub bunları bir-bir, bənd-bənd dinləyib müzakirə də etmək olar, ona görə mənim təklifim odur ki, Heydər bəy, biz dövlət komissiyası yaradaq və bununla da bu məsələni yekunlaşdırıb, bəlkə o biri məsələlərə keçək.

**Sədrlik edən.** İbrahim İbrahimov buyursun.

**İbrahim İbrahimov.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Dağlıq Qarabağ ermənilərı tərəfindən başlanan millətçi separatçı hərəkat...

**Sədrlik edən.** Bağışlayın, İbrahim bəy. Əvəz Şükürov Kəlbəcərdən qaçqındır, mənə yazı verib, əgər zaldadırsa, mən İbrahim bəydən sonra ona söz verəcəyəm.

Buyurun.

**İbrahim İbrahimov.** Dağlıq Qarabağ ermənilərinin başladığı millətçi separatçı hərəkat rus, erməni qüvvələri tərəfindən dəstəklənən ehtiyat variantı kimi, Sadval hərəkatı və bu gün Talış-Muğan Respublikası öz ideya mənbəyini haradan götürməsindən asılı olmayaraq, birbaşa

Azərbaycan dövlətçiliyinə qəsddir, Azərbaycan dövlətçiliyinə qarşı böyük bir xəyanətdir. İdeya, forma və məzmun etibarilə yeni deyil, yəni 1918-ci ildə rus bolşevikləri tərəfindən Azərbaycan Demokratik Cümhuriyyətinə qarşı edilən bir cəhd idi, ilk cəhd Şaumyan tərəfindən Bakıda edildi, milli ordumuz o qüvvələri darmadağın elədi və belə olan tərzdə Talış-Muğan Respublikası adı altında Talış-Muğanda rus bolşevik bayrağı qaldırıldı və o zaman talış qardaşlarla, yəni talışların çox böyük köməyi, milli ordunun gücü ilə Talış-Muğan Respublikası darmadağın olundu. Yəni o qüvvələr həmin bölgədən çıxarıldı.

İndi Talış-Muğan Respublikası ideyası ətrafında çox böyük siyasi oyunların getdiyinin artıq biz şahidi oluruq. Mən, sadəcə, əvvəlki hadisələrdə, yəni Gəncə hadisələrində də yeganə adam idim ki, Milli Məclisdə onu hərbi qiyam elan eləmişdim. Bu, Gəncə hadisələrinin məntiqi davamıdır, bu hadisələrin arxasında Rusiyanın revanş götürən hərbi sənaye kompleksi, imperiyapərəst qüvvələri dayanır. Əgər xatirənizdədirsə, 3-4 ay bundan əvvəl, burada Milli Məclisin qapalı iclasında hərbi rəhbərliklə siyasi rəhbərlik arasında yaranmış ziddiyyət bütöv açıqlığı ilə ortalığa çıxdı. O zaman hərbi rəhbərlik, yəni Rəhim Qazıyev və onun tərəfdarları Müdafiə Nazirliyi məsələni tam kəskin şəkildə qoymuşdu ki, biz Qarabağ problemini, müharibə problemini yalnız rusların vasitəsi ilə həll edə bilərik. Mən rusları deyəndə, ruslara qarşı mənim münasibətim pis deyil, yəni biz rusların demokratik qüvvələri ilə işləyirik, yalnız Rusiyada fəaliyyət göstərən hərbi sənaye kompleksi vasitəsilə məhz bu məsələləri həll eləməyə cəhd göstərildi və heç təsadüfi deyil ki, həmin ərəfədə yaranmış o ziddiyyət genişlənməyə başladı. Rusiyanın bu cür qüvvələri bundan çox böyük məharətlə istifadə eləməyə başladılar.

Burada belə bir sual qoyuldu ki, bu silahlar haradan alınır və haradan verilir. Mən istəyirəm suala cavab verəm, uzun müddətdən bəri SSRİ ilə Amerika və Avropa dövlətləri arasında orta mənzilli raketlərin və başqa silahların ləğv edilməsi haqqında beynəlxalq müqavilə bağlanıb və bu müqavilənin şərtlərinə görə, həmin silahlar artıq hərbi ekspertlərin iştirakı ilə ləğv olunmalıdır. Onda belə bir sual meydana çıxır, yəni doğrudanmı Rusiyada hərbi sənaye kompleksi bu cür silahları ixtisar edir? Xeyr, bu silahlar ixtisar olunmur, məhz bu cür regionlarda ziddiyyətlər yaradılır və o silahlar milyardlar qiymətinə satılır. Bu gün də deməli, həmin silahlar Azərbaycanda da, Moldaviyada da, Tacikistandanda da və digər yerlərdə də məhz bu cür hadisələrin baş verməsinə gətirib çıxarır.

Mən bir məsələni sizin diqqətinizə çatdırmaq istəyirəm ki, Azərbaycanı çox böyük bir faciə gözləyir, yəni Azərbaycanı Tacikistan faciəsi gözləyir. Mənə belə gəlir ki, fəaliyyət göstərən həmin qüvvələr çox güman, Füzulini də verəcəklər, ermənilərin lap Kürün sahilinə qədər gəlməsinə şərait yaradacaqlar, Azərbaycan xalqını yenidən şok vəziyyətinə salacaqlar və məsələni bu şəkildə qoyacaqlar ki, Azərbaycanın ordusu yoxdur, ermənilərin qarşısında dayana bilmirlər, ona görə də rus qonşularını bura dəvət eləmək lazımdır. Vaxtilə Şerbak tərəfindən Azərbaycan Prezidentinə, dövlət katibinə təklif olunmuşdu ki, burada 104-cü diviziyaya sülhməramlı status verilsin. İndi həmin məsələlər artıq öz əksini tapmağa başlayır və bu qorxu, bu təhlükə reallaşır, rus qoşunlarının bizim cənub sərhədlərində yerləşməsi, o cümlədən məhz Azərbaycanla Ermənistan sərhədində deyil, işğal olunmuş torpaqlar arasında yerləşməsinə gətirib çıxara biləcək.

Mən həmin qüvvələri indi hakimiyyətdə görürəm, Əlikramin arxasında hakimiyyətdə olan lap məsul adamlar dayanıb, bunu açıq şəkildə demək lazımdır. Gəncə hadisələrinin mahiyyəti məhz bu gün açılır, Talış-Muğan Respublikası o hadisələrin tam şəkildə mahiyyətinin açılmasına kömək edir.

Heydər bəy, burada Siz keçmiş iqtidar kimi problem qarşısında qalmısınız. Keçmiş iqtidar da Gəncə problemi qarşısında qalmışdı, Siz də indi Talış-Muğan Respublikası problemi qarşısında qalmısınız, sadəcə, fərq nədir? Forma, məzmun eynidir, fərq ondadır, keçmiş iqtidar cəsarətsizlik elədi, məqamında, vaxtında məsələni cəsarətlə qoya bilmədi, Siz bu gün məsələni cəsarətlə qoyub həll edirsiniz. Bax fərq bundadır. Bu da onunla bağlıdır ki, keçmiş iqtidarın görünür, bu sahələrdə təcrübəsi olmadığına, Sizin bu sahədə təcrübəniz olduğuna görə məsələləri vaxtında qoyub, vaxtında həll eləməyə cəhd göstərirsiniz.

Mən bir məsələyə də toxunmaq istəyirəm. İlk dəfə keçmiş SSRİ-də yaranan respublikalar ki, siyasi müstəqillik əldə eləmişdilər, lap MDB-nin tərkibinə daxil olan respublikalar içərisində yeganə Prezident Əbülfəz Elçibəy milli azlıqların hüquqları haqqında fərman verdi və bu fərman dünya dövlətləri tərəfindən çox müsbət şəkildə qarşılandı. Əbülfəz bəyin hakimiyyəti dövründə milli azlıqlarla bağlı milli siyasət istiqamətində bütün işlər aparılıb, mənə belə gəlir ki, qənaətbəxş gedib.

Mən burada bir məsələyə toxunmaq istəyirəm. Sizin də xatirənizə saldılar ki, guya keçmiş iqtidar müəyyən səhvlərə yol verib. Nə bilim,

Azərbaycanın dövlət dili türk dilidir, qəbul edib və sair. Bəli, Azərbaycanın dövlət dili türk dilidir, talış talış olmalıdır, talış pasportunda talış yazılmalıdır, talışın özünün dili, məktəbi olmalıdır, yəni bu o demək deyil ki, uzun müddət Azərbaycanda yaşamış bu xalqlar bundan aralı düşüb və inzibati ərazi muxtariyyəti yalnız keçmiş iqtidarın dövründə mövcud olubdur. Amerika Birləşmiş Ştatlarından götürün, federasiyadır, ştatlar var, özlərinin qanunları var, Konstitusiyası var, Almaniya da federasiyadır, hər birinin özünün müstəqil qanunları da var, amma məsələ burasındadır ki, orada yaranmış o bölgü, ərazi inzibati bölgüsü deyil, orada təsərrüfat iqtisadi bölgü prinsipi əsasında yaranıb.

Mənə belə gəlir ki, Talış-Muğan Respublikası ideyası talışların arzu və istəklərindən, onların müstəqillik ehtirasından doğan ideya deyil, bu ideyanın arxasında çox böyük siyasi qüvvələr dayanıb. Mən bəzi nazirlər kimi nə özümdən, nə ailəmdən, nə də uşağımdan qorxuram, həmişə sözümü demişəm, bir sifətim olub, indi də deyirəm. Bəli, Gəncə hadisələrinin mahiyyəti açılır, Gəncə hadisələri qiyam idi, bu isə Azərbaycanın dövlətçiliyinə qarşı terror aktıdır. Nə qədər ki Gəncə hadisələrinin mahiyyəti tam açılmayıb, nə qədər ki Baş nazir dayanır, yəni Surət Hüseynov dayanırsa, heç təsadüfi deyil, məhz Əlikramin Surət Hüseynov Rusiyanın adamıdır deməsi, o cür deməsi heç təsadüfi deyil. Bəli, Surət Hüseynov, Rəhim Qazıyev cənub bölgələrinə gedəndən sonra, onların arxasında dayanan qüvvələr gedəndən sonra bu məsələlər qızışıb və nə qədər ki, hakimiyyətdə bu cür qüvvələr var Azərbaycan bundan xilas ola bilməyəcək. Əlikram məsələsini həll edəndən sonra sabah başqa bir Əlikram yaradılacaq. Çox sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Bilirsiniz, İbrahim bəy, mən bir-iki kəlmə deməyə məcburam. Birinci, çıxışımda qeyd etdim, bir də qeyd edirəm. Siz gəlin, mən hamıya müraciət edirəm, Rusiyanı, böyük bir dövləti, ayrı-ayrı adamların, buna rusca spekulyantlar deyirlər, azərbaycanca mən buna qarşılıq tapa bilmirəm, Rəhim Qazıyev kimi möhtəkirlərin fəaliyyəti ilə bağlamayın. Rusiya böyük bir dövlətdir, onun çox böyük siyasəti var və mən bu məsələləri açdım ki, hamı bilsin nə Rəhim Qazıyev Rusiyadır, nə də Ayaz Mütəllibov Rusiyadır və bunlar, sadəcə olaraq, möhtəkirlik edirlər, Rusiyanın adından istifadə edirlər. Mən Rusiyanın rəhbər dairələri, Siz dediyiniz həmin o demokratik dairələri ilə əlaqədar olaraq bunu deyirəm. Ona görə də bu şeyləri Rusiyanın üstünə yıxmaq lazım deyil. Bunlar özləri öz şəxsi məqsədlərinə nail olmaq üçün özlərinin guya Rusiya ilə bağlı olmağını dedilər.

Bu gün, nə cür, kimin üçün də acı olur-olsun mən istəməzdim, burada, məsələn, Ayaz Mütəllibovun adını çəkim və onun haqqında danışım. İstəməzdim, amma məcburam. Məcburam ona görə ki Rəhim Qazıyev kimi adamlar möhtəkirlik edirlər, guya Rusiya bura Mütəllibovu gətirmək istəyir və bəzi adamlar da hesab edirlər, Rəhim Qazıyev olmasa, Azərbaycanın Rusiya ilə münasibəti olmayacaq. Tamamilə yalandır, ona görə də Rusiyanı bir dövlət, böyük bir ölkə kimi, mən hesab edirəm, bu işlərə qatmaq lazım deyil. Ayrı-ayrı qüvvələr var, onlar möhtəkirlik edirlər, cürbəcür alver edirlər, cürbəcür maxinasiyalarla məşğul olurlar, bu maxinasiyalarda Rəhim Qazıyev də var, bu maxinasiyalarda onun ətrafında olanlar da var, bu maxinasiyalarda Ayaz Mütəllibov da var, onun adamları da var və onlar, sadəcə olaraq, bütün bu camaatı aldadıb istifadə eləmək istəyirlər. Bu, birinci.

İkinci, mən bunu da deməyə məcburam. 1978-ci ildə Azərbaycanın Konstitusiyası qəbul olunanda bu Konstitusiyanın layihəsi ümumxalq müzakirəsinə verilib, ümumxalq müzakirəsindən sonra Azərbaycanın ovaxtkı parlamenti, siz ona nə cür baxırsınız baxın, Azərbaycanın dövlət dilini qəbul edib, Azərbaycan dili bu referendumdan, ümumxalq müzakirəsindən sonra qəbul olunub. Əgər bunu dəyişmək lazım idisə, belə bir zəruriyyət vardısa, yenə bunu xalqın müzakirəsinə qoymaq lazımdır, bunu xalq müəyyən eləməli idi, amma 26 nəfər Məclis üzvü yox, İbrahim bəy.

**Yerdən.** O, lazım deyildi.

**Sədrlik edən.** İbrahim bəy, bunu xalq eləməli idi. Ona görə də Azərbaycanın Konstitusiyası ilə 1978-ci ildə – bəli, o Konstitusiyanın müəlliflərindən biri də mənəm, pisdir, yaxşıdır, mən bunu deməliyəm – orada xalqın müzakirəsinə verildi və xalq qəbul etdi. Bilməlisiniz ki, o vaxt 15 respublikadan cəmisi 3 respublikada dövlət dili öz millətinin dili yazılmışdı, bir Azərbaycan dili, bir gürcü dili, bir də erməni dili, başqa respublikaların heç birisi dövlət dili kimi öz dilini yazdırmamışdı. Bu o vaxtın nailiyyəti idi. Amma siz bunu götürüb 26 adamın səsi ilə dəyişdiniz. Bax budur səhv.

Ən nəhayət, mən heç də bu fikrinizlə razı ola bilmərəm ki, Surət Hüseynov bu Əlikram hadisələri ilə bağlıdır. Mən bu barədə fikrimi deməliyəm. Surət Hüseynov bu məsələlərə bağlı deyil, sadəcə olaraq, Rəhim Qazıyev kimi adamlar onun yanına giriblər, ondan əl çəkmirlər. Bu başqa bir fikir yarada bilər, mən bu fikirlə razı deyiləm və mən bunu da demişəm, deyirəm də.

Buyurun, Əvəz müəllim.

**Əvəz Şükürov.** Hamıya məlumdur ki, Talış-Muğan Respublikasının yaranması Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə xəyanət deməkdir, ona başçılıq edən Əlikram isə doğrudan, dəli adamdır. Akademik Cavadzadə onu elə-belə demirdi, o, doğrudan, onu tanıyıb bilir, mən də tanıyıram, o mənim qızımın yoldaşı ilə institutda əvvəldən axıra qədər bir oxuyub, bir yataqxanada qalıblar, onda o dəlilik var. İndi onun dəliliyini mən nə ilə sübut edirəm. Koroğlu dünyaya gələndə Əlikram kimiləri də dedi, mən də Koroğlu olacağam, hər kəs getdi dədəsinin gözünü çıxartdı, dedi ki, qoy mənə də Koroğlu desinlər, amma onlara kor kişinin oğlu dedilər. Onlar, Əlikram kimiləri, doğrudan, hamısı fikirləşdi ki, onlardan da Surət Hüseynov ola bilər, o da xalqı xərçəng xəstəliyindən qurtara bilər, amma onların meydanı deyil axı. Onlar o işi eləməzlər.

Burada maraqlı məsələ nədir? Əlbəttə, oranın ağlı kəsən adamlarının, alimlərinin, akademiklərinin, ağsaqqallarının, doğrudan, günahı var. Bəziləri üzüyumşaqlıq, bəziləri utancaqlıq ediblər, bəziləri onun dəliliyini bilirlər ki, bu adama ağıllı söz batmır, görünür, bu da var, ona görə qarışmayıblar. Amma bizim respublikada o məsələni yaratmaq xalqımızın hansının xeyrinədir? Bayaq dediyiniz, general Zaur Rzayev, hamı onu tanıyır, mən onu Azərbaycanın ən namuslu, ən qeyrətli oğlu, ən yaxşı hərbçisi kimi tanıyıram, çünki o müharibədə biz daimi onunla bir yerdə olmuşuq, Surət Hüseynovun ona verdiyi tapşırıqları o, həmişə artıqlaması ilə yerinə yetirib. Müharibə dövründə o, ermənilərin Həsənrza, II orta məktəb var, Hatekdə, o kəndlərin hamısını alan Ağdərəyə gələn Rzayevin dəstəsi olub, o edib. Görürsünüz, burada da o adam teleqramı ilə yenə öz kişiliyini, öz namusluluğunu sübut edir.

Burada başqa şeylər meydana çıxır. Ayrı-ayrı şəhərdə olan danışıqlardan görünür, deyirlər, nəsə respublikadan bu işin arxasında duran var, bir neçəsi mənə müraciət edib ki, Surət niyə o Əlikramə təpinmir, niyə ona acıqlanmır, Əlikram düz yola qayıda. Danışıqlardan burada da eşidildi, o məsələləri özünüz gördünüz. Çıxış edənlər dedilər ki, bu məsələ on il bundan qabaq başlayıb, o, bir dəfə 1990-cı ildə belə dəlilik edib, bir neçəsi də deyir, hələ keçən ildən bu məsələ davam edirdi, onda Surət Hüseynovu ora qatmaq adi ağılsızlıqdan başqa şey deyildir. Bunu mən elə bilirəm ki, bizim adamlarımız dürüst başa düşməlidirlər, amma burada indi bir fakt açılır. O adamlar ki indi görürlər, respublikada bir az əmin-amanlıq, intizam, qayda yaranır, bir az camaatın qeydinə

qalınır, axı, o adamlara o məsələ heç cür sərfəli deyil. Bax Heydər Əliyevi hamınız tanıyırsınız və məni də tanıyırsınız, mənim heç kəsə yaltaqlıq eləməyə təhərim olmayıb, tarixdə olası da deyil. Heydər Əliyev dünya əhəmiyyətli, dünyada tanınmış bir adamdır, siyasətçidir, onun gücünü də, bacarığını da, savadını da hamı bilir, Azərbaycanda onu bilməyən adam yoxdur, ondan sonra iqtidara gələn adam Surət Hüseynovdur, onu da dedim, hünərini, gücünü gördünüz.

Əgər Surət Hüseynov olmasaydı, onda bayaq yoldaşlar dediyi kimi, Əbülfəzin, İbrahimin, Tofiqin xəstəliyi neçə il gedəcəkdi. Bunları da Surət edib də, bu camaat onda onun qədrini bilməli deyil? Bilməlidir.

Burada nə məsələ açılır? Görürlər ki, bu məsələlər qaydası ilə gedir, adamlar onu ölçüb biçirlər, çünki onların ayrı işi yoxdur, təsərrüfat işi yox, abadlıq işi yox, namusluluq, xalqın qeydinə qalmaq işi yox, onlar planlar tərtib edirlər, bu məsələni necə edək, yenə biz qazanaq, camaatımız da geridən geri düşsün. Deyirlər, burada bircə yol var. Bu yol da ondan ibarətdir ki, Surət Hüseynovla Əliyevin arası dəysin, onlar birgə işləyə bilməsinlər, onlar ancaq bir-biri ilə mübarizə təhərində qalsınlar, bu dəfə də o biri adamlar öz istəklərinə çata bilsinlər, burada məqsəd budur.

Bunu mən nəyə əsasən deyirəm? Əvvəla, Rəhim Qazıyevin Lənkərana getməyi, Lənkərandan gəlməyi, gedib o adamlarla neyləməyi ilə də işim yoxdur, bunu mən demirəm, amma mənə o acıq gəlir, Rəhim niyə təkid eləməlidir ki, Surətin vəzifələri tam özünə qayıtmalıdır? Bunu niyə o deməlidir? Bunu nədən ötrü deməlidir? İndi bizim adamlarımız başa düşməlidir ki, bu sözün arxasında nə var. Görək bunu Surət deyib, Surətin nə ehtiyacı var Rəhimə deyə ki, sən Əliyevə de mənim vəzifələrimi tam özümə versin.

**Sədrlik edən.** Vəzifələri yox, Prezidentin vəzifələrini. Onun vəzifələri özündədir.

**Əvəz Şükürov.** Bəs o işlərin hamısı məlumdur ki, Ali Sovetin vəzifəsi nədir, Prezidentin vəzifəsi nədir, Baş nazirin vəzifəsi nədir. Bundan sonra ona ayrı adamın köməyi nə lazımdır, deyin görüm. Gəncədə müşavirə olub, yoldaşlar bilir, mən indi Rəhimi danlamaq istəmirəm, amma orada danlamışam. Rəhimə dedim, Rəhim, bax Şuşanı alanda sən dedin ki, Şuşaya mənim meyitimin üstdən keçərlər, ermənilər keçdi, amma sən dirisən, Laçını alanda dedin ki, təpəmə bir güllə vuracağam, Laçını da aldılar, sən heç bir şey eləmədin. Rəhimə mən dedim ki, bu yerin su-

yunu içməyə, bu havanı udmağa, sənin bu camaatın qeydinə qalmağa haqqın yoxdur, çünki birinci elə o yerləri erməniyə verə-verə gələn sən olmusan.

İndi Rəhim o ağsaqqallığı edir, gedir, Surətin davasını çəkir, mən bayaq dedim, elə burada respublikada iki qoçaq adam deyilir, biri Əliyevdir, biri də Surət, ayrı adam onların vəzifələrini göstərməsi, arxasında durması, onlara yol göstərməsi lazımdırmı, ay camaat? Lazım deyil axı. Nə meydana gəlib, nə olub? Sabir Rüstəmxanlı buradadır, oturub, üç gün bundan qabaq görüşdüm, dedim ki, Sabir, bu nə haldır? Dedi ki, mən gedirəm, o 3-4 rayona getmək istəyirəm, görüm, o camaat pis vəziyyətdədir, görüm neyləyirəm. Dedim, axı nədir, niyə pis vəziyyətdir, dedi, bunlar qoymur da, bunlar edir. Dedim, kimləri deyirsən, məsələn, əvvəlki bunun sözündən çıxırdı ki, istəyirdi deyə Əliyev qoymur, sonra sözündən qayıtdı, Surət qoymur da, Surət qoymur. Dedim ki, Sabir, mənim bir sualıma cavab ver. İndiki o...

**Yerdən.** *(Eşidilmir.)*

**Əvəz Şükürov.** Qulaq as, orada, özü də ağlını başqa adamlara vermə, qulaq as. Yadına gəlir ki, Mustafayev getdi, səninlə Gəncəni yoxlayıb qayıdanda siftədən bu tribunadan elədiyin çıxışı iki saatdan sonra dəyişdin, ayrı formada dedin. Mənim sözümə düzəliş eləmə, yekə adamsan. Deyirəm ki, yaxşı, sən mənim bir sualıma cavab ver. Deyir, nədir? Deyirəm, orada daxili işlər naziri qoyublar, o Talış-Muğan Respublikasında, onu tanıyırsan, o kimdir? Mənə deyir ki, o mənim qardaşımdır da. Dedim ki, ə, bəs qardaşın sənin sözünə baxmır, Surətin sözünə baxırsa, onda sən nəyin qardaşısan? Kimin qardaşısan?

Ay canım, ayıbdır belə şeylər. Ə, bir utanın, bax qabaqca olub, başını vurub yarıb sarıyırsan, onunla çıxırsan televiziyaya, bunu sən edirsən. Gəncəni yoxlayıb gəlirlər, əvvəl danışırsan ki, günah buradan gedənlərdədir, bunlar edib, aradan bir saat, iki saat keçəndən sonra səni bir az imtahana çəkəndə qayıdıb deyirsən, o bizim komissiya deyildi, elə-belə idi. Belə şeylər yaraşmaz, roman yazmaq olar, əsər yazmaq olar, amma kişi olmaq çətindir, kişi olmaq ayrı şeydir.

Qulaq as, sən mənə dedin ki, Vaqifə nə qədər eləyirəm, o uşağı oradan aralaşdırmır. Vaqif aralaşdıra bilmirsə, Vaqif niyə burada nazir olur, orada da sənin qardaşın nazir olur, aralaşdırsın da onda. Mən onu bilirəm ki, camaat sifətinizi bilir və bir də bilmək lazımdır. Burada nə var, bu adamların danışığı, bu adamların başladığı məsələ odur ki, Heydər

müəllim, mən Sizə qeyri şey deməräm, amma yaxşı olardı ki, Siz Rəhimi, o birilərini danlayırsınız, bu adamlar elə başa düşürlər, Siz dediyiniz sözləri Surət üçün də deyirsiniz. Adamların xarakterini deyirəm. Əgər Surətin, doğrudan da, bir günahı olsa, Siz onu ayrılıqda, təklikdə danlasanız, qeyri adamlar, o işdə maraqlı adamlar çıxanda başqa cür danışacaqlar.

Məsələn, şəhərdə mənə nə deyirlər. Bir adamı vəzifəyə qoyursunuz, vəzifəyə qoyanda deyirlər Heydər Əliyevin adamıdır, Surətin adamı olmadı. İkinci bir adam qoyulanda deyirlər, bu, Surətin adamıdır. Ay yoldaşlar, başa düşmək lazımdır ki, Surətin adamı kimdirsə o, Heydər Əliyevin adamıdır, Heydər Əliyevin də adamı kimdirsə o, Surətin adamıdır. Qalan adamlar, yəni bilayiq, dünyada olmayan kimi ona deyilən sözlərin sahibi niyə aralamalıdır bu işləri? Rəhbərlikdə bu iki adam deyil, vəzifəyə qoyulan adam o ikisinin adamıdır. Bu nə olur? Camaat deyir, hökuməti təşkil eləyə bilmədilər, ona görə təşkil eləyə bilmirlər ki, Surət dediyinə Əliyev yox deyir, Əliyev dediyinə Surət yox deyir. Ona görə nazirlərin hamısının əli soyuyub düşüb yanına, bilmirlər ki, kim qalacaq, kim işləyəcək? İşləyənlər işləmir, işləməyənlər də qalıb belə. Bu sözün əsl həqiqəti, belə deyilsə, amma doğrudan, əlini yanına salmaq, işləməmək, əvvəlki adətlər kimi yenə də adamlarımızda var. İşləyəsi adam işləməlidir, işləməyəsi adam da onu 10 günə də, 5 günə də, 3 günə də həll eləmək olar, qovulmalıdır və qurtarmalıdır.

Rayonlarda icra başçıları axtarılır. Bir neçə yoldaş bu işlərlə məşğul olmağa ayrılıb. Mən onların işindən çox narazıyam, Arif Rəhimzadənin də, Saday müəllimin də, Ayparanın da, o işlə məşğul olan adamları deyirəm. İcra başçısı niyə təyin olunmasın, o nə çətin məsələdir ki, bir axşamda onun 50-sinin fərmanını vermək mümkündür. Respublikadakı adamların hamısını siz daha yaxşı tanıyırsınız.

**Sədrlik edən.** Əvəz müəllim, bu işlərlə biz məşğul oluruq və mənə belə gəlir ki, əgər səlahiyyət verilibsə, bu məsələləri həll eləyəcəyik. Narahat olma. Sənin vaxtın qurtardı.

**Əvəz Şükürov.** Mən onu deyirəm ki, bu adamlar çəkilsin öz işi ilə məşğul olsun, qoysunlar, bu rəhbərlikdə işləyən adamlara hər kəs istəyirsə, öz namusuyla, öz qeyrəti ilə kömək eləsin, eləmək istəməyən də istəməsin.

**Sədrlik edən.** Zəngilandan xəbərlər gəldi ki, orada bir az narahatlıqlar var. Eyni zamanda burada Zəngilan rayonunun bir nümayəndəsi

çıxış eləmək üçün mənə müraciət eləyib. Şübhəsiz ki, oradakı məsələ ilə əlaqədar deyil, ancaq Zəngilan da bizim sərhəd bölgəmizdir, bəlkə, onun sözünü eşitsək, pis olmazdı.

**Telman Kazımov,** ***Zəngilan Rayon İcra Hakimiyyətinin sabiq başçısı.*** Keçmiş iqtidar dövründə işləyən icra hakimlərinə hərə bir cür baxır. Mən təsadüfilərdən deyiləm, dəllək, elektrik çilingəri olmamışam, üç ali məktəb qurtarmışam və o vəzifədə təsadüfi də olmamışam, lakin cəmi 8 ay işləmişəm, bu da hökumətin oyuncaq olmasının nəticəsi olub. Ancaq bura gəlməkdə, çıxış eləməkdə məqsədim, bu kürsüdən danışanın hamısını həqiqət kimi qəbul eləyirlər. Ayrı kürsü olsa, mən oradan danışardım, bu kürsü çox alçaq adamları bu xalqın içində çox məşhurlaşdırıb. Bu xalqı 5 ildir fəlakətə aparıb. O ailə yoxdur ki, göz yaşı tökülməsin. Hamısını bu kürsüdə populyarlaşan fanatiklər, nə bilim müxtəlif karyera güdən adamlar eləyiblər. Onlardan biri də Rəhim Qazıyevdir. Mən indi deyəcəyəm niyə deyirəm.

Rəhim Qazıyev müdafiə naziri təyin olunana qədər Azərbaycanın Dağlıq Qarabağ kəndlərindən başqa bir qarış torpağı ermənilərə verilməmişdi, Rəhim Qazıyev müdafiə naziri təyin olunandan sonra Zəngilanın, Cəbrayılın, Füzulinin, Qazaxın, Ağstafanın və Kəlbəcərin kəndləri, bütün Laçın, Şuşa hamısı getdi. Ona görə də gərək Rəhim Qazıyev müdafiə naziri işləyəndə bunlara cavab verəydi. Mən sübut edəcəyəm.

Mən Zəngilana icra hakimiyyətinin başçısı təyin olunandan sonra zəng vurdum ki, rayonun 157 kilometr sərhədi var. Rayonda texnika yoxdur. 138 əsgər var idi, 1200 nəfər maaş alır, şişirtmə idi. Zəng elədim, mənə dedi, sən mənə zəng eləmə, mənə qoy hərbçilər zəng eləsin. Mən özüm elə milis işçisi, yarım hərbçi idim. Sən heç sərhəddə olmamısan, necə olur sən müdafiə naziri işləyə bilirsən, mən yarım hərbçi adam, əsgərlikdə də olmuşam, milis mayoruyam, mən rayon icra hakimiyyətinin başçısı sənə zəng eləyə bilməzdim. Qəsdən Zəngilana narkoman komandirlər göndərirdilər. Mən açığını deyim, Afiyəddin Cəlilov gəlirdi Naxçıvan körpüsünü açmaqdan ötrü, ermənilərlə biz görüşürdük ki, Naxçıvanı blokadadan çıxaraq. Mən bir dəfə də hətta zəng eləyib Əliyev yoldaşdan məsləhət almışam. Rəhim Qazıyev qəsdən onu da pozurdu, atışmalar təşkil elətdirirdi və nəyin bahasına olursa olsun çalışırdı, məni rayonda nüfuzdan salsın. Hətta o görüşdə erməni erməniliyi ilə deyirdi ki, heç olmasa, bu komandirinizi gətirib bizə göstərməyin. Erməni deyirdi bunu. Özünə iynə vuranlar, nəşəxorlar Zəngilanda hərbi hissəyə komandirlik eləyirdi.

Dəfələrlə məktub yazdım. Məktubların hamısı durur. Surəti icra hakimiyyətindədir, Prezident Aparatındadır. Həmin məktublara həmişə cavab yazırdılar ki, sən öz işinə qarış. Bəs rayonun taleyinə kim qarışmalıdır, əvəzində məni şantaj eləyirdilər, özü də Bakıdan. Xalq Cəbhəsinin ikinci qurultayına Rəhim Qazıyev sədrlik eləmişdi, orada demişdilər, gedin, idarə heyətinin qərarını gətirin, Telman Kazımovu çıxaraq. İndi durub Rəhim Qazıyev Əbülfəz Əliyevin əleyhinə danışır...

**Yerdən.** *(Eşidilmir.)*

**Telman Kazımov.** Sənin özünü göndərsinlər həkim komissiyasına, görək sən o vəzifəyə layiq idin, ya yox? İndi burada xalq adından danışmağa layiqsən, ya yox? Mən televizora baxırdım, onun zaldakı hərəkətinə dözə bilmədim. Əsəbiləşdim və durdum gəldim.

Bəsdir, bu xalqın başına açılan oyunlar. Ermənilər hücum eləyən günü ordu qaçmışdı, çıxdım küçədən camaatı yığdım, 160 nəfərə silah payladım, döyüşə apardım. Bir neçəsi orada həlak oldu. Telefonlarım kəsilmişdi, Rabitə Nazirliyi mənə cavab verdi ki, telefonlar Füzulidə hərbi qarnizonun əsgərləri tərəfindən qırılıb. Sonradan qəzet yazdı ki, Saatlı, Sabirabad arasında telefon xətti kəsilib. Bunu kim eləmişdi, erməni gəlib xətti kəsmişdi? Bir sözlə, mənə elə gəlir ki, Şuşa məsələsidir, Laçın məsələsidir, Zəngilanın kəndləri məsələsidir... Zəngilanın kəndlərini məni oradan çıxartdırmaq üçün verdilər. Bakıdakı Xalq Cəbhəsinin fəallarının bəziləri, bir də Müdafiə Nazirliyi ilə Daxili İşlər Nazirliyi. Zəngilanda bir "Boz qurd" dəstəsi var idi, indi həbsdədirlər. Qafanın, Gorusun benzinini onlar verirdilər. Mən dəfələrlə gəldim hərbi prokurordan da xahiş elədim. Onlar heç nə eləyə bilmədilər. Çünki oyuncaq hökumət idi, çünki Prezidentin kabinetində Rəhim Qazıyev Prezidenti tutub silkələyib. Ona görə də axırda girdilər İsgəndər Həmidovla ikisi tələb elədi ki, Telman Kazımov işdən çıxmalıdır. Çünki mən onların mənafeyinə uyğun gəlmirdim, çünki onlar başqa işlər də törətmək istəyirdilər.

İcra hakimiyyətində Humanitar şöbənin müdirinin kabinetindən kürd sənədləri çıxdı, kürd vəsiqələri. Zəngilanda kürd yoxdur, əgər kürd varsa, birini tapıb versinlər, mən deyim ki, Zəngilan kürd torpağıdır. Bunlar hamısı oynanılmış ssenarilərdir. Eləcə də indi talış məsələsi. Mən bilmirəm, heç bir xalq istəməz ki, Azərbaycanı parçalasın. İstər talış, istər ləzgi, istərsə də başqası. Bundan istifadə eləyən həm hakimiyyətdə olanlardır, həm də vəzifəyə can atanlardır. Mən indiki hakimiyyəti nəzərdə tutmuram, keçmiş hakimiyyəti nəzərdə tuturam.

Onların bəzilərinin də maraq dairəsi var idi, mən Etibar Məmmədovdan başqa digər müxalifəti də deyərəm. Onların da bu məsələlərdə barmağı var. Düzdür, bayaq burada Nemət Pənahov Zərdüşt Əlizadənin adını hallandırdı, amma mənə elə gəlir ki, o, yaxşı ziyalıdır, o heç vaxt Azərbaycan xalqına xəyanət eləməz. Mən elə hesab edirəm, özü də Əlikram o partiyadan çıxıb, həmin partiyanın üzvü deyil, nə isə Nemət bəyin yadından çıxdı. Ümumiyyətlə, demək istəyirəm ki, xalq üçün yanan oğullar da bu tribunada xalqı aldadanların hesabına hörmətdən düşüb.

Yoldaş Əliyev, bu Milli Məclis üzvləri hamısı vəzifə almasa, onlar elə aranı qarışdıracaqlar, çünki bizim millətin qanındadır. Vəzifəsiz yaşaya bilmirlər, mənə vəzifə-zad lazım deyil, birdən elə başa düşərsiniz ki, mən nə isə vəzifə xatirinə deyirəm, xalqın siyasi səviyyəsi yüksəlməyincə mən vəzifəyə getməcəyəm. Çünki hələ xalqımızın siyasi səviyyəsi, 3-5 il vaxt lazımdır ki, yüksəlsin. Çünki xalqa nə deyirsən, kim araqarışdıran nə deyir, ona inanır.

Mən amma bir məsələni deyirəm, nə maşınım yoxdur, nə varlı adam deyiləm, avtobusda, trolleybusda gəzirəm. Yoldaş Əliyev heç bu vəzifəyə gəlməmişdi, Naxçıvanda Ali Sovetin də sədri deyildi, şəkli bütün trolleybuslarda, avtobuslarda var idi. Mən yenə deyirəm, heç kəs də can atmasın ki, Əliyev yoldaşı dəyişə biləcəklər. Azərbaycan xalqı Əliyevi sevib, mən yenə deyirəm, xalq adından danışmıram, amma xalqın içindəyəm, özü də kasıb ailədə böyümüşəm, ona görə də həmişə kasıbların içində oluram. Zəngilanda da icra hakimiyyəti işləyəndə varlıları görməyə gözüm yox idi. O varlıların əli ilə də məni İsgəndər Həmidovla Rəhim Qazıyev çıxartdırdı. Deməli, ona görə də deyirəm, xalqın adından deməyə mənəvi hüququm var ki, xalqımız indi-indi sakitləşir, amma təxribatlar gedir, çörək, su məsələsində, nəqliyyat məsələsində. Görəsən, əlaqədar nazirliklər gedib avtobus marşrutlarını yoxlaya bilmirlərmi, bazarda Bakının yağını 2200 rubla satırlar, gedib soruşan yoxdur ki, Bakı yağını sən haradan gətirmisən, tutaq, paltarı Rusiyadan, İrandan, Türkiyədən alıb, bəs Bakının yağını haradan alıb gətirib satır? Bahaçılıq həddini aşıb.

Heydər Əliyev yoldaşın belə işlərlə başı qatılır, imkan vermirlər işləsin. Deputat deyiləm, mənə elə gəlir ki, heç belə yerdə mənim təklif verməyim də məqsədəuyğun deyil. Amma mənə elə gəlir, axır ki, Milli Məclisin üzvləri özündə qeyrət tapmalıdır, Rəhim Qazıyevi yerində oturtmağı bacarmalıdır. Burada kişi adamlar, yaxşı adamlar çoxdur.

Lap elə hakimiyyətdən düşənlər, Mürşüd müəllimdir, Tofiq Qasımovdur yaxşı adamdırlar, təmiz adamdırlar, keçmiş iqtidarın hamısını pisləməyin, Prezident Aparatında təmiz adamlar çoxdur. Mən icra hakimi işləmişəm, deyirəm. İnanırsınızmı, mən birinə bir manat verməmişəm, nə də məndən təmənnada olan olmayıb. Amma hamını ucdantutma pis qələminə vermək lazım deyil.

Mən bir məsələni də demək istəyirəm, mənim Surət bəyə böyük hörmətim var və xahiş edirəm, bu məsələ də hallandırılmasın, amma Surət bəyin gedib televiziyada qeyrətli oğlan deməyi şəxsən mənə pis təsir elədi. Elə kim bir dəstə yığırsa, olur qeyrətli oğlan. Elə kim şəhidlərə qurban olum deyirsə, bu olur xalqını sevən. Belə populist sözlərlə, çıxışlarla, mənə elə gəlir ki, xalq ayılıb, xalq başa düşür, xalqda artıq oyanmanın 5 yaşı var, 5 ildən sonra artıq xalq yetkinlik yaşına çatacaq və onda bugünkü hadisələrə qiymət verəcəklər.

Mən yenə deyirəm, elə bu gün Milli Məclis Azərbaycan xalqına, kişiliyini göstərməlidir, elə adamlar qalmamalıdır, bu zalda oturmamalıdırlar. İsa Qəmbərov kimisi yox, Rəhim Qazıyev kimisi getməlidir. Başa düşməlidir, elədiyi əməllərə görə, ordu heç 10 ilə də düzəlməyəcək, kim deyir qalib gələcəyik, çətin məsələdir. Rəhim Qazıyev elə bir ordu yaradıb ki, o orada ömründə düzəlməyəcək, gedir evində yatır, saqqal düşür sinəsinə, ondan nə ordu olacaq? Təlim keçmir, hərbi hazırlıq keçmir, taktiki cəhəti bilmir, texnikadan başı çıxmır, mən hamısını gözümlə görmüşəm. Mən televiziyada demişdim, hələ Rəhim Qazıyev müdafiə naziri idi, dedim, gündə müsahibə verməklə qalib gəlmək olmaz. Gündə Rəhim Qazıyevlə İsgəndər Həmidov çıxırdı televiziyaya, papiros fısqırda-fısqırda qalib gələcəyik, filan yerə gedəcəyik. Niyə bu xalqı yaman günə qoydunuz? Mənə elə gəlir ki, Milli Məclis bütün bu məsələlərə münasibətini bildirməlidir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Artıq saat 12-dən keçir. Mən istəyirəm məsləhətləşək, bəlkə, sabaha qədər tənəffüs elan eləyək? Onda belə bir təklif var, məsələ müzakirə olunur, yəqin, sabah müzakirəni qurtararıq, çünki mən sizə məlumat verdim ki, gündüz saat 4-də İran İslam Respublikasının xarici işlər naziri Vilayəti Bakıya gəlir, gərək biz işlərimizi günün birinci yarısında qurtaraq. Ona görə bu məsələ ilə bağlı qərar da qəbul eləməliyik, təklif var ki, qərar layihəsinin hazırlanması üçün komissiya yaradaq. Belə bir tərkibdə Sultan Məmmədov – Məclisin üzvü, Şaitdin Əliyev – Məclisin üzvü, Arif Rəhimzadə – Məclisin üzvü, Vaqif Qasımov – Məclisin üzvü, Afiyəddin Cəlilov – Ali Sovetin sədrinin müavini, 5 nəfər.

Mənə belə gəlir ki, bəsdir. Əgər əlavə varsa, buyurun. Etiraz yoxdur. Onda kim qərar layihəsi hazırlamaq üçün belə bir tərkibdə komissiyanın təşkil olunmasının tərəfdarıdır, xahiş edirəm, münasibətini bildirsin.

***(Səsvermə)***

Qəbul edildi.

Sabah səhər saat 11-ə qədər tənəffüs.

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN İCLASI

*17 avqust 1993-cü il*

*Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri* ***Heydər Əliyev*** *sədrlik edir*

**Sədrlik edən.** Sabahınız xeyir, hörmətli Məclis üzvləri, deputatlar, qonaqlar, mətbuat nümayəndələri. Məclisin iclası davam edir, xahiş edirəm, Məclis üzvləri qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

İclasda 42 nəfər Məclis üzvü iştirak edir, yetərsay var.

Dünən başlanmış məsələnin müzakirəsini davam etməzdən əvvəl bir məsələ haqqında məlumat vermək istəyirəm. Bununla bağlı daxili işlər nazirinin məlumatını dinləməyə ehtiyac duyuruq. Sizə məlumat vermək istəyirəm ki, bu gün səhər saat 10-da Rusiya Federasiyasının Prezidenti Boris Nikolayeviç Yeltsinlə telefon danışığım olubdur. Bu telefon danışığında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında müxtəlif sahələrdə münasibətlərin inkişaf etdirilməsi üçün lazımi tədbirlərin görülməsi barədə fikir mübadiləsi etmişik. Biz bütün məsələlərdə həmfikir olmuşuq. Rusiya Federasiyasının Prezidenti Boris Yeltsin Azərbaycan Respublikası Ali Sovetinin indiki rəhbərliyi və ümumiyyətlə, Azərbaycan rəhbərliyi tərəfindən son vaxtlar Rusiya ilə Azərbaycan əlaqələrinin genişləndirilməsi istiqamətində atılan addımları və təşəbbüsləri yüksək qiymətləndirir. Onlar mənim verdiyim bütün bəyanatlara çox diqqətlə yanaşıblar və onları məmnuniyyətlə qəbul edirlər. Hesab edirlər ki, keçmiş dövrdə bu münasibətlərin müəyyən qədər zəifləməsi və bəlkə də, pozulması həm Azərbaycan Respublikası, həm də Rusiya Federasiyası üçün, şübhəsiz, mənfəətli olmayıbdır. Ona görə də bu barədə bizim fikrimiz eyni olubdur və dediyim kimi, bəzi konkret addımların atılması üçün biz danışıqlar apardıq və razılığa gəldik.

Birinci növbədə, iqtisadi baxımdan əlaqələrimizi inkişaf etdirmək bizim üçün xüsusən mühümdür. Siz bilirsiniz ki, indi Rusiya ilə Azərbaycan arasında pul dövriyyəsi ilə əlaqədar olaraq gömrük maneələri

qoyulubdur, bizim iqtisadiyyatımızda böyük çətinliklər var. Azərbaycan Respublikasının iqtisadiyyatı və xüsusən sənayesi Rusiyanın bir çox regionları ilə çox sıx inteqrasiyadadır. Ona görə də bizim bir çox sənaye müəssisələrimiz lazımi səviyyədə işləyə bilmirlər, hətta deyə bilərəm ki, onların istehsal fəaliyyəti lap sıfır dərəcəsinə düşüb. Kənd təsərrüfatı məhsullarının və mallarının Rusiya bazarında satılması məsələsi və başqa məsələlər çox mühüm əhəmiyyət kəsb edir və mən artıq bu barədə geniş danışmaq istəmirəm. Ümumiyyətlə, biz artıq iqtisadi əlaqələrimizin qırılmasını gördük və bir acı həqiqəti də deməliyəm ki, bu, Azərbaycanın iqtisadiyyatına çox zərər gətirmişdir. Ona görə də biz razılığa gəldik ki, bu günlərdə bizim bu sahə ilə bağlı nümayəndə heyətimiz Moskvaya gedəcək, bu məsələlər haqqında ətraflı danışıqlar aparılacaq, lazımi müqavilələr bağlanacaq, lazımi tədbirlər görüləcəkdir.

Boris Yeltsin mənə müraciət etdi ki, burada həbsxanada qalan beş nəfər Rusiya vətəndaşının aqibəti haqqında vaxtilə iki dəfə Azərbaycanın Prezidenti Əbülfəz Elçibəyə müraciət edibdir, ancaq bu müraciət indiyə qədər nəticəsiz qalıbdır – mən sizə dediyim kimi, Rusiya parlamenti də bizə müraciət edibdir – xahiş etdi ki, bu məsələyə baxılsın. Dedi, şübhəsiz ki, əgər bu məsələyə baxılarsa, bu da bizim münasibətlərimizin bundan sonra inkişaf etməsi üçün bir müsbət amil olacaqdır və Rusiya ictimaiyyətinin Azərbaycanla bağlı ümumi ictimai rəyinin müəyyən qədər müsbətə dəyişməsini təmin edəcəkdir. Mən bildirdim ki, bunu biz parlamentin komissiyalarına vermişik, komissiyalar baxırlar, parlament də baxacaqdır. Mən bildirdim ki, bu məsələ beynəlxalq məsələ deyil, asan məsələ deyil, bu, Azərbaycanın ictimaiyyətində və Azərbaycanın dövlət səviyyəsində baxılan bir məsələdir, ancaq biz məsələni müzakirə edəcəyik və şübhəsiz, müzakirə edəndə Sizin bu müraciətinizi nəzərə alacağıq.

Sonra biz belə qərara gəldik ki, iqtisadi nümayəndələrlə yanaşı, yaxın günlərdə xarici işlər nazirinin birinci müavini səviyyəsində bura bir nümayəndə heyəti gələcəkdir və bu nümayəndə heyəti bizim bütün dövlətlərarası əlaqələrimizin tənzimlənməsi və bu barədə görüləsi tədbirlər haqqında danışıqlar aparacaqdır, lazımi tədbirlər görəcəkdir. Bu konfransda eyni zamanda Ermənistanla Azərbaycan arasında gedən müharibə məsələsi də müzakirə olunacaqdır və bu barədə də Rusiya hökuməti öz rolunu və öz imkanlarını Azərbaycan Respublikasına bildirəcəkdir.

Bizim başqa məsələlər haqqında da söhbətimiz oldu, ancaq söhbətin ümumi yekunu belə oldu ki, Rusiya hökuməti və Prezidenti

Azərbaycanın rəhbərliyi ilə eyni fikirdədir. Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında olan münasibətləri inkişaf etdirmək lazımdır. Şübhəsiz ki, mən sizə məlumat verirəm, bunu müzakirə etməyə ehtiyac bilmirəm. Bəli, güman edirəm ki, biz mühüm addımları atmışıq və yəqin, bizim bu addımlar lazımi səviyyədə qiymətləndiriləcək. Mən istərdim, Məclis üzvləri bəyənsinlər, çünki biz əgər böyük siyasətdən çıxış ediriksə, Azərbaycan müstəqil dövlətdir, müstəqilliyi təmin etmək üçün biz gərək bütün ölkələrlə əlaqələrimizi lazımi səviyyədə quraq və bu ölkələr içərisində, şübhəsiz ki, Rusiya Federasiyası mühüm yer tutur. Bu məlumat bu qədər.

İkinci məsələ, bəli, bir məsələyə də toxunduq, bu il sentyabr ayının 7-də Moskvada MDB tərkibində olan indiki müstəqil dövlətlərin iqtisadi məsələlər üzrə toplantısı olacaqdır. Bu toplantıda Azərbaycanın nümayəndəsinin də müşahidəçi kimi, yaxud başqa bir formada iştirak etməsi məsələsini də biz müzakirə etdik. Danışdıq ki, Xarici İşlər Nazirliyi vasitəsilə bura gələn nümayəndə heyəti burada olan vaxt biz bunu dəqiqləşdirəcəyik, öz mövqeyimizi müəyyən edəcəyik. Bu qədər.

İkinci, dünən biz iclası qurtarandan sonra daxili işlər naziri Vaqif Novruzov məlumat verdi ki, dünən burada, bizim Ali Sovetin binasının qabağında Rəhim Qazıyevə məxsus olan avtomobildə xeyli silah-sursat tutulubdur, onun qoruyucuları var və onlar da burada olublar, bu məsələni sənədləşdiriblər. Mən istərdim ki, Vaqif Novruzov Məclisə bu barədə məlumat versin.

**Vaqif Novruzov, *Azərbaycan Respublikasının daxili işlər naziri.*** Mən istərdim ki, arayış təqdim edim.

**Sədrlik edən.** Yox, bura, tribunaya gəlin.

**Vaqif Novruzov.** Deyilən məsələ barədə arayış təqdim edirəm. 16 avqust 1993-cü ildə, yəni dünən saat 20:30-da Ali Sovetin yanında dayanmış vətəndaş Quliyev Cahangir Baxış oğluna məxsus olan "QAZ-31" markalı avtomaşın tərəfimizdən yoxlanılmış, salonda əyləşən üç nəfər mülki geyimdə olan şəxsin şəxsiyyəti müəyyənləşdirilmişdir. Həmin şəxslər – Qurbanov Natiq Məmmədəli oğlu 1969-cu ildə anadan olub, Sumqayıt şəhərində yaşayır, leytenant rütbəli hərbçidir, Bayramov Ruslan Kamal oğlu 1968-ci ildə anadan olub, Sumqayıt şəhərində yaşayır, Milli Ordunun əsgəri olması barədə üstündə MA-100 082 nömrəli vəsiqə aşkar edilib götürülmüşdür, Qazıyev Ruslan Kamal oğlu 1968-ci ildə Şəki şəhərində anadan olub, ali təhsilli, evli, Bakı şəhərində yaşayır, Sə-

naye Texnikumunun Mexanikləşdirmə, tikinti idarəsinin baş mühəndisi işləyir. Hər üç şəxs izahat verərək bildirmişlər ki, onlar Ali Sovetin binası qarşısına Ali Sovetin deputatı Rəhim Qazıyevlə gəlmişlər və Rəhim Qazıyevin şəxsi mühafizəçiləridirlər. Adları qeyd edilən şəxslər avtomaşından düşürülərək üstlərinə baxış keçirilmiş, baxış zamanı Qurbanovun üstündən ELQ-1802 1954-cü il buraxılışlı "Steçkin" markalı tapança 20 ədəd gülləsi ilə götürülmüşdür. Vətəndaş Qurbanov bildirmişdir ki, silah Azərbaycan Respublikası Ali Sovetinin deputatı Rəhim Həsən oğlu Qazıyevə məxsusdur, Qazıyev Milli Məclisin iclas salonuna girərkən həmin silahı saxlamaq üçün onlara vermişdir. Qurbanovla birlikdə avtomaşının salonunda əyləşmiş Bayramov və Qazıyevə məxsus aşağıdakı silahlar, döyüş sursatı və hərbi ləvazimat aşkar edilərək götürülmüşdür – iki ədəd "AKSM" markalı avtomat silahı, bir ədəd "AKS" markalı avtomat silahı, 7 ədəd güllə üçün sandıq, 163 ədəd avtomat silahı üçün güllə, 6 ədəd qumbara partlayıcısı və bir ədəd Amerika Birləşmiş Ştatlarında istehsal olunan ratsiya.

Göstərilən faktla əlaqədar olaraq tərəfimizdən təhqiqat aparılmış, silahların və döyüş sursatının əldə edilməsi yolları aydınlaşdırılmışdır. Müəyyən edilmişdir ki, həmin şəxslər Rəhim Qazıyevin şəxsi mühafizəçiləri olmaları ilə əlaqədar Qazıyev tərəfindən silah və döyüş sursatı ilə təmin edilmişlər. Vətəndaş Quliyevə məxsus olan "QAZ-31" markalı 62-01 AZE nömrəli "Volqa" avtomaşını müvafiq qaydaların tələblərini pozmaqla istifadə edildiyi üçün Bakı şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsi tərəfindən cərimə meydançasına qoyulub yoxlanılır. Hazırda göstərilən fakt üzrə Bakı şəhər Baş Polis İdarəsinin Cinayət axtarışı idarəsi tərəfindən təhqiqat aparılır. Göstərilən faktlar haqqında arayış bu qədər. Silahların haradan götürülməsi məsələsi də tərəfimizdən araşdırılır.

**Sədrlik edən.** Siz daxili işlər naziri kimi artıq uzun müddətdir işləyirsiniz, nə cür bu işlə razılaşırsınız ki, ayrı-ayrı adamlar böyük qoruyucu dəstələr düzəldirlər və onlar bunları qoruyurlar, silahla təmin olunublar. Bəs biz, bu rəhbər adamlar, Məclis üzvləri, partiya rəhbərləri, filanlar, beşməkanlar nə cür cinayətkarlardan qanunsuz saxlanılan silahları yığa bilərik ki, bizim bu məsul rəhbər adamlar özləri bu qanunu pozurlar. Siz nə üçün bu barədə ölçü götürmürsünüz? Ümumiyyətlə, mən Sizdən və salonda oturan Məclis üzvlərindən soruşuram, dünən Vahid Əhmədov mənim yanımda idi, danışır ki, bu nə məsələdir, mən Baş nazirin birinci müaviniyəm, mənim bir nəfər qoruyucum yoxdur,

bir nəfər də silahlı adam məni mühafizə eləmir, ancaq ayrı-ayrı adamlar, heç bir vəzifə tutmayan adamlar özlərinə böyük dəstələr, qoruyucular saxlayırlar, nə bilim, maşının dalında da, qabağında da onları müşayiət edirlər. Ümumiyyətlə, bu müşayiət məsələləri şəhərdə əhalinin asayişini pozubdur və silahlar saxlayırlar. Siz nazir kimi nə üçün bu barədə ölçü götürmürsünüz və belə işlərə münasibətiniz necədir?

**Vaqif Novruzov.** Mən bir daxili işlər naziri kimi Sizə izahat verə bilərəm, tərəfimdən Bakı şəhər Baş Polis İdarəsinin rəisi və onun şəxsi heyətinə göstəriş verilmişdir ki, belə halların qarşısı alınsın. Demək, İsgəndər Həmidovun mühafizəçiləri təklif olunan kimi silahlarını gətirib veriblər.

**Sədrlik edən.** Nə cür təhvil veriblər ki, İsgəndər Həmidov mətbuat konfransında çıxış edib dedi ki, mənim neçə 100, 1000 nəfərlik silahlı dəstəm var, bunu Azərbaycan Televiziyası da, Moskva televiziyası da verdi.

**Vaqif Novruzov.** İsgəndər Həmidovun o sözləri Tərtər və Goranboy rayonlarında olan taborlara aiddir. İsgəndərin burada...

**Sədrlik edən.** İsgəndər Həmidov bəydir, xandır, padşahdır ki, onun taboru var, onu qurtarmaq lazımdır.

**Vaqif Novruzov.** O belə hesab eləyir ki, bu taborlar onundur, ancaq taborlar onun deyil. O belə hesab eləyir ki, guya taborlar onundur, ona görə də çıxış eləyir, şəxsən mən onun çıxışlarına o qədər də fikir vermirəm. Ona görə ki o, çıxışında çox şeyləri danışır, çox şeyləri öz üzərinə götürür, guya onun belə qüvvələri, belə bir şeyi var. Ancaq mən neçə dəfə yoxlamışam və Sizə də burada məlumat verirəm, o, əvvəllər "Bozqurd" sayılan adamların hamısını öz əsgəri hesab eləyir, ancaq onlar hazırda, necə deyərlər, onun əvvəlki xəttindən hamısı çəkiliblər, kənardadırlar. Hazırda, ola bilsin ki, onun haradasa qüvvəsi var, ola bilər, özünün qüvvəsi var, ancaq o qüvvə tərəfimizdən hələ müəyyənləşdirilməyib.

**Yerdən.** *(Danışırlar, başa düşülmür.)*

**Sədrlik edən.** Sakit olun.

**Vaqif Novruzov.** Sizin sualınıza cavab verə bilərəm, əgər lazımdırsa, icazə verirsinizsə, onun sualına cavab verim.

**Sədrlik edən.** Yaxşı, Siz davam eləyin. Mən yenə də Sizdən soruşuram, Rəhim Qazıyev kimin icazəsi ilə, hansı səlahiyyətlə, hansı qərarla, hansı qanunla özünə qoruyucu dəstə saxlayır, bu qoruyucu dəstəsinin

vəsaitini kim verir, onlar haradan məvacib alır, əgər məvacib almırlarsa, haradan maddi cəhətdən təmin olunurlar? Necə ola bilər ki, bir adamı tapança ilə, yaxud tüfənglə qorusun, bu qranatların, qumbaraların orada olması nə məsələdir, qoruyuculuqdur, ya təxribat üçün olan şeydir?

**Vaqif Novruzov.** Mən burada Milli Məclis üzvlərinə arayış təqdim eləyəndə göstərdim ki, üç nəfər tərəfimizdən götürülüb yoxlanılıbdır. Həmin arayışda göstərdim ki, bu üç nəfərdən ikisi hərbçidir, mən bundan əvvəl də...

**Sədrlik edən.** Siz onları həbs etmisiniz?

**Vaqif Novruzov.** Xeyr, dünən mən onları buraxdım, fakt üzrə yoxlama aparılır.

**Sədrlik edən.** Niyə buraxmısan? Silah tutmusan bu adamlarda. Nə üçün buraxmısan?

**Vaqif Novruzov.** Silahın mənbəyini, deyirəm ki, mən hüquqşünasam...

**Sədrlik edən.** Bilirsiniz, Vaqif müəllim, bu cür tədbirlərlə biz burada qayda-qanun yarada bilmərik. Əgər bir adamdan Siz Ali Məclisin, parlamentin qarşısında maşında bir cəbhəxana tutmusunuz, sonra o adamları buraxmısınızsa, onların bu gün də, gecə də, sabah da başqa bir cinayət törətməsinə şərait yaratmısınız. Nə üçün buraxmısınız?

**Vaqif Novruzov.** Bu gün yoxlamanı qurtarandan sonra...

**Sədrlik edən.** Düz eləmirsiniz, mövqe tutmaq lazımdır. Dünən mən demişəm, daxili işlər naziri gərək daxili işlər naziri olsun, mübarizədir, mübarizə, bandit qruplarına qarşı, bizim dövlət strukturlarımız var, onun da önündə daxili işlər naziri durur, sənədləşdirmişəm, buraxmışam. Elə belə eləmisiniz ki, indiyə qədər burada bir belə bandit dəstəsi nə istəyirlər, onu da eləyirlər. Siz nə zəmanət verirsiniz ki, onlar sabah, indi, bu gün bir silah götürüb gəlib burada bir terrorçuluq eləməyəcəklər, onda nə cavab verəcəksiniz? Yaramaz belə şeylər.

Yenə deyirəm, gərək hərə öz vəzifəsini layiqincə yerinə yetirsin. Mən dünən Sizin o silahları tutmağınızı bəyənirəm, yaxşı eləmisiniz, amma sonra bu işlərdə güzəştə getməyinizi pisləyirəm və belə halları qəbul eləyə bilmirəm. Özünüz üçün nəticə çıxarın, əyləşə bilərsiniz.

**Vaqif Novruzov.** Aydındır.

**Sədrlik edən.** Artıq vəziyyəti görürsünüz, dünən burada xuliqanlıq eləyən, mən başqa söz tapa bilmirəm, ədəbsiz sözlər danışan adamlar

nə üçün burada özünü bu cür, qoçu kimi aparırdı, ona görə. Belə hallarda o adamlara güzəşt etmək onları daha da qudurtmağa və cürbəcür qeyri-qanuni işlər görməyə şərait yaradır. Bir məlumatı da sizə çatdırmaq istəyirəm...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Söz verəcəm də, burada o qədər yazılıblar ki, kimə mümkün olsa, söz verəcəm.

Bir məlumatı da sizə çatdırmaq istəyirəm. Bilirsiniz ki, dünən bizim iclasımız canlı yayıma gedib, əhali bunu çox böyük maraqla izləyibdir. Əhalidə çox böyük həyəcan var, Ali Sovetə minlərcə telefon zəngi olub, Lənkəran rayonunda Əlikram və onun əlaltılarının qanun pozğuntuları, cinayətləri də xalq, o cümlədən o rayonların adamları tərəfindən qətiyyətlə pislənir. Rəhim Qazıyevin hərəkətləri və dünən burada, parlamentin binasında xuliqanlığı qətiyyətlə pislənir, xalq hiddətlənib, tələb eləyirlər ki, bu adamlar və bunlara havadar olan adamlar təcili olaraq cinayət məsuliyyətinə cəlb olunsunlar və bunlara son qoyulsun.

Belə yazılar çoxdur, mən burada siyahını oxumaq istəmirəm, amma istəsəniz oxuya da bilərəm, minlərcə belə telefon zəngi olub. Ali Sovetə minlərcə teleqram gəlir, xalq ayağa qalxıb. İndi təsəvvür eləyin, biz çalışırıq ki, xalqı ayağa qaldıraq, torpaqlarımızı müdafiə eləyək. Hamı indi ayağa qalxıbdır, bizim daxilimizdə olan bu çirkin halların ifşa olunmasından dəhşətə gəlirlər. Hesab edirəm ki, bu məsələləri açmaqda, hər bir şeyi açıq deməkdə bu gün ictimai rəyi bilərək mən düzgün mövqe tutmuşam və bu mövqeyimi bundan sonra da davam edəcəyəm, xalq hər şeyi bilməlidir.

Məclis üzvü Mirmahmud Fəttayev bizə bu dəqiqə məlumat verdi ki, Rəhim Qazıyev öz adamlarını, Ruslan və Natiq adlı adamları Qusara göndərib. Mənə belə dedilər.

Hə, buyurun. Mirmahmud Fəttayevə mikrofon verin.

**Mirmahmud Fəttayev.** Hər vaxtınız xeyir, millət vəkilləri. Bilirsiniz, bu məsələlər o qədər ağırdır ki, burada hər hansı bir yanlışlığa yol vermək kiminsə taleyini həll eləməkdir. Sadəcə olaraq, mənə çatan məlumat idi, bu gün səhər tezdən iki nəfərin Qusara göndərilməsi məsələsini eşitmişəm, şəxsən Rəhim Qazıyev tərəfindən göndərilib-göndərilməyib, ondan mənim məlumatım yoxdur. Ona görə mən söz istədim, dedim, öz sözümü özüm deyim, tezdən iki nəfər göndərilib, mənə bu məlumatı verdilər. Mən də bu məsələnin məsuliyyətini başa düşdüm və dünən millət vəkilləri, Afiyəddin Cəlilov Qusardan səfərdən qayıdıblar

və hamımız gözəl bilirik ki, bu gün biz Füzuli məsələsini, Qusarı, digər məsələləri, yəni respublikada olan ictimai-siyasi vəziyyətlə əlaqədar olaraq aktual məsələləri müzakirə etmək əvəzinə, iki ay bundan qabaq baş vermiş məsələləri müzakirə edirik. Beləliklə də iki ay gecikirik, iki ay bundan sonra müzakirə etməli olasıydıq, Vaqif Novruzovun verdiyi məlumatla əlaqədar olduğu üçün mən bu məlumatı dedim və Rəhim Qazıyev də buradadır, yəqin ki, öz münasibətini bildirəcək. Bəlkə də, onunla heç əlaqəsi yoxdur, amma iki nəfər bu gün Qusara yola düşüb, silahları da var, onlar postlardan da keçiblər. Ola bilsin ki, onlar ora təxribatla məşğul olmağa gediblər, bilavasitə əlaqəsi var, ola bilsin, bilavasitə əlaqəsi yoxdur. Mən bu məsələni aydınlaşdırmaq üçün dedim ki, münasibətini bildirsin. Afiyəddin bəyə ona görə çatdırdım ki, Vaqif bəyə desin. Vaqif bəy, yaxud Nəriman bəy İmranov da münasibətlərini bildirərlər, yəqin ki, onlarda daha çox məlumat var. Sağ olun.

**Sədrlik edən.** Sizin bu məlumatınıza görə təşəkkür edirəm, məlumat tam dəqiq olmasa da, hər halda, şübhəsiz, maraqlıdır. Ancaq bu məlumat məni məcbur edir, deyim ki, Qusar rayonundakı vəziyyətlə əlaqədar olaraq biz üç gün bundan öncə Ali Sovet sədrinin müavini Afiyəddin Cəlilovu, Prezident Aparatının dövlət müşaviri Arif Rəhimzadəni, daxili işlər naziri Vaqif Novruzovu və Milli Məclisin üzvü Asiya Manafovanı ora göndərmişdik. İki gün orada olublar, çox əhəmiyyətli danışıqlar aparıblar.

Mən sizə məlumat verə bilərəm ki, Qusar rayonunun əhalisi və o gün orada toplanmış və başqa rayonlardan gəlmiş ləzgi millətinə mənsub olan adamlar Azərbaycan Respublikası rəhbərliyinin xəttini tamamilə bəyənirlər, yüz faiz dəstəkləyirlər və bu xəttə tərəfdar çıxırlar. Onlar bizim nümayəndələri əmin ediblər ki, o bölgədə öz tədbirlərini görəcəklər və heç bir təxribat hallarına yol verməyəcəklər.

O ki qaldı dünən də burada səslənirdi, Rəhim Qazıyevin o bölgəyə də əl atması, bu, şübhəsizdir, çünki birinci, orada olan icra başçısı Çələbiyev vardı, dünən biz fərman verdik, onu işdən azad etdik, bu, Rəhim Qazıyevin yaxın adamıdır, Rəhim Qazıyev dəfələrlə onun yanında olub, baxmayaraq ki orada nə müharibə var, nə cəbhə bölgəsidir, nə filandır. O, daim Rəhim Qazıyevlə əlaqədədir və Rəhim Qazıyev orada da aranı qarışdırmağa və bu bölgədə də etnik məsələləri qaldırmağa cəhd edən bir adamdır. Şəxsən məndə bu barədə heç bir şübhə yoxdur, lazım olsa, yoxlatdırarıq, neçə dəfə Rəhim Qazıyev orada olub, o Çələbiyevlə nə işlər görüb, bunu yoxlatdırarıq, aşkar edərik.

Ona görə də sağ olun ki, bu məlumatı verdiniz. Tapşırıram daxili işlər nazirinə və milli təhlükəsizlik nazirinə ki, bu məsələlərlə məşğul olsunlar. Ancaq bayaq Vaqif Novruzovun məlumatı ilə bağlı mən münasibətimi dedim, hesab edirəm, biz indi tapşırmalıyıq, mən şəxsən tapşırıram Vaqif Novruzova ki, o silahlı, qeyri-qanuni qoruyucular haqqında qanun çərçivəsində lazımi tədbirlər görülsün və cinayətkarlar qanun çərçivəsində məsuliyyətə cəlb olunsun...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mane olmayın. Dünən Siz özünüzün mədəniyyətinizi və tərbiyə səviyyənizi göstərdiniz və vicdan sözündən çox danışmayın. Oturun aşağı. Əyləşin. Mən verdim də, Siz niyə narahat olursunuz? Mən bu məsələni müzakirə etmirəm. Bir məlumat kimi qəbul etdim, göstəriş verdim, qurtarıb getdi, bu məsələ müzakirə olunmur. Məlumatdır. Əyləşin.

Mən görürəm, Milli Məclisdə Laçından heç kəs yoxdur, burada mənə çox yazı gəlib, Milli Məclisin üzvləri fikirləşənə qədər mən Laçından Muradxan Cabbarova söz verirəm. Milli Məclisin üzvləri hələ fikirləşirlər, danışmaq lazımdır, yoxsa yox. Fikirləşsinlər.

**Muradxan Cabbarov,** ***Laçın Rayon İcra Hakimiyyətinin Laçın şəhər nümayəndəsi.*** Ümumiyyətlə, bilirsiniz ki, Laçın tamam ağır vəziyyətdə, faciəli vəziyyətdə, özü yoxa çıxıb, əhalisi də, hamısı 65 rayona paylanıb. İndi bizə bundan çox təsir eləyən bu Milli Məclisdə gedən məsələlərdir. Xüsusi ilə bu gecə, həqiqi mənada adam həyəcandan yata bilmir. Birinci, Talış-Muğan Respublikası söhbətini hamı müəyyən elədi, yoldaşlar dedilər, Əlikram Hümbətov tək deyil, biz Lənkəran zonasını da tanıyırıq, adamların hamısı ilə tanışıq, bilirik, xalqa xəyanətdir, cinayətkarlıqdır, özü də xəyanət eləyir, onun havadarları da.

Amma bir cəhət çox maraqlıdır, hamı bilir ki, Əlikram Hümbətovun sərəncamında qanunsuz ordu var və Müdafiə Nazirliyində belə ordu yoxdur, bunu müdafiə nazirləri, biri, ikisi, üçü dəyişib, hamısı bilir. O biri tərəfdən, respublika rəhbərləri bilmirlər ki, Lənkəranda belə bir qanunsuz adam orada ordu saxlayır, Füzuli orada qalıb, Ağdam orada qalıb, camaat qırılır, cəbhədə tank tapılmır, top tapılmır, amma Hümbətovla əlaqəyə girən bir nəfər burada özünə ordu saxlayır, ordu düzəldir, özü də bütün təxribatlarla məşğul olur. Mənə belə gəlir ki, bu tamam cinayətdir, xalqın, bütün camaatın içərisində olur. Tələbimiz odur ki, o ordu da təcili verilsin Müdafiə Nazirliyinə, Əlikram Hümbətov da,

onun əlaltıları da cinayət məsuliyyətinə cəlb olunsun, o cümlədən keçmiş müdafiə nazirləri. Nəyə görə indiyə kimi ordunu orada saxlayıblar, respublikanın rəhbərləri o işi biliblər, tədbir görüblər, onunla əlaqədar ölçü götürüblər.

İkinci məsələ çox maraqlı məsələdir, Rəhim Qazıyevin dünən zaldakı hərəkəti. Rəhim Qazıyev haqlıdır. Ona görə haqlıdır ki, Şuşayla Laçın gedəndə Rəhim Qazıyev türmədə olmalıydı, Rəhim Qazıyev məsuliyyətə cəlb olunmalıydı, bütün dəstəsi ilə. Niyə Şuşa verildi, niyə Laçın verildi? Rəhim gəlib orada gördü ki, niyə təhvil verilirlər.

Mən bircə misal demək istəyirəm, ayın 8-də Şuşa təhvil verildi, 9-da gecə saat 1-də biz ağsaqqallar yığışmışıq milis şöbəsində, o cümlədən bizim daxili işlər nazirinin nümayəndəsi, Tahir Əliyev onu yaxşı tanıyır. Biz gecə saat 1-də güclə axtarıb Rəhim Qazıyevi kabinetində tapdıq. Yoldaşlar, daxili işlər nazirinin məsul işçisi xəbər verdi ki, Şuşa əldən gedib. Dedi, panika yaymayın, Şuşa bizdədir, yalan danışmayın. Telefonu götürüb müavinlə, Şahin Musayevlə danışdı, Şahin Musayev də onun sözünü təkrar elədi ki, bu, panikadır, camaatı panikaya salmayın, yalan danışırsınız. Bu nə müdafiə naziri idi ki, iki dəqiqə yox, beş dəqiqə aydınlaşdırmadı, görək, axı bu rayon, Şuşa əgər doğrudan da, gedibsə, Laçına üz döndəribsə, nə etmək lazımdır.

Axtardılar, telefonu qoydu yerə, heç narahat da olmadı, tükü də tərpənmədi ki, o yekəlikdə rayon əldən gedib. Axır zəng vurdu Ali Sovetə, Məmmədovu axtardı, tapılmadı, Afiyəddin müəllim tapıldı, Afiyəddin müəllim onda müavin deyildi. Yoldaşlar Afiyəddin müəllimlə danışdı ki, belə vəziyyət var, Şuşa gedib, oradan çıxanları Turşsuda Tahir Əliyev qarşılayıb, vəziyyət ağırdır. Afiyəddin müəllim də dedi, əşi, biz müdafiə nazirindən məlumat almışıq ki, belə bir şey yoxdur, camaat Şuşadadır, Şuşa bizimkidir.

Mən 67 yaşında ağsaqqal adam təzədən telefonu aldım, xahiş elədim ki, Afiyəddin müəllim, səhərdən Rəhim Qazıyevə deyirlər, inanmır, özü də maraqlandıq, niyə əldən gedir. Müavini Şahin Musayevə deyirlər, maraqlanmır, indi də Siz inanmırsınız. Mən Sizə düzünü deyirəm, vəziyyət belədir, Şuşa əldən gedir. Tahir Əliyev Nisaqordadır, onun adamı gəlib burada xəbər verir, vəziyyət ağırdır, əgər bu gecə, bu gün lazımi tədbir görülməsə, Turşsuda ermənilərin qarşısını almaq üçün ağıllı ölçü götürülməsə, Laçın da əldən gedəcək, faciəli vəziyyət əmələ gələcək. Ondan sonra Afiyəddin müəllim dedi ki, mən indi hamıya xəbər verəcəyəm.

Bəs o biri günlər nə oldu? Rəhim heç maraqlanmadı, görək, Şuşadan keçib gəlirlər Laçına. Laçın nə yerdədir? Əksinə, müdafiə eləmək əvəzinə, ordusuna göstəriş verib qaçıb, texnikanın da hamısını çıxarıb. Ordu postlardan, rayon ərazisindən çıxdı, camaat gördü ki, tank qaçır, texnika qaçır, hərbçilər qaçır, nazirin, onun müavininin göstərişi var, hamı çıxıb gedir, camaat acınacaqlı vəziyyətdə çarəsiz qalıb, 100 ildə qazandığını, var-yoxunu töküb güclə rayondan qaçıb, ancaq canını qurtarmağa məcbur oldu.

Həmin vaxt Arif Hacıyev də ora gəlmişdi. Buranı döndərdilər nə zalına. Etibar Məmmədov da gəlmişdi. Onlar orada vəziyyəti gördülər. Ayın 11-də hamı gördü ki, rayon əldən gedir, dağılır, amma heç bir tədbir görülmədi. Ayın 9-dan rayonun mərkəzini – üz-üzə dava deyildi – Gorusdan qraddan, topdan atəşə tutdular. Ayın 9-da şəxsən mənim evimi qradla dağıtdılar. Tahir Əliyev şahid oldu. Səhər qonaq evinin yanında durmuşdum. Özü şahiddir, gördü, nə qədər vurdular. Təkcə həmin gün 6 nəfəri rabitə idarəsinin yanında qradla vurdular, öldü, biz onları gündüz basdıra bilmədik, gecə basdırdıq.

Belə bir vəziyyətdə müdafiə naziri harada qalmışdı? Bundan başqa, onun müavini Şahin Musayev hələ nəinki Laçın, Qubadlının əhalisini köçürmək istəyirdi, qaçın, köçün. Qubadlılılar tutmuşdular. Rəhim Qazıyev vertolyotla gəldi, Şahin Musayevi Qubadlıdan götürüb apardı. Niyə? Deməli, sən mənim camaatımı, ana, bacımızı, xalqı, 60 min əhalini qoymusan çöllərdə, 28 min laçınlı bu saat Bakının ərazisindədir. 85 min kvadratmetr sahə, Laçın gedib, 124 kənd gedib, bundan başqa, Azərbaycan Respublikasının ən yararlı torpağı, yaylaq sahəsi olan 65000 yaylaq ərazisinin hamısı gedib. Bu nə səni, nə bəyləri, nə Elçibəyi, nə əvvəlkini, heç kəsi maraqlandırmır. Amma indi burada, zalda başqa şeylər danışırsınız?

Rəhim Qazıyev cinayətkardır. May ayından indiyə kimi biz, ağsaqqallar dəfələrlə hamının yanında olmuşuq. İxtiyar Şirinovun qəbulunda olmuşuq, Pənah Hüseynovun qəbulunda olmuşuq, Arif Hacıyevin qəbulunda olmuşuq. Nəhayət, Elçibəyin, İsa bəyin qəbulunda olmuşuq. Müraciət vermişik, təkliflər vermişik, bizim məsələ çıxsın Milli Məclisə, heç kəs əhəmiyyət verməyib. İndi də cinayətkar qalıb çöldə, üzr istəyirəm, Rəhim Qazıyev, sən elə qoçaq oğlansansa, bu zalda tullanınca, Laçının camaatı yataqxanadadır, get, onlardan üzr istə ki, sizi mən didərgin eləmişəm, torpağınızı satmışam, özünüzü də dağıtmışam düzlərə. Xahiş edirəm, deyin. Buradan Lənkərana dəfələrlə gedə bilirsən, Qusara

gedirsən, Gəncəyə gedirsən, amma burada qulağının dibində hələ bir dəfə laçınlıların içinə çıxmırsan, səni laçınlılar qane eləmir?

Ondan başqa belə cinayətkarlar düşüb Prezident axtarırlar. Mütəllibov Prezident olmalıdır. Mütəllibovun haqqında da sən belə şeylər danışdın, Əbülfəzin də, hansı mənsəbə qulluq edirsən, özün də bilmirsən. Mütəllibovun hansı fəaliyyətinə görə dalınca düşmüsünüz? Azərbaycanı birinci yıxıb sürüyən, dağıdan, rüşvətxorluğu yayan, təsərrüfatları dağıdan elə Mütəllibov oldu. Kim elədi? Mütəllibov elədi, onun əlaltıları elədilər. Bircə faktı deyim. Xocalı gedəndən sonra 20 nəfər ağsaqqal yığışıb gəldik Mütəllibovun qəbuluna, mart ayının 4-də qəbul eləmədi, sonra qəbul olunduq. Xahiş elədik, a kişi, biz bura gəlmişik ki, onsuz da camaat Sizə inamını itirib, amma gəlmişik, axırıncılardır, on-onbeş günə Xocalını, Laçını, Şuşanı gözləyin. Özü də biz danışdıq ki, təyyarə ilə, vertolyotla gətirirlər, Hadrutu möhkəmləndirirlər, buna görə gəlmişik ki, bizdə heç nə yoxdur. Özü də o qəbulda bizimlə 7 nəfər adam olub. Onlardan iki nəfərini görürəm. Biri Tahir Əliyevdir, biri də general buradadır, axırda general da gəlib çıxdı.

Biz xahiş elədik, a kişi, vəziyyət ağırdır, sərhəd möhkəmlənib, bizə bu qədər tank lazımdır, bizə təyyarəvuranlar lazımdır, bizə mütəxəssislər lazımdır, ordunu saxlayın burada, heç olmasa, bu vəziyyətin qarşısı alınsın, rayon təhlükədən qurtarsın. Dönüb yanındakına dedi ki, biz bunlara haradan 4 tank "spisat" eləyib verə bilərik. Bizdə qoca kişi var idi, müharibə veteranı, Şahverdiyev dedi, yoldaş Mütəllibov, elə tankı "spisat" eləyin, pulu ilə mən apararam rayona. Ondan da bir şey çıxmadı. Daxili işlər naziri var idi, dedi ki, 15 qrad verə bilərəm, ayrı heç nə yoxdur.

İki saat söhbətdən sonra axırda məcbur olub mən özüm elan elədim ki, a kişi, a yoldaş Prezident, nə Sizin, nə də bu yoldaşların heç birinin Laçın haqqında təsəvvürü yoxdur. Xahiş edirəm, bu yoldaşlar dursun, gedək Laçına, Laçında məsələni aydınlaşdıraq, respublikada nazirlərdən asılı olanı bunlar eləsin, bizdən asılı olanı biz eləyək, amma Laçın əldən getməsin, Laçın təhlükədədir. Heç bir şey də çıxmadı, heç bir söhbət də olmadı. Sonrası da nə oldu, onun hamısı sizə məlumdur.

Axırda elə vəziyyət əmələ gəldi ki, indi Mütəllibovun fəaliyyəti budur, nə düşmüşük Mütəllibovun arxasınca, neyləyib Mütəllibov, bütün bu iyrənc məsələlərin əksəriyyətinin bünövrəsini o qoydu, sonra gələn bəylər isə bunu lap kökündən... Elə bildilər ki, elə doğrudan, ancaq

yığmaq, alver məsələsidir, onlar ondan ötrü gəliblər. Hələ yaxşı ki bu tikilən binaların çoxunu dağıtmayıblar. Onlarda belə təsəvvür yaranıb ki, köhnə nə var, hamısı uçulmalıdır, dağılmalıdır, yeni nə isə bir şey olmalıdır.

Biz may ayında sonrakı iqtidarın qəbulunda olduq, bizə dedilər ki, Etibar, Elçibəyin qəbuluna getmək üçün gərək Hacıyevin qəbulunda olasınız, Pənahın qəbulunda olasınız, bunlar icazə versin sonra. Biz də axır gəlib Elçibəyin qəbulunda olduq, bir saat söhbət elədi, bircə sözləri oldu ki, 15-20 günə Laçını qaytaracağıq, qalan məsələləri gedib orada danışaq. A yoldaş, axı bu qədər məsələ qaldırmışıq, sənin qarşında məsələ qoyuruq, bu məsələlər həll olunmasa, rayonu qaytarmaq mümkün deyil. Yox, rayon xəyanətkarlıqla gedib, rayonun – Laçınla Şuşanın verilməsində Elçibəyin də əli var, onun böyründəkilərin də əli var idi. Ona görə onlar 15-20 gün gözləyirdilər ki, Laçını qaytarsınlar.

O biriləri demirəm, mən Elçibəyə bir neçə məsələni dedim. Dedim ki, a kişi, sənin dediklərin düz deyil. Özü də səni aldadırlar. Dedi niyə? Deyir ki, sən Prezident olmamışdan 3 gün qabaq çıxış elədin, dedin ki, Laçın qəsəbədir, 7 min əhalisi var, bir dəhliz vermişik, o dəhlizi də tutub kəsəcəyik də. 26 kəndin hamısı gəlib oturub. Dedim, Sizin bu çıxışınız yalandır, 60 min adam bilir ki, Siz yalan danışırsınız, axı Siz Prezidentsiniz. Bu qədər yalanı niyə danışırsınız, hörmətinizə təsir eləyir. Dedi, yox, Allah qoysa, 15 günə alacağıq. Mən ona axırıncı çoban kimi sözümü dedim. Dedim, a kişi, ola bilsin ki, Siz alardınız Əsgəranı da, Stepanakerti də, Şuşanı çıxarın. Amma nə qədər ki bizim dediyimiz təkliflər, sərhəd məsələsi, başqası, bu məsələlər həll olunmayıb, ermənilər bu qüvvəylə bir gecədə Azərbaycanı ələ keçirərlər. Dedi, yox, yox, ağsaqqal, 15-20 günə qaytaracağıq. Biz gördük, qardaş, Əbülfəz Elçibəy Prezident deyil, indi də yoldaşlar düşüb ki, bizim Prezidentimiz Elçibəydir, əgər Elçibəy olmasa, biz hamımız dondurulacağıq, məhv olacağıq. Elçibəyin bədəni Prezidentin bədənidir, Elçibəyin başı Fərəcin başıdır, Arif Hacıyevin başıdır, ondan sonra Pənah Hüseynovun başıdır, İsa Qəmbərin başıdır, ona görə də işləyə bilmirdi. Yoldaşlar xahiş elədilər, Əbülfəzə deməyin, ürəyi xəstədir, birdən xarab olar.

Bu qədər biabırçılıq olar, bu qədər eybəcərlik olar, ay qardaşlar. Ona görə də mənə belə gəlir ki, həmin yoldaşlar əgər xalq dərdinə qalırlarsa, respublikanın bu ağır vəziyyətində indi respublikanı bu vəziyyətdən çıxarmaq, bütün qüvvələri səfərbərliyə almaq, indiki rəhbərliyin ətrafında birləşmək əvəzinə hərə bir tərəfə keçib, daldada iş

görür. Əşi, silah dövlətdə olar, silah daxili işlər nazirində olar, qüvvə də onda olar, bir də Müdafiə Nazirliyində. Hər işdən çıxanın böyründə 15-20 nəfər silahlı olmaz. Bəs bunlardan soruşmaq lazımdır ki, orada əsgər tapılmır, sən burada evinin böyründə əsgər saxlayırsan, niyə, ay qardaş, niyə? Bu məsələlərə yol verilib indiyə kimi, indi də Elçibəyin, onun komandasının vecinə deyil, laçınlılardan 60 min adam burada qırılır, hələ biz onlara deyəndə, düzdür, camaat köçmüşdü, evlər dağılmamışdı.

Ümumiyyətlə, mənə elə gəlir ki, bu cinayətkarlığa indiyə kimi heç bir iş açılmayıb. Biz xahiş edirik, Milli Məclisdə baxılsın, Ali Sovetə hətta dəfələrlə təkliflərimiz də olub, komissiya da baxıb, o da lazım bilib ki, baxılsın, amma ayrı-ayrı adamlar qoymayıblar, Milli Məclisdə Laçın məsələsi müzakirə olunsun. Mən xahiş edirəm ki, əvvəl Laçının faciəsi ilə əlaqədar məsələlərə Milli Məclisdə ayrıca baxılsın – mən vaxt almaq istəmirəm – o biri tərəfdən, inam tamam itmişdi, respublikada Siz gələndən bəri xalqın hamısının inamı artıb, çoxalıb, xalq Sizə inanır, xalq Sizə əvvəldən inanır, inanır və inanacaq. Ancaq gəlin elə bir vəziyyət yaradaq ki, qoy cinayətkardır, günahkardır, payını alsın da. İndi xalq evinin də səmtini yadından çıxarıb, köçməyi də yaddan çıxarıb, bu məsələlər camaatı infarkt eləyir. Mən xahiş eləyirəm ki, o adamlar haqqında qəti ölçü götürülsün və hamı, camaat bunu tələb eləyir, camaatın hamısının ürəyindəndir.

**Sədrlik edən.** Xalq deputatı Arif Əliyev.

**Arif Əliyev.** Hörmətli millət vəkilləri, mən vaxtınızı çox almaq istəmirəm, konkret təklif vermək istəyirəm. Dünən Milli Məclisin iclasında Rəhim Qazıyevin hərəkətləri hamıya məlum oldu. Azərbaycanın parçalanması və ona havadarlıq eləyən kimdir. Lənkərana getməsi və bundan başqa, dünən bütün Azərbaycan xalqına qarşı olan təhqir, Ali Sovetin sədrinə, Prezidentin səlahiyyətlərini yerinə yetirən respublikanın ağsaqqalına qarşı olan təhqir ağır cinayət kimi qiymətləndirilməlidir.

Ona görə konkret təklifim budur ki, Rəhim Qazıyev Milli Məclisin tərkibindən çıxarılsın. Eyni zamanda onun Məclis üzvləri, deputatlar tərəfindən söylənilən digər cinayətinin ağırlığını nəzərə alıb, məsuliyyətə cəlb olunması məsələsi qoyulsun. Baş prokuror da burada iştirak eləyir, qətimkan tədbirinin seçilməsi, yəni həbsə alınması məsələsi bu gün həll olunsun. Əgər bu gün Məclis yenə də qəti olaraq öz sözünü deməsə, bu, Məclisin öz-özünə qarşı hörmətsizliyi olacaq.

**Sədrlik edən.** İndi bir məlumat gəlib, mən bunu çatdırmalıyam. Lənkəranda olan 704 nömrəli briqadanın komandiri Hacıyev müavini Qurbanova tapşırıq verib ki, Bakı ilə danışsın və tələb etsin ki, Hümbətovdan əl çəksinlər. Hacıyev briqadanı döyüş bölgəsindən çıxaracaqdır. Mən güman edirəm ki, bizim Baş nazir Surət Hüseynov bu barədə lazımi tədbirlər görməlidir.

İnqilab Nadirova söz verilir. Buyursun.

**İnqilab Nadirov.** Hörmətli sədr, hörmətli millət vəkilləri, formal da olsa, heç bir yuridik əsası olmadan Talış-Muğan Respublikasının elan olunması indiki zamanda Azərbaycan xalqına, onun müstəqilliyinə qarşı arxadan vurulan bir zərbədir. Mən bir neçə gün bundan qabaq Ali Sovetdə Lənkəran zonasının deputatları, ziyalıları ilə keçirilən görüşə diqqətlə baxdım, qulaq asdım və bu nəticəyə gəldim ki, bu qondarma respublikanı yaradan adamlardan başqa, oranın yerli əhalisinin, demək olar ki, bundan xəbəri yoxdur, bir qrup adam tərəfindən təşkil olunub. Mən hesab edirəm ki, Azərbaycan xalqının indiki zamanda bir düşməni var, o da ermənidir. İndiki zamanda bu məsələləri ortalığa atmaq xalqa xəyanət etməkdən başqa bir şey deyil. İndiki zamanda biz hamımız birləşməliyik və amansız düşmənə qarşı mübarizə aparmalıyıq, zəbt olunmuş, işğal olunmuş torpaqlarımızı qarışına qədər xilas etməliyik.

Hazırda Azərbaycanda 600 mindən artıq öz vətənində qaçqın düşən, məcburi köçkün olan adamlarımız var. Belə bir zamanda gəlib bu cür hoqqalara qurşanmaq ancaq xalqa xəyanətdən başqa bir şey deyil. Bu məsələlər barədə çox danışılıb, ona görə də mən çox vaxt almaq istəmirəm, lakin bu məsələ ilə əlaqədar konkret təklif vermək istəyirəm. Belə hesab edirəm, aparılan prosesə Milli Məclis öz münasibətini bildirməlidir, yəni pislənməlidir və eyni zamanda mən belə təklif edərdim, o zonada olan bütün əhaliyə və həmçinin orada silah altında oturan adamlara müraciət qəbul olunmalıdır ki, bu cür fitvalara getməsinlər, bu, qondarma məsələdir. Bu, Azərbaycan xalqının birliyinə, onun müstəqilliyinə qarşı xəyanətdir, ona görə də orada bu məsələyə son qoyulsun.

İkincisi, təklif edirəm, inzibati orqanlara tapşırılsın ki, bu məsələlərlə əlaqədar məşğul olan və bunu törədən adamlar hamısı cinayət məsuliyyətinə cəlb olunsun, ifşa olunsun və onlar xalqa tanıdılsın. Artıq ərazimizin, demək olar ki, 17 faizindən yuxarısı erməni qəsbkarları tərəfindən işğal olunmuşdur, bizim hazırda apardığımız tədbirlər heç də müharibədə qalib gəlməyi təmin etmir. Ona görə də mən elə hesab

edirəm ki, hərbi vəziyyət elan olunmalıdır. 40-45 yaşına qədər olan bütün əhali səfərbərliyə alınmalıdır. Müharibə aparan dövlət müharibə qanunları ilə yaşamalıdır və ona görə burada bütün əhali səfərbərliyə alınmalıdır, biz sahələrimizi düşməndən azad eləməliyik.

Nəhayət, bu məsələ ilə əlaqədar hazırda fəaliyyət göstərən siyasi partiyalar, ayrı-ayrı ictimai təşkilatlar var, mənə belə gəlir ki, müharibə qurtarana qədər siyasi təşkilatlar, siyasi partiyalar və ictimai təşkilatların fəaliyyəti dondurulmalıdır.

Mən bir məsələni də demək istəyirəm, burada dil barədə qanun qəbul olundu, o qanun dekabr ayının 22-də və 27-də iki dəfə müzakirə olundu, o məsələlər barədə mən çıxış eləmişəm, bunu demək istəmirəm. "Müxalifət" qəzeti Əliyevə səs verdiyimizə görə şəxsən məni biabır elədi. İndi günün tələblərinə cavab vermədiyinə görə mən təklif edərdim, gələcəkdə, əlbəttə, ilk başlanğıc bəlkə də, buradan qoyulurdu, ona görə də Konstitusiyanın 73-cü maddəsində göstərilir ki, Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Lakin biz qanun qəbul elədik, 26 nəfər səs verdi, adı da oldu ki, türk dilidir, mənə elə gəlir, bu məsələyə yenidən baxmaq lazımdır.

İkinci məsələ barədə. Dünən burada Rəhim Qazıyev, demək olar ki, öz son hoqqasını törətdi. Mən ona çox təəccüb edirəm, çünki onun bu cür hərəkətləri dəfələrlə olub, bu zal bu cür hadisələrin dəfələrlə şahidi olub, lakin bu dərəcədə heç vaxt olmayıb. Siz gördünüz – biz təxminən 1 il 8 aya qədər bir yerdə işləyirik, münasibətimiz də çox yaxşıdır, ona da mənim çox böyük hörmətim var idi – mən nə qədər çalışdımsa, onu sakitləşdirə bilmədim, insanlığa yaraşmayan təhqirlərlə Ali Sovetin sədrini, respublikanın Prezidentinin səlahiyyətlərini həyata keçirən Heydər Əliyevi təhqir elədi. Onu da deyim ki, o təkcə zalda olanları yox, bütün Azərbaycan xalqını təhqir elədi. Mən dünən axşama qədər gözlədim ki, o, sakitləşəndən sonra tribunaya çıxacaq, bizdən, şəxsən Heydər Əliyev yoldaşdan və eyni zamanda bütün Azərbaycan xalqından üzr istəyəcək. Lakin belə bir cürəti, belə bir qüdrəti, belə bir kişiliyi o özündə tapa bilmədi. Ona görə mən təklif edirəm ki, bu məsələlərə son qoyulmalıdır.

Bir məsəl var, deyir: "Fiqaro burada, Fiqaro orada". Belə bir məsəl var. Lənkəran oldu, Rəhim Qazıyev orada, Gəncə oldu, Rəhim Qazıyev orada, Qusar oldu, Rəhim Qazıyev orada. Mən başa düşə bilmirəm bu necə şeydir, biz də millət vəkiliyik, bizim də xidmətlərimiz onunkundan az deyil. Necə olur ki, harada dolaşıq işlər varsa, Rəhim Qazıyev oradan

çıxır. Mənə belə gəlir ki, o, bütün hərəkətləri ilə bu gün Milli Məclis üzvünə yaraşmayan hərəkət etdiyinə görə Milli Məclis üzvlüyündən kənar edilməlidir və onun cinayət xarakterli hərəkətlərinə inzibati orqanlar qiymət verməlidir.

Mən fikrimi əsaslandıraraq demək istəyirəm, "Azadlıq" qəzetində çıxan material ki var, Əbülfəz Elçibəyin fərmanıyla komissiya ayrılıb, o, müdafiə naziri vəzifəsindən çıxanda orada yoxlama aparılıb, onun 5-ci bəndi, pul əməliyyatları qəzetdə verilib. Mən elə hesab edirəm, onu oxuyandan sonra belə qənaətə gəldim ki, Rəhim Qazıyev ən qatı cinayətkardır. Ona görə də mən tələb eləyirəm ki, inzibati orqanlar bu məsələylə məşğul olsunlar. Sağ olun.

**Sədrlik edən.** Qüdrət Quliyev buyursun.

**Qüdrət Quliyev.** Hörmətli Heydər bəy, hörmətli millət vəkilləri, dünən müzakirəsi başlamış və bu gün davam eləyən məsələ, həqiqətən də, ciddi bir məsələdir. Mənə belə gəlir ki, bu məsələnin qaydasına salınmasından Azərbaycanın gələcək taleyi çox asılıdır.

Heydər bəy, dünən Sizin Azərbaycanın cənub bölgələrində baş vermiş hadisələrlə əlaqədar verdiyiniz məlumat həqiqətdən başqa bir şey deyildir. Mən bu məlumatda verilən faktların hamısı ilə razıyam və bir şeyi qeyd etmək istəyirəm ki, bizim Məclis, Azərbaycan hökuməti həmin cənub bölgələrində yaranmış vəziyyəti, münaqişəni aradan qaldırmaq üçün əlindən gələn ən qəti tədbirləri görməlidir. Bu barədə Sizin verdiyiniz təkliflərlə, Arif Rəhimzadə və digər millət vəkillərinin verdikləri təkliflərlə razıyam. Mənə belə gəlir, Əlikram Hümbətovun Azərbaycanın cənub bölgələrində Talış-Muğan Respublikası yaratmaq ideyası yalnız Azərbaycana, onun suverenliyinə, müstəqilliyinə qarşı yönəldilmiş arxadan vurulan zərbədən başqa bir şey deyil və indiyə qədər o qüvvələr ki həmişə bu çirkin əməllərdən istifadə ediblər, onlar indi də həmin əməldən öz niyyətləri üçün istifadə etmək istəyirlər. O qüvvələrin nümayəndələri bu zalda da var, buna heç bir şübhəm də yoxdur. O həmin qüvvələrdir ki, vaxtı ikən Azərbaycan Kommunist Partiyası olarkən nə Kommunist Partiyasına, nə Azərbaycan xalqına bir qəpiklik xeyir verməyiblər, həmişə dedi-qodu ilə, intriqa ilə məşğul olublar. Həmin qüvvələrdir ki, şeytana da qulluq edərlər, təki onların gün-güzəranı rahat olsun. Odur ki bunlara qarşı ən qəti tədbirlər görülməlidir və bu tədbirlər bu gün bu Məclisdə görülməlidir, onun qərarları ilə onlara sərəncam verilməlidir.

O ki qaldı müharibədə bizim məğlubiyyətlərimizə, əgər bu məğlubiyyətlərin bir qismi keçmiş iqtidarın səbatsızlığı ilə, bacarıqsızlığı ilə əlaqədardırsa, bir qismi də bu zalda oturan keçmiş müdafiə naziri Rəhim Qazıyevlə bağlıdır. Bilavasitə bağlıdır. Rəhim Qazıyevə sual vermək lazımdır ki, sən müdafiə naziri idin, büdcənin 50 faizi sənə verilirdi ki, ondan ordunun yaradılması üçün istifadə edəsən. Neyləmisən sən? Hanı bizim ordu? Hanı bizim silahlar? Hanı bizim texnika? Hanı bizim istehkamlar? Utanmırlar da, hələ burada durub artıq-əskik danışırlar. Ağsaqqalımıza qarşı hörmətsizlik edirlər. Belə adamlara qarşı ən ciddi tədbirlər görülməlidir.

Mən də məndən qabaq çıxış etmiş İnqilab Nadirovun təklifləri ilə razıyam. Mənə belə gəlir, biz bir daha təşəbbüs etməliyik ki, cənub bölgəsində yaranmış münaqişə sülh yolu ilə həll olunsun, əgər bu yolla həll olunmazsa, Məclis Azərbaycan hökumətinə geniş ixtiyarlar, imkanlar, səlahiyyətlər verməlidir, Azərbaycan hökuməti həmin münaqişənin aradan qaldırılması üçün lazım olan bütün tədbirləri həyata keçirə bilsin.

Rəhim Qazıyevə qaldıqda isə, mənə belə gəlir ki, bəlkə, dünənki hadisəyə qədər buna dözmək olardı, dünənki hadisədən sonra onun Milli Məclisin üzvü olmağa haqqı yoxdur, onun Milli Məclis üzvlüyündən çıxarılması barədə biz bu gün öz fikrimizi söyləməliyik və əməllərinə görə o, layiqli cəzasını almalıdır. Sağ olun.

**Sədrlik edən.** Prezident Aparatının işçisi Aslan İsmayılov mənə müraciət edib. Mən hesab edirəm ki, buna da söz vermək lazımdır. Buyursun Aslan İsmayılov.

**Aslan İsmayılov.** Hörmətli millət vəkilləri, hörmətli Heydər müəllim! Mən Prezident Aparatında 1993-cü il mayın 27-dən işləyirəm, ona qədər dörd il Respublika Prokurorluğunda işləmişəm, 8 il Stavropol vilayətində hakim, onun dörd ilini sədr işləmişəm, Krasnodar şəhərində yaşamışam. Yəni məni bu gün bura çıxmağa və çıxış etməyə vadar edən Rəhim Qazıyevin törətdiyi cinayətlər barəsində Respublika Prokurorluğunda işləyərkən məndə olan məlumatlardır. Bundan başqa, yəqin, vətənin qədrini daha çox vətənindən kənarda yaşayanlar bilir. Mən üzr istəyirəm, həyəcanlı olduğuma görə.

Məni bu gün burada çıxış etməyə vadar edən dünən Azərbaycanın ağsaqqalı Heydər müəllimin çıxışı və onun çıxışına millət vəkillərinin laqeydliyi oldu. Ona görə ki hamıdan çox Rəhim Qazıyevin törətdiyi

cinayətlər barədə Heydər müəllim yox, bu zalda əyləşən millət vəkilləri bilirlər. Mən konkret faktlara keçmək istəyirəm. Respublika Prokurorluğundan... Rusiyadan gəlmiş, uzun müddət orada işləmiş azərbaycanlı uşaqlar, işçilər tərəfindən və bizim təşəbbüsümüzlə, demək olar ki, cinayət işi qaldırıldı. Həmin cinayət işi bir ilə yaxındır ki, tam hazır vəziyyətdədir. Cinayət işinin, demək olar, istintaqı tamamlanıb, həmin cinayət işi üzrə Rəhim Qazıyevin həbsi barədə Milli Məclisə təqdimat, demək olar, hazırdır. Bu barədə cinayət işinin nömrəsi 1835309-dur, yəqin ki, Əli müəllim bu barədə məndən sonra özü də məlumat verər və bu işlər barəsində daha ətraflı danışarlar. Hüquq-mühafizə orqanları bunun hamısını bilirlər.

Mən bir daha konkret faktları demək istəyirəm ki, bir ilə yaxındır cinayət işi tamamlanıb, hazırdır. Şuşanın verilməsində bilavasitə Rəhim Qazıyevin iştirakı bu cinayət işi ilə tamamilə sübut olunur. Bu cinayət işini aparan müstəntiq Xasıyevlə mənim dəfələrlə söhbətimdə və mənim kimi, yenə deyirəm, bir qrup gənc əməkdaş ona yaxınlaşıb həmişə maraqlananda, bu Şuşa işi, Laçın işi nə vaxt açılacaq, o həmişə bizə deyib ki, cinayət işi açılıb, ancaq Milli Məclisdən razılıq alınması məsələsi ləngidilir. Bundan sonra mən özüm dəfələrlə keçmiş Baş prokurorun istintaq üzrə müavini İbrahim Tatıyevin yanında olmuşam, indi, yəqin, eşidir və məni yaxşı tanıyır. Dəfələrlə mən ona demişəm ki, İbrahim Tatıyev, qeyrətiniz olsun, müraciət edin. İbrahim Tatıyev mənə deyib ki, müraciət edirik, ancaq Prezident Əbülfəz Elçibəy qorxur ki, Rəhim Qazıyev Azərbaycanda vətəndaş müharibəsi törədəcək. Ancaq bu qorxu nəticəsində bu razılıq alınmayıb. Rəhim Qazıyev bugünkü günə qədər burada oturub.

Başqa cinayətlər haqqında. Şuşa hadisələri haqqında mən bircə kəlmə demək istəyirəm. Burada hərbçi general Timoşenko oturur, əgər mən düz deməsəm, o mənim dediklərimi təkzib edə bilər. Şuşa ayın 8-də veriləndə bütün millət ayın 10-na qədər aldadılıb, Şuşa bizdədir və bu informasiyaları mən televiziya şirkətindən götürmüşəm, bu informasiyalar televiziya şirkətinə Müdafiə Nazirliyindən gəlib ki, Şuşa bizdədir, müharibənin qanunları var.

Hörmətli general, əgər mən səhv desəm, xahiş edirəm, təkzib edəsiniz. Hücum edən tərəfin birinci vəzifəsi aldığı mövqedə möhkəmlənməkdir. Rəhim Qazıyevin köməkliyi ilə ermənilərə iki gün vaxt verildi ki, ermənilər Şuşada möhkəmlənsin. Məğlub olan tərəfin birinci məqsədi hücum edənin həmin mövqedə möhkəmlənməsinə yol verməməkdir.

Rəhim Qazıyev bunu da elədi. İki gün Müdafiə Nazirliyi, bir adam bir tədbir görmədi ki, ermənilər Şuşada möhkəmlənməsin.

Bundan, Şuşa məsələsindən başqa. Yəqin, bu Milli Məclisin üzvləri qəşəng bilirlər ki, respublika Hərbi prokuroru Rövşən Əliyev Hərbi prokuror təyin olunanda birinci onun əleyhinə olan Rəhim Qazıyev olmuşdu. Niyə? Ona görə ki Rövşən Əliyevdə Rəhim Qazıyevin cinayətləri barədə ətraflı məlumatlar var idi. Rəhim Qazıyevin göstərişi ilə Rövşən Əliyevə hücum çəkən hərbi polis Bakı şəhər Prokurorluğuna gəlib onu aparmaq istəyirdi, ona imkan olmayanda orada seyfdə sənədlər var idi, onu aparmaq istəyirdilər. Bunu Rəhim Qazıyev yaxşı bilir, onun göstərişi ilə olmuşdu. Həmin vaxt Rövşən Əliyev Respublika Prokurorluğuna gəldi, kollegiya gedirdi. Vəsiqəni atdı ki, mən belə işləyə bilmirəm. Murad müəllim Babayev, əgər buradadırsa, o, şahididir bunun.

Bundan başqa, bütün prokurorluq işçiləri, hamı bilir ki, Rəhim Qazıyevin öz türməsi var idi, həmin türmədə adamlar heç bir prokurorluq sanksiyası olmadan aylarla saxlanılırdı. Bir adam yox, neçə adam. Buna qarşı Respublika Prokurorluğu heç bir tədbir görə bilmirdi. Mən on beş il Rusiyada olmuşam, mən ruslarla söhbətdə həmişə deyirdim, bizim millətdən qoçaq, qorxmaz yoxdur. İndi məni vahiməyə gətirən bu qorxaqlıqdır ki, haradandır bu qorxaqlıq? Bunu hamı bilirdi. Hamı, Azərbaycan bilirdi. Amma hamı qorxur, hamı istəyirdi, bu məsələni kimsə başqası açsın. Dünən bunu ağsaqqal, el ağsaqqalı açıb deyəndən sonra da burada cürət tapıb onun dediklərini təsdiq edən ikinci adam tapılmadı, budur məni bura gəlməyə vadar edən.

İkinci, burada, yəqin ki, çoxları özlərinə sual veriblər. Kimdir Ələddin Əsgərovu qətlə yetirən? Şuşanın keçmiş komendantı, Ələkbər Əsgərov, üzr istəyirəm, DİN-də işləyirdi sonra. Bu işdə şübhəli şəxs kimi Nail Kazımov saxlanılmışdı, tabor komandiri, Rəhim Qazıyevin sağ əli. Niyə bu işə axıra qədər çıxılmır? Mən Respublika Prokurorluğundan istəyirəm soruşam. Mənim, bəlkə, oradan getməyimin səbəblərindən biri də budur. Ona görə ki mən yox, orada mənim kimi uşaqlar çoxdur, biz maraqlanırdıq, soruşurduq, niyə açılmır bu işlər? Yılmaz müəllim Respublika Prokurorluğunun kollegiyasındadır, mən dəfələrlə çıxış eləyib bu barədə demişəm, xahiş eləmişəm rəhbərlikdən. Bütün Respublika Prokurorluğunun rəhbərlərinin, İlyas İsmayılovdan başqa, məndən xoşları gəlməyib, ona görə o, bir il mənim bura gəlməyim üçün Stavropol vilayətinin rəhbərləri ilə yazışma aparıb ki, mən bura gəlim. Bundan başqa, söhbətdə müstəntiq Xasıyev də olub. Mən indi hamıdan üzr istəyirəm,

elə şeylər var idi ki, əgər adi qayda olsa, onları açmaq lazım olmazdı. Bəlkə, etik normadan kənara çıxıram, ona görə ki bugünkü gün mən bunları deməyə bilmərəm. Məcid Xasıyev dəfələrlə söhbətdə mən xahiş edəndə ki, Məcid, sən qorxursan, mənə ver, mən çıxış edib o faktları deyim, deyirdi ki, mən yox, mənim ekspertimi Rəhimin adamları iki gün aparıb gizlətdilər, hədə-qorxu gəldilər, buraxandan sonra ekspert lal-kar oldu. Mən ona görə qorxuram. Bunu Məcid Xasıyev deyir, şahiddir, yəqin, eşidir. Respublika Prokurorluğunun mühüm işlər üzrə müstəntiqi.

İbrahim Tatıyev – prokurorun müavini bu işləri qəşəng bilir və o, müavin təyin olunanda cavan, təcrübəsiz olmasına baxmayaraq – mən bugünkü günə qədər də xəcalət çəkirəm – onu bir şərtlə müdafiə etmişdim ki, İbrahim Tatıyev, sən də bizim kimi sıravi işçisən, müavin olanda biz köməkləşib o işin axırına çıxmağa, yerinə yetirəcəyinə o, söz vermişdi, amma vəzifə tutan kimi qorxdu, o da qorxdu.

Burada hüquq-mühafizə orqanlarının işçiləri çıxış edəndə həmişə deyirlər ki, qanun var, qanuna görə olmaz. Bu gün Heydər müəllim, mən Sizdən üzr istəyirəm, Siz daxili işlər nazirinə irad tutanda, nə üçün silahlı vətəndaşları saxlayıb, sonra buraxmısınız, daxili işlər naziri də bunu qanunla izah etmək istədi. Ancaq qanunla elədir ki, silah tutulana bir ildən beş ilə qədər cəza verilir və onun haqqında həbs qətimkan tədbiri seçilməlidir. Qanunla belədir. Qanunla həbs qətimkan tədbiri seçilməlidir. Bizdə bu qədər hüquq-mühafizə orqanları var, biz niyə danışırıq. Bütün hüquq-mühafizə orqanlarında mənim kimi, məndən də artıq uşaqlar çoxdur, biz ancaq dərdimizi bir-birimizə açırıq, bir-birimizə deyirdik ki, bu niyə olmur.

Rəhim Qazıyevin o silahlı dəstələri heç kim üçün məxfi deyil, hamı bunu bilir və Rəhim Qazıyev kimi başqalarının da silahlı dəstələri var. Nə üçün bir dəfə hüquq-mühafizə orqanları maraqlanmırlar, bunlar kim tərəfindən maliyyələşdirilir? Hökumət tərəfindən icazə yoxdur. Bu nə cürdür? Mən nə cür cavab verim, mən prokuror kimi nə cür dövlət ittihamını müdafiə edərdim ki, bir dənə tapançanı, bəlkə də, özünü qorumaq üçün alana mən beş il cəza istəyirəm, tapançanı qanunsuz alıbsan. Bu qanun var, amma Rəhim Qazıyev ətrafında top-tüfəng gəzdirir, bir nəfər ondan soruşmur. Bu, dövlət deməkdir? Bu, dövlətsizlik deməkdir. Dövlət deyil.

Mən üzr istəyirəm, Heydər müəllim, Rəhim Qazıyev haqqında o cinayətləri saymaq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində

olan maddələrin yarısını ona aid eləmək olar, o qədər cinayət törədib. Nəhayət, onun törətdiyi ən ağır cinayət dünən zalda Sizi təhqir eləməsidir. O, tək Sizi təhqir eləmədi, o, Azərbaycan xalqını, Azərbaycan xalqının ümidini təhqir elədi, bundan başqa, hörmətli deputatlar, o sizi təhqir elədi. Buna nə cür dözürsünüz?

Mən siyasətə qarışmıram, qarışmaq istəmirəm. Mən ixtisasca hüquqşünasam və hüquqşünas olmaq istəyirəm. Amma mənim bura çıxmağıma, yenə deyirəm, uşaqlarla söhbətimdə deyilən ki, kimin imkanı olsa, çıxsın, bunu söyləsin, bu imkan indi mənim əlimə düşdü. 4 adamdan xahiş elədim, bura çıxıb mənə kömək eləsinlər ki, çıxış edib bu barədə deməyə. Mən bircə şeyi demək istəyirəm ki, əgər millət vəkilləri istəyirlərsə, üzərlərində olan bütün günahlarını yusunlar, bu gün Rəhim Qazıyevin bu zaldan çıxması millət vəkilləri üçün, şəxsən mənim üçün, azərbaycanlı üçün təhqir olacaq. Ona görə ki onun cinayətləri əsas verir, Respublika prokuroru təqdimatla müraciət eləsin və Milli Məclis onun deputat toxunulmazlığını üstündən götürsün, onun həbs edilməsi barəsində razılıq verilsin. Onun cinayət məsuliyyətinə cəlb edilməsi barədə razılıq verilsin. Halbuki həmin cinayət işləri, mən yenə deyirəm, tamamlanmış halda Respublika Prokurorluğunda kiflənir.

Mən üzr istəyirəm, həyəcanlıyam, bəlkə, daha çox deyiləsi sözlər var idi. Rəhim Qazıyevin özünə təşkil etdiyi o sui-qəsd. Bütün respublika bu barədə danışdı ki, orada neçə adam həlak oldu. Nə üçün bunu heç araşdıran yoxdur? Mən yenə deyirəm, siz mənə sual verə bilərsiniz ki, hüquq-mühafizə orqanının işçisisiniz, nə üçün etmirsiniz? Bizim imkanımız yoxdur, o mənim borcum da deyil. Ancaq bizim də imkanımız yox idi onu axıra çatdırmağa.

Mən üzr istəyirəm, Heydər müəllim, bəlkə, bir az əsəbi oldu.

**Sədrlik edən.** Buyurun.

Bir şəxs də mənə müraciət edib. “Ermənilərlə mübarizədə dəfələrlə 67-ci maddə ilə ittiham edilən, demokratik hərəkatda az-çox əməyi olan bir adam kimi, mənə söz verməyinizi xahiş edirəm. Xıdır Alovlu, Sumqayıt şəhəri”.

Məcburam söz verməyə. Buyurun.

**Xıdır Alovlu.** Hörmətli Heydər Əliyev, hörmətli Məclis iştirakçıları, Azərbaycan xalqı! Bura çıxıb danışmaq üçün haradasa bir mənəvi haqqın olmalıdır, ona görə, üzr istəyirəm, kiçik də olsa özüm haqqında məlumat vermək istəyirəm ki, biləsiniz, buradan bəzi sözləri deməyə

mənim mənəvi haqqım var. Hələ 1955–1956-cı illərdə – bir dəqiqəlik sizə informasiya verəcəyəm – Ermənistandan azərbaycanlıların çıxarılmasına qarşı gizli qəzet buraxdığıma görə həbs olunmuşam, öldürülmək təhlükəsi olub, qaçıb Azərbaycana gəlmişəm, Naxçıvanın Ermənistana verilməsinə qarşı uzun müddət mübarizə aparmışam, ona görə ittiham olunmuşam. Bəlkə, Heydər müəllim xatırlayır, 1969-cu ildə, mənə elə gəlir ki, bu, Azərbaycanda yaddaqalan hadisə olmalıdır, respublikanın tanınmış 11 nəfər yazıçısının Sumqayıtda keçirdiyi yığıncağında – burada sumqayıtlılar var – mən ermənilərin Azərbaycanı məhv eləmək planlarını o vaxt danışıb dedim, çünki o hadisə ilə mən tam bağlı idim, o vaxt mənim haqqımda ittihamnamə qaldırdılar, kiminsə xeyirxah əli o vaxt məni qorudu, saxladı.

Bu zalda Əli Hüseynov oturub, millət vəkilidir, bizim Sumqayıtdandır. 1983-cü ildə ermənilərin yeni planı haqqında Siyasi Büroya, Azərbaycanın Mərkəzi Komitəsinə məlumat verdim, Həsən Həsənov məşğul oldu və o məsələnin üstündən keçdilər. Əli müəllim burada oturub, görürəm, xatırlayar və bununla da o məsələni bağladılar. 1987-ci ildə Aqambekyanın Fransadakı çıxışından sonra Sovet İttifaqı KP MK Siyasi Bürosuna böyük həcmli məktub yazdım, ermənilərin Azərbaycanı məhv eləmək planlarını açdım, bu, əlyazma şəklində bütün respublikada yayıldı. Sonradan bunu Heydər müəllimin adına çıxdılar. Görünür, o informasiyalara görə – bəlkə də, Heydər müəllim özü də bunu bilir – 1988-ci ildə Sumqayıt hadisələri törəndi, Sumqayıt hadisələrini Azərbaycan dilini bilən, azərbaycanlı pasportu olan 400 nəfər erməni törətdi və o tribunada o ilk meydan hərəkatının başında Azərbaycanda mən dayanmışam və o hadisənin daha geniş miqyas almasının qarşısını bir az ala bilmişəm. O vaxt iki gündən sonra 67-ci maddə ilə məni ittiham elədilər. Tahir müəllim bilir, o hadisənin iştirakçısıdır, ermənilər mənim kabinetimə girdilər, arxiv sənədlərimi apardılar, ittifaq miqyasında 13 nəfər Moskvadan briqada gəldi, məni yoxladılar və uzun müddət məni ittiham altında saxladılar.

Demək istəyirəm ki, ömrüm bu yolda gedib, bu yolda çalışmışam və bu gün mənim də buradan söz deməyə haradasa bir mənəvi haqqım var. Rəhim Qazıyev haqqında danışmaq istəyirəm.

Rəhim Qazıyev Şuşaya yüz nəfər başında adam apardı ki, gedib Şuşanı qorusun. Orada bir nəfər çıxdı, nədənsə Rəhim Qazıyevi öldürmədi, bir 7-8 nəfər azərbaycanlını öldürdü. Kim idi bunlar? Hadisənin xronologiyası ilə az-çox məşğul olduğuma görə sizə deyim və bizim Təhlükə-

sizlik Nazirliyinin əməkdaşları bunu araşdırmalıdırlar. Yüz nəfərin kim olduğu müəyyənləşməlidir. Onların içərisində olanların 30 faizi Azərbaycan dilini bilən ermənilər idi. O yüz nəfərin siyahısını çıxarıb araşdırmaq lazımdır ki, onların ata-anası, o adamlar mövcuddurmu? Kimlər idi bunlar və Şuşanın verilməsi məsələsi. Hamımızın gözü qarşısında bu fakt oldu. Tankların, BMP-lərin benzini, yanacağı çıxarılıb yerinə su doldurulmuşdu. Məsul şəxs kimi Rəhim Qazıyev orada idi, azərbaycanlı özü öz BTR-nin içərisindən yanacağını çıxarıb pis vəziyyət yarada bilərdi? Nəyə görə bu vəziyyət yaranmışdı? Kim bunu törətmişdi? Sözsüz ki, bu faktların hamısı araşdırılmalıdır və Rəhimin birbaşa Şuşaya getməsi, nə məqsədlə getməsi bilavasitə Şuşanın təhvil verilməsi ilə bağlı olan məsələdir.

AXC-nin üzvü, fəal olan Ramizin burada adını çəkdilər, o biri, Ələkbər Əsgərovun öldürülməsində bilavasitə onun haradasa barmağı var. Şuşa verildi. Çox qəribədir ki, Qubadlıda Şahin Musayev tutulmuşdu, Qubadlını da vermək istəyirdi. Rəhim isə cidd-cəhdlə gedib oradan qurtartdı, gətirdi, aradan çıxartdırdı, Azərbaycandan çıxıb getdi. Şahin Musayevin şəxsiyyətini araşdırmaq lazımdır. Kimdir bu adam, nəçidir?

Millət səviyyəsində satqınlıq gedir. Xalqın taleyini belə aşağı səviyyəli adamlar qumara qoyublar? Başqa bir fakt deyim sizə. Niyə bunu biz yaddan çıxarırıq? Yaqub Məmmədov – Ali Sovetin sədri televiziyada çıxış elədi, dedi, Şuşanın verilməsindən mən məlumat ala bilmədim. Yevlaxa getdim, Ağdama getdim, Rəhimi tapa bilmirəm, Rəhimi respublikada tapa bilmədim, Gəncəyə getdim, tapa bilmədim, dedilər, Rəhim qaçıb, Moskvadadır. Rəhim iki gün gizləndi ki, ermənilər – məndən qabaq çıxış edən o oğlan o haqda düz dedi – Şuşada möhkəmlənsinlər. Harada idi bu müdafiə naziri, Şuşa kimi bir şəhər əldən gedib, onu Ali Sovetin sədri tapa bilmir, bunlar hamısı düşünülmüş, planlaşdırılmış oyunlardır ki, bu adamlar bu millətin başına gətirdilər.

Sonra Rəhim Qazıyevin rüşvətxorluğu haqqında. O institutda nələr var, mən lazım gəlsə, müəyyən məlumatlar verəcəyəm və vermişəm. Deyin, görüm, gərək ki, onun kadrlar üzrə müavini idi, onun kabinetindən, onun evindən 2 milyon dollara yaxın pul tapıldı. Məgər Rəhim Qazıyev görmürdü ki, onun müavini nə ilə məşğuldur? Əgər onun evindən 2 milyon dollar pul tapılıbsa, deməli, Rəhimdə ondan, bəlkə də, on dəfə çox, on beş dəfə çox pul toplanıb. Bunu xalq görür.

Bəzən burada elə məsələlər olur ki, açılmır. İnandırıram sizi. Mən bu saat xalqın bütün təbəqələrinin arasındayam. Xalq bunların hamısını tanıyır, kim olduqlarını dərindən bilir. Niyə onun haqqında cinayət işi qaldırılmadı? Niyə həmin o iki milyon dollar əlinə vəsait keçirən adam Rəhimlə bərabər ittiham kürsüsü qarşısında bu günə kimi dayanmayıb? Rəhim Qazıyevin ən böyük cinayəti ondan ibarət oldu ki, Valeh Bərşadlı kimi hərbi mütəxəssislərin burada başına oyun açdılar. Başına bir buxara papaq qoyub, televiziyada onu gördüm, deməli, sual verdilər ki, sizi orduya rəhbər qoymaq istəyirlər, müdafiə naziri, razısınızmı? Deyir, əgər xalqım mənə etimad göstərərsə, mən olaram. Hansı mənəvi haqqın var sənin müdafiə naziri olmağa? Sənin müdafiədən, hərbdən, heç olmasa, bir aşağı yefreytor dərəcəsində məlumatın yoxdur. Bundan böyük cinayət ola bilərdimi, bu xalqa qarşı törətdi?

Bizim ordu tamamilə bu gün darmadağın olub və bir şeyi də sizin nəzərinizə çatdırım. Milli təhlükəsizlik nazirindən çox xahiş edirəm, buna xüsusi fikir versinlər. Bu saat bizim orduda, deməli, erməni milliyyətinə mənsub olan azərbaycanlı pasportu ilə zabitlər var. Bizim orduda zabitlərin milliyyəti, mənşəyi qətiyyən yoxlanılmır və onlar bu gün bizim faciələrimizi törətməkdə günahkarlardır. Rəhim Qazıyevlə Arif Hacıyevin əlaqələrinə baxın. Şeyx Şamilə hamımızın hörməti var, Rəhim Qazıyev Arif Hacıyevlə əlaqə yaradıb Zaqatalada Şeyx Şamilə abidə qoydular, haçansa, ola bilsin, lazımdır. Kim gəlir bu abidənin açılışına, nə məqsədlə qoyulub bu abidə? Abidənin açılışına Cövhər Dudayev gəlir, Azərbaycanın bu boyda rəhbərlərindən, şəxsiyyətlərindən orada az adam iştirak edir və dəvət olunmur. Cövhər Dudayev gəlir və sonradan aydın olur ki, Arif Hacıyev Cövhər Dudayevin yanında, Çeçenistanda olub, Azərbaycanın qatı düşməni Zviyad Qamsaxurdiya ilə qol-boyun olub şəkil çəkdirib. Deməli, bunlar, bu oyunların hamısı, birbaşa Şeyx Şamilin abidəsinin qoyulması Azərbaycanın o bölgəsindəki rayonlarının birləşdirilib haradasa bir Dağıstan, nə bilim, nəsə yaradılması ideyasını ortaya atıblar.

Mən milli təhlükəsizlik nazirinə bir məlumat vermişəm, bilmirəm, onu burada demək olar, yoxsa yox. Hiss elədim ki, olmaz. Bizim bəzi məsələlər var ki, həqiqətən, lazımi yerə çatdırmaq lazımdır, çox təhlükəli oyunlar oynayıblar. Bunlar, sözsüz ki, haçansa açılacaq, orada mən öz sözümü deyəcəyəm.

Nəhayət, Surət haqqında. Surət xalqın qeyrətli oğludur, buna söhbət yoxdur. Amma çox təəssüf edirəm ki, bunlar, bu milli xainlər Surət kimi

bir oğulun haqqında bəzən şayiələr yayırlar, xalqda mənfi rəy yaratmağa çalışırlar. Hələ mən müəllim kimi, psixoloqam, o adamın sifətinə baxanda hiss edirəm ki, onun qanında, canında Azərbaycan qeyrəti axır və onu o yoldan çaşdıra bilməyəcəklər. Çox belə ciddi oyunlar oynayırlar ki, həm xalqın, həm də rəhbərliyin nəzərində nə isə bir ziddiyyət yarada bilsinlər.

Ayaz Mütəllibov bir dəfə zəng edir tanışlarından birinə ki, Rəhimə çatdırın, üçüncü varianta getməsinlər. Bu, Gəncə hadisələri ərəfəsində olur. Üçüncü variant nədir? Çox dərin tanışlıqdan sonra mənə aydın oldu ki, üçüncü variant Heydər Əliyevin heç bir vəchlə bura gəlməsinə yol verməməkdir. Talış-Muğan Respublikası, əlbəttə, oyuncaqdır və burada mən çox sevindim ki, oradan iki adam çıxıb arenaya, biri cani, cinayətkar Əlikram Hümbətov, o birisi talış xalqının, Həzi Aslanovun ənənələrini davam etdirən o qeyrətli Rzayev. Mən bütün o zonanın, o Əlikramın yanına, başına toplanan bizim xalqın nümayəndələrinə deyirəm. Siz o canidən aralanın, öz silahlarınızla, öz qeyrətinizlə Rzayevə qoşulun. İnandırıram ki, Azərbaycanın yeni bir Həzisi, yeni bir qəhrəmanı üzə çıxacaq və o zonada, ümumiyyətlə, Azərbaycan xalqının bu təhlükədən qurtarmasında böyük kömək göstərəcək.

Millət vəkilləri, mənim sizə müraciətim, sözüm var. 1990-cı ildə bu zaldan millət vəkilləri ailələrinin, uşaqlarının və vətənin, xalqın qabağına xəcalətlə çıxdılar. O vaxt burada Heydər Əliyev haqqında söhbətlərdə birinin cəsarəti çatmayıb, istəsələr də, cəsarətləri çatıb həqiqəti söyləmədilər. Bu gün siz buradan xəcalətli getməməlisiniz, siz bu gün ailənizin, uşaqlarınızın üstünə başıuca getməlisiniz. O vaxt mənə çox təsir elədi və həmin gecədən başlayaraq Əliyevə "erməni terrorizmi" adlı böyük yazı yazdım və qəzetlərin bir neçəsində o vaxt getdi. Həmin vaxt bu ağır günlərdə bu məsuliyyətimi bildirdim. Mənə elə gəlir ki, mən Dəmirçiyanın Heydər Əliyev haqqında sözlərini mətbuatda vermişəm, onlar bizi başa düşür, Heydər Əliyevin kimliyini onlar başa düşür və biz hələ dərk eləmirik, başa düşmürük, bizim xalqın nicatı bu gün, bax bu rəhbərlərin ətrafında toplanmaqdır. Sizdən yenə də xahiş edirəm, cani cəzasını almayınca, bu vətən, bu millət məhv olub gedib və bu gün caninin cəzasını burada verməyiniz vacibdir. Övladlarınızın, millətin, xalqın, seçicilərinizin qabağına qeyrətlə gedin, alnıaçıq gedin, vətən dar gündədir. Sağ olun.

**Sədrlik edən.** Məclis üzvü Xeyrulla Əliyev buyursun.

**Xeyrulla Əliyev.** Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən dünən çıxışa yazılmışdım, çox çıxışlar oldu, mənə növbə çatmadı, bu gün də gec deyil. Deyilənləri təkrar etməməyə çalışacağam.

Əlikram Hümbətovun hərəkəti vahid, beynəlmiləlçi bir xalqa arxadan zərbədir, xalqlar dostluğuna, xalqlar dostluğu amalına arxadan zərbədir. Milli azadlıq hərəkatının özünə böyük zərbədir. 1988-ci ildə hüquqi, demokratik dövlət, müstəqil, suveren Azərbaycan uğrunda şüarları ilə meydana çıxmış bir dəstənin indi avtomat dili ilə danışması, hər bir kəsin düşüncə tərzinin, onun sərbəst ifadəsinin meydana çıxmasına mane olmaq özü özünə xəyanətdir, xalqa böyük xəyanətdir.

Mən niyə deyirəm, vahid bir xalqa arxadan zərbədir. Xıdır Alovlunun çıxışında bir məqam oldu, o, Həzi Aslanov məsələsini yaxşı dedi. Biz heç vaxt fikirləşməmişdik ki, Həzi Aslanov cəbhədə talış xalqının nümayəndəsi kimi yüksəlib, o hətta əgər Azərbaycan başqa bir respublika olsaydı, yenə də belə şöhrət tapmazdı. O zaman Azərbaycan, Bakı müharibənin gözü idi, canı idi. Həzi Aslanov da onun şanlı nümayəndəsi idi. Həzi Aslanov haqqında hər cür narahatlığa, hər cür diqqətsizliyə elə, birinci növbədə, bütün Azərbaycan xalqı narahat olmuşdu. Həzi Aslanov haqqında yazılan "General" romanı ilə əlaqədar Azərbaycan tənqidçiləri ayırmadılar bu, talışdır, kimdir, nədir, yaxud sonra qarabağlı jurnalist Musa Bağırov illərdən bəri onun ikinci qəhrəman ulduzunun Azərbaycana gətirilməsi üçün böyük səylər, diqqətlər göstərib.

Bundan başqa, deyirik ki, beynəlmiləlçi xalqa böyük zərbədir. Mən də Cəlilabadda müəyyən qədər işlədim, yadıma salıram, orada statistik rəqəmlər sırasında, Heydər müəllim, deməli, partiya uçotunda bir nəfər osetin var, göstərilib, ləzgi var, göstərilib, udin var, göstərilib, ukraynalı var, belarus var və sair. Amma bir nəfər talış göstərilməyib. Bu o deməkdir ki, biz heç bir milləti, heç bir etnik qrupu assimilyasiya eləmirik, kim varsa, adı ilə tanınır, amma biz axı dırnaqla ət kimi birləşmiş bir xalqıq, heç vaxt aramızdan su keçməmiş bir xalqıq.

İndi bunu deyirəm ki, bu, tamamilə qeyri-qanuni qurumdur, qeyri-qanuni bir hərəkatdır. Digər tərəfdən, Dilruba xanım o gün çox yaxşı bir söz dedi, mən elə hesab eləyirəm ki, ora getmiş ziyalılarımızın da günahıdır, çünki gördüyünüz kimi, ayın 13-də danışarkən bu və ya digər şəkildə hərlədib fırlayırlar, deyirlər, axı sosial-iqtisadi problemlər də var, bu qədər şəhid olub, onu göstərmirlər, qəzetlər də yazmırlar. Mən baxdım, məndə bir çox qəzet var, Əhməd müəllim bütün qəzetləri

oxumayıb, baxıram ki, Masallıdan da, Lerikdən də, Lənkərandan da nə qədər şəhid var, onlar haqqında yazılar var. Əgər sən dəqiq bilmirsənsə, bunu niyə deyirsən ki, yazıb işıqlandırmırlar, yaxud Lənkəranı su basır, bu, problemdir, bəs Lənkəranı su basıb, Bakının bağlarını su basmır, bu, problemdir bəyəm? Ümumiyyətlə, sosial-iqtisadi problem nisbi bir söhbətdir, bu heç də heç kəsin tələbatının təmin olunmayacağı bir problemdir. Həyat inkişaf eləyir, insan siyasi, iqtisadi qanunlara müvafiq olaraq istehsal münasibətlərinin ən çevik bir qüvvəsi kimi daim inkişaf etməkdədir, onun tələbatı daim inkişaf etməkdədir. Yeni-yeni tələblər çıxarıblar ortalığa. Digər konkret təklif, əlbəttə, bunu mən deyirəm ki, qeyri-qanuni bir hərəkatdır, bu, qeyri-qanuni bir hərəkat kimi qiymətləndirilməlidir.

Sonra Rəhim Qazıyev məsələsi. Bizim də qohumlar, tanışlar var, Şuşada əlaqələrimiz də olub, soruşmuşuq, deyiblər ki, a kişi, ayın 11-də gedib oradan şey-şüyünü, pulunu götürüb qayıdan var, Şuşa boşdur, əgər bizimkilər dərhal ora qayıtsaydılar Şuşanı götürə bilərdilər. Bu saat da götürə bilərlər, mən Rəhimə deyirəm ki, Rəhim müəllim, belə deyirlər axı, yox, deyir, iki ay buna dəyib-dolaşmaq lazım deyil, bu, olan sözdür. Sonra Laçın məsələsində mən Xanlar müəllimdən soruşuram ki – burada Xanlar Məmmədov dedi ki, Laçın əldən gedəcək, belə eləmək olmaz axı – Laçın pis vəziyyətdədir. Xanlar Məmmədov təhqir olundu – əgər yalan deyirəmsə, buradadır, oturub, etiraf eləsin – otur, yalan deyirsən, xəbərin yoxdur, o dedi, mən xalqımın içindəyəm, necə mənim xəbərim yoxdur.

Bunlardan başqa, yaxşı oldu ki, bu söhbətlər heç o zaman gündəliyə salınmadı, gəlib bu günə çıxdı. Heydər müəllim, çox yaxşı oldu ki, bu vəziyyətdə bir çox məsələlərin üstünə aydınlıq gətirildi. Düzü, mən də pərt olurdum, nə isə Surətin də qəribəlikləri var, Surət də, hamı gözləyir, bu da istəyir ki, Ayaz gəlsin. Məsələ bundadır ki, doğrudan da, axı biz Əbülfəz Elçibəyin özünün hərəkətini axıra çatdıra bilməmişik, bəlkə, özü qayıdıb gəldi bura, özünün vicdanı əzab çəkdi, ya istefa verirəm, ya da qayıdıb gəlirəm yerimə. Onu heç kim buradan qovmayıb axı.

Amma məni bu düşündürür ki, Mütəllibov da bu ağıldadırsa istəməz, xalqı qırğına aparırsa, deməli, onun nazı ilə oynayan bir xalq bu mübarizəni, bu oyunları o vaxtacan davam elətdirməlidir ki, o qayıtsın, gəlsin, mən təəccüb eləyirəm, çünki hər halda, Mütəllibov ondan ağıllı adamdır axı. “Hər halda” deyirəm, çünki bu başa düşmür ki, deməli, heç kimin ömrünün bir günü ikinci dəfə yaşanmır, o isə bu ömrü iki dəfə

yaşayıb, nəticəsini görüb. Əgər istəyirsə ikinci, üçüncü dəfə yaşasın, çox təəssüf edirəm, çünki o zaman biz onun buradan sağ-salamat çıxmağını arzuladıq, onun başına bir iş gələ bilər və çıxışlarımın birində burada demişəm, dövlət kənardan idarə oluna bilməz və o dövlətin rəhbərləri ki kənarda bəslənilib, kənarda yetişdirilib gətirilib, o dövlət idarə olunmaz. Babrək Kamralın, Nəcibullanın taleyi gözümüzün qabağındadır, bundan nəticə çıxarmalıyıq.

Digər tərəfdən, bir təklifim də var, onu da demək istəyirəm, Heydər müəllim, gündə bir partiya peyda olur, bu sözə görə çox üzr istəyirəm. Bilirsiniz, partiya yaratmaqla partiyanın hesabına liderləşmək, qəhrəmanlaşmaq olmaz, qəhrəmanı yaradan da, yaşadan da xalqdır, əgər qəhrəman hansı dəstənin hesabına, hansı partiyanın hesabına süni surətdə meydana gəlirsə, o, qəhrəman deyil. O qəhrəmanlar hamısı özü haqqında yüksək fikirlərə düşür. 60 milyonluq Türkiyədə cəmi 60 qəzet çıxdığı halda, bizdə, 7 milyonluq respublikada az qala 600-dən artıq qəzet qeydiyyatdan keçib, hər bir qəzetdə hər bir redaktor, hər bir partiya yeni bir tezis irəli sürür, özünü millətin ağıllısı hesab eləyir, təəssüf ki, heç bir kəs də öz ağlından şikayət eləmir. Belə bir yerdə cəmiyyəti idarə eləmək, camaatın əl-ayağını yığmaq mümkün olmur. Mən təklif edərdim ki, müharibə getdiyi, ölkəmizdə vahid nizam-intizam yaratmalı olduğumuz bir zamanda demirəm, qanun qəbul eləyək, amma hər halda, siyasi partiyaların, ictimai-siyasi hərəkatların rəhbərlərinə üz tutub demək istəyirəm ki, bir vətəndaş məsuliyyəti dərk eləsinlər, bu müddətdə, heç olmasa, o partiyaların fəaliyyəti dondurulsun. Bizdə yaradılan səfirliklərə bina axtardığımız halda, siyasi partiyalar yaxşı-yaxşı binalarda yerləşdirilir, ictimai hərəkatlar yerləşdirilir, bəlkə, bunu da nəzərə almaqla, həmin partiyaların fəaliyyəti müəyyən müddət dondurulsun, bir çox qəzetin fəaliyyəti dondurulsun. Belə, bu qədər. Sağ olun.

**Sədrlik edən.** Xeyrulla müəllim, bilirəm, ziyalı adamsınız, çoxdandır Sizi tanıyıram, amma burada hər dəfə deyirik ki, münasibət bildirilməlidir və münasibət də konkret bildirilməlidir. Mən heç kəsin çıxışına irad tutmaq istəmirəm, hər biri çıxışının sahibidir. Ancaq burada indi Xıdır Alovlu çıxış elədi o nə millət vəkilidir, nə Məclisin üzvüdür və burada gəlib həyəcanlı çıxış elədi və Məclis üzvlərinə müraciət elədi ki, cəsarətli olun. Mən başqa şey demək istəmirəm.

Söz Sultan Məmmədova verilir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Yox da, bir belə təkrar etmək, bir belə hekayə söyləmək, ədəbiyyatçısınız, yazın kitablarınızı, romanlarınızı yazın. Başa düşürsünüzmü, mən Sizi çoxdan tanıyıram, axı bir belə hekayə söyləmək, içində də bir dənə rasional bir şey görmədim. Dünən Hacıbaba müəllimə belə bir irad tutdum, sonra gəlib mənim yanıma narazılıq elədi. Ola bilər, hamı narazı olsun, amma mən həqiqəti deyən adamam, həqiqəti üzünə deyən adamam, Sizin də üzünüzə deyirəm, Kamran Rəhimov da Sizin yanınızda oturmuşdur, dünən fırladı, fırladı, bir dənə konkret söz demədi, onu da mən çoxdan tanıyıram.

Sultan Məmmədov buyursun.

**Sultan Məmmədov.** Hörmətli sədr, hörmətli millət vəkilləri. Son bir həftə ərzində Lənkəranda gedən separatçılıq hərəkatının açıqlanması, dörd gün bundan qabaq Ali Sovetdə keçirilən müşavirə, dünənki, bugünkü müzakirə və mətbuatda gedən yazılardan aydın olur ki, Lənkəranda separatçılıq hərəkatının bir məqsədi var, o da respublikada hakimiyyət iddiasıdır. Dünənki "Azərbaycan" qəzetində müdafiə nazirinin verdiyi məlumata görə ermənilər Tovuzdan Cəbrayıla qədər bütün cəbhə boyunca hücuma keçiblər, 12, 16 kəndi işğal ediblər, adamlar qırılır, kəndlər yandırılır, şəhərlər dağıdılır. Belə bir vaxtda Azərbaycan dağıdılır, Azərbaycanda hakimiyyət davası eləmək, mən hesab eləyirəm ki, bu, xalqa xəyanətdir. Lənkəranda gedən separatçılıq hərəkatının başqa heç bir əsası yoxdur.

Mən belə hesab edirəm ki, biz vəziyyətdən çıxmaq üçün fövqəladə, sərt tədbirlər görməliyik. Fövqəladə vəziyyət rejimi sabitliyin təmin edilməsini təmin etmir, mən belə hesab edirəm ki, biz hərbi vəziyyət elan etməliyik, bütün qüvvələr müharibə məqsədinə yönəldilməlidir və bütün tədbirlər, bütün hərəkatlar hərbi vəziyyətin tələbi səviyyəsində qiymətləndirilməlidir.

O ki qaldı Rəhim Qazıyevin dünənki hərəkətinə, mən də belə hesab edirəm ki, bu, Azərbaycan xalqı üçün təhqirdir və məndən qabaq çıxış edən deputatların təklifini müdafiə edirəm, onun Milli Məclisin üzvlüyündə qalıb-qalmaması məsələsinin səsə qoyulmasını təklif edirəm. Mən belə hesab edirəm ki, biz uzun-uzadı müzakirələrə son qoymalıyıq, konkret qərar var, o qərarın ətrafında müzakirə aparmalıyıq və vəziyyətdən çıxmaq, bütün bu cinayət fəaliyyətinə son qoymaq üçün müvafiq qərar qəbul etməliyik. Sağ olun.

**Sədrlik edən.** Tabloda görürsünüz, siyahı böyükdür, ancaq mən hiss eləyirəm, yəqin, siz də hiss eləyirsiniz, təkrarlar çoxdur, məsələlər,

demək olar ki, aydındır. Ona görə əgər etiraz etmirsinizsə, Məclis üzvü Hicran Kərimli xahiş eləyir, ona söz verək. Sonra bizim Məclis üzvü ağsaqqal Tofiq Bağırov söz istəyir. Surət Hüseynov mənə demişdi ki, danışmaq istəyir, söz verək. Surət Hüseynov, hökumət üzvləridir istəyirlərsə, danışsınlar. Mən Ali Sovetin sədri kimi dünəndən bu günə qədər danışıram, müavinlər istəyirlər danışsınlar, etirazım yoxdur və bununla da tamamlayaq.

Yenə də rica edirəm, bilirsiniz, məsələnin təsvirindən keçin, bu təsvir olunubdur, bəziləri hekayə danışırlar, bunlar lazım deyil. Məsələ bundan ibarətdir ki, bu rayonlarda, cənub rayonlarında gedən proses, Əlikram Hümbətovun qeyri-qanuni hərəkətləri, Əlikram Hümbətovu istiqamətləndirən və mənim fikrimcə, millət vəkillərinin çoxu da buna razı oldular ki, Rəhim Qazıyev və onun kimi adamlardır. Bunlara olan münasibət, qiymət qurtarıb getdi. Yoxsa hər bir çıxış edən yenə də bunu təsvir edəcək, nə bilim, hekayə söyləyəcək, vaxt gedir axı, ümumiyyətlə, bunun məzmunu artıq məlumdur.

Hicran Kərimli buyursun.

**Hicran Kərimli.** Hörmətli millət vəkilləri, siz, yəqin, fikir verdinizsə, mən bir Məclis üzvü kimi bu məsələnin müzakirəsinə dair çıxışa yazılmadım, mən bir həftə bundan əvvəl sədrə məktub göndərmişəm, xahiş eləmişəm ki, mənə Milli Məclis başlayanda xüsusi bir çıxış versinlər, mən burada 10-12 dəqiqəlik çıxış eləyim. Sizdən çox xahiş eləyirəm, ola bilsin, mənim çıxışımın əksər hissəsi bu məsələyə aid olmasın, ancaq xahiş edirəm, ürəyinizdə olan bütün qərəzli fikirləri, əgər varsa və digər məsələləri kənara qoyun və nəzərə alın ki, mən 1990-cı il parlamentinin ən gənc üzvüyəm. Üzvlərindən biri deyiləm, bu Milli Məclisin ən gənc üzvüyəm, çoxlarınız da məni, necə deyim, səmimi adam kimi tanıyırsınız, bəlkə də, çoxunuz tanımırsınız. Ümumiyyətlə, mən həmişə respublikada tanınmaqdan ehtiyat eləmişəm, bütün qəzetlərə müsahibə verməkdən imtina eləmişəm. Axırda müxbirlərdən biri yazdı ki, Hicran Kərimli, sən Allah məndən əl çəkin, yəni mən, ümumiyyətlə, çəkinərəm, bir siyasi məşhur, siyasi xadim olmaq, bunlar mənim xarakterimə uyğun deyil, hiss eləyirsiniz, danışığımda da siyasətçi kimi danışmıram, sərt də, düz də olsa, ürəyimdən gələn sözləri danışıram.

Mən iki ay burada olmamışam, yəni sonuncu dəfə sədrin seçilməsindən sonra mən Milli Məclisin iclasında iştirak eləməmişəm. Yenə deyirəm, çoxunuz, bəlkə də, mənim bu hərəkətimi nə cür qiymətləndirirsiniz

deyə bilmərəm və təbii ki, burada mənim dediyim sözlər mənim şəxsi fikirlərimdir. Çox təəssüf eləyirəm, burada danışanların əksəriyyəti öz fikirlərini xalqa yeganə həqiqət kimi qələmə verirlər, ancaq mən xahiş edirəm ki, məni düzgün başa düşün...

**Yerdən.** *(Eşidilmir.)*

**Hicran Kərimli.** Yox, mətləbə keçməyəcəyəm, mən sizdən dönə-dönə xahiş elədim ki, bundan ötrü çıxış almışam, çox xahiş eləyirəm, məni dinləyin və sizin hamınız əzbər bilirsiniz, mənim nifrət etdiyim, zəhləm gedən, xoşum gəlməyən adam yoxdur, yəni mən hamının xətrini istəyirəm. Hərdən elə olur, mənim də emosiyalarım, mən də çılğınam, ola bilər, mən, ümumiyyətlə, xalq hərəkatına təsadüfən qoşulmuşam, heç bir siyasətlə məşğul olmamışam, qoşulandan sonra hərəkatda iştirakıma peşman deyiləm. Lakin qoşulandan bir müddət sonra fikir verdim ki, bu siyasət deyilən şey çox murdar şeydir, lakin elə məsələdir, ondan artıq kənara çıxmaq olmaz. Təxminən Azərbaycan Xalq Cəbhəsi, demək olar ki, hakimiyyətə keçəndən sonra mən siyasətlə məşğul olmuram. Yəqin, siz də bilirsiniz, burada biz hakimiyyətdə olduğumuz dövrdə, baxmayaraq ki mən hakimiyyətdə olmamışam, heç kəsin dalınca danışmamışam.

**Sədrlik edən.** Hicran, müqəddimə qurtardı, keç mövzuya.

**Hicran Kərimli.** Mövzu bundan ibarətdir ki, sual oluna bilər, mən nə üçün bir neçə müddətdir bu Məclisdə iştirak eləmirəm. Əvvəla, onu deyim, mənə hakimiyyətin dəyişməsi çox maraqlı deyil, o mənada ki, bu gün Xalq Cəbhəsi olsun, digər qurumdan olsun, mənim üçün maraqlı deyil, mənə burada insanların münasibəti maraqlıdır. Mən bir müddət Milli Məclisin işində iştirak eləyə bilmədim, siz məni necə başa düşürsünüz, başa düşün, mən o 75 nəfər məsələsinin əleyhinə səs verənlərdən biri idim, mən, ümumiyyətlə, Milli Məclisin buraxılmasının tərəfdarıyam, hesab eləyirəm, Milli Məclis artıq tarixi rolunu oynayır, pis, yaxşı, buna gələcək qiymət verəcəkdir. Mən, ümumiyyətlə, belə şeyləri çəkə bilmirəm ki, məsələn, vaxtı ilə 360 nəfərlik parlamentin dövründə, sədrə qarşı çox təhqiramiz olan dövrdə o bədbəxt 25 nəfər ona qarşı dayanmışdır, mən ona çox təəssüf eləyirəm. Mən indiki sədrimizin bir xahişini yuxarı mərtəbələrə çatdıra bilmədim, polislər məni tutdular, atdılar eşiyə. Mən özüm də millət vəkili idim və belə bir vəziyyətdə indi tarix elə dönüb, indi belə çıxır ki, həmin o sədrə qarşı təhqiramiz hücum eləyənlər indi guya sədri bizim hücumumuzdan qoruyurlar. Yəni

bu məsələlərin, insanların, hadisələrin birdən-birə belə dəyişilməsini mən çəkə bilmirəm.

1982-ci ildə "Semaşko" xəstəxanasında məni ölümdən xilas eləyən bir adam bu gün məndən bir kəlmə soruşmadan gecə-gündüz mənim əleyhimə döşəyir, məni Bakının küçələrində harada görürsə – hüquq-mühafizə işçisidir, adını vermək istəmirəm, çünki söz vermişəm, mən burada qərəzli çıxış eləməyəcəyəm, baxmayaraq bu iki ay müddətində Məclisin iclaslarına kənardan baxırdım – ürəyimdən keçdi, durum, gedim, hamını söyüm. Hərdən bir ürəyimdən keçir, gedim Məclisə, axırıncı dəfə danışım, mandatımı qoyum, gəlim. Lakin son olaraq çıxardığım nəticə bu oldu ki, respublikada vəziyyət son dərəcə ağır olduğu üçün bütün qərəzli, bütün məkrli məsələləri kənara qoymaq lazımdır, kimin nəyə gücü çatırsa, bu dövlətin qurulmasına öz töhfəsini verməlidir. Məni harada görürsə qucaqlayıb öpən, mənə Azərbaycanın ən qeyrətli oğlu deyən adam bu gün hakimiyyət dəyişəndən sonra qəzetdə mənim əleyhimə müsahibə verir, yaxud məni görəndə salamımı almaqdan ehtiyat eləyirlər, dünən mənimlə qol-boyun olanlar bu gün mənim zəngimə cavab verməkdən ehtiyat eləyirlər, yaxud da digər məsələlər.

Sədr də bilir, mən uzun müddət Bakıda fəaliyyətimin 90-95 faizini ancaq seçildiyim əraziyə, yəni blokadada olan Ordubada – o cümlədən Naxçıvan Muxtar Respublikası blokadadadır – vəziyyət ağır olduğuna görə, demək olar ki, bütün gücümü rayonumuza sərf eləmişdim. Keçən dəfə sədr cənub zonasını ona görə dedi ki, Naxçıvanla Lənkəran, yaxud başqası mübahisə edilməzdir, dedi, amma kəskin demədi. Naxçıvanda camaatın acından ölməməsi, yaxud qışda şaxtadan donmaması üçün dedi, yəni belə bir ağır vəziyyətdə idi, mən bütün gücümü, bütün enerjimi, deməli, seçildiyim ərazinin təminat məsələlərinə sərf eləmişdim. Amma burada elə bir nazir, nazir müavini yoxdur ki, mən onlardan rayon üçün müəyyən şeylər xahiş eləməyim. Çox qəribədir ki, Ayaz Mütəllibovun dövründə məni hava limanında tutdular, təhqiramiz şəkildə hava limanının təcridxanasına saldılar. Məni o ki var təhqir elədilər və orada mənə dedilər ki, sən Heydər Əliyevə silah aparırsan, o gəlsin, Mütəllibovu devirsin. Təbii ki, o adamın adını da mən bilirəm, kapitandır, heç vaxt da fikirləşməmişəm, onun haqqında pis fikirdə olum.

Xalq Cəbhəsi hakimiyyətdə olanda harada polislər görürdülər ki, mən bu işlə məşğulam, yaxud yolda, hava limanında saxlayıb yoxlayırdılar, deyirdilər, hər rayonun sənin kimi qeyrətli oğlu olsa, bizim millət udar. İndi isə o işlə məşğul olan adamlar vardı, gecə-gündüzümüzü o

rayonun təchizatına sərf eləmişdik, indi o adamları təqib eləyirlər, onlardan pul çəkirlər, deyirlər ki, siz cəbhə üçün, Heydər Əliyevi devirmək üçün pul yığmısınız, silah almısınız. Yəni bu bir il, il yarım ərzində bu məsələlərin belə dəyişilməsi, bu adamların belə münasibətləri məni çox ağrıdır.

Düzünü deyim, mən siyasətə nifrət edirəm, ancaq bir məsələni sizə çatdırım ki, Milli Məclisin tərkibində Xalq Cəbhəsinin çox az, yəni bir neçə üzvü qalıb. Siz bunu nə cür istəyirsiniz qəbul eləyin, Azərbaycan xalqına qarşı cəbhə deyin, silahlı cəbhə deyin, mən Azərbaycan Xalq Cəbhəsinin üzvüyəm, onunla da fəxr eləyirəm, hesab eləyirəm ki, bu hərəkat düzdür. Hər bir hakimiyyətdə olan adamın səhvi də, günahı da olar, bəziləri desə xəyanətdir, mən deyərəm ki, yeganə, düzgün yoldur, yəni bu məsələlərə kim qiymət verə bilər, burada hamı danışır, hər kəs öz dediyini tarix kimi qələmə verir. Ancaq mən deyirəm ki, bunlar mənim fikirlərimdir, hansı məsələni istəyirsiniz, istəyirsiniz AMİP partiyası, istəyirsiniz Xalq Cəbhəsi haqqında soruşun, əgər mənim o partiyaya rəğbətim varsa, mən bütün məsələlərini, bütün hərəkətlərini deyəcəm, müsbətdir. İstəyirsiniz arqumentlər axtarın, əgər bir adam istəmirsə, deyəcək ki, Xalq Cəbhəsi yaranan gün Azərbaycan xalqına qarşı xəyanət eləyibdir, bu gün də xəyanət eləyir. Yəni mən yenə deyirəm, mənim əzizlərim, bunlar fərdi fikirlərdir.

Məni ağrıdan məsələ budur ki, ola bilsin, gecikmişəm, mən bu çıxışı 10 gün bundan qabaq hazırlamışdım, dünənə qədər hələ heç kəs bilmirdi ki, respublikada vəziyyət qarışacaq, qarşıdurma olacaqdır, nə olacaqdır. Mən şəxsən bu gün, baxmayaraq ki Gəncə hadisələrini qəbul eləmirəm, bu məsələni qeyri-qanuni hesab eləyirəm, hesab eləyirəm ki, burada bir neçə qeyri-qanuni məsələ baş veribdir.

**Yerdən.** *(Eşidilmir.)*

**Hicran Kərimli.** Darıxmayın, siz kifayət qədər danışmısınız, mən bu cür mövzuda axırıncı dəfədir danışıram, nə olar, siz də bizi dinləyin. Elə bilin, mən təhqiramiz, qəbahətli şəkildə çıxış eləmirdim, lakin buna baxmayaraq mən bu gün millətin elə səviyyəsini hiss eləyirəm ki, necə gəliblər, qeyri-qanuni dəxli yoxdur, əgər bu gün hakimiyyətdə olan qüvvələr, kimliyindən asılı olmayaraq, bir-birləri ilə dil tapıb, yola gedib, işləyib bu milləti, bu dövləti müstəqil bir yola çıxara bilərlərsə, mən bunu ancaq alqışlayıram, ömrüm boyu da kənara çəkilərəm.

Mən necə deyim, ən zəif, ən gənc adam kimi, Azərbaycanın yaxın gələcəyini həddindən artıq qaranlıq görürəm və bu yolda heç bir çıxış yolu

görmürəm. Mən hesab eləyirəm, Azərbaycan Xalq Cəbhəsinin üzvüyəm və Azərbaycan Xalq Cəbhəsinə müraciət edirəm ki, heç bir kütləvi tədbir, aksiya keçirmək lazım deyil. Ona görə ki bu gün hakimiyyətdə o qədər didişmə var, o qədər qarşıdurma var, əgər biz bu faciədən çıxa bilsək, hesab eləyirəm, o Azərbaycan Xalq Cəbhəsinin də, AMİP-in də, YAP-ın da, hamısının qələbəsi olar. Mən buna çox böyük şübhə ilə yanaşıram.

Mən istəyirəm, ziyalılarımıza belə bir sualla müraciət eləyim, hörmətli ziyalılar, siyasi xadimlər, din xadimləri, niyə Azərbaycan müstəqil dövlət ola bilmir, mən dünən nə qədər ata-babalarımızı, ağsaqqallarımızı qınayırdım, niyə bizə müstəqil dövlət qoyub getməyiblər, niyə bizi belə cəncələ salıblar, niyə bizi qarşı-qarşıya qoyublar. Çox təəssüf eləyirəm ki, bu gün, ola bilsin, mən bir az bədbin danışıram, bu onların günahı deyil, niyə bu millətin müstəqil dövləti yoxdur, niyə bu millət parçalanıbdır, niyə dünyada gedən müharibələrin əksəriyyəti müsəlman ölkələrində gedir? Ey din xadimləri, siz Qurana bir də baxın, biz din haqqında nəyi isə bilmirik axı, bu niyə müsəlman ölkələrinin əksəriyyətində gedir, niyə bizim millət heç vaxt müstəqil yaşaya bilmir, niyə müstəqil dövlət olmağa yaxınlaşanda biz bir-birimizi didməyə başlayırıq? Bizə bəzən deyirlər, ola bilsin, içimizdə var, siz sevinirsiniz ki, Ağdam getsin, Ağdərə getsin, mən sizə nə cür istəyirsiniz deyim.

Telman Kazımov dünən Zəngilandan, həm o tərəfdən danışdı, ancaq hiss olundu ki, o, çox səmimi danışır, yəni onun heç bir siyasi məşğuliyyəti yox idi, öz ürəyindən keçənləri dedi. Siz məni düzgün başa düşün, mən Allahdan arzu eləyirəm ki, üzr istəyirəm, ailəni saxlamaq şərti ilə, yəni özgə bir dövlətin köməyi ilə, yəni qəbul olunmamış formada köməyi ilə yox, əgər bu iqtidar Qarabağ məsələsini həll eləyərsə, mən iqtisadi problemləri demirəm, o, müharibədən sonra tədricən düzələcəkdir, mən bütün Xalq Cəbhəsinin üzvlərinə müraciət eləyirəm, biz çəkilib gedərik ailəmizi saxlamağa, təki bu məsələ həll olunsun. Kim olursa olsun, bu məsələni Azərbaycan xalqına məxsus həll eləsin.

İndi bu gün hamımız xalqın adından danışa bilərik, deyirsiniz, referendum istəyirsiniz, gəlin keçirək, əgər mən bu gün hakimiyyətdəyəmsə, camaatdan nə cür cavab istəyirsiniz aldıraq, verdirək, yəni bu gün biz çox şeyə hazır deyilik, seçkidən danışırıq. Milli Məclisin buraxılmasının tərəfdarıyam, bu hadisələrdən sonra, yəni Mütəllibovu devirdik, Elçibəyi devirdik, Milli Məclis, bir vaxt gələcəkdir Heydər Əliyevi də devirəcəklər. Yəni Allah eləsin ki, belə olmasın, yəni bu hökumət sabit qalsın. Ən çox arzuladığım odur, yenə də deyirəm, bu formada gəlişi qəbul

eləmirəm, sədrdən söhbət getmir, sədr Milli Məclisdə seçilibdir. Ancaq yenə deyirəm, əgər bu gün bu hakimiyyətlə Azərbaycan üçün nə isə eləmək mümkündürsə, biz bütün imkanlarımızla razıyıq ki, belə olsun. Ancaq sizdən çox xahiş edirəm, mən bu çıxışı eləməməli idim, bu çıxışı ağsaqqallar eləməli idi, mən sədrdən xahiş eləyirəm, əvvəla, müzakirə olunan məsələyə dair bir irad tutmaq istəyirəm, yenə deyirəm, heç kəsi təhqir, tənqid etmək, ümumiyyətlə, adını çəkmək istəmirəm, ancaq bu gün Rəhim Qazıyevin məsələsi ciddi surətdə müzakirə olunur, bu mənim ürəyimi ağrıdır. Ona görə yox ki, Rəhim Qazıyev, yaxud da kim olur-olsun, bu burada danışanların xidməti deyil, bu, sədrin xidmətidir, Sədrdən başqa birinci o adamlar heç kəsin adını çəkmədilər, onlar dünənə qədər onunla öpüşürdülər, qucaqlaşırdılar. Bir dəfə emosiyalarım üstün gəldi, mən Rəhim bəylə mübahisə elədim, orada müxbirlər gəldilər ki, mən deyim, Rəhimlə düşmənəm, onunla döyüşmək istəyirəm. Dedim, olub, mən əsəbiyəm, cavanam, olar, səhv eləmişəm, müxbirlər onu televiziyada vermədilər, əgər mən desəm ki, Rəhim bəyi mən asaram, kəsərəm, Rəhim bəy belə alçaq adamdır, mütləq onu televiziyada verəcəkdilər. Niyə bu millət belədir, ancaq mən o cavabı vermədim.

İndi mən nə demək istəyirəm. Bəli, burada nazirlər danışdı. Sədrdən qabaq da danışanlar olub, Rəhim bəyin adını heç kəs çəkməyə cürət eləmədi. İndi mən sizdən üzr istəyirəm, Rəhim bəyin bu tərzdə müzakirəsi, yəni belə məsələnin açıqlanması sədr tərəfdən başlandı, ancaq mən fikir verirdim, sədr, ola bilsin, konkret faktlara əsasən danışırdı, o faktlar haqqında öz fikrini bildirəcəkdir. Biz o faktlar ətrafında fikirləşirik ki, Rəhim bəy nəyi səhv eləyib, nəyi düz eləyib, amma burada mən durum, deyim ki, Şuşanı da, Laçını da, Xocalını da, Ağdamı da Rəhim bəy verib, axı mən bunu necə deyim, mən Rəhim bəy haqqında heç bir fakt bilmirəm, onun xəyanəti barəsində mən indi ancaq öz mülahizəmi deyə bilərəm. Ancaq sədr, yaxud burada danışan hüquq-mühafizə orqanlarının işçiləri, bəziləri faktlarla dedilər.

Mən sizdən üzr istəyirəm, çox xahiş eləyirəm, mənim ağsaqqallara sözüm var. Burada bir neçə ağsaqqal danışıb, bayaq biri danışdı, axı, əzizlərim, siz bizə deməlisiniz, bu təhqirlərə yol verməyin, millət onsuz da dağılır, məsələn, əgər alicənab bir adam bir ailəyə girir, görürsə ki, pis söz danışırlar, ikinci, üçüncü gün də belə olursa, axı gərək əvvəldən Milli Məclisdə bu təhqirlərə biz yol verməyəydik. Biz o təhqirlərə yol verdiyimizə görə sədr də təhqir olunacaq, siz də təhqir olunacaqsınız, biz də təhqir olunacağıq, kim olur-olsun bunlara yol vermək olmaz.

Mütəllibovun haqqında danışılmır, Mütəllibov zəif siyasətçidir, hesab edirik ki, bir də hakimiyyətə qayıtması mümkün hal deyil və sair. Məsələn, baxmayaraq, necə deyim, Xalq Cəbhəsinin xətti Arif Rəhimzadəninki ilə uyğun gəlmir, ancaq Arif Rəhimzadənin bir şeyinə mən əhsən deyirəm ki, o, bütün Milli Məclis dövründə həmişə İsa Qəmbərin əleyhinə danışıbdır, öz sözlərini deyibdir. Ona əhsən, halal olsun deyirəm. Ancaq çox təəssüf eləyirəm ki, məni düzgün başa düşün, səmimi olduğuma görə burada hakimiyyətdə olanların əksəriyyəti, ya olmayanlar mənə öz sözlərini səmimi deyirdilər, o adamlar mənim qolumdan tutub çəkirdilər kənara. Elçibəy haqqında, İsa Qəmbər haqqında, bu ən çox Milli Məclisin üzvlərinə aiddir, deyirəm, İsa Qəmbərovun vaxtında deyirdilər ki, müvəffəqiyyətli kadr varsa, o da İsa Qəmbərdir. Buna qədər demokratik bir adam gəlməyib, mən fikir verdim, gördüm, o adamlar İsa Qəmbərin əleyhinə idilər, onlar Milli Məclisdə çox da danışmadılar. Amma o adamlar ki məni çəkib qırağa demişdilər, bu, alicənab, peyğəmbər adamdır – onlar da bir-bir söz alır, mənə burada neçə adam deyib, Hicran bəy, Elçibəy peyğəmbər adamdır, onun ətrafında bir neçə adam var, bunu qorumaq lazımdır, buna bərabər Azərbaycan xalqı yer üzündə adam yetirməyibdir – indi o adamlar mən axı bütün nazirlərin çıxışlarına baxırdım, izləyirdim, dözə bilmirdim, o adamlar söz alırdılar, Elçibəyi təhqir edirdilər. Belə olmaz, bu gün Elçibəyin haqqında qəbul olunan qərarlar bütün xəyanət kimi qələmə verilir, bu gün yeganə, düzgün yol bu iqtidarın qərarları verilir, sabah Etibar Məmmədov, kim olur-olsun, hakimiyyətə gələcək, çünki bu, ənənə şəklini alıb. Millətin psixologiyasına hakim olur ki, sabah o birisi partiya gələcək, bunların hər ikisi xəyanətkar olubdur, köhnə iqtidar belə elədi, təzə iqtidar elə elədi.

Burada deyirik ki, Talış-Muğan Respublikası köhnə iqtidarın yeritdiyi, nə bilim, siyasətin nəticəsidir, Vəzirovla Mütəllibov da deyirdi, Heydər Əliyev problemi bir səhv siyasətin nəticəsi idi. Yəni bu, çox ağrılı bir meyildir və mən çox təəssüf eləyirəm ki, bu gün bu meyil əvvəl Məclisə hopur, yəni Məclis başlayır bir-birini təhqir eləməyə, bir-birini söyməyə, sonra bu Məclisdən bütün Azərbaycan xalqına hopur. Sabah avtobusda 15 yaşlı bir uşaq 70, 80 yaşlı bir qocaya ən nalayiq sözlər deyəcəkdir, axı buna siz yol verməməlisiniz, "köhnə iqtidar", "təzə iqtidar" sözlərini birdəfəlik yığışdırmaq lazımdır.

İndi nə olub, nə olmayıb, dəxli yoxdur, pislər köhnəyə, yaxşılar təzəyə yazılır. 822 nömrəli, 853 nömrəli qətnaməni demək istəyirəm, biz

hamımız arzu eləyirik, sabah Təhlükəsizlik Şurası belə bir qərar qəbul eləsin ki, 24 saat ərzində Ermənistanın bütün qüvvələri Dağlıq Qarabağdan çıxmalıdır, 24 saat ərzində gəlib onu icra eləyəcəkdir. Biz hamımız istəyirik ki, bu olsun, ancaq bunun üçün biz yol keçməliyik, əvvəl 822-ci qətnamə yarandı, sonra 853 nömrəli qətnamə, sonra qoşun yeridilməsi haqqında. Yəni, bəlkə, mən nəyi isə səhv deyirəm, yəni bunu niyə axı köhnə iqtidarın ayağına yazırlar...

**Sədrlik edən.** Hicran, mən sənin cavanlığını da, burada çox az çıxış etdiyini də nəzərə alıram, ancaq yığcamlaşdır və konkretləşdir. Sən konkret söz de, öz fikirlərini dedin, hissiyyatlarını dedin, planlarını dedin, bunları biz anladıq, indi bir-iki dəqiqəyə konkret sözünü de. Buyur.

**Hicran Kərimli.** Çalışaram. Mən, demək olar, fikrimi, əsasən, sizə çatdırdım. Bu məsələdə mən yaxın gələcək üçün ya çıxış yolu görmürəm, ya da belə hesab edirəm, Etibar bəyin dediyi tam o variant yox, ona oxşar bir variant, yəni bu gün deyirik ki, MDB-yə girmək xəyanətdir, məsələn, sabah başqa bir iqtidar gəlib dedi, girmək lazımdır. Yəni bunu bu gün həll eləmək lazımdır ki, birdəfəlik Azərbaycan xalqı bilsin, bizim dilimiz nə cür yazılmalıdır, MDB olmalıdır, olmamalıdır, yəni bunu hamı qəbul eləməlidir, yoxsa bu gün gələcəyəm, deyəcəyəm, bu, xəyanətdir, sabah bu gəlib deyəcək, bu, xəyanətdir. Ona görə də mən çox ağrıyıram, əzab çəkirəm, dözə bilmirəm belə şeylərə, bu insanların bu cür dəyişilməsinə. Bu gün lap dedi ki, hamı qorxur, ancaq Rəhim Qazıyevlə Əlikramdan başqa ad çəkmədilər, İbrahim bəydən başqa. Mən buna ağrıyıram, heyifsilənirəm ki, millət niyə bu vəziyyətdədir. Sabah Heydər Əliyev oradan bir nəfərin adını çəksə, onun ətrafında müzakirə başlayacaq. Axı niyə biz beləyik, ona görə də mən bu məsələlərlə əlaqədar sizə, bütün Azərbaycan xalqına müraciət edirəm, hesab edirəm ki, bu gün bizim ən ağır dövrümüzdür, bugünkü şəraitdə bizə düşmən lazım deyil.

Bir də xahiş edirəm, Xocalını filankəs satdı, Laçını filankəs, çox xahiş edirəm, bu söhbətləri dayandırın. Heç kim heç yeri satmayıb. Biz bu gün müharibədə rus hərb maşınının və yaxud Rusiyada müəyyən təbəqələrin, deyək, hərbi kompleksin arxasında durduğu Ermənistan qüvvələrinə məğlub oluruq, axı siz elə deyirsiniz, guya Ermənistan heç günahkar deyil, yəni bunun heç günahı yoxdur, bizim torpaqları işğal edir. Axı biz müharibəni uduzuruq, ona görə uduzuruq ki, bütün millət parçalanıb, psixologiya düşgünlüyü əmələ gəlib, millət vuruşmaq istəmir, bunun qarşısını almaq bugünkü dövlət rəhbərlərinin, kim olursa olsun, Elçibəy olsun, Mütəllibov olsun, Heydər Əliyev olsun, bunun qarşısını

almaq üçün dövləti səfərbər edib ordunu yaratmaq, strukturları bərpa eləmək, mexanizmi qurmaq, işlətmək lazımdır. Bu gün gəlin bütün ağsaqqallardan, hamıdan xahiş edirəm, bu gün sədrə xoş gəlmək üçün Elçibəy haqqında, Mütəllibov haqqında nə cür iyrənc sözlər deyirsiniz, tapıb demək olar, lazım deyil bu söhbətlər, köhnə, təzə.

Mən hesab edirəm ki, keçən əksər qərarlar düz oldu. Səhv də ola bilər, səhv var da, bunu böyük bir faciə kimi, sədrə, indiki iqtidara xoş gəlmək üçün eləmək lazım deyil, kişi kimi, mərdi-mərdanə demək lazımdır. Yol göstərmək lazımdır.

Mənim çıxışım bundan ibarətdir. Mənim onu deməkdə məqsədim o idi ki, niyə burada iştirak etmirəm, əzab çəkirəm, ağrıyıram. İndi hiss edirəm ki, millət həddindən artıq ağır vəziyyətdədir, ona görə də heç bir partiyanı təmsil eləmədən bu çıxışı elədim, siz mənim də mövqeyimi biləsiniz. Vəziyyət çox ağırdır, heç kim heç nə eləməsə də, bu hakimiyyətdə möhkəm didişmə var. Mən Azərbaycanda siyasi mübarizə görmürəm, mən Azərbaycanda siyasi çəkişmə, didişmə, hakimiyyət yox, vəzifə davası görürəm və məni bunlar cavan adam kimi incidir, ağrıdır. Mən Azərbaycan xalqının gələcəyini, heç olmasa, yaxın gələcəyini böyük fəlakətli görürəm, ona görə də parlamentin ən gənc üzvü kimi sizin hamınıza müraciət edirəm, sizin hamınızdan xahiş edirəm, gəlin bütün umu-küsüləri, köhnə, təzə, ondan əvvəlki, ondan sonrakını kənara qoyaq. Azərbaycan dövlətindən danışaq.

Bu gün Talış-Muğan Respublikası faktdır, mən o vaxt da deyirdim. Deyirdim, fakt budur ki, Heydər Əliyevin dövründə o vaxt Qarabağ problemi olmayıb, bu kişi həll edib o vaxt, indi bu çıxıb bizim qarşımıza, hansı iqtidarsa onu həll eləməlidir, dəxli yoxdur, bu kimin dövründə olacaq. Axı Rusiyanın bütün etnik torpaqlarında bu gün hər yer qaynayır, Gürcüstan da qaynayır, Rusiya da qaynayır, Dağıstan, Çeçenistan, hamısında vəziyyət pisdir. Axı bunu dünənki iqtidarın ayağına yazmaq sabah bunun ayağına yazmaq deməkdir. Ona görə də lazım deyil. Bu gün bu fakt var, İbrahim bəy dünən çox düzgün qeyd elədi, cəsarətli addım atmaq lazımdır, ancaq mən sizdən çox xahiş edirəm, adamlar haqqında danışanda bir az ehtiyatlı olmaq lazımdır. Mən yenə deyirəm, mən burada əksər adamlar var ki, ən nifrətamiz söz də, ən yaxşı söz də deyə bilərəm. Mənim mülahizələrim var.

**Sədrlik edən.** Hicran, təkrara keçirsən, təkrar edirsən.

**Hicran Kərimli.** Ona görə hesab edirəm ki, mən öz sözlərimi sizə dedim, buna görə məni necə istəyirsiniz qəbul edin. Mən tam səmimi

dedim, sizin hamınızdan da xahiş edirəm ki, gələcək çıxışlarımızı nəzərə alaq. Azərbaycan xalqının gələcəyi, bu dövlətimizin qurulması naminə hamımızın köməyimiz nədir, onu əsirgəməyək. Təhqirlərə, təqiblərə son qoyaq. Mənim sözüm bu qədər. Sağ olun.

**Sədrlik edən.** Mən çıxış edən şəxslərdən bir də rica edirəm, burada bir-birinə nəsihət vermək, dərs vermək vaxtı deyil, biz konkret məsələ müzakirə edirik. Gəlin qısa, bax, burada o qədər kağızlar gəlib mənə, indi gəlin qısa, bir-iki dəqiqə münasibət bildirilsin, təklif verilsin, bununla da qurtarsın.

Mən indi məcburam, burada Lerik rayonunun icra başçısı məndən çox təkidlə xahiş edir ki, ona söz verim. Çünki Lerik rayonudur, bəli, orada, əsasən, talışlar yaşayırlar. İcra başçısıdır, mən ona söz verməliyəm, ancaq xahiş edirəm, çox qısa, konkret.

**Asiman Quliyev,** ***Lerik rayon İcra Hakimiyyətinin başçısı.*** Hörmətli sədr, hörmətli millət vəkilləri! Mən Lerik Rayon İcra Hakimiyyətinin başçısıyam, adım Asimandır, soyadım Quliyevdir. Bir il bundan qabaq iyulun 15-də Lerik rayon İcra Hakimiyyətinin başçısı təyin olunmuşam, ona qədər İqtisadiyyat İnstitutunda siyasət kafedrasının müəllimi idim, iqtisad elmləri namizədiyəm. Sizin nəzərinizə çatdırmaq...

**Sədrlik edən.** Nə vaxt təyin olunmusunuz, bağışlayın?

**Asiman Quliyev.** İyulun 15-də, keçən il.

**Sədrlik edən.** Kim sizi təyin edib?

**Asiman Quliyev.** Əbülfəz Elçibəy.

**Sədrlik edən.** Bəs Əlikram...

**Asiman Quliyev.** Buyurun.

**Sədrlik edən.** İyulun 12-də?

**Asiman Quliyev.** İyulun 15-də. Keçən il.

**Sədrlik edən.** Keçən il, bağışlayın, elə bildim, bu il deyirsiniz. Buyurun.

**Asiman Quliyev.** Deməli, Əlikram Hümbətovun nəzarət etdiyi rayonlardan ərazini ən axırıncı mən tərk eləmişəm, iyulun 21-də rayonda bu və ya digər problemlər üzə çıxırdı. Problemlər haqqında danışmağın indi yeri deyil. Əsas indi yaranmış vəziyyətə görə özümün şəxsən iki dəfə Hümbətovla söhbətim olub. Birinci dəfə söhbətim olanda məndə belə təəssürat yarandı ki, bu, Azərbaycanda indiki gedən prosesin, deməli, milli-etnik dövründə olan prosesin davamıdır və bunu siyasi

mübarizə kimi qəbul edirdim. Hətta o vaxt rayonun ağsaqqallarını və idarə müdirlərini yanıma dəvət edib onlara dedim, lazımdırsa, mən çıxıb gedim və siz öz nümayəndənizi təyin edin. Onlar yığışıb gəldilər, dedilər ki, bizim vahid namizədimiz yoxdur, namizədlik üstündə mübahisə düşə bilər, ona görə sənin qalmağın hələ məsləhətdir. Bu cür şəraitdə vəziyyət get-gedə gərginləşdi. Gərginləşməyin səbəbi ondan ibarət oldu ki, deməli, əvvəllər iqtisadi azadlıq istəyən, muxtariyyətə, muxtariyyətdən respublikaya, respublikadan dövlətçiliyə doğru meyil getdi. Mən sadalamaq istəyirəm, bəzi burada çıxış edənlər, Heydər müəllimin özü də tez-tez müraciət edir, burada bəzi adamların adları çəkilmir, bəzi adamların, deməli, fəaliyyətləri qiymətləndirilmir, hamı ümumi danışır. Mənə elə gəlir ki, əgər Bakıda siyasi qüvvələri tənzim edən adamlar bu prosesə əl qatmasaydılar, bu gün biz Hümbətovu bu cərgədə görməzdik.

Deməli, Hümbətovun prosesi yarananda artıq müəyyən qrupların bunlara qarşı marağı yarandı. Heydər müəllim, bu qrupun adı fevral ayında formalaşmışdı, "cənub" qrupu və bu qrup, deməli, deputatlardan ibarətdir və "cənub" deputat qrupu bunu dəstəkləməyə başladı və tədricən bu proses bu dərəcədə formalaşdı. Mənə elə gəlir ki, yerli əhali – mən yerli əhali ilə söhbət eləmişəm, özləri gəlirdilər – onların heç birinin marağı yoxdur ki, bu cür bir respublika yaransın. Çünki bu cür respublikanın yaranması əhaliyə sərf eləmir, o bölgənin, əhalinin böyük bir qismi Bakıda, Sumqayıtda, digər sənaye mərkəzlərində yaşayırlar və onlar hamısı maraqlıdırlar ki, deməli, Azərbaycan vahid dövlət kimi qalsın.

Ən axırıncı dəfə Cəngəvuran kəndinin əhalisi gəlmişdi və onlar dedilər, bizim kənddə 180 ev var, axşam hesablamışıq, deməli, bizim Bakıda 210 evimiz var, biz istəmirik, Azərbaycan dövlətindən ayrılaq və biz bu prosesə getməyəcəyik. Digər tərəfdən, burada sadalanır ki, güclü ordu vardır, ordu güclü ola bilər, onun güclü silahları da ola bilər, lakin bir şeyi nəzərə çatdırım, ordunun tərkibində xidmət edən əsgərlərin böyük əksəriyyəti Azərbaycanın müxtəlif ərazilərindəndir, orada, deməli, Sumqayıtdan, Xaçmazdan, Əli-Bayramlıdan, Bakının özündən və sair rayonlardan əsgərlər vardır. Lerikə göndərilmiş on iki əsgərin arasında müxtəlif rayonlardan vardır ki, mən də o rayonların birində anadan olmuşam, mən ona dedim, sən mənə güllə atarsan? Mən ona dedim, mən lerikli deyiləm, mənim atam leriklidir, amma başqa yerdə anadan olmuşam. Mənə dedi ki, yox, atmaram. Camaatı elə maraqlandırırlar.

Camaatı maraqlandırırlar ki, siz müharibəyə getməyəcəksiniz. Deməli, bu qurumun ətrafında toplanan siyasi qüvvələr o qüvvələrdirlər ki, onlar qorxaqdırlar, dövləti müdafiə eləmək istəmirlər, bunlar Azərbaycan dövlətini qorumayıblarsa, bu yaratdıqları Talış-Muğan Respublikasını da silahla qorumayacaqlar. Bu istiqamətə də fikir vermək lazımdır.

Digər tərəfdən, mən Bakıda olan müddətdə öyrəndim ki, Talış-Muğan Respublikasının Ali Soveti çağırılıb və Talış-Muğan Respublikasının Ali Sovetinə fəlsəfə elmləri namizədi Abbasov adlı birini sədr seçiblər. Bu adamı mən tanıyıram, deməli, uzun müddət siyasətlə məşğul olub, yəni mən bu son bir-iki ili nəzərdə tuturam və onun aprel-may aylarında milli münasibətlərə, digər bu cür problemlərə aid silsilə məqalələri çıxıb. İndi görünür ki, yazdığı nəzəriyyəni praktikaya çevirmək fikrindədir. Fəxrəddin Abbasov həmişə mənə deyərdi ki, mən Həsən Şirəliyevə atamdan çox hörmət edirəm. Deyirəm, niyə? Deyir ki, atam əgər mənə orta təhsil veribsə, o məni alim edib, amma bu gün Abbasov gedib Azərbaycan dövlətinin ən çətin dövründə, deməli, ermənilərin tuta bilmədiyi qədər bir ərazini Azərbaycandan ayırır.

Bu gün mən burada oturub baxıram, millət vəkillərini görürəm, mənim yerlim Əsgər Məmmədovu görürəm, Cəfər Quliyev, Ataxan Şiriyev burada olmalı idi, indi özünü Hümbətov tərəfindən icra başçısı təyin elətdirib, bunlar gedib Lerikdə oturmalı idilər. Mən inanıram ki, Hümbətov siyasi meydana iki-üç ildir gəlib, bu adamları o xalq illərlə yetişdirib və onlar orada olsalar, heç kim imkan verməz, onların ləyaqətinə toxunsunlar, onlara ağır söz deyilsin.

Mən adi elmlər namizədiyəm, millət vəkiliyəm, heç vaxt vəzifəm olmayıb, mən orada gördüm, xalq məni necə qoruyur, axırda özüm ona görə gəldim ki, qan tökülməsin. Ona görə mən təklif edirəm, Heydər müəllim, burada biz deputatları söhbətə çəkməyək, o zonanın deputatları var, onları öz kəndlərinə göndərmək lazımdır və onlar öz məqsədlərini qoy əyani şəkildə göstərsinlər. Burada bir söz deyib, başqa yerdə başqa söz deyib və sair işlərlə məşğul olmasınlar. Bu qədər.

**Sədrlik edən.** Natiq mənim yadıma bir şey saldı. Cəfər Quliyev bizim xalq deputatıdır və Cəfər Quliyevi mən çoxdan tanıyıram. Vaxtilə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində işləyəndə Cəfər Quliyevi biz inzibati şöbəyə təlimatçı götürdük və onun sonrakı bütün inkişafı bizim nəzarətimiz və himayəmiz altında keçib, o vaxtlar onu o işə götürəndə heç vaxt mən anketə baxmırdım ki, bu, talışdır,

ya azərbaycanlıdır, filandır. Sonra mən ikinci dəfə Azərbaycana qayıdıb bu salona gələndə gördüm ki, o artıq prokurorun müavinidir, general rütbəsində bir formada gəzir, professordur, elmlər doktorudur. Yəqin, burada olmalıdır.

Əgər buradadırsa, öz sözünü desin. Burada deyilsə, canlı yayım gedir, özünü bura çatdırsın, çünki yenə də deyirəm, təxminən 1973–1974-cü illərdə biz onu Mərkəzi Komitəyə götürmüşük, bəsləmişik, böyütmüşük, şərait yaratmışıq ona, böyük vəzifələr alıb, özü də o zonada, mən bilirəm ki, hörmətli bir adamdır, öz sözünü deməlidir.

**Yerdən.** Məzuniyyətdədir.

**Sədrlik edən.** Qəsdən məzuniyyətə gedib, başa düşdüm. Aydındır, aydındır. Ona görə mən hər şeyi açıq deyirəm, qoy xalq da bilsin, bu adam, bizim çıxış edən yoldaşımız Əsgər Məmmədovun adını çəkdi. Baş nazirin müavinidir, ogünkü müşavirədə, ayın 13-də onun çıxışını heç kəs başa düşə bilmədi, heç kəs. Mən istədim, bir-iki-üç nəfər belə dilçi çağıram ki, sonra bunun bu çıxışını bir təhlil eləsinlər, bunun mənasını mənə desinlər, ancaq bir şey çıxmadı. Dedilər, biz bir nəsə deyə bilmərik, ona görə mən istərdim, Əsgər Məmmədov hazırlaşsın, elə danışsın ki, başa düşə bilək və öz sözünü desin. Fərqi yoxdur, hansı mövqedən çıxış edəcək, nə deyəcək, fərqi yoxdur, amma bu gün Məclis və xalq Əsgər Məmmədovun Baş nazirin müavini və o tərəfdən olan adam kimi sözünü dəqiq eşitməlidir.

Mən bizim müşavirədən sonra, ayın 13-də Baş nazirin birinci müavini Vahid Əhmədov...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bir dəqiqə, Əsgər, tələsmə, bir balaca imkan ver.

Vahid Əhmədovla danışdıq, telefon zəngi eləmişdi mənə, mən ona dedim, bilirsən, Vahid, sənin çıxışını mən anlamadım, ancaq bir şeyi anladım ki, sən həm nala, həm də mıxa vurursan və dedim, nala-mıxa vurmaq vaxtı keçib. Mən bilirəm ki, Vahid Əhmədov Ayaz Mütəllibovun vaxtında da Baş nazirin birinci müavini idi və Ayaz Mütəllibov onu Baş nazir eləmək istəyirdi, Əbülfəz Elçibəyin vaxtında da birinci müavin idi və Əbülfəz Elçibəyin sevimli adamlarından biri idi. Əgər elə olmasaydı, Müdafiə Şurasının üzvü olmazdı. İndi də birinci müavindir, biz də ona hörmət edirik, ancaq bilirsiniz, indi elə məqam gəlib çatıb ki, hərə gərək desin, hansı dinə, məzhəbə qulluq edir, xalqa, dövlətə, dövlətin bütövlüyünə, yaxud burada başqa Məclis üzvlərinin çıxışı da buna bənzəyir,

onlar elə 20-30 ildir böyük işdədirlər, bir 3-4 il də bu salonda otururlar, o tərəfə də vurublar, bu tərəfə də, ona görə də həmişə də oturublar.

Ona görə mən rica edirəm, Vahid Əhmədov da bir balaca fikirləşsin və konkret bu barədə öz sözünü desin. Çünki mən sonra Vahid Əhmədova tapşırdım, Əlikram orada gedib televiziya ötürücü stansiyasını tutmağa, mən ona telefon elədim, tapşırdım, sonra axşam saat 5-də biz iclasa toplaşmışdıq, ondan mən bir cavab ala bilmədim, mən belə dedim, elə dedim, filan elədim. Baş nazirin birinci müavini bir xırda məsələni həll edə bilmirsə, nəyə lazımdır belə Baş nazirin birinci müavini? Ya işləmək lazımdır, ya mövqe tutmaq lazımdır, ya da əgər bacarmırsan, bu mövqelərlə razı deyilsən, xudahafiz. Ona görə Vahid Əhmədov da öz sözünü deməlidir. İndi başqaları da fikirləşsin, özləri üçün nəticə çıxarsınlar, bəlkə, mən adlarını deməmiş elə özləri deyəcəklər.

Buyur, Əsgər.

**Əsgər Məmmədov.** Əvvəla, burada mən o gün də Heydər müəllimə konkret fikrimi bildirmişdim, indi də bildirirəm. Heç kəs siyasi məqsədlər üçün heç bir torpaqdan istifadə eləməsin, buna heç kəsin haqqı yoxdur. Azərbaycan torpağını, xalqını parçalamağa heç kimin ixtiyarı da yoxdur, haqqı da yoxdur, o kim olursa olsun və kimin əlində olursa olsun, o cümlədən Əlikram Hümbətovun özünün də. Heç kəsin haqqı yoxdur və bu gün bu torpağı parçalayan adamların məqsədlərini burada müzakirə edən, ondan siyasi xal qoparmaq istəyən adamların da haqqı yoxdur. Yəni hətta bu günün özündə də bu bədbəxt bir problemin üstündə durub ondan oyun çıxarmağa və bu bədbəxt problemin üstündə oturub onun üstündə özünə xal qazanmağa heç kəsin haqqı yoxdur.

Bu gün biz hamımız vəziyyətin qurbanlarıyıq, biz bu gün özümüz özümüzə yaratdığımız vəziyyətin əsiriyik, onun qulu kimi dayanmışıq. Biz bu gün öz zəifliyimizin üzündən asan görünən, yaxınlaşdıqca mürəkkəb mahiyyəti bilinən siyasi ambisiya əlində qalmışıq, yazıq adamlara çevrilmişik. Biz bu gün üzbəüz dayanmışıq, biz bu gün bir-birimizi didib, parçalayıb öldürürük. Biz bu gün özümüz, mənəviyyatımız, mədəniyyətimiz, tariximiz nədən ibarətik, görsənir. Biz kimik? Bax biz buyuq. Belə olanda Əlikram Hümbətov da yaranacaqdır, başqası da yaranacaqdır, Rəhim də yaranacaqdır, Hüseyn də yaranacaqdır, Əli də yaranacaqdır, belə artacaqdır. Burada hamı günahkardır, bu zalda günahı olmayan adam yoxdur. Bütün zal günahkardır, bütün xalq günahkardır, biz özümüz öz içimizdə bu odu yaratmışıq, biz hamımız günahkarıq.

Bu gün məni də bura çıxarmaqla, kim deyə bilər ki, hər hansı bir insan öz torpağını parçalasın və razıdır. O, əclaflıqdır, onu eləyən adam özü də əclafdır. Bunun başqa, ikinci adı ola bilməz, amma bir var, düşmən kimi danışasan, bir də var ki, bu vəziyyətdən ikiüzlülük kimi istifadə eləyəsən. Bu...

**Yerdən.** *(Eşidilmir.)*

**Əsgər Məmmədov.** Mən xahiş edirəm, heç kəs cənub regionunu – mən onu region adlandırıram, çünki o söz özü də belə olsa yaxşı olar – bu siyasi oyuna qatmasın, burada bu, yoxdur, niyə demirsiniz, bu, yoxdur, bunu siz görmürsünüz?

Talış-Muğan Respublikası, vilayəti, nə bilim, nəyi, bu söhbət ola bilməz, bu, yoxdur. Siz niyə hər şeyi bilə-bilə onu təkrar etməyə sövq elətdirirsiniz? Mən o gün də aydın danışdım, dedim ki, məsələnin məğzini, kökünü axtarmaq lazımdır, bax bu gün həmin kökdür, çıxıb meydana. Kök bundan ibarətdir.

Heydər müəllim, mən sözlərimi o gün də aydın demişdim, indi də aydın deyirəm. Mən bütövlükdə, belə hesab edirəm ki, təkcə Talış-Muğan Respublikası probleminin özünü yox, bununla bağlı bütün məsələlərə son qoymaq lazımdır, nəyin bahasına olursa olsun son qoymaq lazımdır. Mənim fikrim belədir. Məclis yolunu göstərsin.

**Sədrlik edən.** Aydın oldu hər şey? Yaxşı.

Şuşanın icra başçısı Nizami Bəhmənov, mən bu şəxsə söz verməliyəm, çünki bu, bir icra başçısı deyil, eyni zamanda Dağlıq Qarabağ üzrə Azərbaycan icmasının nümayəndəsi kimi bizim bu Minsk konfransı, ATƏM çərçivəsində olan danışıqlarda iştirak edir. Bu günlər Romada idi, indi qayıdıb gəlib. O məsələ haqqında yox, bax bu müzakirə olunan məsələ haqqında, xahiş edirəm, fikriniz varsa, buyurun.

**Nizami Bəhmənov, *Şuşa rayon İcra Hakimiyyətinin başçısı.*** Hörmətli sədr, hörmətli deputatlar! Hərçənd burada əyləşən bəzi deputatlara hörmətli deputat demək də günahdır, çünki mən bunlara...

**Yerdən.** *(Eşidilmir.)*

**Nizami Bəhmənov.** Xahiş edirəm, diqqətlə qulaq asın, təhqir sizə aid deyil, bu haqda da mən deyəcəyəm, ünvanla deyəcəyəm hamısını. Bəli, ünvanla.

**Yerdən.** *(Eşidilmir.)*

**Nizami Bəhmənov.** Bir dəqiqə, imkan verin də. Təhqir olmayacaq. Ünvanla, faktla deyəcəm. Oldu.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sakit olun, axı niyə narahat olursunuz? Bağışlayın. Bəli?

**Yerdən.** *(Eşidilmir.)*

**Nizami Bəhmənov.** Oturanlara yox. Bəzi deputatlara hörmətli deputat demək olmaz.

**Sədrlik edən.** Bağışlayın, bir dəqiqə. Sakit olun. Siz də sakit olun. Bu salonda belə deputatlar tərəfindən o qədər tərbiyəsiz sözlər danışılıb ki, niyə heç həyəcanlanmamısınız? Dünən Rəhim Qazıyev burada xuliqanlıq elədi, niyə ondan sonra çıxan Məclis üzvləri onun haqqında bir söz demədilər? İndi nə oldu ki, bu yazıq Şuşa kimi yerin əzabını çəkmiş adam burada bir kəlməni belə dedi, niyə onun üstünə düşürsünüz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mənim qışqırmağa haqqım var.

**Nizami Bəhmənov.** Deməli, mən sizə konkret faktlarla müraciət etmək istəyirəm. Xahiş edirəm, konkret faktlara diqqətlə qulaq asın.

Əvvəlcə, Heydər Əliyev yoldaşa bütün əhalimiz adından minnətdarlığımızı bildiririk, həmin yoldaşların adlarını bu dəqiqə çəkəcəyəm, iç üzlərini açdıqca xalq onların iç üzünü görür. Nə qədər ki onlar bu məsələlərdə buradakı vəziyyəti gərginləşdirirlər, bu kişinin böyüklüyünü bir daha xalqa sübut edirlər. Həmin deputatlara da minnətdarıq ki, yoldaş Əliyevin böyüklüyünü bir daha xalqın gözünün qarşısında sübut edirlər və Heydər Əliyev yoldaşa da minnətdarıq ki, həmin adamların iç üzünü açıb burada göstərir.

Mən Şuşadan konkret faktlarla başlayacağam, kimin sözü olar, sonra deyər, adlarını da çəkəcəyəm, çünki mən bunu vaxtında da, televiziyada çıxışımda da demişəm, prokurorluqda istintaq gedir, istintaqa da yazıb vermişəm. Respublikanın keçmiş Baş prokuroru İxtiyar Şirinovun vaxtında da demişəm və həmin lent də yazılıb. Tamerlan müəllim burada əyləşib, Tamerlan müəllimin yanında görüşdə Vəfa Quluzadə, Tofiq Qasımov, maliyyə naziri olub, o çıxışımda da demişəm və ona görə, xahiş edirəm, tələsməyin adı yoxdur.

Rəhim Qazıyev haqqında dünəndən burada söhbət gedir. Rəhim Qazıyev, bilirsiniz ki, ilk dəfə Şuşaya gəlib və "Milli Qəhrəman" adını Şuşada qazanıb, üstündə səkkiz nəfər adam ölüb, sui-qəsd nəticəsində və guya onu öldürmək istəyən adam, səhv etmirəmsə, onun öz həmkarı

Nail Kazımov tərəfindən öldürülüb. O adamların valideynlərindən onların ağır dərdini yadlarına saldığım üçün bir də üzr istəyirəm. Allah orada ölən günahsız adamlara qəni-qəni rəhmət eləsin.

Şuşanın taborlarının strukturu haqqında iki kəlmə deyəcəyəm. Şuşada könüllülər taboru olub, iki tabor, Ramiz Qəmbərovun, Fəxrəddin Səfərovun, bütün respublikanın rayonlarından həmin taborlarda vuruşan uşaqlar olub, çox qeyrətli də uşaqlar olub, ölənlərin əksəriyyəti də onlar olub. Bir də təkrar edirəm, Ramiz Qəmbərov özü də rəhmətə gedib, Milli Qəhrəmanımızdır və Fəxrəddin Səfərov. Yerdə qalan taborlar Şuşaya hazır vəziyyətdə gəlib, könüllü vəziyyətdə gəlməyib. 4 tabor, adını çəkim və keçmiş iqtidarı dəstəkləyən deputatlardan indi sizə məlum oldu, Tofiq Qasımov, Sizdən, İbrahim İbrahimovdan, Təhsil Nazirliyində işləyən deputatdan xahiş edirəm, sözlərimə diqqətlə qulaq asın, 700 min qaçqın yaratmısınız səhv siyasətin nəticəsində, ora gəlib Nail Kazımov, Xalq Cəbhəsinin taboru adı ilə, onun da dəstəsində çox gözəl, qeyrətli oğlanlar olub, mən demirəm, dəstədən söhbət getmir, söhbət dəstənin, taborun komandirindən gedir. Ora gəlib Tofiq Oğuz, Xalq Cəbhəsinin taboru adı ilə, ora gəlib Nail Kazımov, Xalq Cəbhəsinin taboru adı ilə, ora gəlib keçmiş Binəqədi İcra Hakimiyyətinin başçısı Ehtiram bəy, Xalq Cəbhəsinin taboru adı ilə, ora gəlib Zeynal bəy, türklərlə böyük şirkət yaradıb, Xalq Cəbhəsinin taboru adı ilə və bir də Şuşada müdafiə nazirinin zabiti olub, hərbi rütbəsi olan briqada komandiri Orucov, bir də tank korpusunun komandiri Elçin Məmmədov. Elçin Məmmədovla briqada komandiri Elbrus Orucov nə qədər eləsə də, o taborları ümumi komandanlıq altında birləşdirə bilmədilər, çünki onların məqsədi vardı.

Şuşa çox böyük döyüşlərə məruz qalıb, amma şəhərə bircə dəfə hücum olunub, həmin gün də həmin tabor komandirləri dəstəsi ilə bir yerdə silahını töküb şəhəri tərk edib və çox təəssüf ki, o keçmiş iqtidarı dəstəkləyən adamların hansı bir şücaətinə görə bunlara burada Şuşa, Laçın verilən kimi vəzifələr verilib, vəzifələri də saya bilərəm. Məmməd bəy – Nərimanov Rayon İcra Hakimiyyəti tərəfindən avtobazanın baş mühəndisi vəzifəsinə, bütün Şuşanın iki diferli maşınları ondadır, yarısını Arazın o biri tərəfinə satıb, nə qədər qalıb, bilmirəm, axtarıb tapan yoxdur. Ehtiram bəy – Binəqədi İcra Hakimiyyətinin başçısı, Tofiq Oğuz haqqında xəbər yoxdur, itkin düşüb, bilmirəm, dəqiq deyə bilmərəm. Zeynal bəy böyük bir şirkət yaradıb və nəhayət, Nail Kazımov güclü təxribat bacardığına görə yenidən Ağdam cəbhəsinə göndərilib, orada da cinayətin üstündə tutulub. Bu, Şuşanın taborlarının strukturu haqqında.

Mən ayın 9-u, 10-u, 11-i, 12-si Turşsu, Laçın bölgəsində olmuşam və şahidlərim də hamısı burada əyləşib. Təxminən gecə saat 11-də, 12-yə 15 dəqiqə işləmiş Şuşadan çıxanda Tahir Əliyevlə Turşsuda görüşmüşəm və bir də Rövşən Cavadovla. Artıq Şuşa getmişdi, Tahir Əliyev də daxili işlər naziri idi, xırda bir qüvvə ilə Rövşən Cavadov – hamınız tanıyırsınız ki, nə qədər ürəkli, qeyrətli oğlandır – 70-80 nəfərlə gəliblər Turşsu qəsəbəsinə, artıq onda Şuşa yox idi və onlar heç kömək eləmədilər, çünki müdafiə nazirinin bütün dəstəsi qaçırdı. Ayın 9-u, 10-u, 11-i, 12-si şəhərin bəzi ümumi təsərrüfat işləri ilə məşğul olur, qoyunu, quzunu çıxarmaq üçün orada qalmışam, orada Etibar bəylə də, Arif Hacıyevlə də görüşmüşəm. Biz zirzəmidə bir yerdə olmuşuq.

Sözümü nəyə gətirib çıxarıram, ola bilər, bu faktı bəziləriniz bilmirsiniz, düzdür, əvvəldən əsəbiləşdiniz, mən ona görə dedim ki, adlarını çəkim, əsəbləşməyə dəyməz, mən hamınızdan üzr istəyirəm, əgər səhv hərəkət eləmişəmsə, bir daha hamınızdan qat-qat üzr istəyirəm. Hamınızdan kiçiyəm, ona görə də əsəbiləşməzlər, gör, siz bizi nə qədər əsəbiləşdirmisiniz, bir milyon qaçqın var, bir milyon, amma biz dözürük, sakitliyi gözləyirik, bu respublikanın yiyəsi gəlib, imkan verək, bəlkə qayıdaq uçuq xarabalarımıza. Biz əsəbiləşirik sizin kimi, bir milyon camaat əsəbiləşir.

Ayın 12-də Bakıya gəlmişəm, ən böyük faktor, yoldaş Əliyev, prokurorluq işçiləri də buradadırlar. Bunun şahidi bircə mənəm. Mən Yaqub müəllimlə görüşmək üçün müraciət elədim və o məni qəbul elədi, biz, Gürşad müəllim, Yaqub, Mütəllibov, bir də mən. Dedilər ki, Mütəllibov yoldaş Yaqub müəllimin yanındadır, çıxsın, sizi qəbul edəcək. Mütəllibov yoldaş çıxanda mən ona dedim ki, Siz getməyin, mənim söhbətimdə Siz də iştirak eləməlisiniz, çünki Siz də bu respublikanın yiyəsi olubsunuz, Prezidenti olmusunuz. O dedi ki, icazə al Yaqub müəllimdən, girim içəri, mən icazə aldım, girdik.

Orada olan 1 saat 15 dəqiqəlik söhbət haqqında sizə məlumat vermək istəmirəm, bir faktı deyim ki, orada nə söhbətlər oldusa, hansı taborun adı çəkildisə, hər ikisi dedi, bu, filankəsin dəstəsidir. Bircə onu deyə bilərəm. Əsas nəyə gəlirəm. Yaqub müəllimin yanından çıxanda ayın 12-si Mütəllibov yoldaş əlini saldı çiynimə, dedi, narahat olma, bir həftəyə qədər Şuşadasan, onda biz bilmirdik ki, Mütəllibovu Prezident, yaxud nə qoyacaqlar.

Sonrakı hadisələr. Mən bayaq deyəndə ki, prokurorluqda mən bu məsələni qaldıranda lentə alınıb, xahiş edirəm, respublika prokuroru,

müstəntiqlər, müavinlər hamısı orada iştirak edib, bir də respublikanın keçmiş Baş prokuroru İxtiyar Şirinov, mən demişəm və bir dəfə də Tamerlan müəllimin yanında olan müşavirədə demişəm, səhv eləmirəmsə, Rauf müəllim də həmin müşavirədə iştirak eləyib.

Şuşanın getməsi, ayın 8-i İran görüşünü yaddan çıxarmaq olmaz. İran bizim yaxın qardaş dövlətimizdir. İranda bizim 30 milyona yaxın qardaş-bacılarımız yaşayır. Mən bunu xırdalayıb deyəcəyəm. Ayın 8-i İran görüşü məlum, ayın 14-ü sessiya məlum, ayın 14-ü Daşkənddə MDB dövlətlərinin görüşü məlum. Ona görə İran görüşü nə vaxt olsaydı, İran görüşünə görə buradakı sessiyanın günü müəyyənləşəcəkdi, İran dövləti bizə nə qədər yaxın dövlət olsa da, islam fundamentalizmi ilə bağlı Qərb dövlətləri tərəfindən dövlət kimi tanınmır, onun Asiyada sülhməramlı kimi iştirakını qəbul eləməyiblər. Ona görə də Şuşanın getməsini ayın 8-i İran görüşünə salıblar. Ayın 14-ü artıq sessiyanın günü məlum. Şuşa gedib, respublikada bugünkü kimi ictimai vəziyyət dəyişib. Sessiya çağırılıb, Mütəllibov gəlib Prezident və həmin söz ki bir həftəyə Şuşadasınız, ayın 16-da MDB dövlətlərinin ümumqoşun birləşməsində Rəhim Qazıyev qol çəkir, Mütəllibov da MDB dövlətlərinə – mən demirəm, bu, səhv yoldur, düz yoldur, mən siyasətçi deyiləm, mühəndis adamam, amma məğzi budur – qoşulur, şəhər buna görə verilib. Həmin Rəhim Qazıyevdir ki, o dövrdəki proqramı indi həyata keçirmək istəyir, yalançı Talış-Muğan Respublikası adıyla ki, Mütəllibov olsun Prezident, filankəs olsun Prezident. Qardaş, bəs biz neyləməliyik?

Burada bizim bölgədən və atəş altında olan rayonların deputatlarının bəzilərindən xahiş edirəm, bəs siz nə vaxt danışacaqsınız, biz deputat deyilik, bizim bura girməyə imkanımız yoxdur. Düzdür, Quranda yazılıb ki, qəbir izi itməlidir. Mən çox üzr istəyirəm, Quranda yazılmayıb ki, qəbir erməninin tapdağı altında qalmalıdır. Nəyi itirəsiniz ayrı, ev itib, eşik itib, ata qəbri itib, ana qəbri itib, hər şey itib, namus, ismət gedib, nədən söhbət gedir. Bəs durun, bugünkü gündə danışın, görüm, respublikada sabitliyi bərpa eləmək mümkündürmü ki, bu müharibəni qurtarmaq mümkün olsun.

Mən çox vaxtınızı almayacağam. Bir faktı da demək istəyirəm sizə. Bizim camaatımız Surət Hüseynovu çox istəyir, ona görə çox istəyir ki, bu günə görə yox, bu gün Surət Hüseynov Baş nazirdir. Surət Hüseynovun vəzifəsi olmayanda respublikada, bəlkə, iki adam bizə kömək eləyirdi, onun birincisi, bəlkə, Surət Hüseynov idi, imkanı olmayan adam da onun yanına gedirdi, bütün nə məsələmiz olub, onun yanına

getmişik. Şuşa camaatından bir nəfər deyə bilməz ki, Surət Hüseynovun yanından boş qayıtmışıq. Axırıncı dəfə Ağdərə-Kəlbəcər əməliyyatı müdafiə nazirinin qələbəsi deyildi, o, Surət Hüseynovun qələbəsi idi. Onun sayəsində alınmışdı həmin torpaqlar. Onun da axır aqibətini, ona qarşı verilən sanksiyanı siz özünüz hiss elədiniz.

Mən çox üzr istəyirəm, keçən dəfə də müraciət eləmişdim ki, bu Məclisə dəvət olunum, onun vaxtı keçib, amma bir kəlmə söz demək istəyirəm. Bu tribunadan hər bir çıxış eləyən adama xalq bir cür baxır ki, guya vəzifə istəyir, bura vəzifə almaq üçün gəlib. Xeyr. Mən onu deyim ki, mən ikinci ərizəmi Sizin üzərinizə yazmışam və xahiş edirəm ki, məni tutduğum vəzifədən azad eləyəsiniz. Çox sağ olun ki, keçmiş iqtidar bir il iki ay zülmlə onlarla işləyəndən sonra bir Nazirlər Kabineti sədrinin müavinləri mənə kömək eləyib, bir də Tamerlan bəy. Onlar nə bir sərəncamı, nə də bir əmri həyata keçirməyib. Nə zülmlə yaşamışıq bu bir il müddətində onu göydəki Allah bilir. Bir dəfə də ərazi icra hakimiyyətinin başçısı olanda məcbur qalıb Surət Hüseynovun yanına getmişəm, adambaşına 500 manat pul verib. Bizə olan yardım da budur. Çox adam elə bilir ki, biz dünyanı dağıtmışıq. Bir milyon da Əbülfəz Elçibəy keçmiş partiyanın üzvlük haqqından on min adama adambaşına yüz manat. Yerdə qalan nə eləmişiksə, mənim və mənimlə işləyən yoldaşların köməkliyi nəticəsində olub, camaatımız azdan-çoxdan pis də yaşamır, hər bir şeyə də dözərik, söhbətim onda deyil. İki-üç dəfə Pənah tərəfindən mənim həbsimə göstəriş verilir ki, mütləq həbs olunmalıdır. Birində əgər burada əyləşibsə, məni Mətləb Mütəllibov buraxıb, onda Baş prokurorun müavini işləyirdi. Birində Tofiq Qasımov qurtarıb, məni Romadan gətirib tuturdular. Birində də Tamerlan müəllim kömək eləyib. Bir dəfə adını qoyublar ki, şuşalılar evə girib, 113 ailəyə order verilib, əgər bunun hamısını boşaltdırmasan, sən həbs olunursan. Arif müəllimi, keçmiş Yasamal İcra Hakimiyyətinin başçısını da qatmışdılar, bir də prokuror Namiq müəllimi. Arif müəllimi görürəm, əyləşib, mən onlara dedim, qardaş, sizi bu oyuna işdən çıxarmaq, məni tutmaq üçün qatırlar. İntəhası, mən tutulmayacağam, çünki azdan-çoxdan camaatım məni istəyir, amma siz nağd çıxmısınız işdən. Belə də oldu.

Nəhayət, Əli Kərimov, əqidən əqidəmizlə düz gəlmir, ərizəni verməlisən, ərizəni də aldılar. Gəncə hadisələrindən qabaq, Əbülfəz Elçibəy də ərizəmin üstünü yazıb, ikinci ərizəmi vermişəm, Əbülfəz Elçibəyin vaxtı çatmadı, referendumdan sonra birdən qəfil Prezident oldu, xahiş edəcəyəm ki, qol çəksin, getsin.

Tofiq müəllim, Sizinlə dost olmuşuq, yoldaşlıq eləmişik, Sizdən də artıq dərəcədə xahiş edirəm, əgər mümkününüz varsa, bu xalqın oğlusunuzsa, xalq Sizə baxır, gedin onun yanına, bu referendumu keçirməsin bu respublikada, istefa ərizəsini versin. Bu referendumu təzədən bu respublikada keçirəndə belə qüvvələr təzədən təxribat vasitəsi kimi istifadə edəcək. Yəni Siz bu xalqın oğlu deyilsiniz? Bəlkə, Sizin bu səhv siyasətinizin nəticəsində bir milyon adam gəlib yığılmamışıq bura? Hansı referendumdan söhbət eləyirsiniz indi? Əgər referendum söhbəti olsa, bir milyon ki çıxacaq, biz orada ayrı şey yazacağıq, "hə", "yox", yox, pis, nalayiq sözlər yazacağıq o kağızlara. Gedin, təzədən bu respublikanı pis vəziyyətə gətirməyin. Gedin, onu başa salın, onsuz da buna hamı "yox" deyəcək, 99 yox, 199 faiz. Bu qədər xərci buna sərf eləmək olar? Bir milyon yarım, atəşə məruz qalmış rayonların əhalisi bir milyon yarım təşkil eləyir. Niyə siz məcbur eləyirsiniz ki, həmin adamları yığaq Ali Sovetin qabağına və gələk, buradan bayaq dediyim bəzi deputatları – yoldaşlar məndən incidi, qəbul eləmədilər – dartaq, çıxaraq, qoyaq çölə. Bu gün biz sakitliyi bərpa eləmişik. Niyə pozursunuz respublikada sakitliyi, hansı bir qaçqın gəlib Ali Sovetin qabağında durub? Məndən inciyən dostum, hansı bir qaçqın rayon, 10-15 nəfərdən başqa gəlib Ali Sovetin qabağında, yaxud Prezident Aparatının qabağında bir mitinq eləyib. Bəs niyə elə söz deyirsən, bəs görürsən, mən hamının adını çəkirəm.

Mən üzr istəyirəm, yoldaş Əliyev, Romadan gəldiyim üçün orada deyilən bir sözü deməyə çox borcluyam. Çox gözləyirlər referendumu, başa düşün, xahiş edirəm, onlar o "təxribat" sözünü orada işlədirlər, Surət müəllim. Köməklik eləyin, qoy referendum keçirilməsin, kişidirsə, ərizəsini versin. Başa düşün, Füzuli gedəndən sonra bizim ayrı yolumuz qalmır, bizə yol göstərin, söhbət burada kiminsə bir otağı, iki otağından getmir, biz vətənsiz adamlarıq, məni düzgün başa düşün.

66 rayonda şuşalı basdırılıb, dözərsən, 66 rayonda laçınlı basdırılıb, 66 rayonda kəlbəcərli basdırılıb. Bəs biz sakitliyi bərpa eləyirik, sizə nə olub, qurban olum? Bəs biz nə vaxta qədər dözməliyik? Siz hələ təzədən bir referendum da keçirmək istəyirsiniz ki, Əbülfəz Elçibəyə ya "hə" deyək, ya da "yox"? Kimsə o referendumdan təxribat vasitəsi ilə istifadə eləsin, təzədən düşək, 100 min, 200 min... Mən çox xahiş edirəm, Mürşüd müəllim, Sizdən, Tofiq müəllim, Sizdən bir dost kimi, İbrahim İbrahimovdan, Sabir Rüstəmxanlıdan, nə bilim, onu kim başa sala bilərsə, vaxt var hələ 3 gün müddətində, gedin Kələkiyə, deyin, ərizəsini versin, bu referenduma ehtiyac yoxdur.

Bir də çıxışımda əgər artıq-əskik danışmışamsa, hamınızdan üzr istəyirəm, istənilən bizi nəzarətdə saxlayan dövlətlər buradan hər çıxış eləyən adama, bütün çıxışlara baxırlar. Hər bir dövlətin adını çəkəndə bir az ehtiyatlı olmaq lazımdır və bir faktı deyim ki, Türkiyədə təyyarəyə bilet tapa bilmədik, iki gün ləngidik. Onu bir dəfə kürd qiyamı adıyla demir, terrorçu adlandırır. Xahiş edirəm ki, bu məsələni talış adıyla bağlamayın. Bu, qatı cinayətdir, bunu terrorçu adlandırın, heç mövzusunu da açmayın, heç adını da. Bunun düzgün adını qoyaq da. Düzgün adını qoyun da.

Mən bir dəfə girə bilərəm bura. Söz də deyəndə bəzilərinizin xətrinə dəyir, mən nə dedim ki, mən çıxışımın əvvəlində dedim, bəzi deputatlara burada hörmətli deputat demək olmaz. Dursun, üzümə desin, adını çəkmişəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Qusarın keçmiş icra başçısı da söz istəyir. Nizami Süleymanov. Mən bu bölgələrə söz verməyə məcburam, çünki Şuşa da bəlalı yerdir, indi çox adam deyir ki, Qusarda da vəziyyət ona bənzər olsun. Amma çox rica edirəm, qısa, konkret. Çox rica edirəm.

**Nizami Süleymanov,** ***Qusar rayon İcra Hakimiyyətinin sabiq başçısı.*** Hörmətli sədr, hörmətli millət vəkilləri.

**Sədrlik edən.** Bir dəqiqə, bağışlayın Siz. Bir məlumat gəlib, mən bunu da sizə çatdırmalıyam. Gəncədən general Zaur Rzayev məlumat verir. Bayaq sizə bir məlumat verdim, eşitdiniz, ona görə Zaur Rzayev məlumat verir. 704 nömrəli briqadanın iki taborunun əsgərləri Ağcabədidə vuruşurlar, onlar heç bir siyasi oyuna qoşulmurlar, vətən uğrunda son damla qanlarına qədər vuruşacaqlar.

**Nizami Süleymanov.** Hörmətli sədr, hörmətli Məclis iştirakçıları. Keçən ilin əvvəllərində Qusar bölgəsində təxribatlarla rastlaşmışam, belə ki, təxribatların əvvəli keçən il fevral ayının 21-də “Aydınlıq” qəzetində dərc olunmuş “İkinci cəbhənin reallığı” adlı bir məqalə olmuşdur. Məqalədə guya Şuşanın verilməsi ilə şimal bölgəsində ikinci cəbhənin açılması, yəni orada ləzgistan yaradılması və bu məsələnin qalxmağının reallığı göstərilirdi. Təəssüf doğuran odur ki, həmin məqalənin müəllifi özü həbsdə olan, bundan da əvvəl dəfələrlə məhkum olunmuş bir şəxs idi və həmin məqalə qəzetdə dərc olunmuşdur. Lakin biz həmin vaxt camaatın etirazını nəzərə alaraq, elə özümüz də həmin məqaləyə təkzib verdik. Təəssüflər olsun ki, “Aydınlıq” qəzetində dərc olunmadı, “Ədalət” qəzetinə, bir neçə başqa qəzetə də, hətta Dövlət Televiziya

Şirkətinə də göndərmişdik. Lakin tək “Ədalət” qəzeti bu təkzibi olduğu kimi dərc elədi.

İndi konkret söhbət ondan gedir ki, həmin vaxt Şuşaya kömək etmək üçün Qusar bölgəsində könüllü dəstələr yaranırdı. 30 nəfərə yaxın Əfqanıstanda qulluq eləmiş cavan oğlan mənim yanıma gəlmişdi və biz onlara yerli hərbi hissədən geyim əşyaları, ləvazimat aldıq, yəqin, silahı ora gedəndə Şuşada verəcəkdilər. Martın 21-də sabiq müdafiə naziri Rəhim Qazıyevin dəstəklədiyi müdafiə nazirinin müavini Vahid Musayevin imzası ilə Qusar rayon Hərbi Komissarlığına telefonoqram gəldi ki, bir sutka ərzində Qusarda yerli büdcə hesabına 500 nəfərlik özünümüdafiə taboru yaradılsın. Əlbəttə, bu, camaat arasında narazılıq doğurdu və bununla da həmin hərəkat ki vardı, könüllü dəstələr yaranmalıydı, bu pozuldu. Bu barədə mən o vaxt Yaqub Məmmədova həm camaatın, həm də öz etirazımı bildirdim ki, bu, təxribatdır, özünümüdafiə taboru nəyə görə Qusarda yaranmalıdır, məgər Qusara Dağıstandan və yaxud haradansa bir yerdən hücum eləyən varmı ki? Kimdən müdafiə olunmalıyıq?

Bizim etirazımızdan sonra özünümüdafiə taboru məsələsi bağlı qaldı. Amma o öz işini  gördü, iki gün keçəndən sonra – bu zalda oturmuşdum, Ali Sovetin sessiyası idi – mən burada ola-ola orada mitinq keçirildi, mitinqin başında duranlar Xalq Cəbhəsinin üzvləri idi, həmin mitinqi onlar təşkil eləmişdi. Guya onların içində sadvalçılar da var idi. Bizi artıq təxribata aparırlar, biz öz dövlətimizi yaratmalıyıq, muxtariyyət yaratmalıyıq, neyləməliyik, belə xoşagəlməz şüarlar da irəli atıldı. Lakin təxribat bununla bitmədi. Yəni söhbət sabiq müdafiə naziri Rəhim Qazıyevdən gedir.

Keçən il avqustun 20-də mənə müdafiə nazirinin müavini Baba Nəzərli telefonla zəng edib və belə bir həyəcanlı, hökmlü səslə bildirdi ki, o nədir, orada Siz hərbi hissəyə hücum hazırlayırsınız, biz buna yol verməyəcəyik, mən göstəriş vermişəm, hərbi hissə mühafizə olunacaq, kim yaxın dursa, ona atəş açılacaq. Dedim, birincisi, xahiş edirəm, tonunuzu aşağı salın, Sizin mənimlə belə danışmağa heç bir hüququnuz yoxdur, mən nə hərbi hissəyə hücum edənəm, nə burada elə bir meyil yoxdur. Məndə də belə bir məlumat yoxdur. Mən bilmirəm, Siz bu məlumatı kimdən və haradan alırsınız? Milli Təhlükəsizlik Nazirliyinin Qusardakı nümayəndələrini çağırdım və onlardan soruşdum ki, sizdə belə bir məlumat varmı? Dedilər, bizdə belə bir məlumat yoxdur. Baba Nəzərlinin sözünə görə, guya avqustun 22-də hərbi hissəyə hücum olmalıydı,

atışma baş verməliydi. Ayın 22-də olmadı, lakin 24-də ara-ara atışmalar oldu, hərbi hissədən də, hərbi hissədən kənarda da və Milli Təhlükəsizlik Nazirliyinin ərazidə olan nümayəndəsi Aleksandr Pşeniçnıy ilə getdik, həmin hərbi hissənin yanında gördük ki, ətrafdan bir güllə atılmır, güllələr hərbi hissənin içindən avtomatdan atılır.

Gəlib çıxdı ayın 26-dan 27-nə keçən gecəyə. 26-dan 27-nə keçən gecə dəhşətli bir atışma baş verdi, mənim xidməti maşınıma da güllə atıldı. Söhbət bundan getmir, amma günahsız, minik maşınında gedən 4 nəfəri atəşə tutdular və biri yaralandı. Fakt bundan ibarətdir ki, həmin bu atışma Rəhim Qazıyevin başçılığı ilə təşkil olunmuşdu. Onun o yerdən olan dostu Zeynəddin Çələbovun, sabiq prokuror Əli Əliyevin, sabiq hərbi komissar Bəhram İsmayılovun, həmin hərbi hissənin komandiri, adı dəqiq yadımda deyil, onun iştirakı ilə. Çünki bu hadisədən 10 gün qabaq Qubadan Qusara gələndə gölün qırağındakı yeməkxanada həmin bu şəxslərin, ondan əlavə, hərbi və mülki geyimdə Bakıdan gəlmiş şəxslərin hazırlanmasının şahidi olublar. Zeynəddin Çələbov da orada olub, şahid var, mən hələ onun adını demirəm, istintaq gedir, amma o vaxt təhqiqat necə gedibsə, bir dəfə nə məni çağırıb dindirməyiblər, nə də kimisə dindirməyiblər, fakt elə qalıb. O vaxt Bakıdan gələn o adam Zeynəddin Çələbova etirazını bildirəndə ki, bunun üstü açılsa, necə olar, deyib, narahat olma, kişi dalımızda durub. Bu söhbət də, bunu təsdiq eləyən adam da var.

Bundan əlavə, deyirsiniz ki, mən nəyə görə Rəhim Qazıyevi deyirəm, bəlkə, məndə belə bir əsas yoxdur. Amma əsas var, onun silahdaşı, dostu Zeynəddin Çələbovun kabinetinə girib-çıxan Urfan atışmada Dərbənddən bir şəxsi yaraladığına, birini də öldürdüyünə görə istintaq işi gedir, bu saat da həbsdədir. Yaxın dostudur, Rəhim Qazıyev onun yanına vertolyotla uçub gəlib Qusara, Qarabulaqda oturublar, Urfan olub, həmin Zeynəddin Çələbov olub. Lent yazıları var.

Mən hamınızdan üzr istəyirəm, bəlkə də, mənim buna hüququm çatmır, amma bu məsələnin içində olduğuma, dəqiq bildiyimə görə həm öz adımdan, həm də qusarlılar adından xahiş edirəm, elə həmin fakta görə də öz cəzasını çəkməlidir, cinayət məsuliyyətinə cəlb olunmalıdır. Bəsdir, xalqın başına bu oyunları gətirdikləri. Nə təqsiri var qusarlıların, nə təqsiri var ləzgilərin? Ləzgilər hamısı durub deyir ki, bura bizim vətənimizdir, indiyə kimi elə sizin kimilər deyirlər, Nizami Süleymanov sadvalçıdır, Nizami Süleymanov kimdir, nəçidir. Amma sizin iç üzünüz, sizin sifətləriniz hamısı açıldı, kimin kim olduğu məlum oldu.

Keçən ildən deyirdiniz ki, ləzgilər orada nəsə yaradır. Gördünüz ki, ləzgilər heç nə yaratmır, yaratmaq fikrində də deyillər. Yaratmayacaqlar da. Mən bunu sizə tam məsuliyyətlə deyirəm. Bu yaxınlarda millət vəkilləri orada olublar, camaatın əhvali-ruhiyyəsini də görüblər. Amma mən yorulmuşdum keçmiş iqtidara deməkdən ki, burada boş-boş danışmaqdansa, kiminsə söhbətlərinə uymaqdansa, xahiş edirəm, nümayəndə göndərin. Məndə bu barədə rəsmi məktublar da var, İsa Qəmbərə, Elçibəyə, milli təhlükəsizlik nazirinə yazdım ki, hamısına yazmışam, xahiş edirəm, nümayəndənizi göndərin, gəlin, yerində baxın, vəziyyəti görün və ondan sonra nəticə çıxarın, təxribat eləməyin. Təxribat törətməyin, bəsdirin.

Heydər müəllim düz qeyd eləyib, elə Azərbaycanın parçalanmasında iştirak eləyirdi, o kartı da atmaq istəyirdilər ortaya, amma alınmır və alınan da deyil. Mən əminəm, tam bilirəm ki, talış camaatı da, muğan, talış, Lənkəran zonasında olan camaat da bu meyildə deyillər, onlarda belə fikir yoxdur. Başına gələn başmaqçı olar. Mən görmüşəm, orada necə şişirdirdilər. Bəxtimiz onda gətirib ki, bizim Əlikram kimi axmağımız olmayıb. Olsaydı, bəlkə, ondan da istifadə eləyə bilərdilər.

**Sədrlik edən.** Güman edirəm ki, biz çoxdan işləyirik, yarımsaatlıq tənəffüs elan olunur.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Məclis üzvlərindən rica edirəm, qeydiyyatdan keçsinlər.

***(Qeydiyyat)***

37 nəfər iştirak eləyir, yetərsay var.

Səhər də mən məlumat verdim, Ali Məclisə çox teleqramlar, məktublar gəlir, telefon zəngləri olur. Mənə məlumat verdilər ki, Teleradio Şirkətinə çox məktublar gəlir, əhali bizim dünən və bu gün müzakirə etdiyimiz məsələyə çox maraq göstərir. Çox həyəcanlıdırlar və əsas budur ki, bütün gələn telefon zənglərində bu məsələnin zəruriyyəti, eyni zamanda bu məsələdə Milli Məclisin, xüsusən Ali Sovetin rəhbərliyinin tutduğu prinsipial mövqe qeyd olunur. Bunlar çoxdur, ancaq mən iri, böyük bir kollektivdən, 620 adamdan ibarət sənaye müəssisəsindən gəldiyimə görə bunu sizə çatdırmaq istəyirəm.

*"Azərbaycan Respublikası Milli Məclisinin, Ali Sovetinin sədri Heydər Əliyevə. Cənab sədr, biz, Bakı Soyuducular Zavodunun kollektivinin üzvləri Milli Məclisin dünən keçirilmiş sessiyasını gərginlik içində izlədik. Yırtıcı Rəhim Qazıyev kimi milli satqınların, simasızların, şərəfsizlərin iç üzü nə qədər*

*ki xalqa bəlli olmayıb, bizə rahatlıq və nicat yoxdur. Biz tələb edirik, Rəhim Qazıyev, Əlikram Hümbətov, Ayaz Mütəllibov və onların əlaltıları cinayət məsuliyyətinə cəlb edilsinlər.*

*Rəhim Qazıyev nəinki millət vəkili adına, heç azərbaycanlı adına da layiq deyil, onu Milli Məclisdən rədd edin, biz sizinləyik, Allah köməyiniz olsun.*

*Bakı Soyuducular Zavodunun kollektivi, 620 nəfər".*

Burada biz iclasımızı qurtaranda 234-cü Qubadlı seçki dairəsindən xalq deputatı Şahsuvar Yəhyayev iki-üç dəfə mənə yaxınlaşıb çox xahiş etdi, ona görə onun xahişini qəbul etməyə məcburam.

**Şahsuvar Yəhyayev, *Ali Sovetin deputatı.*** Hörmətli xalq deputatları, hörmətli Milli Məclis üzvləri, siz hamınız bilirsiniz ki, mən bu tribunadan çıxış edəndə yaltaqcasına çıxış etməmişəm. Mənim mübarizəm xalqı bu günə qoyanlarladır. 1988-ci ildə, o zaman mən bu tribunadan dedim ki – Vəzirov hələ burada idi – nala-mıxa vurmasınlar, bütün əhali birləşməlidir və bir düşmənimiz olan ermənilərə qarşı biz mübarizə aparaq. O zaman xalq hərəkatı adı ilə bütün camaatı parçaladılar, bütün camaat necə olursa-olsun, hakimiyyət uğrunda mübarizəyə getdi, bu mübarizənin nəticəsində biz nələr qazandıq, bütün ərazimizi itirdik, burada 17 faiz deyirlər, 20 faizdən çoxdur. Bir milyona yaxın qaçqın əmələ gəldi, namusumuz, qeyrətimiz tapdalandı, bu gün gecə səhərə kimi Qubadlıda bütün camaat vuruşub, yata bilmirlər.

Heydər müəllim, Qubadlı rayonunda əksəriyyət adamlar, xüsusi ilə Gorus, Xınzıray, Ermənistana yaxın 500 metrlik ərazidə olan adamlar hamısı, sizi inandırıram, qayalarda yatırlar, ona görə ki kəndləri odlamaq istəyirlər. Qubadlılar yerlərindən tərpənməyiblər, qubadlılar mübarizə aparırlar, qubadlılar bir damla qanına qədər vuruşacaqlar. Amma talış-muğan hoqqabazlığı – mənə belə gəlir ki, talış-muğan zonasında yaşayan bütün adamlar çox mərifətli, ağsaqqal, savadlı adamlardır – bir-iki adamın hoqqabazlığıdır. Nə üçün bunu o regionun ayağına bağlamaq lazımdır? Nə üçün bu camaatı biabır eləmək lazımdır? Orada vur-tut üç-dörd nəfər adamın öhdəsindən gəlməmək, bütün rayonlar sadalanıb burada, bütün respublika bizə qulaq asır, bu tamamilə hoqqabazlıqdır. Burada daha böyük vəzifə ala bilməyən adamlar yenidən necə olursa olsun, hoqqabazlıq yaradıb bir vəzifə alsınlar, bax burada söhbət budur. Nə Lənkəran, nə Astara camaatının, nə də o regionda olan digər adamların, mən başa düşürəm ki, heç bir fikri yoxdur və belə də ola bilməz.

Heydər müəllim, Sizin bu çıxışınızdan sonra mənə belə gəlir, bu adamlar özləri öz əlləri ilə o adamları didib atacaqlar, qarşıdurma da olmayacaq, necə ola bilər ki, bu boyda camaat, bu boyda xalq, ağsaqqalı olan xalq, bu boyda mədəniyyəti olan adamlar iki adamın arxasınca getsin. Bu heç cür mümkün deyil, bunu mən yüz faiz məsuliyyətimlə deyirəm.

O ki qaldı belə hoqqabazlıqlar, Qubadlıda da olmuşdur, türk cəmiyyəti, nə bilim, kürd cəmiyyəti, Zəngəzur, belə şeylər. Mən dörd il yarım orada katib olanda ermənilərə qarşı mübarizə aparmışam. Bəzi hərəkatlara qarşı kim mübarizə aparıb, mən ona görə açıq deyirəm ki, camaatı bu günə saldıqlarını mən əvvəlcədən görürdüm, bu tribunadan yüz dəfə, min dəfə demişdim, belə liberal mövqelər tutulurdu, ancaq nala-mıxa vurulurdu, birlik yox idi. Ona görə də mənə belə gəlir ki, indi bu camaatın, torpaqlarımızın, namusumuzun belə tapdalandığı vaxtda hər bir qeyrətli azərbaycanlı belə şeylərə getməz.

Rəhim Qazıyevin hərəkətlərinə gəlincə, bu hərəkətlər təzə deyil, 1988-ci ildən bu günə qədər davam edir, Rəhim Qazıyev müavini vasitəsilə Qubadlıya Mingəçevirdən 50 maşın göndərmişdi ki, gedin, camaata deyin, biz sizə təminat verə bilmərik, siz harada qalacaqsınız, köçün. Həmin Şahin Musayevi tutub möhkəm-möhkəm əzişdirdilər, camaat köçmədi, qaldı, o gündən bu günə qədər Qubadlıda nə qədər bu cür təxribatlar olub, heç kim də köçmür, köçmək niyyəti də yoxdur, camaat orada qırılsa da tərpənməyəcək. Ancaq mənim bir deputat kimi sizdən xahişim budur ki, o camaat orada gecə-gündüz əsir, əziyyət çəkir. Heydər bəy, xahiş eləyirəm, diqqətinizi başqa əməli köməkliklərə verin, Qubadlı yeganə rayondur ki, 228 kilometr məsafədə ermənilərə qarşı mübarizə aparır, Qubadlıda uşaq da, böyük də, qadın da, hamı sərhədlərdə mübarizə aparırlar, qaçmırlar.

Belə hoqqabazlıqların qarşısını almaq lazımdır. Rəhim Qazıyev həmişə bu regionlarda, Laçında, Qubadlıda hadisələr törədib. Sizin özünüz də Rəhim Qazıyevin nazı ilə çox oynayırsınız, az qala onu böyük bir vəzifəyə – Nazirlər Soveti sədrinin müavini kimi bir vəzifəyə təklif edirsiniz. Məndə, bütün camaatda təəccüb oyandı, necə ola bilər ki, bunu hamı bilir. Necə yəni bir adam demir ki, a kişi, bu buna layiq adam deyil. Nəhayət, çox gözəl oldu ki, o, hərəkətlərini, öz əməllərini açdı.

Heydər müəllim, Qubadlı camaatı, ziyalıları adından Sizi əmin edirik ki, Qubadlının onunla əlaqəsi yoxdur. General Bərşadlını burada,

bax bu tribunadan tutub saldılar, o zaman mən durdum, dedim ki, a kişi, bu bizi müdafiə edəcək, Dağlıq Qarabağda 70 kəndi ermənilərdən azad etdi. Onu atdılar bayıra, bəs generalı çıxarıb tikinti işçisini nazir qoyanda, əlbəttə, xalq belə olacaq. Kadrları bu cür yerləşdirəndə, əlbəttə, belə olacaq. Bəs fikirləşmirsiniz ki, ay yoldaş deputatlar, biz orada əziyyət çəkirik, ölürük, qırılırıq, camaatın qanı donur. Bu sizə belə gəlir ki, Füzulini aldılar belə soyuqqanlılıqla, Cəbrayıla hücum etdilər, bizim burada yaxında qohumların iki-üçünün başına nə oyunlar gətiriblər, mən orada hüzr yerində idim, camaat qan ağlayır. Orada hüzr yerində də mənə dedilər, çox xahiş elədilər ki, o Milli Məclisə getsəniz, Sizi dəvət etsələr – ona görə mən Sizdən xahiş edirəm – həm cəbrayıllıların, həm zəngilanlıların, həm də qubadlıların sözünü sizə çatdırım. Hamımız möhkəm dayanmışıq burada, ancaq belə hoqqabazlıqlar, regionda belə qeyri-konstitusion hökumət yaratmaq boş şeylərdir, bunlar heç kimə lazım deyil, indi xalqa birlik lazımdır, o birliyi də, Heydər Əliyev, Siz eləməlisiniz. Açıq deyim, camaat, xalq Sizə inanır, mən bütün avtobuslarda da, necə deyərlər, metrolarda da camaatın içində oluram, hamı deyir, artıq bizim yiyəmiz gəlib, Siz bu etimadı möhkəm doğrultmalısınız, Siz qorxmamalısınız. Camaat Sizin ətrafınızdadır, kim nə deyir-desin, ola bilsin ki, çoxlu adamın imkanı çatmır, gəlsin, Sizinlə görüşsün, dərdini desin, heç olmasa, bu məsələləri Sizə çatdırsınlar. İnanın, nəyə deyirsiniz, and içək, hamımız müsəlmanıq, lap əlimi Qurana da basaram ki, xalqın 99 faizi Sizin tərəfinizdədir. Xalq ac da, susuz da qalsa dözür, deyir ki, artıq yaxşı olacaq, hər şey düzələcək, hər şey öz yerini tutacaq. Ona görə də bu məsələlərə ciddi fikir vermək lazımdır, xüsusi ilə kadrlara düzgün fikir vermək lazımdır. Necə yəni Bərşadlı kimi generalı qoy qıraqda, heç olmasa, məsləhətçi qoy da orada, heç olmasa, bir məsləhət almaq lazımdır bundan, a kişi, sən tank briqadasının böyüyü olmusan, general olmusan, dünyada məşhur adamsan, niyə biz səndən istifadə eləməyək, düşmüşük ora-bura. Ona görə də mənim xahişim odur ki, bu cür adamlara qarşı qəti mübarizə aparmaq lazımdır.

Burada bəzi deputatların, Milli Məclisin üzvlərinin də hərəkətləri mənim xoşuma gəlmədi, bəzən nala-mıxa vururlar. Ə, bəsdirin də, nə lazımdır, hamımız bir dəfə yaranmışıq, müəyyən dövr yaşamışıq, vaxtımız çatanda öləcəyik, mənim xahişim odur ki, bütün deputatlar, bütün xalq indiki Azərbaycanın yox, bütün dünyanın məşhur siyasətçisinin ətrafında yaxşı birləşsin. Mənə belə gəlir ki, o əliəyri adamları, tez-tez ləkələməyə can atanları, Heydər Əliyev, Siz yaxşı başa düşürsünüz. Bu

kimdir, bu kimdir, hamısını ləkələyib qovdular, getdi. Qadınlardan yaxşı istifadə etmək lazımdır. Ona görə də bu məsələlərdə bütün xalq, bütün Qubadlı, Zəngilan, Cəbrayıl camaatının adından mən deyirəm, camaat çox böyük etimad bəsləyir, camaat inanır, ona görə də ermənilərə qarşı ciddi mübarizə aparmaq lazımdır. Mənə elə gəlir ki, Siz bu xalqın etimadını doğruldacaqsınız. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Bu tabloda siyahı göz qabağındadır, ancaq mən sizə demişdim, burada əvvəlcədən, səhər yazıb veriblər. Məclis üzvü Tofiq Bağırov buyursun, sonra mən tövsiyə etdim ki, Vahid Əhmədov öz münasibətini bildirsin, çünki keçən dəfə onun münasibəti aydın olmadı. Baş nazir Surət Hüseynov danışmaq istəyir, bax bundan sonra mən tablodakı yazılara keçəcəyəm.

Buyurun.

**Tofiq Bağırov.** Hörmətli millət vəkilləri, bu gün söhbət Azərbaycandan, Azərbaycanın birliyindən gedəndə o adam ki bu xitabət kürsüsündən Azərbaycanın müstəqilliyini bütün dünyaya bəyan edən aktı oxuyub, onun danışmamağa haqqı yoxdur. Azərbaycanın birliyindən, vahid Azərbaycandan söhbət gedəndə söhbət yalnız birmənalı və qəti olmalıdır. Buna yol verməmək barəsində söhbət gedə bilər, bunun yollarını göstərmək olar, amma bunun səbəblərini, dərin səbəblərini bilmədən və belə ötəri sözlərlə camaata, deputatlara müraciət etmək, bunun mənası az olur, kökünü bilmədən bu işləri yoluna salmaq çətindir. Mən deyirəm, bir sənədlə, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin bir sənədi ilə sizi tanış edim, mən bu sənəd barəsində bir neçə dəfə ayrı-ayrı yerlərdə demişəm, amma o zaman buna məhəl qoyan olmayıbdır. Hətta bir dəfə Vahid Azərbaycan Milli Birlik Partiyasının təsis konfransına çağırmışdılar, mən orada da bu barədə dedim, söhbət bunun haçandan hazırlanmağından gedir. Məsələni Sovet İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsində yenidənqurma əməliyyatı başlayan vaxtlarda hazırlayıblar. Mən bunu bir qədər təfsilatı ilə deyəcəm, xahiş eləyirəm ki, məni düzgün başa düşəsiniz, Rusiya və ruslar haqqında söhbət açmaq istəmirəm. Bu yalnız Qorbaçov və onun ətrafındakı ona ilham verənlərin siyasəti nəticəsində meydana gəlmiş bir şeydir.

Təsəvvür eləyin ki, 1990-cı il oktyabrın 15-də Gəncə Şəhər Partiya Komitəsinin birinci katibinin kabinetində idim, hörmətli Şəhər Sovetinin ozamankı sədri Nizami bu gün burada əyləşib, o da orada idi. İçəriyə

Mərkəzi Komitədən bir qrup adam gəldi, başda Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin təbliğat-təşviqat şöbəsindən olan bir bölmə müdiri ilə. Bunlar o zaman bizim Mərkəzi Komitədə bu sənədləri göstəriblər və həmin sənədlərlə bütün rayonlara gedib sorğu aparırdılar. Azərbaycan barədə bu sorğu ən azı o qədər dəqiq aparılırdı ki, birinci anket, ikinci anket, bunlar 38 sualdır, o birisində 163 sualdır və respublikada belə bir incəlik, belə bir dəqiqlik yox idi ki, onu orada göstərməsinlər. Başdan ayağa hamısı bir təfriqə salmaq idi və mən bunu heç bir yerdə deməmişəm, hətta o keçirilən yeni seçkilərə münasibət, necə, haradan seçilibdir, hətta Heydər Əliyevin də adı var idi.

Birinci, bir nömrəli anketin bircə yerini sizə oxumaq istəyirəm, görün bu nə məqsəd daşıya bilər. Bundan sonrakı gedən əhvalatları bunlarla, bu suallarla bir qədər tutuşdurun, bu sənəd məndədir. Deməli, anketdə belə bir qrafik var, Gəncə, Bakı azərbaycanlılarının Lənkəran azərbaycanlılarına münasibəti, Bakı azərbaycanlılarının gəncəlilərə münasibəti, Bakı azərbaycanlılarının qaçqınlara, ermənistanlılara münasibəti, Bakı azərbaycanlılarının talışlara, kürdlərə münasibəti, Bakı azərbaycanlılarının rus dillilərə münasibəti, Bakı azərbaycanlılarının yəhudilərə münasibəti, eləcə də gəncəlilərin Bakıya, lənkəranlılara və sair, talışlar, tatlar və kürdlər hamısı burada göstərilir. Deməli, məsələ aydındır, zəif yerlərimizi öyrənirlər, harada, haçan regionlar, etnik qruplar arasında firqə yaratmaq olar. Hətta etniklərdən başqa, bakılılarla gəncəlilər, bakılılarla rayonlular – biz hamımız rayonlardan yığışıb gəlmişik, Bakıda ev-eşik və mənsəb sahibləri olmuşuq – belə bir vəziyyətdə bakılılarla gəlmələr arasında münasibəti pozub hətta onlara qarşı bir qədər də hiddət yaratmaq, eləcə də Gəncədə, başqa rayonlarımızda.

Bunları deməkdə məqsədim odur ki, bu dərin kökləri bilmədən biz hissiyyata qapılıb bəzən bir-birimizi ittiham edirik, bundan biz düzgün nəticə çıxara bilmərik. Həmin vaxtlara aiddir, biz uzun müddət bu barədə söhbət eləyirdik, Sabir Rüstəmxanlı Allah şahididir, 1990-cı ildə bu barədə söhbət getdi, ozamankı söhbət türklük, başqa məsələlərdən gedirdi. 1989-cu ildə Moskvadan SSİ-dən bir təlimat məktubu aldıq, siyahıya almaq qabağı yazılmışdı ki, Azərbaycanda başqa etnik tayfalar azərbaycanlı adı ilə artıq 50 ildir konsolidasiyaya giriblər. 50 il hamımız bir-birimizi azərbaycanlı adı ilə tanıdığımız bir halda bizə bura o SSİ-dən belə bir təlimat gəldi, talışları, avarları, özünü azərbaycanlı yazdırmış başqa tayfaları öz adları ilə yazdırın. O vaxtdan da bizim faciəmiz başladı. 50 il azərbaycanlı adından bütün dünyada tanındığımız,

heç bir vaxt bir-birimizə başqa gözlə baxmadığımız halda, biz yenidən başladıq, talışlaşmağa, türkləşməyə, kürdləşməyə və sair. Bu, gətirib bizi bugünkü nəticəyə çıxardı. Amma biz Azərbaycanın müstəqilliyi uğrunda döyüşən məşhur generalları, Talışxanovları heç bir zaman talış kimi qəbul etməmişik, mən indi də bilmirəm ki, Həzi Aslanov türk, yoxsa talış əsillidir, indi də bilmirəm. Biz heç bir zaman baxmamışıq ki, Azərbaycanın müstəqilliyi uğrunda rus qəsbkarları ilə vuruşan İlisulu Soltan avar olubmuş, Cəfər Cabbarlıya, Mikayıl Müşfiqə heç bir zaman tat kimi baxmamışıq, heç kəs onu yadına sala bilməz, heç kəs deyə bilməz. Azərbaycanın qeyrətini qoruyan Hamazaspa, Droya, Andranikə qarşı çıxan məşhur el qəhrəmanı Sultan bəyə, onun qardaşı Xosrov bəyə heç bir zaman kürd xalqının nümayəndəsi kimi baxmamışıq. Heç bir zaman Süleyman Rəhimova kürd xalqının nümayəndəsi kimi baxmamışıq, biz ona böyük Azərbaycan yazıçısı kimi baxmışıq və vaxtilə onu ləyaqətlə də təltif eləyiblər, Azərbaycandan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülən ilk yazıçı olub.

**Sədrlik edən.** Tofiq Mənsimoğlu, Siz mənim yadıma saldınız, bir balaca Sizin sözünüzə müdaxilə eləyim. Bəli, indi bilirsiniz, bu gün meydana çıxmış bəzi siyasi qüvvələr, filanlar o keçmişin hər şeyini təhrif edirlər. Mən dəfələrlə demişəm ki, tarix özü özünü sübut eləyəcəkdir. Bu gün meydandan çıxmış, savadı olmayan adam bütün tarixi qaralayırsa, yaxud biri çıxış eləyib deyir ki, nə bilim, 1920-ci ildən indiyə qədər bütün Azərbaycan rəhbərləri heç bir şeydirsə və bu adamın özü Azərbaycan üçün bir iş görməyibsə – bax, burada oturan adam dəfələrlə bunu demişdir – bir ağac əkməyibsə, bir daşı daşın üstünə qoymayıbsa, bir yol açmayıbsa, bir arxa su gətirməyibsə, 70 illik bizim tariximizə ləkə yaxmaq yarayarmı, yaramaz.

Bax bu baxımdan mən demək istəyirəm ki, bizim hamımız üçün Sovetlər İttifaqı ümumi vətən idi, bu vətənin də mükafatları hər bir adam üçün böyük şərəfdir, çox böyük iftixardır. Bütün respublikalarda yazıçılardan Sosialist Əməyi Qəhrəmanı vardı, gürcülərdən də, ermənilərdən də vardı, Orta Asiyadan, hətta Özbəkistandan, Qırğızıstandan, Azərbaycandan yox idi.

1970-ci illərin əvvəli idi, bu məni narahat edirdi, mən ona görə də dəfələrlə Moskvada danışıqlar apardım ki, Azərbaycan da təmsil olunmalıdır və ilk dəfə Süleyman Rəhimovun adını verdik. İndi olan olub, keçən keçib, Allah Süleyman Rəhimova rəhmət eləsin, mən həmişə onu böyük bir yazıçı, böyük bir insan kimi sevmişəm, onun ədəbi irsi də əsrlər boyu

davam edəcək. O vaxt ancaq mən nə qədər çətinliklər çəkdim ki, Süleyman Rəhimova Sosialist Əməyi Qəhrəmanı adı verilsin, bu qərar keçsin. Vallah-billah, inanın, Allaha, Qurana and içirəm, heç mənim ağlıma gəlmirdi ki, bu haralıdır, hansı yerdəndir, hansı bölgədəndir, azərbaycanlıdırmı, kürddürmü, talışdırmı, filandırmı, çünki gözümüzü açandan biz görmüşük, Süleyman Rəhimov Azərbaycan ədəbiyyatını inkişaf etdirən adamlardan biridir. Bəli, bu belədir.

Tofiq müəllim, bağışlayın, mən, sadəcə, əlavə elədim ki, bu məsələni bir az da dəqiqləşdirim. Buyurun.

**Tofiq Bağırov.** Tamamilə doğrudur. Hətta ləzgi məsələsini qaldıranlara da demək istəyirəm, Hamzatın rəhbərliyi altında Şimal bölgəsində azərbaycanlıları qıranda ləzgilər deyildimi öz döşlərini qabağa verib azərbaycanlıları müdafiə eləyən, indi bu gün yadlaşma gedir və bunun qarşısını almaq lazımdır. Nə etməliyik, vəziyyətimiz çox gərgindir. Gərək açıq danışaq, biz Azərbaycan hakimiyyəti uğrunda mübarizə aparmalıyıq, elə etməliyik ki, bizim hakimiyyətimiz möhkəmlənsin.

Bəzən görürsünüz, hər bir hakimiyyət dəyişdikcə, adamları işdən çıxardıqca mən məyus oluram. Məyus oluram ona görə ki bəziləri sevinir, bu, Mütəllibovdur, getdi, sevinir, Vəzirovdur, getdi, sevinir, Elçibəy getdi, sevinir. İnanın, mən ürəkdən mütəəssir oluram, axı niyə getməlidir, niyə işləməməlidirlər, niyə imkan verməməliyik ki, bu adamlar işləsin. Bu gün artıq Xalq Cəbhəsi arenadan gedib, yaxşı, gəldiniz, getdiniz, istədiyinizi elədiniz, indi başqaları gəldi, özü də sizin özünüzün köməyinizlə gəldi, imkan verin, hakimiyyətimiz möhkəmlənsin. Amma burada kimsə baxıb deyir ki, kim hakimiyyətin başındadır. Söhbət hakimiyyətin başında gedəndən getmir, sən istəsən də, istəməsən də, bu, faktdır, bu, olaydır və biz bütün gücümüzlə gərək elə eləyək ki, hakimiyyətimiz möhkəmlənsin, bunun başında duran adamlar işi səliqə ilə apara bilsinlər.

Məni narahat eləyən nədir? Bu gün məni narahat eləyən Azərbaycanın indiki vaxtında iki nəfərdən biri yenidən qayıdıb, biri cavan oğlandır, yenidən arenaya çıxıbdır və millətin taleyi bu iki adamın bir-birinə münasibətindən asılıdır. Vay o gündən ki, bunların arasına kimsə təfriqə salmağa çalışsın və bunların ikisinin gücü birlikdədir, bu ikisi bir yerdədir, bir olanda güclüdürlər. Vay o gündən, bunlar ayrı-ayrı olsunlar, elə bir adam, elə bir nadürüst adam tapılsın ki, bunların arasını vurmağa getsin.

Burada mən yaşlı adam kimi, eyni zamanda öz məsləhətimi verməliyəm, baxmayaraq Heydər Əliyevlə biz həmyaşıdıq, mən getməliyəm, amma demək olar ki, Surət bizdən çox gəncdir. Burada söhbət gedir, hər iki tərəfə deyirəm, qarşılıqlı anlayış, qarşılıqlı güzəşt, kim qarşılıqlı güzəştə gedə bilmirsə, o nə dostluq eləyə, nə ailəsini saxlaya bilər. Ailədə də qarşılıqlı güzəşt lazımdır və dövlətdə qarşılıqlı güzəşt əsas şərtlərdən biridir. Ola bilməz ki, hamı eyni cür düşünsün, eyni cür fikirləşsin, ola bilər, müəyyən yerdə fikir ayrılığı olsun, bu fikir ayrılığını da gərək cəsarət tapıb qarşılıqlı güzəştlə, danışıqla həll edəsən. Bu dünyada heç bir şey heç kəsə qalmır, vətən qalır, millət qalır, biz bütün varlığımızla yalnız bu millətə xidmət eləməliyik. Millətin çox ağır vaxtıdır, millət bu saat yıxılıbdır, onu qaldırmaq lazımdır, onu qaldıransa bizim özümüz olmalıyıq. Azərbaycan azərbaycanlılara yiyə durmalıdır, Azərbaycanın azərbaycanlılardan başqa yiyəsi yoxdur, türkün türkdən başqa yiyəsi yoxdur. Türkün türkdən başqa dostu yoxdur deyən yoxdur, bu o demək deyil, Azərbaycanın azərbaycanlılardan başqa yiyəsi yoxdur. Bax bu yolda biz əlimizdən gələni etməliyik.

Bəzi məsələlər də var, mən axırda öz münasibətimi bildirmək istəyirəm və deyəcəm. Bir məsələ də məni çox narahat eləyir. Müxalifətə münasibət, güclü müxalifət olmasa, müxalifətsiz biz gəlib yenidənqurmaya çıxarıq, ona görə güclü və sağlam müxalifət hakimiyyət uğrunda mübarizə aparsın, amma sivilizasiya yolu, özünün ideyası ilə. Bir də söhbət Azərbaycanın müstəqilliyindən gedir. Bunların hamısı Azərbaycanın müstəqilliyinin tərəfdarıdır, bəlkə, ayrı-ayrı yollarla, məsələn, tutalım ki, mən ayrı-ayrı qəzetləri izləyirəm, başqa-başqa partiyaların bəyannaməsinə, onların hamısının çıxışlarına qulaq asıram. Mən Etibarın çıxışlarına qulaq asıram, rasional məsələlər qoyur, bəli, razılaşmaq, baxmaq da olar, kənara tullamaq olmaz.

Xalq Cəbhəsinə münasibət, Xalq Cəbhəsində yüz minlərlə adam var ki, vicdanı, qanı ilə istəyib ki, Azərbaycan müstəqil olsun, bunların içərisində var, yanılmışlar, etiqad eləyiblər, bəzi cibkəsənlər, beləløri də var. Cinayətkarlar öz cəzasını çəksinlər. Amma münasibət, iki yüz mindən çox üzvü oldu, keçmiş, son vaxtlarda partiya, partokratiya söhbəti qaldırmışdılar, Azərbaycanda Kommunist Partiyasının dörd yüz min nəfər üzvü var idi, o partiyanın ki mən elə özüm də 40 il üzvü olmuşam. Əgər ailə konsepti ilə götürsək, milyona yaxın əhalinin – Azərbaycanda hər ailə beş nəfərdən çoxdur – bu, iki milyona qədər əhali edir. İki milyon adamı, iki milyon nəfəri, Kommunist Partiyasının üzvlərinin ailəsini

Azərbaycan işindən təcrid eləmək günahdır, eləcə də biz eləməməliyik, münasibət düzgün olmalıdır.

Mən başqa bir məsələni də deyim, bununla qurtarıram. Mən deməliyəm ki, son vaxtlarda bizim Məclisimiz çox ciddi keçir, məqsədyönlü gedir, artıq sözlərə, artıq söhbətlərə yol verilmir, bu, çox sevindiricidir. Məsələn, baxanda mənim ürəyim ağrıyırdı, sağda papiros çəkirlər, solda papiros çəkirlər, hakimiyyətin başında duranlar, adam tutulurdu ki, bu necə ola bilər, axı mən belə şeyə adət eləməmişəm, mən özümdən böyüyün yanında papiros çəkməmişəm. Bu nədir, elə hamı əlinə alır, nə olubdur, nəfsini saxlaya bilmir, beş dəqiqəlik çıx, çək, qayıt. İndi belə şeylər yoxdur, bu, çox sevindiricidir. Amma mən hamıdan bir şeyi xahiş eləyirəm ki, əsəbilik şəraiti yaratmayaq, əsəbilik əsəbilik yaradır, bu hamıya sirayət eləyir, bizə hər tərəfdən baxırlar, qulaq asırlar. Bəzən görürsən, artıq-əskik söhbət olur, gərək biz bir az dözümlü olaq, bir qədər özümüzü ələ almağı bacaraq. Odur ki mən hamıdan xahiş eləyirəm, bu əsəbiliyə son qoymaq lazımdır.

Axırıncı, Talış-Muğan Respublikasına münasibət. Mən hesab eləyirəm ki...

**Sədrlik edən.** Belə bir respublika yoxdur, belə bir hərəkata.

**Tofiq Bağırov.** Belə bir hərəkata, belə bir anlayışa mən bircə söz tapıb deyə bilərəm. Əgər mənim doğma oğlum Azərbaycanın birliyinə qıyqacı, başqa mənada baxarsa, mən onun da qanını sizə halal eləyirəm. Bu, ola bilməz. Azərbaycan unitar dövlətdir, bu bizim Konstitusiyamızda var, biz nə olur-olsun bu birliyi qorumalıyıq, əks halda, bizi didərginlik gözləyir, bunu hamı, bütün millət bilsin. Vay o gündən ki, bizi ayırsınlar, Gəncəbasar, Şirvan, Qarabağ, Ucar və sair. Bu ona gətirib çıxara bilər və buna qətiyyən yol vermək olmaz. Bunun yolunda, mən yenə deyirəm, bəzən qızışdırıcı çıxışlar olur, mən onun da əleyhinəyəm, hesab edirəm ki, bir daha nə qədər mümkündür, əvvəlcə onu biz başa salmalıyıq. Bunu biz elə eləməliyik, ikinci faciə törənməsin və mən güman edirəm ki, elə Əlikram bəy özü də, başqaları da, yəqin, qulaq asırlar, dinləyirlər, ziyanın yarısından qayıtmaq özü qazancdır. Nə qədər mümkündür gərək düz yola gedək. Mən heç şübhə etmirəm ki, heç bir kəsə qarşı bu yolda əgər yolundan dönüb düz yola gələrsə, onlara cinayətkar kimi baxılmayacaqdır. Odur ki mən sözümün sonunda əmin olmaq istəyirəm, bütün deputatlar, bütün millət vəkillərimizin hamısı bu gündən yaxşı nəticə çıxarıb və doğrudan da, biz əməli işə keçəcəyik.

Doğrudan da, biz hamımız çəkici bir nöqtəyə vuracayıq və bu yolda sizə müvəffəqiyyətlər arzulayıram. Sağ olun.

**Sədrlik edən.** Vahid Əhmədov buyursun.

**Vahid Əhmədov, *Azərbaycan Respublikası Baş nazirinin birinci müavini.*** Hörmətli millət vəkilləri, hörmətli sədr, əvvəlcə birinci məsələyə öz münasibətimi bildirirəm. Ali Sovetin sədri Heydər Əliyev qeyd etdi ki, mən Ayaz Mütəllibovun vaxtında Baş nazirin müavini təyin edilmişəm. Mən Baş nazirin müavini vəzifəsinə Yaqub Məmmədovun vaxtında təyin olunmuşam, Ayaz Mütəllibov hakimiyyətdə olanda, xalq deputatları bilir, mən çox ciddi mübarizədə olmuşam və öz fikrimi də həm qəzet, həm də mətbuat vasitəsilə bildirmişəm. Əbülfəz Elçibəylə mənim işlədiyim müddətdə Rəhim Hüseynov Baş nazir olanda məni ora təyin elədi və Baş nazirin birinci müavini vəzifəsində Əbülfəz Elçibəylə işləmişəm. Mən birbaşa hərbi sənaye kompleksinə rəhbərlik etdiyim üçün Müdafiə Komitəsinin üzvü vəzifəsini də yerinə yetirmişəm. Bu da ondan irəli gəlməyib ki, mən Əbülfəz Elçibəylə uzun müddət dostluq eləmişəm. Əbülfəz Elçibəyi mən bu vaxta qədər tanımırdım, yalnız hakimiyyətə gələndən sonra onunla tanışlığım olub.

Bundan başqa, Əbülfəz Elçibəy hakimiyyətdə olan vaxt mən həmişə direktor korpusunu saxlamaq üçün Əbülfəz Elçibəylə, Pənah Hüseynovla ciddi, açıq mübarizə aparmışam. Direktor korpusunu saxlamaq üstündə mən ondan ayrılmışam. Artıq bu barədə mən heç nə demək istəmirəm.

Qeyd eləmək istəyirəm ki, mən heç bir siyasi oyunlarda iştirak eləməmişəm, eləmirəm, eləyən də deyiləm. Kimin hakimiyyətdə olmasından asılı olmayaraq, mənim öz əqidəm var, öz əqidəmlə hərəkət etmək fikrindəyəm. Bunu hamı bilməlidir və mənə heç bir təzyiqin, heç nəyin xeyri yoxdur.

Talış-Muğan Respublikası ilə əlaqədar olaraq mən öz fikrimi demək istəyirəm. Mən iclasda öz fikrimi demişəm. Əlikram Hümbətovu yalnız son bir ayda telefon vasitəsilə tanımışam. Heç onun sifətini də görməmişəm, yalnız qəzetdə şəklini görmüşəm. O da ondan irəli gəlir ki, mənə müraciət eləyib, regionda olan iqtisadi problemlərlə əlaqədar bir sıra xahişlər edib və mən hökumət üzvü kimi, Lənkəran camaatının vəziyyətini nəzərə alaraq kömək eləmişəm, yerinə yetirmişəm. Bu mənim vəzifə borcum olub. Keçən dəfə mən qeyd elədim, Talış-Muğan Respublikasının yaradılması özü bir utopiyadır, bu özü bir cinayətdir, mən bunu

bəyənmirəm, bəyənən də deyiləm. Amma bu vəziyyətdən çıxış yolunu nə cür görmək istəyirəm. Xalq deputatları, dövlət rəhbərləri, ciddi təklif vermək fikrində deyiləm. Ona görə də mən keçən dəfə qeyd elədim ki, bunu müəyyən danışıqlar səviyyəsində aparmaq lazımdır, çünki Gəncə hadisələri bizə bir dərsdir. Gəncə hadisələrində də mən öz sözümü qəti dedim ki, heç vaxt burada qırğına getmək olmaz. Onda da mənim üstümə böyük hücumlar oldu, hətta evimə 12 nəfər adam göndərdilər, bunların heç bir dəxli yoxdur, sadəcə, deyirəm.

Əlikram Hümbətov hadisəsi ilə əlaqədar olaraq mən yenə də öz fikrimdə qalıram. Əgər o regiona gedib-gələn deputatlar, hörmətli ziyalılar və regiondan olan ziyalılar o məsələni həll etmirlərsə və bu gün həmin məsələni hökumətin üstünə atırlarsa, onlar yenə də çox böyük səhv edirlər. Gec-tez onlar həmin torpağa qayıtmalıdırlar və həmin xalqla bir yerdə yaşamalıdırlar. Bunu yaddan çıxarmaq olmaz. Talış-Muğan Respublikası, belə bir ideyanı nəzərə alaraq, Əlikram Hümbətovun ideyası ilə əlaqədar olaraq mənim konkret təklifim var.

Əvvəla, burada müdafiə naziri çıxış elədi. Müdafiə naziri vəzifəsini icra edən şəxs müdafiə naziri olmamışdan qabaq Baş Qərargahın rəis müavini idi, sonra da rəisi oldu və həmin hissə uzun müddətdir fəaliyyət göstərir. Müdafiə nazirinin birbaşa günahıdır ki, o hissə bu gün də həmin Lənkəran zonasında qalıb, belə bir səviyyədə fəaliyyət göstərir və Müdafiə Nazirliyi öz işini başqalarının boynuna heç vaxt atmır. Əvvəla, fikirləşmək lazım idi ki, cənub zonasında, ümumiyyətlə, belə bir diviziyanın saxlanmasına ehtiyac var idi, ya yox? Əgər sərhədləri qorumaqdan söhbət gedirsə, bunun balansı olmalıdır və Müdafiə Nazirliyi bunu çox gözəl bilir. Əgər hansısa siyasi məqsədlər üçün həmin diviziyanı orada saxlayırlarsa, Müdafiə Nazirliyinə cavab verməlidir və deməlidir, niyə saxlayır. Bu gün burada, demək ki, Müdafiə Nazirliyinə tabe olmur, Müdafiə Nazirliyinin əmrlərini yerinə yetirmir, bilirsiniz, heç kim qarşıdurmaya getmək istəmir.

Deyirlər ki, maaş almır, ola bilməz, 5 gün bundan qabaq nə isə bir əmr veriblər, maaş vermirlər. Burada minlərlə adamdan, yüzlərlə silahdan söhbət gedir. O hissə bu gün Müdafiə Nazirliyinın hesabındadır. Müdafiə Nazirliyi bu gün bunu atıb Daxili İşlər Nazirliyinin, Milli Təhlükəsizlik Nazirliyinin, dövlət rəhbərlərinin boynuna ki, bu məsələni siz həll etməlisiniz. Mən yenə vəziyyətin gərgin olduğunu və Surət Hüseynovun Baş nazir kimi bu regionda olmasını nəzərə alaraq, belə bir təklif verərdim ki, bu məsələnin həlli üçün Surət Hüseynova müəyyən qədər

vaxt verilsin, 3-5 gün, ya bir həftə. Surət Hüseynov istənilən hörmətli şəxslərlə, mən də orada iştirak eləməyə hazıram, heç nədən çəkinmirəm, bu məsələni biz qısa müddətdə, bir həftə ərzində yoluna qoyaq və həmin diviziyanın orada saxlanması və oradan çıxarılıb döyüşə göndərilməsi də rəsmi qaydada həll olunsun. Mənim Lənkəran zonası ilə əlaqədar təklifim bundan ibarətdir.

Burada bir sıra məsələlərə toxunduq. O cümlədən, demək olar ki, Rəhim Qazıyevlə əlaqədar məsələyə. Mən öz münasibətimi bildirməliyəm. Əvvəla, Rəhim Qazıyevlə bizim münasibətimiz həmişə gərgin olub. Millət vəkillərinin əksəriyyəti bilir. Bu da nəylə əlaqədardır, onu heç kim dəqiq bilmir. Amma mən o vaxt birbaşa hərbi sənaye kompleksinə rəhbərlik etdiyim üçün müəyyən nüanslar olub, o nüanslara biz baxmışıq. Bu gün Rəhim Qazıyevin, kimliyindən asılı olmayaraq, bir ağsaqqal kimi Heydər Əliyevə qarşı etdiyi hərəkəti mən, əlbəttə, bəyənmirəm. Bu hərəkət kimliyindən asılı olmayaraq, Azərbaycan xalqına hörmətsizlikdir. Azərbaycan xalqının ənənəsi, ağsaqqala hörmət var, Heydər Əliyevə də bizim hamımızın hörməti var və bunu bəyənirik.

O ki qaldı burada deyirlər, cinayət məsələsi, Heydər Əliyevə də mən bu barədə məlumat vermişəm. Deməli, mən Əbülfəz Elçibəyin sərəncamı, Pənah Hüseynovun şəxsi iddiası ilə Müdafiə Nazirliyini yoxlamışam. Dövlət komissiyasının sədri olmuşam. Mənimlə bir yerdə Hərbi Prokurorluqdan, Prezident Aparatından və digər güc orqanlarından yoldaşlar iştirak edib və mən həmin məxfi materialın bir nüsxəsini Əbülfəz Elçibəyə vermişəm, bir nüsxəsini də həyat üçün, tarix üçün Nazirlər Kabinetinin məxfi şöbəsində saxlamışdım. Bu yaxınlarda Heydər Əliyevin xahişi ilə mən həmin nüsxəni Heydər Əliyevə təqdim etmişəm. O materiallar prokurorluqda çoxdandır. Bu günün materialı deyil, 46 səhifədən ibarət materialdır, özü də orada mən açıq deyim, heç də faktiki olaraq dəqiq yoxlama aparmamışıq, yalnız verilən sənədlər əsasında və bir sıra anbarları, haradasa 60-a yaxın adamı, hərbçiləri və inzibati orqanları cəlb etməklə yoxlamalar aparmışıq. Çox təəssüflər olsun ki, prokurorluqda bu gün yalnız hərblə əlaqədar deyil, iqtisadiyyatla əlaqədardır materiallar, həddən çox yatıb qalır. Gözləyirlər, görək kim hakimiyyətə gələcək ki, onun adamlarına toxunmasınlar. Kim hakimiyyətdən getsə, onun adamlarını vurub yıxacaqlar. Yaxşı olardı ki, prokurorluq o materialların hamısını analizdən keçirsin. Yalnız hərblə, o cümlədən iqtisadiyyatla əlaqədar olaraq mən konkret deyə bilərəm, hamısını qaldırsın, yoxlasın və baxsın, görək o materiallardan nə iyi gəlir.

Burada, ümumiyyətlə, Heydər Əliyev mənim ünvanıma bir-iki kəlmə söz dedi, ağsaqqaldır, mən onu qəbul edirəm, amma yenə deyirəm, mən təsərrüfatdan gəlmiş adamam, heç bir siyasətdə oynayan deyiləm, heç kimin siyasətinə qulluq eləmək fikrim yoxdur, təsərrüfata rəhbərlik edirəm. Bir ildə də mənim işləməyimdə əsas məqsədim ondan ibarət olub ki, biz, iki nəfər adam, mən və Abbas Abbasov pis-yaxşı təsərrüfatı saxlamışıq. İndi kim bunu necə başa düşür, kim düz başa düşür, əyri başa düşür, kimə qulluq eləmişik, bu onun, bir də yuxarıdakı Allahın işidir. Çox sağ olun, minnətdaram.

**Sədrlik edən.** Vahid müəllim, bir dəqiqə, dayan. Mən istəyirəm, soruşum, danışıq aparmaq, kiminlə danışıq aparmaq lazımdır?

**Vahid Əhmədov.** Mən dedim ki, Surət Hüseynov.

**Sədrlik edən.** Siz məni düzgün başa düşün. Siz bu sözləri ayın 3-də müşavirədə də dediniz. Ona görə mən dedim ki, bilirsiniz, bu məsələyə münasibət bildirmək lazımdır.

**Vahid Əhmədov.** Mənim münasibətim mənfidir, Heydər müəllim.

**Sədrlik edən.** Siz onda da münasibətinizi bildirmədiniz, burada da bir kəlmə, amma deyirsiniz, danışıqlar aparmaq lazımdır. Mən Sizdən soruşuram. Siz deyirsiniz, siyasət adamı deyilsiniz. Siz Milli Məclisin üzvüsünüz, Milli Məclis siyasi bir qurumdur, Siz Milli Məclisin üzvü kimi siyasətdən uzaq ola bilməzsiniz. Ona görə Siz bu barədə siyasət adamı deyilsiniz deyib, özünüzü kənara çəkə bilməzsiniz. Mən Sizdən soruşuram, kiminlə danışıqlar aparmaq lazımdır?

**Vahid Əhmədov.** Heydər müəllim, mən təklif verdim ki, Surət Hüseynov başda olmaqla.

**Sədrlik edən.** Yox, mən konkret soruşuram, kiminlə danışıqlar aparmaq lazımdır?

**Vahid Əhmədov.** Əlikram Hümbətovla.

**Sədrlik edən.** Axı Əlikram Hümbətov kimdir? Bunu Siz deyə bilərsiniz?

**Vahid Əhmədov.** Bu bəlanı törədən hələlik odur, Heydər müəllim.

**Sədrlik edən.** Axı Siz mənə deyə bilərsiniz ki, Əlikram Hümbətov kimdir, onu biz tərəf kimi qəbul etməliyik, onun səlahiyyəti nədir, vəzifəsi nədir və onunla biz nə danışıqlar aparmalıyıq?

**Vahid Əhmədov.** Onun heç bir səlahiyyəti yoxdur.

**Sədrlik edən.** Bəs onda sən nə üçün keçən dəfə də, indi də deyirsən ki, danışıqlar aparmaq lazımdır. Mən burada ayın 13-də də axşam bir saat, dünən də burada bir saat danışıqlarla bağlı təfsilatla dedim. Biz nə qədər səbirlə, nə qədər təmkinlə, nə qədər hövsələylə, nə qədər hörmətlə bu işə yanaşdıq, nə qədər ağsaqqallarla işlədik, nə qədər başqa imkanlardan istifadə elədik, bizim hörmətli şeyximiz bu işlə məşğul oldu. Məclis üzvləri bu işlə məşğul oldu. Nəhayət, Baş nazir Surət Hüseynov ora getdi, ondan sonra bu hoqqabazlıqlar çıxdı. İndi Surət Hüseynov getdi onun yanına, şübhəsiz ki, onun ayağına getmədi Lənkərana, Lənkəran xalqı və bir də o bölgənin xalqı ilə görüşməyə getdi, ancaq o orada neylədi? O, Surət Hüseynov gələndə Surət Hüseynovu fəxri qarovulla qəbul elədi, himn çalındı, Azərbaycanın himni, bir də bilmirəm, hansı himn. Bayraq qaldırdı. Sən necə bu işlərə göz yuma bilərsən? Nə cür bunlara qiymət verməyə bilərsən?

İndi də sən bizə deyirsən ki, danışıqlar aparmalıyıq, kiminlə danışıqlar aparmaq lazımdır? Səlahiyyətli bir təşkilat, səlahiyyətli bir orqan, bir tərəf, dövlət varsa, gəlin onunla danışıqlar aparaq, özünü hakim elan etmiş bir müştəbehlə? Siz də deyirsiniz ki, danışıqlar aparmaq lazımdır. Biz də bütün bu imkanlardan istifadə etdik və bunların heç birisi nəticə vermədi. İndi nə istəyirsiniz? Gedək, düşək onun ayağına?

Siz məni başa düşmürsünüz. Ona görə mən deyirəm ki, Sizin mövqeyiniz məlum deyil. Yenə də Siz mövqe bildirmək əvəzinə başlamısınız ki, danışıqlar aparmaq lazımdır, Siz də bu məsələdə iştirak etmək istəyirsiniz. İştirak eləyib deyəydiniz də, Sizə kim mane olurdu, kim əlinizi, qolunuzu bağlamışdı? Siz Nazirlər Kabineti sədrinin birinci müavinisiniz, 3-4 aydır bu proseslər gedir, niyə bunun qarşısını almadınız? Elə buna Heydər Əliyev lazımdır ki, gəlsin, qarşısını alsın? Bu qədər adam oturub burada, niyə qarşısını almadınız? O cümlədən onların içində ən böyük vəzifəlilərdən biri Sizsiniz. Ona görə bu gün də burada tövsiyə vermək ki, danışıqlar aparmaq lazımdır və Siz də bu danışıqlarda iştirak etməyə hazırsınız, guya Siz bizə çox böyük yardım edirsiniz.

**Vahid Əhmədov.** Heydər müəllim, mən heç bir tövsiyə vermək fikrində deyiləm. Üzr istəyirəm, mən, ümumiyyətlə, öz fikrimi dedim, göstərdim ki, Baş nazir Surət Hüseynov bu işdə birbaşa əlaqəsi olduğu üçün o bu işi öz yoluna qoya bilər. Mən ona əlavə təklif verdim. İndi Milli Məclis nə qərar qəbul eləsə, biz o qərarı yerinə yetirək.

**Sədrlik edən.** Yaxşı.

Surət Hüseynov, buyurun.

**Surət Hüseynov,** ***Azərbaycan Respublikasının Baş naziri.*** Hörmətli sədr, hörmətli Məclis üzvləri, Lənkəran bölgəsində yaranmış vəziyyət bugünkü günün, demək olar ki, ən mənfi hallarından biridir, mən bu halları pisləyirəm. Biz Lənkəran bölgəsində yaranmış vəziyyətlə əlaqədar Heydər Əliyev yoldaşla oturub söhbət elədik, müzakirə etdik, belə qərara gəldik ki, mən həmin bölgəyə gedim və orada bu məsələlərlə yaxından tanış olum və bu məsələlərin yoluna qoyulması üçün əlimdən gələn köməklikləri edim. Mən də ayın 1-də bütün nazirləri, şöbə müdirlərinin hamısını həmin bölgəyə göndərdim və özüm də ayın 3-də həmin bölgədə oldum və Lənkəranda müşavirə keçirdim, televiziya, efir vasitəsi ilə, yəqin ki, siz həmin yığıncağa, müşavirəyə baxdınız. Biz orada Əlikram Hümbətovla xeyli söhbət etdik və bu məsələlərə son qoyulması barədə konkret bir fikrə gəldik. Belə qərara gəldik ki, mən Bakıya qayıdandan iki gün sonra o gəlməlidir, gələcək və biz burada bütün məsələlərə baxacağıq, məsələlərin hamısını yoluna qoyacağıq.

İki gündən sonra Əlikram Hümbətov xəbər verdi ki, Cəlilabadda icra hakimiyyətinin başçısını həbs ediblər, halbuki Əlikram Hümbətovun özü qabaqlar onu işdən azad etmişdi. Mənə belə söz-söhbət gəlib çatdı ki, orada həmin icra hakimiyyətinin başçısını – cəbhənin üzvü olub – talış olduğu üçün döyürlər, incidirlər. Bu adam da Cəlilabad rayonunun prokuroruna zəng eləyib və deyib ki, mən sabah səhər-səhər ağsaqqalları götürüb ora gələcəyəm və orada həmin dustaqla söhbət edəcəyik. Əgər bu söhbət yalan olsa, demək olar, heç bir söz-söhbət olmayacaq. O, axşam da zəng edib prokuroru xəbərdar edib ki, sabah həmin o dustaqla görüşməyə gələcək. Səhər tezdən ağsaqqalları götürür ki, getsinlər, həmin vəziyyəti araşdırsınlar. Mən onun dediyi sözləri sizə çatdırıram.

Cəlilabada gediblər və görüblər ki, həmin icra hakimiyyətinin başçısını Bakıya etap ediblər və bununla da bütün söz-söhbətlərimiz alınmadı.

Mənim, demək olar ki, bu məsələyə fikrim çox pisdir, çox mənfidir. Demək olar, bugünkü gün bizim xalqımız müharibə edən bir vaxtda belə bir hərəkət mənim tərəfimdən dəfələrlə pislənilib, şəxsən mən onun özünə də demişəm, ora gedəndə də demişəm ki, bu, səhv addımdır, sən atırsan, bu addımdan çəkinməlisən, nə tələblərin var, buyur, gəl, söhbət eləyək. Hansı tələbin var, oturaq, bir yerdə müzakirə eləyək, həll olunası

tələblərdirsə, biz onları həll edək. O ondan sonra Lənkəranda iclas çağırıb və həmin yığıncaqda onlar Talış-Muğan Respublikası muxtar vilayətini, nə isə belə bir adda qurum yaratmaq fikrində olublar. Mən bunu bildim – onda Heydər Əliyevin yanındaydım – oradan ona zəng etdim. Bir yerdə olanda zəng etdim, onunla danışdım və dedim ki, sən bu yoldan çəkinməlisən və biz onunla söhbət elədik, o həmin icra başçısı barəsində söhbəti danışdı. Bu məsələlər, demək olar ki, bir gün burada xeyli müzakirə olundu, çoxları da bu məsələni Gəncə məsələsi ilə uyğunlaşdırdılar, həm də çox səhv eləyirlər. Bu məsələnin Gəncə məsələsi ilə heç bir uyğunluğu yoxdur. Fürsətdən istifadə eləyib, hərə öz fikrini, öz ürək sözünü çatdırmaq istəyir, ancaq belə bir işdə, mənə belə gəlir ki, məsələyə belə yaxınlaşmağın özü də işi daha da ağırlaşdıra bilər.

Özünüz bilirsiniz ki, respublikada vəziyyət çox ağırdır. Mənə belə gəlir ki, siz özünüz də müharibə vəziyyətini bilirsiniz, vəziyyət həddindən artıq ağırdır, ona görə bu gün burada Lənkəran bölgəsi haqqında məsələnin müzakirəsində mən yenə bu məsələnin həll olunmasını öz üzərimə götürürəm. Mən əvvəlcədən də həmin bölgəyə göndərilmişdim, mən də bu məsələyə axıra kimi baxmalıyam və bu məsələni nəyin bahasına olursa olsun qaydasına qoymalıyam. Bu belə də olacaq.

Mən qəti tədbirlərin, güc işlətməyin əleyhinəyəm. Mənə belə gəlir ki, biz bütün siyasi yollara əl atmalıyıq, əgər baş tutmazsa, güc işlətmək haqqında qərar qəbul edə bilərik. Ancaq hazırda güc işlətməyin mən əleyhinəyəm. Əlikramın bütün hərəkətlərinin hamısını pisləyirəm, bu vəziyyətdə, elə Vahid Əhmədov da dedi, yenə mənə tapşırmalısınız, çünki bu məsələylə əvvəldən mən məşğul olmuşam, axıra kimi də mən məşğul olmalıyam. Demək olar ki, bu, şəxsən mənim işimdir, mən getmişəmsə, mən də bu məsələni axıra çatdırmalıyam. Ona görə də mən sədrdən, Məclis üzvlərindən xahiş edərdim ki, bu məsələni mənə tapşırsınlar, vaxt versinlər, mən özüm bu məsələylə məşğul olum və bunu qaydasına qoyaq. Bu heç də bütün talış millətinin sözü deyil, bu ancaq Əlikramın öz uydurmasıdır, mənə belə gəlir ki, mən də bu məsələni yoluna qoymağa hazıram. Çünki əvvəldən də mən bu məsələylə məşğul olmuşam.

Qaldı Rəhim Qazıyevin dünənki hərəkətinə, mən Rəhim Qazıyevin dünənki hərəkətini pisləyirəm. Ancaq bir şeyi də sizin nəzərinizə çatdırmaq istəyirəm, mən Gəncədə olan vaxt həmin Rəhim Qazıyev idi, gəldi, mənə məsləhət gördü ki, Heydər Əliyev bizim millətin ağsaqqalıdır, Heydər Əliyev respublikaya ağsaqqallıq etməlidir və mən də

onun bu təklifini bəyəndim, dedim, Heydər Əliyev dünyada tanınmış siyasi xadimdir və bizim respublikada, doğrudan da, ağsaqqal bir şəxsdir, respublikanın bu ağır vəziyyətində hamımız ona hörmət etməliyik, hörmətini saxlamalıyıq. Mən bu fikri ona görə çatdırdım ki, Rəhim Qazıyevə deyilir, belə səhv hərəkətləri olub, Şuşanı verib, Laçını verib, mənə belə gəlir, bu məsələ inzibati orqanlara tapşırılmalıdır, bu məsələni axıra çatdırmalıdırlar. Əgər doğrudan da, onun elə bir cinayəti varsa, mənim qardaşım da olsa, onun tərəfini saxlamaram. Ona görə mən xahiş edirəm, mənim sözlərimi düzgün başa düşəsiniz, bu məsələdə artıq bizim düşmənimiz olan bir vaxtda biz bir-birimizdən düşmən axtarmayaq, gəlin əl-ələ verək, müharibəmizi edək. Mənə belə gəlir ki, bu məsələni belə də yekunlaşdırmaq lazımdır. Şəxsən sədrdən xahiş edirəm.

Bir həftədən sonra bu məsələyə qayıdarıq, Lənkəran məsələsi ilə şəxsən mən özüm bir daha məşğul olacağam, çünki əvvəldən bu işə mən başlamışam, mən də axıra çatdırmalıyam. Heç bir Talış-Muğan Respublikasından, milli azlıqların heç bir başqa qurum yaratmasından söhbət gedə bilməz, bizim hamımız qaynayıb qarışmışıq, hətta bizim qohumluq əlaqələrimiz var. Mən keçən dəfə Əlikrama dedim ki, mənim Lənkəranda səndən çox qohumlarım var, mənim burada sözüm səndən çox keçər. Ona görə də bu fikir şəxsən Əlikramın öz fikridir, mən bunu Lənkəran camaatının fikri saymıram və orada xalqla söhbət eləyəndə də mən bunu başa düşdüm, Əlikramın özünə də dedim ki, sən bu qeyri-qanuni hərəkətlərindən əl çək. Ona görə də, xahiş edirəm, mənim bu təkliflərimi nəzərə alasınız. Bizim bu Məclisin dünəndən gedən iclasında, xahiş edərdim, bu təklifləri nəzərə alasınız, qəti tədbirlər görülməsi haqqında qərar hələlik bir həftə saxlanılsın, bu vaxt müddətində şəxsən mən özüm onunla məşğul olum, axıra çatdıraq, bu məsələyə son qoyaq.

Mənə belə gəlir ki, bugünkü gündə bizim bir-birimizə güllə atmağımızın, yenidən qan tökməyin heç də xeyri yoxdur, qan tökmək istəyirsinizsə, torpaqlarımız işğal oluna-oluna gəlir, gəlin gücümüzü bir yerə toplayaq, gedib düşmənlərimizlə vuruşaq. Əlikram məsələsini də qaydasına qoymağa mən Məclis qarşısında söz verirəm və o işi axıra çatdıracağam. Sağ olun.

**Sədrlik edən.** Rəhim Qazıyev buyursun.

**Rəhim Qazıyev**. Hörmətli parlament, mən çıxışıma başlamamışdan qabaq dünən elədiyim hərəkət üçün ancaq Heydər Əliyevin yaşına görə ondan üzr istəyirəm. Çünki o deyilən ittihamlar Heydər Əliyevə hansı

şəkildə çatdırılıb, bilmirəm, onların hər hansı biri düzgün çıxarsa, mən öz qanımla onu yumağa hazıram, hər hansı biri.

Təəssüflər olsun ki, biz belə yerlərdə çox şey görmüşük və əlavə olaraq Talış-Muğan Respublikasının yaradılması və Qusar məsələsində dedilər, yenə orada da mənim kənardan, dolayı hər hansı rolum olsa, onda da mənə heç bir mizan-tərəzi, cəza lazım deyil, bir silahı verərsiniz, içində də bir dənə güllə. Mən özüm-özümü qətlə yetirə bilərəm.

**Yerdən.** *(Eşidilmir.)*

**Rəhim Qazıyev.** Xahiş edirəm, reaksiyanızı saxlayın. Dünəndən bəri burada çox söhbətlər oldu və bu zalda biz çox belə dramatik məsələlərin şahidi olmuşuq. Hörmətli sədr, yadınızdadırsa, 1991-ci ildə bu gün Sizə "ata" deyən adamlar burada birinci hansı hərəkətləri göstərdi, mən onun şahidiyəm, Siz də şahidsiniz. 1991-ci ildə Sizin adınızı tutmaq belə təhlükəli olanda biz 4 nəfər xeyirxahla gəldik Naxçıvana, 3 saat 55 dəqiqə də Sizinlə söhbət elədik. Orada da yəqin xatirinizdə var ki, separat və yaxud da vəzifə bölgüsü danışığı olmamışdı, ancaq torpağın, millətin taleyindən söhbət gedirdi.

O ki qaldı Ayaz Mütəllibovun respublikaya Prezident gətirilməsi, ona da dair hər hansı fakt varsa, yenə mən başımı verməyə hazıram. Mən həmişə burada açıq demişəm, Siz də gələndə dedim ki, Ayaz Mütəllibov da və başqaları da dəvət olunsun, bu bəladan bir yerdə çıxaq. Bu, budur. Mən heç bir məsuliyyətdən boyun qaçırmıram, bu gün də hansı qərar çıxarılsa, mən ona gedəcəyəm, həbs, həbs, güllələnmək, güllələnmək, mən bu torpaqdan heç yerə gedən deyiləm. Həyatımdan artıq sevdiyim torpağımın da parçalanmasını ömrü boyu heç cür ağlıma da gətirməyib onun bütövlüyü uğrunda da mübarizə aparmışam. Sizin bura gəlişinizdə də mənim məqsədim o olub ki, ağsaqqal kimi gəlib bütün məsələləri yoluna qoyasınız. Kimsə, haradansa söz gətirirsə, ixtiyari vaxt məni çağırıb, necə ki, o dövrdə çağırırdınız, 3-də, 4-də, 5-də də gecə həmişə gəlmişəm, əlimdən gələni də etmişəm.

Mənə burada ittihamlar olunur ki, niyə mən Lənkərana getmişəm. Birinci, Heydər müəllim, yadınızdadırsa, hələ iyul ayı idi, Sizinlə məsləhətləşdik, mən Lənkərana getdim və gəldim, Sizə dedim, orada vəziyyət gərgindir, yaxşı olar ki, o camaat üçün özünüz bir gedəsiniz. Sizin ora gedişinizin çox böyük əhəmiyyəti olar. Ondan sonra iki dəfə getmişəm və hər birində də Ağcabədi bölgəsində vəziyyətin ağırlığına görə Əlikramdan ora taborlar göndərilməsi üçün çox təvəqqe eləmişəm. Əgər

başqa bir söz, fakt varsa, mən buradayam, həmin adamlar çıxıb deyə bilərlər. Ona görə də bu sözləri bu gün – üzr istəyirəm, dəliyə yer ver, əlinə bel ver sözləri ilə – hərə çoxdan ürəyindən gələn, cəsarəti çatıb deməmdiyi sözləri burada yerli-yersiz deyir. Bu heç də məni qorxuzmur, hər hadisənin zamanı, vaxtı var.

Dünəndən mənə burada bəzi suallar oldu, mən onlardan başlamaq istəyirəm. Birinci, 704-cü hərbi hissənin yaranma tarixi. 704-cü hərbi hissə o dövrdə yaranırdı ki, bu gün bura çıxanların hamısı ittiham edirdi, Müdafiə Nazirliyi, filan, axı ən ağır dövrdə Müdafiə Nazirliyinə nə verilmişdi və nə hərəkət eləməliydi. Həmin dövrdə heç nəyimiz yox idi, heç nəyimiz. Nə binamız, nə rabitəmiz, nə nəqliyyatımız, nə silahımız, nə sursatımız var idi və yaxşı yadınızdadır ki, həmin dövrdə 4-cü ordu burada idi və hər gün də aranın qatışdırılması, camaatın qarşı-qarşıya qoyulması, ordu ilə yerli hissələrin arasında gərginliyin gündən-günə artması üçün təxribatlar hazırlanırdı. Məndən əvvəl yaranmış özünümüdafiə dəstələrinin bir yerə yığılması sadə proses deyildi və qısa müddətdə heç bir baza olmadan, heç bir rəsmi struktur, inzibati struktur lazımınca işləmədən bu prosesin də öhdəsindən gəlmək ağlagələn bir şey deyildi. Ona görə də o dövrdə, nəinki o dövrdə, bütün müxtəlif yerlərdə orada bu məsələlər yaranırdı.

Qəribə burasıdır ki, Lənkəranda çıxan qəzet var, orada Əlikram Hümbətovun da tərcümeyi-halı verilib, yazılıb, hələ keçən ilin oktyabr ayında müdafiə naziri gördü, Əlikram Hümbətovun regionda nüfuzu qalxır, onu Müdafiə Nazirliyinə gətirdi. Əvvəla, indi Əlikram Hümbətovu hamı burada mənfi tərəfdən xarakterizə edir, Əlikram Hümbətov mənfi adam deyil, hansı cərəyanın təsirinə düşüb, bu, araşdırılmalıdır. Həmin 60-cı diviziyanın da orada salamat qalmasında və gecə-gündüz Azərbaycandan Cənubi Azərbaycana, yəni İrana qeyri-qanuni keçən mal-qaranın və Azərbaycan əmlakının, demək olar ki, yeganə qoruyucularından biri olub. Dünən burada dedilər ki, sərhəddən keçən 180-dən artıq mal-qaranı gətirib, hərbi hissədə köməkçi təsərrüfat yaradıb, 28 motosiklet oradan, həmin sərhəddən tutulub. Bunların hamısı araşdırılsın, istər müstəqil istintaq qrupu, istərsə də prokurorluğun nəzdində başqa istintaq qrupu yaradılsın və işinə başlasın. Hansı nəticəyə gəlib çıxarsa, onda o nəticədən əmələ gələn müddəalarla ixtiyari cəza verilə bilər.

Bu gün qeyd olundu ki, Aypara ora gedəndə mən də onun izinə düşüb getmişəm. Bu belə olmayıb. Mən dediyim kimi, öz rayonumuza gedirdim, oradan gedib Ağcabədi bölgəsində vəziyyətin çox ağır olduğunu

görəndə – hələ onda Aypara yatmışdı – gecə saat 2 idi. Mən orada 2-3 saat oturub o məsələləri həll edib – Aypara bizim danışığımızda iştirak edib – oradan rayona getmişəm.

Burada deyildi ki, mən Sizin kabinetinizə soxulmuşam. Belə olmayıb. Çox təəssüf ki, Baş nazirin fikrindən çıxdı, ya nə bunu demədi. Mən rayonda idim, evə zəng olunub, evdə olmamışam və orada dəzgahlar işləmirdi, onlara o bəzi ehtiyat hissələrinin tapılması üçün mən 3-cü zavodun fəhlələri ilə oraya getmişdim. Zavoda zəng olundu və Surət Hüseynovla danışdıq, o mənim təcili Bakıya gəlməyimdə təkid elədi və elə oldu, gəldim. Dedi, 4-də gedib söhbət elə, Siz dediniz ki, sən söhbətdə olmamalısan, mən də çıxdım, getdim. Bunların hamısı ortadadır, məsələnin bu şəkildə qoyulması heç də məsələnin araşdırılması üçün real imkan yaratmır.

Burada Şuşanın icra başçısı Nizami Bəhmənov danışdı, mən çox təəssüf edirəm ki, insanların sifəti 100 istiqamətə dönə bilər. Guya belə çıxdı ki, indiyə kimi Laçını, Şuşanı, Kəlbəcəri də mən satmışam və ümumiyyətlə, erməni ilə müharibəni mən başlamışam. Əvvəla, Şuşanın verilmə tarixi sizin yaxşı yadınızdadır, 20 apreldən burada mitinqlər başladı, mitinqlər bir-birini əvəz elədi və yaxşı bilirdiniz ki, hələ ordunun heç bir şeyi formalaşmamışdı və orada hərbi hissələr, yaxud könüllü hissələr müxtəlif qurumlar tərəfindən Bakıya çağırıldı. Heydər bəy, Siz dediniz ki, ayın 15-də Əbülfəz Elçibəy tribunada olanda mən onun böyründə idim. Xeyr, mən ayın 15-də yox, 17-də olmuşam və gəlib dediyim söz də o olub ki, 14-də bir ləyaqətsizlik, 15-də ikinci ləyaqətsizlik oldu.

Burada qeyd elədilər, guya mən ayın 15-də də MDB-yə getmişdim, xeyr, orada Azərbaycanda olan 4-cü ordu hissələrinin təhvil-təslim aktına qol çəkilməli idi, mən gedib orada o təhvil-təslim aktına qol çəkmişəm. Heç bir MDB-yə, yaxud təşkilata qol çəkməmişəm və mənim ona heç bir səlahiyyətim də yox idi. Bu faktların bu qədər deformasiya olunmuş şəkildə bura gətirilib çatdırılması və bu gün belə haqlı-haqsız tənqidlərin, nə bilim, haqqı olan, olmayan adamların söz danışması adama çox təsir edir.

Mən işlədiyim müddətdə heç bir möhtəkirlik eləməmişəm, istər Rusiya ilə olsun və ümumiyyətlə, Rusiyadan başqa heç bir əlaqə olmayıb, çünki bizdə olan ordu hissələri Rusiyanın əmlakı hesab olunmuşdu və bütün məsələlər gedib onlarla hazırlanırdı. Əgər istər silah, istərsə də sursat alınması barəsində orada hər hansı bir kölgəli şey, silah adı ilə

xalqın pulu, malının mənimsənilməsi olarsa, ona da cavab verməyə hazıram və mən heç vaxt deməmişəm ki, mən getməsəm, mən müdafiə naziri olmasam Azərbaycan əldən gedəcək. Heydər müəllim, kim bunu deyib, xahiş edirəm, çağırın, çünki Sizin yanınıza girib Sizi tamamilə səhv istiqamətə yönəldənlər var. Mən həmin Rəhiməm ki, gecə saat 2-də də, 3-də də Siz məni çağırırdınız, mən gəlirdim, onda da mən heç bir vəzifənin sahibi deyildim.

Lənkərana da gedəndə mənim daxilimdə, ürəyimdə heç bir pis niyyət olmayıb və ona görə də ürəkli getmişəm. Burada dedilər ki, vertolyotla uçmuşam Qusara və orada da Qarabulaqda oturub çörək yemişəm. Bu adamın vicdanı varsa, çağırsın o adamı da, mən harada oturmuşam. Mən fevralın 2-də, bütün tarix boyu bircə dəfə Qusara getmişəm, orada hərbi hissədə texnika pis vəziyyətdə idi, örtüyü-zadı dağılmışdı, 4 saat cəmisi orada olub qayıtmışam. Deyilən sözlərin, heç olmasa, mahiyyəti olmalıdır. Sonra burada bir ağsaqqal dedi ki, nə bilim, Şeyx Şamilin və kimin Zaqatalada... Canım, qəribə burasıdır ki, mən bütün bu hərəkat dövründə Zaqatalaya bir dəfə də olsun getməmişəm. Axı bunların hamısını bu gün uydurub bu şəkildə deməyin nə əhəmiyyəti var və bundan kim nə qazanacaq? Faktı desinlər. Hər kəs gəlir, elə danışır ki, adam özü də özündən şübhələnir, əşi, bəlkə, mən bunu eləmişəm? Real demək lazımdır, mən nə tutulmaqdan, nə də əzabdan qorxmuram. Amma bir haqsız böhtan məni ağrıdır, həmişə mən bu torpaqdan ötrü canımı vermişəm, yenə də verməyə hazıram. Çoxları da çox arzulayır ki, Rəhim niyə gülləni vurmadı. Rəhim hələ mübarizəsini davam etdirir və bu torpaqlar uğrunda gedən mübarizədən mən hələ çəkilməmişəm. Mənim də taleyim çatanda mən də öz ömrümü hansı yolla da olsa verəcəyəm.

Burada dedilər, Rəhim Qazıyevi tanıyırlar. Mən guya ki, lap rüşvətxor olmuşam, cibgir olmuşam, bütün Müdafiə Nazirliyini dağıtmışam. Axı Müdafiə Nazirliyini yaranmağa qoymadılar. Burada dedilər, orada cinayətkar ünsürlər var idi, mən xahiş edirəm, Hərbi prokuroru – özü də onun mənimlə münasibəti yaxşı olmayıb – bu Məclisə dəvət edin. Dəfələrlə burada təklif eləmişəm ki, fərarilərə, qaçanlara, yaxud başqa tərtibdə təxribat göstərənlərə qarşı ölçü götürülsün. Hansı üsulla, hansı yolla mən mübarizə aparmalıydım? Onda, deməli, bir əsəbi gərginlik, mən bir adama silah işlətməliydim, üçqat ittiham olunmalı idim? Mən Müdafiə Nazirliyində işləyəndə vicdanımla işləmişəm.

Heydər bəy, Sizdən heç gözləməzdim ki – insan əsəbləşə də bilər, amma o sözü mən gözləməzdim – mən Baş nazir, yaxud Prezident ol-

maq istəmişəm, harada, kimdən eşitmisiniz onu? Mənim özümdənmi eşitmisiniz? Mən əgər burada struktur təklif edirəmsə, atam, babam, yaxud şəxsi adam üçün təklif edirəm? Xeyr. Azərbaycan müstəqil dövlət istiqamətində gedir. Azərbaycanın müstəqil dövlətçiliyinin özünün struktur... Bu nə Heydər Əliyevdən, nə Surət Hüseynovdan, nə də başqalarından ötrü yaranmır. Yaranan struktur odur ki, gələcəkdə Azərbaycan xalqının müstəqil və inkişafa doğru hərəkət etməsində, yəni bu struktur, heç olmasa, 5-10 il bu respublikanı bir düzgün istiqamətdə apara bilsin.

Sonra burada dedilər ki, Rəhimin iki adamı Qusara yola düşdü. Mən 4 saatdır o uşaqları orada saxlamışam, nə Qusara yola düşüblər, özü də buradadırlar, mənim heç Qusara yola düşüb orada istəyəcəyim, yaxud təşkil edəcəyim bir təxribat yoxdur. Dedilər, burada silahlı dəstələr var. Xeyr! Vaqif Novruzov bilir ki, həmin silahlar onun göstərişi ilə hərbi polisdən verilib. Mənim silah bazam yoxdur, mən müdafiə naziri olanda özüm üçün iki dənə avtomat da saxlamamışam, o mənə lazım da deyildi. Nə özüm üçün tabor yaratmamışam, nə də o mənə lazım deyildi və bunu bu şəkildə gəlib təhrif edib deməyin heç kimə nə xeyri yoxdur, nə də bugünkü Azərbaycandakı gərginliyi azaltmayacaq, daha da artıracaq. Mənim silahlı dəstələrim olmayıb, yoxdur və olmayacaq. Mən heç vaxt Azərbaycan hökumətində ya Baş nazir, ya da Prezident olmağı arzulamamışam, indi də arzulamıram və bu gün yenə də ümidimi itirmirəm ki, Siz bütün qüvvələri birləşdirib respublikanı idarə edə biləcəksiniz. Mən o ümidimi itirmirəm, mənə şəxsi münasibət də pis ola bilər, bu məni heç narahat eləmir, insandır, həyatda müxtəlif gərginliklər olur və bu müxtəlif gərginliklərdən də ağılla çıxmağı bacarmaq lazımdır.

Deməli, mən bu Məclisdə elə sifətlər gördüm, yaxşı ki bu oyun düzəlmədi. Burada adamlar, Yəhyayev, 7 maşını sən ən gərgin vaxtda evinə göndərdin, oradan Sabirabada, birini də uşaqlar yolda yandırdı, heç olmasa, hərənin danışmağa bir haqqı olmalı idi.

**Yerdən.** *(Eşidilmir.)*

**Rəhim Qazıyev.** Mən əgər onu göndərmişəmsə...

**Sədrlik edən.** Səs salmayın.

**Yerdən.** *(Eşidilmir.)*

**Rəhim Qazıyev.** Oldu, oldu, aydındır. Satmışam, yəqin, pulunu səninlə bölmüşəm.

**Yerdən.** *(Eşidilmir.)*

**Rəhim Qazıyev.** Saxlayarsan. Mən heç bir rayona heç vaxt maşın göndərməmişəm, oradan ev və yaxud... İstər Şuşada və istərsə də digər yerlərdə mənim heç bir konkret ya şifahi, ya yazılı əmrim olmayıb ki, bölgələr boşaldılsın. Əgər belə bir şey varsa, üzə çıxarılsın, mən tam məsuliyyəti ilə o məsuliyyəti daşımağa hazıram. Bunların hamısı hazırlanmış metodlardır və Sizə gəlib çatan informasiyalar düzgün deyil. Mən xahiş edirəm, onu dəqiqliyi ilə yoxlayın, bu yoxlayan müddətdə lazımdır mənim izolyasiya olunmağım, mən bu gündən gedib həbsə girməyə hazıram, o məni qorxutmur, amma hər halda, danışanlar, heç olmasa, özləri öz qarşılarında hesabat versinlər. Mən bütün 6 il dövründə neyləmişəmsə, xalqımızın azadlığı, torpağımızın bütövlüyü üçün eləmişəm və bunu da həmişə eləməyə hazıram.

Orada qeyd elədilər ki, hərbi hissə Rəhim Qazıyevin vaxtında ələ keçirilib. Bu, düz deyil. Hərbi hissə oradan alınandan sonra tamamilə Müdafiə Nazirliyinə təhvil verilib, iki briqada komandiri mən fevralda çıxandan sonra ora göndərilib. Özü də burada dedilər ki, Əlikram Hümbətov çıxarılıb, xeyr. Mən istefa verən gün Əlikram Hümbətov özü ərizə yazıb və buradan çıxıb gedib. Yerdə qalan hansı faktlar varsa, buyursunlar, mən ona cavab verməyə hazıram və kimin də sualı varsa, indi də burada verə bilər. Mənim dediyim bu qədər və mən istəmirəm ki, bizim hörmətli deputatlar bir az da əziyyət çəksinlər. Mən öz mandatımı və vəsiqəmi də təhvil verirəm. Ondan ötrü səsə qoymaq lazım deyil.

**Sədrlik edən.** Rəhim Qazıyev, bəlkə də, bəzi şeyləri başa düşdü. Dünənki hərəkətləri ilə bugünkü çıxışı arasında... Mənə niyə təhvil verirsən, mən bunun sahibi deyiləm, bunun... Dünənki hərəkətləri ilə bugünkü çıxışı arasında fərq, şübhəsiz ki, görünür, ancaq mən bir neçə kəlmə deməliyəm.

Burada dünən də, bu gün də çıxış edən adamlar hərəsi öz bildiyi kimi çıxış edir və onlarda olan faktlar, məlumatlar haqqında deyirlər. Onların nə qədər doğru, ya doğru olmaması onların üzərindədir, ancaq o sözləri ki mən demişəm, ümumiyyətlə, Lənkəran və onun ətrafında olan rayonlarda baş vermiş qanunsuz hadisələr haqqında, Əlikram Hümbətovun özbaşınalığı, qanunsuz işləri, cinayətkarlığı və orada insanların hüquqlarını pozması haqqında, bunlar hamısı mənim öz müşahidələrimdir. Əlikram Hümbətovla iki dəfə görüşümdən aldığım məlumatlardır. Bu məlumatları mənə heç kəs verməyib. Rəhim Qazıyevin Lənkəranda olan bu proseslərlə əlaqədar məsələlərlə əlaqəsi haqqında mənim dediyim sözlər, bu barədə çox yerlərdə, müvafiq orqanlarda məlumatlar

var. Ancaq mənim dediyim sözlər, onlar da mənim öz müşahidələrimdir və Rəhim Qazıyevin özü ilə mənim apardığım söhbətlərdir.

Əgər Rəhim Qazıyev bu gün də qeyd etdi ki, Əlikram Hümbətov çox yaxşı bir adamdır, orada, nə bilim, camışları harasa yığıb, yaxud sərhədi qoruyur, neyləyir, bəs Rəhim Qazıyev düşünmür, bu adam qanunsuz işlər görür. Məntiq yoxdur. Əgər o, yaxşı adamdırsa, Rəhim Qazıyev də onun dostudursa, bəs Rəhim Qazıyev onu nə üçün düz yola dəvət etmədi? Doğrudur, mən ilk vaxtlar burada işləyəndə oradakı olan proseslər haqqında mənim Rəhim Qazıyevlə söhbətlərim olub. Onda mən hələ bu məsələni o qədər təfsilatı ilə bilmirdim və Rəhim Qazıyev özü təklif edib ki, mən o adamı tanıyıram, yaxşı adamdır, buna qarşı ədalətsizliklər olub, ona görə də icazə verin, mən gedim, onunla danışım, bu məsələləri həll edim. Mən də çox məmnuniyyətlə bunu qəbul etmişəm, hər bir şəxsin bu gün də, sabah da bizim ümumi işin düzgün istiqamətdə getməsinə səyini, yaxud fəaliyyətini bəyənmişəm, bəyənirəm və mən hamını bu işə dəvət edirəm. Ona görə də bizim işimizin ilk vaxtlarında Rəhim Qazıyev mənə belə bir təklif verdi, mən də o təykliflə razı oldum. Rəhim Qazıyev getdi, gəldi, ancaq nəticəsi nə oldu? Əgər bunun nəticəsində Əlikram Hümbətov özünün bu qeyri-qanuni hərəkətlərindən əl çəkmiş olsaydı, onda, şübhəsiz, belə aydın olardı ki, Rəhim Qazıyev bizim ümumi işə kömək edir.

Ancaq ondan sonra – bu, təxminən iyun ayının, ola bilər, 20-si ilə 25-i arasında olan söhbətdir – indi təsəvvür edin, iyun ayı qurtarıb, iyula keçib və nəhayət, avqustun 13-də mən son dəfə Əlikram Hümbətovla görüşmüşəm. Əlikram Hümbətov bu dövrdə elə bizim gözümüzün qabağında və Rəhim Qazıyevin, bir də təsdiq və təkrar edirəm, iştirakı ilə hərc-mərcliyə, özbaşınalığa, dərəbəyliyə, orada bütün məsələləri pozmağa çalışıb. Bəs onda Rəhim Qazıyevin burada rolu nədən ibarətdir? Mən bunu bu məsələ haqqında deyəndə sual verdim, rolu nə olub, mənfi, ya müsbət, mən deyirəm, mənfi, bu gün də deyirəm, mənfi, indi də deyirəm, mənfi. Çünki əgər müsbət olsaydı, biz bura yığışmazdıq. Biz iki gündür bu məsələni müzakirə etməzdik. Əgər bu gün Rəhim Qazıyev dedi ki, Əlikram dəyərli adamdır və Rəhim Qazıyevlə, doğrudan da, dostdur, ona təsiri var, o bu məsələni həll eləməli idi. Nə üçün ondan sonra biz Baş naziri bu işə qoyduq və o da getdi, o da bu işi həll eləyə bilmədi. Niyə? Nədən ötrü belə oldu? Burada məntiq yoxdur axı. Buna görə Sizin bu dediyiniz sözlərə mən inanmıram. Ancaq mən dediyim sözlərin cavabdehiyəm və həqiqət də bundan ibarətdir.

O ki qaldı Siz neçə dəfə getmisiniz, mən bunu saymamışam, amma çox getmisiniz, bu, hər yerdə var, çox getmisiniz. Xüsusən Baş nazir Surət Hüseynov öz nümayəndəsini ora göndərəndə Siz ora getmisiniz, indi deyirsiniz ki, getdiniz Ağcabədiyə, gördünüz ki, vəziyyət xarabdır, gəldiz ora. Bilirsiniz, bu, indi Sizin öz işinizdir, Siz buna cürbəcür izahat verə bilərsiniz. Həqiqət belə deyil. Ancaq deyirəm, heç şeyi gizlətmirəm, mən bunu biləndən sonra ki, Surət Hüseynovun nümayəndəsi ora Rəhim Qazıyevlə bərabər gedib, mən Surət Hüseynovdan soruşdum, Surət Hüseynov mənə dedi, onlar bərabər getməyiblər. Aypara ora Surət Hüseynovun göstərişi ilə gedib, Rəhim Qazıyev bilib ki, Aypara ora gedib, onun dalınca gedib və dəqiq məlumatlar var, Rəhim Qazıyev, Aypara və Əlikram gecə səhərə qədər qonaq evində oturub söhbət ediblər. Yaxşı, nə üçün bu söhbətdən sonra bir nəticə olmadı? Hətta Surət Hüseynovun nümayəndəsi ora getdi, nə üçün bir nəticəyə gəlmədi? Bu belə.

İkinci, indi nə cür Siz gəldiniz, Surət Hüseynov Sizi dəvət elədi, Əlikramla görüşmək, bu öz işinizdir, ancaq yenə də deyirəm, mən Sizi ora dəvət eləməmişdim. Ancaq mənə məlumdur ki, Əlikram məni təhqir edəndən, böhtanlar deyəndən, cürbəcür ittihamlar edəndən sonra, nəinki mənə, Surət Hüseynovdan savayı, Azərbaycanın bütün bugünkü rəhbərliyini hər cür ittiham edəndən, Milli Məclisə qarşı nifrət hissi bildirəndən, filandan sonra Siz özünüz çıxanda tapşırmısınız, Əlikram çıxanda mənim yanıma gəlsin. Əlikram çıxıb mənim yanımdan gəlib Sizin evinizdə olub.

**Rəhim Qazıyev.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, yox, məlumdur.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Xeyr, xeyr, Əlikram ora gedəndən sonra Siz yenə də getmisiniz ora, onun evində bir yerdə oturmusunuz, bunu Lənkəranda hamı bilir, rus demiş, onlar hamısı "зафиксированный" şeylərdirlər. Onda niyə gedirdiniz, nəyə gedirdiniz ora? Yaxşı, Siz gördünüz ki, Əlikram gəldi, burada məsələni həll eləmək əvəzinə, durdu, Ali Sovetə, onun sədrinə, Milli Məclisə böyük ittihamlar oxudu, çıxıb getdi, ondan sonra nəyə gedirdiniz ora? Mən cavab istəmirəm. Mən, sadəcə olaraq, bu şeyləri bir də təkrar edirəm, deyirəm ki, mən dediyim şeylər həqiqətdir.

O ki qaldı Ayaz Mütəllibov haqqında, Siz dəfələrlə bunu demisiniz, başqa adamlara da demisiniz, o adamlar gəlib mənə deyiblər, adlarını çəkmirəm, ancaq neçə dəfə şəxsən mənim özümə demisiniz. Siz şəx-

sən mənim özümə Ağdama hücumlar olanda zəng elədiniz ki, tezliklə Mütəllibovu gətirmək lazımdır. Mütəllibov orada Rusiyanın müəyyən dairələrinə göstəriş verir, onlar Rusiyadan xüsusi kömək edirlər və Ermənistanın qoşunları gəlib Ağdamı alır. Mütəllibovu tez bura gətirmək lazımdır ki, Mütəllibov gəlsin, burada guya bizə kömək eləsin. Bu sözləri Siz mənə demisiniz, başqasına deməmisiniz ki, telefonla demisiniz də. Bundan sonra Siz əgər mənimlə danışsanız, sözlərinizin hamısını lentə yazacağam. Bəli, amma indiyə qədər yazmamışam, hafizəm yaxşıdır. Bəli, yazacağam. Ona görə ki Siz o sözləri mənə dəfələrlə demisiniz, bu, bir.

İkincisi, Sizin həmin Mütəllibovun silahlı adamları ilə əlaqəniz məlumdur. Bəli, Əlikram Hümbətov mənim üzümə dedi, Sizi burada Rusiya tanımır, düzdür, belə dedi ki, Surəti tanıyır, Surəti qəbul eləyir. Əsas fikir odur ki, Mütəllibovu qəbul eləyir. Mən bu gün sizə məlumat verdim, Rusiya kimi dövlətə və onun başçılarına böhtan atmaq lazım deyil. Bu məsələ də belədir. Ona görə bu məsələləri Siz özünüz mənə demisiniz, Sizin o adamlarla əlaqəniz də məlumdur, onlar hamısı hər yerdə qeydə alınıb. Bunlar hamısı məlumdur, əgər istəyirsiniz, onlar təhqiqata verilsin, o da verilər, hamısı aydın olacaqdır. Bunlar hamısı məlumdur. Xahiş eləyirəm, burada Siz yenə də camaatı çaşbaş salmayın, Əlikramın Mütəllibovla telefon əlaqələri məlumdur. Mütəllibovun adamlarının Moskvada gedib onunla görüşməsi, Əlikramla görüşməsindən sonra onun yanına getməsi, bunlar məlumdur, bu proseslərdə Siz varsınız, indi Siz özünüz deyə bilərsiniz...

**Yerdən.** (Eşidilmir.)

**Sədrlik edən.** Siz mane olmayın, Rəhim bəy, Siz danışanda mən sözünüzü kəsmədim, bir kəlmə də söz demədim, Siz mənə mane olmayın. Əgər məni, doğrudan da, bir təcrübəli siyasətçi kimi qəbul edirsinizsə, məndə bir məntiqi analiz hissi də var, bu ondan ibarətdir, Sizi biz burada Baş nazirin birinci müavini təyin eləmək istəyirdik, Siz durub şərt qoydunuz ki, Nazirlər Kabinetinin səlahiyyəti yoxdur və səlahiyyət olmayandan sonra mən bu işə getmirəm. Bu, Məclisdə olan söhbətdir, mən Sizə dedim və sonradan da başa saldım ki, Sizə nə dəxli var, Nazirlər Kabinetinin nə səlahiyyəti var, nə səlahiyyəti yoxdur, Siz Baş nazirin müavini təyin olunursunuz, Baş nazir hansı sahəni tapşırsa, Siz o sahəyə rəhbərlik eləyəcəksiniz, bundan artıq Sizə nə səlahiyyət lazımdır. Həmin sözləri Siz dəfələrlə demisiniz, Sizin sözləriniz deyilmi, bunlar stenoqramda yazılıb. Bu nə Baş nazirdir ki, o bir şöbə müdirini qoya bilmir,

həmin sözləri Əlikram Hümbətov deyibdir. Bu sözlər burada yazılıbdır. Amma bu sözləri də Surət Hüseynovun gözünün qabağında Əlikram Hümbətov mənə deyib, nə oldu ki, bu Baş nazir özü öz səlahiyyətlərini müəyyən eləyə bilmir, bunu Rəhim Qazıyev, yaxud Əlikram Hümbətov müəyyən eləməlidir və Sizin sözləriniz deyilmi, bu salonda dediniz ki, fikirləşməliyik, Prezidentin səlahiyyətlərinin bir hissəsini Baş nazirə verməliyik, bir hissəsini kimə verməliyik. Bu Sizin sözləriniz deyilmi, həmin sözləri də Əlikram mənə təkrar eləyirdi. O daha da dərinə getdi, Prezident üsuli-idarəsi, ümumiyyətlə, ləğv olunmalıdır, bütün səlahiyyətləri də Baş nazir Surət Hüseynova verilməlidir. Burada bir məntiqi mənanı analiz eləyirəm, burada başqa bir şey lazım deyil, başqa bir sübut lazım deyil. Mənim nəticə çıxarmağa ixtiyarım var, bu səlahiyyətlər məsələsinin sənə nə dəxli var. Mən nə üçün dünən də, bu gün də dedim, bu, yeni, cavan bir adamdır, Baş nazir təyin olunub, buna böyük etimad göstərilib, mən də ona demişəm ki, bir qardaş kimi sənin bu vəzifədə möhkəmlənməyin, təcrübə toplamağın üçün sənə kömək eləyəcəm. Belə halda nə düşmüsünüz ortalığa, sən bir, Əlikram o biri tərəfdən, Baş nazirin səlahiyyətləri haqqında hay-küy salmısınız. Burada Prezident üsuli-idarəsini ləğv eləmək istəyirsiniz, nə üçün? Bunlar hamısı mənim gözümün qabağında olan şeylərdir, bunlar mənə verilən məlumatlar deyil ki, Siz deyəsiniz, yalan məlumatdır, ya filandır, ya beşməkandır.

Sonra burada danışılan sözlər, Siz deyirsiniz ki, ordunu qurmağa qoymadılar. Kim qoymadı, necə qoymadı, Sizin öz işinizdir, bizim ordu tamamilə dağılıb, müdafiə nazirinin işi sıfır səviyyəsindədir, nə qədər acı olsa da, biz bunu etiraf etməliyik, Siz də uzun müddət müdafiə naziri olmusunuz. Əgər bu Sizin fəaliyyətinizin nəticəsi deyilsə, kimin fəaliyyətinin nəticəsidir, kimin günahıdır? Nə oldu, bunların hamısını özünüz dağıtmısınız, indi başqalarını günahlandırmaq istəyirsiniz.

Sonra mən dedim, bir də Siz burada başlamısınız, filan-beşməkan. Siz kimsiniz ki, bir beş-altı nəfər adam Sizi qoruyur? Mən yenə deyirəm, o səlahiyyətləri Sizə kim veribdir? O adamlar haradan məvacib alır, o qranatlar, o qumbaralar Sizin maşında nədən ötəridir, yaxşı, bunlar ki artıq tutulub, artıq sənədləşibdir, bəlkə, bunu da danacaqsınız. Ona görə də bilirsiniz, mən mübahisəyə girmək istəmirəm, sadəcə olaraq, bunları mən bir də qeyd etmək istəyirəm ki, mənim dediklərimin hamısı həqiqətdir, mən heç kəsə burada şər atmaq istəmirəm.

Mən deyirəm, Rəhim Qazıyevlə də münasibətlərimiz həmişə yaxşı olubdur, heç vaxt onun, ya mənim tərəfimdən pislik olmayıbdır.

Doğrudan da, Rəhim Qazıyev Naxçıvana da gəlibdir, söhbət eləmişik. Nazir vaxtı Naxçıvana gəlibdir. Ancaq mən bir şeyi qeyd etməyə bilmərəm, bir dəfə Rəhim Qazıyev İsgəndər Həmidovla Naxçıvana gəliblər, bəli, Rusiyanın diviziyasını oradan çıxarmışdıq, orada yeni silahlı qüvvələr yaratmışdıq, silahlar alınmışdı, getdik, ordu qarşısında çıxış elədik, Rəhim Qazıyev də, İsgəndər Həmidov da, Fəxrəddin Təhməzov da çıxış elədilər, mən də çıxış elədim. Bunları çox səmimi qarşıladım. İndi təsəvvür eləyin, hər halda, mən özümü böyük bir adam hesab eləmirəm, ancaq mən Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri idim, özü də yaşıma, başqa səbəblərə görə, siz, yəqin ki, bilirsiniz, mən bunları rəhbər şəxslər kimi səmimi qəbul etdim, hörmətli qonaqlar kimi qəbul etdim və qonaq evində axşam yeməyi təşkil etdim. Mən heç vaxt Naxçıvana gələn adamların heç biri ilə bir tikə yemək də yeməmişəm, ancaq bunlara hörmət edərək və Azərbaycanda olan bu qüvvələrlə birləşmək istəyərək bunları qonaq evinə dəvət etdim. Gəldilər, oturdular stol başında, indi bunu mən deməməli idim, ancaq məcburam, özlərini elə apardılar ki – mən onları rəhbər şəxslər, hörmətli qonaqlar kimi qəbul etdim – Heydər Əliyev nədir, burada bunlar ağadırlar. Bu, öz yerində, buna da mən dözdüm, yeməkdir, bunu yeməliyik, çay da içməliyik, yaxşı, xudahafiz, saat 12-də ayrıldıq, sonra nə oldu?

Rəhim bəy, sonra siz mindiniz avtomaşınlara, İsgəndər Həmidov, Naxçıvan Xalq Cəbhəsinin o adamları, nə bilim, "KAMAZ" sürücüsü, filan, beşməkan, orada bəzi adamlar var, indi özlərini qəhrəman hesab eləyirlər, onlarla bir yerdə getdiniz Ordubada, Üstüpi kəndinə, Fərəc Quliyevin evinə. Gecə səhərə qədər orada oturdunuz, necə oldu ki, Üstüpi kəndində kənd həkiminin evi sizin üçün Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin sədri, o cümlədən Heydər Əliyevin məclisindən, demək, əziz oldu, buna da, bəlkə, siz deyəcəksiniz... Gedib səhərə qədər o Fərəc Quliyevlə, o Xalq Cəbhəsinin adamları ilə orada oturdunuz. Nazir kimi gəlmişdiniz, mən Sizi hörmətlə qəbul elədim, hissələrdə görüşünüzü keçirdik, mən demişdim, gəlin, mənə məlumat verin, mən üç saat gəlməyinizi gözlədim, düz üç saat axtardım ki, haradadır, qonaq evindən çıxıbdır, amma bura gəlməyibdir. Siz orada bir "KAMAZ" sürücüsü var, Vəli, adını da qoyublar polkovnik, gedib onun evində oturmuşdunuz, mən də üç saat idi sizi gözləyirdim. O Vəlidir ki, Əbülfəz Elçibəyin mühafizəçisi olubdur, Naxçıvanı da qarışdıran adamlardan, guya Xalq Cəbhəsinin qəhrəmanlarından biridir.

Siz onun evində oturmuşdunuz, sonra belə, xala xətrin qalmasın deyə gəldiniz, beş-altı dəqiqə mənimlə söhbət elədiniz. Sonra sizi kim aparıb yola saldı? Mən Ali Məclis sədrinin müavininə tapşırdım ki, Sizi Baş nazir aparıb yola salsın. Sizi bütün Xalq Cəbhəsinin o dəstəsi, həmin o sürücülər, nə bilim, idman müəllimləri, filanlar, beşməkanlar aparıb təntənə ilə yola saldılar. Bizim dövlət adamları hamısı qaldı kənarda, Siz onlarla görüşürdünüz, bəlkə, bunlar da yalandır? Axı bunlar camaatın gözünün qabağında olan şeylərdir. Ona görə bilirsiniz, mən heç vaxt heç kəsə şər atmamışam və dünən, bu gün də apardığım söhbətlərdən də çox mənəvi əziyyət çəkirəm. Hesab etməyin ki, bunlar hamısı mənim üçün bir insan kimi, həyatının çox hissəsini keçmiş bir insan üçün asan bir məsələdir. Ancaq bunları şəxsi münasibətlərdən ötəri yox, bu respublikanın düşdüyü vəziyyətdən çıxması, hər şeyin durulması, hər şeyin aydın olması üçün demişəm və Sizin, Rəhim bəy, bu çıxışınız da məni məcbur etdi ki, mən bu əlavələri edim, mən bunları etməzdim.

Tahir Əliyev əlini qaldırıb, buyursun. Mən xahiş eləyirəm, bilirsiniz, biz saat 6-da iclası qurtarmalıyıq, çünki mən sizə demişdim, İranın xarici işlər naziri Vilayəti gəlib, onunla görüşməliyik. Mən istəyərdim ki, çıxış eləyən iki-üç dəqiqəyə öz münasibətini bildirsin. Tarixi-Nadir danışmaq lazım deyil.

**Tahir Əliyev.** Heydər müəllim, dünən burada bəzi etika normaları pozulubdur, mən də Etika komissiyasının sədri olduğum üçün, xahiş eləyirəm, mənə bir beş dəqiqə icazə verin.

**Sədrlik edən.** Beş dəqiqədən artıq olmaz.

**Tahir Əliyev.** O birilərinə iki dəqiqə verərsiniz. Bilirsiniz, vaxt az olduğuna görə yerdən replika atmayın. Mən nə demək istəyirəm, bunu Rəhim Qazıyev bilmir, ancaq mən indi deyərəm, o bilər.

Bir dəfə Qubadlı-Laçın istiqamətində əməliyyat aparmışdılar, orada məğlubiyyət olmuşdur, əvvəlcədən də hərbçilər demişdilər ki, orada məğlubiyyət olacaq. Sonra bunu kiminsə üstünə yıxmaqdan ötəri – Əlyar Əliyev rəhmətə getmişdi – burada Prezident Aparatında götürüb Əbülfəz Elçibəyə məruzə eləmişdilər ki, guya Tahir Əliyev və başqa bir deputat orada olublar, təbliğat aparıblar, qoşun geri qayıdıb. Əlyar Əliyev, deməli, orada həlak olmuşdu, onunla mən uzun müddət səngərlərdə vuruşmuşam, onu da Rəhim bilir, xəbəri var, yəqin, başqa deputatlara nisbətən Rəhim bilir ki, bu haqda danışmağa mənim haqqım da var, mənim yerimə başqaları olsaydılar, indi, yəqin, Azərbaycanı

dağıtmışdılar. Nə qədər səngərlərdə, Dağlıq Qarabağda, başqa yerlərdə bir dəfə də olsun mən bunu danışmamışam. Rəhim, sən özün də bilirdin ki, o vaxt, 1989-cu ildə hələ ermənilər istəyirdilər, dəhlizi Qubadlıdan açsınlar, bir nəfər adamı özümdən irəli buraxmırdım. Mən üzr istəyirəm, onda o məğlubiyyəti yıxmışdınız mənimlə... Sizin böyük qardaş idi, mən başa düşmədim ki, kim balaca qardaş idi, İsgəndər Həmidovla səhərdən axşama kimi televiziya sizə xidmət eləyirdi. Rəhim, nahaq gedirsən, əyləş, sən burada lazım olacaqsan, elə söhbətlər var ki, onu bir sən bilirsən, bir də mən. Sən çox nahaq gedirsən, onda, heç olmasa, orada qulaq as, biləsən ki, biz də bəzi şeyləri bilirik. Çox yaxşı oldu ki, Yaqub müəllim də buradadır, Qraçovla arasında olan söhbəti də, yəqin, Yaqub müəllim çıxıb burada danışar.

Onda Əbülfəzə məlumat vermişdilər ki, guya mən gedib orada təbliğat eləmişəm ki, qoşun geri qayıdıb, əslində, Rəhimlə İsgəndərin fırıldaqları idi, Əbülfəz də başladı bunu bir yerdə, iki yerdə deməyə. Mən bunu eşidəndən sonra, düzü, Əbülfəzə zəng elədim, dedim ki, yaxşı, bura bax, sən burada, açığı, olan sözü dedim, sən DTK-ya agentlik eləyəndə, Əlyazmalarında işləyəndə, araq içəndə mən Qubadlıda sərhəd qoruyurdum. İndi sən burada başlamısan məni müzakirə eləməyə. Başladı ki, bəs a bəy – mən, düzü, telefonla ona ayrı söz dedim, dedim, bəyi də belə olsun... Hamısını ona telefonla dedim, çünki bunlar məni boğaza yığmışdılar – axırda mən üzr istəyirəm, Heydər müəllim, bir kəlmə söz deyim, indi, yəqin, televiziyada Kələkidə o da eşidir, indi birbaşa canlı yayım gedir, bəziləri ağaca çıxıb antenanı əyər, əgər qırmayıblarsa, eşitdiyimə görə bəziləri çıxıblar ağaca, ağacdan düşmək də istəmirlər. Mən dedim, Əbülfəz bəy, Siz də güclü bir metod seçmisiniz, artistlərin hamısına əməkdar, xalq artisti adı verirsiniz, bir dəfə Rəhimlə İsgəndərə də xalq artisti adı verin, bununla bütün millət bilsin ki, bunlar xalq artistləridir.

Siz biləsiniz, Rəhimin bugünkü çıxışından sonra mən bir daha inandım ki, bu ən böyük artistlərdən biri idi. Mən özümə bircə şeyi bağışlaya bilmirəm, uzun müddət insan psixologiyası ilə məşğul olmuşam, məndə hissiyyat həddindən artıq güclüdür, yenə də deyirəm, bağışlaya bilmirəm ki, mən Rəhimə inanmışam. Ümumiyyətlə, mən çalışıram, 10 dəqiqədən sonra təxmin edəm, düzgün adamdır, ya dələduz, ancaq Rəhim elə bir dələduzdur, elə hərtərəfli hazırlanmış dələduzdur ki, o nəinki məni, bütün Azərbaycan xalqını aldatdı. Özü də mən bilmirəm, indi Rəhim getdi, düzgün eləmədi, çünki mənim burada faktlarım var. Bura-

da Heydər müəllimdən üzr istədi, böyüksünüz, Siz bağışlaya da, bağışlamaya da bilərsiniz, amma o heç olmasa, şəxsən, məsələn, nə fikirləşir, mən, bu zalda oturan camaat onu bağışladı, yoxsa yox, Azərbaycan xalqı onu bağışladı, yoxsa yox. Gəlin belə artistliyə son qoyaq, buna birdəfəlik son qoyaq.

Deməli, bir həqiqəti başa düşmürəm, uzun müddət onun üstündə fikirləşirəm ki, bu Rəhimdə vəzifə hərisliyi nə qədər güclü imiş, insan olanda nə qədər olarmış ki, talış partiyası yaratmaqdan ötəri aləm qarışsın, nə vaxtdan şəkili talış oldu, mən başa düşə bilmirəm. Sən buradan basa-basa gedib çıxmısan ora, başlamısan şey eləməyə...

**Yerdən.** *(Eşidilmir.)*

**Tahir Əliyev.** Rəhim, bir dəqiqə, sən yerdən replika atma. Heç olmasa, yadında saxla ki, mən səninlə kabinetdə söhbət elədim, sən dedin ki, Tahir, nə cür olur ey, başa düşə bilmirəm, naxçıvanlıdan padşah olur, füzulilidən padşah olur – Vəzirovu nəzərdə tuturdun – şamaxılıdan padşah olur, nə olar, bir dənə padşah, bir Prezident Şəkidən olsun. Ədə, bu sənin sözün deyil? Sən bir dəqiqə dayan, həmişə vicdandan, əqidədən, namusdan danışmısan, bir dəqiqə, mən sənə ayrı faktı deyirəm. Rəhim, bir dəqiqə, otur, sən həmişə deyirdin ki...

**Yerdən.** *(Eşidilmir.)*

**Tahir Əliyev.** Bir dəqiqə, dayan, otur, sən danışanda mən sənə maneçilik törətmədim. Deməli, sən müdafiə naziri olmuşdun, üstündən haradasa 4-5 gün keçmişdi – Yaqub müəllim Allah şahididir, televiziyada bizə baxırlar – Şuşadan 30 nəfərə qədər ağsaqqal gəlmişdi, hamımız gəldik, yığışdıq Şuşanın müdafiəsi ilə əlaqədar Yaqub müəllimin kabinetinə. Yaqub müəllim, bu, yadınızdadırmı, bu fakt, yox.

**Sədrlik edən.** Tahir, şahid gətirmək lazım deyil, xahiş eləyirəm, tez eləyin, qurtarın.

**Tahir Əliyev.** Orada hamımız fikirləşdik ki, Şuşanın müdafiəsi ilə necə məşğul olaq, Rəhim burada həm ağsaqqalların, camaatın, həm Sizin, həm də mənim yanımda dedi ki, Şuşaya görə mən müdafiə naziri oldum, xahiş edirəm, Şuşanın müdafiəsini mənə həvalə eləyin, əgər Şuşa getsə, mən başıma güllə vuracam. Hamı durdu ayağa, kabinetdən çıxdı. İndi Rəhim başlayıb yerdən replika atmağa.

Heydər müəllim, mən xahiş eləyirəm, məndə faktlar çoxdur, Siz dediniz, beş dəqiqə, qoymadınız, mən dəqiqliyi ilə hamısını deyim. Yaqub müəllimə söz verin, görün, Qraçov gələndə nə cür söhbət olub. Qraçov

deyibdir, Rəhim deyir ki, öldü var, döndü yoxdur, mən burada Prezident olacam. Qraçov da deyib ki, mən bilirəm, bunun başı çatmır, bundan Prezident olmaz, heç olmasa, Baş nazirdən, ya bir vəzifədən-zaddan verin, bizdən əl çəksin.

Bilirsiniz, indi mənə vaxt vermirsiniz, danışım. Nəhayət, mən Əlikrama müraciət eləyirəm və mən Surət bəy, sənə çox minnətdaram, ona görə minnətdar deyiləm ki, sən Baş nazirsən. Surət, özün mənim xasiyyətimi bilirsən, ona görə sənə minnətdaram ki, Azərbaycan xalqı bir çuma xəstəliyinə tutulmuşdu, sən başçılıq elədin, oradan xəstəliyi təmizlədik. Mən indi gömrükxanada işləyirəm, görürəm ki, bir ildə onlar nə işlərlə məşğul olublar, əgər belə getsəydi, 6 aydan sonra bu Azərbaycan xalqı qara torpaq yalayacaqdı. Ona görə Sizə hörmətim var və bir daha minnətdarlığımı bildirirəm ki, deyirsiniz, silah gücü ilə yox, gəlin danışıqla o Talıstan məsələsini həll eləyək.

Mən sizə bircə şeyi demək istəyirəm, 1989-cu ildə dəhliz açmaq istəyirdilər, Astara, Lənkəran, Cəlilabad, Masallı, yəqin, bu gün hamısı televizora baxır, inanın ki, hamısı bir nəfər kimi, əlində yaba, təklülə ilə ora tökülüb gəlmişdilər. İnanırsınız, hətta Astarada bir şey olmamışdı, 7 maşın küləş gətirmişdilər, dədə-baba dilində desək, deyirdilər, dağ yeridir də, birdən heyvanların otu olmaz. Onda camaat səngərlərə düzüləndə heç kim bir-birindən soruşmurdu, kim kürddür, kim talışdır, kim nədir. Nə olubdur, qardaş, mən üzr istəyirəm, bu xəstəliyin hamısını gətirib bu vəziyyətə çıxaran Rəhim kimi adamlar, o zonadan olan bəzi adamlardır, qorxurlar ki, bu gün, sabah vəzifədən çıxarsınlar və bəziləri çalışırlar, vəzifəyə keçsinlər və Talıstan məsələsi ilə respublika rəhbərliyini daimi olaraq gərginlikdə saxlasınlar. Əsas məqsəd budur, burada ali riyaziyyatı bilmək lazım deyil, 2 üstəgəl 2, eləyər 4.

**Sədrlik edən.** Yaxşı. Mən istəyirəm, burada yazılanlardan Etibar bəyə müraciət eləyim, istəyirsə, qısa bir çıxış eləsin.

**Etibar Məmmədov.** Heydər müəllim, üzr istəyirəm, sözün düzü, mən heç bu vəziyyətdən sonra çıxış eləmək istəməzdim.

**Sədrlik edən.** Siz yazılmısınız.

**Etibar Məmmədov.** Çox sağ olun ki, çıxış üçün şərait yaratdınız. Ümumiyyətlə, müzakirə olunan məsələ qalıb bir tərəfdə, çox kənar, xüsusən də şəxsiyyətlər əleyhinə olan məsələlərə çox yer verilir. Ona görə Heydər müəllim, bildirmək istəyirəm ki, burada Əlikram Hümbətovun məsələsi ilə məşğul olmalı olan nazirlər çıxış elədilər, ancaq mən heç

birinin çıxışından başa düşmədim, bu iki ay ərzində onlar nə iş görüblər, onlar orada baş verən hadisələri sadaladılar, filan-filan hadisələr baş verib. Axı bu nazirliklərin özlərinin vəzifə borcları var, vacib deyil ki, onlara göstəriş versinlər, siz bu vəzifələri yerinə yetirməlisiniz. Bu iki ay ərzində onlar lazımi tədbirləri görməli idilər və məni təəccübləndirən odur ki, Lənkəranda vəziyyəti düzəltmək üçün buradan göndərilən adamlar orada tamamilə başqa sözlər danışıblar, burada isə tamamilə başqa xarakterli çıxışlar eləyirlər. Həmin adamlardır ki, gedib Əlikram Hümbətovu orada qızışdırmışdılar, necə deyərlər, onu ruhlandırmışdılar, əhalini Əlikram Hümbətovu müdafiə eləməyə çağırmışdılar, indi də gəlib burada tamamilə əksinə olan çıxış eləyirlər.

Ona görə, Heydər müəllim, Əlikram Hümbətov, Sizin dediyiniz kimi, bu hadisələrdə icraçıdır, çox xırda bir adamdır və həmin aysberqin alt hissəsini Siz Lənkəran zonasında, həmin rayonlarda axtarmayın, bu zalda, ətrafınızda, hakimiyyət dairələrində axtarın, burada təşkil ediblər. Onlar da başqa yerlərdən idarə olunur, hadisələr həm Bakıdan idarə olunur, həm də respublikadan kənardan idarə olunur. Bəzilərinin şəxsi, bəzilərinin agentura məqsədləri var, bunların da qarşısını almaq üçün burada, necə deyərlər, talış, kürd, yaxud türk və başqa bir problem qaldırmaq lazım deyil. Azərbaycanın bir çox ərazisində elə vəziyyət yaranıb ki, bəzi rayonlarda iki-üç idarəçilik, iki-üç icra hakimiyyəti mövcuddur, hərəsi rayonun bir hissəsinə ağalıq eləyir. Sabah başqa bir bölgədə, ümumiyyətlə, heç o etnik məsələ qaldırılmadan kimsə özünü bir padşah, ağa, baş komandan və yaxud nə elan eləyə bilər. Ona görə də bu cür hadisələrin bir qiyməti var, bu hadisə etnik məsələ, milli məsələ ilə bağlı deyil, bu, dövlət əleyhinə olan cinayətdir, bunun adını düzgün qoymaq lazımdır. Həmin cinayətə qarşı da ciddi cəza olmalıdır və qəti tədbirlər görülməlidir.

Biz gizləndikcə, burada bu müzakirələri elədikcə mən yenə də üzr istəyirəm, dəfələrlə üzlərinə demişəm ki, siz bir hadisə haqqında, heç olmasa, bir ay, iki ay bundan qabaq etdiyiniz çıxışı, Lənkəranda etdiyiniz çıxışı unutmayın. Mən demirəm ki, hələ 1991-ci ildə Siz bu zalda nələr demişdiniz, bu tribunada kimlər əyləşmişdilər, kimlərə qarşı nələr eləyirdiniz, heç olmasa, biz artıq keçmişə baxmamalıyıq. Biz bu günün haqqında fikirləşməliyik, Heydər Əliyevlə nə eləyək ki, bu dövlətin dağılmasının qarşısını alaq.

Ona görə də burada mənim mövqeyim qətidir, mən şəxsən həm Milli Məclisin üzvü kimi, həm də partiya rəhbəri kimi öz mövqeyimi bildirmişəm, partiyam da öz mövqeyini bildirib. İndi bu partiyaların ləğv

olunmasını təklif eləyən adamlar bu iki ay ərzində nə üçün ağızlarına su alıb durmuşdular, Əlikram Hümbətovu qəhrəman elan eləmişdilər, ancaq həmin dövrdə partiyalar birinci münasibətlərini bildirmişdilər. Sizlər idiniz, bəli, partiyalar münasibət bildirəndə gedib Lənkəranda deyirdiniz ki, partiyalar aranı qarışdırır, xalqı qarşı-qarşıya qoyur. Bəli, burada müxalifət də, iqtidar da olsa, bir amala, dövlətə xidmət etmək lazımdır. Əgər müxalifətdə olan partiya dövlətə xidmət eləyirsə, o, düşmən deyil, ancaq iqtidarda olan adamlar dövləti dağıtmağa xidmət eləyirsə, düşmən onlardır və onlarla mübarizə aparmaq lazımdır. Burada da qəti tədbirlər görülməlidir və Əlikram Hümbətov qanundan kənar, dövlət əleyhinə cinayətkar elan olunmalıdır.

Mən burada bir suala həmin nazirliklərdən cavab istəyərdim, necə olub, dövlət strukturlarında işləyən adamlar, polis rəisləri Əlikram Hümbətovun göstərişlərini yerinə yetirirlər, bu nə dövlətdir, nə nazirlikdir? Həmin adamlara qarşı indiyə qədər nə tədbirlər görülüb? Əgər onlar bilsəydilər ki, həmin hərəkətlərinə, dövlətə, partiyalara yox, həmin özbaşınalara xidmət eləməklərinə görə nə cür məsuliyyət daşıyırlar, cəza alacaqlar, onlar o hərəkəti eləməzdilər. Onlar həmin hərəkətlərinə, ondan istifadə etdiklərinə görə nə isə başqa şeylərə ümid eləyirlər. Ona görə də qəti tədbirlər görülməlidir. Bu təkcə polislərə, Milli Təhlükəsizlik Nazirliyinin şöbəsinə, nə bilim, prokurorluğa aid deyil, bütün dövlət strukturlarına aiddir.

Əlikram Hümbətov həmin zonada hakimiyyəti ələ keçirmiş cinayətkardır, buradan da göstəriş verilməlidir ki, ona tabe olunmasın. Ona bir həftə də yox, üç gün vaxt qoyulmalıdır ki, birdəfəlik bu məsələlərə son qoysun, son qoymasa, ona qarşı tədbir görülməlidir. Mənim təklifim bundan ibarətdir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Beş dəqiqə.

**Afiyəddin Cəlilov,** ***Ali Sovet sədrinin müavini.*** Möhtərəm sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Mən çıxış eləmək niyyətində deyiləm, amma Laçının el ağsaqqalı Muradxan müəllim burada mənim adımı çəkdi, istəyirdim, bununla əlaqədar olaraq Milli Məclisə bir sıra aydınlıqlar təqdim eləyim. Mən çıxış eləyirəmsə, cənub bölgəsində olan hadisələrə də öz münasibətimi bildirmək istəyirəm və burada Qusarla əlaqədar olaraq fikirlər irəli sürüldü, mənim adım çəkildi, mən istəyirdim, Qusarda olan vəziyyəti də Milli Məclisə çatdırım.

Birincisi, Azərbaycan Respublikasındakı indiki siyasi, iqtisadi, hərbi böhran vəziyyəti, xəyanət və satqınlıq, separatçılıq meyilləri respublikanı faciə astanasına gətirib çıxarmışdır. Bu faciənin siyasi mənzərəsi bizim Ali Sovetin sədri Heydər Əliyev tərəfindən cəsarətlə xalqımız, Azərbaycanımız, haqq və ədalət naminə əsl vətəndaşlıq mövqeyindən prinsipial, geniş açıqlandı. Bu açıqlamadan və Milli Məclisdə təklif olunan faktlardan belə bir məntiq irəli gəlir ki – bu da həqiqətdir – bu faciənin müəllifləri və icraçısı Əlikram Hümbətov və onun ətrafında olan terrorçu, qiyamçı dəstələr və bunların ilhamçısı Milli Məclisin üzvü Rəhim Qazıyevdir. Bununla əlaqədar Azərbaycan Respublikasının Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət, orada Əlikram Hümbətov, terrorçu, qiyamçı dəstələr tərəfindən törədilmiş özbaşınalıq, hərc-mərclik, qanunsuz həbslər, vahimə, qaragüruh, qeyri-qanuni iclaslarda qondarma Talış-Muğan Respublikası iddiası irəli sürmə, ağılsız, heç bir məntiqi, hüquqi, siyasi, iqtisadi, ictimai əsası olmadan Azərbaycan qanunlarının tapdalanması, Azərbaycanın Konstitusiyasının kobudcasına pozulması Azərbaycanın suverenliyinə, vahidliyinə, ərazi bütövlüyünə edilən qəsddir, xəyanətdir və bu, cinayət kimi qiymətləndirilməlidir. Bunlar natəmiz, çirkin siyasi oyunbazdırlar və hakimiyyət davası aparırlar.

Bütün bu hadisələr tək Əlikram, Rəhim Qazıyev yox, mən bunu qətiyyətlə demək istəyirəm, Bakıda, Lənkəranda, Lerikdə, adları çəkilən digər rayonlarda və respublikada yüksək dövlət vəzifələri tutan şəxslər tərəfindən dəstəklənir. Əlbəttə, bunların hamısı inzibati orqanlar tərəfindən açıqlanacaqdır və belə bir qənaətə gəlməyə Lənkəranda və digər rayonlarda yaranmış real şərait imkan verir. Burada Lerikin icra başçısı çıxış etdi. Mən də bu sualları bu gün Milli Məclis qarşısında və bir deputat kimi, inzibati orqanlar qarşısında qoymaq istəyirəm. Kimlər bu ordunu maliyyələşdirir? Kimlər Bakıdan onlara sursat, yanacaq göndərir? Kimlər onları ilhamlandırır? Kimlər bu gün Əlikram tərəfindən respublika rəhbərliyi qarşısında kadr iddiaları ilə sosial məsələlər qaldırır və bununla, siyasi möhtəkirliklə məşğuldurlar.

Heydər müəllim, bu adamların hamısı Sizin yanınızda olub. Bu adamlar Sizdən Əlikrama söz aparıb, Əlikramdan Sizə söz gətiriblər və mənə belə gəlir, burada çıxışlarda səslənən məntiq ondan ibarətdir ki, bəli, bu zalda da və respublikanın ayrı-ayrı rəhbər vəzifələrində də olan şəxslər bu hərəkatı ilhamlandırıblar. Buna real sübut ondan ibarətdir ki, biz Azərbaycanın bir sıra nazirlərini, dövlət işçilərini bu zala dəvət etmişik, onlar

bu zalda iştirak etmirlər. Dünən bu zalda 5 dəqiqə göründülər və bu zalı tərk etdilər. Əlikram sindromundan istifadə etmək naminə bunlar dəfələrlə, saatlarla Sizin qəbul otaqlarında oturmuşdular və indi də otururlar. Burada durub öz mövqelərini demirlər. Mən belə vəziyyətlə razılaşa bilmirəm. Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, Əlikram Hümbətovun millətçi hərəkətlərini, onun qiyamçılığını həmin zonadan olan respublika Ali Sovetinin bəzi deputatları, yuxarı vəzifədə olan ayrı-ayrı şəxslər, bir sıra rayon sovetlərinin deputatları qətiyyətlə pisləməmişlər. Bəziləri isə onlara rəğbət bəsləmiş və onlara havadarlıq etmişlər.

Rəhim Qazıyevlə əlaqədar olaraq mən də öz mülahizəmi qeyd etmək istəyirəm. Çünki Muradxan müəllim burada belə bir fikir söylədi, bu, həqiqət idi, ayın 7-dən 8-nə keçən gecə mən köməkçim Yusif Hüseynovla – o da Şəkidəndir – Prezident Aparatında xeyli yubandıq və saat 1-2 radələrində bizə Laçından, Ağdamdan məlumatlar gəldi ki, Şuşa işğal olunub. Mən dərhal Rəhim Qazıyevə zəng etdim. Rəhim Qazıyev mənim telefon zəngimə qeyri-adi bir cavab verdi ki, belə bir hal ola bilməz, Müdafiə Nazirliyində belə bir məlumat yoxdur. Mən vaxtı çox almaq istəmirəm. O vaxt Tahir Əliyev daxili işlər naziri vəzifəsini icra edirdi, Turşsuda idi.

Burada yoldaşların adı çəkildi, mən də mərhum Nofəl Kərimovun adını çəkmək istəyirəm. Prezident Aparatına o vaxt həqiqi məlumatı çatdıran, Allah rəhmət eləsin, doğrudan da, Nofəl Kərimov oldu. Mənim xatirimdədir, Nofəl Kərimov birmənalı dedi ki – burasını rusca deyəcəyəm – армяне во весь рост вошли в Шушу.

Mən yenidən Rəhim Qazıyevə zəng etdim. O mənə söz verdi və dedi ki, mən bu dəqiqə araşdıraram. Əgər belə bir hal varsa, mən bu dəqiqə, dərhal Yevlaxa gedərəm və əgər bu təsdiq olunarsa, mən bilirəm, Yevlaxda özümlə nə edərəm. Mən bu hadisələri daha təfsilatı ilə demək istərdim. Amma güman edirəm ki, buna ehtiyac yoxdur. Çünki Şuşa, Xocalı, Kəlbəcər, Laçın faciələri Milli Məclisdə mütləq müzakirə olunmalıdır və biz də bu faciələrin haradasa, necə deyərlər, canlı müşahidəçisi kimi, Bakıdan öz qiymətlərimizi verərik.

Amma bir faktı qeyd etmək istərdim ki, burada dünən şərəf, vicdan sözləri işləndi və şərəfsizlik, vicdansızlıq, tərbiyəsizlik nümunəsi göstərildi. Mən belə hesab edirəm ki, bizim sədrin ünvanına yönəldilmiş sözlər bütün Milli Məclisin üzvlərinə yönəldilib və Milli Məclis bu gün çox prinsipial qiymət verməlidir.

Heydər müəllim, Sizin nəzərinizə ikinci bir məsələni çatdırmaq istəyirəm. Bu, Azərbaycan–Ermənistan danışıqları idi. Burada təxribatlardan söz gedirdi. Siz bilirsiniz ki, bu danışıqların bir hissəsini mən aparırdım. Mən inzibati orqanlardan xahiş edərdim, dünən burada çıxış edən Zəngilan Rayon İcra Hakimiyyətinin sabiq başçısı Telmanı dəvət etsinlər. O vaxt dekabrın 3-də Naxçıvan Ali Sovetinin sədri Heydər Əliyevin cəhdləri ilə İran İslam Respublikası, Ermənistan və Azərbaycan tərəfləri ilə danışaraq Zəngilanda əmin-amanlığı və sülhü bərqərar edib. Naxçıvana dəmir yolunun açılmasının həlli zamanı Zəngilanın Kolluqışlaq kəndi naməlum hərbi hissələr tərəfindən yandırıldı, qanlar töküldü, evlər dağıdıldı və bununla da həmin danışıqlar baş tutmadı. Mən Bakıya qayıdarkən dərhal Azərbaycan Prezidenti Elçibəyin yanına getdim, həmin gün Dövlət Müdafiə Komitəsinin iclası idi. Mən iclasın sonuna çatdım. Rəhim bəy Qazıyev o vaxt müdafiə naziri idi və bu faktları böyük narazılıqla qeyd etdim. Mənə izah etdilər ki, bu danışıqlar heç cür baş tutmayacaqdır və bunların başqa niyyətləri var. Naxçıvana guya İran tərəfindən neft borusu çəkiləcək, Naxçıvana benzin, yanacaq veriləcək və sair. O hadisəni də bunlar özləri təhqiqat edərlər.

Bu günə qədər o hadisə təhqiq olunmayıb, Zəngilanın Şayıflı və Kolluqışlaq kəndlərinin faciəsi kimin vicdanı üzərindədir, o da vicdanı qarşısında əzab çəkməlidir.

Bir-iki kəlmə Qusar haqqında. Heydər müəllim, Sizə çatdırmaq istəyirəm, Qusarda yaşayan əhalinin 99,9 faizi Azərbaycan Ali Sovetinin sədri Heydər Əliyevin siyasətini bəyənir, alqışlayır, dəstəkləyir və məndən xahiş etmişdilər ki, bunu Milli Məclisə və şəxsən Sizə də çatdıram. Heydər müəllim, mən Qusarda yaranmış gərgin vəziyyəti Sizə məruzə etdim. Bu heç də belə deyildi. Bəli, orada ziyalıların toplantısı nəzərdə tutulmuşdu. Bunu qızardıb-bozartmışdılar. Orada bu işlərə rəhbərlik edən Fəxrəddin Aydayev, dünən Siz adını çəkdiyiniz İlham Murtuzayev, bunlar Qusar cəmiyyətinin çox təkəbbürlü ziyalılarıdır. Bunlar o təxribatlara özləri yol verməz. Burada da, düzdür, Talış-Muğan problemi ilə istəyirdilər ki, bir ləzgi sindromu yaratsınlar, amma buna yol verilmədi. Mən burada Sizin tərəfinizdən irəli sürülən fikirləri tam təsdiqləyirəm və müdafiə edirəm ki, bəli, Zeynəddin Kələbiyevlə Rəhim Qazıyevin birbaşa əlaqəsi var idi. Burada Nizami Süleymanov çıxış edərək qeyd etdi – mən onu da təsdiq edirəm – bütün Qusar xalqı təsdiq edir ki, 26 avqustda Qusarda kiçik bir qiyamçılıq meyli, atəş olmuşdu, böyük narazılıq yaranmışdı. Sentyabrın 3-də Zeynəddin Kələbiyev Qusar rayonuna icra

başçısı qoyulmuşdu. Çatdırmaq istəyirəm ki, Zeynəddin Kələbiyev vəzifədən azad olunub və Qusarın rəhbərliyi möhkəmləndirilib.

Heydər müəllim, Rəhim Qazıyevlə əlaqədar öz fikrimi demək istəyirəm ki, mən onun çıxışına diqqətlə qulaq asdım. Qeyri-səmimi çıxış idi, mən də verilən təkliflərlə razıyam və özüm də bu təklifi verirəm, Rəhim Qazıyev Milli Məclisdə qala bilməz. Sağ olun.

**Sədrlik edən.** Tabloda yazılan şəxslər görsənir. Mən üzr istəyirəm, güman edirəm ki, biz məsələni həddən artıq geniş müzakirə etdik. Şübhəsiz ki, çıxış etmək istəyən Məclis üzvləri də öz sözlərini deyə bilərdilər, ancaq məsələ tam aydındır. Ona görə təklif edirəm ki, artıq bu məsələnin müzakirəsi, yəni çıxışlar kəsilsin.

Yazılan şəxslərdən narazı olan adam yoxdur ki? Xarici qonaq gəlib, biz onunla görüşməliyik, biz bu gecə işləməliyik, sabah da işləməliyik. Əsas məsələ aydındır. Ona görə də, xahiş edirəm, gəlin razı olun ki, bu çıxışları kəsək. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda təklif var ki, qərar layihəsi oxunsun. Kim oxuyacaq?

**Yerdən.** *(Eşidilmir.)*

**Afiyəddin Cəlilov.** Milli Məclis tərəfindən seçilmiş redaksiya komissiyası sizin nəzərinizə Azərbaycan Respublikasının Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət haqqında Azərbaycan Respublikası Milli Məclisi qərarının layihəsini təqdim edir.

**Sədrlik edən.** Əsas kimi qəbul oluna bilərmi?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda, xahiş edirəm, münasibətinizi bildirəsiniz. Buyurun.

***(Səsvermə)***

Əsasən qəbul edildi.

İndi kiminsə düzəlişləri, qeydləri varsa, buyursun. Tofiq Qasımov buyursun.

**Tofiq Qasımov.** Bu qərar hissəsində mütləq Əlikram Hümbətovun özü, onun silahlı dəstələri qanundan kənar elan edilməlidir. Onun qəbul elədiyi qərarlar isə hamısı Konstitusiyaya və qanunçuluğa zidd olduğuna görə hüquqi qüvvəsi olmayan hesab edilməlidir.

**Sədrlik edən.** Bilirsiniz, Tofiq müəllim, biz əgər ümumiyyətlə, bunu tanımırıqsa, onun qəbul etdiyi qərarlar da avtomatik olaraq qəbul olunmur, ona ehtiyac yoxdur. Əgər biz yazsaq, onun qəbul etdiyi qərarlar qanundan kənar olsun, onda belə çıxır ki, onun qərar qəbul etməyə ixtiyarı var. Biz bu qərarımızda göstərməliyik ki, onun heç bir qərar qəbul etməyə ixtiyarı yoxdur. Beləliklə də o qərarların heç birisi qəbul oluna bilməz.

**Tofiq Qasımov.** Bilirsiniz, Heydər bəy, qanunsuz elan etməyin, yaxud tanımamağın rəsmi yolu budur. İstəyirsiniz, onu bizim hüquqşünaslara tapşırın, onlar məşğul olsunlar. Biz vaxtilə Dağlıq Qarabağ Respublikasının elan edilməyini Konstitusiyaya zidd elan elədik, yəni o qərarları rəsmi şəkildə ləğv elədik. Sonra heç kim bundan istifadə eləməsin.

**Sədrlik edən.** O tamam başqa məsələ idi, bu o şəkildə deyil. Ay balam, bu, ayrı-ayrı adamların əlində oyuncaq bir şeydir.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Biz hüquqşünaslarla bunu dəqiqləşdirərik.

**Tofiq Qasımov.** Sonra məhkəmənin qərarı olmadan heç kimi cinayətkar eləməyə bizim ixtiyarımız yoxdur. Burada, qərarda Rəhim Qazıyev filan-filan cinayət işlərini görüb söhbətləri var. Mən hesab edirəm ki, onlar oradan çıxarılsın. Kifayətdir ki, istintaq orqanlarına tapşırılır ki, bu işlə bağlı təhqiqat aparsınlar, əgər cinayət olduğu təsdiq olunarsa, sonra həll eləmək olar.

**Afiyəddin Cəlilov.** Hörmətli Tofiq müəllim, burada heç bir şəxs barədə "cinayət" sözü yazılmayıb. Fakta, hadisəyə cinayət deyilib. Burada "cinayət məsuliyyəti" ifadəsi gedib.

**Tofiq Qasımov.** Sonra burada dəqiq olmayan bir neçə ifadə vardır. Misal üçün, yazılıb ki, Əlikram Hümbətov vəzifə səlahiyyətlərini aşaraq, onun vəzifəsi yoxdur.

**Sədrlik edən.** Tamamilə düz deyirsiniz, onun heç bir vəzifəsi yoxdur.

**Tofiq Qasımov.** Sonra burada millətçi kimi qeyd olunub, əslində, bu, millət məsələsi deyil, separatçı kimi yazılmalıdır.

**Sədrlik edən.** Onu da düz deyir. Bu təkliflər haqlı təkliflərdir.

Firudin Cəlilov, buyurun.

**Firudin Cəlilov.** Mənim deyəcəklərimi təxminən Tofiq Qasımov dedi, ona görə mən sözümü geri götürürəm.

**Sədrlik edən.** Yaxşı.

Mirmahmud Fəttayev, buyurun.

**Mirmahmud Fəttayev.** Heydər bəy, mən, sözün düzü, həmin qərar layihəsini redaktə eləməyə özümdə mənəvi haqq tapmıram, ona görə ki sözlərimi deməmişəm, amma istər-istəməz səs verdiyim üçün, təbii, münasibətimi bildirməliyəm. Birinci cümlədə hərbi-siyasi vəziyyətdən istifadə edərək getməməlidir, hərbi-siyasi vəziyyəti bu işi təşkil eləyənlər özləri yaradıblar. O cür getməlidir.

İkincisi, giriş hissədə belə bir ifadə gedib ki, onlar vali seçkiləri keçirməkdən ötrü yığıncaq keçiriblər. Burada 140 deputat var, filan, filan səlahiyyətləri yoxdur, biz buna qanuni don geydiririk.

**Sədrlik edən.** Bu da doğrudur.

**Mirmahmud Fəttayev.** Sonra burada həm 3-cü bəndin sonunda, həm də başlanğıcda milli təhlükəsizlik nazirinə, daxili işlər nazirinə, Baş Prokurorluğa tapşırılmaq söhbətləri, bir az aydınlıq yaradılmalıdır, konkretlik olmalıdır.

**Sədrlik edən.** Bilirsiniz, Mirmahmud müəllim, onlara konkret deyək ki, bunu belə eləyin, ola bilməz. Onlar səlahiyyətli nazirliklərdir. Onlara tapşırılır ki, qanun çərçivəsində lazımi tədbirlər görsünlər.

**Mirmahmud Fəttayev.** 6-cı bənddə isə dəqiqləşdirmə aparılmalıdır. Konkretlik olmalıdır.

**Sədrlik edən.** Oldu.

Mürşüd Məmmədov buyursun.

**Mürşüd Məmmədov.** Hörmətli sədr, bu qərarda Talış-Muğan Respublikası gedir. Belə çıxır ki, biz Talış-Muğan Respublikası deyilən qondarma qurumu tanıyırıq. Yazılırsa, heç olmasa, orada göstərilsin ki, Talış-Muğan Respublikası deyilən qondarma qurum.

**Sədrlik edən.** Güman edirəm ki, o məsələlər dəqiqləşdirilməlidir. Siz düz deyirsiniz.

**Afiyəddin Cəlilov.** Üzr istəyirəm, Talış-Muğan Respublikasının qabağında qondarma gedib, üzdəniraq.

**Sədrlik edən.** Hər halda, bu, dəqiqləşdirilməlidir.

**Mürşüd Məmmədov.** Belə bir bənd əlavə olunsun, Əlikram Hümbətovun separatçılıq hərəkətlərinin 1991-ci il 18 oktyabr Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktına kökündən zidd olması qeyd edilsin.

**Sədrlik edən**. Yaxşı.

Hacıbaba Əzimov buyursun.

**Hacıbaba Əzimov.** Heydər müəllim, Mürşüd müəllim də onu dedi, amma cavab oldu ki, guya qondarma sözü ilə məsələ həll olunur. Belə deyil, mən dəqiq fikir verdim, orada yazılır ki, Talış-Muğan Respublikası yaratmaqla, belə demək olmaz. Yazmaq lazımdır, özbaşına Talış-Muğan Respublikası elan etməklə. Bu daha dəqiq olar.

**Sədrlik edən.** Bəli, Siz doğru deyirsiniz.

**Hacıbaba Əzimov.** Sonra preambula hissəsində yazılıb ki, müəyyən deputatlar, vəzifə sahibləri və sair bu məsələdə biganə mövqe tutur, bəzən də şirnikdiriblər, rəvac veriblər. Mən buna etiraz eləmirəm. Bəlkə də burada həqiqət var. Amma bir məsələ var ki, əhali qətiyyətlə bunun əleyhinə olub, bu məsələ burada öz əksini tapmayıb. Çünki belə çıxmasın ki, əhali hamısı biganədir. Xalqın rəyini hökmən orada göstərmək lazımdır.

**Afiyəddin Cəlilov.** Bir dəqiqə, bağışlayın, bu nə deməkdir, xalqın iradəsinə zidd?

**Sədrlik edən.** Genişləndirmək lazımdır, doğru deyir.

**Hacıbaba Əzimov.** Birinci, orada yazılmalıdır ki, əhali, o cümlədən talış xalqı bunu qətiyyətlə pisləmişdir. Orada bu fikir olmalıdır.

İkincisi, Lənkəranda olan bütün siyasi partiyalar və ictimai təşkilatlar bu məsələni müzakirə etmiş, qətiyyətlə bunun əleyhinə çıxış etmiş və bu barədə bəyanatlar vermişlər. Çünki belə çıxmasın ki...

Həm də, Heydər müəllim, bu gün qəzetdə çıxıb, Lənkəran ictimaiyyətinin, alimlərinin, bir sıra vəzifə sahiblərinin müraciəti çap olunub. O müraciət də orada qeyd olunsun.

**Sədrlik edən.** Yaxşı. Bu da nəzərə alınsın.

Etibar Məmmədov, buyurun.

**Etibar Məmmədov.** Deməli, oradakı hərbi hissəyə aid olan bənddə göstərilir ki, orada yaradılmış qeyri-qanuni hərbi birləşmələr Müdafiə Nazirliyinin tabeliyində olsun. Əslində, onlar Müdafiə Nazirliyinə tabe olan, onun tərkibində olan hissələrdir. Burada göstərilməlidir, Müdafiə Nazirliyinə tapşırılsın ki, onların tabeçiliyini – yəni Əlikram Hümbətov onların komandanlığını qeyri-qanuni olaraq ələ keçirib – təmin etsin və yaxud təmin etmək üzrə qəti tədbirlər görsün.

İkincisi, bu qərarda həmin hərbi hissənin şəxsi heyətinə bildirilməlidir ki, onların Əlikram Hümbətova tabeçiliyi vətənə xəyanət

kimi qiymətləndirilə bilər və onlar bundan nəticə çıxarıb tabeçilikdən çıxmalıdırlar.

Sonra bir də orada Daxili İşlər Nazirliyinə və başqa nazirliklərə tapşırılır ki, insan hüquqlarının müdafiəsi, başqa məsələlər üzrə tədbirlər görsünlər. Mənim fikrimcə, orada əlavə olunmalıdır ki, dövlət hakimiyyətinin bərpa olunması üzrə qəti tədbirlər görməlidirlər.

**Sədrlik edən.** Bu təkliflər də nəzərə alınmalıdır. Beləliklə, gəlin bu təkliflər, bu qeydlər hamısı nəzərə alınaraq bütövlükdə qəbul eləyək və icazə verin, biz bu təkliflərin sənəddə əks olunmasını təmin eləyək. Etiraz yoxdur ki?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ola bilər. Doğrudan da, bu "talış eqoizmi" ifadəsi düz deyil, bu, ayrı-ayrı adamların eqoizmidir, talış eqoizmi deyil. Bu da doğrudur.

Onda izin verin, mən bunu əlavələrlə, qeydlərlə, bütövlükdə səsə qoyum. Xahiş edirəm, münasibətinizi bildirəsiniz.

***(Səsvermə)***

Qəbul edildi.

İcazə verin, bununla bugünkü iclası bitirək, qalan məsələlərə sabah mümkün olmayacaq, yəqin ki, birisi gün baxa bilərik. Sağ olun.

# FOTOŞƏKİLLƏRƏ DAİR İZAHLAR

**1-2.** Heydər Əliyev Milli Məclisin iclasına sədrlik edir.
**3.** Azərbaycanda akkreditə olunmuş səfirlər Heydər Əliyevin qəbulunda.
**4.** Təzəpir məscidində din xadimləri ilə görüş.
**5.** ABŞ-da yaşayan azərbaycanlılarla görüş.
**6.** Türkiyə müşahidəçiləri ilə görüşdə.
**7.** Almaniya Bankının İdarə Heyətinin üzvləri ilə görüş.
**8.** ATƏM-in (indiki ATƏT) nümayəndəsi Heydər Əliyevin qəbulunda.
**9.** Xarici ölkələrinin nümayəndə heyətləri Heydər Əliyevin qəbulunda.
**10.** Heydər Əliyev məsciddə.
**11.** Almaniya Bundestaqının deputatları ilə görüş.
**12.** Heydər Əliyev Milli Məclisin iclasında səsləndirilən fikirlərə münasibət bildirərkən.
**13.** ABŞ nümayəndə heyəti ilə görüş.
**14.** Gürcüstan Baş nazirinin birinci müavini Avtandil Marqnanini ilə görüş.
**15.** ABŞ Dövlət Katibinin xüsusi elçisi ilə görüş.
**16-17.** Heydər Əliyev Ali Sovetin sədri vəzifəsində.
**18.** ATƏM (indiki ATƏT) nümayəndəsi Mario Monti Heydər Əliyevin qəbulunda.
**19.** Heydər Əliyev brifinqdə.
**20.** ABŞ-ın ölkəmizdəki səfiri Riçard Mayls Heydər Əliyevin qəbulunda.
**21.** Heydər Əliyevin Türkiyənin xarici işlər naziri Hikmət Çətinlə görüşü.
**22.** Rusiyanın ölkəmizdəki səfiri Valter Şoniya Heydər Əliyevin qəbulunda.
**23.** Bolqarıstan nümayəndə heyəti Heydər Əliyevin qəbulunda.

**24.** İranın ölkəmizdəki səfiri Əli Əsğər Nəhavəndian Heydər Əliyevin qəbulunda.

**25.** Böyük Britaniyanın Rusiya və Azərbaycandakı səfiri Brayan Foll Heydər Əliyevin qəbulunda.

**26.** Xarici ölkə nümayəndələri ilə görüş.

**27.** Xüsusi tapşırıqlar üzrə səfir, Dağlıq Qarabağda vəziyyətin dincliklə nizama salınması üzrə Rusiyanın vasitəçi nümayəndə heyətinin rəhbəri Vladimir Kazimirov Heydər Əliyevin qəbulunda.

**28.** Fransa səfiri Heydər Əliyevin qəbulunda.

# MÜNDƏRİCAT

Stenoqramlar ........ 9

*27 iyul 1993-cü il* ........ *11*

*28 iyul 1993-cü il* ........ *103*

*29 iyul 1993-cü il* ........ *192*

*16 avqust 1993-cü il* ........ *253*

*17 avqust 1993-cü il* ........ *352*

Fotoşəkillərə dair izahlar ........ 449

**HEYDƏR ƏLİYEV –**
**ALİ SOVETİN SƏDRİ**
*3 clddə*

**II cild**
Bakı – 2023

*Kitabın hazırlanmasında iştirak edənlər:*
**Fərid Hacıyev, Teymur Tağıyev, Hafiz Babayev, Ceyhun Quliyev, Hafizə Abdullayeva, Lətif Babayev, İlahiyyə Əliyeva, Nəzrin Əliyeva, Nuranə İmanova, Cəmil Musayev, Mübariz Əsgərov, Aytən Qurbanlı, Sevda Süleymanova**

*Korrektorlar:*
**Nigar İsmayılova, Gövhər Hüseynova, Şəhla Mustafayeva**

*Kitab Milli Məclisin arxiv materialları əsasında hazırlanmışdır.*

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN NƏŞRİ

Çapa imzalanmışdır: 17.03.2023
Format: 70x100
Fiziki çap vərəqi: 29,50
Sifariş: 518
Tiraj: 1000

"Azərbaycan Nəşriyyatı" MMC-də tərtib edilmiş
və nəşriyyatın mətbəəsində çap olunmuşdur.
AZ1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə.
Telefon: (+994 12) 538 00 10; Faks: (+994 12) 538 00 55
E-mail: info@neshriyyat.gov.az